**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ (UNEC)**

**MÜZƏFFƏR MƏMMƏDOV, AYTAC HACIYEVA**

# D Ü N Y A
# İQTİSADİYYATI

**(Ali məktəblərdə distant təhsil üçün dərs vəsaiti)**

Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) Elmi Şurasının 27 yanvar 2023-cü il tarixli (EŞ №186) qərarı ilə nəşr edilir.

**B A K I - 2 0 2 3**

**Elmi redaktoru:** i.e.d., prof. **Quliyev M.Y.**

**Rəyçilər:** Bakı Dövlət Universitetinin "Dünya iqtisadiyyatı" kafedrasının müdiri, i.e.d., prof. **H.B.Rüstəmbəyov**

i.e.d., prof. **İ.A.Kərimli**

**Məmmədov M., Hacıyeva A. Dünya iqtisadiyyatı. (Ali məktəblərdə distant təhsil üçün dərs vəsaiti).**

**İqtisad Universiteti Nəşriyyatı (UNEC) – 2023. - 358 səh.**

**© Məmmədov M., Hacıyeva A. - 2023**

**© İqtisad Universiteti Nəşriyyatı (UNEC) – 2023**

# MÜNDƏRİCAT


ÖN SÖZ........................................................................................................ 6

MÖVZU 1. DÜNYA İQTİSADİYYATININ MAHİYYƏTİ, STRUKTURU, MƏQSƏDİ VƏ VƏZİFƏLƏRİ.................. 9

MÖVZU 2. DÜNYA İQTİSADİYYATININ YARANMASI, FORMALAŞMASI VƏ İNKİŞAFI MƏRHƏLƏLƏRİ...... 32

MÖVZU 3. DÜNYA İQTİSADİYYATI NƏZƏRİYYƏLƏRİ............... 41

MÖVZU 4. DÜNYA ÖLKƏLƏRİNİN TƏSNİFATI VƏ DÜNYA İQTİSADİYYATININ QLOBAL PROBLEMLƏRİ.......... 51

MÖVZU 5. DÜNYA İQTİSADİYYATININ RESURSLARI............... 81

MÖVZU 6. DÜNYA İQTİSADİYYATINDA ƏHALİ, ƏMƏK BAZARI VƏ İŞÇİ QÜVVƏSİNİN BEYNƏLXALQ MİQRASİYASI.................................................................. 109

MÖVZU 7. DÜNYA AQRAR İSTEHSALI........................................... 138

MÖVZU 8. DÜNYA SƏNAYE İSTEHSALI........................................... 163

MÖVZU 9. DÜNYA XİDMƏTLƏR İSTEHSALI................................. 193

MÖVZU 10. DÜNYA İQTİSADİYYATINDA NƏQLİYYAT VƏ KOMMUNİKASİYA SİSTEMLƏRİ................................ 204

MÖVZU 11. BEYNƏLXALQ TİCARƏT............................................... 224

MÖVZU 12. DÜNYA BAZARI............................................................... 250

MÖVZU 13. DÜNYA İQTİSADİYYATINDA BEYNƏLXALQ İNVESTİSİYALAR............................................................ 276

MÖVZU 14. DÜNYA İQTİSADİYYATINDA TRANSMİLLİLƏŞMƏ VƏ İNTEQRASİYA PROSESLƏRİ................................. 296

MÖVZU 15. AZƏRBAYCAN DÜNYA İQTİSADİYYATI SİSTEMİNDƏ.................................................................. 331

## İXTİSARLARIN SİYAHISI

ARDNF – Azərbaycan Respublikası Dövlət Neft Fondu
ABŞ – Amerika Birləşmiş Ştatları
AİI – Avrasiya İqtisadi İttifaqı
AB – Avropa Birliyi
Aİ – Avropa İttifaqı
AİZ – Azad İqtisadi Zona
BVF – Beynəlxalq Valyuta Fondu
BEA – Beynəlxalq Enerji Agentliyi
BMT – Birləşmiş Millətlər Təşkilatı
BƏB – Beynəlxalq Əmək Bölgüsü
BT – Beynəlxalq Təşkilatlar
BİM – Beynəlxalq İqtisadi Münasibətlər
BİT – Beynəlxalq İqtisadi Təşkilatlar
BTC – Bakı-Tbilisi-Ceyhan
BTƏ – Bakı-Tbilisi-Ərzurum
BTQ – Bakı-Tbilisi-Qars
Dİ – Dünya İqtisadiyyatı
DB – Dünya Bankı
DTT – Dünya Ticarət Təşkilatı
QATT – Tariflər və Ticarət üzrə Baş Saziş
QHT – Qeyri-Hökumət Təşkilatı
ECOSOS – İqtisadi və Sosial Şura
TTİP – Transatlantik Ticarət və İnvestisiya Əməkdaşlığı
İƏT – İqtisadi Əməkdaşlıq Təşkilatı
İSƏT – İslam Əməkdaşlığı Təşkilatı
İKT – İnformasiya Kommunikasiya Texnologiyaları
İEÖ – İnkişaf Etmiş Ölkələr
İEOÖ – İnkişaf Etməkdə Olan Ölkələr
İƏİT – İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı
SSRİ – Sovet Sosialist Respublikalar İttifaqı
ÜDM – Ümumi Daxili Məhsul
ÜFK – Ümumdünya Faktlar Kitabı
FES – Federal Ehtiyat Sistemi
HBT – Hökumətlərarası Beynəlxalq Təşkilatlar
YSÖ – Yeni Sənaye Ölkələri
MDB – Müstəqil Dövlətlər Birliyi
CAR – Cənubi Afrika Respublikası
MİS – Milli İqtisadi Strategiya
MMG – Məcmu Milli Gəlir

MMM – Məcmu Milli Məhsul
MHS – Milli Hesablar Sistemi
MSQ – Maliyyə-Sənaye Qrupları
CQD – Cənub Qaz Dəhlizi
CQBK – Cənubi Qafqaz Boru Kəməri
TANAP – Trans-Anadolu Boru Kəməri
TAP – Trans-Adriatik Qaz Boru Kəməri
KİO – Keçid İqtisadiyyatlı Ölkələr

**Dünya iqtisadiyyatını bilməyən iqtisadçı okeanda kompası itmiş gəmi kapitanıdır.**

**Saymon Kuznets**
**Nobel mükafatı laureatı**

# ÖN SÖZ

Təqdim edilən bu kitab müasir dövrün əsas təhsil sistemi olan distant (məsafədən) təhsil üçün nəzərdə tutulmuşdur və İqtisad Universitetinin saytında yerləşdirilmişdir.

İnkişaf Etmiş Ölkələrdə distant təhsil dərs vəsaitləri, bir qayda olaraq, "öyrənilməsi zəruri olanlar" və "öyrənilməsi yaxşı olanlar" prinsipi üzrə yazılır. "Öyrənilməsi zəruru olanlar" hər mövzunun müvafiq suallarında verilir, "öyrənilməsi yaxşı olanlar" isə hər mövzunun konkret mənbələri üzrə istiqamətləndirilir. Birinci o biliklərdir ki, bunlarsız heç bir səviyyədə və məkanda peşəkar iqtisadçı olmaq mümkün deyil, ikinci o biliklərdir ki, bu biliklərlə dünya iqtisadiyyatının nəzəri-metodoloji və təşkilati-hüquqi əsaslarını dərindən mənimsəməyə imkan verməklə dünya iqtisadi məkanına çıxıb hər bir yerdə, ölkədə dünya səviyyəli peşəkar iqtisadçı olmağa aparıb çatdırır.

Distant təhsil dərs vəsaitlərində mövzular istiqamətləndirici, yönəldici və problem xarakterli əsas məsələləri əhatə edir. Dünyanın tanınmış universitetlərinin (Harvard, Oksford, Kolumbiya və s.) təcrübəsinə müvafiq olaraq öyrənənlərə – tələbələrə və magistrantlara göstərilən məsələlərin sərbəst olaraq dərindən öyrənilməsi, dərk edilməsi və praktiki tətbiqinin strateji yolu – istiqaməti göstərilir. Əsas məsələlər və ya tezis formasında verilən hər bir anlayış, kateqoriya, məsələ, mövzu, sxem, model və s. mühazirədə müəllim tərəfindən geniş şərh edilməli, açılmalı, təhlil edilməli, ümumiləşdirilməli və mövzunun tələbələr tərəfindən dərindən öyrənilməsi üçün Azərbaycan, Anadolu türkcəsi, ingilis və rus dillərində olan nəzəri ədəbiyyat mənbələri, beynəlxalq təşkilatların qəbul etdikləri əsas sənəndlər (konvensiyalar, sazişlər və s.), beynəlxalq təşkilatların işləyib hazırladıqları hesabatlar (prospektlər, icmallar və s.), mövzular üzrə dünya ölkələrinin beynəlxalq iqtisadi münasibətlərinə dair milli qanunlar, statistik hesabatlar və s. tələbələrə çatdırılmalı və strateji öyrənmə yolu göstərilməlidir. Bunun üçün müəllim bu fənnin peşəkar mütəxəssisi olmalı, dünya iqtisadiyyatının subyekt və obyektlərini, dünya iqtisadiyyatının tarixini, strukturlarını, nəzəriyyələrini, dünya bazarlarını, dünya iqtisadiyyatında beynəlxalq ticarət, investisiyalar, nəqliyyat və kommunikasiya, beynəlxalq təşkilatlar, transmilliləşmə, inteqrasiya, valyuta-maliyyə, yeni dünya düzəni və iqtisadi qaydaları, dünya iqtisadi sistemində Azərbaycanın mövqeyini tələbələrə öyrətməlidir. Hazırda hamı hər yerdə, hər müzakirədə dünya iqtisadiyyatından başlayır və dünya iqtisadiyyatından da qurtarır.

Belə hesab edirik ki, hər bir iqtisadçı, siyasətçi, hüquqçu və jurnalist hər şeydən əvvəl, dünya iqtisadiyyatı fənnini dərindən bilməlidir. Fənni tədris edənlər peşəkar, fundamental baza təhsilinə və elmi-ixtisas dərəcəsinə malik olmalıdır. Dünya iqtisadiyyatını bilməyən şəxs heç zaman iqtisadçı ola bilməz, olsa da, milli sərhəddən kənara çıxa bilməz. Dünya isə qloballaşır, fiziki sərhədlər götürülür və vahid dünya iqtisadi məkanı yaranır.

"Dünya iqtisadiyyatı" fənni bir gövdə fənn olmaqla ondan "Beynəlxalq iqtisadiyyat" və ya "Beynəlxalq iqtisadi münasibətlər", "Trans Milli Korporasiyalar", "Beynəlxalq ticarət", "Beynəlxalq iqtisadi təşkilatlar", "Beynəlxalq investisyalar" və digər fənlər yaranır.

İnkişaf Etmiş Ölkələrin son 70 ildəki təcrübəsi sübut etdi ki, iqtisadi inkişaf elmi iqtisadiyyat üzərində qurulur.

"Dünya iqtisadiyyatı" fənninin məqsədi dünyanın coğrafiyasını yox, dünya coğrafi məkanında dünya ölkələrinin iqtisadi-təsərrüfat əlaqələri və münasibətlərinin, dünya

ölkələrinin milli iqtisadiyyatlarının və onlar arasında baş verən beynəlxlaq iqtisadi münasibətlərin öyrənilməsidir.

"Dünya iqtisadiyyatı" çox geniş profilli ixtisas olub Azərbaycanda uzun illər öz tərkibində aşağdakı 7 ixtisaslaşmaya bölünmüşdür:

1. Beynəlxalq iqtisadi münasibətlər;
2. Gömrük işi;
3. Beynəlxalq ticarət;
4. Azərbaycanın xarici iqtisadi əlaqələri;
5. Xarici iqtisadi fəaliyyət;
6. Xarici iqtisadi siyasət;
7. Beynəlxalq maliyyə və valyuta-kredit münasibətləri.

Bu ixtisaslaşmaların hər biri ölkənin xarici ölkələrlə beynəlxalq münasibətlərini, o cümlədən, bütün beynəlxalq münasibətlərin 80 faizini təşkil edən beynəlxlaq iqtisadi münasibətlərin yaradılması və inkişafında müstəsna rol oynamışdır.

Beynəlxalq İqtisadi Münasibətlər (BİM) dünya ölkələri arasında yaranan, formalaşan, genişlənən və inkişaf edən bütün əsas münasibətlərin və eyni zamanda, sair münasibətlərin əsasını təşkil edir, əlaqələndirici, birləşdirici, təşkiledici və tamamlayıcı rol oynayır. Bu münasibətlər, yəni Beynəlxalq İqtisadi Münasibətlərin obyekti olan – mal, məhsul, əmtəə, xidmətlər, əqli mülkiyyət, elmi-texniki məhsul, kapital, valyuta, əmək resursları (işçi qüvvəsi) və onlar arasında əlaqə – inteqrasiya olmadan heç bir ölkələrarası münasibətlər baş verməz və fəaliyyət göstərə bilməz. Çünki bütün beynəlxalq münasibətlərin kökündə Beynəlxalq İqtisadi Münasibətlər dayanır, bu münasibətlər – əlaqələr onun üzərində qurulur və başa çatdırılır.

"Dünya iqtisadiyyatı" fənni sırf tətbiqi elmdir. Bütün məsələlər konkret faktlar və rəqəmlər üzərində öyrənilir. Hər bir rəqəmin arxasında üç sual: "nə vaxt?, nə qədər? və "nəyə görə?" sualları dayanır. Hər bir rəqəmin bu üç sualının cavabını verə bilməyən şəxsdən (tələbə və magistrantdan) iqtisadçı ola bilməz. Elmsiz və təhsilsiz cəmiyyətin və ölkənin gələcəyi yoxdur.

Fənnin distant formada tədris olunmasını nəzərə alaraq verilmiş mövzularda daha çox sxemlərdən və cədvəllərdən istifadə edilmişdir. Dərs prosesində onların ətraflı şərh edilməsi professor-müəllim heyyətinin üzərinə düşür.

"Dünya iqtisadiyyatı" fənnindən distant təhsil üçün yazılmış bu dərs vəsaitində məhz göstərilən əsas prinsip nəzərə alınaraq fənnin "öyrənilməsi zəruri olanlar" məsələləri verilmişdir. "Öyrənilməsi yaxşı olanlar" isə hər bir mövzunun daha dərindən öyrənilməsi üçün əsas mənbələrdə göstərilmişdir.

İlk dəfə yazıldığı üçün, təbii ki, bu dərs vəsaitində çatışmazlıq və nöqsanlar da vardır. Dərs vəsaitindən istifadə edənlərə göstərdikləri nöqsanlara və təkliflərə görə əvvəlcədən təşəkkürümüzü bildiririk.

## DÜNYAYA BAXIŞ

1. Böyük Allah dünyanı altı günə yaratmışdır.
2. Yerə bərabər olan 1,3 mln planet bütünlükdə Günəşdə yerləşə bilər.
3. Əgər Yer kürəsindən dəlik açılarsa, cəmi 42 dəq. ərzində bir tərəfindən o biri tərəfinə çıxmaq olar.
4. Günəşin işığı Yer kürəsinə 8 dəq. 20 san-əyə çatır.
5. Yer kürəsinin 1/3-i qismən və ya tamamilə səhradır.
6. Qalaktikada Yer kürəsinə bənzəyən ən azı 2 mlrd planet var.
7. Yer kürəsi Günəş sistemində suyun üç – bərk, maye və buxar halında olduğu yeganə məkandır.
8. Dünyada son 50 il ərzində vəhşi heyvanların sayı 50 faiz azalıb.
9. Yer kürəsində ən dərin quyu Sovet İttifaqında qazılıb. Onun dərinliyi 12262 m olub. Bu quyunun qazılmasına 14 il vaxt sərf edilib.
10. Yer kürəsi ətrafında insanın düzəltdiyi 22 min obyekt dövr edir.
11. Sutka əslində 24 saatdan ibarət deyil. Yer kürəsi öz oxu ətrafında 23 saat 56 dəq. və 4 san-yə fırlanır.
12. Su Yer kürəsinin çəkisinin yalnız 0,07 faizini və ya həcminin 0,4 faizini təşkil edir. Bəşəriyyət Yer kürəsi suyunun yalnız 0,003 faizini istifadə edə bilər.
13. Yer kürəsi ölçüsündə 17 mlrd planet vardır.
14. Qlobus (qlobe-latın dilində kürə) yerin kiçildilmiş formasıdır. İlk qlobusu XI əsrdə türk (özbək) alimi Əl-Biruni düzəltmişdir.
15. Ekvator – yerin şimal və cənub yarımkürələrini bir-birindən ayıran, mərkəzindən keçən, xəyali dairəvi xətdir. Uzunluğu 40076 km-dir.
16. Dünya əhalisinin 20 faizinin gündəlik gəliri 1 dollardan azdır.
17. ABŞ-da hər inəyin saxlanılması üçün ayrılan gündəlik 2,5 dollar Afrika ölkələrinin əhalisinin 75 faizinin gündəlik gəlirindən çoxdur.
18. Hindistanda 44 mln işləyən uşaq vardır.
19. Hər gün dünya əhalisinin 1/7-i, yəni 1 mlrd-dan çoxu ac qalır.
20. Dünya neft ehtiyatları 2060-cı ildə tükənə bilər.
21. Dünyadakı müharibələrin ¼-i təbii ehtiyatlar uğrunda baş verib.
22. Hər il dünyada 10 dil ölür.
23. Hər il 120 min qadın və gənc qız Qərbi Avropa ölkələrinə satılır.
24. Böyük Britaniya kraliçası Yer kürəsinin 1/6 hissəsinin qanuni sahibidir.
25. Yerin nüvəsində onun səthini 45 sm qalınlıqda qızıl qatı ilə örtməyə yetəcək qədər qızıl vardır.
26. Yer kürəsinin 40 faizi 6 ölkəyə mənsubdur.
27. Ağacların əmələ gəlməsinə qədər Yer kürəsi nəhəng göbələklərlə örtülü olub.
28. Həyat ola biləcək planetlərin sayı daha çoxdur, qarşıdakı 50 il ərzində Yerdən kənar həyat tapılacaqdır.
29. Dünyada ən çox danışılan dil Çin dili (1,3 mlrd), 2-ci yerdə ingilis, sonrakı yerləri ispan, hind və türk dili tutur.
30. Dünyada iki şeyi dayandırmaq mümkün deyil: vaxtı və dünyanın fırlanmasını.
31. Artıq Yer kürəsi, terra və ya dünya insanlara bəs etmir, 2026-cı ildə Marsda evlər qurulacağı barədə məlumatlar verilir və s.

# MÖVZU 1: DÜNYA İQTİSADİYYATININ MAHİYYƏTİ, STRUKTURU, MƏQSƏDİ VƏ VƏZİFƏLƏRİ

## SUALLAR

1. Dünya iqtisadiyyatının mahiyyəti.
2. Dünya iqtisadiyyatının əsas subyektləri və obyektləri.
3. Dünya iqtisadiyyatının strukturu.
4. Dünya iqtisadiyyatında dövlətlər və ərazilər.
5. Dünya iqtisadiyyatında dünya regionlarının yeri və rolu.
6. Beynəlxalq Əmək Bölgüsündə(BƏB) dünya ölkələrinin yeri və rolu.

## Əsas ədəbiyyat


1. Lomakin V.K. Dünya iqtisadiyyatı, rus dilindən tərcümə, Bakı, 2015.
2. Xasbulatov R.İ. Beynəlxalq iqtisadi münasibətlər, Bakı, 2014.
3. Səmədzadə Ziyad. Çin qlobal dünya iqtisadiyyatında, Bakı, 2009.
4. Kruqman P., Obstfeld M., Melitz M. Beynəlxalq iqtisadiyyat, nəzəriyyə və siyasət, Azərbaycan dilinə tərcümə, MODULUS MMC; 2018.
5. Maddinson A. The World Economy, A. Millennial Perspective. OECD, 2001, p.46.
6. Walther T. "Dünya Ekonomisi", Çeviri: Ünal Çağlar, Alfa Yayımçılık, İstanbul 2002.
7. "İƏİT: iqtisadi perspektivlər" (OECD: Economic Outlook) hesabatları, illər üzrə.
8. Seyidoğlu Halil. Uluslararası iktisat: Teori, politika və uyğulama, İstanbul, 2003.

"Dünya iqtisadiyyatı" üzrə ən yeni məlumatlar bu mənbələrdə verilir:

9. "The Economics" jurnalı (www.economist.com), hər həftə nəşr olunur. Son dörd səhifəsi.
10. BVF. "Dünyanın iqtisadi Perspektivləri" hesabatı, (The World Economic Outlook)-qısaca WEO-hesabatı. İldə iki dəfə nəşr olunur. Dünyanın iqtisadi hadisələri təsvir edilir. (www.imf.org).
11. "Qlobal maliyyə sabitlik hesabatı" (Global Financial Stability Report-qısaca GFSR).
12. Fiskal Monitor (Fiscal Monitor). Fiskal(büdcə-vergi) dəyişiklikləri (www.imf.org/external/index.htm).
13. Dünya Bankının hesabatları: World Development Report. (data.worldbank.org), hər il.


## 1. DÜNYA İQTİSADİYYATININ MAHİYYƏTİ

Dünyanın yaşı dəqiq bilinmir. Şamaxı Astrofizika Rəsədxanasının verdiyi məlumata görə kainatın yaşı 13 mlrd, Yer kürəsinin yaşı 4,5 mlrd ildir. Böyük Allah Yer kürəsini altı günə yaratmışdır. Yer kürə formasındadır (Pifaqor). Yer kürəsində 3,9 mlrd ildir ki, insan yaranmışdır. Bizim sifətdə və formada olan insanlar isə 5 mln ildir ki, əmələ gəlib.[1]

Mövcud olduğu uzun zaman ərzində ərazisi böyüməmiş, səthində dəyişikliklər baş vermiş, materiklər, qitələr yaranmış və məhv olmuş (məsələn:"Mu" qitəsi), su və quru ərazisi fərqli olmuşdur.

Buna baxmayaraq, əhalisi daim artmışdır (1500-cü ildə 458 mln, 2020-ci il 7,8 mlrd nəfər). Bu dövrdə Yer kürəsi insanlar, xalqlar və millətlər arasında bölünmüş, dövlətlər

---

[1] Наука и человечество. М., 1995, стр.118

(knyazlıqlar, sultanlıqlar, şahlıqlar, imperatorluqlar və s.) əmələ gəlmiş, sərhədlər yaranmış və dəyişmiş, qitələr dövlətlərə bölünmüş, hətta indiyə qədər belə mübahisəli ərazilər (58 ərazi) qalmışdır.

Digər tərəfdən, Yer kürəsindən 10-15 km-dən kənara çıxmaq mümkün deyil (kosmik aparatlar istisna olmaqla). Ona görə də, təbii olaraq resurslar tükənir.

Planet mənasında "Yer" (latınca Terra), varlıq mənasında "dünya" və görünmə mənasında "mavi planet" kimi işlədilir. Günəşdən sonra üçüncü planetdir. Orbiti Venera və Mars planetləri arasındadır. Bu sistemin planetləri arasında ölçüsünə görə beşinci, insan yaşayan yeganə planetdir. Radiusu 6371 km, Günəşlə arasındakı məsafə 149,6 mln km, sahəsi 510 mln $km^2$, əhalisi 7,8 mlrd nəfərdir. 6 materik və 6 qitəyə bölünüb.

Dünya iqtisadiyyatı ölkələr arasında Beynəlxalq İqtisadi Münasibətlərin obyektiv əsasıdır. Dünya iqtisadiyyatının əsasını Beynəlxalq Əmək Bölgüsü (BƏB) təşkil edir. Dünya iqtisadiyyatı dünya ölkələrinin milli təsərrüfatlarının məcmusudur. Dünya iqtisadiyyatı qlobal iqtisadi mexanizmdir.

Dünya təsərrüfatı – qarşılıqlı asılı inkişafda olan milli təsərrüfatların məcmusudur.

Dünya təsərrüfatının əsas sistemyaradıcı elementi dünya bazarıdır.

Qlobal sistem konsepsiyasına görə dünya iqtisadiyyatı tarixi, dinamik və inkişaf edən milli təsərrüfatlar sistemidir.

Dünya təsərrüfatının yaranmasına müstəmləkə və yarımmüstəmləkə sisteminin meydana gəlməsi, məhsuldar qüvvələrin beynəlmilləşməsi, beynəlxalq istehsalın yaranması və kapital axınının genişlənməsi səbəb olmuşdur.

Qədim Avropa iqtisadiyyatının yaranması və inkişafına böyük coğrafi kəşflər, müstəmləkələrin yaranması, sənətkarlığın əkinçilikdən ayrılması, əmtəə istehsalının yaranması, VII-VIII əsrlərdə dünya iqliminin istiləşməsi, kapitalın ilkin toplanmasına başlanması səbəb olmuşdur. Antik istehsal üsulunda sənətkarlıq əkinçilikdən ayrılmış, şəhər-dövlətlər inkişaf etmiş, qul əməyi meydana gəlmiş, xüsusi və ictimai mülkiyyət yaranmışdır.

XV-XVI əsrlərdə böyük coğrafi kəşflər – X.Kolumbun Amerikanı kəşf etməsi və Vasqo Da Qamanın Hindistana dəniz yolunu kəşf etməsi dünya iqtisadiyyatının ilkin təməli hesab edilə bilər.

Dünya iqtisadiyyatı – siyasi-iqtisadi kateqoriya olub qeyri-bərabər inkişaf edən sistemdir, milli təsərrüfatların çoxsəviyyəli birliyidir və vahid vəhdətidir. Dünya iqtisadiyyatı – qarşılıqlı əlaqədə və asılılıqda olan BƏB və BİM sisteminə qoşulmuş milli iqtisadiyyatların məcmusudur. Dünya iqtisadiyyatı qlobal iqtisadiyyatdır, Dünya iqtisadiyyatı beynəlxalq biznes sferasıdır.

**Dünya iqtisadiyyatı** – Beynəlxalq Əmək Bölgüsü (BƏB) əsasında Beynəlxalq İqtisadi Münasibətlər (BİM) sistemi vasitəsilə dünya ölkələrinin milli iqtisadiyyatlarını birləşdirən çoxpilləli (səviyyəli) qlobal təsərrüfat münasibətlərinin məcmuudur.

**Dünya iqtisadiyyatı** – dünya ölkələrinin milli təsərrüfatlarının və qeyri-dövlət strukturlarının fəaliyyətindən yaranan Beynəlxalq İqtisadi Münasibətlərin məcmuudur.

**Dünya iqtisadiyyatı** – Beynəlxalq Əmək Bölgüsü (BƏB) əsasında yaranmışdır.

**Dünya iqtisadiyyatı** – İctimai Əmək Bölgüsü nəticəsində tarixən formalaşmış dünya ölkələrinin milli iqtisadiyyatlarının məcmuudur. Sinonim olaraq "ümumdünya təsərrüfatı" və ya "dünya təsərrüfatı" kimi də işlədilir.

Nəzəri ədəbiyyat mənbələrində və beynəlxalq təşkilatların sənədlərində "Dünya iqtisadiyyatı", "Dünya təsərrüfatı" və "Ümumdünya təsərrüfatı" kimi anlayışlar istifadə edilir. Məna yükü və mahiyyət etibarilə, bu anlayışlar bir-birinə nə qədər yaxın olsalar da, dünya təsərrüfat əlaqələri sistemi kimi yanaşıldıqda "Dünya təsərrüfatı" və ya "Ümumdünya təsərrüfatı", sosial-iqtisadi sistem kimi yanaşıldıqda isə "Dünya iqtisadiyyatı" qəbul edilir. "Dünya iqtisadiyyatı" "Dünya təsərrüfatı"ından geniş anlayışdır. Aralarında qarşılıqlı asılılıq vardır və bir-birilə qırılmaz sürətdə bağlıdır.

Dünya təsərrüfatı tarixi və siyasi-iqtisadi kateqoriyadır. Dünya təsərrüfatı qlobal sistem kimi inkişaf edən kateqoriyadır. Tarixən dünya təsərrüfatına milli təsərrüfatların və ya onların müəyyən qruplarının bir sistemi kimi də yanaşılır. Ona görə də, bu sistemin mərkəzində dünya ölkələrinin milli təsərrüfatlarının vəziyyəti dayanır. Dünya ölkələri arasında ticarət, kapitalın hərəkəti, işçi qüvvəsinin miqrasiyası, beynəlxalq kredit, valyuta münasibətləri və elmi-texniki istehsal əməkdaşlığı nəticəsində yaradılan əlaqələrə *dünya təsərrüfatı əlaqələri* deyilir. Ölkələr arasında beynəlxalq iqtisadi münasibətlərin əsas formalarından əmələ gələn dünya təsərrüfat əlaqələri beynəlxalq təşkilatların qəbul etdiyi normativ-hüquqi bazaya əsaslanaraq dünya iqtisadi birliyi səviyyəsində təkmilləşdirilmiş və formalaşdırılmış halda dünya iqtisadiyyatı və dünya təsərrüfat əlaqələri sistemini əmələ gətirir. Dünya iqtisadiyyatının tənzimlənməsində beynəlxalq təşkilatlar, xüsusilə ECOSOS və Beynəlxalq Valyuta Fondu (İMF) müstəsna rol oynayır.

Elmi-nəzəri mənbələrin araşdırılması və təhlilinə əsaslanaraq dünya iqtisadiyyatının riyazi formulunu belə vermək olar:

$$\text{Dİ} = \sum_{i=1}^{n} \text{ÖMİ} + \sum_{j=1}^{m} \text{ÖBİM} = \sum \sum (\text{ÖMİ} + \text{ÖBİM})$$

Burada:

Dİ – Dünya İqtisadiyyatı;

ÖMİ – Ölkələrin Milli İqtisadiyyatı;

ÖBİM – Ölkələrin Beynəlxalq İqtisadi Münasibətləri deməkdir.

Formuldan göründüyü kimi, dünya iqtisadiyyatı bütün dünya üzrə götürülmüş ölkələrin milli iqtisadiyyatları ilə bütün ölkələrin beynəlxalq iqtisadi münasibətlərinin cəmindən ibarətdir. Daha dəqiq desək, dünya iqtisadiyyatının tərkibinə iki əsas komponent daxildir. 1) Ölkələrin Milli İqtisadiyyatı; 2) Ölkələrin beynəlxalq iqtisadi münasibətləri. Bunların hər birinin tərkibinə çoxsaylı makro- və mikroiqtisadi göstəricilər daxildir. Dünya təsərrüfat əlaqələrinə olan baxışlar yanaşma mövqeyindən, əhatə dairəsindən və fəaliyyət istiqamətindən asılı olaraq fərqlənir. Lakin ümumi bir mövqe vardır ki, XX əsrin ortalarından başlayaraq beynəlxalq təşkilatların yaranması, beynəlxalq sənədlərin qəbul edilməsi, dünya dövlətlərinin sayının artması, əhalinin sürətlə çoxalması, soyuq müharibənin soyuq sülhə çevrilməsi, ölkələr arasında xarici iqtisadi əlaqələrin genişlənməsi və dünya təsərrüfat əlaqələri sisteminin möhkəmlənməsi daha da zəruridir və labüddür. Bunsuz iqtisadi inkişaf və tərəqqi ola bilməz. 70 ildə dünyadan təcridolunmuş, çərçivəyə salınmış, dünya təsərrüfat əlaqələri sistemindən kənarda qalmış sosialist ölkələrinin, SSRİ-nin təcrübəsi bunu sübut etdi. Nəticədə, demək olar ki, bütün ölkələr XX əsrin sonlarından başlayaraq dünya sisteminə qoşuldular, açıq və azad bazar iqtisadiyyatına keçdilər və dünya təsərrüfat əlaqələri sisteminə bağlandılar. Hazırki dünya təsərrüfat əlaqələrinin sistem-modeli sxem 1.1-də verilir:

**Sxem 1.1**

**Dünya təsərrüfat əlaqələrinin sistem-modeli**




Sxem 1.1-də verilən modeldən göründüyü kimi, dünyanı bir tam kimi götürdükdə, bu tam altı qitədən, hər qitə də çoxsaylı dövlətlərdən, dövlətlər daha çox hüquqi və fiziki şəxslərdən (təsərrüfat əlaqələri subyektlərindən) ibarət olmaqla beynəlxalq ticarət, kapital ixracı, işçi qüvvəsinin miqrasiyası, beynəlxalq kreditlər, valyuta münasibətləri, elmi-texniki istehsal əməkdaşlığı və s. formada digər qitələrdə olan dövlətlər, həmin dövlətlərin hüquqi və fiziki şəxsləri ilə (təsərrüfat subyektləri ilə) təsərrüfat əlaqələri sistemini qurduğu üçün dünya təsərrüfat əlaqələrini bir sistem halına gətirir və bunun modelini formalaşdırır. Bu əlaqələr ikitərəfli və çoxtərəfli, birbaşa və dolayı, beynəlxalq və regional, makro- və mikrosəviyyəli, məhdud və genişçeşidli, uzun və qısamüddətli, iqtisadi və hümanitar xarakteri və s. əlaqələr kimi təzahür edir. Nəzərə alınmalıdır ki, hər bir dünya təsərrüfat əlaqələri elementinin kökündə və arxasında konkret və dəqiq müəyyən edilmiş məqsəd, maraq və mənafe dayanır.

Dünyada ölkələrin milli iqtisadiyyatları birləşərək dünya iqtisadiyyatını əmələ gətirir. Milli və dünya iqtisadiyyatının fərqli əlamətləri vardır və fərqlər 1.1-ci cədvəldə verilir:

**Cədvəl 1.1**

**Milli iqtisadiyyat və dünya iqtisadiyyatı**

| Milli (bir dövlətin) iqtisadiyyatı | Dünya iqtisadiyyatı |
|---|---|
| Sərhədlə məhdudlaşır | Bütün dünyanı əhatə edir |
| Ölkə daxili iqtisadi rayonların iqtisadiyyatının cəmidir | Dövlətlərin iqtisadiyyatlarının cəmidir |
| Dövlətin və ya dövlət strukturlarının fəaliyyətindən asılıdır | Dünyanın aparıcı ölkələrinin və beynəlxalq təşkilatların fəaliyyətlərindən asılıdır |
| Fərdi, xüsusi və ümumi əmək bölgüsü inkişaf getdikcə inkişaf edir | Beynəlxalq əmək bölgüsü inkişaf etdikcə inkişaf edir |
| Beynəlxalq vəziyyətin güclü təsiri yoxdur | Beynəlxalq vəziyyətin güclü təsiri vardır |
| Daxili bazar qanunauyğunluqlarına görə inkişaf edir | Dünya bazarınınn qanunauyğunluqlarına görə inkişaf edir |

| | |
|---|---|
| Bazar iqtisadiyyatının obyektiv qanunlarından kənarlaşa bilər | Bazar iqtisadiyyatının obyektiv qanunlarına maksimum tabe olur |
| Qarşılıqlı ziddiyyətlər çox da güclü deyil | Qarşılıqlı ziddiyyətlər çox güclüdür |
| Qarşılıqlı əlaqələr sadədir, tez həll olunandır | Qarşılıqlı əlaqələr çox mürəkkəbdir.Çətin həll olunandır |
| Sadə struktura malikdir | Mürəkkəb struktura malikdir |
| İnkişafı, əsasən, bir dövlətin siyasətlərindən asılıdır | İnkişafı bütün dövlətlərin siyasətlərindən asılıdır |
| Ölkə(bir dövlətin) iqtisadiyyatıdır | Dünya iqtisadiyyatı – bütün ölkələrin iqtisadiyyatıdır |
| Əsasən bir dövlətin maraqlarına xidmət edir | Bütün dünyanın maraqlarına xidmət edir |
| Bir ölkədə yaşayanların tələbatlarının ödənilməsi qayğısına qalır | Dünya əhalisinin tələbatlarının ödənilməsi qayğısına qalmağa meyillidir |
| Lokal problemlərin həlli yollarını axtarır | Qlobal problemlərin həlli yollarını axtarır |
| Zəif, epizodik, dinamik inkişafa malikdir | Güclü daimi dinamik inkişafa malikdir |
| Əsasən, ölkə ticarətinin təsiri altındadır | Dünya ticarətinin təsiri altındadır |
| Əsasını maddi və mənəvi milli istehsal, onun bölgüsü, mübadiləsi və istehlakı təşkil edir | Əsasını maddi və mənəvi varlığın beynəlxalq istehsalı, onun bölgüsü, mübadiləsi və istehlakı təşkil edir |
| Lokal sistemdir | Vahid sistemdir (vahid sistemə qoşulmağa can atan sistemdir) |
| Lokal təfəkkürlər üzərində qurulur | Qlobal təfəkkürlər üzərində qururlur |
| Məhsuldar qüvvələr bir ölkə daxilində formalaşır və inkişaf edir | Planetar səviyyədə məhsuldar qüvvələr formalaşır və inkişaf edir |
| Beynəlxalq vəziyyətə güclü təsir göstərmir | Beynəlxalq vəziyyətə güclü təsir göstərir |

Milli iqtisadiyyat ayrı-ayrı ölkələrin milli iqtisadiyyatlarıdırsa, dünya iqtisadiyyatı bütün dünya ölkələrinin məcmusudur. Bir-birindən fərqlidir. Milli iqtisadiyyat ərazi, sahə, təkrar istehsal, sosial-iqtisadi və digər əlamətlərinə görə dünya iqtisadiyyatından məhduddur. Lakin onun tərkib hissəsidir.

Dünya iqtisadiyyatı vahid coğrafi, iqtisadi və təsərrüfat orqanizmidir. Bu orqanizmin üzvlərini rəmzi olaraq insan orqanizmi ilə belə müqayisə etmək olar:

1. Başı - əhali (insan);
2. Bədəni-resursları;
3. Ətrafları – istehsal və xidmət sektorlar;
4. Gözü – beynəlxalq təşkilatlar;
5. Mədəsi – valyuta və qızıl ehtiyatları;
6. Damarları – nəqliyyat;
7. Qulaqları – rabitə və telekommunikasiya;
8. Dili – reklam(informasiya) ;
9. Ürəyi - Ümumi Daxili Məhsuldur(ÜDM).

Dünya vahid orqanizm kimi tam olub özünün tərkib hissələrindən ibarətdir. Tərkib hissələrinə müxtəlif statuslu dövlətlər və ərazilər daxildir. ECOSOS-a görə 251 dövlət və ərazi bu tama daxildir.

Elmi-kütləvi ədəbiyyatlarda və publisistikada Günəş sisteminin üçüncü planeti sinonim olaraq üç adda işlədilir:

1. Dünya (Yer kürəsi);
2. Mavi planet;
3. Terra (latınca).

Yer kürəsi insanlığın və bəşəriyyətin evidir. Günəş sistemində yeganə canlı planetdir. Yer Günəş sisteminə daxil olan 9 planetdən – Merkuri və Veneradan sonra 3-cüdür. Ekvatorial diametrinə görə Yupiter, Saturn, Neptun və Urandan sonra 5-cidir(12756 km). Yer planeti kürə formasındadır və qlobusa bənzəyir.

Ekvator yerin şimal və cənub yarımkürələrini bir-birindən ayıran, mərkəzindən keçən, xəyali dairəvi xətdir. Uzunluğu 40076 km-dir. Yer kürəsinin 11 ölkəsindən (Ekvador, Kolumbiya, Braziliya, San Tome, Qabon, Konqo respublikası, Konqo Demokratik Respublikası, Uqanda, Keniya, Somali, İndoneziya) və 1 arxipelaqından keçir (Qalapaqos arxipelaqı və ya adaları – Tısbağa adaları Sakit okeanda adalar qrupu olub Ekvadora məxsusdur).

*Qrinviç meridianı* – Böyük Britanıyanın paytaxtı Londondakı Qrinviç qəsəbəsində yerləşən Qrinviç rəsədxanasından keçən meridiana deyilir. Bu meridian sıfırıncı meredian adlanır.

Qrinviç meridianı Yer kürəsini Şərq və Qərb yarımkürələrinə bölür. Meridianların uzunluğu 20003,93 km-dir. Meridian – latın sözü olub (meridies) – Günorta xətti deməkdir.

13 oktyabr 1884-cü ildə 25 ölkənin iştirakı ilə keçirilən Vaşinqiton Konfransında Qrinviç meridianı uzunluq və dünya vaxtını hesablama nöqtəsi kimi qəbul edilmişdir.

Hər bir elm sahəsinin əhatə dairəsi, konkret obyekti və predmeti vardır. Humanitar elmlər cəmiyyət həyatını, coğrafiya – fiziki və iqtisadi vəziyyəti, dünya iqtisadiyyatı – dünya ölkələrinin milli iqtisadiyyatları və bu ölkələr arasında baş verən beynəlxalq iqtisadi münasibətləri öyrənir.

Dünya iqtisadiyyatı dünya coğrafi məkanında ölkələrin təsərrüfat münasibətlərinin subyektləri ilə obyektləri arasında baş verən, formalaşan, davam edən iqtisadi prosesləri öyrənir, araşdırır, təhlil edir, proqnozlaşdırır və ölkələrin (dövlət və ərazilərin) strateji inkişaf yollarını müəyyən edir. Əsas vəzifələrindən biri bütün iqtisadi sektorlar üzrə dünyanın iqtisadi inkişaf meyilləri üzrə qısamüddətli və uzunmüddətli, iqtisadi və siyasi proqnozların işlənib hazırlanması və verilməsidir. Çünki dövlət siyasəti – iqtisadi siyasət üzərində qururlur.

XXI əsrin əvvəllərindən başlayaraq dünya bəşər tarixinin ən fövqəladə dövrünü yaşayır. Heç vaxt dünya ölkələrində bu qədər total sıxıntılar olmamışdır. Üç tərəfdən sıxılan ölkələr sanki qurtulub inkişafa doğru can atır.

Bunu sxem 1.2-dən görmək olar.

**Dünya ölkələrinin total sıxıntılar modeli**

**Sxem 1.2**




1.2-ci sxemdən görünür ki, bu fövqəladə dövrdə dünya üç tərəfdən - sağdan epidemiyalar, soldan müharibələr, arxadan böhranlarla sıxılaraq geriyə dartılır, yalnız bir

tərəfdən dünya qarşıya doğru inkişafa can atır. "Covid-19"-un 2020-ci ildə yaratdığı XXI əsrin əsas problemlərindən biri insan münasibətlərinin zəifləməsi və soyuması olmuşdur. Belə bir mürəkkəb dövrdə dünya dövlətləri elə bir siyasətlə idarə edilməlidir ki, bu təlatümlərdən çıxıb inkişafa doğru gedə bilsin. Bunu da yalnız dünya siyasətini və iqtisadiyyatını dərindən bilən, böyük idarəçilik ustalığı olan, yüksək peşəkarlıq və iradəyə malik dövlət liderləri edə bilir (məsələn, Azərbaycan).

## 2. DÜNYA İQTİSADİYYATININ ƏSAS SUBYEKTLƏRİ VƏ OBYEKTLƏRİ

Dünya iqtisadiyyatı dünya ölkələrinin milli iqtisadiyyatlarının və onlar arasında baş verən beynəlxalq iqtisadi münasibətlərin məcmuudur. Dünya ölkələri – dövlətlərdən və müxtəlif statuslu ərazilərdən ibarətdir. Bu ölkələr arasında tarixən yaranan və formalaşan beynəlxalq münasibətlər baş verir.

Beynəlxalq münasibətlər dedikdə dövlətlərin sərhədlərindən kənara çıxan bütün ictimai münasibətlər başa düşülür.

Beynəlxalq münasibətlərin aşağdakı 10 əsas forması vardır:

1. Siyasi münasibətlər;
2. Hərbi münasibətlər;
3. Diplomatik münasibətlər;
4. Mədəni münasibətlər;
5. Elmi münasibətlər;
6. Texniki münasibətlər;
7. Humanitar münasibətlər;
8. Sosial münasibətlər;
9. İdman münasibətləri;
10. İqtisadi münasibətlər(bütün münasibətlərin əsası və birləşdiricisi).

Sair münasibətlər:

1. Beynəlxalq hüquqi münasibətlər;
2. Beynəlxalq təhlükəsizlik münasibətləri (terrorizm, cinayətkarlıq və s.);
3. Beynəlxalq dəniz, kosmos və hava münasibətləri;
4. Beynəlxalq ətraf-mühit(ekoloji) münasibətləri;
5. Beynəlxalq səhiyyə münasibətləri;
6. Beynəlxalq millətlərarası münasibətlər;
7. Beynəlxalq dini münasibətlər və i.a.

Bu münasibətlərə beynəlxalq münasibətlərin *xüsusi formaları* və ya *xüsusi münasibətlər də* deyilir.

Bütün beynəlxalq münasibətlərin əsasında beynəlxlaq iqtisadi münasibətlər dayanır. Bu münasibətlər dünya iqtisadiyyatının – dünya təsərrüfat münasibətlərinin subyektləri tərəfindən qurulur, təşkil edilir və yerinə yetirilir.

Dünya təsərrüfat münasibətlərinin əsas subyektləri sxem 1.3-də verilmişdir.

**Sxem 1.3**




Dünya iqtisadiyyatında bu subyektlər müstəsna rol oynayır. Dünya iqtisadiyyatını tənzimləyən, təşkil və icra edən məhz bu subyektlərdir. Hər birinin geniş şərh edilməsi, açılması və qiymətləndirilməsi lazım gəlir. Bu subyektlərin bəziləri 11-14-cü mövzularda verilmişdir.

Dünya iqtisadiyyatı subyektləri sxem 1.3-dən də göründüyü kimi, birtərəfli mövcud ola bilməz. Onlar dünya təsərrüfat münasibətlərinin obyektləri ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir. Subyektlərin predmeti obyektlərdir, başqa sözlə, beynəlxalq iqtisadi münasibət formalarıdır. Dünya təsərrüfat münasibətlərinin obyektləri sxem 1.4-də verilir.

**Sxem 1.4**




Sxem 1.4-də göstərilən obyektlər dünya iqtisadiyyatının predmetini təşkil edir. Bütün iqtisadi-təsərrüfat münasibətləri bu predmetlərin hərəkəti prosesində baş verir.

Nəticədə dünya iqtisadiyyatının "**3x80 MM modeli**" əmələ gəlir. Dünya iqtisadiyyatının bu modeli 1.5-ci sxemdə verilmişdir.

**Sxem 1.5**

**Dünya iqtisadiyyatının "3x80 MM modeli"**




Modeldəki:

3x80 MM – dünya iqtisadiyyatının Müzəffər Məmmədov modeli;

1x80 ölkələrarası bütün beynəlxalq münasibətlərin 80 faizi iqtisadi münasibətlərdir;

2x80 – ölkələrarası bütün beynəlxalq iqtisadi münasibətlərlərin 80 faizi beynəlxalq ticarətdir;

3x80 – bütün dünya ticarət dövriyyəsinin 80 faizini sənaye məhsulları təşkil edir.

Dünya iqtisadiyyatının bütün subyekt və obyektlərinin, beynəlxalq təşkilatların, diplomatik korpusların və GHT-lərin praktik fəaliyyəti bunu sübut edir.

## 3. DÜNYA İQTİSADİYYATININ STRUKTURU

Dünyanın - Yer kürəsinin səthinin ümumi sahəsi 510 mln $km^2$ olub, öz səthinə görə quru və su ərazilərindən ibarətdir. Bunun 71 faizi – 361 mln $km^2$ su, 29 faizi – 149 mln $km^2$ quru ərazisidir. Şimal yarımkürəsinin 40 faizi quru, 60 faizi sudursa, cənub yarımkürəsinin 19 faizi quru, 81 faizi su ərazisidir. Hər iki yarımkürənin su ərazisi daha çoxdur. İnsanlar, təbii ki, quru ərazidə yaşayırlar. Ona görə də, dünya iqtisadiyyatının vəziyyətinin öyrənilməsi və qiymətləndirilməsi Yer kürəsindəki materiklərdən, materiklər və qitələrdəki dövlətlərdən, ərazilərdən başlayaraq sahə, təkrar istehsal və sosial-iqtisadi struktura qədər konkret, faktiki və real rəqəmlər əsasında təhlil edilməlidir. Dünya iqtisadiyyatının struktur tərkibi sxem 1.6-da verilmişdir.

**Sxem 1.6**




Sxem 1.6-dan göründüyü kimi dünya iqtisadiyyatı struktur etibarilə dörd struktur hissədən ibarətdir. Hər bir struktur ayrı-ayrı struktur hissələrə bölünür. Bunlar 1.7, 1.8, 1.9 və 1.10-cu sxemlərdə verilmişdir.

**Sxem 1.7**




**Sxem 1.8**




Dünya iqtisadiyyatının aqrar sektoru dörd alt sektordan ibarətdir:

1. Kənd təsərrüfatı;
2. Meşə təsərrüfatı;
3. Balıqçılıq təsərrüfatı;
4. Ovçuluq təsərrüfatı.

Bu sektor 7-ci mövzuda ətraflı verilmişdir.

Dünya iqtisadiyyatının sənaye sektoru dörd alt sektordan ibarətdir:

1. Hasilat sənayesi;
2. Emal sənayesi;
3. Tikinti və Kommunal sənayesi;
4. Elektroenergetika sənayesi.

Bu sektor 8-ci mövzuda ətraflı verilmişdir.

Dünya iqtisadiyyatının xidmət sektoru təkrar istehsal prosesindəki yerinə görə iki altsektordan ibarətdir.

1. İstehsalyönümlü xidmətlər (xidmət sənayesi);
2. Sosialyönümlü xidmətlər.

Bunların hər biri ondan artıq subsektorlara bölünür.

Bu sektor 9-cu mövzuda ətraflı verilmişdir.

**Sxem 1.9**




**Sxem 1.10**




Bəzən dünya iqtisadiyyatının sosial-iqtisadi strukturunu sosial-iqtisadi quruluş (feodal, kapitalist, sosialist və s.) və funksional təyinatına (mülki və hərbi) görə də qruplaşdırırlar.

Dünya ölkələri arasındakı beynəlxalq münasibətlər sistemi mövqeyindən yanaşdıqda dünya iqtisadiyyatının infrakstrukturu daha genişlənir. Bu sxem 1.11-də verilmişdir.

**Sxem 1.11**




Sxem 1.11-dən göründüyü kimi, dünya iqtisadiyyatında siyasi, diplomatik, hərbi, elmi-texniki, mədəni, sosial, humanitar və s. struktur orqanları, idarə və təşkilatları fəaliyyət göstərir ki, onların hər biri dünya iqtisadiyyatında güclü təsir gücünə, tənzimləmə vasitələrinə və mexanizmlərinə malikdirlər. "Dünya iqtisadiyyatı" fənnində bu məsələlərə ətraflı yer verilmir.

## 4. DÜNYA İQTİSADİYYATINDA DÖVLƏTLƏR VƏ ƏRAZİLƏR

Dünya iqtisadiyyatının əsas subyekti olan ölkələr – dövlətlər və ərazilər özünün əhalisi, ərazisi, təbii resursları ilə dünya iqtisadiyyatının obyektləri ilə qarşılıqlı əlaqə və asılılıqda olmaqla vahid dünya iqtisadiyyatı sistemini əmələ gətirir. Dünya iqtisadiyyatında dövlətlərin və ərazilərin yeri və rolunu öyrənmək üçün əvvəlcə Yer kürəsində mövcud olan materiklərin və qitələrin ərazisini, yerin quru sahəsinin xüsusi çəkisini, əhalisini və dövlətlərin sayını təhlil etmək lazım gəlir. Dünyadakı qitələrin sahəsi, əhalisi və müstəqil dövlətlərin sayı cədvəl 1.2-də verilmişdir.

**Cədvəl 1.2**

**Qitələrin sahəsi, əhalisi və dövlətləri[1]**

| Qitələr, materiklər | Sahəsi, mln $km^2$ | Yerin quru sahəsi, faizlə | Qitələr, materiklər | Əhalinin sayı, 2013, mln nəfər | Yerin bütün əhalisinin faizi | Dövlətlər | |
|---|---|---|---|---|---|---|---|
| | | | | | | Sayı | BMT üzvü |
| **Asiya** | 43,4 | 29,1 | Asiya | 4366 | 59,5 | 54 | 43 |
| **Afrika** | 30,3 | 20,3 | Afrika | 1200 | 16,3 | 56 | 54 |
| **Ş.Amerika** | 24,7 | 16,5 | Avropa | 742 | 10,1 | 48 | 47 |
| **C.Amerika** | 17,8 | 11,9 | Ş.Amerika | 566 | 7,7 | 23 | 23 |
| **Antarktida** | 14,1 | 9,4 | C.Amerika | 418 | 5,7 | 12 | 12 |
| **Avropa** | 10,2 | 6,7 | Avstraliya və Okeaniya | 39 | 0,5 | 14 | 14 |
| **Avstraliya** | 7,6 | 5,1 | Antarktida | - | - | - | - |
| **Cəmi:** | 148,9 | 100 | Cəmi: | 7334 | 100 | 207 | 193 |

Cədvəl 1.2-dən görünür ki, dünyada mövcud olan altı qitədən ən böyüyü Asiya (29 faiz), ən kiçiyi Avstraliyadır (5,1 faiz). Ən çox müstəqil dövlət olan Afrikadır (56 dövlət). Dünya üzrə dövlətlərin ümumi sayı 207, BMT üzvlərinin sayı 193-dür (2020).

Dünyanın – Yer kürəsinin materiklər üzrə sahəsi, dövlətlərin sayı, əhalisinin payı və sıxlığı cədvəl 1.3-də verilmişdir.

**Cədvəl 1.3**

**Yer kürəsinin materiklər üzrə sahəsi, dövlətlərin və əhalinin sayı**

| Sıra № | Qitələr/Materiklər | Sahəsi, mln $km^2$ | Quru sahəsinin faizi | Dövlətlərin sayı(BMT) | Dünya əhalisinin sayında(faizlə | Sıxlıq, adam/$km^2$ |
|---|---|---|---|---|---|---|
| **1** | Avrasiya | 54 | 36 | 90 | 70,4 | 78 |
| | Avropa | 10 | 6 | 43 | 10,4 | 70 |
| | Asiya | 44 | 30 | 47 | 60,0 | 86,7 |
| **2** | Afrika | 30 | 20 | 54 | 15,5 | 32,7 |
| **3** | Ş.Amerika(adalarla) | 24 | 16 | 23 | 8,0 | 22,9 |
| **4** | C.Amerika | 18 | 12 | 12 | 5,2 | 21,4 |
| **5** | Avstraliya və Okeaniya | 8,5 | 5 | 14 | 0,8 | 4,25 |
| **6** | Antarktida | 17 | 10 | - | - | - |

[1] https://qro.koltyrin.ru/continent.php (Планета земля континенты)

Cədvəl 1.3-dən görünür ki, Avrasiya ən böyük materikdir (54 mln $km^2$), BMT üzvü olan 193 dövlət daxildir. Ən kiçik materik Avstraliyadır (7,6 mln $km^2$). Əhali haqqında 6-cı mövzuda ətraflı danışılacaq.

Dünyada olan müstəqil dövlətlərin və BMT üzvü olan dövlətlərin illər üzrə sayı cədvəl 1.4 və 1.5-də verilmişdir.

**Cədvəl 1.4**

**Dünyada müstəqil dövlətlərin sayı**

| S. № | Qitələr | Dövlətlərin sayı | | | |
|---|---|---|---|---|---|
| | | 1900 | 1947 | 2000 | 2017 |
| 1. | Avropa | 24 | 31 | 43 | 44 |
| 2. | Asiya | 9 | 18 | 47 | 47 |
| 3. | Afrika | 4 | 3 | 53 | 54 |
| 4. | Amerika | 20 | 22 | 35 | 35 |
| 5. | Avstraliya və Okeaniya | 0 | 2 | 14 | 14 |
| | Bütün dünya: | 57 | 76 | 192 | 194 |

**Cədvəl 1.5**

**BMT üzvü olan dövlətlərin sayı**

| İl | Dövlətlərin sayı | İl | Dövlətlərin sayı |
|---|---|---|---|
| 1945 | 51 | 1989 | 159 |
| 1949 | 59 | 2000 | 189 |
| 1959 | 83 | 2012 | 190 |
| 1969 | 126 | 2017 | 193 |
| 1979 | 152 | 2020 | 193 |

Cədvəl 1.4. və 1.5-də verilən dövlətlərin sayı haqqında olan rəqəmləri müxtəlif amillər üzrə təhlil etmək lazım gəlir. Bununla həmin dövlətlərdəki dünya iqtisadiyyatının vəziyyətini qiymətləndirmək və görmək mümkün olur.

ECOSOS-un verdiyi hesabata müvafiq olaraq dünyada mövcud olan 251 ölkədən 9 tanınmamış (qismən tanınmış) və 46 ərazinin statusu bir-birindən çox fərqlənir, Müstəüil dövlətlər üzrə onların əsas əlamətləri, demək olar ki, eynidir. Dövlətlərin əsas əlamətləri sxem 1.12-də verilmişdir.

**Sxem 1.12**

**Dövlətin əsas əlamətləri**




Hər bir dövlətdə qanunverici hakimiyyət – parlament qanun qəbul edir, icra hakimiyyəti qanunları icra edir, məhkəmə hakimiyyəti isə onlara nəzarət edir. Hər bir dövlətin və inzibati-ərazi subyektinin öz əsas qanununa müvafiq olaraq dövlət və hökumət strukturları fəaliyyət göstərir.

Dünyada ilk parlamanet XIII əsrdə İngiltərədə yaradılmışdır.

Dünya ölkələri dövlət quruluşuna və idarə etməsinə görə müxtəlifdir. Dünyada olan dövlətlərin və ərazilərin formaları 1.13-cü sxemdə verilmişdir.

**Sxem 1.13**

**Dünya ölkələrinin dövlət quruluşu və idarə edilməsi formaları**




Sxem 1.14-də verildiyi kimi, dövlətlər suveren (müstəqil), tanınmamış və özünü idarə edə bilməyən dövlətlərə bölünür. Ərazilər isə statusu müəyyən edilməyən və beynəlxalq ərazilərə bölünür. Elə federativ dövlətlər vardır ki, onların tərkibində olan subyektlər – müxtariyyətlər, respublikalar, ştatlar və s. çoxsaylı müstəqil dövlətlərdən ərazi, əhali, ÜDM və s. göstəricilərdən on dəfələrlə çoxdur. Məsələn, Rusiya Federasiyasında Saxa, Komi, Başqırdıstan Respublikaları, Çin XR-in inzibati ərazisi – Tayvan, Honkonq və s.

Rusiya federal subyektlərinə:

- 22 respublika;
- 9 diyar;
- 46 vilayət;
- 3 federal əhəmiyyətli şəhər (Moskva, Sank-Peterburq, Sevastopol);
- 1 muxtar vilayət (Yəhudi Muxtar Vilayəti);
- 4 muxtar daiə daxildir.

Rusiyanın 85 federal subyekti vardır ki, onların da 22-si muxtar respublikalardır. Rusiya Federasiyasında böyük əraziyə malik olan respublikalar cədvəl 1.6-da verilmişdir.

**Cədvəl 1.6**

**Rusiya federasiyasının bəzi ərazi subyektləri**

| № | Rusiyanın bəzi subyektləri | Ərazisi, min $km^2$ | Əhalisi, min nəfər |
|---|---|---|---|
| **1.** | Saxa Respublikası (Yakutiya) | 3083 | 971 |
| **2.** | Komi Respublikası | 416 | 820 |
| **3.** | Başqırdıstan Respublikası | 142 | 4038 |
| **4.** | Tatarıstan Respublikası | 67 | 3902 |
| **5.** | Dağıstan Respublikası | 50 | 3110 |

Rusiya federasiyasının Saxa respublikasının (Yakutiya) ərazisi Azərbaycan Respublikasının ərazisindən 35 dəfə, Komi Respublikasının ərazisi 4 dəfə və Başqırdıstan Respublikasının ərazisi 1,7 dəfə böyükdür.

Cədvəl 1.7-də verildiyi kimi, dünyada federativ dövlətlərin sayı 23-dür. Ən çox federativ dövlət Amerikadadır. Lakin "de-fakto" federativ dövlətlərin sayı daha çoxdur. Məsələn, ABŞ faktiki olaraq federativ dövlətdir, tərkibində 51 subyekt – yəni, 50 ştat və 1 dairə (Kolumbiya dairəsi) vardır və s.

**Cədvəl 1.7**

**Dünyanın federativ dövlətləri**

| № | Regionlar, dövlətlər |
|---|---|
| | **MDB** |
| 1. | Rusiya Federasiyası |
| | **Avropa: 4 ölkə** |
| 1. | Avstriya |
| 2. | Belçika |
| 3. | AFR |
| 4. | İsveçrə |
| | **Asiya: 5 ölkə** |
| 1. | Hindistan |
| 2. | Malayziya |
| 3. | Myanma |
| 4. | BƏƏ |
| 5. | Pakistan |
| | **Afrika: 4 ölkə** |
| 1. | Komor adaları |
| 2. | Nigeriya |
| 3. | Efiopiya |
| 4. | CAR |
| | **Amerika: 7 ölkə** |
| 1. | Argentina |
| 2. | Braziliya |
| 3. | Venesuela |
| 4. | Kanada |
| 5. | Meksika |
| 6. | ABŞ |
| 7. | Sent-Kits və Nevis |
| | **Avstraliya və Okeaniya: 2 ölkə** |
| 1. | Avstraliya |
| 2. | Mikroneziya |

## Monarxiya dövlətləri

Dövlətlərin idarə edilməsinin ikinci forması – Monarxiyadır.

Hazırda dünyada 30 monarxiya dövləti vardır:

- ❖ Amerikada – yoxdur,
- ❖ Asiyada – 14,
- ❖ Avropada – 12,
- ❖ Afrikada – 3,
- ❖ Okeaniya – 1.

Monarxiyalar aşağdakı formalardadır:

❖ 17 Krallıq – Avropada 7: Belçika, Böyük Britaniya, Danimarka, İspaniya, Niderland, Norveç, İsveç. Afrikada 3: Lesoto, Mərakeş, Svazilend. Asiyada 6: Butan, İordaniya, Kamboca, Nepal, Səudiyyə Ərəbistanı, Tayland. Okeaniyada 1: Tonqa Krallığı.

- ❖ 3 Knyazlıq – Andorra, Lixtenşteyn, Monako (hamısı Avropadadır).
- ❖ 1 Böyük Hersoqluq – Lüksemburq (Avropada).
- ❖ 1 Papa dövləti (mqəddəs taxt-tac) – Vatikan (Avropada).
- ❖ 4 Əmirlik – Bəhreyn, Qətər, Küveyt, BƏƏ (Asiyada).
- ❖ 3 Sultanlıq – Bruney, Malaziya, Oman (Asiyada).
- ❖ 1 İmperiya – Yaponiya (Asiyada).

**ECOSOS-un hesabatına görə,** dünyada 251 dövlər və ərazi vardır ki(2020-ci il), bunların da tərkibi aşağıda verilmişdir:

- ❖ 195 müstəqil dövlət vardır. Onların 193-ü BMT üzvü, 2-si müşahidəçi dövlətdir (Vatikan və Fələstin).
- ❖ 10 dövlət statusu müəyyən edilməmiş dövlətlərdir. Artıq bunların sayı 10 yox, 9-dur. Çünki "Dağlıq Qarabağ Respublikası" adında qondarma dövlət yoxdur. Bu ərazi Azərbaycan respublikasının suveren ərazisidir. Beynəlxalq təşkilatlar da bunu daim təsdiq edir.

Bunlarla bərabər dünyada aşağıdakı 46 ərazi vardır:

- ❖ 3 Ərazi – Beynəlxalq sazişlərlə xüsusi statusu olan ərazilər;
- ❖ 35 Ərazi – Asılı ərazilər (daimi əhalisi olan);
- ❖ 8 Ərazi – Dənizarxası ərazilər.

Bunlardan başqa daimi əhalisi olmayan 20 asılı ərazi də vardır. Bəzi təsnifatlarda isə 58 ərazi verilir.

Statusu müəyyən edilməmiş 9 dövlət aşağıdakılardır:

6 dövlət – bəzi BMT üzvü olan ölkələr tərəfindən tanınır:

1) Abxaziya Respublikası;
2) Çin Respublikası (Tayvan);
3) Kosovo respublikası;
4) Şimali Kipr Türk Respublikası ;
5) Cənubi Osetiya Respublikası.
6) Saxara Ərəb Demokratik Respublikası.

3 dövlət – BMT-yə üzv olmayan (qismən tanınan) dövlətlər hesab edilir:

1) Donetsk Xalq Respublikası;
2) Luqansk Xalq Respublikası;
3) Dnestryanı Moldova Respublikası.

46 ərazi (daimi, köklü, yerli əhalisi və xüsusi vətəndaşlığı olan ərazilər):

3 ərazi – beynəlxalq sazişlərlə xüsusi statusu olan ərazilər:

1) Aland adaları (Finlandiya);
2) Honkonq (Syanqan) - Çin Xalq Respublikası;
3) Makao (Aomın) – Çin Xalq Respublikası

35 ərazi – asılı ərazilər(daimi əhalisi olan):

❖ Avstraliyanın 3 xarici ərazisi – Kokosov (Kilinq) adası, Norfolq adası, Rojdestva(Təvəllüd) adası;

❖ Böyük Britanıyanın 3 qədim (köklü) torpağı (Qernsi, Cersi, Men adası);

❖ Böyük Britaniyanın 10 dənizarxası ərazisi Bermud adaları (Bermudlar), Britaniya Virqinski adası, Qubraltar, Kaymanov adaları, Montserrat, Pitkern adası, Müqəddəs yelena adası, Vozneseniya və Tristan-da, Terkis və Kaykos, Folklend (Malvin) adaları);

❖ Danimarkanın 2 muxtar regionu (ərazisi) (Qrellandiya və Farer adaları);

❖ Niderlandın 3 muxtar dənizarxası ərazisi (Aruba, Kyuzasao, Sint-Marten);

❖ Yeni Zelandiyanın 2 özünü idarə edən ərazisi (Kuka adası və Nike (Savic) adası);

❖ Yeni Zelandiyanın 1 asılı ərazisi – Tokelan;

❖ ABŞ-ın 5 dənizarxası mülkü və ya birləşmiş ərazisi (Amerika Virqinski adası, Amerika Samoası, Quam, Puerto-Riko, Şimali Marian adaları);

❖ Fransanın 5 dənizarxası birliyi (Sen – Bartelmi, Sen – Martin, Sen – Per və Mikelon, Yollis və Futuna, Fransız Polineziyası);

❖ Fransanın xüsusi statuslu 1 dənizarxası inzibati-ərazi təsisatı – Yeni Kaledoniya.

8 xarici ərazi – həmin dövlətin tərkib hissəsi hesab edilən, bəzən isə ayrı ölkənin ərazisi hesab edilən ərazilər:

❖ 3 xüsusi (xarici) Niderland (Hollandiya) Cəmiyyəti – Boneyr, Saba, Sint – Esmamius.

❖ 5 Fransanın xarici departament və regionları (Qvadelupa, Mayomma, Marminika, Reyukon, Fransa Qvianası).

Bunlardan başqa 20 asılı ərazi – daimi əhalisi olmayan ərazilər də vardır:

❖ ABŞ-ın 9 xarici kiçik adaları;

❖ Böyük Britaniyanın 3 dənizarxası ərazisi;

❖ Avstraliyanın 3 dənizarxası ərazisi;

❖ Norveçin 3 asılı ərazisi;

❖ Fransanın xüsusi statuslu 2 dənizarxası inzibati-ərazi təsisatı (Klipperton, Fransa Cənubi və Antarktik əraziləri).

## Virtual dövlətlər (səciyyəvi şəhər dövlətlər)

Dünyada 72 virtual dövlət qeydə alınmışdır. Rəsmi adı, bayrağı, yarandığı il, əlamətləri və lideri göstərilir.

Məsələn:

1. Xristianya Azad Şəhəri (Danimarka, Kopenhagenin daxilində, əhalisi 878 nəfərdir);
2. Silend Knyazlığı (Silandiya). Virtual dövlət, Britaniya adaları, 1967-ci ildə yaradılıb, əhalisi 1 nəfər (2017));
3. Ladoniya. Virtual dövlət, İsveç, 1996-cı ildə elan edilib, ərazisi 1 km$^2$, əhalisi 17752 nəfər (2011));
4. Kuqelmuqel Respublikası. Avstriya, 1976, Şar formasında ev, virtual dövlət;
5. Malboro. Avstraliya, Ferma sahibi fermasını dövlət elan edib, 1993, Corc Mayrxed və digər virtual dövlətlər.

Antarktidanın virtual dövlətləri də elan edilib. Heç biri beynəlxalq hüquqi subyekt deyil. Rəmzi xarakter daşıyır və dünya iqtisadiyyatında rolu yoxdur.

## 5. DÜNYA İQTİSADİYYATINDA REGİONLARIN YERİ VƏ ROLU

Dünya iqtisadiyyatında qitələr, materik qovşaqları və ərazi istiqamətində regionlaşma və subregionlaşmalar aparılır. Beynəlxalq təşkilatların qitələr üzrə hesabatlarında Avropa qitəsi 4 regiona – Qərbi, Şərqi, Şimali və Cənubi Avropaya, Asiya qitəsi 6 regiona – Qərbi, Şərqi, Şimali, Cənubi, Mərkəzi(Orta) və Cənub-Şərqi Asiyaya, Afrika qitəsi 6 regiona – Qərbi, Şərqi, Şimali, Cənubi, Mərkəzi və Saxaradan cənuba Afrikaya, Amerika qitəsi 5 regiona – Şimali, Cənubi, Mərkəzi, Latın Amerikası və Karib Hövzəsi regionuna bölünür. Latın Amerikası isə 5 subregiona bölünür. Lakin qitələrdaxili regionlaşmalar da vardır.

Dünya iqtisadiyyatı və siyasətində ən böyük rolu regionlar 1.12 və 1.13-cü sxemlərdə və şərhlərdə verilmişdir. Bu regionların hər birinin dünya iqtisadiyyatındakı yeri və rolu olan geoiqtisadi əlamətlər üzrə təhlil edilməlidir.

### Yaxın Şərq regionu (BMT)

20 dövlət daxil olub (19+1 Fələstin), 370 mln müsəlman, 60-70 mln xristian, 7 mln yəhudi və s. yaşayır.

Avropa və Afrikadan Asiyaya gedən əsas yollar (marşrut) Yaxın Şərqdən keçir. Planetin ən çox neft hasil edən regionudur.

**Sxem 1.14**




BMT-nin hesabatlarında ən çox Yaxın Şərq qruplaşması kimi verilir. Lakin Britaniya qruplaşması bundan fərqlənir və Orta Şərq kimi verilir.

### Orta Şərq regionu (Britaniya yanaşması)

Bu anlayış Avropa mərkəzçi yanaşmaya əsaslanır və britaniyalıların XIX əsrdə istifadə etdikləri anlayışdır. Bu təyinetməyə görə İngiltərə və Avropa ölkələri mərkəz kimi qəbul edilmiş, Şərq – Yaxın Şərq, Orta Şərq və Uzaq Şərq kimi anlayışlar buna görə təyin edilmişdir.

Bu tanınmaya görə Orta Şərq ölkələrinə 23 dövlət daxildir (22+1).

| | |
|---|---|
| 1. Suriya | 13. Bəhreyn |
| 2. İraq | 14. Yəmən |
| 3. Qətər | 15. Misir |
| 4. Kipr | 16. Əfqanıstan |
| 5. İordaniya | 17. Pakistan |
| 6. İsrail | 18. Tunis |
| 7. Livan | 19. Əlcəzayir |
| 8. İran | 20. Liviya |
| 9. Səudiyyə Ərəbistanı | 21. Sudan |
| 10. BƏƏ | 22. Mərakeş |
| 11. Oman | 23. Fələstin |
| 12. Küveyt | |

Orta Şərq regionuna 23 ölkə daxildir. Bunların ikisi – İsrail və Kipr qeyri-müsəlman ölkələridir (əsasən ərəb qrupuna və OPEC-ə daxil olan ölkələrdir).

## Uzaq Şərq regionu

Şərqi Asiyada olan beş ən güclü ölkə: Rusiya, Çin XR, Cənubi Koreya, Koreya XDR və Yaponiya, bəzən Filippin də buraya daxil edilir. Koreya XDR (Şimali Koreya) istisna olmaqla İnkişaf Etmiş, İEOÖ və YSÖ ölkələridir: Rusiya və Çin XR BRİKS.

## Balkan ölkələri (regionu)

Bu ölkələrə 12 dövlət daxildir. Altısının ərazisi tam, üçünün isə böyük və üçünün az bir hissəsi Balkanlara düşür:

1) Albaniya – tam,
2) Bolqarıstan – tam,
3) Bosniya və Herseqovina – tam,
4) Yunanıstan – tam,
5) İtaliya – az hissəsi,
6) Makedoniya – tam,
7) Rumıniya – az hissəsi,
8) Serbiya – böyük hissəsi,
9) Sloveniya – üçdə biri,
10) Türkiyə – az hissəsi,
11) Xorvatiya – yarısı,
12) Monteneqro – tam.

Balkan regionunun sahəsi 505 000 km$^2$-dir. Buraya 6 dənizarası region da deyilir. Sərhədləri:

- Aralıq dənizi
- Qara dəniz
- Egey dənizi
- Adriatik dənizi
- İonik dənizi
- Mərmərə dənizi

Balkan ölkələrinin 6-sı əvvəldən olan, 6-sı isə Yuqoslaviya parçalandıqdan sonra müstəqillik əldə edən ölkələrdir.

3 ölkə müsəlman ölkələri qrupuna daxildir(Albaniya, Türkiyə, Bosniya və Herseqovina). Kosova da müstəqilliyini elan edib, lakin hələ tam tanınmayıb. Əsasən müsəlman ölkəsidir.

## Karib Hövzəsi regionu

21 dövlət, 12 ərazi və kiçik adalardan ibarətdir. İki yerə bölünür.

**I. Qitə ölkələri:**

1) Meksika
2) Kolumbiya
3) Venesuela
4) Nikaraqua
5) Honduras
6) Qvatemala
7) Panama
8) Kosta – Rika
9) Beliz

**II. Ada ölkələri və əraziləri:**

**Ada ölkələri:**

1) Kuba
2) Dominikan Respublikası
3) Haiti
4) Yamayka
5) Trinidad və Tobaqo
6) Dominika
7) Sent – Lyusiya
8) Antiqua və Barbuda
9) Barbados
10) Sent – Vinsent və Qrenadin
11) Qrenada
12) Sent – Kits və Nevis

**Ada əraziləri:**

1) Qvadelupa,Martinika (Fransa)
2) Kyurasao
3) Virginya adaları (ABŞ)
4) Bonayre, Sint-Estatius və Saba(Niderland)
5) Kayman adaları
6) Aruba
7) Virginya adaları (Böyük Britaniya)
8) Anqilya
9) Montserrat
10) Sen – Marten
11) Sint – Marten
12) Sen - Bartelemi

Kiçik adalar(əhali yaşamır)

**Sxem 1.15**



Latın Amerikası subregionunun əlamətdar xüsusiyyətləri vardır. Bu məlumatlar açılmalıdır:

- ❖ Boliviya çoxmillətli dövləti (Simon Bolivarın şərəfinə), 37 rəsmi dili vardır, əhalisi Azərbaycan qədərdir. Ərazisi Azərbaycandan 11 dəfə çoxdur və s.
- ❖ Surinam 35 Amerika dövləti arasında İSƏT üzvü olan yeganə ölkədir.
- ❖ Braziliya və Argentina çox böyük əraziyə malik nəhəng aqrar, And ölkələri çox böyük mineral ehtiyatlara malik, Mərkəzi Amerikada Panama dünya yükdaşımalarında əvəzsiz rol oynayan dövlətlərdir və s.

### Okeaniya regionu

Okeaniyanın üç əsas regionu aşağdakılardır:

I. Melaneziya – qara adalar;
II. Mikroneziya – kiçik adalar(1500-dən çox ada);
III. Polineziya – çoxlu adalar(1000-dən çox).

**Melaneziya** – Sakit Okean adalar qrupudur. Yerli əhali qaradərililərdir, sahəsi 940 min $km^2$, əhalisi 6,5 mln nəfərdir. Avstraliyanın Şimal-Şərqində yerləşir. Avstraliyadan Şərqə birincidir.

**Mikroneziya** – Quru sahəsi çox azdır. Əhalisi azdır, çox böyük dəniz iqtisadi zonasıdır. Melaneziyadan Şimal-Şərqdə yerləşir.

**Polineziya** – Okeaniyanın subregionu, Sakit Okeanın mərkəzi hissəsində yerləşir. Qərbdən Şərqə üçüncüdür.

### İndoneziya

Bu günüə qədər İndoneziya adalarının dəqiq sayı müəyyən edilməmişdir. Rəsmi statistika İndoneziyada 17804 ada olduğunu göstərir ki, bunlardan da 7870-i adlı, 9634-ü isə adsız adalardır.

## 6. BEYNƏLXALQ ƏMƏK BÖLGÜSÜNDƏ (BƏB) DÜNYA ÖLKƏLƏRİNİN YERİ VƏ ROLU

Beynəlxalq Əmək Bölgüsündə dünya ölkələrinin iştirakını müəyyən edən amillər iki qrupa bölünür:

I. BƏB-in milli amilləri;
II. BƏB-in beynəlxalq amilləri.

**I. BƏB-in milli amilləri özü iki yarımqrupa bölünür:**

1. Ölkələrin təbii-coğrafi vəziyyəti;
2. Ölkələrin sosial-iqtisadi vəziyyəti (xüsusiyyətləri).

Ölkələrin təbii-coğrafi vəziyyətinə aşağdakılar daxildir:

- ❖ Ölkənin təbii iqlim şəraiti;
- ❖ Təbii resursları;
- ❖ Ərazisinin ölçüləri;
- ❖ Əhalisinin sayı;
- ❖ Ölkənin geoiqtisadi mövqeyi və s.

Ölkələrin sosial-iqtisadi vəziyyətinə (xüsusiyyətlərinə) aşağdakılar daxildir:

- ❖ Dünya iqtisadiyyatında yeri;

- ❖ Tarixi inkişaf xüsusiyyətləri;
- ❖ İstehsal ənənələri və xüsusiyyətləri;
- ❖ Xarici iqtisadi əlaqələrin tarixi;
- ❖ Keçdiyi ictimai quruluş;
- ❖ Elmi – texniki inkişaf səviyyəsi;
- ❖ Təsərrüfat tipi (bazar, planlı və s.);
- ❖ Qanunvericilik bazası;
- ❖ İqtisadi sistemi (kapitalist, sosialist və s.);
- ❖ İnvestisiya təminatı;
- ❖ Miqrasiya problemi və s.

**II. BƏB-in beynəlxalq amillərinə aşağdakılar daxil edilir:**

1. Dünya üzrə elmi-texniki tərəqqi səviyyəsi;
2. Dördüncü sənaye inqilabının nəticələri və beşinci sənaye inqilabına keçid mərhələsi;
3. Ən müasir texnologiyaların tətbiqi vəziyyəti;
4. Ölkənin qlobal proseslərdə iştirakı səviyyəsi;
5. Dünya bazarındakı tələb və təklif;
6. Ölkənin transregional lahiyələrdə iştirakı;
7. Müasir beynəlxalq hesablaşmalar sistemi;
8. Qlobal problemlərin yaranması;
9. Qızıl – valyuta ehtiyyatları;
10. Beynəlxalq miqrasiya və s.

Ölkələrin BƏB-də iştirakını xarakterizə edən əsas göstəricilər aşağdakılardır:

1. Xarici ticarət göstəriciləri (10-a qədər göstərici);
2. Xarici investisiya göstəriciləri (8 göstərici);
3. Xarici işçi qüvvəsi və əmək miqrasiyası göstəriciləri (5 əsas göstərici);
4. Nəqliyyat əlaqələri göstəriciləri;
5. Təbii resurs göstəriciləri və s.

Bu məsələlər 5, 6, 10, 11 və 12-ci mövzularda geniş öyrənilir.

# MÖVZU 2. DÜNYA İQTİSADİYYATININ YARANMASI, FORMALAŞMASI VƏ İNKİŞAFI MƏRHƏLƏLƏRİ

## SUALLAR

1. Dünyanın ümumi və geoiqtisadi tarixi dövrləri.
2. Dünyanın siyasi xəritəsinin formalaşdırılması dövrləri(mərhələləri).
3. Müasir dünya təsərrüfatının inkişaf tarixi.
4. Dünya iqtisadiyyatı tarixinə YUNİDO yanaşması.
5. Dünya iqtisadiyyatının qədim və orta əsrlər xronoloji dövrləri.
6. Dünyanın coğrafiya cəmiyyətləri.

### Əsas ədəbiyyat


1. Lomakin V.K. Dünya iqtisadiyyatı (rus dilindən tərcümə, Bakı, 2015 (PDF).
2. Hacıyev Ş.H., Bayramov Ə.İ.. Dünya iqtisadiyyatının tarixi. Dərslik, Bakı, 2011.
3. Əliyev M.C., Həsənli F.A. Coğrafi kəşflər tarixi və səyyahlar, Bakı, 2009.
4. Mirişli F.R. Dünya iqtisadiyyatı (rus dilindən tərcümə), Bakı, 2015.
5. Бор М.З. История Мировой Экономики. Изд, "Дело и Сервис", Москва, 1998.
6. Сорохин О.Г., Ушаков С.А. Развите Земли, М. Изд, МГУ, 2000.
7. Вебер М. История хозяйства, Город М.: Канон – прес, 2001.
8. "İƏİT tarixi statistik məlumatlar" (OECD Historical Statistics), Cari və keçmiş məlumatlar.


## 1. DÜNYANIN ÜMUMİ VƏ GEOİQTİSADİ TARİXİ DÖVRLƏRİ

Dünyanın yaranması, formalaşması, inkişafı və indiyə qədər gəlib çatması haqqında dünyanın tarixi, arxeoloji, astronomik və s. elmi mənbələrində sayısız-hesabsız materialist və idealist konsepsiyalar, nəzəriyyələr, tədqiqatlar, hesablamalar və baxışlar mövcuddur. Bu istiqamətdə vahid mövqe yoxdur və ola da bilməz. Odur ki, dünya iqtisadiyyatının tarixini yanaşma mövqeyindən qiymətləndirmək, şərh etmək və mənbələrə istinad etməklə göstərmək məqsədəuyğun hesab edilir.

### Yer kürəsinin quru ərazisinin yerdəyişməsi

200 mln il bundan əvvəl Yer kürəsinin quru ərazisi vahid materikdən ibarət olmuşdur ki, bu ərazi Pangeya adlandırılmışdır.

180 mln il bundan əvvəl Pangeya iki materikə - Lavraziya və Qondvana materiklərinə ayrılmışdır. Lavraziya materikində indiki Şimali Amerika və Avrasiya, Qondvana materikində isə indiki Cənubi Amerika, Afrika, Avstraliya və Antarktida bir yerdə olmuşвгг.

Gələcəkdə - 50 mln ildən sonra okeanlarda materiklərin yerinin dəyişməsi nəticəsində Yer kürəsində Atlantik okean genişlənəcək, Afrikada girintili-çıxıntılı zonalar yaranacaq və Avstraliya Asiyaya yaxınlaşacaqdır.

**Dünyanın ümumi tarixi dövrləri:**

1. Qədim dövr(dünya) – 476-cı ilə qədər (Qərbi Roma imperiyasının süqutu;
2. Orta əsrlər dövrü – 477-1453-cü illər (Konstantinopolun süqutu);
3. Yeni dövr – 1454-1918-ci illər (I Dünya müharibəsinin sonu);
4. Ən yeni dövr – 1919-cu ildən sonra.

**Dünyanın geoiqtisadi tarixi dövrləri:**

**I. Köhnə dövr:** 1870 – I Dünya müharibəsinin sonuna qədər. Dünya tərkibində çoxsaylı müstəmləkələr olan, əsasən, 6-7 metropoliya (imperiya) tərəfindən idarə edilirdi. 100-ə qədər imperiya mövcud olmuşdur: Britaniya imperiyası, Monqol imperiyası, Rusiya imperiyası, Osmanlı imperiyası, Ərəb xilafəti, Qədim Misir, Avstriya – Macarıstan, Roma imperiyası, SSRİ və s.

**II. Yeni dünya:** "Yeni dünya qaydaları" dövrü. Kapitalist və sosialist dünyası dövrü. 1918-1991- ci illər (73 il), ABŞ – SSRİ Soyuq müharibə dövrü.

**III. Ən yeni dünya dövrü:** "Yeni Beynəlxalq İqtisadi Qaydalar" dövrü. Dünya güclərinin yaranması: "G7", "G20", BRİCS, ABŞ, Yaponiya, Çin, Aİ və s.

## 2. DÜNYANIN SİYASİ XƏRİTƏSİNİN FORMALAŞDIRILMASI DÖVRLƏRİ (MƏRHƏLƏLƏRİ)

**I mərhələ:** Qədim dövr – dünya yaranandan V əsrə qədər. Bu dövrün ilk dövlətləri:

- Qədim Misir;
- Qədim Yunanıstan;
- Qədim Roma;
- Karfagen (b.e.ə. 840-cı il - Qədim Finikya dövləti, indiki Tunis ərazisidir).

Ərazilər hərbi yürüşlər və müharibələrlə əldə edilirdi.

**II mərhələ:** Orta əsrlər dövrü – V-XV əsrlər.

**III mərhələ:** Yeni dövr – XV-XX əsrin əvvəli(1918-ci ilə qədər).

**IV mərhələ:** Ən yeni dövr – 1919-cu ildən indiyə qədər.

**Dünya təsərrüfatının ilkin dövr kəşfləri (yaranışları).**

Dünya təsərrüfatının ilkin dövrlərində əldə edilən həyati əhəmiyyətli kəşflər (yaranışlar) aşağdakılardır:

1. İlk alətlər;
2. Silahların yaranması (qida əldə etmək üçün);
3. Ev-eşik (mağaradan evə doğru) – evlərin yaranması;
4. Od-ocaq (odun-istiliyin yaranması);
5. İşığın yaranması (piy, ağ neft lampası);
6. Gediş-gəliş (hərəkət vasitələri) – hərəkətin (dəvə, araba) yaranması;
7. Qab-qacaq (məişət əşyalarının yaranması);
8. Metalın kəşfi;
9. Şüşənin kəşfi;
10. Yazının kəşfi;
11. Qədim pullar;
12. Təqvimin kəşfi və s.

Dünyanın siyasi xəritəsinin formalaşdırılması prosesi bir çox minillikləri əhatə edir. Bu dövrlərdə çoxsaylı tarixi mərhələlər yaranmış, mövcud olmuş və keçilmişdir.

**Qədim dövr:** İlk dövlət formalarının yaranması dövründən bizim əsrin V əsrinə qədər olan dövrü – quldarlıq quruluşu dövrünə qədər olan dövrü əhatə edir. Bu dövr dünyada – Qədim Misir, Karfagen, Qədim Yunanıstan, Qədim Roma və s. kimi ilk dövlətlərin inkişafı və dağılması ilə xarakterizə edilir. Bu dövlətlər dünya sivilizasiyasının inkişafına böyük tarixi töhfələr vermişdir. O vaxt həmin dövlətlərin ərazisinin müəyyən edilməsi və ərazi dəyişikliklərin əsas vasitəsi hərbi yürüşlər və müharibələr olmuşdur.

**Orta əsrlər dövrü:** V-XV əsrləri əhatə edir, dünya iqtisadi və siyasi tarixində feodalizm dövrü hesab edilir. Feodal dövlətlərin siyasi funkisyaları quldarlıq quruluşu dövlətlərinin siyasi funkisyalarına nisbətən daha mürəkkəb və müxtəlif idi. Bu dövrdə artıq daxili bazar və regionlar yaranır. Dövlətlər uzaq əraziləri ələ keçirməyə başlayır. Hindistana

yeni dəniz yolu axtarılıb-tapılır. Konstantinopolun süqutundan sonra Avropanın böyük hissəsi 600 ildən çox Osmanlı imperiyasının nəzarəti altında olur, Şərqdən Qərbə doğru ticarət yolları güclənir. Həmin dövrdə əsas və güclü dövlətlər Vizantiya, Müqəddəs Roma imperiyası, İngiltərə, İspaniya, Portuqaliya, Kiyev Rusu və s. idi. Sərhədlər, demək olar ki, yox idi. Dünyada coğrafi intibah dövrü yaranmışdı. Ən böyük coğrafi kəşflər, demək olar ki, həmin 100 il (1420-1522-ci illər) ərzində baş vermişdir. Ona görə də həmin dövr *Böyük Coğrafi Kəşflər dövrü* adlandırılır. Bu dövrün əsas Böyük Coğrafi Kəşflərinin xronologiyası aşağıdakı kimidir:

1) 1420-ci illər - Portuqaliyanın ilk müstəmləkə işğalı: Madeyra, Azor adaları, Dalğasız Sahil (Afrika);
2) 1453-cü il – Konstantinopolun fəthi;
3) 1492-1502- ci illər – Amerikanın kəşfi (Kolumbun Mərkəzi Amerika və Cənubi Amerikanın Şimal hissəsinə 4 səyahəti). Amerikanın ispan müstəmləkəçiliyinin başlanması (XXI əsrin əvvəlində ispan dili 22 dövlətin rəsmi dövlət olmuşdur);
4) 1494-cü il – Tordesilyas müqaviləsi – dünyanın Portuqaliya və İspaniya arasında bölünməsi;
5) 1498 – ci il – Vasko da Qamanın Avropadan Afrika ətrafından keçməklə Hindistana üzüb keçməsi yolu;
6) 1499 – 1504-cü illər – Ameriqo Vespuççinin Cənubi Amerikaya səyahəti;
7) 1519-1522-ci illər – Magellanın və onun həmkarlarının dünya səyahəti.

Bu böyük coğrafi kəşflər dövründə dünyanın siyasi xəritəsi tamamilə dəyişmişdir.

**Yeni dövr:** XV-XVI əsrlərdən başlayır, XX əsrin əvvəli – I Dünya müharibəsinin başlandığı dövrə qədər davam etmişdir. Bu dövr dünyada kapitalist münasibətlərinin yaranması, yüksəlişi və təsdiqi dövrü olmaqla Avropa müstəmləkəçiliyinin yayılması və bütün dünyada beynəlxalq təsərrüfat əlaqələrinin genişlənməsi dövrünün əsasını qoymuşdur.

Böyük Coğrafi Kəşflər dövründə nəhəng güclü və müstəmləkəçi iri dövlətlər İspaniya və Portuqaliya olmuşdur. Lakin manufaktura istehsalının inkişafı nəticəsində İngiltərə, Fransa, Niderland, Almaniya, bir qədər sonra ABŞ ön mövqeyə çıxmışlar. Tarixin bu dövrü böyük müstəmləkəçilik işğalı ilə xarakterizə edilir. Dünya düzəni dəfələrlə dəyişmiş və yenidən qurulmuşdur.

Xüsusilə XIX-XX əsrlərin qovşağında dünyanın siyasi xəritəsi daha çox dəyişmişdir. Həmin vaxt dünyanın aparıcı dövlətləri arasında dünya ərazisinin zəbt edilməsi və bölüşdürülməsi üçün mübarizə gedirdi. Belə ki, əgər 1876-cı ildə Afrika ərazisinin 10 faizi Qərbi Avropa ölkələrinə məxsus idisə, artıq 1900-cü ildə bu ərazilərin 90 faizi onlara məxsus idi. 24 il ərzində Afrika ərazisinin 80 faizi Qərbi Avropa ölkələri tərəfindən ələ keçirilmişdir. XX əsrin əvvəlində zor və güclə dünyanın bölüşdürülməsi faktiki olaraq tamamilə başa çatdırılmışdır.

**Ən yeni dövr:** Birinci Dünya müharibəsinin qurtarması ilə başlayır. Ən yeni dövrün özü üç mərhələyə bölünür:

1) Birinci mərhələ: 1919-1945-ci illər;
2) İkinci mərhələ: 1946-1989-cu illər;
3) Üçüncü mərhələ: 1990-cı ildən hazırkı dövrə qədər.

Ən yeni dövrün birinci mərhələsi – dünya xəritəsində ilk sosialist dövlətinin (RSFSR, sonra da SSRİ) yaranması, Avropada faşizmin güclənməsi, II Dünya (1939) və Böyük Vətən Müharibəsinin (1941) başlanması, Avropanın və dünyanın siyasi xəritəsində ərazi dəyişikliklərinin əmələ gəlməsi, Avstriya-Macarıstan imperiyasının dağılması, Avstriya, Macarıstan, Polşa, Finlandiya, Yuqoslaviya krallığı və s. kimi yeni suveren dövlətlərin yaranması, Osmanlı imperiyasının dağılması, Türkiyə dövlətinin yaranması, keçmiş Almaniya müstəmləkələri və Osmanlı imperiyası ərazilərinin Millətlər Liqasının mandatı altında idarəçiliyə verilməsi və s. tarixi hadisə və proseslərlə xarakterizə edilir.

Ən yeni dövrün ikinci mərhələsi – Avropanın siyasi xəritəsində ərazi dəyişikliklərinin baş verməsi ilə yanaşı dünya müstəmləkə sisteminin dağılması və Asiyada, Afrikada, Okeaniyada, Latın Amerikasında çoxsaylı müstəqil dövlətlərin əmələ gəlməsi mərhələsidir.

Ən yeni dövrün üçüncü mərhələsi – XX əsrin 90-cı illərinin əvvəllərindən başlayaraq indiki dövrə qədər davam edir. Bu dövrdə dünyanın siyasi xəritəsində keyfiyyətcə tamamilə yeni, dünya birliyinin sosial-iqtisadi və ictimai-siyasi həyatına güclü təsir göstərən aşağdakı köklü dəyişikliklər baş vermişdir:

1) 1991-ci ildə SSRİ-nin dağılması. Buna qədər ilk dəfə 1990-cı ildə Litva, 1991-ci ildə SSRİ-nin qalan 14 müttəfiq respublikası, ən sonda da Rusiya və Qazaxıstan SSRİ-nin tərkibindən çıxaraq öz siyasi müstəqilliklərini elan etdilər;

2) 8 dekabr 1991-ci ildə Belojevski sazişi ilə Müstəqil Dövlətlər Birliyi (MDB) yaradıldı;

3) 1989-1990-cı illərdə Şərqi Avropa ölkələrində (keçmiş sosialist ölkələrində) sülhlə, müharibəsiz, nisbətən sakit ("Məxməri") xalq-demokratik inqilabları baş verdi və sosializm sistemi, demək olar ki, dağıldı;

4) 1990-cı ilin mayında milli-etnik əsaslara söykənməklə iki ərəb dövləti – Yəmən Ərəb Respublikası və Yəmən Xalq Demokratik Respublikası birləşməklə paytaxtı Sana olmaqla Yəmən Respublikası yaradıldı;

5) 3 oktyabr 1990-cı ildə iki alman dövləti – Almaniya Federativ Respublikası və Almaniya Demokratik Respublikası birləşdirildi;

6) 1991-ci ildə Varşava Müqaviləsi Təşkilatı və Qarşılıqlı İqtisadi Yardım Şurası(QİYŞ) öz fəaliyyətini dayandırdı;

7) Yuqoslaviya Sosialist Federativ Respublikasına daxil olan üzvlər arasında baş verən kəskin siyasi böhran vətəndaş müharibələri və millətlərarası münaqişələrə gətirib çıxarmaqla bu federasiya dağıldı, nəticədə 7 dövlət – Sloveniya, Bosniya və Hersoqovina, Makedoniya, Xorvatiya, Serbiya, Monteneqro və Kosova öz siyasi müstəqilliklərini elan etdilər;

8) Müstəmləkəsizləşmə prosesi davam edirdi. Afrikadakı son müstəmləkə Namibiya müstəqillik qazandı, Okeaniyada Mikroneziya Federativ Ştatları, Marşal Adaları Respublikası, Palau Respublikası kimi yeni müstəqil dövlətlər yarandı;

9) 1 yanvar 1993-cü ildə Çexoslavakiyanın dağılması nəticəsində iki müstəqil dövlət – Çexiya və Slovakiya yarandı;

10)24 may 1993-cü ildə Efiopiyanın tərkibinə daxil olan Eritriya 40 illik istiqlaliyyət uğrunda mübarizədən sonra müstəqilliyini elan edir;

11) 2011-ci ildə Afrikada Sudan iki yerə bölünərək Cənubi Sudan Respublikası öz müstəqilliyini elan etdi.

XV əsrin sonlarında(1492 – ci ildən) böyük coğrafi kəşflər edilməsi ilə dünyada müstəmləkəçilik dövrü başlamış və XX əsrin sonuna qədər davam etmişdir. Böyük coğrafi kəşflərin səbəbləri aşağdakılar hesab edilir:

1. Avropada əmtəə istehsalının çoxalması, ticarətin inkişaf etməsi, pula tələbatın artması və əmtəələrin satılması üçün yeni bazarların axtarılması;

2. Sahibkarların, xüsusilə varlıların qızıla olan tələbatının artması və buna görə də, XV əsrdə avropalıların qızıl əldə etmək məqsədilə uzaq ölkələrə səfərləri;

3. Çin və Hindistanla ticarəti, əsasən osmanlılar aparırdılar (Osmanlı imperiyasının 600 illik fəaliyyət dövrü). Balkanlarda osmanlıların yaratdıqları ən yüksək azadlıq və sərbəstlik, Qərbi Afrikaya hərəkətin yüksək səviyyədə təmin edilməsi, Türk atlarının sürəti;

4. Avropalılar Şərqlə birbaşa ticarət etməklə böyük gəlirə sahib olmaq üçün Hindistana dəniz yolları axtarırdılar;

5. Dəniz cihazları, kompasdan istifadə və yelkənli gəmilərin düzəldilməsi avropalıların uzaq dəniz səyahətlərinə çıxmasına imkan verirdi və s.

## 3. MÜASİR DÜNYA TƏSƏRRÜFATININ İNKİŞAF TARİXİ

Müasir dünya təsərrüfatının inkişaf tarixini dörd mərhələyə bölmək olar:

**I mərhələ:** XIX əsrin sonu – 1869-1939-cu illər(70 il). Bu dövrün xüsusiyyətləri:

1. Dünya təsərrüfatı müstəmləkə strukturuna malik idi;
2. İnfrastrukturlar birbaşa İnkişaf Etmiş Ölkələrdən İnkişaf Etməkdə Olan Ölkələrə(İEOÖ-lərə) hərəkət edirdi;
3. Ərazilərin təbii resursları, əsasən, kapitalist sahibkarlar tərəfindən istismar edilirdi və s.

**II mərhələ:** 1945-1975-ci illər(30 il). Bu dövrün xüsusiyyətləri:

1. Müstəmləkə ölkələrində milli azadlıq mübarizəsinin başlanması və müstəmləkəçilikdən azadolma dövrü;
2. Xarici kapitalın milliləşdirilməsi;
3. İqtisadiyyatın dövlət sektorunun gücləndirilməsi;
4. Qlobal idarəetmə insitutlarının yaradılması (BMT, BVF, DB, QATT və s.).

**III mərhələ:** 1975-1990-cı illər (15 il). Bu dövrün xüsusiyyətləri:

1. TMK-ların yaranması;
2. İnteqrasiya prosesinin güclənməsi (Aİ-1993, NAFTA-1988, Asiya-Sakit Okean İqtisadi Birliyi (АТЭС)-1989-cu il və s.).

**IV mərhələ:** XX əsrin 90-cı illərindən indiyə qədər(30 ildən çox). Bu dövrün xüsusiyyətləri:

1. Qloballaşmanın dərinləşməsi;
2. Dünyanın konfiqurasiyasının dəyişməsi;
3. Sosialist təsərrüfatı sisteminin köçməsi;
4. Ölkələrin bazar iqtisadiyyatı modelinə keçməsi;
5. Rəqəmsal iqtisadiyyata keçmə və s.

## 4. DÜNYA İQTİSADİYYATI TARİXİNƏ YUNİDO YANAŞMASI

**I. Dünyanın sənayeləşməyə qədərki dövrü.** 1000-1800-cü illər (800 illik dövr). Bu dövrdə dünyada baş verən ən əsas iqtisadi nəticələr aşağdakılardır:

1. Qədim dövrdə və orta əsrlərdə Şərq ölkələrində (Misir, Suriya, Çin, Mesopotamiya və s.) əmtəə istehsalı daha çox artırdı;
2. Bir çox yeniliklər Şərq ölkələrində baş verirdi;
3. Qədim (Böyük) İpək Yolu fəaliyyət göstərirdir;
4. Yelkənli qayıqların yaranması;
5. Yeni dünyanın kəşfi və s.

**II. Sənaye çevirilişləri dövrü.** 1800-1950-ci illər(150 il). Bu dövrdə dünyada baş verən əsas iqtisadi nəticələr aşağdakılardır:

1. Sənaye inqilabları;
2. İlk nüvə silahının yaranması(1945-ci il, ABŞ);
3. Yeni nəqliyyat vasitələri yarandı;
4. Rabitə vasitələri yarandı;
5. Bu dövrdə inkişaf Şərqdən Qərbə tərəf keçdi;
6. 150 ildəki inkişaf 800 ildəki inkişafı dəfələrlə ötdü və s.

**III. Dünyanın texnologiyalar dövrü.** 1950-ci ildən indiyə qədər. Bu dövrdə dünyada baş verən əsas iqtisadi nəticələr aşağdakılardır:

1. Avtomatlaşdırma;
2. Robotlaşdırma;
3. Kompüterləşmə;
4. Süni insan(Sofiya) dövrü.

## 5. DÜNYA İQTİSADİYYATININ QƏDİM VƏ ORTA ƏSRLƏR XRONOLOJİ DÖVRLƏRİ

Bizim eradan əvvəl (b.e.ə.) IV əsrin sonu – bizim əsrin (b.ə.) 476-cı ilinə qədərki dövr (Qədim Şərq dövlətləri dövrü).

IV – VIII əsrləri – Sənətkarlığın əkinçilikdən ayrılması və sənətkarlıq məntəqələrinin yaranması.

VIII – IX əsrlər – "Torpaq-ərazi" birliklərinin yaranması.

V əsrin sonu – XVII əsrin ortaları – Qərbi Avropada feodalizm dövrü.

IX – XII əsrlər – Qədim Rusiya dövləti – Kiyev Rusunda feodallaşma prosesi.

X əsr – Rus tacirlərinin səyi və təklifləri əsasında Vizantiya ilə ticarət müqavilələrinin bağlanması.

XII əsrin ortaları – Bəzi feodal kynazlıqlarında qədim rus dövlətlərinin süqutu.

XIII – XIV əsrlər – Üçtarlalı torpaq sisteminin geniş tətbiqinə başlanılması.

XI – XV əsrlər – Qərbi Avropada inkişaf etmiş feodalizm dövrü.

XI – XIII əsrlər – Xaç yürüşləri dövrü.

XV əsrin sonu – XVIII əsrlər – Böyük Coğrafi Kəşflər dövrü.

1492-ci il – Xristofor Kolumbun Amerikanı kəşf etməsi.

1497-1499-cu illər – Vasko da Qamanın Hindistana dəniz yolunu kəşf etməsi.

XIII əsrin 30-cu illəri – XV əsr – Monqol-tatar hakimiyyəti dövrü.

XV əsrin 70-ci illəri – Rusiyada inkişaf etmiş feodalizmin başlanması. Rus mərkəzi dövlətinin yaranması.

1535-ci il – Rusiyada vahid pul sisteminin yaradılması.

XVI əsr – Rusiyada zadəgan mülkiyyətinin daha geniş yayılmış əkinçilik növünə çevrilməsi.

XVI əsrin ikinci yarısı – Rusiyada iri vilayət bazarlarının formalaşdırılmasına başlanılması.

1519-1522-ci illər – Ferdinan Magellanın ekspediyasının dünyaətrafı səyahəti.

XVI əsr – XVIII əsrin ortaları – Qərbi Avropada feodalizmin dağılması və kapitalizmin yaranması dövrü.

XVII əsr – Təhkimli kəndlilərin əməyindən daha çox istifadə etməklə manufakturaların yaranması.

XVII əsr – Ticarət əlaqələrinin inkişafı və Ümumrusiya bazarının formalaşdırılması.

XVII əsrin birinci yarısı – Hollandiyanın "XVII yüzilliyin nümunəvi kapitalist ölkəsi"nə çevrilməsi.

XVII əsrin ortaları – Ukraynanın Rusiya ilə birləşdirilməsi.

1651-ci il – İngiltərədə gəmiçilik(naviqasiya) aktının qəbul edilməsi.

1667-ci il – Rus hökumətinin proteksionist siyasətini əks etdirən yeni ticarət nizamnaməsinin qəbul edilməsi.

XVII əsrin sonu – XVIII əsrin birinci dördlüyü – I Pyotrun iqtisadi siyasəti və islahatları.

1753-cü il – Daxili gömrüyün ləğv edilməsi.

1754-cü il – Zadəkanlığa iqtisadi yardım göstərilməsi üçün ilk dəfə Rusiya Dövlət Əmanət bankının yaradılması.

1765-ci il – İ.Polzunovun universal buxar maşınının yaradılması.

1769-cu il – Rusiyada ilk kağız pulun buraxılması.

1769-cu il – Rusiyada ilk xarici istiqraz buraxılması.

XVIII əsrin axırıncı üçlüyü – XIX əsrin birinci dördlüyü – İngiltərədə sənaye çevrilişi.

1775-1783-cü illər – Müstəqillik uğrunda Şimali Amerika müstəmləkələrinin İngiltərə ilə müharibələri.

1784-cü il – Mexanik Ceyms Uattın buxar maşınının ixtirası.

XIX əsrin 30-cu illəri – Buxar maşınları (mühərrikləri) və işçi maşın sistemlərinin tətbiqi ilə sənaye çevrilişinin başlanması.

1837-ci il – Peterburq və Çarski Selo arasında Rusiyada birinci dəmiryolunun açılması.

1839-1843-cü illər – E.Kankrinin pul islahatları.

XIX əsrin birinci yarısı – Dünyada İngiltərənin sənaye və ticarət inhisarının yaranması.

1851-ci il – İlk nəhəng Peterburq-Moskva dəmiryolunun tikintisinin başa çatıdırlması.

1860-cı il – Rusiyada Dövlət bankının təsis edilməsi.

1864-cu il – Rusiyada ilk xüsusi kommersiya bankının yaradılması.

1873-cü il – Rusiyada, əsasən, yüngül sənayeni iflic edən ilk iqtisadi böhran.

XIX əsrin 80-ci illəri – Sənaye çevrilişinin başa çatması.

XIX əsrin sonuncu üçlüyü – İnhisarçı kapitalizmə keçid.

XIX əsrin sonuncu dördlüyü – İngiltərənin sənaye birinciliyini itirməsi nəticəsində ABŞ-ın dünyada sənaye məhsulu istehsalı üzrə birinci yerə çıxması.

1870-ci illərin ortaları – XIX əsrin sonu – Dünyada aqrar böhran.

## Dünya iqtisadiyyatının inhisarçı kapitalizm dövrü

XIX yüzilliyin sonuncu üçlüyündən XX yüzilliyin 50-ci illərinə qədər – İlkin (erkən) dövr.

XIX əsrin 70-90-cı illəri – Texniki (sənaye) inqilablar.

XIX əsrin sonuncu dördlüyü – Sənayenin yeni sahələrinin yaranması (elektrotexnika, kimya, neft emalı, avtomobil).

XIX əsrin 80-90-cı illəri – Səhmdar cəmiyyətlərin sürətlə artması, İstehsal və bank işində inhisarçılığın inkişafı.

XIX yüzilliyin əvvəli – Avropada Alman sənayesinin İngiltərəni ötməklə birinci yerə çıxması.

XIX yüzilliyin sonuncu üçlüyü – ABŞ-ın dünyanın iqtisadi inkişaf mərkəzinə çevrilməsi. Dünyanın ərazi bölgüsünün başa çatması. İqtisadi bölgünün başlanması.

XIX əsrin 80-ci illəri – Rusiyada sənaye çevrilişinin başa çatması. Taxıl istehsalı mərkəzinin Rusiyanın cənub və şərq quberniyalarına keçirilməsi.

1882-1886-cı illər – Rusiyada sənaye böhranı.

1882-ci il – Rusiyada fabrik qanunçuluğunun yaranması.

1882-ci il – Rusiyada birinci inhisarçı birliyin – "Relsli fabrikantlar birliyi"nin yaranması.

XIX əsrin 90-cı illəri – Dəmiryolu tikintisi artımının ikinci mərhələsi.

1895-1897-ci illər – Qızıl monometallizmin genişlənməsi və Rusiyada pul tədavülünü sabitləşdirən S.Vittenin pul islahatı.

XIX əsrin 90-cı illərinin sonu – Rusiyanın dünyada nəhəng kənd təsərrüfatı məhsulları ixracatçısına çevrilməsi.

XIX əsrin sonu – Sibir dəmiryolu magistralının tikilməsi.

XX əsrin əvvəli – "Prodamet", "Qvozd", "Produqol" və "Prodvaqon" nəhəng sindiqatlarının yaradılması.

1901-1904-cü illər – Birinci bank inhisarı. Peterburq – Azov, Minski və Kiyev kommersiya banklarının ləğv edilməsi əsasında Azov-Don bankının təşkil edilməsi.

XIX əsrin sonu-XX əsrin əvvəli – Dünyanın ərazicə bölüşdürülməsinin başa çatması.

1890-1903-cü illər – Dünya iqtisadi böhranı.

1903-cü il – Hava uçuşlarına başlanılması.

1904-1905-ci illər – Rus-Yapon müharibəsi.

1905-1906-cı illər – Rusiyada 1905-ci il inqilabı.

1906-1910-cu illər – Stolipının aqrar islahatı.

XX əsrin əvvəlindən sonrakı dövr, yəni – "Ən yeni dövr" bu mövzunun 2-ci sualında ətraflı verilmişdir.

Dünyanın bütün dövrlərini qitələr, imperiyalar və dövlətlər üzrə öyrənmək elmi cəhətdən nə qədər diqqəti cəlb etsə də, Azərbaycanın 186 il ərzində əvvəlcə Rusiyanın, sonra isə SSRİ-nin tərkibində olduğuna görə dünya iqtisadiyyatı tarixində Rusiyaya daha çox diqqət yetirilmişdir.

Dünya iqtisadiyyatının formalaşması və inkişaf mərhələləri arasında kapitalizm dövrü xüsusi yer tutur. Kapitalizm ictimai-iqtisadi formasiyadır. İstehsal vasitələri üzərində xüsusi mülkiyyət və muzdlu əməkdən istifadəyə əsaslanır. İctimai-iqtisadi inkişaf mərhələsidir. Kapitalizmin əsas prinsipləri aşağdakılardır:

1. Bazar iqtisadiyyatı;
2. Hüquqi dövlət;
3. İnsan hüquqları;
4. Bərabərlik;
5. Plüralizm;
6. Demokratiya;
7. Milli dövlətçilik;
8. Sosial-liberalizm;
9. Azad sahibkarlıq;
10. Mütləq vergi sistemi və s.

Dünya iqtisadiyyatının inhisarçı kapitalizm dövrü bu mövzunun 5-ci sualında verilmişdir.

Marksist yanaşmaya görə ictimai formasiyaların 5 forması mövcuddur:

1. İbtidai icma quruluşu;
2. Quldarlıq quruluşu;
3. Feodalizm quruluşu;
4. Kapitalizm quruluşu;
5. Kommunizm quruluşu – Utopik quruluş.

Bu yanaşma dünya iqtisadçıları tərəfindən qəbul edilmir.

Dünya iqtisadiyyatının keçdiyi yolu və mərhələləri ümumiləşdirməklə dünya təsərrüfatının formalaşdırılması mərhələləri sxem 2.1-də verilmişdir.

**Sxem 2.1**

**Dünya təsərrüfatının formalaşdırılması mərhələləri**

**I. Məhsuldar qüvvələrin inkişafı**

↓

**II. Beynəlxalq əmək bölgüsü**

↓

**III. Beynəlxalq iqtisadi əməkdaşlıq(istehsalın, ticarətin və kapitalın beynəlmiləlləşməsi)**

↓

**IV. Beynəlxalq iqtisadi inteqrasiya**

↓

**V. Dünya iqtisadiyyatının qloballaşması**

Beləliklə, dünya iqtisadiyyatı məhsuldar qüvvələrin inkişafı, Beynəlxalq Əmək Bölgüsünün (BƏB) təkmilləşdirilməsi ilə ölkələr arasında beynəlxalq iqtisadi münasibətlər (əməkdaşlıq) yaranmış, beynəlxalq iqtisadi inteqrasiya prosesləri daha da güclənmiş və qlobal dünya iqtisadiyyatına gətirib çıxarmışdır.

## 6. DÜNYANIN COĞRAFİ CƏMİYYƏTLƏRİ

Dünya iqtisadiyyatının ərazi strukturunun öyrənilməsində dünyada yaranan və fəaliyyət göstərən coğrafiya cəmiyyətlərinin rolu və həyata keçirdiyi lahiyələr daha böyük əhəmiyyət kəsb edir.

### Kral Coğrafiya Cəmiyyəti (1830 – Londonda yerləşir)

**Kral Coğrafiya Cəmiyyəti** – ingilis elmi cəmiyyəti "London Coğrafiya Cəmiyyəti" adı ilə 1830-cu ildə Kral IV Vilhelm tərəfindən yaradılmışdır. Londonda yerləşir. Tərkibində Britaniya Coğrafiyaçıları İnstitutu fəaliyyət göstərir. 15 000 nəfər əməkdaşı vardır. Cəmiyyətin əsasını Con Barroy, Con Franklin və Frensis Bofortr qoymuşdur. Bu cəmiyyət dünyanın məhşur tədqiqatçıları və səyyahlarını müdafiə etmiş və maraqlandırmışdır (məsələn: Çarlz Darvin, Ceymis Kinqston, Henri Morton və s.). Tərkibində 5 komitə, 25-dən çox elmi qrup vardır(məsələn: coğrafiya tarixi, iqtisadi, nəqliyyat, əhali siyasi coğrafiya və s.).

### Rus Coğrafiya Cəmiyyəti (1845 – Moskvada yerləşir)

**Rus Coğrafiya Cəmiyyəti** – 1845-ci ildə yaradılmışdır. Moskvada yerləşir. Dünyanın ən qədim və ən nüfuzlu QHT-lərindən biridir. 600-dən çox lahiyə həyata keçirir. Qrantlar əsasında fəaliyyət göstərir. Məsələn: "Nəsli kəsilən heyvanların müdafiəsi", "Ən gözəl ölkə", "Mənim planetim", "Yeni torpaqların kəşfi və öyrənilməsi", "Dünya okeanının mənimsənilməsi" və s.

### Beynəlxalq Coğrafiya İttifaqı (BCİ-(İnternational Geographical Union))

**BCİ** – dünya coğrafiyaçılarının elmi birliyidir. Tərkibinə Elmi İşçilərin Beynəlxalq Şurası və İctimai Elmlərin Beynəlxalq Şurası daxildir. Hər 4 ildən bir konqreslərini keçirir. Birinci Beynəlxalq Konqresi 1871-ci ildə Antverpendə (Belçika) keçirilmişdir. Hazırda fəaliyyətdə olan BCİ 1922- ci ildən fəaliyyət göstərir, Brusseldə(Belçika) yerləşir. İndiyə qədər XXXIII konqresi keçirilmişdir. XXXIII konqres 2016-cı ildə Pekində keçirilmişdir.

### Hazırki Beynəlxalq Coğrafiya İttifaqı (BCİ – 1922 – Dehlidə yerləşir)

SSRİ bu ittifaqın 1956-cı ildən üzvü olmuşdur. Hazırda 87 ölkə bu ittifaqın üzvüdür. 1871-ci ildən indiyə qədər 33 beynəlxalq coğrafiya konqresi keçirilib (hər 3-8 ildən bir). 1871- Antverpen, 1925- Qahirə, 1976- Moskva, 2016- Pekin. Tərkibinə Beynəlxalq Elmi İttifaqlar Şurası (İSCU) və Beynəlxalq İctimai Elmlər Şuraları (İSSC) daxildir. BCİ-nin üzv ölkələrdə milli komitələri fəaliyyət göstərir.

### Azərbaycan Coğrafiya Cəmiyyəti (ACC)

ACC 1939-cu ildə SSRİ Coğrafiya Cəmiyyətinin filialı kimi, 1957-ci ildən isə müstəqil Azərbaycan Coğrafiya Cəmiyyəti Bakı şəhərində yerləşir yaradılmışdır. AMEA-nın Coğrafiya İnstitutu ilə birgə fəaliyyət göstərir. Cəmiyyətin nizamnaməsində onun əsas fəaliyyət istiqamətləri göstərilmişdir.

Dünya iqtisadiyyatının yaranması, formalaşdırılması və inkişaf mərhələlərinin praktiki və faktiki materiallarla dərindən öyrənilməsi üçün rus və ingilis dillərində verilən aşağdakı televizya kanallarından istifadəni tövsiyyə edilir:

1. "Тайны Галактики" ТК,
2. "Моя Планета" ТК,
3. "365 ТВ" ТК.

# MÖVZU 3. DÜNYA İQTİSADİYYATI NƏZƏRİYYƏLƏRİ

## SUALLAR

1. Dünya iqtisadiyyatının təkamül və inkişaf konsepsiyaları.
2. Əsas iqtisadi qanunlar və dünya iqtisadiyyatının qanunauyğunluqları.
3. Dünya iqtisadiyyatı nəzəriyyələri.
4. Klassik və neoklassik nəzəriyyələr.
5. Mikroiqtisadi səviyyədə əsas nəzəriyyələr.

## Əsas ədəbiyyat


1. Blanşard Oliver. Makroiqtisadiyyat(ingilis dilindən tərcümə). Bakı, 2017, səh.478-489.
2. Seyidoğlu Halil. Uluslararası iktisat: Teori, politika və uyğulama. İstanbul, 2003, səh. 11-115.
3. Hacıyev Ş.H., Bayramov Ə.İ. İqtisadiyyat fəlsəfəsi. "İqtisad Universiteti" nəşriyyatı, Bakı, 2008.
4. Xasbulatov R.İ. Beynəlxalq iqtisadi münasibətlər. Bakı, 2014, səh.43-70.
5. Марщал Н. Принципы Экономоической науки. М, 1993.
6. Пебро Мишель. Международные экономоические, валютные и финансовые отношения. Москва, 1990.
7. Антология экономической классики. В 2т – М.: ЭКОНОВ – КЛЮЧ, 1993.
8. Блауг М. Экономическая мысль в петроспективе – М.: Дело, 1994.
9. Киреев А. Международная Экономика: В 2ч.: Учеб. Пособие для студентов визов. – М.: Международные отношения, 1997.
10. Q.Menkyu. Ekonomiksin prinsipləri. Bakı, "İqtisad Universiteti" Nəşriyyatı, 2009.


## 1. DÜNYA İQTİSADİYYATININ TƏKAMÜL VƏ İNKİŞAF KONSEPSİYALARI

Dünya iqtisadiyyatı özünün nəzəri bazası üzərində formalaşmışdır. Bu bazaya müxtəlif dövrlərdə yaranan, genişlənən, nəşr edilən, təsdiqlənən və davam etdirilən müxtəlif nəzəriyyələr, konsepsiyalar və məktəblər daxildir.

Konsepsiya, nəzəriyyə və məktəblər yanaşma mövqeyindən, meyarından, mənbəyindən, dövründən və səviyyəsindən asılı olaraq müxtəlif cür qruplaşdırılır, bəzən bir-birini tamamlayır, davam etdirir və müdafiə edir.

Nəticədə dünya iqtisadiyyatı bu konsepsiyaların, nəzəriyyələrin və məktəblərin formalaşdırdığı nəzəri-iqtisadi bünövrə və müddəalar üzərində qurularaq formalaşır və inkişaf edir. Bu bölmədə, əsasən, dünyanın inkişafını əks etdirən, Beynəlxalq Əmək Bölgüsünə əsaslanan, əsas iqtisadi, texnoloji, təbii, sosial və sosial-mədəni konsepsiyalar və nəzəriyyələr verilir.

1969-cu ildən, yəni iqtisadiyyat üzrə Nobel mükafatı təsis ediləndən 2020-ci ilə qədər 50 il ərzində dünyanın 40-dan çox alimi iqtisadi nəzəriyyələrin işlənilməsi, təhlili, tədqiqi və iqtisadiyyatda tətbiqinə görə iqtisadiyyat üzrə Nobel mükafatına layiq görülmüşdür.

İqtisadiyyat sahəsində Nobel mükafatı laureatlarının bir çoxu sübut edir ki, ölkələrin sürətli iqtisadi inkişafının əsas səbəbi **sahibkar azadlığıdır**. Qadağan edilmiş fəaliyyət istisna olmaqla sahibkar tam azad və sərbəst olmalı, dövlət və hökumət orqanları onlara əlverişli şərait yaratmalı, iqtisadi alət və vasitələrlə onlarda motivasiya yaratmalıdır. Çünki ölkənin dövlət büdcəsinin əsas gəlirləri sahibkarlıq fəaliyyəti üzərində formalaşır.

Dünya iqtisadiyyatının təkamül konsepsiyaları cədvəl 3.1-də verilir.

**Cədvəl 3.1**

**Dünya iqtisadiyyatının təkamül konsepsiyaları**

| Konsepsiya | Müəllifi və tarixi | Əsas meyarı | İstiqaməti | Meyli | Adekvatlığı |
|---|---|---|---|---|---|
| Teoloji | E. Pamqil, Avqustin IV-V əsrlər | ilahi öngörmə | xətti | tənəzzül | qeyri-müəyyən |
| Marksist | K.Marks, V.İ.Lenin XIX-XX əsrlər | sosial-iqtisadi | xətti | tərəqqi | yalnız |
| Modernist | M.Veber, Q.Zimmel, U.Tennis, U.Dyükqeym XVI əsrdən başlayaraq | mədəniyyət | xətti | tərəqqi | qismən |
| Sivilizasiya | A.Teynvi, O. Spengler, N. Danilevski XIX-XX əsrin əvvəlləri | sosial-mədəni | tsiklik | dəyişkən | qismən |
| Tsiklik(uzun dalğa) | V.Kondratyev və b. XX əsr | zaman sərhədləri | tsiklik | dəyişkən | tam |
| Dünya-sistem | İ.Vallerstayn, F.Brodel XX əsr | Tarixi-sistem | tsiklik | dəyişkən | qismən |

Dünya iqtisadiyyatının təkamül konsepsiyalarının müəllifləri və tarixi dövrləri əsas meyarlar, istiqamətlər, gələcək meyillər və adekvatlığa görə verilmişdir.

**Dünya iqtisadiyyatının inkişaf konsepsiyaları**

1. Marksist (imperializm və neomüstəmləkəçilik) konsepsiya (O.Bauer, R.Qilferdinq, V.İ.Lenin);
2. Modernləşdirmə konsepsiyası (M.Veber, T.Pirso, Ş.Eyrenştad, Q.Myurdal);
3. Svilizasiya konsepsiyası (ATeynvi və b.);
4. Dünya-sistem konsepsiyası(İ.Vallerştayn və b.);
5. Teoloji konsepsiya (E.Panqil, Avqustin);
6. Tsiklik (uzun dalğa) konsepsiyası (V.Kondratyev və b.);
7. Milli təsərrüfatların qarşılıqlı asıllığı konsepsiyası (C.Xoffman – amerikan politoloqu, R. Kuper);
8. İqtisadi realizm konsepsiyası (Rəcəb Təyyub Ərdoğan).

Dünya iqtisadiyyatının inkişaf konsepsiyaları imperializmin ən yüksək mərhələsi olan kapitalizm, inkişafın təkmilləşdirici istiqaməti olan modernləşdirmə, dünyanı birləşdirən dünya-sistem, elmi nəticələrin gedib dirəndiyi və cavab tapa bilmədiyi teoloji, daim davam edən tsiklik, təklikdə mümkün olmayan qarşılıqlı asılılıq və qaçılması mümkün olmayan iqtisadi reallıq üzrə verilmişdir.

## 2. ƏSAS İQTİSADİ QANUNLAR VƏ DÜNYA İQTİSADİYYATININ QANUNAUYĞUNLUQLARI

Təbiətdən fərqli olaraq iqtisadi proseslər özünə məxsus qanunlarla idarə olunur. İqtisadi qanunlar – insanlar, iqtisadi hadisə və proseslər arasında daim təkrarlanan, onların mənafelərini ifadə edən obyektiv, zəruri səbəb-nəticə əlaqələridir. İqtisadi qanunlar üç əsas qrup qanunlara – spesifik, ümumi və ən ümumi, bir neçə sosial-iqtisadi sistemdə fəaliyyət göstərən iqtisadi qanunlara bölünür. İqtisadi qanunlar iqtisadi kateqoriyalar vasitəsilə baş verir.

Hər bir ölkənin həyata keçirdiyi iqtisadi hərəkətin – siyasətin əsası olan iqtisadi strategiya əsas iqtisadi qanunların və qanunauyğunluqların tələbləri əsasında formalaşdırılır. Bu tələblərdən kənar hər bir siyasət son nəticədə məhvə və iflasa aparır.

Əsas iqtisadi qanunlar və qanunauyğunluqlar sxem 3.1-də verilmişdir.

**Sxem 3.1**




Bu qanunlar əsas iqtisadi qanunlar olub bütün tətbiqi iqtisadi elmlərin, o cümlədən, dünya iqtisadiyyatının – dünya təsərrüfatının iqtisadi qanunlarıdır. Bu qanunlarla bərabər dünya iqtisadiyyatının aşağıdakı digər qanunları və onlardan əmələ gələn törəmə qanunauyğunluqları vardır:

1. Ölkələrin milli maraqlarının qorunması qanunu;
2. Hərəkət və inkişaf qanunu;
3. Son faydalılıq qanunu;
4. Təbii resursların qeyri-bərabər yerləşməsi qanunu;
5. Təbii resursların azalması qanunu;
6. Qızılın qiyməti ilə dolların qiymətinin tərs mütənasibliyi qanunauyğunluğu;
7. Şirkətin gəlirləri ilə şirkətin səhmlərinin dəyərinin düz mütənasibliyi qanunauyğunluğu;
8. Ucuz(artıq) pul kütləsinin artması ilə qiymətlərin qalxmasının düz mütənasibliyi qanunauyğunluğu;
9. Subyektlər arasında əməkdaşlıq və rəqibliyin qarşılıqlı vəhdəti qanunauyğunluğu;
10. Əhali artımı ilə maddi ehtiyatların (resurslar) tərs mütənasibliyi qanunauyğunluğu və s.

Dünya iqtisadiyyatının qanun və qanunauyğunluqları dünya bazarında aksiomatik prinsiplərin hesablanmasını zəruri edir:

1. Tələbin təklifi üstələməsi qiyməti artırır, təklifin tələbi üstələməsi qiyməti aşağı salır;
2. Dayandırılması mümkün olmayan, ən sürətli hərəkət edən vaxtdır və itkisini qaytarmaq mümkün deyil;
3. Sağlam rəqabət yoxdursa, demək, inkişaf da yoxdur;
4. Çərçivəyə salınmış iqtisadi sistem yalnız öz yerində qala bilər, hərəkət yoxdursa, inkişaf da yoxdur;
5. Açıq iqtisadiyyatlı ölkə inkişaf edən, qapalı iqtisadiyyatlı ölkə geriləyən ölkə olur və s.

# 3. DÜNYA İQTİSADİYYATI NƏZƏRİYYƏLƏRİ

Bütün iqtisadi nəzəriyyələrin əsasında iqtisadi qanunlar dayanır. İqtisadi qanunun zəruri tələblərinə, obyektiv ilkin şərtlərinə əsasən dünya iqtisadiyyatı – dünya təsərrüfat əlaqələri nəzəriyyələri yaranır. Dünya təsərrüfat əlaqələri nəzəriyyələri əhatə dairəsinə görə beş əsas qrupa – dünya iqtisadiyyatının ümumi, qloballaşma, dünya ticarəti, beynəlxalq iqtisadi inteqrasiya və xarici investisiyalar nəzəriyyələrinə bölünür.

Bu nəzəriyyələr və onların hər bir qrupuna daxil olan nəzəriyyələr 3.2, 3.3, 3.4, 3.5, 3.6 və 3.7-ci sxemlərdə verilmişdir.

**Sxem 3.2**




**Sxem 3.3**

**I. Dünya iqtisadiyyatının ümumi nəzəriyyələri**

| № | Nəzəriyyənin adı | Nəzəriyyənin müəllifi | Ölkə | Nəşr edilən şəhərlər | Nəşr edilən illər |
|---|---|---|---|---|---|
| **1.** | İqtisadi artım mərhələləri nəzəriyyəsi | Uolt Rostou | Amerikan iqtisadçısı, sosioloqu və dövlət xadimi | Nyu-York | 1981 |
| **2.** | Vahid sənaye cəmiyyəti nəzəriyyəsi | Raymon Aron | Fransız filosofu, politoloqu və sosioloqu | Tuluza. Sarbona | 1956-1965 |
| | | Jak Ellyul | Fransız sosioloqu, filosofu | Bordo | 1955-1977 |
| **3.** | Yeni sənaye cəmiyyəti nəzəriyyəsi | Con Qelbreyt | Amerikan iqtisadçısı | Berkli | 1967-1992 |
| **4.** | Postsənaye cəmiyyəti nəzəriyyəsi | Daniel Bell | Amerikan sosioloqu və futuroloqu | Nyu-York | 1960-1988 |
| | | Elvin Toffler | Amerikan sosioloqu və futuroloqu | Vaşinqton | 1970-1990 |
| **5.** | “Vahid sivilizasiya” nəzəriyyəsi | Fukuyama Frensis | Amerikan politoloqu və sosioloqu | Vaşinqton | 2003-2004 |
| **6.** | “Sivilizasiyaların toqquşması” nəzəriyyəsi | Samuel Xantinqton | Amerikan politoloqu | Vaşinqton | 2003-2004 |
| **7.** | “Köçəri cəmiyyət” nəzəriyyəsi | Jak Attali | Fransız politoloqu və iqtisadçısı | Paris | 1988-1993 |

**Sxem 3.4**

**II. Dünya iqtisadiyyatının qloballaşması nəzəriyyələri**

| Sıra № | Nəzəriyyənin adı | Nəzəriyyənin müəllifi | Ölkə | Nəşr edilən şəhərlər | Nəşr edilən illər |
|---|---|---|---|---|---|
| **1.** | Qloballaşan dünya nəzəriyyəsi (Dünyalaşma nəzəriyyəsi) | D.Xeld<br>D. Qoldblat | Fransa, ABŞ | Vaşinqton, Paris | 1960-1970 |

**Qeyd**: 1. İlk dəfə “qloballaşma termini 1960-1970-ci illərdə fransız və amerikan iqtisadçıları tərəfindən işlədilmişdir.

2. Yandeks axtarış sisteminin “dünya iqtisadiyyatının qloballaşması” sorğusuna 47901, “Google” sistemində 1380000 istinad vardır.

**Sxem 3.5**

**III. Dünya ticarəti nəzəriyyələri**

| № | Nəzəriyyə | Müəllifi | Ölkə | Şəhər | İllər |
|---|---|---|---|---|---|
| **1.** | Merkantilizm nəzəriyyəsi | A.Monkretyen, A.Smit | Fransız və ingilis iqtisadçıları | Paris, London | XIV-XVII əsrlər |
| **2.** | Mütləq üstünlüklər nəzəriyyəsi | Adam Smit | Şotlandiya (B.Britaniya) iqtisadçısı və filosofu | Qlazqo, London | 1776 |
| **3.** | Müqayisəli üstünlüklər nəzəriyyəsi | David Rikardo | İngilis iqtisadçısı | London | 1817 |
| **4.** | Bazar tarazlığı nəzəriyyəsi | Con Mill | B.Britaniya filosofu, sosioloqu və iqtisadçısı | London | XIX əsrin ortaları |
| **5.** | İstehsal amilləri nəzəriyyəsi | Eli Xekşer, Olin Bertil və Pol Samuelson | İsveç iqtisadçıları | Vaşinqton | XX əsrin 20-40-cı illəri |
| **6.** | Stolper və Samuelson nəzəriyyələri | Stolper Volfqanq və Pol Samuelson | Amerikan iqtisadçıları | Vaşinqton | 1948 |
| **7.** | Vasili Leontyev paradoksu | Leontyev Vasiliy | Rusiya əsilli amerikan iqtisadçısı | Vaşinqton | 1956 |
| **8.** | “Eyniliklərin üstünlüyü” nəzəriyyəsi | Steffan Linder | İsveç iqtisadçısı | | 1961 |
| **9.** | “Məhsulun həyat tsikli” nəzəriyyəsi | R.Vernon, Kindl-berqem, L.Uels və F.Kotler | Amerikan və ingilis iqtisadçıları | Vaşinqton, London | 1990 |
| **10.** | Maykl Porterin ölkələrin rəqabət üstünlükləri nəzəriyyəsi | Maykl Porter | Amerikan iqtisadçısı | Kembric, Bruklin, Tokio | 1990 |

**Sxem 3.6**

**IV. Beynəlxalq iqtisadi inteqrasiya nəzəriyyələri**

| № | Nəzəriyyənin adı | Müəllifi | Ölkə | Şəhər | Nəşr illəri |
|---|---|---|---|---|---|
| 1. | Korporasiyalaşma nəzəriyyəsi | S.Rolf U.Rostou | Amerikan iqtisadçıları | Vaşinqton | 1950-1960 |
| 2. | Strukturlaşma nəzəriyyəsi | Q.Myurdal | İsveç iqtisadçısı | Stokholm | 1955-1965 |
| 3. | Vahid bazar məkanı nəzəriyyəsi | V.Repke M.Alle | Fransız iqtisadçıları | Paris | 1960-1965 |
| 4. | Bazar inteqrasiyası nəzəriyyəsi | B.Balassa | Macar iqtisadçısı (Amerikan) | Vaşinqton, Budapeşt | 1965-1968 |
| 5. | Ümumi iqtisadi siyasət nəzəriyyəsi | J.Tinberqen, R.Sanvald, İ.Şotler və b. | Niderland iqtisadçıları | Amsterdam | 1950-1960 |

**Qeyd**: "İqtisadi inteqrasiya" termini 1930-cu illərdə ilk olaraq alman və isveç iqtisadçı alimlərinin əsərlərində işlədilməyə başlanılmışdır.

**Sxem 3.7**

**V. Xarici investisiya nəzəriyyələri**

| Nəzəriyyənin (modeli) adı | illər | Müəlliflər | Əsas nəticələri |
|---|---|---|---|
| **I qrup: Xarici investisiya və xarici ticarət siyasətinin əlaqələndirilməsi nəzəriyyələri** | | | |
| İstehsal amillərinin nisbəti nəzəriyyəsi | 1930-1935 | O.Xekşer, B. Olin | Gömrük baryerləri (maneələri) xarici investorları yerlərdə istehsalı təşkil etməyə məcbur edir |
| Ticarət və investisyaların əvəzlənməsi modeli | 1955-1960 | R. Mandel | Kapitalın hərəkəti idxal əvəzlənməsinə yönəldilir |
| Ticarət və investisiyaların gücləndirilməsi modeli | 1980-1990 | C.Markuzen | Azad beynəlxalq ticarət BXİ-nin maraq və məqsədinə çevrilir |
| Xarici investisiya və ticarətin əhalinin məşğulluğu və əmək haqqına təsiri modeli | 1995-2000 | R.Boldvin C.Ottaviano | TMK-lar müxtəlif ölkələrdə fərqli mallar üzrə istehsal ilə ixtisaslaşır və üçüncü ölkələrə ixrac edirlər |
| İxrac və xarici istehsalın qar-şılılı əlaqələndirilməsi modeli | 2001-2005 | B.Blyuniqen | Xaricdə istehsal firmadaxili yarımfabrikat ticarətinə təsir göstərir |
| **II qrup: Xarici investisiya siyasəti ilə beynəlxalq rəqabət siyasətinin qarşılıqlı əlaqələndirilməsi nəzəriyyələri** | | | |
| TMK və onların bazarda yeni modeli (İnhisarçı rəqabət) | 1960-1970 | S.Xaymer Ç.Kindleber-qer | Xarici investorun yerli rəqib qarşısında inhisarçı üstünlüyünü qoruyub saxlaması |

| | | | |
|---|---|---|---|
| Oliqopoliya və Birbaşa Xarici İnvestisiyalar modeli | 1970-1980 | F.T.Hikker-bokker, X.Qrem | Oliqopolik sahələrdə bazar liderliyi avtomatik yerli rəqiblərə keçir |
| **III qrup: Xarici investisiya siyasətinə sənaye siyasətinin tərkib hissəsi kimi yanaşan nəzəriyyələr** | | | |
| Malların beynəlxalq istehsal tsikli modeli | 1965-1970 | R.Vernon L.Uels | Formalaşma dövründə firmanın müvəffəq rəqabəti üçün ən əlverişli istehsal yerinin tapılması |
| Beynəlmiləşmə modeli | 1975-1985 | Ümumi | Aktivlərin artırılması |
| **IV qrup: Hüquqi bazar şəraiti nəzəriyyəsi** | | | |
| Beynəlxalq hüquqi standartlar modeli | 1990-2010 | Beynəlxalq təşkilatlar | Beynəlxalq hüquqi bazarın əmələ gəlməsi |

Bu nəzəriyyələrin hər biri dərs vaxtı ayrı-ayrılıqda ətraflı şərh edilməlidir. Nəzərə almaq lazımdır ki, dünya iqtisadiyyatı nəzəriyyələri bunlarla bitmir, digər nəzəriyyələr də vardır.

Dünya iqtisadi nəzəriyyələrinə çox müxtəlif aspektlərdə yanaşılır. Nəzəriyyələrin yaranma amillərinə görə təsnifatı sxem 3.8-də verilmişdir.

**Sxem 3.8**

**Yaranma amillərinə görə dünya iqtisadiyyatı nəzəriyyələri**

| № | Nəzəriyyələrin adı | Yaranma amilləri | Müəllifləri |
|---|---|---|---|
| **I. Texnoloji-faktorial nəzəriyyələr** | | | |
| **1.** | Texnoloji innovasiya nəzəriyyəsi | Yeni texnologiya-odun kəşfi | L.Morqan |
| **2.** | Teokratik, dini-fəlsəfi nəzəriyyə | İlahi qüvvə | N. Berdyayev |
| **3.** | Demoqrafik nəzəriyyə | Əhalinin sayı və strukturunun dəyişilməsi | T.Maltus, V.Klyuçevski |
| **4.** | Su yolları nəzəriyyəsi | Əsas su nəqliyyatı növləri – çay, dəniz, okean | L.Meçnikov |
| **5.** | İnformasiya texnologiyaları nəzəriyyəsi | İnformasiya texnologiyalarının inkiaşfı – dil, çap maşını, internet | X.Mak – Lyuen |
| **6.** | Maliyyə nəzəriyyələri | Maliyyə texnologiyaları və vergiödəmə sistemi | C.Adams |
| **7.** | Marketinq nəzəriyyəsi | İstehsalçıdan istehlakçıya doğru yol | K.Byuxer |
| **8.** | İnstitusional nəzəriyyə | Din, qeyri-formal institutlar, etiqat sistemi | M.Veber |
| **II. Kompleks nəzəriyyələr** | | | |
| **1.** | Marksist nəzəriyyə | Siniflərin mübarizəsi, formasiyaların dəyişməsi | K.Marks |
| **2.** | Qumilyovun etnik nəzəriyyəsi | Etnosun özünü dərketmə səviyyəsi | L.Qumilyov |
| **3.** | Oykenin təsərrüfat qaydaları nəzəriyyəsi | Təmiz “ideal” baza iqtisadi sistem qaydalarının kombinasiyası | V.Oyken |
| **4.** | Sivilizasiyalar nəzəriyyəsi | Sivilizasiyaların yaranması, inkişafı və məhv olması | N.Danilevski, O.Spenqler, A.Toynbi |

| | | | |
|---|---|---|---|
| **5.** | Uzun dalğa nəzəriyyəsi | Cəmiyyətin inkişafının texnoloji tsiklləri | N.Kandratyev, Y.Şumpeter, U.Rostou |
| **6.** | Tarixi dövretmə nəzəriyyəsi | Tsikllər – tarixi dövrlər üzrə xalqların inkişafı | D.Viko, E.Mayer |

Sxem 3.8-dən göründüyü kimi dünya iqtisadi nəzəriyyələri yaranma amillərinə görə texnoloji-faktorial və kompleks nəzəriyyələrə ayrılırlar ki, bu nəzəriyyələrin də hər biri dərslərdə ətraflı şərh edilməlidir.

## 4. KLASSİK VƏ NEOKLASSİK NƏZƏRİYYƏLƏR

Adam Smit (1723-1790) və David Rikardo (1772-1823) klassik iqtisadi nəzəriyyənin və ümumən iqtisad elminin banilərıdir. Adam Smitin 1776-cı ildə yazdığı "Xalqların təbiəti və onların varlı olmasının səbəbləri haqqında tədqiqat" və David Rikardonun 1817-ci ildə çapdan çıxmış "Siyasi iqtisadın və vergitutmanın əsasları" kitabı haqlı olaraq iqtisadi nəzəriyyələrin, o cümlədən, dünya iqtisadiyyatı nəzəriyyələrinin əsası hesab edilir.

Onların ardınca fransız iqtisadçı alimi Jan Batist Sey (1767-1832), amerikan alimi Alfred Marşall (1842-1924), marksizim nəzəriyyəsinin banisi Karl Marks (1818-1883), davamçısı Fridrix Engels (1820-1895), XVIII əsrdə A.Smit, XIX əsrdə K.Marksdan sonra XX əsrin ən görkəmli iqtisadçısı olan Keyns Con Meynard (1883-1946) iqtisad elminin tarixi banilərıdir.

Bir sıra iqtisaçı alimlər, o cümlədən, U.Beveric, R.Solou, L.Kleyn, D.Streyç, A.Hansen, D.Robinson, S.Çeyz və digər alimlər Keynsin ideyalarını inkişaf etdirmişlər. Beləliklə, iqtisadi təfəkkürdə iki əsas istiqamət – klassik və neoklassik, digər tərəfdən keynsçi və neokeynsçi istiqamətlər əmələ gəlmişdir.

### İ. Vallerstaynın dünya – sistem nəzəriyyəsi

Dünya – sistem nəzəriyyəsinin banilərindən biri İmmanuel Vallerstayndır. İmanuel Vallerstaynın (28.09.1930, ABŞ, Nyu-York, amerikan sosioloqu, politoloqu, iqtisadçısı, filosof – neomarksist və alimi) dünya – sistem təhlilinə və ya dünya – sistem nəzəriyyəsinə görə dünya ölkələri üç qrupa bölünür:

1. Mərkəz ölkələri;
2. Yarıməyalət ölkələri;
3. Əyalət ölkələri.

**Mərkəz ölkələrinə** daxil edilir:

ABŞ, Kanada, Qərbi Avropa ölkələri(İslandiya daxil olmaqla), Yaponiya, Avstraliya və Yeni Zellandiya;

**Yarıməyalət ölkələrinə** daxil edilir:

Meksika, Brazilya, Argentina, Rusiya, Türkiyə, Şərqi Avropa ölkələri, Çin, Hindistan, Səudiyyə Ərəbistanı, Oman, Qətər, Bəhreyn, Küveyt, BƏƏ və CAR;

**Əyalət ölkələrinə** daxil edilir:

Bütün Afrika ölkələri (CAR istisna olmaqla), Cənubi Amerikanın qərb ölkələri, Mərkəzi Amerika və Karib Hövzəsi ölkələri, Yaxın Şərq (İsrail istisna olmaqla) ölkələri, Orta Asiya ölkələri, Monqolustan, Cənub-Şərqi Asiyanın və Okeaniyanın 12 ada dövləti və s.

**H.D. Kondratyevin "Uzun dalğa" nəzəriyyəsi (iqtisadi tsikillər nəzəriyyəsi)**

H.D.Kondratyevin “Uzun dalğa” nəzəriyyəsinə görə dünyanın texnoloji inkişafı ardıcıl 40-50 il arasında baş verən aşağıdakı dalğalarla baş vermişdir.[1]

1. Birinci dalğa: 1770-1830-cu illər – buxar maşını və toxucu dəzgahın yaradılması;
2. İkinci dalğa: 1830-1880-ci illər – dəmiryollarının yaranması və maşınqayırma proseslərinin mexanikləşdirilməsi;
3. Üçüncü dalğa: 1880-1930-cu illər – elektrik motorları, avtomobil, istehsal proseslərinin avtomatlaşdırılması vasitələrinin yaradılması;
4. Dördüncü dalğa: 1930-1980-ci illər – elektronika və atom energetikasının yaranması, inkişafı, yeni materialların yaradılması;
5. Beşinci dalğa: 1980-2030-cu illər – mikroelektronika, biotexnologiya və gen mühəndisliyi, o cümlədən, nanotexnologiyalar, həyat fəaliyyətinin bütün sahələrində informatika və kompüterləşmənin inkişafı.

Nikolay Dmitriyeviç Kondratyev sovet iqtisadçısı, “Yeni iqtisadi siyasət nəzəriyyəsi”nin banisi olub(1892-1938; 46 yaşında güllələnib).

### “Köçəri Cəmiyyət” nəzəriyyəsi

“Yeni dünya düzəni” konsepsiyasının və “Köçəri cəmiyyət” nəzəriyyəsinin müəllifi fransız politoloqu və iqtisadçısı Jak Attali hesab edilir (1943-cü ildə anadan olub). “Köçəri cəmiyyət” nəzəriyyəsinin əsas müddəaları bunlardır:

1. Qərb dəyərlərinin bütün dünyaya yayılması;
2. Pula pərəstişdən ticarət epoxasına (dövrünə) keçilir;
3. “Köçərilər” (sahibkarlar, TMK-lar və s.) maksimum gəlir əldə etmək üçün daim bütün planetə hərəkət edir və yayılırlar;
4. Gələcəyin cəmiyyəti olan ticarət strukturları üçün dövlət sərhədləri aradan qalxır;
5. Ölkəyə (vətənə) məhəbbətdən pula(rifaha, sərvətə) məhəbbət cəmiyyətinə keçilir və s.

Dövlətlərin asılılığı mərkəz və əyalətlər arasındakı fərqlərə səbəb olur, dünya sisteminin əsas ziddiyyətləri asılılıqdan törəyir və inkişaf zamanı asılılıq öz-özünə yox olur.

Asılılıq metanəzəriyyəsinin ideoloqları S.Hofman, İ.Vallerstayn, A.Frank və R.Prebişdir. Asılılıq nəzəriyyəsinin əsas istiqamətlərinə birgə inkişaf, asılı inkişaf, asılı gerilik və təkrar asılılıq daxildir.

Modernləşdirmə nəzəriyyəsinin müəllifləri – T.Pirson, T.Myurdal, S.Eyzenştad və M.Veberdir.

Modernləşdirmə nəzəriyyəsinə görə - yeni cəmiyyətlər rasional təfəkkürlə idarə edilir, ənənəvi cəmiyyətlər konservativ düşüncə ilə idarə edilir, yeni cəmiyyətə keçid mənəvi dəyərlərlə bağlıdır və ənənəvi cəmiyyətdən yeni cəmiyyətə keçid mərhələli şəkildə baş verir.

İmperializm və neokolonializm konsepsiyalarının müəllifləri – C.Qobson, P.Gilferdinq, O.Bauer və V. İ.Lenindir.

Dünya iqtisadiyyatının sistem konsepsiyalarına – qarşılıqlı asılılıq, mərhələli inkişaf, modernləşdirmə, yeni beynəlxalq əmək bölgüsü, bərabər tərəfdaşlıq, dünya sistemi və s. daxil edilir.

Sivilizasiyaların toqquşması nəzəriyyəsinin müəllifi S.Xattinqtondur. Bu nəzəriyyəyə görə dünyada 8 sivilizasiya olmuşdur.

İmperiyaların dağılması nəzəriyyəsinin müəllifi P.Kennedidir.

Superindustrial cəmiyyət nəzəriyyəsinin müəllifi A.Tofflerdir.

Postindustrial cəmiyyət nəzəriyyəsinin müəllifi D.Belladır.

Mərhələli inkişaf cəmiyyəti nəzəriyyəsinin müəllifi U.Rostoudur.

---

[1] Кондратьев Н.Д. Избранные сочинения. – М., 1993, - с.53

Dünya təsərrüfatı nəzəriyyələrinə, həmçinin, vahid industrial cəmiyyət, mərhələli inkişaf, vahid sivilizasiya nəzəriyyəsi və s. daxildir.

Qlobal asılılıq termininin müəllif S. Hofmandır.

İnteqrasiya proseslərinin klassik təsnifatını Bela Balassa vermişdir.

1969-cu ildən başlayaraq iqtisadiyyat sahəsinə əldə etdikləri böyük elmi nəticələrə, baxışlara, yanaşmalara və nəzəriyyələrə görə Nobel mükafatı almış alimlərin elmi nailiyyətləti Ümumdünya İntelektual Mülkiyyət Təşkilatının(WIPO) sənədlərində ətraflı verilir.

## 5. MİKROİQTİSADİ SƏVİYYƏDƏ ƏSAS NƏZƏRİYYƏLƏR

Makroiqtisadi səviyyə ilə yanaşı mikroiqtisadi səviyyədə (şirkət, firma və s.) ikitərəfli dövlətlərarası əməkdaşlığın əsas konsepsiyaları və nəzəriyyələri də vardır ki, bunlara da aşağdakıları aid etmək olar:

1. General Elektrik – Mak Kinzinin strateji idarəetmə nəzəriyyəsi;
2. Boston Məsləhət qrupu nəzəriyyəsi;
3. Artur de Littlanın strateji idarəetmə nəzəriyyəsi;
4. Şellin strateji idarəetmə nəzəriyyəsi;
5. İ. Adizesin təşkilatın həyat tsikli nəzəriyyəsi;
6. Maraqlı tərəflər nəzəriyyəsi (ikitərəfli iqtisadi münasibətlər);
7. İstehlakçıların mallara olan tələbinin ödənilməsi nəzəriyyələri (Parusman, Zeytamel, Berri) və s.

Bu nəzəriyyələrlə bərabər dünya iqtisadiyyatının obyektlərinə görə digər nəzəriyyələri də vardır. Məsələn: məşğulluq nəzəriyyələri, əhali nəzəriyyələri, informasiya, maliyyə nəzəriyyələri, marketinq nəzəriyyələri və s. nəzəriyyələr. Bu nəzəriyyələrin hər biri sahə iqtisadiyyatı fənnlərində öyrənilir.

# MÖVZU 4. DÜNYA ÖLKƏLƏRİNİN TƏSNİFATI VƏ DÜNYA İQTİSADİYYATININ QLOBAL PROBLEMLƏRİ

## SUALLAR

1. Dünya ölkələrinin əsas makroiqtisadi göstəriciləri.
2. Dünya Bankının (DB) təsnifatına görə dünya ölkələri.
3. Dünya ölkələrinin BVF (İMF) qruplaşması.
4. İnkişaf Etmiş Ölkələr (İEÖ).
5. İnkişaf Etməkdə Olan Ölkələr (İEOÖ).
6. Yeni Sənaye Ölkələri (YSÖ – NİC).
7. Mərkəzləşdirilmiş plan iqtisadiyyatlı ölkələ.
8. Keçid iqtisadiyyatlı ölkələr.
9. İslam ölkələri.
10. Digər əlamətlər üzrə dünya ölkələrinin qruplaşdırılması.
11. Dünya iqtisadiyyatının qlobal problemləri.
12. İnkişaf Etməkdə Olan Ölkələrin (İEOÖ) iqtisadi gerilik problemi.

## Əsas ədəbiyyat

1. "Azərbaycan Respublikasının dövlət sərhədi haqqında" Azərbaycan Respublikasının qanunu. 9 dekabr 1991-ci ildə qəbul edilmişdir (Azərbaycan Respublikası Milli Məclisinin qanunlar toplusu).

2. Lomakin V.K. Dünya iqtisadiyyatı(Rus dilindən tərcümə). Bakı, 2015, səh. 344-410.

3. Ələkbərov Ə.H., Vəliyev M.Ə., Məmmədov S.M. Beynəlxalq iqtisadi münasibətlər, Çaşıoğlu, 2010.

4. Dünya təsərrüfatının qloballaşması. Dərs vəsaiti, Osmovanın M.N. redaktorluğu ilə (rus dilindən tərcümə), Bakı, 2008.

5. Мировая Экономика: Прогноз до 2020 года. Под ред. Дынкина А.А., Москва, Магистр, 2008.

6. World Development Indicators. World Bank Group, wdi.worldbank.org

7. UN Monthly Bulletin of Statistics, Special Tables; UNCTAD, Trade and Development Report (müxtəlif illərdə).

8. World Bank. Global Economic Prospects, Washinqton(hər il).

9. Линдерт П.Х. Экономика мирохозяйственных связей. Перевод с англ., Москва, 2003.

10. Глобализация мирового хозяйства и национальные интересы Росии. Под ред. Колесова В.П. М., 2002.

## 1. DÜNYA ÖLKƏLƏRİNİN ƏSAS MAKROİQTİSADİ GÖSTƏRİCİLƏRİ

Dünya iqtisadiyyatının nüvəsində dayanan dünya ölkələri – yəni dövlətlər və ərazilərdir. Ölkələrin təsnifatının siyasi, inzibati, iqtisadi, coğrafi və digər yanaşmaları vardır. Lakin onların hamısı üçün ortaq bir qruplaşma çoxsaylı iqtisadi əlamətlər üzrə olan qruplaşmalardır. Lakin burada da Beynəlxalq Təşkilatların, xüsusilə Beynəlxalq İqtisadi Təşkilatların apardıqları qruplaşmalar – təsnifatlar əsas götürülür.

Dünya ölkələrinin müxtəlif dövrlərdəki illik iqtisadi inkişaf vəziyyətinin müqayisəli təhlilini qiymətləndirmək üçün əsas makroiqtisadi göstəricilər aşağdakılardır:

1. Ümumi Daxili Məhsul (ÜDM) – milli valyuta və dollarla;
2. Adambaşına düşən ÜDM - milli valyuta və dollarla;

3. Mal və xidmətlərin ixracı – dollarla;
4. Birbaşa Xarici İnvestisiyalar (BXİ) – dollarla;
5. Sənaye istehsalının həcmi – dollarla;
6. Məşğulluq səviyyəsi – faizlə;
7. İşsizlik səviyyəsi – faizlə;
8. İnflyasiya – faizlə;
9. Xarici borc – dollarla;
10. Qızıl-valyuta ehtiyatları(rezrervləri) – dollarla və s.

Dünyanın su-quru ərazilərinin, təbii resurslarının və əhalisinin qeyri-bərabər yerləşməsi, ölkələrin elmi-texniki inkişaf səviyyəsi onların iqtisadi vəziyyətinə birbaşa təsir edir.

Dünyada tarixən və qloballaşma dövründə dünya ölkələrinin və əhalinin – insanların gəlir və sərvət bərabərsizliyi olmuş və bu proses daim davam edir. Dünya sabit dayanmır, daim hərəkətdədir və dinamikdir.

**İnkişaf** dünya iqtisadiyyatının əsas qanunu olduğu üçün onu müəyyən edən əsas göstərici dünya Milli Hesablar Sisteminin (MHS) mərkəzi göstəricisi olan ÜDM-dir (ВВП). MHS-in mühüm göstəricilərindən biri də Milli Gəlirdir (MG).

**ÜDM iki əlamət üzrə hesablanır:**

1) **AQP** – Alıcılıq Qabiliyyəti Pariteti; AQP əmtəənin bir ölkədəki qiymətinin həmin əmtəənin digər ölkədəki qiyməti arasında cari valyuta kursunun dəyişməsi səviyyəsi ilə hesablanır.
2) **Nominal və ya real ÜDM**

- İl ərazində(bəzən rübdə) rəsmi valyuta məzənnəsi və bazar qiymətləri əsasında;
- Ölkənin milli sərhədləri daxilində;
- İstehsal olunan son məhsul və xidmətlərin məcmuu dəyəri ilə hesablanır.

AQP ilə ÜDM nominal(real) ÜDM-dən həmişə fərqli olur. Beləliklə, il ərzində ölkənin milli sərhədləri daxilində istehsal olunan son məhsul və xidmətlərin rəsmi valyuta məzənnəsi və bazar qiymətləri ilə dəyərinə ÜDM(Ümumi Daxili Məhsul) deyilir.

**ÜDM (ВВП,** ingiliscə **GDP – Gross Domestic Product)** – ümumi qəbul edilmiş və qısaldılmış ifadə olub, əsas makroiqtisadi göstərici hesab edilir, il ərzində ölkənin bütün iqtisadi sahələrində istehlak, ixrac və yığım üçün istehsal edilmiş bütün son əmtəə və xidmətlərin bazar dəyərini əks etdirir. Bu anlayış ilk dəfə 1934-cü ildə ABŞ Kommersiya Departamentinin iqtisadçısı Saymon Kuznets tərəfindən təklif edilmişdir. İstehsal və milli gəlir haqqında hesabat ilk dəfə 1937-ci ildə ABŞ konqresinə təqdim edilmişdir. 1939-cu ilə qədər belə bir makroiqtisadi termin nəşrlərdə işlədilmirdi və ölkələrin iqtisadi fəaliyyətini tam əks etdirən göstərici hesablanmırdı. Bu ümumdünya əhəmiyyətli nəticələrinə görə 1971-ci ildə Saymon Kuznetsə Nobel mükafatı verilmişdir. Dövlətin ÜDM-i həmin ölkənin milli valyutası və lazım gələn hallarda beynəlxalq təşkilatların sənədlərində Alıcılıq Qabiliyyəti Pariteti(AQP) və birja qiymətləri ilə, möhkəm valyuta olan ABŞ dolları ilə hesablanır və verilir.

Dünya ölkələrinin milli iqtisadiyyatlarının əsas ölçü aləti kimi 1944-cu ildən başlayaraq indiyə kimi ÜDM götürülür.

## Saymon Kuznets – Saymon Smit(Şimen Abramoviç)

Saymon Kuznets 1901-ci ildə Belarusun Minsk quberniyasının Pinski şəhərində anadan olmuşdur. Amerikan iqtisadçısı, statistiki, demoqrafı və iqtisadiyyat tarixçisidir. Milliyətcə yəhudidir. 1922-ci ildə Polşadan keçməklə ABŞ-Nyu-Yorka emiqrasiya olmuşdur. Əvvəlcə Ukraynada – Xarkov Kommersiya İnstitutunda, ABŞ-da isə Kolumbiya Universitetində bakalavr, magistr və iqtisadiyyat üzrə fəlsəfə doktoru elmi dərəcələrini

almışdır. S.Kuznetsin doktorluq dissertasiyası "İstehsalın və qiymətlərin əsrlik hərəkəti" mövzusunda olmuşdur. 1927-1961-ci illərdə ABŞ Milli İqtisadi Tədqiqatlar Bürosunda və ABŞ Kommersiya Departamentində işləmişdir. Pensilvaniya, Con Hopkins və Harvard Universitetlərinin profesoru olmuşdur.

ÜDM üzrə dünya ölkələrinin vəziyyətini hər il verən beynəlxalq təşkilatlar:

1. BVF(İMF) – 188 ölkə üzrə;
2. DB(WB) – 192 ölkə üzrə;
3. BMT-nin statistika departamenti – 193 ölkə üzrə;
4. ABŞ Mərkəzi Kəşfiyyat Agentliyi – 194 ölkə üzrə reytinqləri verir.

BMT-nin hesabatına görə 2019-cu ildə dünya ölkələrinin ÜDM-i cədvəl 4.1-də verilmişdir.

**Cədvəl 4.1**

**BMT-nin hesabatlarına görə 2019-cu ildə bəzi dünya ölkələrinin ÜDM-i**

| **Sıra №** | **Ölkə** | **Nominal ÜDM (mlrd dol)** |
|---|---|---|
| **1.** | ABŞ | 20580 |
| **2.** | Çin | 13608 |
| **3.** | Yaponiya | 4971 |
| **4.** | Almaniya | 3950 |
| **5.** | Böyük Britaniya | 2855 |
| **12.** | Rusiya | 1661 |
| **19.** | Türkiyə | 771 |
| **26.** | İran | 473 |
| **87.** | **Azərbaycan** | 46.9 |
| **116.** | Gürcüstan | 17.6 |
| **137.** | Ermənistan | 12.4 |
| **195.** | Tuvalu | 0.04 |
| | **Cəmi dünya:** | 75130 |

ÜDM haqqında BVF-nin və DB-nin həm nominal, həm də AQP (ППС) ilə hesabatları hər il verilir. Cədvəldən göründüyü kimi, 2019-cu ildə nominal ÜDM-ə görə dünyada birinci beşliyə ABŞ, Çin, Yaponiya, Almaniya və Böyük Britaniya daxil olmuşdur. Bu göstərici üzrə Türkiyə 19, Azərbaycan 87, Ermənistan 137-ci yeri tutmuşdur.

## 2. DÜNYA BANKININ (DB-WB) TƏSNİFATINA GÖRƏ DÜNYA ÖLKƏLƏRİ

Dünyanın ən tanınmış və ən nəhəng Beynəlxalq Təşkilatları dünya ölkələrini çoxsaylı əlamətlər üzrə qruplaşdırırlar. Ən çox diqqəti cəlb edən DB-nin və BVF-nin təsnifatıdır.

Dünya ölkələrinin DB təsnifatı cədvəl 4.2-də verilmişdir.

DB dünya ölkələrini adambaşına düşən Məcmu Milli Gəlirə görə qruplaşdırır (210 ölkə)[1] və 3 qrupa bölünür:

1. Aşağı gəlirli ölkələr (43 ölkə);
2. Orta gəlirli ölkələr(101 ölkə);
3. Yuxarı gəlirli ölkələr(66 ölkə).

[1] World Bank List of Economies (http://web/world-bank/org)

**Cədvəl 4.2**

**Dünya ölkələrinin DB təsnifatı**

| Ölkə qrupları | Adambaşına düşən MMG (il ərzində) | Ölkələrin sayı | Qrupa daxil olan ölkələr |
|---|---|---|---|
| **I. Aşağı gəlirli ölkələr** | 975 dollardan yuxarı olmayan | 43 | Əfqanıstan, Zimbabye, Kamboca, Keniya, Myanma, Niger, Nepal, Efiopiya və s. |
| **II. Orta gəlirli ölkələr** | 976-11905 dollararası | 101 | Misir, Hindistan, Boliviya, Paraqvay, Əlcəzair, Meksika, Rusiya, Türkiyə və s. |
| **O cümlədən: II. 1. Orta gəlirlilərdən aşağı ölkələr** | 976-3855 dollararası | 55 | Misir, Hindistan, Boliviya, Paraqvay, İran, Tayland və s. |
| **II. 2. Orta gəlirlilərdən yuxarı ölkələr** | 3856-11905 dollararası | 46 | Əlcəzair, Meksika, Rusiya,Türkiyə, Argentina, Serbiya, Azərbaycan və s. |
| **III. Yuxarı gəlirli ölkələr** | 11906 dollardan aşağı olmayan ölkələr | 66 | Avstraliya, Almaniya, Honkonq, İsrail, Kanada, BƏƏ, Sinqapur, ABŞ, Xorvatiya və s. |
| **Cəmi:** | | 210 ölkə | |

Cədvəl 4.2-dən göründüyü kimi DB dünyanın 210 ölkəsini il ərzində adambaşına düşən Məcmu Milli Gəlirə görə qruplaşdırır. Bu ölkələrin ən çoxu – 101 ölkə orta gəlirli, 66-sı yuxarı gəlirli və 43 aşağı gəlirli ölkələrdir. Bu ölkələrin hər birinin illər üzrə yeri, səbəbləri və mövqeyi açılmalıdır.

DB-dən fərqli olaraq BVF(İMF) dünya ölkələrini inkişaf səviyyəsinə görə qruplaşdırır.

## 3. DÜNYA ÖLKƏLƏRİNİN BVF (İMF) QRUPLAŞMASI

BVF dünya ölkələrini iki qrupa bölür:

1. Proqressiv iqtisadiyyatlı (advanced economic) ölkələr;
2. İnkişaf etməkdə olan (İEOÖ) (emerging and developing economies) ölkələr.

Bu təsnifatlara bəzi ölkələr daxil edilmir. Ona görə ki, həmin ölkələr (məsələn: Kuba, KXDR, Somali və s.) ya BVF-nin üzvləri deyil, ya da həmin ölkələrin statistik bazaları tamamilə məhduddur.

Proqressiv iqtisadiyyatlı ölkələrə BVF 33 ölkəni daxil edir.[1]

İnkişaf etməkdə olan ölkələr (İEOÖ), öz növbəsində, regional əlamət üzrə 5 qrupa bölünür:

1. Afrika ölkələri;
2. Mərkəzi və Şərqi Avropa ölkələri;
3. Asiya ölkələri;
4. Yaxın Şərq ölkələri;
5. Qərb yarımkürəsi ölkələri.

Kredit statusuna görə 2 qrupa bölünür:

1. "Xalis" kreditor ölkələr;
2. "Xalis" borclu ölkələr.

Asılılığa görə 2 qrupa bölünür:

1. Əmtəə ixracatından asılı ölkələr(məsələn: yanacaq-enerji məhsulları və s.);
2. İxracatdan asılı olmayan ölkələr.

[1] http://www/imf.org/external/pubs/ft/weo/2009/02/weodata/groups.htm#wa.

# 4. İNKİŞAF ETMİŞ ÖLKƏLƏR (İEÖ)

Bu ölkələrdə dünya əhalisinin 15%-i yaşayır, dünya sənaye məhsulunun 57%-ni və kənd təsərrüfatı məhsulunun 40%-ni verir. Mineral yanacaq ehtiyatlarının 40%-i və elmə sərf olunan vəsaitin 4/5-dən, yəni 80%-dən çoxu bu ölkələrin payına düşür. Onların xidmət sektorunun ÜDM-də payı 60-70%, istehsal sektorunun ÜDM-də payı 30-40%-dir. İstehsal sektorunun ÜDM-dəki payının da 30-35%-i sənayenin, 3-5%-i kənd təsərrüfatının payına düşür.

Bu ölkələrdə işsizliyin səviyyəsi, əsasən, birrəqəmli həddi, yoxsulluğun səviyyəsi 2-3%-i keçmir. Orta aylıq əməkhaqqı 3-6 min ABŞ dol.-ı arasındadır.

İEÖ-lərin ümumi əlamətləri bunlardır:

1. İEÖ-lər sənayenin tələbatını öz mineral-xammal resursları ilə təmin edə bilmir (Kanada, Avstraliya, CAR, ABŞ istisna olmaqla);
2. Əhalinin təbii artım tempi yoxdur (CAR istisna);
3. Urbanizasiya səviyyəsi yüksəkdir – 75-80%;
4. Təsərrüfat tiplərinin sosial-iqtisadi amilləri oxşardır;
5. Dövlət müəssisələrinin özəlləşdirilməsi səviyyəsi yüksəkdir;
6. Ekoloji vəziyyəti çox yaxşıdır;
7. Həyat səviyyəsi yüksəkdir;
8. Hamısı sənaye ölkələridir – yüksək texnika və texnologiyaya malikdirlər[1];
9. İqtisadiyyatları bazar münasibətləri üzərində qurulmuşdur;
10. Bəzi İEÖ-lərdə dövlət borcunun səviyyəsi yüksəkdir – ÜDM-in 50-80%-i qədərdir və s.

İnkişaf Etmiş Ölkələrin qitələr üzrə qruplaşması cədvəl 4.3-də verilmişdir.

**Cədvəl 4.3**

**İnkişaf Etmiş Ölkələrin(İEÖ) qitələr üzrə qruplaşması**

Beynəlxalq Valyuta Fonduna görə İEÖ-lər bunlardır:

37 ölkə, o cümlədən: Avropada: 26 ölkə, Asiyada: 6 ölkə, Şimali Amerikada: 2 ölkə, Avstraliya və Okeaniyada: 2 ölkə, Afrikada: 1 ölkə.

**(2016-cı il)**

| I Avropada | II Asiyada | III Şimali Amerikada | IV Avstraliya və Okeaniyada | V Afrikada |
|---|---|---|---|---|
| 1. Almaniya<br>2. Avstriya<br>3. Belçika<br>4. Böyük Britaniya<br>5. Danimarka<br>6. Estoniya<br>7. Finlandiya<br>8. Fransa | 1. Cənubi Koreya<br>2. Honkonq<br>3. İsrail<br>4. Sinqapur<br>5. Çin Respublikası (Tayvan)<br>6. Yaponiya | 1. ABŞ<br>2. Kanada | 1. Avstraliya<br>2. Yeni Zelandiya | 1. CAR |

[1] Wilson A.G. Models of citiesand regions. 2018, London, p.176-177

| | |
|---|---|
| 9.Çexiya<br>10. İrlandiya<br>11. İslandiya<br>12. İspaniya<br>13. İsveç<br>14. İsveçrə<br>15. İtaliya<br>16. Kipr<br>17. Lüksemburq<br>18. Malta<br>19. Niderland<br>20. Norveç<br>21. Polşa<br>22. Portuqaliya<br>23. San-Marino<br>24. Slovakiya<br>25. Sloveniya<br>26. Yunanıstan | **Avroasiyada: 32 ölkə**<br>**Daha yüksək inkişaf etmişlər:**<br>1.ABŞ<br>2.Yaponiya<br>3.Almaniya<br>4.Fransa<br>5.Böyük Britaniya<br>6.İtaliya<br>7.Kanada<br>**Böyük 7-lik (G-7)**<br>7+1 (G-8) Rusiya<br><br>**I. Yüksək gəlirli İEÖ-lər:**<br>Adambaşına illik gəlir: 17-30 min ABŞ dolları<br><br>**II. Orta gəlirli İEÖ-lər:**<br>Adambaşına illik gəlir: 5-10 min ABŞ dolları |

**Cədvəl 4.4**

**Dünya Bankına görə səciyyəvi İEÖ-lər**

| **Ölkə qrupları** | **Ölkələrin yarımtipləri** | **Ölkələr** |
|---|---|---|
| **Yüksək inkişaf etmiş ölkələr** | "Böyük yeddilik" (G-7) | 7 ölkə |
| | Qərbi Avropanın kiçik dövlətləri: 10 ölkə | İsveçrə<br>Avstriya<br>Belçika<br>Niderland<br>İsveç<br>Luksemburq<br>Norveç<br>Danimarka<br>Finlandiya<br>İslandiya |
| | "Mühacir kapitalizm" ölkələri: 4 ölkə | Avstraliya<br>Yeni Zelandiya<br>CAR<br>İsrail |
| | Qərbi Avropanın mikro dövlətləri: 6 ölkə | Vatikan<br>Andorra<br>San-Marino<br>Monako<br>Malta<br>Lixtenşteyn |
| **Orta inkişaf etmiş ölkələr** | Qərbi Avropanın nisbətən geri qalmış ölkələri: 4 ölkə | İspaniya<br>Portuqaliya<br>Yunanıstan<br>İrlandiya |
| | Mərkəzi və Şərqi Avropa ölkələri | 19 ölkə |
| | MDB ölkələri | 11 ölkə |

Ölkələri İEÖ-lərdən ibarət olan G-7, NAFTA və G-20 ölkələrinin əsas iqtisadi inkişaf göstəriciləri cədvəl 4.5., 4.6. və 4.7-də verilmişdir.

**Cədvəl 4.5**

**2015-ci ildə G-8 ölkələrinin xarakteristikası[1]**

| Sıra № | Ölkələr | Əhali: mln nəfər | ÜDM (nominal) mlrd dolar) | Adambaşına düşən ÜDM, min dollar | İnflyasiya, faizlə | İşsizlik səviyyəsi, faizlə | Ticarət balansı, mlrd dollar |
|---|---|---|---|---|---|---|---|
| 1. | B. Britaniya | 64,1 | 2865,0 | 44,7 | 0,0 | 5,4 | - 191,5 |
| 2. | Almaniya | 80,9 | 3371,0 | 41,7 | 0,1 | 4,8 | 292,0 |
| 3. | İtaliya | 61,9 | 1819,0 | 29,4 | 0,1 | 12,2 | 58,9 |
| 4. | Fransa | 66,6 | 2423,0 | 36,4 | 0,1 | 9,9 | - 27,0 |
| 5. | ABŞ | 321,4 | 17970,0 | 55,9 | 0,1 | 5,2 | - 763,0 |
| 6. | Kanada | 35,1 | 1573,0 | 44,8 | 1,1 | 6,9 | - 17,7 |
| 7. | Yaponiya | 126,9 | 4127,0 | 32,5 | 0,8 | 3,3 | - 5,3 |

**Cədvəl 4.6**

**2015-ci ildə NAFTA ölkələrininxarakteristikası[2]**

| Sıra № | Ölkələr | Əhali: mln nəfər | ÜDM (nominal) mlrd dolar) | Adambaşına düşən ÜDM, min dollar | İnflyasiya, faizlə | İşsizlik səviyyəsi, faizlə | Ticarət balansı, mlrd dollar |
|---|---|---|---|---|---|---|---|
| 1. | ABŞ | 321,4 | 17970,0 | 55,9 | 0,1 | 5,2 | - 763,0 |
| 2. | Kanada | 35,1 | 1573,0 | 44,8 | 1,1 | 6,9 | - 17,7 |
| 3. | Meksika | 121,7 | 1161,0 | 9,5 | 2,7 | 4,5 | - 14,6 |

**Cədvəl 4.7**

**2015-ci ildə G-20 – "Böyük iyirmilik" ölkələrinin xarakteristikası [3]**

| Sıra № | Ölkələr | Əhali: mln nəfər | ÜDM (nominal) mlrd dolar) | Adambaşına düşən ÜDM, min dollar | İnflyasiya, faizlə | İşsizlik səviyyəsi, faizlə | Ticarət balansı, mlrd dollar |
|---|---|---|---|---|---|---|---|
| 1. | Avstraliya | 22,8 | 1241,0 | 54,4 | 1,5 | 6,2 | - 19,4 |
| 2. | Argentina | 43,4 | 578,7 | 13,3 | 26,5 | 7,6 | - 0,4 |
| 3. | Braziliya | 204,3 | 1800,0 | 8,8 | 9,0 | 6,4 | 17,7 |
| 4. | Böyük Britaniya | 64,1 | 2865,0 | 44,7 | 0,0 | 5,4 | - 191,5 |
| 5. | Almaniya | 80,9 | 3371,0 | 41,7 | 0,1 | 4,8 | 292,0 |
| 6. | Hindistan | 1251,7 | 2183,0 | 1,7 | 4,9 | 7,1 | - 136,8 |
| 7. | İndone-ziya | 256,0 | 872,6 | 3,4 | 6,4 | 5,5 | 13,3 |
| 8. | İtaliya | 61,9 | 1819,0 | 29,4 | 0,1 | 12,2 | 58,9 |
| 9. | Kanada | 35,1 | 1573,0 | 44,8 | 1,1 | 6,9 | - 17,7 |
| 10. | Çin | 1367,5 | 11380,0 | 8,3 | 1,5 | 4,2 | 567,0 |
| 11. | Meksika | 121,7 | 1161,0 | 9,5 | 2,7 | 4,5 | - 14,6 |

---

[1] www.ereport.ru/stat.php.count=G7
[2] www.ereport.ru/stat.php.count=NAFTA

[3] www.ereport.ru/stat.php.count=G20
CIA World Factbook

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| **12.** | Rusiya | 142,4 | 1236,0 | 8,7 | 15,5 | 5,4 | 148,5 |
| **13.** | Səudiyyə Ərəbistanı | 27,8 | 665,5 | 23,9 | 2,2 | 11,4 | 47,3 |
| **14.** | ABŞ | 321,4 | 17970,0 | 55,9 | 0,1 | 5,2 | - 763,0 |
| **15.** | Türkiyə | 79,4 | 722,2 | 9,1 | 7,7 | 10,4 | - 48,1 |
| **16.** | Fransa | 66,6 | 2423,0 | 36,4 | 0,1 | 9,9 | - 27,0 |
| **17.** | CAR | 53,7 | 317,3 | 5,9 | 4,5 | 25,9 | -2,7 |
| **18.** | Cənubi Koreya | 49,1 | 1393,0 | 28,4 | 0,7 | 3,5 | 120,3 |
| **19.** | Yaponiya | 126,9 | 4127,0 | 32,5 | 0,8 | 3,3 | - 5,3 |
| **20.** | Avropa İttifaqı | 746,4 (2018) | 22884,4 | 40,2 | 0,1 | 4,7 | - 28,5 |

Cədvəl 4.5., 4.6. və 4.7-də İEÖ-lərin əhalisi, ÜDM-i(nominal), adambaşına düşən ÜDM, infilasiya və işsizlik səviyyəsi, ticarət balansı verilmişdir. Bu göstəricilərin müqayisəli təhlili göstərir ki, bu ölkələrin iqtisadi inkişaf səviyyəsi digər qrup ölkələrdən çox yüksəkdir. Yenə də burada hər bir ölkənin iqtisadi inkişafının əsas səbəbləri dərslərdə müzakirə edilməlidir.

## “Böyük yeddilik” (G7)

1975-ci ildə yaradılmışdır (Böyük 7+1). Rusiya 1997-ci ildə buraya daxil olmuşdur. Ona görə buna “Böyük səkkizlik” də deyilirdi. Daha sonra Rusiya “G8”-dən çıxmışdır. “Böyük yeddiliyə” Avropadan dörd – Böyük Britaniya, AFR, Fransa və İtaliya, Şimali Amerikadan iki – ABŞ və Kanada, Asiyadan bir dövlət – Yaponiya daxildir.

Dünya təsərrüfatının mərkəz ölkələri – Qərbi Avropa, Şimali Amerika, Yaponiya, Çin, Koreya Respublikası, Yeni Zelandiya və Türkiyədir. Ona görə ki, Dünya Məcmu Məhsulunun 50 faizdən çoxu və bütün dünya ölkələrinin məcmu dövlət büdcələrinin 80 faizi onların payına düşür.

Dünya təsərrüfatının güc mərkəzi “Böyük yeddilik”(G7) ölkələridir.

Dünya ölkələri digər yeddi əlamət üzrə də təsnifləşdirilir.

**I. Ərazi ölçülərinə görə ölkələr dörd yerə bölünür:**

1) Qiqant ölkələr:
   1) Rusiya
   2) Kanada
   3) Çin
   4) ABŞ
   5) Braziliya
   6) Avstraliya
   7) Hindistan
   8) Argentina
   9) Qazaxıstan
   10) Sudan və s.

2) Orta ərazili ölkələr:
   1) Almaniya
   2) Fransa
   3) Misir və s.

3) Kiçik ərazili ölkələr:
   1) Belçika
   2) Çexiya
   3) Azərbaycan və s.

4) “Cırtdan”(“karlik”) ölkələr:
   1) Andorra
   2) Lixtenşteyn
   3) Monako
   4) Vatikan
   5) Mavriki
   6) Barbados
   7) Nauru və s.

**II. Dünya ölkələri əhali sayına görə iki qrupa bölünür:**

1) Əhalisi 100 mln nəfərdən çox olan ölkələr (2020):
   1) Çin – 1,4 mlrd
   2) Hindistan – 1,3 mlrd
   3) ABŞ – 331 mln

4) İndoneziya – 273 mln
5) Pakistan – 220 mln və s.

2) Əhalisi 100 mln nəfərdən aşağı olan ölkələr:

1) Misir
2) Türkiyə
3) İran və s.

**III. Coğrafi vəziyyətinə görə ölkələr beş qrupa bölünür:**

1) Arxipelaq ölkələr (Yaponiya);
2) Ada ölkələr (Kuba);
3) Yarımada ölkələr (İtaliya);
4) Sahil ölkələr (Fransa);
5) Dənizə çıxışı olmayan ölkələr (Slovakiya və s.).

**IV. Sosial-iqtisadi inkişaf səviyyəsinə görə ölkələr beş qrupa bölünür:**

1) Daha çox inkişaf etmiş ölkələr: "Böyük yeddilik";
2) Ən varlı ölkələr (əhalinin bir nəfərinə düşən ÜDM, ABŞ dolları ilə);
3) Dünyanın yoxsul ölkələri(əhalinin bir nəfərinə düşən ÜDM-i 100 dollardan aşağı olanlar – 50 ölkəyə yaxındır):
   - ❖ Sudan – 36 dol;
   - ❖ Əfqanıstan – 40 dol;
   - ❖ Mozambik – 77 dol;
   - ❖ Mərakeş – 90 dol;
   - ❖ Nepal – 65 dol. və s.
4) İnkişafda olan ölkələr (İEOÖ-lər): Afrika ölkələri (CAR-dan başqa), Latın Amerikası və Asiya ölkələri (Yaponiya və İsraildən başqa);
5) Keçid iqtisadiyyatlı ölkələr – Şərqi Avropanın postsosialist ölkələri.

**V. Xarici borcun səviyyəsinə görə ölkələr üç qrupa bölünür:**

1) Yüksəksəviyyəli borclu dövlətlər;
2) Ortasəviyyəli borclu dövlətlər;
3) Aşağısəviyyəli borclu dövlətlər.

**VI. Dövlət quruluşuna görə ölkələr iki qrupa bölünür:**

1) Dövlət - ərazi quruluşuna görə;
2) İdarəetmə formalarına görə.

Dövlət - ərazi quruluşuna görə:

❖ Unitar dövlətlər (Fransa, Polşa, Macarıstan və s.);

❖ Federativ dövlətlər (tərkibində özünü idarəetmə əraziləri olan dövlətlər (dünyada 21 belə dövlət vardır) – Rusiya, Hindistan, Almaniya, ABŞ və s.);

❖ Müstəmləkələr (Qibraltar, Qviana və s.).

İdarəetmə formasına görə iki yerə bölünür:

❖ Respublika (İtaliya, Azərbaycan və s.);

❖ Monarxiya (30 dövlət) – bunlar da üç qrupa bölünür:

1. Konstitusiyalı (Böyük Britaniya);
2. Mütləq monarxiya (BƏƏ, Küveyt);
3. Dini (teokratik) monarxiya (Vatikan, Bruney, Səudiyyə Ərəbistanı və s.).

Dövlət quruluşuna görə ölkələrin tərkibi 1-ci mövzuda geniş verilmişdir.

**VII. Geoiqtisadi mövqeyinə görə beş aparıcı yerə bölünür:**

1) Dünyada coğrafi yerinə görə;
2) Dünyanın meqalayihələrinin icrasında roluna görə;
3) Dünya təbii sərvətlərində payına görə;
4) Dünya sənaye istehsalında payına görə;
5) Dünya iqtisadi resurslarında payına görə və s.

Türkiyə prezidenti, "İqtisadi realizm konsepsiyası"nın banisi R. T. Ərdoğan göstərir ki, Türkiyə bu gün təkbaşına dünya meqalayihələrinin yarısından çoxunu icra edir (06.01.2021).

Avroasiyanın 5-dən çox Transregional layihəsini məhz Azərbaycan reallığa çevirib.

Dünya ölkələrinin müxtəlif əlamətlər üzrə təsnifatını bəzi ixtisaslaşdırılmış beynəlxalq təşkilatlar, forumlar, QHT-lər və reytinq təşkilatları da aparır. Bunlara misal olaraq aşağıdakıları da qeyd etmək olar:

1) Həyat səviyyəsinə görə dünya ölkələrinin reytinqi (BMT-nin insan inkişaf indeksi – HDİ);
2) Vətəndaşların alıcılıq qabiliyyəti indeksi (BMT-nin insan inkişaf indeksi – HDİ);
3) Biznes üçün ideal 10 ölkə (Forbes – 2016);
4) Dünyanın ən sağlam 10 ölkəsi (ÜST və DB),2016;
5) Dünyanın ən çiçəklənən 10 ölkəsi (The Legatum Institute Britaniya Təşkilatı), 2016.

## 5. İNKİŞAF ETMƏKDƏ OLAN ÖLKƏLƏR (İEOÖ-lər)

BMT-də İEOÖ-lər anlayışı ilk dəfə olaraq II Dünya müharibəsindən sonra işlədilmişdir. Bəzi Beynəlxalq Təşkilatların sənədlərində və dünya siyasətçilərinin çıxışlarında Azad olmuş ölkələr, İkinci dünya ölkələri, Cənub ölkələri və Əyalət ölkələri kimi də işlədilir.

Dünya Bankı və bəzi beynəlxalq təşkilatlar İEOÖ-lərə Asiya, Afrika və Latın Amerikasının 132 ölkəsini daxil edirlər(digər qruplaşmalar da vardır). Regionlar üzrə - Afrikada 50, o cümlədən, Saxaradan cənubda (Böyük Səhradan) 45 ölkə, Asiyadan 30, Yaxın Şərq və Avropada 22 ölkə, o cümlədən, Yaxın Şərqdə 19, Avropada 3 (Türkiyə, Malta, Kipr) və Qərb Yarımkürəsi – Mərkəzi Amerika və Latın Amerikasında 30 ölkə buraya daxildir. Bəzi hallarda "Açar ölkələr" (6 ölkə), Yeni sənayeləşmiş ölkələr (10 ölkə), Neft İxrac Edən Ölkələr (10 ölkə), Geri qalmış ölkələr (8 ölkə), ən zəif ölkələr (13 ölkə) və digər altı qrup-laşmaya da rast gəlinir.

İEOÖ-lərin ümumi əlamətləri bunlardır:

1) Əksəriyyəti əvvəllər müstəmləkə və yarımmüstəmləkə ölkələrdir;
2) Müxtəlif mülkiyyət formalı, çoxukladlı iqtisadiyyat tipi mövcuddur;
3) İstehsal gücləri nisbətən aşağı səviyyədədir;
4) Dünya iqtisadiyyatından(ölkələrindən) asılı ölkələrdir;
5) Bu ölkələrin inkişafı xarici kapitaldan asılıdır;
6) İqtisadiyyatların əsasını aqrar-xammal təşkil edir;
7) ÜDM və adambaşına düşən ÜDM aşağıdır (12 min dollardan aşağı);
8) Yoxsulluq səviyyəsi yüksəkdir;
9) Əksər İEOÖ-lərdə dövlət borcunun səviyyəsi çox yüksəkdir. ÜDM-nin 100-200 faizi qədərdir;
10) Əksər İEOÖ-lər iqtisadi gerilik problemləri içərisindədir.

1950-1960-cı illərdə dünyada 51 dövlət müstəqillik əldə etmişdir ki, bunların da, demək olar ki, əksəriyyəti üçüncü – az inkişaf etmiş qrup ölkələrdir.

BMT İnkişaf Etməkdə Olan Ölkələri (İEOÖ-lər) səkkiz qrupa bölür:

**I.“Açar ölkələr”:** Braziliya, Meksika, Argentina, Çin, Rusiya, Hindistan, Türkiyə

**II.Yeni Sənaye Ölkələri (YSÖ):** Cənubi Koreya, Tayvan, Sinqapur, Malayziya, Tayland, Filippin, Çili.

**III.Neft ixrac edən ölkələr:** İran, İraq, Səudiyyə Ərəbistanı, Küveyt, Qətər, BƏƏ, Oman, Bəhreyn, Liviya, Bruney və s.

**IV.İnkişafdan geri qalmış ölkələr:** Suriya, Nigeriya, Keniya, Uqanda, Mozambik, Boliviya, Ekvador və s.

**V.Ən zəif inkişaf etmiş ölkələr:** Laos, Kamboca, Nepal, Əfqanıstan, Çad, Mali, Niger, Efiopiya, Somali, MAR, Konqo, Haiti, Nikaraqua və s.

**VI.Əsas ixrac məhsullarına görə:**

1) Enerjidaşıyıcıları ixrac edən ölkələr – ixracda payı 50 faizi keçənlər;
2) Aqrar məhsul ixracatçısı ölkələri;
3) Xammal ixracatçısı ölkələri.

**VII.İqtisadi inkişaf templərinə görə:**

1) Yüksək artım tempi olan ölkələr;
2) Artım tempi olmayan ölkələr.

**VIII.İnkişaf səviyyəsinə görə:**

1) İEOÖ-lər;
2) Geri qalmış ölkələr (inkişaf etməmiş).

## “ONBİRLƏR QRUPU”

“Onbirlər qrupu” (№11 və ya Next Eleven) 11 müasir dövlətin ümumiləşmiş adından götürülüb.

Termin 2005-ci ildən istifadə edilməyə başlanmışdır. BRİKS qrupu ölkələri ilə bərabər XXI əsrin beynəlxalq iqtisadi münasibətlər sistemində öz milli iqtisadiyyatları ilə nəhəng iqtisadi lokomotivlərə çevrilməsi gözlənilən ölkələri əhatə edir. Bu qrupa iki inkişaf etmiş – Cənubi Koreya və Meksika, 3 ən yeni industrial ölkə - Filippin, Türkiyə və İndoneziya, 5 İnkişaf Etməkdə Olan Ölkə - Misir, İran, Nigeriya, Pakistan və Vyetnam, 1 zəif, lakin sənayeləşməsi gözlənilən ölkə - Banqladeş daxildir. Fərqli əlamətləri budur ki, bu qrup ölkələr Qərbi Amerikadan Şərqi Asiyaya qədər müxtəlif inkişaf səviyyəli, sənayeləşmə yolunu tutan, əhalisi və təbii resursları nisbətən çox olan ölkələrdir. Göründüyü kimi qrupun 11 üzvündən 7-si İslam dünyasına daxil olan, ən inkişaf etmiş, nisbətən siyasi sabit, böyük təbii sərvətlərə malik, daha çox industriallaşma ilə sürətlə inkişaf edən və hətta ixracatçı ölkələrə çevrilən ölkələrdir. Azərbaycan Respublikasının bütün əlamətlər üzrə siyasi və iqtisadi vəziyyətinə görə “11-lər” qrupuna(Next Eleven) daxil olması məqsədəuyğun hesab edilir.

## “77-lər “ qrupu (G77)

Bu qrup 1964-cü ildə YUNKTAD-ın Cenevrədə keçirilən 1-ci konfransında qeydiyata alınmışdır.

İEOÖ-lərin ümumi maraqlarının qorunması, mövqelərinin birləşdirilməsi və möhkəmləndirilməsi məqsədilə BMT-nin İkişaf Etməkdə Olan Ölkələr koalisiyası kimi yaradılmışdır. Təşəbbüskarı 77 dövlət olmuşdur. Adı da buradan yaranmışdır: “77-lər” qrupu (G77).

Hazırda bu qrupa 133 dövlət daxildir. Tərkibinə 3 regional altqrup –

- Asiya, Afrika və Latın Amerikası ölkələri;
- Kiçik Ada Dövlətləri Alyansı(AOSİS);
- OPEC ölkələri;
- Az inkişaf edən ölkələr(HPC) daxildir.

Bu qrupda Çin xüsusi yer tutur.

"G-77"-nin fəaliyyətinin əsas istiqamətləri:

1) Qloballaşma və beynəlxalq iqtisadiyyat;
2) İnkişafın maliyyələşdirilməsi;
3) Ticarət və inkişaf;
4) Ətraf mühit və inkişaf;
5) Sosial tərəqqinin təmin edilməsi;
6) "Cənub-Cənub" çərçivəsində kooperasiya;
7) "Şimal-Çənub" dialoqu;
8) Elmi-texniki inkişaf;
9) İnformasiya – kommunikasiya texnologiyaları və s.

**İEOÖ-lərin lider ölkələri:**

1.OPEC ölkələri;

2.YSÖ (NİC) ölkələri (1-ci, 2-ci, 3-cü və 4-cü dalğa ölkələri).

Bəzi təşkilatlar buraya BRİKS-i də daxil edirlər Braziliya, Rusiya, Hindistan, Çin və CAR).

## 6. YENİ SƏNAYE ÖLKƏLƏRİ (YSÖ – NİC)

**YSÖ (NİC – New Industrial Countries)** İEOÖ-lərin ayrıca bir qrupu olub son onilliklərdə sosial-iqtisadi göstəricilərində sıçrayışlı nəticələr əldə edərək ayrıca bir qrupa çevrilmişlər. YSÖ-lərə, həm də müxtəlif yanaşmalar vardır: İlkin YSÖ-lər və ən yeni YSÖ-lər.

İlkin YSÖ-lər "Birinci dalğa" adlanır. **"Birinci dalğa"** YSÖ-lər: Cənubi Koreya, Sinqapur, Tayvan, Honkonq. Bu qrupu "Asiya pələngləri" və ya "Asiya drakonaları"(əjdahaları) da adlandırırlar (YSÖ-nün Asiya modeli də deyilir).

**"İkinci dalğa"** YSÖ-lər: Argentina, Braziliya, Meksika, Çili, Uruqvay. Bu qrup "Latın Amerikası pumu" (yaquarı) da adlandırılır və YSÖ-nün Latın Amerikası modeli də deyilir.

**"Üçüncü dalğa"** YSÖ-lər: Malayziya, Tayland, Hindistan, Kipr, Tunis, Türkiyə, İndoneziya.

**"Dördüncü dalğa"** YSÖ-lər: Çin, Filippin, Vyetnam.

İqtisadi qruplaşmalarda "birinci dalğa" dəyişməz qalır. Lakin digər üç qrupda müxtəlif qruplaşmalar vardır və ən yeni YSÖ-lər adlanır:

- "**İkinci dalğa"** YSÖ-lər: Hindistan, Malayziya, Tayland, Çili;
- **"Üçüncü dalğa"** YSÖ-lər: İndoneziya, Türkiyə;
- **"Dördüncü dalğa"** YSÖ-lər: İran, Filippin.

1988-ci ildə Torontoda(Kanada) keçirilən dövlət başçılarının müşavirəsində göstərilmişdir ki, "Yeni Sənaye Ölkələri" adının özü onların məzmununu əhatə etmir. Yaxşı olar ki, onlar "Yeni Sənaye İqtisadiyyatları" adlandırılsın. Hələ bundan da əvvəl "Asiya əjdahaları" da var idi və bunlara dörd ölkə və ərazi – Cənubi Koreya, Tayvan, Honkonq, Sinqapur daxil edilirdi.

İƏİT(OECD) ekspertləri də YSÖ qrupu ölkələrinə altı ölkəni – Cənubi Koreya, Tayvan, Honkonq, Sinqapur, Braziliya və Meksikanı daxil edirdilər. Lakin son 20 ildə onların sayı 15-dən artıqdır.

## 7. MƏRKƏZLƏŞDİRİLMİŞ PLAN İQTİSADİYYATLI ÖLKƏLƏR

"Mərkəzləşdirilmiş plan iqtisadiyyatı" (direktiv plan iqtisadiyyatı) BMT tərəfindən XX əsrin 60-cı illərindən istifadə edilməyə başlanılmışdır. 80-ci illərdə yenidənqurma dövrünün tanınmış iqtisadçısı Q.Popov yeni bir termin – "İnizabti-Komanda Sistemi (iqtisadiyyatı)" terminini təklif etmiş və bu termin Rusiyada geniş yayılmışdır. Soyuq müharibə dövründə iqtisadi sistemlərlə siyasi sistemlər bir-birinin əks qütblərində mövcud olmuşdur.




Bazar iqtisadiyyatlı ölkələr demokratik siyasi sistemlər üzərində, inzibati-komanda iqtisadiyyatlı ölkələr (mərkəzləşdirilmiş plan iqtisadiyyatlı, direktiv plan iqtisadiyyatlı ölkələr) avtoritar (totalitar) siyasi sistemlər üzərində öz iqtisadiyyatlarını qurmuşdular. Çin və Vyetnam(az da olsa) hibrid sistemlərdən istifadə etmişlər.

## 8.KEÇİD İQTİSADİYYATLI ÖLKƏLƏR (KİÖ)

Keçid İqtisadiyyatlı Ölkələr (Countries in transition). Bir sosial-iqtisadi formasiyadan digər formasiyaya keçmə mərhələsində, transformasiya prosesində olan ölkələr qrupuna KİÖ-lər deyilir. Bu dövrdə – prosesdə mülkiyyət formaları, istehsalın strukturu və idarəetmə alətləri tamamilə dəyişir. İnzibati sistemdən bazar münasibətləri sisteminə keçilir.

1991-ci ildən başlayaraq SSRİ-nin dağılması, sosialist iqtisadi sisteminin çökməsi nəticəsində SSRİ-dən ayrılan 15, Yuqoslaviyadan ayrılan 7 və 7 Şərqi Avropa dövlətləri "mərkəzləşdirilmiş plan iqtisadiyyatı" sistemindən bazar iqtisadiyyatlı ölkələr sisteminə keçməyə başladılar. Bununla da yeni bir qruplaşma BMT-nin daxil etdiyi "Keçid iqtisadiyyatlı ölkələr" qrupu yaranmışdı.

2000-ci ildə keçid iqtisadiyyatlı ölkələrin sayı 26 olmuşdur:

Şərqi Avropa ölkələri (7 ölkə):

1) Albaniya
2) Bolqarıstan
3) Macarıstan
4) Polşa
5) Ruminya
6) Çexiya
7) Slovakiya

SSRİ-dən ayrılan ölkələr(15 ölkə) .

Yuqoslaviya dağılandan sonra əmələ gələn ölkələr (4 ölkə):

1) Serbiya
2) Xorvatiya
3) Sloveniya
4) Bosniya və Hersoqovina

Sonra daha üç dövlət yaranmışdır: Monteneqro, Şimali Makedoniya və Kosova.

Hətta qısa müddətdə SSRİ-dən ayrılan 3 Baltikyanı ölkə (Estoniya, Latviya və Litva), Şərqi Avropa ölkələrinin, demək olar ki, hamısı, bir neçə keçmiş Yuqoslaviya dövlətləri tam bazar iqtisadiyyatlı dövlətlər olmaqla Avropa İqttifaqının üzvü oldular. Nəticədə "Keçid iqtisadiyyatlı ölkələr", demək olar ki, iqtisadi mənbələrdə az işlədilir, getdikcə sayı azalır və sıradan çıxır.

BVF-nin və digər beynəlxalq təşkilatların sənədlərində KİÖ-lərə bəzən Kamboca, Çin, Laos və Vyetnam kimi ölkələr də daxil edilir.

Mərkəzi və Şərqi Avropaya 19 dövlət daxildir. Onlardan "Vişeqrad Dördlüyü" – Macarıstan, Polşa, Slovakiya və Çexiya Aİ-nin üzvləridir.

Geri qalmış ölkələr və ya zəif inkişaf etmiş ölkələrin xarakterik xüsusiyyətləri aşağdakılardır:

1. Geri qalmış və ya zəif inkişaf etmiş ölkələrin sayı əsasən 45-dir, bəzən azca fərqlənir.
2. Saxaradan şimalda 12, cənubda 42 Afrika ölkəsi yerləşir ki, bunlardan ərazisi Saxaraya qismən düşən 12 ölkədən çoxu geri qalmış ölkələrdir.
3. Ölkələrin geri qalması və zəif inkişaf etməsinin əsas səbəblərindən biri cinsi bərabərsizlik, qadınların kişilərdən aşağı sayılmasıdır.
4. Geri qalmış və ya zəif inkişaf etmiş ölkələr, əsasən, keçmiş müstəmləkə ölkələridir.
5. Bu ölkələr siyasi cəhətdən qeyri-sabit ölkələrdir.
6. Az inkişaf etmiş və ya inkişaf etməmiş ölkələr təhsil səviyyəsi aşağı olan ölkələrdir.
7. Geri qalmış ölkələr cəhalət, xurafat və fanatizm ölkələridir.
8. Zəif inkişaf etmiş ölkələr ailə planlaşması olmayan ölkələrdir.
9. Geri qalmış ölkələr iqtisadiyyatı idarə edilməyən ölkələrdir.
10. Zəif inkişaf etmiş ölkələr adambaşına illik gəliri 100 dollardan az olan ölkələrdir və s.

Geri qalmış ölkələr iqtisadiyyatı qapalı(az açıq) olan ölkələrdir, sayı 10-dan çoxdur(Şimali Koreya, Kuba, Konqo, Sudan və s.). Afrika ölkələrinin çoxu zəif inkişaf etmiş, dünya təsərrüfat əlaqələri sistemində əsasən aqrar – xammal ölkələridir.

## 9. İSLAM ÖLKƏLƏRİ

VII əsrin 610-cu ilində üçüncü və sonuncu səmavi din – İslam dini meydana gəlmişdir. 630-cu ildə Məhəmməd peyğəmbər (s.ə.s.) öz tərəfdarları ilə birgə Məkkədə ərəb dövlətini yaratmışdır. Bundan sonra İslam dini Şərq, Cənub Şərq, Asiya, Afrika, Avropa və digər ərazilərə yayılmış və İslam ölkələri formalaşmışdır.

Rəsmi dövlət sənədlərində və xalq arasında İslam və Müsəlman ölkələri sinonim kimi istifadə edilir. İslam ölkələrinin Beynəlxalq Təşkilatları əhalisinin əksəriyyəti İslam dininə mənsub olan ölkələri İslam və ya Müsəlman ölkələri hesab edir. Lakin yanaşmadan asılı olaraq İslam və ya Müsəlman ölkələri fərqləndirilir. Ölkənin dini mənsubiyyətinə görə yanaşdıqda Müsəlman ölkələri adlanır. Əhalisi İslam dininə mənsub olan İslam ölkələrinin əhalisinə islamlar yox, müsəlmanlar deyilir.

İslam dünyasına 45 ölkə daxildir. Şimali Afrika, Yaxın Şərq və Cənub Şərqi Asiyada yerləşir. Ölkədə islam dininin yeri və roluna görə dörd qrupa bölünür:

**I. Özünü İslam Ölkəsi elan edənlər – 6 ölkə**

1) Əfqanıstan
2) İran
3) Mavritaniya
4) Pakistan
5) Səudiyyə Ərəbistanı
6) Yəmən

**II. Dövlət dini İslam dini olduğu göstərilən ölkələr – 13 ölkə**

1) Əlcəzair
2) Misir
3) İran
4) İordaniya
5) Küveyt
6) Livan
7) Malaziya
8) Maldivlər
9) Mərakeş(FAS)
10) Somali
11) Tunis
12) BƏƏ
13) Bruney

**III. Əsas qanununda (konstitusiyasında) din göstərilməyən ölkələr – 6 ölkə**

1) İndoneziya
2) Sudan
3) Bosniya – Herseqovina
4) Niger
5) Cibuti
6) Siyera Leon

**IV. Dünyəvi ölkələr – 20 ölkə**

1) Albaniya(Arnavutluk)
2) Azərbaycan
3) Banqladeş
4) Burikna Faso
5) Çad
6) Qambiya
7) Qvineya(Gine)
8) Qazaxıstan
9) Kosova
10) Qırğızıstan
11) Mali
12) Nigeriya
13) Seneqal
14) Suriya
15) Liviya
16) Tacikistan
17) Türkmənistan
18) Türkiyə
19) Özbəkistan
20) Şimali Kipr Türk Respublikası

## İSLAM ƏMƏKDAŞLIQ TƏŞKİLATINA (ƏVVƏLKİ İSLAM KONFRANSI TƏŞKİLATI) ÜZV ÖLKƏLƏRİN SİYAHISI

**Afrika qrupu**

1. Uqanda
2. Burkina Faso
3. Benin
4. Çad
5. Qabon
6. Qambiya
7. Qəmər Adaları
8. Seneqal
9. Sierra – Leone
10. Qvineya
11. Qvineya – Bisao
12. Kamerun
13. Mali
14. Mozambik
15. Niger
16. Nigeriya
17. Toqo

**Asiya qrupu**

1. Əfqanıstan
2. İndoneziya
3. İran
4. Pakistan
5. Bruney
6. Banqladeş
7. Türkiyə
8. Türkmənistan
9. Tacikistan
10. Qırğızıstan
11. Maldiv
12. Malayziya
13. Qazaxıstan
14. Özbəkistan

**Ərəb qrupu**

1. Əlcəzair
2. İordaniya
3. BƏƏ
4. Bəhreyn
5. Tunis
6. Cibuti
7. Səudiyyə Ərəbistanı
8. Sudan
9. Suriya
10. Somali
11. İraq
12. Oman
13. Fələstin
14. Qətər
15. Kuveyt
16. Livan
17. Liviya
18. Misir
19. Mərakeş
20. Mavritaniya
21. Yəmən

**Avropa qrupu**

**1.**Azərbaycan
**2.**Albaniya
**3.**Bosniya və Hersoqovina
**4.**Kosova

**Amerika qrupu**

**1.**Surinam

**Müşahidəçilər**

**1.**Mərkəzi Afrika Respublikası
**2.**Qana

Ölkələrin sayına görə ən böyük qrup Ərəb qrupudur. 12 OPEC üzvündən 4-ü bu qrupa daxildir. Ərazisinə, əhalisinin sayına, təbii resursları və nisbi inkişaf səviyyəsinə görə Asiya qrupu digərlərindən üstündür. Afrika qrupuna daxil olanlar dünyanın ən geridə qalmış, yoxsul ölkələridir. Asiya qrupuna daxil olan 14 ölkədən 4-ü YSÖ-lərdir.

Müsəlmanlar əsasən iki qitədə yaşayırlar (2010-cu il).

- Asiyada – 70 faiz – 900 mln-dan çox;
- Afrikada – 29 faiz – 400 mln-dan çox;
- Avropada – 1 faiz – 50 mln-dan çox;
- 35 ölkədə müsəlmanlar əhalinin əksəriyyətini təşkil edir[1];
- 120 ölkədə yerləşiblər;
- 20 ölkədə müsəlmanlar artıq təşkil edir;
- 13 ölkədə İslam dövlət dini kimi qəbul edilib;
- 57 ölkədə 50 faizdən çoxdur;
- 6 ölkə rəsmi olaraq İslam Respublikası adlanır.

"Pew" Araşdırma Mərkəzinin (Pew Research Center,2009) "Din və İctimai Həyat Formu"nun 2009-cu il hesabatına görə dünyanın 200-dən çox ölkəsində 1,5 mlrd müsəlman yaşayır. Bu da dünya əhalisinin 23 faizini təşkil edir. Onların da 1 faizi Avropada, 0,3 faizi Amerikada yaşayır. Lakin nəzərə almaq lazımdır ki, elə qeyri-islam ölkələri vardır ki, onların müsəlman əhalisi 30-dan çox İslam ölkəsinin əhalisindən çoxdur. Məsələn: Hindistanda 200, Çində 100, Efiopiyada 50,
Rusiyada 30 mln-dan çox müsəlman yaşayır.

İslam ölkələrinin bəzi əlamətləri aşağıdakılardır:

- Bəzi xristian ölkələrində müsəlmanların sayı müsəlman ölkələrindən daha çoxdur;
- Almaniyada müsəlmanların sayı Livandan daha çoxdur;
- Çində Suriyadan daha çox müsəlman yaşayır;
- Rusiyada olan müsəlmanların sayı İordaniya və Liviyadakı müsəlmanların birlikdə sayından daha çoxdur;
- Efiopiyada Əfqanıstandan çox müsəlman vardır;
- Dünya müsəlmanlarının 2/3-si, 65 faizi 10 ölkədə, onlardan 6-sı Asiyada yaşayır: İndoneziya, Pakistan, Hindistan, Banqladeş, Türkiyə və İran;
- Dünya müsəlmanlarının 15 faizi təkcə İndoneziyada yaşayır;
- Avropa 50 mln müsəlmanın vətənidir;
- "Pew" Din cə Cəmiyyət Həyatı Təşkilatının (ABŞ, Vaşinqton) verdiyi məlumata görə dünyada hər 4 adamdan biri, yəni 25 faizi müsəlmandır;
- 10-dan artıq ölkədə(Çin, Rusiya, Hindistan və s.) müsəlman əhalinin 20 faizə qədəri özünü hakim əhali dinində təqdim edir.

2050-ci ildə müsəlmanlarla xristianların sayı bərabərləşəcək, XXI əsrin sonlarında müsəlmanların sayı birinci yerə qalxacaqdır.

---

[1] L.İ.Medvedko, A.V.Germanoviç. Allahın adı ilə… Azərbaycan Ensiklopediyası, B., 1991, səh.60.

## İSLAM ƏMƏKDAŞLIQ TƏŞKİLATI(İsƏT)

2011-ci ilə qədər İslam Konfransı Təşkilatı (İKT) adlanırdı. 1969-cu ildə Rabatda (Mərakeş) müsəlman ölkələrinin dövlət və hökumət başçılarının konfransında yaradılmışdır. 60-a yaxın dövləti özündə birləşdirir. 5 ölkə müşahidəçi statusuna malikdir(55+2+5).

BMT ilə sıx əməkdaşlıq edir. 1975-ci ildən BMT yanında müşahidəçi statusu almışdır. 1972-ci ildə nizamnaməsi qəbul edilmişdir. Ali orqanı dövlət və hökumət başçılarının konfransıdır. İcra orqanı- Baş Katiblikdir.

Baş katibliyin iqamətgahı Yurisəlimdə (Qüdsdə) yerləşir. Qüds İsrail işğalından azad edilənədək müvəqqəti olaraq Ciddədə (Səudiyyə Ərəbistanı) yerləşir.

Baş Katibliyin stukturuna aşağdakı şöbələr daxildir:

1) Sosial-iqtisadi;
2) Elm və texnika;
3) Asiya məsələləri;
4) Afrika məsələləri;
5) Beynəlxalq məsələlər;
6) İnformasiya;
7) İnsan hüquqları;
8) Dini icma məsələləri;
9) Müsəlman qeyri-hökumət məsələləri və s.

İSƏT yanında bir çox müstəqil beynəlxalq qurumlar vardır.

## İƏT (İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATI) – ECO (ECONOMİC COOPERATİON ORGANİZATİON)

1985-ci ildə yaradılıb. İran, Pakistan, Türkiyə, sonra Əfqanıstan, Azərbaycan, Türkmənistan, Qazaxıstan, Özbəkistan, Qırğızıstan və Tacikistan üzv olmuşdur.

Təşkilat üzv ölkələrin Xarici İşlər Nazirləri Şurasından ibarətdir. Hər 2-3 ildən bir dövlət və hökumət başçılarının sammiti keçirilir. Mənzil – qərargahı Tehranda yerləşir. Rəsmi dili ingilis dilidir. Müavinlər Şurası – İƏT ölkələrinin səfirləri daxildir.

6 ixtisaslaşdırılmış direktorluqdan ibarətdir.

1993-cü ildə BMT-də, 1994-cü ildə isə İsƏT-də müşahidəçi statusu alıb. EKO-nun 13-cü sammiti 2017-ci il martın 1-də İslamabadda (Pakistan) keçirilmişdir.

## 10.DİGƏR ƏLAMƏTLƏR ÜZRƏ DÜNYA ÖLKƏLƏRİNİN QRUPLAŞDIRILMASI

1. 1 mln-dan çox əhalisi olan dünya ölkələri (150 ölkə: ərazisi, əhalisi, ÜDM-i, paytaxtı);
2. Əhalisi ən çox olan 50 ölkə;
3. Ən az əhalisi olan 10 ölkə;
4. Dünyada təbii artımı ən yüksək və ən aşağı olan 20 ölkə;
5. Dünyada doğum səviyyəsi ən yüksək və ən aşağı olan 20 ölkə;
6. Dünyada kişilərin və qadınların çoxluq təşkil etdiyi 20 ölkə;
7. Orta yaş ən yüksək olan 20 ölkə;
8. Dünyanın ölüm səviyyəsi ən yüksək və ən aşağı olan 20 ölkə;
9. Əmək ehtiyatları ən çox və ən az olan 20 ölkə;
10. Dünyanın ən böyük 50 və ən kiçik ərazisi olan 10 ölkəsi;
11. Dünyanın ən böyük adaları, yarımadaları və səhraları olan 10 ölkəsi;

12. Dünyanın ən uzun quru sərhəddi, qarşılıqlı sərhəddi və sahil xətti olan 20 ölkəsi;
13. Dünyanın 10 ən uzun çayları, ən böyük dənizləri və körfəzləri olan 10 ölkəsi;
14. Dünyanın ən çox və ən az qızıl-valyuta ehtiyatı olan 20 ölkəsi;
15. Dünyanın Birbaşa Xarici İnvestisiyaları (BXİ) ən çox olan 20 ölkəsi;
16. Dünyanın ən böyük və ən kiçik daxili kreditləşməyə malik olan 20 ölkəsi;
17. Dünyanın müdafiə xərcləri ən çox və ən az olan 20 ölkəsi;
18. Dünyanın əkin sahələrinin ən az və ən çox olan 20 ölkəsi;
19. Dünya ölkələrinin dini tərkibinə görə 20 ölkəsi;
20. Bunlardan başqa, dünya ölkələri 60-a qədər fiziki, coğrafi, tibbi, sosial, mədəni və s. əlamətlər üzrə də qruplaşdırılır.

**Cədvəl 4.8**

**Dünyada ən böyük ərazisi olan ilk 10 ölkə**

| № | Ölkə | Sahəsi, min km$^2$ | № | Ölkə | Sahəsi, min km$^2$ |
|---|---|---|---|---|---|
| **1.** | Rusiya | 17,1 | **6.** | Avstraliya | 7,7 |
| **2.** | Kanada | 10,0 | **7.** | Hindistan | 3,3 |
| **3.** | Çin | 9,6 | **8.** | Argentina | 2,8 |
| **4.** | ABŞ | 9,4 | **9.** | Qazaxıstan | 2,7 |
| **5.** | Braziliya | 8,5 | **10.** | Sudan | 2,5 |

Dünyanın 7 ən böyük dövlətinin ərazisi planetin quru hissəsinin yarısını – 50 faizini tutur.

**Cədvəl 4.9**

**Dünyada ən uzun sahil xətti olan 10 ölkə**

| № | Ölkə | Sahil xətti, min km | № | Ölkə | Sahil xətti, min km |
|---|---|---|---|---|---|
| **1.** | Kanada | 244 | **6.** | Yaponiya | 30 |
| **2.** | İndoneziya | 55 | **7.** | Avstraliya | 26 |
| **3.** | Qrenlandiya | 44 | **8.** | Norveç | 22 |
| **4.** | Rusiya | 38 | **9.** | ABŞ | 20 |
| **5.** | Filippin | 36 | **10.** | Yeni Zelandiya | 15 |

**Cədvəl 4.10**

**Dünyanın ən kiçik ölkələri**

| Ərazisinə görə ən kiçik | | | Ən az əhalisi olan | | |
|---|---|---|---|---|---|
| **№** | **Ölkələr** | **Sahəsi, km** | **№** | **Ölkələr** | **Əhalisi, nəfər** |
| **1.** | Vatikan | 0,44 | **1.** | Vatikan | 842 |
| **2.** | Monako | 2,02 | **2.** | Tuvalu | 10782 |
| **3.** | Nauru | 21 | **3.** | Nauru | 10800 |
| **4.** | Tuvalu | 26 | **4.** | Palau | 17661 |
| **5.** | San-Marino | 61 | **5.** | San-Marino | 33005 |
| **6.** | Lixteynşteyn | 160 | **6.** | Lixteynşteyn | 37662 |
| **7.** | Marşal adaları | 181 | **7.** | Monako | 38400 |

| | | | | | |
|---|---|---|---|---|---|
| **8.** | Sent-Kits və Nevis | 261 | **8.** | Sent-Kits və Nevis | 52329 |
| **9.** | Maldiv adaları | 300 | **9.** | Cənubi Osetiya (tanınmamış) | 53532 |
| **10.** | Malta | 316 | **10.** | Marşal adaları | 55717 |

**Cədvəl 4.11**

**Dünyada okeana çıxışı olmayan 42 ölkə**

| Sıra № | Region, ölkə | Sıra № | Region, ölkə |
|---|---|---|---|
| | **MDB-9** | | **Asiya-5** |
| **1.** | Azərbaycan | **1.** | Əfqanıstan |
| **2.** | Ermənistan | **2.** | Butan |
| **3.** | Belarus | **3.** | Laos |
| **4.** | Qazaxıstan | **4.** | Monqolustan |
| **5.** | Qırğızıstan | **5.** | Nepal |
| **6.** | Moldova | | **Afrika-15** |
| **7.** | Tacikistan | **1.** | Botsvana |
| **8.** | Türkmənistan | **2.** | Burkina-Faso |
| **9.** | Özbəkistan | **3.** | Burundi |
| | **Avropa-11** | **4.** | Zambiya |
| **1.** | Macarıstan | **5.** | Zimbabve |
| **2.** | Andorra | **6.** | Lesoto |
| **3.** | Vatikan | **7.** | Malavi |
| **4.** | Avstriya | **8.** | Mali |
| **5.** | Lixtenşteyn | **9.** | Nigeriya |
| **6.** | Lüksemburq | **10.** | Ruanda |
| **7.** | Makedoniya | **11.** | Svazilend |
| **8.** | San-Marino | **12.** | Uqanda |
| **9.** | Slovakiya | **13.** | MAR |
| **10** | Çexiya | **14.** | Çad |
| **11.** | İsveçrə | **15.** | Efiopiya |
| | | | **Latın Amerikası-2** |
| | | **1.** | Boliviya |
| | | **2.** | Paraqvay |

Dünyada okeana və ya açıq dənizə çıxışı olmayan ölkələr 4.11-ci, ən zəngin müsəlman ölkələri 4.12-ci, “Hindistan üçlüyü” ölkələri(ən çox müsəlman əhalisi olan üç ölkədən ikisi) 4.13-cü, ən az borcu olan ölkələr 4.14-cü, “Atom klubu” dövlətləri 4.15-ci cədvəllərdə verilmişdir.

**Cədvəl 4.12**

**Dünyanın ən zəngin 11 müsəlman ölkəsi(2018)**

| № | Ölkə | Ərazisi, min km$^2$ | Əhalisi, mln nəfər | Adambaşına düşən ÜDM, min dollar | Əsas məhsulları |
|---|---|---|---|---|---|
| 1.<br>2.<br>3.<br>4.<br>5.<br>6.<br>7. | Qətər<br>Küveyt<br>Bruney<br>BƏƏ<br>Oman<br>Səudiyyə Ərəbistanı<br>Bəhreyn | 114<br>178<br>57<br>836<br>309<br>2218<br>6 | 1,7<br>3,5<br>0,4<br>9,2<br>4,0<br>32<br>1,3 | 88,9<br>54,6<br>50,5<br>48,2<br>28,8<br>24,4<br>23,6 | neft,qaz<br>neft<br>neft,qaz<br>neft,qaz<br>neft<br>neft,qaz<br>neft |
| 8. | Türkiyə | 780 | 78 | 16,8 | Turizm, neft emalı, gəmiqayırma, xidmət |
| 9. | Malayziya | 329 | 32,0 | 15,5 | neft,turizm,aqrar |
| 10. | Azərbaycan | 86,6 | 9,6 | 14,6 | neft,qaz,qeyri-neft |
| 11. | Liviya | 1759 | 6,3 | 14,1 | neft |

**Cədvəl 4.13**

**"Hindistan üçlüyü" ölkələrinin (Böyük Britaniyanın müstəmləkə ərazisi) mühüm göstəriciləri**

| Ölkələr | Müstəqillik əldə edib | Ərazisi | Əhalisi(2017) | Müsəlman əhali, % |
|---|---|---|---|---|
| Hindistan | 26.01.1950 | 3287,6 min km$^2$ | 1,3 mlrd | 13,4 |
| Pakistan | 14.08.1947 | 803,9 min km$^2$ | 197 mln | 97,0 |
| Banqladeş | 26.03.1970 | 144,0 min km$^2$ | 162 mln | 89,7 |

## Dünyada ən az borcu olan ölkələr

Ümumdünya İqtisadi Forumunun (WEF) hazırladığı "Global Competetiveness Survey" 2016-2017-ci il hesabatında ölkələrin borcu Ümumi Daxili Məhsula (ÜDM-ə) nisbət göstəricisi ilə müəyyən edilmişdir. Dünya ölkələri üzrə borc aşağıdakı cədvəldə verilmişdir. Borca hökumətin birbaşa öhdəlikləri və dövlət zəmanətli kreditlər daxil edilmişdir.

**Cədvəl 4.14**

| Sıra № | Ölkələr | Borcun ÜDM-ə nisbəti, faizlə |
|---|---|---|
| **1.** | Honkonq | 0,1 |
| **2.** | Bruney | 3,1 |
| **3.** | Estoniya | 9,5 |
| **4.** | Səudiyyə Ərəbistanı | 12,4 |
| **5.** | Botsvana | 13,9 |
| **6.** | Rusiya | 17,0 |
| **7.** | Küveyt | 18,6 |
| **8.** | Nigeriya | 18,6 |
| **9.** | BƏƏ | 19,3 |
| **10.** | Əlcəzair | 20,4 |
| **11.** | Qazaxıstan | 21,1 |
| **12.** | Azərbaycan | 20,4 |

**Cədvəl 4.15**

**“Atom Klubu” (nüvə dövlətləri klubu)[1] - Nüvə silahına malik olan dövlətlər qrupunun şərti adıdır**

| Sıra № | Ölkə | Sınaq ili | Qeyd |
|---|---|---|---|
| **1.** | ABŞ | 1945 | Bəşər tarixində ilk nüvə sınağı keçirilib |
| **2.** | SSRİ(Rusiya) | 1949 | 4 il sonra |
| **3.** | Böyük Britaniya | 1952 | 3 il sonra |
| **4.** | Fransa | 1960 | 8 il sonra |
| **5.** | Çin | 1964 | 4 il sonra öz ərazisində sınaqdan keçirilib |
| **6.** | Hindistan | 1974 | 10 il sonra |
| **7.** | Pakistan | 1998 | Yeganə İslam dövlətidir |
| **8.** | İsrail | 1970 | Rəsmi məlumat verilmir |
| **9.** | Koreya XDR | 2006 | Rəsmi məlumat verilmir |

Rəsmi olaraq 7 dövlət atom dövlətidir. İlk 5 dövlət BMT Təhlükəsizlik Şurasının üzvüdür. Təkcə bir müsəlman dövləti – Pakistan atom silahına malikdir.

## Paris Klubu

Paris klubu inkişaf etmiş kreditor ölkələrin qeyri-rəsmi hökumətlərarası təşkilatıdır. Bu klubun yaradılmasının təşəbbüskarı Fransa olub. Klub 1956-cı ildə Argentinanın öz kreditorları ilə Parisdə görüşməyə razılıq verdiyi vaxt yaradılıb. Hazırda Paris klubunun başlıca vəzifəsi İnkişaf Etməkdə Olan Ölkələrin borclarının restrukturizasiya edilməsidir.

Paris klubunun daimi üzvləri 21 dövlətdir:

[1] https://ru.wikipedia.org/wiki/Ядерный_клуъ

1) Avstraliya
2) Avstriya
3) Belçika
4) Böyük Britaniya
5) Almaniya
6) Danimarka
7) İsrail
8) İrlandiya
9) İspaniya
10) İtaliya
11) Kanada
12) Niderland
13) Norveç
14) Rusiya
15) Koreya Respublikası
16) ABŞ
17) Finlandiya
18) Fransa
19) İsveçrə
20) İsveç
21) Yaponiya

1956-cı ildən 2014-cü ilə qədər Paris klubu çərçivəsində 90-dan artıq müxtəlif borclu dövlətlər arasında 430-dan çox razılaşma əldə edilib. Müxtəlif ölkələrin tənzimlənən xarici dövlət borclarının ümumi məbləği 583 mlrd ABŞ dollarından çox olmuşdur. Baxmayaraq ki, Paris klubunun ciddi formalaşmış statusu yoxdur, qeyri-formal təşkilatdır, yenə də müəyyən edilmiş qayda və prinsiplər əsasında işləyir.

## London Klubu

London klubu xarici borcalanların bu klubun üzvləri qarşısında borclarının tənzimlənməsini nizama salan kreditor bankların qeyri-formal təşkilatıdır. London klubunun birinci iclası 1976-cı ildə Konqonun (keçmiş Zair) xüsusi kreditorlar qarşısında borcu məsələlərinə baxılması zamanı olmuşdur. Məqsədinə görə London klubunun fəaliyyəti Paris klubunun fəaliyyətinə oxşardır. Fərqi budur ki, əgər Paris klubu kreditor ölkələrin Mərkəzi Banklarının və Maliyyə Nazirliklərinin nümayəndələrini birləşdirirsə, London klubu qeyri-dövlət, kommersiya banklarının nümayəndələrini birləşdirir. London klubunun üzvləri müxtəlif ölkələrdən olan 1000-ə yaxın banklardır.

Bu klub "Kommersiya Banklarının Məsləhət Komitəsi" kimi tanınır. Paris klubu kimi bunun da nizamnaməsi yoxdur. Üzvlərin tərkibi zərurət yaranan hallarda dəyişdirilir.

London klubu öz fəaliyyətində BVF, DB və "Böyük Yeddiliyin" tövsiyyələrinə əməl edir. Bu klub özəl bankları əhatə etdiyinə görə tərəflər arasında razılıq əldə edilməsi Paris klubuna nisbətən çətin olur.

## Frankofoniya Təşkilatı

Frankofoniya dünyanın fransızdilli ölkələrini birləşdirən beynəlxalq əməkdaşlıq təşkilatıdır. 1970-ci ildə yaradılıb. 58 üzvü və 26 müşahidəçi üzvü vardır. Qərargah mənzili Parisdə (Fransa) yerləşir. Rəsmi dili fransız dilidir. Hər iki ildən bir sammitini keçirir. İlk sammiti 1986-cı ildə (Paris – Fransa), 14-cü sammiti 2012-ci ildə Kinsasada (Konqo DR) keçirilmişdi. Ermənistan 2008-ci ildən rəsmi üzvüdür.

Frankofoniya Beynəlxalq Təşkilatının verdiyi məlumata görə 212 mln adam həmişə gündəlik həyatında fransız dilindən istifadə edir. Dünyanın 43 dövlət və ərazisində fransız dili 1-ci, 41 dövlət və ərazisində 2-ci rəsmi dil kimi işlədilir.

## Dünyada dillər

Dünyanın nəhəng dil kataloqunun (Ethnoloque) verdiyi məlumata görə 2020-ci ildə dünyada danışılan dillərin sayı 7174 olmuşdur. Kommunikasiya vasitələrinin sürətli inkişafı ilə əlaqədar olaraq canlı dillərin sayı azalır, orta sürətlə hər iki həftəyə bir dil yox olur. Dünyada ən çox yayılan 40-dan çox dildə dünya əhalisinin 2/3 hissəsi danışır (Dünya əhalisi 2020-ci ilin sonuna 7,8 mlrd nəfər olub). Dünya əhalisinin 21 faizi Çin, 19 faizi ingilis, 6 faizi ispan, 5 faizi ərəb, 2 faizi fransız, 2 faizi portuqal, 1 faizi alman, 1 faizi rus dilində, yəni 8

dildə dünya əhalisinin 57 faizi (7174 dildən), qalan 43 faizi isə qalan dillərdə danışır ki, bunlarında 40 faizə qədəri nisbətən ən çox danışılan dillərdir (türk dili 100 mln-dan çox, benqal, yapon, koreya və s.), 3 faizi isə cüzi danışılan dillərdir. Dünyanın 137 ölkəsində ingilis, 59 ölkəsində ərəb, 54 ölkəsində fransız, 39 ölkəsində Çin, 31 ölkəsində ispan, 28 ölkəsində alıman, 19 ölkəsində rus, 14 ölkəsində italyan, 8 ölkəsində türk dillərində danışılır.

**Səhralı dövlətlər – Namibiya Respublikası**

1968-ci ilə qədər Cənub-Qərbi Afrika adlanırdı. Afrikanın cənub-qərbində yerləşir. Sahəsi Azərbaycandan 9 dəfə böyük (824,3 min $km^2$), əhalisi Azərbaycandan 5 dəfəyə qədər azdır (2,5 mln nəfər – 2017). 1990-cı ilə qədər CAR-ın tərkibində olub. Su ərazisi yoxdur. Əgər Azərbaycanda hər $km^2$ - 91 nəfər düşürsə, Namibiyada 3,1 nəfər düşür. Ərazisi, əsasən, səhra, yarımsəhra və savanadan ibarətdir. Ümumi ərazinin böyüklüyü bəzən ölkənin iqtisadi mövqeyinə təsir etmir. Məsələn, Namibiyanın yerləşdiyi Namib səhrasının ərazisi – uzunluğu 1900 km, eni 50-160 km olmaqla (100 000 $km^2$) Azərbaycanın ərazisinə yaxındır. Nama dilində Namib "heç bir şeyin mövcud olmadığı yer" mənasını verir. Dünyanın ən hündür qum təpəsi (383 m) buradadır. Bütün dünyada 146 səhra vardır ki, onlardan da ən böyüyü Böyük Səhradır. Şimali Afrikadadır. Qərbi Saxara ilə birlikdə 9 ölkəni əhatə edir. Uzunluğu 4800 km, eni 1800 km, sahəsi 9,4 $km^2$ –dir.

## 11. DÜNYA İQTİSADİYYATININ QLOBAL PROBLEMLƏRİ

Ölkələrdə baş verən hadisə və proseslərin ölkənin milli sərhədlərindən çıxaraq, başqa ölkələrə keçərək daha da genişlənməsi və ya yayılması proseslərinin məcmuuna *qloballaşma* deyilir. Bir ölkə ilə digər ölkə arasında texniki, hüquqi və iqtisadi sədd sərhəddir.

Dövlət sərhəddi ölkənin quru və su ərazisini, yerin təkini, dəniz və hava fəzasını qonşu dövlətlərdən ayıran xətt və bu xətdən keçən şaquli səthdir.

Hər bir ölkə öz milli maraq və mənafelərinə uyğun olaraq özünün dövlət sərhəddi haqqında qanununu qəbul edir. Həmin qanunlara müvafiq olaraq hər bir dövlət özünün Xarici İqtisadi Əlaqələrini(XTƏ) müvafiq hökumət orqanları və xidmətləri vasitəsilə yerinə yetirir.

Bu dövlət (hökumət) orqanları və xidmətləri ölkənin qlobal proseslərdə iştirakını təmin edir, tənzimləyir və məsuliyyət daşıyır. Lakin dünyada baş verən qlobal proseslər özünün xarakterik əlamətlərinə - təbii, siyasi, sosial, iqtisadi və digər cəhətlərinə görə lokallaşdırıla və ətraf aləmdən ayrıla bilmir, regional və ümumdünya proseslərinə qoşulmağa məhkumdur, istəyindən asılı olmayaraq qlobal proseslərin iştirakçısına çevrilir. Dünyada nəqliyyat, rabitə və informasiya texnologiyalarının sürətli inkişafı, elmi-texniki tərəqqi və təbii-texnoloji amillər bu prosesləri daha da artırır və gücləndirir.

Qloballaşma dövründə dünya vahid və canlı bir orqanizmə çevrilirb. Hər bir ölkə bu canlı orqanizmin bir üzvüdür və ayrılmaz tərkib hissəsidir. Ayrıca, kənarda və ya lokal şəkildə mövcud ola bilməz. Qloballaşma "sərhədsiz dünya" yaratmışdır. Qloballaşma sərhəd tanımadan yayılır.

Ölkələrin dövlət sərhəddi ilə bərabər iqtisadi ərazi sərhədləri də vardır. Ölkənin iqtisadi ərazisinə aşağıdakı ərazilər daxildir:

1. Ölkənin yuridiksiyasına daxil olan əsas coğrafi ərazi;
2. Dənizə çıxışı olan ölkələrin ada əraziləri;
3. Ərazi suları;
4. Digər ölkə və ölkələr ərazisi daxilində olan anklav ərazilər;
5. Azad İqtisadi Zonalar (AİZ).

Ölkələrin dövlət sərhədləri və iqtisadi ərazi sərhədləri üzərində yeddi nəzarət növü tətbiq edilir (cədvəl 4.16). Bu nəzarət növlərini müvafiq sərhəddə nəzarət orqanları, hökumət xidmətləri və yüksək hökumər orqanları yerinə yetirirlər.

**Cədvəl 4.16**

**Ölkənin sərhəddi üzərində nəzarəti həyata keçirən dövlət orqanları**

| Nəzarətin növü | Sərhəddə nəzarət orqanı | Hansı hökumət xidməti | Yüksək hökumət orqanı |
|---|---|---|---|
| Sərhəd nəzarəti | Sərhəd məntəqəsi | Sərhəd qoşunları | Dövlət Sərhəd Xidməti |
| Gömrük nəzarəti | Gömrük məntəqəsi | Gömrük idarələri | Dövlət Gömrük Komitəsi |
| Nəqliyyata nəzaət | Nəqliyyat müfəttişliyi | Nəqliyyata nəzarət idarəsi | Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi |
| Veterinar nəzarət | Veterinar müfəttişliyi | Baytarlıq nəzarəti idarəsi | Kənd Təsərrüfatı Nazirliyi |
| Fitosanitar nəzarət (bitki karantini) | Fitiosanitar müfəttişliyi | Fitosanitar nəzarəti idarəsi | Kənd Təsərrüfatı Nazirliyi |
| Sanitar-karantin nəzarəti | Sanitar-karantin müfəttişliyi | Sanitar-epidomologiya idarəsi | Səhiyyə Nazirliyi |
| Taxıl məhsullarının keyfiyyətinə nəzarət | Taxıl müfəttişliyi | Taxıl məhsulları idarəsi | Kənd Təsərrüfatı Nazirliyi |

Ölkənin milli dövlət sərhəddi və iqtisadi ərazi sərhədləri üzərində birbaşa nəzarəti Dövlət başçısı həyata keçirir. Qlobal problemlərin yayılmasının qarşısının alınmasında göstərilən dövlət orqanları və xidmətləri müstəsna rol oynayır. Lakin qloballaşma bütün sərhədləri aşıb keçir.

"Qloballaşma" ilk dəfə olaraq 1961-ci ildə Vebster Lüğətində verilmiş və işlədilməyə başlanılmışdır. Lakin təsərrüfat həyatının llə prosesinin çoxəsirlik mərhələlərində bu prosesin yaranması və formalaşması prosesi başladığı üçün bəzin tədqiqatçılar onun XIX əsrin sonları, bəzən, hətta XVI əsrə aid olduğunu hesab edirlər. Bu prosesin bəzi mərhələləri Vallerstaynın "dünya-sistem nəzəriyyəsi", H.D.Kondratyevin "uzun dalğa" nəzəriyyəsi, 4 sənaye inqilabı və s. məsələlərdə öz əksini tapır.

Qloballaşma:

- Beynəlxalq inteqrasiyanın yüksək pilləsidir;
- Beynəlmiləşmənin universal şəkildə genişlənməsidir;
- Müstəmləkəçiliyin yeni formasıdır;
- Qarşılıqlı əlaqə və qarşılıqlı asılılığın qlobal miqyasa çıxışıdır;
- Bəşəriyyətin iqtisadi tarixinin yeni epoxasıdır;
- Yeni kapitalist iqtisadiyyatıdır;
- Meqacəmiyyətin yaranması (formalaşması) prosesidir.

Göründüyü kimi, qloballaşma fenomeninə yanaşma tərzləri metodoloji nöqteyi-nəzərdən, həm də mahiyyət, funksionallıq və struktur bütövlük baxımından çox müxtəlifliklə, yaxud müxtəlifliyin diversifikasiyası ilə müşahidə edilməkdədir.

Dünyanın qlobal problemləri II Dünya müharibəsindən sonra güclənməyə başlamışdır. Qlobal problemlərin yaranması beynəlxalq iqtisadi münasibətlərin genişlənməsinə səbəb olmuşdur. XXI əsr dünya iqtisadiyyatının qloballaşması əsri hesab edilir.

Qlobal problemlər bütün ölkələrin – bəşəriyyətin səylərinin birləşdirilməsini tələb edir, onlar qarşılıqlı surətdə yaranır və inkişaf edir, ümumi xarakter daşıyır və bütün ölkələri əhatə edir. Ona görə də, bu problemlər təxirəsalınmadan həll edilməlidir, gələcək nəsilə ötürülməsi yol verilməzdir.

Qloballaşmanın hərəkət verici gücü – TMK-ların artması, internetin genişlənməsi, ETT innovasiyaları və ölkələrin daha da varlanmasıdır. Qloballaşma anlayışını elmi

ədəbiyyata ilk dəfə Teodor Levitt gətirmişdir. Qloballaşmanın nəticəsində dünyada qlobal problemlər əmələ gəlmişdir. Müxtəlif nəzəri mənbələrdə və beynəlxalq təşkilatların hesbatlarında qlobal problemlərə çoxsaylı yanaşmalar və mövqelər vardır.

Bu yanaşmaları ümumiləşdirərək dünya iqtisadiyyatının qlobal problemlərinin strukturunu müəyyən etmək olar.

Dünya iqtisadiyyatının qlobal problemlərinin strukturu 4.1-ci, qlobal problemlərin qarşılıqlı təsiri 4.2-ci sxemdə verilmişdir.

"Yeni dünya düzəni" şəraitində qloballaşma ayrıca bir elm sahəsinə çevrilməklə müstəqil fənn kimi öyrənilir.

Dünyanın qlobal problemləri bir-birilə qarşılıqlı əlaqə və təsirlərlə baş verir. Birinin genişlənməsi digərinin yaranmasına səbəb olur.

**Sxem 4.1**

**Dünya iqtisadiyyatının qlobal problemlərinin strukturu**



**Sxem 4.2**

**Dünyanın qlobal problemlərinin qarşılıqlı təsiri**




Sxemdən göründüyü kimi, qlobal problemlər bir-birinə təsir edir, "Domino effekti" yaradır, birinin yıxılması ilə ardıcıl olaraq yıxılmalar, çökmələr və azalmalar baş verir. Məsələn, "Covid-19" pandemiya problemi və s.

**Qloballaşma aşağıdakı nəticələrə səbəb olur:**

1) İqtisadi sərhədlər getdikcə açılır, "sərhədsiz dünya" yaranır;
2) Milli dövlət forması tədricən öz qüvvəsini itirir;
3) İnteqrasiya birlikləri getdikcə güclənir;
4) Qiymətli kağızlar bazarı əmtəə bazarını sürətlə qabaqlayır;
5) "Elektron ticarət" genişlənir;
6) İEOÖ-lər İEÖ-lərdən asılı vəziyyətə düşür, inkişaf etməmiş (geridə qalmış) ölkələrin iqtisadiyyatı tamamilə çökür;
7) TMK-lar bütün ölkələrin iqtisadiyyatını öz əlinə keçirir;
8) İntelektual insanlar İEÖ-lərə gedir və ən dəyərli kapital ölkədən çıxır;
9) Virtual valyutalar (kriptovalyutalar) sürətlə valyuta bazarına daxil olur;
10) Bir ölkənin problemi digər ölkələrin problemlərinə gətirib çıxarır;
11) Ölkələrin milli valyutaları İnkişaf Etmiş Ölkələrin möhkəm valyutalaları qarşısında getdikcə dəyərdən düşür;
12) İEOÖ-lər İEÖ-lərin qarşısında rəqabətə davam gətirə bilmir və iqtisadi maraqlarından geri durmağa məcbur olur;
13) İEOÖ-lərin bəziləri və geridə qalmış ölkələrin, demək olar ki, hamısının xarici borcları getdikcə artır;
14) Milli problemlər planetar problemlərə çevrilir;

15) Dünyada "antiqlobalistlər" hərəkatı yaranır və bu problemləri yaradanlara qarşı etiraz dalğaları baş verir.

Qloballaşma şəraitində dünyada milli dəyərlərin əriməsi, qloballaşmanın dünyanı hara aparması, qloballaşmanın əsl simasının qeyri-müəyyənliyi dünya iqtisadçıları və siyasətçiləri tərəfindən müxtəlif cür qiymətləndirilir.

Qloballaşma dövründə dünya iqtisadiyyatının inkişaf meyilləri dünya geoiqtisadi atlasının yaradılması zərurətini yaradır.

**Geoiqtisadi atlas -** dünya təsərrüfatının real xəritəsi olacaqdır. Bu atlasda qlobal dünyanın geologistik modeli də öz əksini tapmaqla, dünya iqtisadiyyatının inkişaf istiqamətlərini və perspektivlərini göstərəcəkdir.

## 12.İNKİŞAF ETMƏKDƏ OLAN ÖLKƏLƏRİN (İEOÖ-lərin) İQTİSADİ GERİLİK PROBLEMİ

"İnkişaf Etməkdə Olan Ölkələr" (İEOÖ) anlayışı II Dünya müharibəsindən sonra istifadə edilməyə başlanılıb. Əvvəllər bu ölkələr "iqtisadi cəhətdən geri qalmış", "azadlıq əldə etmiş", "az inkişaf etmiş" ölkələr adlandırılırdı.

XX əsrin 50-ci illərindən "üçüncü dünya" termini də işlənilirdi. XX əsrin 80-90-cı illərindən digər anlayışlar da istifadə edilir: "Şimal" – sənaye ölkələri, "Cənub" – geri qalmış ölkələr, "Qərb-Şərq" – onlara yaxın ölkələr. Lakin beynəlxalq maliyyə təşkilatlarının qəbul etdiyi qruplaşmada - İnkişaf Etməkdə Olan Ölkələr(İEOÖ) qrupu qəbul edilmişdir.

İEOÖ-lər dünyanın bütün ölkələrinin 4/5-nü əhatə edir. Yer kürəsi əhalisinin 80 faizə qədəri bu ölkələrdə yaşayır. Asiya, Afrika, Latın Amerikası və Okeaniyanın 132 dövlətini (bəzi qruplaşmalarda 140-a qədərini) birləşdirir.

Beynəlxalq iqtisadiyyatda İEOÖ-lər bir çox əlamətlər üzrə qrupa bölünür:

Regionlar üzrə:

1) Afrikada olan İEOÖ-lər – 50 ölkə;
2) Asiyada olan İEOÖ-lər – 30 ölkə;
3) Yaxın Şərq və Avropada olan İEOÖ-lər – 4 ölkə (Avropadan – Malta, Türkiyə, Kipr);
4) Qərb yarımkürəsində olan İEOÖ-lər – 34 ölkə (Mərkəzi və Latın Amerikası ölkələri).

Hazırda dünyada yaşayan 7,8 mlrd nəfər əhalinin 80 faizə qədəri İEOÖ-lərdə yaşayırsa, İEOÖ-lərin əsasən yerləşdiyi Asiyada əhalinin 60 faizi, Çində 22 faizi, Hindistanda 21 faizi yaşayır.

Dünya iqtisadiyyatında iqtisadi geriliyə müxtəlif aspektlərdə - siyasi, iqtisadi, mədəni, elmi-texniki, hərbi və s. geriliklər kimi yanaşılır. Bunların hər birinin özünə məxsus əlamət və göstəriciləri vardır.

Ölkənin əsas iqtisadi və sosial göstəricilərinin (ÜDM, adambaşına düşən gəlir və ixracının həcmi, adambaşına düşən məhsul istehsalı, təhsilin, səhiyyənin, mədəniyyətin səviyyəsi və s.) beynəlxalq miqyasda qəbul edilmiş göstəricilərdən aşağı həddə olmasına **iqtisadi gerilik deyilir.** Bir ölkənin iqtisadi geriliyi, digər ölkənin iqtisadi vəziyyətinə birbaşa və dolayı təsir göstərir, iqtisadi gerilik problemi meydana çıxır.

İqtisadi geriliyin əmələ gəlməsinin əsas səbəbləri aşağdakılar hesab edilir:

1) Ölkələrin təbii sərvətlərinin həcmi;
2) Təbii sərvətlərdən istifadə səviyyəsi;
3) Ölkənin maliyyə vəziyyəti;
4) Ölkənin elmi-texniki və texnologiya potensialı;
5) Dövlətin iqtisadiyyatda rolu;

6) Xarici iqtisadi siyasət;
7) İşçi qüvvəsinin ixracı və idxalı;
8) Xammal ixracının yüksək olması;
9) Hazır məhsulun istehsalının aşağı olması;
10) Xarici investisiyanın daxil olmaması;
11) Ölkənin xarici borcunun artması;
12) Sahibkarlığa dövlət yardımının olmaması;
13) Xidmət bazarının formalaşmaması;
14) Daxili bazarın qorunmaması;
15) Kiçik və orta sahibkarlığın geri qalması;
16) Vergi siyasətinin düzgün aparılmaması;
17) Hərbi xərclərin artması;
18) İntellektual mülkiyyət bazarının formalaşmaması və s.

İqtisadi geriliyin əsas göstəriciləri aşağdakılar hesab edilir:

1) Əhali artımının planlaşdırılmaması;
2) Adambaşına düşən ÜDM;
3) Adambaşına düşən əmtəə istehsalı;
4) İxracatın həcmi;
5) Adambaşına düşən gəlirlər;
6) Qida rasionunun az kaloriliyi;
7) İstehlak səbəbinin təminat səviyyəsi;
8) İşsizliyin səviyyəsi;
9) Yoxsulluğun səviyyəsi (kasıblıq və aclıq);
10) Savadlılıq səviyyəsi;
11) Doğum və ölüm nisbəti (uşaq ölümü həddi);
12) Hər ailəyə və hər adama düşən mədəni və təsərrüfat mallarının səviyyəsi;
13) Kütləvi informasiya vasitələrinin olmaması;
14) Mənzil təminatının aşağı olması;
15) Sosial yardımların səviyyəsi və s.

XX əsrin II yarısından başlayaraq dünyada güclü iqtisadi tərəqqinin olmasına baxmayaraq, bu iqtisadi və sosial inkişaf dünyanın bütün ölkələrində qeyri-bərabər olmuşdur. Nəticədə dünyanın bəzi regionlarında kasıblıq, aclıq və səfalət yaranmış, yoxsulluq problemi əmələ gəlmişdir. İEOÖ-lərin əhalisinin bir hissəsi yoxsulluq içərisində yaşayır. Onların böyük hissəsini Qana, Konqo, Keniya, Çad, Suriya və Somalinin kənd yerlərində yaşayan əhalisi təşkil edir. Afrikanın kənd yerlərində yaşayan əhalisinin 80 faizdən çoxu yoxsul əhalidir. Dünya Bankının müəyyən etdiyi meyara müvafiq olaraq gündəlik gəliri 1 ABŞ dollarından yuxarı olmayanlar yoxsul yaşayanlara aid edilir. Bu ümumiləşdirilmiş göstərici təsdiq edir ki, İEOÖ-lərin əhalisinin 31 faizi yoxsulluq səviyyəsində yaşayır. Bir sıra ölkələrdə bu göstərici daha yüksəkdir: Tropik Afrikada – 48 faiz, Keniyada isə - 52 faizdir. Hal-hazırda İEOÖ-lərin iqtisadi gerilik problemləri bu ölkələri düşündürən qlobal bir problemdir. Dünya Bankının hesablamalarına görə, XXI əsrin başlanğıcında 2,8 mlrd insanın gündəlik gəliri 2 dollardan, 1,2 mlrd nəfərin gündəlik gəliri isə 1 dollardan aşağıdır ki, onların da, demək olar ki, 90 faizi İEOÖ-lər və az inkişaf etmiş ölkələrin insanlarıdır.

BYİB-in tədqiqatçıları yoxsulluğu həyat səviyyəsinin minimum standartlarını ödəmək imkanında olmaması kimi təyin edirlər. Bunun üçün həyat səviyyəsinin vahid göstəricisi müəyyən edilmişdir. Buna həyat səviyyəsinin standart göstəricisi də deyilir. Həyat səviyyəsinin standart göstəricisinə - adambaşına düşən ev təsərrüfatının gəlir və xərcləri (öz istehsalı daxil olmaqla) daxil edilir. Yoxsul əhalinin mövcudluğu üçün sərf edilən xərclər iki əsas qrupa bölünür:

1) Minimum qidanın əldə edilməsi xərcləri;

2) Digər zəruri ehtiyacların ödənilməsi xərcləri.

Bu xərclər metodoloji cəhətdən iki formada hesablanır:

1) Maddi formada sərf edilən xərclər;
2) Dəyər formasında sərf edilən xərclər.

Göstərilən xərclər əsasında yoxsulluq həddi dəyər formasında müəyyən edilir. Dəyər formasında yoxsulluq həddinin müəyyən edilməsində vahid metodologiya qəbul edilməmişdir. İEOÖ-lərin hər biri bu həddi müxtəlif yanaşmalarla müəyyən edirlər. Ona görə ki, il ərzində adambaşına düşən gəlir və xərclər müxtəlifdir. Orta göstərici müvafiq olaraq 275 və 370 ABŞ dollarıdır.

BYİB XX əsrin 90-cı illərinin ortalarından mütləq yoxsulluq göstəricisinə keçmişdir. Gün ərzində 1 ABŞ dolları gəliri olan və 1 dollarlıq istehlakı olanlara mütləq yoxsulluq deyilir. Bu göstərici minimum istehlak səviyyəsi, bundan aşağı hədd isə təhlükəli həyat tərzi hesab edilir. Dünyada yoxsulluq ildən-ilə artır. 80-ci illərin ortalarında dünyada yoxsulların sayı 1,23 mlrd nəfərdən XX əsrin sonuna 1,31 mlrd nəfərə çatmışdır.

Hazırda İnkişaf Etməkdə Olan Ölkələrdə yoxsulluğun səviyyəsi 31,8 faizdirsə, Mərkəzi və Şərqi Avropa ölkələrində bu göstərici 3,5 faiz, Latın Amerikasında 23,5 faiz, Orta Şərq və Şimli Amerikada 4,1 faiz, Tropik Afrikada 39,1 faiz, Cənubi Asiyada 43,1 faiz, Şərqi Asiya və Sakit okean ölkələrində 26,0 faizdir. Lakin dünya əhalisinin ümumi sayında yoxsulların payı 0,5 faiz azalmışdır.

Yoxsulluq problemi insanları aşağıdakı məhrumiyyətlərə aparır:

1) İnsanlar aclıqdan məhv olurlar;
2) Çoxsaylı xəstəliklərə və epidemiyalara məruz qalırlar;
3) Uşaq ölümü sürətlə artır;
4) Adi mədəni dəyərlərdən məhrum olurlar;
5) Savadsızlığa məruz qalırlar;
6) Xəstələr və azyaşlı uşaqlar işləməyə məcbur olurlar;
7) Evsiz yaşamağa məcbur olurlar;
8) Cinayətkarlığa yuvarlanırlar;
9) Dilənçilik əmələ gəlir;
10) Antisanitariyaya görə epidemiya baş verir və s.

Yoxsulluq insanların təbii və istehsal ehtiyyatlarından, qidalanma mənbələrindən, təhsil, tibb, mədəni-məişət, rabitə, nəqliyyat, informasiya, turizm və s. xidmətlərindən yetərincə istifadə edə bilməməsi, bəşəriyyətin ali məxluqu olan insanın layiq olduğu həyat eşqindən məhrum olmasına gətirib çıxarır.

XX əsrin sonu XXI əsrin əvvəllərində İEOÖ-lərin böyük problemlərindən biri xarici borc problemidir. Son onilliklərdə, xüsusən XX əsrin 90-lı illərindən dünyada xammal və materialların qiyməti aşağı düşür. BVF-nin hesablamalarına görə bu malların 30 mövqeyi üzrə qiymət indeksi ən az 74 faiz azalmışdır. Təkcə 2008-ci ildə neftin qiyməti təqribən 50 faiz, mineral resursların ümumi qiymət indeksi 22 faiz aşağı düşmüşdür. İnkişaf Etmiş Ölkələrin resurs və enerji təminatının yeni texnologiyalarını mənimsəməsi də sürətlə artmışdır. Bu səbəblərdən də İEOÖ-lərdən İnkişaf Etmiş Ölkələrə həmin məhsulların ixrac edilməsi azalmışdır. Nəticədə İEOÖ-lərdə xarici ticarət balansının mənfi saldosu və dövlət büdcələrinin xroniki defisitləri əmələ gəldiyindən həmin dövlətlər uzunmüddətli xarici borclara getməyə məcbur olmuş və xarici borca məruz qalmışlar. Əgər 1950-ci ildə İEOÖ-lərin ümumi xarici borcu 2 mlrd dollar idisə, bu rəqəm 1980-ci ildə 700 mlrd, 1990-cı ildə 1223 mlrd, 2015-ci ildə 1935 mlrd dollara çatmışdır. Ən yoxsul ölkələrdə bu artım tempi daha yüksək olmuşdur.

Alınan xarici borclar vaxtında ödənilməli və əks təqdirdə əlavə faiz borclarının da ödənilməsinə səbəb olur. Xarici borcun və onun faizlərinin ödənilməsi milli gəlirin azalmasına, iqtisadi inkişaf tempinin aşağı düşməsinə, inflyasiyanın artmasına, xarici

investisiyanın azalmasına, həyat səviyyəsinin aşağı düşməsinə, sosial-siyasi sabitliyin pozulmasına və s. səbəb olur.

Bəzi İEOÖ-lər öz xarici borclarını ödəmək imkanında olmadıqlarını elan etmişlər. Məsələn, Meksika. Bəzi Qərb ölkələri bir neçə yoxsul ölkələrə verdikləri borcların bir hissəsini(bəzən hamsını) sildiklərini elan etmişlər. Bəzi borcverici ölkələr xarici borcları restrukturizasiya etməyə getmişlər. Belə ki, xarici borcun bir hissəsini silmiş, bir hissəsini uzunmüddətli borc istiqrazlarına çevirmiş, bir hissəsini borcalıcı dövlətlərin dövlət müəssisələrinin səhmləri kimi özlərinə almışlar.

Beynəlxalq maliyyə təşkilatları xarici borcun ölçülməsinin aşağdakı iki qaydasını müəyyən etmişlər:

1) Xarici borcun əmtəə və xidmətlərin ixracına nisbəti;

2) Xarici borcun ödənilməsinin əmtəə və xidmətlərin ixracına nisbəti ilə (ixracatın xarici borcun ödənilməsinə ayrılan hissəsi).

Xarici borc öhdəliklərinin ödənilməsinin ənənəvi metodları aşağdakılardır:

1) İxracat dövriyyəsinin əsas hissəsinin xarici borcun ödənilməsinə yönəldilməsi;
2) Ödənişlərin formasının əvəz edilməsi (silahla, neft və təbii qazla, səhmlərlə və s.);
3) Köhnə borcların ödənilməsi üçün yeni kreditlərin alınması və s.

Müxtəlif İEOÖ-lərdə xarici borcun ödənilməsində qeyri-ənənəvi (alternativ) metodlardan da istifadə edilir. Məsələn, Ermənistanda əmlak hüququnun Rusiyaya verilməsi, borclu ölkədən kreditin alınması üçün kreditverici ölkədən məhsul almaq məqsədilə təkrar kreditin verilməsi və s.

İEOÖ-lərdə iqtisadi gerilik probleminin həll edilməsi yolları aşağdakılardır:

1) İEOÖ-lərin təsərrüfat müstəqilliyinin möhkəmləndirilməsi;
2) İEOÖ-lərdə sənayeləşmənin gücləndirilməsi;
3) İdxalı əvəz edən hazır məhsul istehsalının artırılması;
4) İxracyönlü məhsul istehsalının genişləndirilməsi;
5) Xarici ticarət nəzəriyyələri ilə sübut edilmiş açıq iqtisadiyyatın tətbiq edilməsi;
6) Həmin ölkələrdə dövlətin sahibkarlıq rolunun dəyişdirilməsi (azaldılması);
7) Milli sahibarklığın möhkəmləndirilməsi və proteksionist siyasət aparılması;
8) Regional inteqrasiyanın səmərəli qurulması;
9) Struktur və sabitləşdirmə siyasətinin təkmilləşdirilməsi;
10) Yoxsulluq və xarici borc problemlərinin həlli üzrə məqsədli proqramların tətbiq edilməsi və s.

Ümumiyyətlə, İEOÖ-lərin iqtisadi geriliyinin əsas səbəbləri olN – təbii, əmək, kapital, resurslarından səmərəli istifadə etmək, texnika və texnologiyanın səviyyəsini yüksəltmək, sosial-mədəni və institusional amillərə xüsusi diqqət yetirməklə bu geriliyin azaldılmasına nail olmaq mümkündür.

2000-ci ildə keçirilən BMT-nin Minilliyin Sammitində bu problem daha dərindən müzakirə edilmiş və Minilliyin İnkişaf Məqsədləri (MİM) müəyyənləşdirilmişdir. Dünya ölkələrinin ümumi razılığı ilə MİM-də ifrat yoxsulluğun və aclığın azaldılması, ümumi ibtidai təhsilə nail olmaq, gender bərabərliyini təmin etmək, uşaq ölümünün aşağı salınması, kütləvi xəstəliklərə qarşı mübarizənin təşkil edilməsi, ətraf mühitin qorunmasına dair tədbirlərin həyata keçirilməsi, ümumi inkişafa nail olmaq üçün qlobal əməkdaşlığın yaradılması və s. bu kimi zəruri məqsədlərə nail olmaq vəzifəsi qarşıya qoyulmuşdur.

# MÖVZU 5. DÜNYA İQTİSADİYYATININ RESURSLARI

## SUALLAR

1. Dünya iqtisadiyyatında resursların təsnifatı və mövqeyi.
2. Dünyanın əsas mineral resurs ölkələri və enerji ehtiyatları.
3. Dünya ölkələrinin neft ehtiyatlarının vəziyyəti və yerləşməsi.
4. Dünya ölkələrinin qaz ehtiyatlarının vəziyyəti və yerləşməsi.
5. Dünya ölkələrinin kömür ehtiyatlarının vəziyyəti və yerləşməsi.
6. Dünya ölkələrinin qızıl ehtiyatlarının vəziyyəti və yerləşməsi.
7. Dünyada İlkin Enerji Resursları (İER) və neft istehlakının perspektivləri.
8. Dünyanın enerjidaşıyıcıları və xammal problemi.
9. Dünya iqtisadiyyatında okeanlar və onlardan istifadə edilməsi problemləri.
10. Dünyanın qlobal ekoloji problemləri.

### Əsas ədəbiyyat


1. Lomakin V.K. Dünya iqtisadiyyatı, Rus dilindən tərcümə, Bakı, 2015, səh. 208-223 (PDF).
2. Kərimov C., Gənciyev G. Dünya iqtisadiyyatı. Bakı, 2001.
3. Мировая экономика. Глобальные тенденции за 100 лет. Под ред. И.С.Королева. М.: Экономистъ, 2006.
4. Современная экономика. Под редакцией О.Ю.Мамедова. Ростов – на – Дону. “Феникс”, 1998.
5. Мировая экономика и международный бизнес. Под общ. ред. В.В.Полякова. “Кно Рус”, М., 2011.
6. World Development Indicators. World Bank, hər il.
7. World Energy Outlook (IEA). Beynəlxalq Energetika Agentliyinin hesabatları, Paris, hər il.
8. BP Statistical Review of World Energy. OPEC annual bulletin, hər il.
9. Economic Report of the President. USA. Washington, 2018, International Monetary Found.
10. World Gold Council (Dünyanın qızıl-valyuta ehtiyatları), hər il.
11. International Financial Statistics. IMF(Beynəlxalq Maliyyə Statistikası), hər il.
12. Beynəlxalq sahə təşkilatlarının hesabatları(mis, nikel, molibden və s.).
13. Dünyada 500-dən çox mineralogiya muzeyi haqqında filmlər (Rusiya Almaz Fondu və s.);
14. Təbiət muzeyləri haqqında filmlər (Kalininqrad yantar muzeyi və s.);
15. Mineralogiya sərgiləri (Moskva, Santyaqo, Melburn və s.).


## 1. DÜNYA İQTİSADİYYATINDA RESURSLARIN TƏSNİFATI VƏ MÖVQEYİ

Dünyada mövcud olan, texnoloji və sosial-iqtisadi əlaqələr üçün zəruri və yararlı olan bütün maddi və mənəvi dəyərlərin məcmuna *resurslar* deyilir. Resurslar mövcudolma əlamətinə görə maddi, əmək və intellektual resurslara bölünür.

Dünyada resurslara müxtəlif istiqamətlərdə yanaşılır və digər əlamətlər üzrə də resurslar qruplaşdırılır. Bu mövzuda, əsasən, maddi formada olan təbii resurslar öyrənilir. Əmək resurslarına 6-cı, intellectual resurslara isə 11-ci mövzuda baxılır.

Canlı həyat təbiətin 4 ünsürü üzərində yaranır: Günəş, hava, su, torpaq. Təbiətdə uzun dövrlər ərzində baş verən təbii proseslər nəticəsində əmələ gələn təbii məhsullara *təbii resurslar* deyilir. Onlar litosfer, hidrosfer və atmosferdə mövcud olmaqla istehsal və istehlak sferasında istifadə edilir.

Digər bərabər şəraitdə zəngin təbii resursların olması dünya ölkələrinə əlavə üstünlüklər verir.

Planetin təbii resursları yeddi əsas qrupa bölünür:

1. Mineral resurslar;
2. Torpaq resursları;
3. Meşə resursları;
4. Su resursları (dəniz, okean və çaylar);
5. Bioloji resurslar (meşə, ovçuluq, balıqçılıq);
6. Aqroiqlim resursları (günəş, işıq, istilik, nəmlik);
7. Hava (oksigen) resursları.

Təbii resurslar bir çox əlamətlər üzrə qruplaşdırılır:

I. Mənbəyinə görə təbii resurslar:

1. Təbii komponentli resurslar (mineral, iqlim, su, bitki, torpaq, heyvanat aləmi);
2. Təbii-ərazi kompleksli resurslar (dağ sənaye, su təsərrüfatı, tikinti materialı, meşə təsərrüfatı).

II. Təsərrüfatda istifadə növünə görə resurslar:

1. Sənaye istehsalı üçün:

a) Enerji resursları faydalı qazıntı yanacağı, hidroenerji resursları, bioyanacaq, nüvə xammalı);

b) Qeyri-enerji resursları (mineral, su, torpaq, meşə, balıq resursları).

2. Kənd təsərrüfatı istehsalı üçün (aqroiqlim, torpaq-su, bitki-yem bazası, suvarma suyu, su çanaqları (yığımları).

III. Tükənməsinə görə resurslar:

1. Tükənən resurslar:

a) Bərpaolunmayan (mineral, torpaq resursları);

b) Bərpaolunan (birtki və heyvanat aləmi resursları);

c) Tam bərpa olunmayan (salınan meşələr, regional sular və s.).

2. Tükənməyən resurslar (Günəş, külək, su, iqlim).

IV. Əvəz edilmə dərəcəsinə görə resurslar:

1. Əvəz edilən resurslar;
2. Əvəz edilməyən resurslra.

V. İstifadə meyarına görə resurslar;

1. İstehsal(sənaye, kənd təsərrüfatı) resursları;
2. Potensial-perspektivli resurslar;
3. Rekreasiyalı(təbii komplekslər və onların komponentləri, mədəni-tarixi abidələr, ərazinin iqtisadi potensialı) resurslar.

Bəzi beynəlxalq ekoloji və Qeyri-Hökumət Təşkilatları dünyanın resurslarını flora və fauna, iqlim və rekreasiya, məkan və zaman əlamətlərinə görə, hətta resurs və elmi-texniki potensialına görə də qruplaşdırırlar. Resurslar içərisində dünya iqtisadiyyatının sütunu, xammal və enerji mənbəyi olan mineral resurslar, ilk növbədə, dərindən öyrənilməlidir

Mineral resurslar kimyəvi tərkibinə görə iki yarımqrupa bölünür:

1. Yanacaq – enerji mineral resursları – neft, qaz, kömür, torf, şist;
2. Qeyri-yanacaq mineral resursları – metal-filiz, qeyri-metal və qeyri-filiz resurslarına bölünür.

Dünya iqtisadiyyatı mineral resurslarının əsas qrupu olan yanacaq-enerji mineral resursları – neft, qaz və s. dünya iqtisadiyyatının enerji mənbəyi və hərəkətverici qüvvəsi,

emal sənayesi və hazır məhsulun xammal mənbəyi olan qeyri-yanacaq mineral resursları - metal-filiz, qeyri-metal və s. resurslarıdır.

Mineral resurslar bərpaolunmayan təbii ehtiyatlardır, çünki bunlar (neft, qaz və s.) yandırılarkən enerjiyə çevrilir. Onlardan bir daha istifadə etmək olmur. Bəzi mineral ehtiyatlar isə yenidən istifadə oluna bilir. Məsələn: dəmir, mis, qızıl və s. filizlərdən alınan metaldan hazırlanan məhsul müəyyən vaxtdan sonra yenidən əridilir və başqa məhsul üçün istifadə edilir. Lakin bu proses bir neçə dəfə təkrarlandıqda metalın çəkisi getdikcə azalır.

Uzun geoloji dövr – mln illər ərzində formalaşan bu ehtiyatların xeyli hissəsini insanlar qısa zaman ərzində mənimsəyirlər. Dünya əhalisinin sayının artması və iqtisadiyyatın yüksək templə inkişafı mineral ehtiyatlara olan tələbatın artmasına səbəb olmuşdur ki, bu da onların tükənməsinə gətirib çıxarmışdır. Mineral resursların hasilatının artması isə ətraf mühitin çirklənməsinə və ekoloji problemlərin əmələ gəlməsinə səbəb olur. Biri o birinə problemlər yaradır.

Ölkələr üzrə həmin resurslarla təminolunma illəri aşağdakı düsturla hesablanır:

$$Tod = \frac{E}{H}$$

Burada: $T_{od}$ – resurslarla təmin olunma dövrü (illər);

E – ehtiyatın həcmi (t-la və s.);

H – illik hasilat (t-la və s.).

Ölkələr üzrə həmin resurslarla əhalinin təmin olunması səviyyəsi aşağıdakı düsturla hesablanır:

$$Tos = \frac{E}{Əs}$$

Burada: $T_{os}$ – adambaşına əhalinin resurslarla təmin olunması səviyyəsi (t-la və s.);

E – ehtiyatın həcmi;

$Ə_s$ – əhalinin sayı (nəfərlə).

Növlərinə(çeşidinə) görə mineral resurslar dörd qrupa bölünür:

1. Yanacaq – energetika mineral resursları – neft, qaz, kömür, torf, yanar şist, radioaktiv maddələr);
2. Metallurgiya mineral resursları – qara və əlvan metallar (dəmir, manqan, xrom, qızıl, boksit, mis və s.);
3. Kimya və aqrokimya mineral resursları – fosforit, apatit, kalium, xörək düzü və s. ;
4. Tikinti – inşaat mineral resursları – qum, gil, çınqıl, əhəngdaşı, asbest və s.

Dünyada qeyri-yanacaq mineral resursların 36 faizə, neftin isə yalnız 5 faizə qədərinin sənaye cəhətdən İnkişaf Etmiş Ölkələrin (İEÖ-lərin) payına düşməsi göstərir ki, ölkələrdə olan mineral resurslar çox qeyri-bərabər yerləşmişdir və dünya ölkələrinin iqtisadi vəziyyətinə birbaşa təsir edir.

Dünya iqtisadiyyatında təbii resursların – təbii ehtiyatların və ya sərvətlərin təsnifatı sxem 5.1-də verilmişdir.

Sxem 5.1-dən göründüyü kimi, təbii resurslar, əsas, iki qrupa – tükənən və tükənməyən təbii resurslara bölünür. Tükənən mineral resurslar mln illər ərzində təbii proseslər nəticəsində əmələ gələn, istifadə edildikcə azalan, bundan sonra artması mümkün olmayan məhsullar, tükənməyən təbii resurslara Allah və təbiət tərəfindən yaradılmış, daim mövcud olan, bitib-tükənməyən, elmi-texniki və texnoloji yollarla artırılması mümkün olan resurslar daxil edilir.

**Sxem 5.1**




Hələ qədim dövrlərdən indiyə qədər bəşər tarixinin tükənən əsas resursu bərpa olunan torpaq, bərpa olunmayan əsas resursu neftdir. Gələcəyin əsas resursu isə tükənməyən, daim artırılması mümkün olan Günəş və s. resurslarıdır.

Bu mövzuda əsasən yanacaq-enerji və qızıl mineral resursları öyrənilir, planetin torpaq, su, meşə resursları haqqında qısa məlumat verilir və qarşıdakı mövzularda ətraflı öyrənilməlidir.

## Planetin torpaq resursları

510 mln km$^2$ olan Yer kürəsinin bütün ərazisinin 149 mln km$^2$ – nin, yəni 29 faizinin quru, 361 mln km$^2$ –nin, yəni 71 faizinin su ərazisi (dəniz və okeanlar) olması təbii resurslara birbaşa təsir edir. Quru ərazi hesab edilən Arktika və Antarktidanın buzlaqları çıxıldıqda quru ərazi, yəni torpaq fondunun ümumi sahəsi 134 mln km$^2$ , yəni 26,2 faiz təşkil edir.

Dünya torpaq fondunun strukturu aşağıda verilir:

- ❖ 33 faiz – az məhsuldar torpaqlar (səhralar, dağlar və bataqlıqlar);
- ❖ 30 faiz – meşə ərazisi;
- ❖ 23 faiz – çəmənlik və əkin yeri;
- ❖ 11 faiz – emaledici torpaqlar (əkin yeri, bağlar və üzümlüklər);
- ❖ 3 faizi – antropogen landşaft (yaşayış məntəqələri, sənaye zonaları və nəqliyyat xətləridir).

Dünya ölkələrində ümumi torpaq fondundan istifadənin vəziyyəti aşağıda verilir:

1. Hindistan – 47 faiz;
2. Polşa – 46 faiz;
3. İtaliya – 40 faiz;
4. Fransa – 35 faiz;
5. Almaniya – 33 faiz;
6. ABŞ – 19 faiz;
7. Çin – 8 faiz;
8. Rusiya – 7 faiz;

9. Avstraliya – 6 faiz;
10. Kanada – 5 faiz.

Qalan ərazilər səhra, bataqlıq, dağ, qarlı – şaxtalı və s. səbəblərə görə istifadəsi mümkün deyil.

Dünyanın ümumi torpaq fondu 134 mln $km^2$, lakin kənd təsərrüfatına yararlı torpaq sahəsi 51 mln $km^2$-dir. Okeanların ilə əlaqədar olaraq dünyada torpaq sahələri azalır. Müharibələr və silahların sınaqdan keçirilməsi əkinə yararlı torpaq sahələrini azaldır və s.

## Planetin su resursları

Planetin ümumi su ehtiyatları 1386 mln $km^2$-dir. Planetin su resurslarının 96,5 faizi dünya okeanında olan şor sudur, 1 faizi isə yeraltı şor sularıdır. Cəmi 2.5 faizi hidrosferin buzlaşmış sularıdır ki, onlardan da istifadə edilməsi mümkün deyildir. Ona görə də dünyada olan su ehtiyatlarının yalnızca 0.3 faizi içməyə yararlıdır. Elə buna görədir ki, XXI əsrin sonlarının və gələcəyin ən böyük qlobal problemlərindən biri içməli su problemi hesab edilir (2000-ci il: BMT-nin qəbul etdiyi III Minilliyin bəyannaməsi).

Su resursları dənizdə, okeanlarda və çaylarda olduğu üçün ekoloji problemlərin təsiri nəticəsində daim yararsız vəziyyətə düşür.

Tarixən dünyanın su ərazisi qalxmışdır. Məsələn:

1. Mu qitəsi su altında qalıb (Okeaniya dövlətləri olan ərazilər);
2. Tarixən Britaniya və Fransanın ərazisi quruluq birlikdə olub, sonra su ərazisi qalxdığına görə indiki uzunluğu 37 km olan Lamanş boğazı əmələ gəlib;
3. Xəzər dənizi ortadan Abşeron yarımadası ilə indiki Türkmənbaşı arasında quru yolu olub. Sonradan su altında qalıb və s.

Planetin su resursları, ilk növbədə, əhalinin qida mənbəyi və nəqliyyat yolları olmaqla bərabər dünyada əkilən torpaqların suvarılması, təmiz hava və oksigen resurslarının yaranmasına xidmət edir. Bu sahədə dünyanın böyük çayları və beynəlxalq əhəmiyyətli kanalları xüsusi rol oynayır.

Amazon çayı hövzəsinin sahəsinə, su sərfiyyatına görə dünyada birinci, uzunluğuna görə isə dünyada Nil çayından sonra ikincidir. Dənizə daşıdığı su saniyədə 120 min $m^3$-dir. Dünyanın ən nəhəng çayları olan Missisipi, Nil və Yantszi çaylarının daşıdığı ümumi su həcmindən çoxdur.

Dünya oksigeninin 50 faizini verən Amazon çayı hövzəsində meşələrin qırılması dünyada oksigenin azalmasına səbəb olur. Dünyanın ən böyük çay adası Amazon çayındakı Marajo adasıdır. Sahəsi 48 min $km^2$ olan adanın ərazisi bir çox dövlətlərin ərazisindən böyükdür.

## Planetin meşə resursları

Meşə inşaat və mebel sənayesinin əsas xammal mənbəyidir. On minlərlə illər ərzində istiliyin və enerjinin əsas mənbəyi meşə resursları olmuşdur. Tarixən Amerika və Avropa qitələrinin əksər yaşayış evləri, dini məbədləri və digər tikililəri ağac materiallardan tikilib.

Dünyanın 29 faiz quru ərazisinin 30 faizə qədərini (4 mlrd ha qədər) meşələr təşkil edir.

Dünyanın ağac-odun resursları üzrə əsas ölkələri – Rusiya, Braziliya, Kanada və ABŞ; meşə örtüyü sahələrinə görə - Rusiya, Braziliya, Kanada, ABŞ, Çin, İndoneziya, Kolumbiya və Hindistan; meşə sıxlığına görə ölkə ərazisinin 90 faizindən çoxunu meşələr təşkil edən Fransız Qvianası və Surinam (Cənubi Amerika), 80 faizindən çoxunu təşkil edən Qayana (Cənubi Amerika) və Qabon (Qərbi Afrika), 60 faizdən çoxunu təşkil edən Malayziya,

Yaponiya, Myanma, İndoneziya, Ekvador və Laos, həmçinin Finlandiya və İsveçdir. Braziliyanın bütün ərazisinin 60 faizi, Rusiya ərazisinin isə 45 faizə qədəri meşəliklərdir.

Son 200 ildə dünyanın meşə ərazisi 2 dəfə azalmışdır.

Dünya iqtisadiyyatının dərindən öyrənilməsi üçün planetin torpaq, meşə, su, bioloji, aqroiqlim və hava resurslarının müstəqil formada dərindən öyrənilməsi tövsiyə edilir.

## 2. DÜNYANIN ƏSAS MİNERAL RESURS ÖLKƏLƏRİ VƏ ENERJİ EHTİYATLARI

Dünyada milyonlarla və hətta milyardlarla illər ərzində Yer kürəsinin əvvəldən mövcud olmuş, sonradan suyun səthinin aşağı düşməsi nəticəsində quru əraziləri – materiklər, qitələr, regionlar və sonradan dövlətlərə çevrilən ərazilərdə mineral resurslar əmələ gəlmişdir. Qədim və orta dövrlərdə elmi-texniki və texnoloji səviyyənin olmamasına görə bu resurslardan istifadə olunmamış və ya təbiət nemətləri formasında istifadə edilmişdir.

Nəhayət, Qədim Çində, Mesopotamiyada, Misirdə və digər ərazilərdə bəzi məhsulların kəşf edilməsi və tapılması, XV əsrdəki coğrafi kəşflər, XVIII əsrdən başlayan sənaye inqilabları, elmi-geoloji tədqiqat və axtarışlar nəticəsində mineral və digər qeyri-mineral resurslardan dövlətlər səviyyəsində istifadə edilməyə başlanılmışdır. Xüsusilə dövlətlərdə təbiət elmlərinin, o cümlədən, geologiya – minerologiya elminin sürətli inkişafı nəticəsində ölkələrin mineral resurs potensialı müxtəlif əlamətlər üzrə öyrənilir və qiymətləndirilir. Dünya ölkələrində mineral resurs ehtiyatları da qeyri-bərabər yerləşmişdir. Dünyada mineral resursların sayına görə ən çox mineral resursları olan 7 ölkə fərqləndirilir.

### Dünyanın əsas mineral resurs ölkələri

Dünyada mineral resursların sayı və ehtiyatlarının həcminə görə 7 əsas ölkə fərqləndirilir:

1. Avstraliya – 9 mineral resurs üzrə: dəmir filizi, neft, uran, titan, marqans, yarımmetal, boksit, almaz, qızıl;
2. Rusiya – 8 mineral resurs üzrə: neft, qaz, kömür, dəmir filizi, almaz, nikel, platin, mis;
3. CAR – 8 mineral resurs üzrə: platin, vannadium, xrom, marqans, almaz, qızıl, kömür, dəmir filizi;
4. ABŞ – 7 mineral resurs üzrə: neft, mis, dəmir filizi, kömür, fosfat, uran, qızıl;
5. Kanada – 7 mineral resurs üzrə: nikel, azbest, uran, neft, kömür, yarımmetal, qızıl;
6. Çin – 5 mineral resurs üzrə: kömür, dəmir filizi, volfram, neft, qızıl;
7. Braziliya – 2 mineral resurs üzrə: dəmir filizi, əlvan metallar.

Bu ölkələr həm mineral resursların sayına, həmm də həcminə görə dünyada böyük paya malikdirlər. Ölkələrin mineral resurslarının sayından çox, onların həcmi və ondan irəli gələn təbii ehtiyatların ümumi dəyəri qiymətləndirilir. Cədvəl 5.1-də 10 ölkə üzrə təbii ehtiyatların ümumi dəyəri verilmişdir.

**Cədvəl 5.1**

**Dünyada təbii ehtiyatlarının ümumi dəyəri ən çox olan 10 ölkə**

| Sıra № | Ölkələr | Ümumi ehtiyatların dəyəri, trilyon dollar | Əsas təbii ehtiyatları |
|---|---|---|---|
| **1.** | Rusiya | 75 | Neft, qaz, meşə materialları |
| **2.** | ABŞ | 45 | Neft, kömür, meşə materialları |
| **3.** | Səudiyyə Ərəbistanı | 34 | Neft |

| | | | |
|---|---|---|---|
| **4.** | Kanada | 33 | Neft, meşə materialları |
| **5.** | İran | 27 | Neft, qaz |
| **6.** | Çin | 23 | Kömür |
| **7.** | Braziliya | 22 | Qızıl, dəmir, uran, meşə materialları |
| **8.** | Avstraliya | 20 | Kömür, mis, dəmir, uran, qızıl, meşə materialları |
| **9.** | İraq | 16 | Neft, fosfat |
| **10.** | Venesuela | 14 | Neft, qaz |

Cədvəl 5.1-də dünyada təbii ehtiyatlarının ümumi dəyəri ən çox olan 10 ölkə verilmişdir. Təbii ehtiyatların ümumi dəyərinə görə dünyada birinci üçlüyə Rusiya (75 trilyon dollar), ABŞ (45 trilyon) və Səudiyyə Ərəbistanı (34 trilyon) daxil edilir. Bu ehtiyatların dəyərində əsas resurs neftdir. Birinci onluqda Çin, Braziliya və Avstraliyadan başqa 7 ölkənin təbii ehtiyatlarının dəyərində neft əsas yeri tutur. Dünya iqtisadiyyatında enerji ehtiyatları müstəsna rol oynayır. Çünki dünya iqtisadiyyatının əsas qanunu inkişafdır, inkişafın səbəbi hərəkətdir, hərəkətin mənbəyi isə enerjidir. Dünyanın enerji ehtiyatlarının vəziyyətini bir çox Hökumətlərarası Təşkilatlar və QHT-lər hesablayır və qiymətləndirir. Bunlara ECOSOS, BP, OPEC və sahə beynəlxalq təşkilatları daxildir. ECOSOS-un 2017-ci ildə verdiyi dünyanın enerji ehtiyatları və gələcək perspektivləri cədvəl 5.2-də verilir.

**Cədvəl 5.2**

**Dünyanın enerji ehtiyatları və gələcək perspektivləri**

| **№** | **Resurslar** | **Resursların həcmi** |
|---|---|---|
| **1.** | Neft | Ehtiyat: 270-300 mlrd t, hər il istifadə edilən: 3 mlrd t, neçə ilə qurtara bilər: 30-50 il. |
| **2.** | Təbii qaz | Ehtiyat: 270 mlrd neft ekvivalenti ilə-neft ekvivalenti 145 trilyon $m^3$, hər il istifadə edilən:2,3 trilyon $m^3$, neçə ilə çatar: 30-60 il |
| **3.** | Kömür | Ehtiyat: 10 trilyon neft ekvivalenti ilə - neft ekvivalenti 1.5 trilyon t, hər il istifadə edilən: 5 mlrd t, neçə ilə çatar: 200 ildən çox |
| **4.** | Şist(Slanç) | Ehtiyat: 40 trilyon neft ekvivalenti ilə az istifadə edilir, az perspektivlidir, çox əməktutumludur, tullantısı çoxdur |
| **5.** | Torf | Ehtiyat: 150 mlrd t, perspektivi azdır, ekoloji təhlükəsi çoxdur |
| **6.** | Çay hidroenerjisi | Ehtiyat: məhduddur, İEOÖ-lər üçün perspektivlidir. |
| **7.** | Atom enerjisi | Ehtiyat: fiziki cəhətdən tükənməzdir. Ekoloji cəhətdən çox təhlükəlidir, siyasi xarakterlidir |
| **8.** | Geotermal enerji | Ehtiyatı çoxdur, az istifadə edilir. Perspektivlidir, müalicəvi əhəmiyyətidə var(Qeyzerlər – İslandiya və s.). |
| **9.** | Dəniz qabarma enerjisi(okean) | Ehtiyatı çoxdur, az istifadə edilir. Perspektivlidir, sunami təhlükəsi var |
| **10.** | Günəş enerjisi | Ehtiyat: tükənməzdir, ən perspektivli olandır. Hətta neft və qazı da əvəz edə bilər |
| **11.** | Külək enerjisi | Çox qədimdən istifadə edilir, yerli əhəmiyyət daşıyır. Perspektivlidir. |
| **12.** | Bioyanacaq (tullantılar və s.) | Tükənməzdir, az istifadə edilir, perspektivlidir, yüksək texnologiya tələb edir |

Cədvəl 5.2-də dünyanın mineral yanacaq-enerji və alternativ enerji ehtiyatları və onların gələcək perspektivləri verilmişdir. Yanacaq-enerjinin təsdiq edilmiş ehtiyatları, hər il istifadə edilən həddi və qurtarma dövrü göstərilir. Alternativ enerjinin ehtiyat səviyyəsi və perspektivləri verilmişdir. Beynəlxalq təşkilatların hesabatlarında dünya ölkələrinin enerji ehtiyatları ayrı-ayrılıqda verilir, müqayisə edilir, təhlil olunur və qiymətləndirilir. Lakin ehtiyatların həcmində bəzən fərqli rəqəmlər də verilir. Bu fərq beynəlxalq təşkilatların

hesablama metodologiyasından irəli gəlir. Ehtiyatlar üç əlamət - ehtimal edilən, kəşf edilən və təsdiq edilən əlamətlər üzrə verilir. Ehtiyatların həcmi illər üzrə dəyişir. Lakin ölkələr üzrə ümumi vəziyyət aydın olur və dəyişmir.

Dünya enerji ehtiyatlarının ümumi vəziyyəti və perspektivləri göstərir ki, hələlik qarşıdakı 50-60 il ərzində dünyanın əsas enerji mənbəyi neft və qaz olacaqdır. Ən perspektivli enerji növü isə günəş və külək enerjisi hesab edilir.

Dünya ölkələrində mineral ehtiyatların həcmi illər üzrə, demək olar ki, az fərqlənir. Mineral resursların dünyada yerləşdiyi əsas regionlar aşağdakılardır:

1) Dünyada qeyri-yanacaq mineral resurslarının 50 faizi, neft ehtiyatlarının 2/3 hissəsi(66 faizi), təbii qazın 50 faizi İnkişaf Etməkdə Olan Ölkələrin(İEOÖ-lər) ərazisində yerləşmişdir;

2) İEOÖ-lər emal sənayesi məhsullarının 20 faizindən azını istehsal edirlər;

3) Bu altsistem ölkələrin yerinin təkində sənaye təyinatlı fosforitin 90 faizi, kobaltın 86 faizi, qalayın 86 faizi, mis və nikel ehtiyatlarının 50 faizdən çoxu yerləşmişdir;

4) 150 İnkişaf Etməkdə Olan Ölkədən, əsasən 30-unda mineral xammalın əsas hissəsi yerləşib;

5) Dünya neft ehtiyatlarının 2/3 hissəsi Fars körfəzi ətrafı ölkələrində yerləşib;

6) Üçüncü dünya ölkələrində mineral resurslar, demək olar ki, yox dərəcəsindədir və s.

Dünya mineral yanacaq ehtiyatı qarşıdakı 1000 ilə hesablanır. Mineral yanacaq ehtiyatlarının əsas hissəsi kömür ehtiyatlarıdır.

Təbii resurslar iqtisadi inkişafın mütləq şərtidir. Maliyyə, informasiya və dünya bazarı resursları təbii resurslara aid edilmir. Xammal və enerjidaşıyıcıları probleminin həll edilməsi yollarından biri məhz ETT-nin sürətləndirilməsidir.

Dünyada təbii resurslarından ən çox istifadə edən ölkə ABŞ-dır. Təbii resurslardan istifadədə idxalın ən böyük payı Yaponiyaya məxsusdur.

Avtarkiya – öz resurslarına istinadən iqtisadiyyatı qurma üsuluna deyilir.

Yer kürəsinin təbii resurs problemləri ilə beynəlxalq təsisat kimi Roma klubu məşğul olur.

## 3. DÜNYA ÖLKƏLƏRİNİN NEFT EHTİYATLARININ VƏZİYYƏTİ VƏ YERLƏŞMƏSİ

Dünya iqtisadiyyatı tətbiqi elm olduğuna görə hər bir resursun – neftin, qazın və s. mineral resursların ehtiyatları, sonrakı mövzularda hasilatı, emalı, ixracı, idxalı, istehlakı və s. göstəricilər üzrə faktiki vəziyyəti öyrənilir və qiymətləndirilir.

Dünyada neft ölkələri ümumi ölkələrin 1/3-i qədərdir. Dünya enerjisi statistik icmalında (BP Statistical Review of World Energy) 99 neft ölkəsi göstərilir. Dünyanın ən qədim neft ölkəsi Azərbaycandır. Dünyada sənaye üsulu ilə ilk dəfə neft 1948-ci ildə Azərbaycanda – Bakıda çıxarılmışdır[1].

Dünyada ilk neft müzeyi də Bakıda yaradılmışdır. Dünyada dənizdə ilk neft quyusu qazan, neft fontan vuran, dənizçilər üçün salınmış dəniz şəhəri – Neft Daşları yalnız Azərbaycandadır. Azərbaycan tarixən neft-qaz ölkəsi kimi tanınır və ona görə də “Odlar Yurdu” adlanır.

Azərbaycandan sonra neft ölkələri kimi ABŞ, Rusiya, Səudiyyə Ərəbistanı və s. ölkələr tanınmışdır. Neft dünyada siyasi təsir vasitəsinə çevrilmişdir. Dünya ölkələrində neft-

[1] Müzəffər Məmmədov. Azərbaycan dünya təsərrüfat əlaqələri sistemində (Monoqrafiya). “Vektor” Beynəlxalq Nəşrlər evi. Bakı/Azərbaycan, 2016, səh. 9-10.

qaz ehtiyatları, hasilatı, emalı, ixracı və s. təkraristehsal məsələləri ilə məşğul olan, hesabatlar verən, icmallar hazırlayan və tövsiyyələr verən əsas beynəlxalq təşkilatlar aşağıda verilmişdir.

## BEYNƏLXALQ ENERGETİKA AGENTLİYİ – BEA (İnternational Energy Agency – İEA)

BEA OECD çərçivəsində beynəlxalq muxtar orqandır. 1974-cü ildə yaradılıb. 29 ölkə üzvdür. Qərargah mənzili Parisdədir. 1973-1974-ci illər neft böhranından sonra yaradılıb. Təşkilatın əsas məqsədi dünyada enerji resursları və enerji xidmətlərinə tələb və təklifinin strukturunun təkmilləşdirilməsi və istifadə edilməsi üçün ölkələr arasında səmərəli əməkdaşlığın təmin edilməsidir. Real olaraq enerji resursları idxal edən ölkələrin maraqlarının qorunmasıdır. Yalnız OECD ölkələri BEA-nın üzvü ola bilər(OECD: 1961, Paris). Azərbaycan üzvü deyil.

## DÜNYADA ENERJİ ŞURASI – DEŞ (World Energy Council – WEC)

DEŞ nəhəng beynəlxalq energetika qeyri-kommersiya təşkilatıdır. Dünyanın 100-dən çox ölkəsinin 3000-dən çox enerji təşkilatlarının maraqlarına xidmət edir. İştirak Milli Komitələr vasitəsilə həyata keçirilir. 1924-cü ildə yaradılıb. Qərargah mənzili Londonda yerləşir. Dünya energetika konqresini keçirir, energetika sahəsində dünyanın qlobal problemlərinə dair elmi-tədqiqatlar aparır və nəticələri dünya ölkələrinə çatdırır.

## BP (British Petrolium – "Bi – Pi")

Dünyanın neft-qaz TMK-ları arasında ən tanınmış şirkətdir, publik kompaniyadır.

1939-cu ildə əsası qoyulub. Britaniyalı sahibkar Uilyam Hoks Darsi tərəfindən yaradılıb. Böyük Britaniyada (London) yerləşir. Fəaliyyət sahəsi - neft və qazın hasilatı və emalıdır. Əsas məhsulları benzin və yağdır.

- ❖ Dövriyyəsi – 303 mlrd dol (2018);
- ❖ Əməliyyat mənfəəti – 19 mlrd dol;
- ❖ Xalis gəliri – 10 mlrd dol;
- ❖ Aktivləri – 282 mlrd dol;
- ❖ Əməkdaşların sayı – 74 min nəfərdir.

Dünyanın neft-qaz kompaniyaları arasında satışının həcminə görə 2-ci yeri tutur. Səhimlərinin 80 faizi açıq dövriyyədədir, 20 faizi "Rosneft" kompaniyasına məxsusdur(2018). 2001-ci ilə qədər müxtəlif adlarda fəaliyyət göstərib. Törəmə müəssisələri – Kastrol, Aral AG, Purina Millsdir və s.

Neft-qaz TMK-ları arasında ən sabit gəlirli və inam qazanmış şirkətdir. Azərbaycanda 1992-ci ildə fəaliyyətə başlamış ilk nəhəng və etibarlı neft şirkətidir. Azərbaycan, Anqola, Kanada, Misir, Almaniya, Hindistan, Trinidad və Tobaqo və ABŞ-da böyük neft hasilatı ilə məşğuldur.

## OPEC (The Organization of the Petrolium Exporting Countries)

Neft İxrac Edən Ölkələr Təşkilatı (OPEC) 1961-ci ildə yaradılıb, qərargah – mənzili Vyanadadır. 2020-ci ildə üzvlərinin sayı 14 ölkə olmuşdur. (Sonradan Konqo, Anqola, Ekvador, Ekvatorial Qvineya daxil olub). Daim üzv olanlar 10 ölkədir. Hazırda "10+10" formatı da vardır.

Dünyada neft haqqındakı hesabat materiallarını bu təşkilatlar, əsasən, barellə, bəzən də t-la verirlər.

**Barel (beynəlxalq ölçü vahidi)**

- 1 neft bareli(amerikan)=158,988 L ≈ 159 L = 42 qallon = 0,158987 $m^3$. 1 barel neft – 136,4 kq neft; 1000 kq/136,4 kq = 7,3 barel və ya 7,3 barel = 1000 kq (1 t). Beynəlxalq işarəsi "bbl"-dir. Digər barellər:
- Pivə bareli (Böyük Britaniya);
- "İngilis" bareli (səpələnən, dənəvər mallarda), 1 ingilis bareli = 4,5 buşel = 163,66 l;
- "Amerikan" bareli (maye məhsullarda), 1 amerikan bareli = 31,5 amerikan qallonu = 119,2 l;
- "Fransız" bareli (maye məhsullarda) – "Barrik" adlanır. 1 barrik = 225 litr və ya 60 köhnə şərab qallonu;

Barel – boçka sözündən (rus) götürülüb. Ölçü boçkası, 40-lıq boçka da deyilir. Metrik sistemdən qabaqkı rus həcm ölçü vahidi olub, 40 vedrəyə və ya 491,96 l-ə bərabər olub.

Müxtəlif boçka ölçü vahidləri olub (Piqa, Polşa, Pivə və s.):

1. **İngilis ölçü sistemi;**
2. **Rus ölçü sistemi;**
3. **Amerikan ölçü sistemi;**
4. **Metrik ölçü sistemi və s.**

Dünyanın neft ehtiyatları dünyanın regionları, ayrı-ayrı ölkələri, həmçinin İƏİT(OECD), qeyri – OECD, OPEC, qeyri – OPEC, Avropa İttifaqı, keçmiş SSRİ və bəzən digər qruplaşmalar üzrə verilir. Dünyanın regionları üzrə neft ehtiyatları diaqram 5.1-də verilmişdir.

**Diaqram 5.1**

**2014-cü ildə dünyanın regionları üzrə neft ehtiyatları[1]**




1. Orta Şərq – 803, 60 BBL (49 faiz);
2. Mərkəzi və Cənubi Amerika – 328,20 BBL (20 faiz);
3. Şimali Amerika – 219,79 BBL (13 faiz);
4. Afrika – 126,73 BBL (8 faiz);
5. Avroasiya – 118,89 BBL (6 faiz);
6. Asiya və Okeaniya – 46,01 BBL (3 faiz);

[1] BP Statistical Reviewof World Energy, 2015.

7. Avropa – 12,28 BBL (1 faiz).

Diaqram 5.1-dən göründüyü kimi, dünyada ən böyük neft ehtiyatı Orta Şərqdədir (49 faiz). Ən az neft ehtiyatları Asiya və Okeaniya (3faiz), ən cüzi neft ehtiyatı isə Avropadadır (1 faiz).

Ən çox diqqəti cəlb edən dünya ölkələri üzrə neft ehtiyatlarının vəziyyətidir (cədvəl 5.3.).

**Cədvəl 5.3**

**2016-cı ildə BP-nin məlumatına görə ölkələrin təsdiqlənmiş neft ehtiyatları**[1]

| Sıra № | Ölkə | Ehtiyatı, mlrd t | Ehtiyatı, mlrd barel | Dünya ehtiya-tında payı, faiz |
|---|---|---|---|---|
| **1.** | Venesuela | 46,6 | 298,3 | 17,5 |
| **2.** | S. Ərəbistanı | 36,7 | 267,0 | 15,7 |
| **3.** | Kanada | 27,9 | 172,9 | 10,2 |
| **4.** | İran | 21,7 | 157,8 | 9,3 |
| **5.** | İraq | 20,2 | 150,0 | 8,8 |
| **6.** | Rusiya | 14,1 | 103,2 | 6,1 |
| **7.** | Küveyt | 14,0 | 101,5 | 6,0 |
| **8.** | BƏƏ | 13,0 | 97,8 | 5,8 |
| **9.** | ABŞ | 5,9 | 48,5 | 2,9 |
| **10.** | Liviya | 5,3 | 48,4 | 2,8 |
| **12.** | Qazaxıstan | 3,9 | 30,0 | 1,8 |
| **20.** | Azərbaycan | 1,0 | 7,0 | 0,4 |
| **45.** | Türkmənistan | 0,1 | 0,6 | |
| **50.** | Digər ölkələr | 1,0 | 7,5 | |
| | **Cəmi** | 239,8 | 1700,1 | 100 |
| | İƏİT (OECD) | 37,3 | 248,6 | 14,6 |
| | Qeyri-İƏİT | 202,6 | 1451,5 | 85,4 |
| | OPEC ölkələri | 170,5 | 1216,5 | 71,6 |
| | Qeyri-OPEC ölkələri | 50,0 | 341,7 | 20,1 |
| | Avropa İttifaqı | 0,8 | 5,8 | 0,3 |
| | Keçmiş SSRİ ölkələri | 19,3 | 141,9 | 8,3 |

**Qeyd**: Neft ehtiyatı olan 99 ölkə verilir.

Cədvəl 5.3-dən görünür ki, 2016-cı ildə dünya üzrə cəmi neft ehtiyatları 239,8 mlrd t (1700,1 mlrd barel) olmuşdur. Ən böyük neft ehtiyatı olan ölkələr Venesuela (17,5 faiz), Səudiyyə Ərəbistanı (15,7 faiz) və Kanada olmuşdur (10,2 faiz). Birinci onluğa, həmçinin, İran, İraq, Rusiya, Küveyt, BƏƏ, ABŞ və Liviya daxildir. Birinci onluğa daxil olan ölkələrin 6-sı müsəlman ölkələridir. Bu göstəriciyə görə 12-ci yerdə Qazaxıstan, 20-ci yerdə Azərbaycan və 45-ci yerdə Türkmənistan olmuşdur. Dünyanın neft ehtiyatları, əsasən, Şərq – Müsəlman ölkələrində yerləşib. Dünya neft ehtiyatlarının 71,6 faizi OPEC, 20,1 faizi qeyri-OPEC, 8,3 faizi keçmiş SSRİ və yalnız 0,3 faizi Avropa İttifaqı ölkələrinin payına düşür. Dünyanın İnkişaf Etmiş Ölkələr Klubu olan OECD-in (37 ölkə) dünya neft ehtiyatlarında payı 14,6 faiz olmuşdur. Dünyada baş verən siyasi hadisələrin əsas səbəbi də budur.

Dünya ölkələrinin hər birinin dünya neft ehtiyatlarındakı vəziyyəti təhlil edilməlidir. Çünki neft ehtiyatı potensial iqtisadi və siyasi güc deməkdir.

[1] BP Statistical Review of World Energy, 2017.

# 4. DÜNYA ÖLKƏLƏRİNİN QAZ EHTİYATLARININ VƏZİYYƏTİ VƏ YERLƏŞMƏSİ

Əsas mineral-yanacaq ehtiyatlarından biri neftdən sonra təbii qazdır. Neftdən fərqli əlamətləri vardır. Çıxarılandan sonra qısa vaxtda istifadə edilməsi və ya saxlanılması üçün böyük anbarlar tikilməsi lazım gəlir. Bu da çox böyük vəsait tələb edir. Hər yerə daşınması mümkün deyil, boru kəmərlərinin çəkilməsi tələb olunur. Elektrik enerjisi və kimya məhsulları istehsalında əsas xammaldır. Dünya sənaye istehsalında və məişətdə istehlakına görə neftə nisbətən qazdan çox sonralar istifadə edilməyə başlanmışdır.

Dünya ölkələrinin qaz ehtiyatları haqqındakı məlumatları BP, Beynəlxalq Energetika Agentliyi (İEA), OPEC və digər təşkilatlar verir. 2019-cu ildə dünya ölkələrinin təsdiqlənmiş təbii qaz ehtiyatları cədvəl 5.4-də verilmişdir.

**Cədvəl 5.4**

**Dünya ölkələrinin təsdiqlənmiş təbii qaz ehtiyatları[1], mlrd $m^3$**

| Sıra № | Ölkələr | 2019 | Dünyada payı %-lə |
|---|---|---|---|
| **1.** | Rusiya | 50279 | 24,3 |
| **2.** | İran | 33988 | 16,4 |
| **3.** | Qətər | 23831 | 11,5 |
| **4.** | ABŞ | 14254 | 6,9 |
| **5.** | Türkmənistan | 12177 | 5,9 |
| **6.** | Səudiyyə Ərəbistanı | 9423 | 4,5 |
| **7.** | BƏƏ | 6091 | 2,9 |
| **8.** | Venesuela | 5674 | 2,7 |
| **9.** | Əlcəzair | 4504 | 2,1 |
| **10.** | Nigeriya | 4503 | 2,1 |
| **11.** | İraq | 3714 | 1,8 |
| **13.** | Çin | 3013 | 1,4 |
| **19.** | Qazaxıstan | 1830 | 0,8 |
| **21.** | Azərbaycan | 1718 | 0,8 |
| **30.** | Braziliya | 367 | 0,1 |
| | **Qalan ölkələr** | 6436 | 3,1 |
| | **Dünya üzrə cəmi:** | 206205 | 100 |
| | OPEC ölkələri | 73136 | 35,4 |
| | OECD ölkələri (İƏİT) | 22942 | 11,1 |
| | Keçmiş SSRİ ölkələri | 67815 | 32,8 |

Cədvəl 5.4-dən görünür ki, 2019-cu ildə dünyada təsdiqlənmiş qaz ehtiyatlarına görə 1-ci yerdə Rusiya (24,3 faiz), 2-ci yerdə İran və 3-cü yerdə Qətər olmuşdur. Qaz ehtiyatlarının 52,2 faizi bu üç ölkənin, 65 faizi 5 ölkənin, 79,3 faizi və ya 4/5-ü 10 ölkənin payına düşür. Dünyanın qaz ehtiyatları haqqında ətraflı məlumatları neft ehtiyatlarında olduğu kimi BEA, DEŞ, BP, OPEC və digər təşkilatlar verir.

Qaz ehtiyatlarının neft ehtiyatlarından fərqi çoxdur. Hər bir ölkənin qaz ehtiyatları da ayrı-ayrılıqda təhlil edilməli və qiymətləndirilməlidir. Dünyanın 103 ölkəsində qaz hasil edilir.

2019-cu ildə dünya üzrə qaz ehtiyatları 206,2 trilyon $m^3$ olmuşdur ki, bununda 35,4 faizi OPEC, 32,8 faizi keçmiş SSRİ ölkələri(Rusiya, Qazaxıstan, Türkmənistan və Azərbaycan), 11,1 faizi OECD ölkələrində yerləşmişdir. Ölkələr üzrə qaz ehtiyatlarının vəziyyətinin ətraflı təhlil edilməsi tövsiyyə edilir.

[1] OPEC annual bulletin (Statistical Review of World Energy), hər il.

Yaxşı olar ki, hər bir təbii resursun ehtiyatı ilə hasilatı qarşılıqlı müqayisə ilə araşdırılsın. Nəzərə alınsın ki, beynəlxalq təşkilatlara üzvlükdə tez-tez dəyişmələr baş verir (məsələn, OPEC-də), ölkə qruplaşmalarında bəzən bir ölkə bir neçə qruplaşmanın daxilində verilir(məsələn, MDB, Yaxın Şərq və Orta Şərq, Amerika və s.).

## 5. DÜNYANIN KÖMÜR EHTİYATLARININ VƏZİYYƏTİ VƏ YERLƏŞMƏSİ

Kömür dünya üzrə enerji istehlakında 2-ci yeri tutur. XX əsrin 70-ci illərindən sonra dünyada neft və qaz sənayesinin sürətlə inkişafı nəticəsində kömürün rolu sürətlə azalmışdır. Kömür sənayesinin inkişafı neftə və qaza nisbətən daha sabitdir, ehtiyatları daha çoxdur və onun ehtiyatlarından istifadə çox uzun dövrə çata bilər.

Dünyada kömürdən istifadə əsasən ölkədaxili xarakter daşıyır, ixrac və idxal az aparılır.

Qədim zamanlardan istifadə edilməyə başlansa da, birinci sənaye inqilabından sonra daha çox istifadə edilməklə hələ indi də əsas enerji mənbələrindən biridir. Dünyanı çirkləndirən, ekologiyanı məhv edən əsas mənbələrdən biri hesab edilir.

Dünyanın əsas regionları və ölkələrində kömürün geoloji ehtiyatları cədvəl 5.5-də verilmişdir.

**Cədvəl 5.5**

**2017-ci ildə dünyanın əsas regionları və ölkələrində kömürün geoloji ehtiyatları[1]**

| Regionlar və ölkələr | Kömür ehtiyat-ları, mln t | Dünya ehtiyatla-rında payı, faizlə | Təminatı, illə |
|---|---|---|---|
| **Şimali Amerika** | 254432 | 28,0 | 235 |
| o cümlədən: ABŞ | 246643 | 27,1 | 245 |
| Kanada | 6578 | 0,7 | 100 |
| **Cənubi və Mərkəzi Amerika** | 19893 | 2,2 | 290 |
| o cümlədən: Kolumbiya | 6611 | 0,7 | 120 |
| Braziliya | 10113 | 1,1 | 2298 |
| **Avropa və MDB** | 287095 | 31,6 | 242 |
| o cümlədən: Rusiya | 157010 | 17,3 | 561 |
| Almaniya | 6739 | 0,7 | 32 |
| Ukraniya | 34153 | 3,8 | 424 |
| Qazaxıstan | 31279 | 3,4 | 360 |
| Polşa | 14000 | 1,5 | 87 |
| Çexiya | 5552 | 0,6 | 90 |
| Türkiyə | 4186 | 0,5 | 87 |
| Yunanıstan | 3900 | 0,4 | 55 |
| **Afrika** | 50755 | 5,6 | 204 |
| o cümlədən: CAR | 48750 | 5,4 | 201 |
| **Asiya, Avstraliya, Okeaniya** | 296889 | 32,7 | 101 |
| o cümlədən: Çin | 114500 | 12,6 | 59 |
| Hindistan | 92445 | 10,2 | 229 |
| Avstraliya | 78500 | 8,5 | 215 |
| İndoneziya | 4968 | 0,5 | 38 |
| **Bütün dünya:** | 909064 | 100 | 164 |

[1] BP Statistical Review of World Energy, 2018.

5.5-ci cədvəldən görünür ki, dünyada ən çox geoloji kömür ehtiyatları regionlar üzrə Asiya, Avstraliya və Okeaniyada (32,7 faiz), Avropa və MDB (31,6 faiz) regionlarındadır. Ölkələr üzrə ən böyük kömür ehtiyatları isə ABŞ-da (27,1 faiz) və Rusiyadadır (17,3 faiz). Kanadanın nəhəng ərazisi olmasına baxmayaraq kömür ehtiyatları çox az – 0,7 faiz, Almaniyada – 0,7 faiz, Türkiyədə - 0,5 faiz və İndoneziyada 0,5 faizdir. Lakin dünyanın tanınmış geoloji elmi mərkəzlərinin verdiyi məlumata görə bunun səbəbi son 30-40 ildə kömürə tələbatın azalması və kəşfiyyat – axtarış işlərinin az aparılmasıdır.

Çünki bütün beynəlxalq ekoloji təşkilatlar dünya ölkələrindən kömürdən istifadənin azaldılmasını tələb edir. Ekologiyanı məhv edən əsas resurslardan birincisi kömürdür. Amma ölkələr üzrə neft-qaz resursları qeyri-bərabər yerləşdiyi üçün kömürdən istifadə məcburiyyəti qarşısında qalmışdır. Bunun da yeganə əvəzləyicisi alternativ (günəş, külək və s.) enerji növlərindən istifadəyə keçilməsidir.

## 6. DÜNYA ÖLKƏLƏRİNİN QIZIL EHTİYATLARININ VƏZİYYƏTİ VƏ YERLƏŞMƏSİ

Beynəlxalq təşkilatların, ölkələrin milli geologiya və bank-maliyyə təşkilatlarının qızıl ehtiyatları filiz-xammal hasilatı və hazır qızıl ehtiyatları üzrə verilir. Qızıl filiz-xammalı dünya ölkələrinin quru, su ərazilərində və okeanlarda yerləşir. Okeanlarda 20 mln t qızıl filizi olması ehtimal edilir.

Dünyada indiyə qədər 7,5-8 trilyon dollar dəyərində qızıl istehsal edilmişdir. "United States Geological Survey"-in hesabatlarına görə dünyada 57 min t qızıl ehtiyatı vardır.

Ölkələr üzrə qızıl ehtiyatları aşağıdakı kimi qiymətləndirilir:

1. Avstraliya – 17 faz;
2. Rusiya – 14 faiz;
3. CAR – 10 faiz;
4. ABŞ – 5 faiz;
5. İndoneziya – 5 faiz.

2010-2017-ci illərdə dünya qızıl tələbatı 4300-4600 t olmuşdur. Bu tələbatın 70%-i mədənlərdən çıxarılan qızılla və 30%-i isə külçə qızılla ödənilib. Hesablamalar göstərir ki, belə olan halda təxminən 19 idlən sonra, yəni 2037-ci ildə yer altında olan qızıl ehtiyatı qurtaracaqdır.[1]

Dünya ölkələrində qızıl yataqlarının və ehtiyatlarının olması ölkələr arasında nisbi üstünlük olsa da, onlardan istifadə ölkələrdən böyük maliyyə vəsaiti, elmi-texniki səviyyə, "Nou – Xau", ən müasir texnologiyalar və texnoloji-kommersiya sirlərinin qorunmasını tələb edir.

Elə ölkələr vardır ki, filiz-xammalla zəngin qızıl yataqları olsa da, onlardan istifadə imkanına malik deyillər.

Dünya ölkələrində olan 10 nəhəng qızıl yatağı cədvəl 5.6-da verilmişdir.

[1] (i olke.az/news/detail/yer-altındakı-qızıl-ehtiyatları-tukenecek-2037-ci ilde-117986)

**Cədvəl 5.6**

**Dünyanın 10 nəhəng qızıl yatağı**[1]

| Sıra № | Ölkə | Qızıl yatağı | Sahibi | Hasilat (t-la) | |
|---|---|---|---|---|---|
| | | | | 2014 | 2015 |
| 1. | Özbəkistan | Muruntay | Özbəkistan hökuməti | 61 | 61 |
| 2. | İndoneziya | Qrasberq | İndoneziya hökuməti – 90%, Freeport – Me Mo Ran – 10% | 38,8 | 42,3 |
| 3. | ABŞ | Qoldstrayk | Barrick | 28,1 | 32,8 |
| 4. | ABŞ | Kortek | Barrick | 28,1 | 31,1 |
| 5. | Dominikan Respublikası | Pueblo Vexo | Barrick – 60 %, Qoldcorp – 40% | 34,5 | 29,7 |
| 6. | Peru | Yanakoça | Nevmont – 51%, Minas Buenaventura – 43%, Beynəlxalq Maliyyə Korporasiyası – 5% | 30,2 | 28,6 |
| 7. | ABŞ | Karlin | Nevmont | 28,2 | 27,6 |
| 8. | Meksika | Penyaskinto | Qoldcorp | 17,7 | 26,8 |
| 9. | Papua Yeni Qvineya | Lixir | Newcrest | 20,3 | 25,0 |
| 10. | Avstraliya | Boddinqton | Newmont | 21,6 | 24,7 |

Cədvəl 5.6-dan görünür ki, dünyada kəşf edilmiş ən çox qızıl yataqları ABŞ-da, qitələr üzrə isə Şimali Amerikadadır. Lakin belə hesab edilir ki, ölkələrdə kəşf edilməmiş, gizli saxlanılan və kəşf edilməsi hələlik mümkün olmayan yataqlar daha çoxdur. Alimlər belə hesab edir ki, qızıl bir mineral kimi 3 mlrd ilədək bundan əvvəl digər planetlərdən asteroidlər vasitəsilə gəlib çıxıb. Heç vaxt xarab olmayan, daim öz keyfiyyətini saxlayan, ən çətin yollarla əldə edilən, böyük gözəllik yaradan və insanlara zövq verdiyi üçün böyük dəyərə malikdir, heç zaman qiymətdən düşmür və zənginliyin ən etibarlı yatırımıdır (sərvətdir). Qızıl ehtiyatı ölkənin xəzinəsinə və ya Mərkəzi Emissiya Bankına məxsus olan, külçə və kəsilmiş pul şəklində saxlanılan ehtiyat qızıl fondudur. 1 t qızıl təxminən 32150,75 unsiyaya bərabərdir (1 unsiya=31,1 qram).Dünya ölkələrinin sənaye istehsalında, maliyyə rezervlərində istifadə edilən qızıl-valyuta ehtiyatlarının tərkib hissəsi olan, əhalinin həyatında və məişətində istifadə edilən hazır külçə qızıl, moneta qızıl və qızıl məmulatları əvəzsiz rola malikdir. Ölkələrin iqtisadi gücünü müəyyən edən əsas göstəricilərdən biridir. 2019-cu ildə dünya ölkələrinin qızıl ehtiyatları 5.7-ci cədvəldə verilmişdir.

**Cədvəl 5.7**

**2019-cu ilin əvvəlinə dünya ölkələrinin qızıl ehtiyatları və milli ehtiyatların ümumi həcmində payı**[1]

| Sıra № | Ölkə/Təşkilat | 1970 | 1990 | 2000 | 2019 | Milli ehtiyatlarda qızılın payı, faizlə |
|---|---|---|---|---|---|---|
| 1. | ABŞ | 9839,2 | 8146,2 | 8136,9 | 8133,5 | 74,8 |
| 2. | Almaniya | 3536,6 | 2960,5 | 3468,6 | 3369,7 | 70,1 |
| 3. | BVF | 3855,9 | 3217,0 | 3217,3 | 2814,0 | --- |
| 4. | İtaliya | 2565,3 | 2073,7 | 2451,8 | 2451,8 | 66,3 |
| 5. | Fransa | 3138,6 | 2545,8 | 3024,6 | 2436,0 | 60,2 |
| 6. | Rusiya (SSRİ) | 1374,4 | 484,6 | 384,4 | 2113,0 | 18,5 |

[1] qoldenfront.ru/articles/view/10-krupnejshih-zolotyh-mestorozhdenij-v-mire

[1] World Gold Council. Annual bulletin

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| **7.** | Çin | --- | 395,0 | 395,0 | 1852,5 | 2,4 |
| **8.** | İsveçrə | 2427,0 | 2590,3 | 2419,4 | 1040,0 | 5,4 |
| **9.** | Yaponiya | 473,2 | 753,6 | 763,5 | 765,2 | 2,5 |
| **10.** | Niderland | 1588,2 | 1366,7 | 911,8 | 612,5 | 65,6 |
| **11.** | Hindistan | 216,3 | 332,6 | 357,8 | 598,6 | 6,2 |
| **12.** | Avropa Mərkəzi Bankı | --- | --- | 747,4 | 504,8 | 26,4 |
| **13.** | Tayvan | 72,9 | 421,0 | 421,8 | 423,6 | 3,6 |
| **15.** | Qazaxıstan | --- | --- | 57,2 | 350,4 | 46,6 |
| **22.** | Türkiyə | 112,9 | 127,4 | 116,3 | 253,5 | 12,7 |
| **48.** | Belarus | --- | --- | 1,2 | 46,9 | 25,6 |
| **102.** | Kanada | 702,7 | 459,2 | 36,8 | 0 | --- |
| | **Cəmi:** | 36606,7 | | | 33869,17 | --- |
| | Avrozona (AMB ilə birgə) | --- | --- | 12426,9 | 10778,3 | --- |

**Qeyd**: 101 ölkənin qızıl ehtiyatları verilir.

5.7-ci cədvəldən göründüyü kimi, 2019-cu ildə dünya ölkələrinin cəmi qızıl ehtiyatları 33,8 min t olmuşdur. Nəzərə almaq lazımdır ki, bu ehtiyatlar ölkələrin Mərkəzi Banklarında, Maliyyə Nazirliklərinin (ölkələr üzrə fərqli) və müxtəlif fondlarında olan, müxtəlif istiqamətlərdə yerləşdirilən hazır qızıl ehtiyatlarıdır. Dünyada ən çox qızıl ehtiyatına malik olan ölkələr ABŞ (8133,5 t), Almaniya (3369,7 t), İtaliya (2451,8 t) və göstərilən digər ölkələrdir. Ölkələrin ümumi milli ehtiyatlarının, yəni valyuta-qızıl ehtiyatlarında tərkibində qızılın payı müxtəlifdir. Milli ehtiyatları ən çox qızılda saxlayan ölkələr yenə də ABŞ, Almaniya və İtaliyadır. Bunlarla bərabər digər ölkələrdən Niderland, Fransa və s. ölkələrdə qızıl – valyuta ehtiyatlarında qızıla çox üstünlük verirlər. Bəzi ölkələr isə buna əhəmiyyət vermirlər(məsələn, Kanada və s.).

Ümumdünya Qızıl Şurasının hesabatında 101 ölkənin qızıl ehtiyatları verilir.

Dünya bazarında qızılın qiyməti daim dəyişir. Neft qiymətləri ilə qızıl qiymətləri qarşılıqlı əlaqədədir. Bu qiymətlər Beynəlxalq Əmtəə Birjalarında müəyyən edilir(Beynəlxalq Əmtəə Birjaları 11-ci mövzuda verilmişdir).

Qızıl dünyada ən etibarlı və sabitqədəmli yatırımdır. Tövsiyyə edilir ki, bütün ölkələrin qızıl ehtiyatları dərslərdə müzakirə və təhlil edilsin.

## 7. DÜNYADA İLKİN ENERJİ RESURSLARI (İER) VƏ NEFT İSTEHLAKININ PERSPEKTİVLƏRİ

Orta əsrlərin əvvəllərində insanlar mineral yanacaq resurslarından (oduncaq, kömür, neft və s) enerji mənbəyi kimi istifadə etməyə başlamışlar.

Litosferin bərpa olunmayan neft, təbii qaz, daş və qonur kömür, torf və yanar şist, biosferin bərpa olunan oduncağı və hidrosferin tükənməyən hidro enerji resurslarına və s. **İlkin Enerji Resursları** deyilir.

Yanacaq növləri istilikvermə qabiliyyətinə görə fərqlənir. "Şərti yanacaq vahidi" kimi daş kömür əsas götürülmüşdür. Onları müqayisə etmək üçün 1 kq daş kömür yandırılarkən verdiyi 7000 kkal istilik "şərti yanacaq vahidi – ş.y.v." kimi qəbul edilmişdir(kömürün şərti yanacaq əmsalı 1,0-dır). Eyni miqdarda neftin istilikvermə qabiliyyəti 10500 kkal (1,5), təbii qazın 9800 kkal (1,4), torfun 3500 kkal (0,5), quru odunun 2800 kkal (0,4) və yanar şist 2100 kkal-dır(0,3).

Beynəlxalq təşkilatların və ölkələrin milli hökumət orqanlarının hesabatlarında İER-lər onilliklər üzrə verilir və istehlakın perspektivləri proqnozlaşdırılır.

5.8-ci cədvəldən göründüyü kimi, 2035-ci ilə qədər dünyada İER və o cümlədən neft istehlakı artacağı halda, İER-də neftin payı azalacaqdır. Bu alternativ enerji növlərinin (günəş, külək və s.) sürətlə artırılacağı ilə əlaqələndirilir.

Nəzərə almaq lazımdır ki, inkişaf perspektivlərini proqnozlaşdıran çoxsaylı təşkilatlar vardır, onların mənbələrinin göstərilməsi vacibdir.

**Cədvəl 5.8**

**2035-ci ilə qədər dünyada İlkin Enerji Resursları (İER) və neft istehalkının perspektivləri***

| № | Göstəricilər | 2010 | 2020 | 2030 | 2035 | Artım tempi,% |
|---|---|---|---|---|---|---|
| | **ABŞ Energetika Nazirliyinin proqnozları** | | | | | |
| 1. | Dünyada İER istehlakı (mlrd t ş.y.v.) | 17,8 | 22,3 | 25,9 | 27,7 | 1,6 |
| 2. | Dünyada neft istehlakı (mlrd t ş.y.v.) | 6,2 | 6,9 | 7,7 | 8,0 | 1,0 |
| 3. | Ümumi İER istehlakında neftin payı, faizlə | 35,2 | 31,3 | 29,7 | 28,9 | - |
| 4. | Dünyada neft istehlakı (mlrd t) | 4,3 | 4,8 | 5,4 | 5,6 | 1,0 |
| | **Beynəlxalq Energetika Agentliyinin proqnozları** | | | | | |
| 1. | Dünyada İER istehlakı (mlrd t ş.y.v.) | 19,4 | 22,1 | 24,4 | 25,8 | 1,1 |
| 2. | Dünyada neft istehlakı (mlrd t ş.y.v.) | 6,2 | 6,5 | 6,9 | 7,0 | 0,5 |
| 3. | Ümumi İER istehlakında neftin payı, faizlə | 32,0 | 29,6 | 28,2 | 27,4 | - |
| 4. | Dünyada neft istehlakı (mlrd t) | 4,3 | 4,5 | 4,8 | 4,9 | 0,5 |

*Cədvəl ABŞ Energetika Nazirliyi və Beynəlxalq Energetika Agentliyinin məlumatları əsasında tərtib edilmişdir.

Şərti yanacaq – üzvi yanacağın uçot vahididir. Müxtəlif təyinatlı yanacaqların istiliktörətmə qabiliyyətinin uzlaşdırılması üçün istifadə edilir. Beynəlxalq Energetika Agentliyi (Paris) özünün nəşr etdirdiyi "Energetik statistika" bülletenində neftin qaza çevriliş əmsalını, ten ekvilanti kimi verir: neft/ten. Ona görə 1 t neft = 1,0-1,03 ten və əksinə 1000m$^3$ qaz = 0,9 ten kimi təsdiqləmişlər.

## 8. DÜNYANIN ENERJİ DAŞIYICILARI VƏ XAMMAL PROBLEMİ

Dünyada enerjidaşıyıcıları və xammal bir təsərrüfat tamının tərkib hissələri olmaqla, bir-birilə eyni və tamam fərqli xüsusiyyətlərə malikdirlər.

Enerjidaşıyıcıları bir sıra əlamətlər üzrə qruplaşdırılır. Hasiledilmə üsuluna görə iki yerə bölünür:

1) Yer altından çıxarılan – neft, qaz, kömür, uran filizi və s;
2) Yer üzərində emal edilən – atom, su, istilik enerjisi, süni qaz və s.

İstifadə vəziyyətinə görə iki yerə bölünür:

1) Hazır olan – kömür, təbii qaz və s.;
2) Alınan – elektrik enerjisi, neft məhsulları və s.

Maddi formasına görə üç yerə bölünür:

1) Bərk halda olan – kömür, uran filizi və s.;
2) Maye halda olan – xam neft və neft məhsulları və s.;
3) Qaz halında olan – təbii, sıxılmış və süni qaz.

Kəşfedilmə vəziyyətinə görə də iki yerə bölünür:

1) Ehtimal edilən ehtiyatlar;
2) Təsdiq edilmiş ehtiyatlar.

İlkin Enerji Resurslarının dünya istehsalı və istehlakında əsas yeri – 40 faizə qədər neft, 31 faizə qədər – kömür, 23 faizə qədər qaz, 2 faizə qədər AES, 3 faizə qədər HES və digər enerji resursları növləri tutur.

2016-cı ildə dünyada təsdiqlənmiş neft ehtiyatları 300 mlrd t-a qədər olmuşdur. Neftin illik hasilatının mövcud səviyyəsində (3.7 mlrd t) bu ehtiyat 50 ilə qədər təminatı ödəyə bilər. Bu ehtiyatların təqribən 77 faizi OPEC, 12 faizi isə İİƏT (OECD) ölkələrində yerləşib. Hazırda dünyada əsas enerjidaşıyıcısı kimi neft siyasi amilə çevrilib və dünya ölkələrinə təsir vasitəsi kimi çıxış edir. Neft və neft məhsulları öz keyfiyyət göstəricilərinə görə qruplaşdırılır və beynəlxalq neft birjalarında bir barelə görə qiyməti müəyyən edilir. Neftin qiyməti hasilatın həcmindən asılı olaraq enib-qalxır və bu sahədə əsas rolu OPEC oynayır.

XX əsrin əvvəlinə - yəni 1901-ci ildə dünyada neft hasilatı cəmi 21,2 mln t olmuşdur ki, bunun da 50 faizindən çoxu, yəni 11,5 mln t-u Azərbaycanda hasil edilmişdir. 2016-cı ildə dünyada ilk neft hasilatı 4,3 mlrd t-a çatmışdır. Bununda 29,6 faizi Yaxın və Orta Şərq ölkələrində, 18,2 faizi Şimali Amerikada, 9,2 faizi Mərkəzi və Cənubi Amerikada, 22,1 faizi Avropa və MDB ölkələrində, 10,2 faizi Asiya – Sakit okean regionunda, 10,8 faizi Afrika ölkələrində hasil edilmişdir.

2016-cı ildə dünyanın 98 ölkəsində neft hasil edilmişdir. İllik hasilatı 100 mln t-dan yuxarı olan nəhəng neft hasilatçısı olan dövlətlərə illik – 585,7 mln t (13,4 %) olan Səudiyyə Ərəbistanı, 554,3 mln t (12,6%) olan Rusiya, 543 mln t (12,4%) olan ABŞ, 218,9 mln t (5%) olan İraq, 216,4 mln t (4,9%) olan İran, illik hasilatı 199,7 mln t olan Çin (4,6%) və s. ölkələr olmuşdur. Bütün dünya ölkələri üzrə neft hasilatının 75,8 faizi qeyri-OECD, 42,5 faizi OPEC, 1,6 faizi Avropa İttifaqı ölkələrində hasil edilmişdir.

Keçən XX əsr ərzində, yəni 100 ildə Yer kürəsinin təkindən 130 mlrd t-dan artıq neft çıxarılmışdır. 2014-cü ildə dünya ölkələrində kəşf edilmiş neft ehtiyatlarının 49 faizi Orta Şərq ölkələrindədir. Mütəxəssislər tərəfindən kəşf edilməmiş, proqnozlaşdırılan neft ehtiyatları 270 mlrd t hesab edilir.

Kömür üzvi mənşəli yanacaq-energetika resurslarının bütün növləri içərisində ən geniş yayılmışdır. Onun ehtiyatları neft və qazın yekun ehtiyatlarını üstələyir. Ehtiyatların 96 faizdən çoxu on ölkədə (Rusiya, ABŞ, Çin, Avstraliya, Kanada, Almaniya, CAR, Böyük Britaniya, Polşa, Hindistan) yerləşib. Kömürün 65 faizi elektrik enerjisi alınmasına (buna energetik kömür deyilir), qalan hissəsi metallurgiyada (buna metallurji kömür – koks deyilir) sərf edilir.

Hələ qədim zamanlarda insanlara ancaq 18 kimyəvi element məlum idisə, XVIII əsrdə onlara 29, XX əsrin ortalarında isə 80 element məlum idi. Müasir istehsalın inkişafı Mendeleyev cədvəlindəki, demək olar ki, bütün elementlərin texnikada tətbiq edilməsini zəruri etmişdir. Nəticədə son 70 ildə dünayada çoxsaylı və çoxtəyinatlı xammal növləri kəşf edilmiş və onların mənimsənilməsinə başlanılmışdır.

Xammal növləri bir sıra əlamətlər üzrə qruplara bölünür. Xammal təyinatına görə iki yerə bölünür:

1) Yanacaq təyinatlı xammal (xam neft, təbii qaz, kömür və s.);
2) Qeyri-yanacaq təyinatlı xammal – filiz və metallar (dəmir, marqans, xrom filizləri, qızıl, mis, molibden və s.).

Xammal son istehlaka hazırlıq vəziyyətinə görə iki qrupa bölünür:

1) Son istehlaka tam hazır xammal (təbii qaz, daş kğmür, daş duz və s.);
2) Son istehlaka hazır olmayıb emala verilən xammal (xam neft, filizlər, qızıl və s.).

Ümumdünya əmtəə ixracının 19 faizi mineral xammalın payına düşür. Mineral xammal ixracının əsas hissəsini – 53 faizini yanacaq təşkil edir.

Mineral xammal öz tərkibində geniş spektrli emal sənayesi məhsullarını birləşdirir (müxtəlif duzlar, asbest, qrafit, tikinti daşları və s.). Ümumən mineral xammal aşağıdakı 3 səciyyəvi qrupa bölünür:

1) Birbaşa istifadə edilən mineral məhsullar (daş duz, tikinti daşları və s.);
2) Kimya sənayesi xammalı (fosforitlər, kalium duzu, filizlər və s.);
3) Zərgərlik sənayesi xammalı (qiymətli daşlar – qızıl, gümüş, platin, almaz və s.).

Mis filizi dünyanın bütün regionlarında yerləşir. Lakin onların əsas ehtiyatları və hasilatı dünya ölkələrinin bir neçəsində cəmləşib – Çili, ABŞ, Kanada, Avstraliya, İndoneziya, Rusiya, Peru, Çin, Polşa, Meksika, Zambiya.

2000-li illərdə dünyada orta illik boksit hasilatı 120 mln t olmuşdur. Əsas hasilatçılar: Avstraliya – 40 mln t-dan çox, Qvineya – 19 mln t-a qədər, Yamayka – 12 mln t-a qədər.

Sink filizinin dünya geoloji ehtiyatı 150 mln t həcmində qiymətləndirilir. Əsas ehtiyatlar Kanada, ABŞ, Avstraliya və MDB ölkələrindədir.

Nikel filizinin dünya ehtiyatı 50 mln t həcmində qiymətləndirlir. Əsas ehtiyatlar Kanada, Avstraliya və Okeaniyadadır.

Son 40 ildə dünyada qızıl özünün pul və metal valyuta funksiyasını itirir və əmtəə funksiyasını yerinə yetirir. Uzun illər qızıl valyuta məzənnələrinin müəyyən edilməsində əsas meyar olmuşdur. Onun hasilatı və emalının xüsusi rejimləri mövcuddur.

Artıq Azərbaycan Respublikası da qızıl hasilatçısı olan dövlətlər qrupuna daxil olmuşdur.

Dünyada, xüsusən İnkişaf Etmiş Ölkələrdə geoloji – kəşfiyyat işlərinin inkişaf etməsinə baxmayaraq, hələ də yerin təki az öyrənilmişdir. Faydalı qazıntıların bəzi növləri üzrə təsdiqlənmiş ehtiyatların xüsusi çəkisi coğrafi ehtiyatların cüzi faizini təşkil edir. İnkişaf Etməkdə Olan Ölkələr üzrə bu məsələ daha da zəifdir. Dünyada ölkələr üzrə tələbata görə xammalın ehtiyatı və təklifi tərs mütənasibdir. Xammal və yanacağın əsas növləri, əsasən, digər ölkələrdən gətirilməli, istehsal, emal və istehalk edilməlidir. Digər əmtəələrdən fərqli olaraq bu kateqoriyalara daxil olan əmtəələrin qiymətləri, əsasən, beynəlxalq birjalarda müəyyən edildiyi üçün siyasi təsirlərə daha çox məruz qalır. İstifadə sahələri daha geniş və mürəkkəbdir. Hasilat subyekti bir sahə üçün xammal və digər sahə üçün hazır məhsul kimi çıxış edir, şəxsi istehlaka və istehsala gedir.

Bütün bunlar da qlobal problemlərin yaranmasına gətirib çıxarır. Dünya ölkələrində enerjidaşıyıcıları və xammalla təminat problemlərinin yaranmasının əsas səbəbləri bunlardır:

1) Geoloji-kəşfiyyat işlərinin zəif aparılması;
2) Yerin təkinin bütün əlamətlər üzrə zəif öyrənilməsi;
3) Mövcud elmi-texniki səviyyə şəraitində mineral xammalın və məhsulun çıxarılmasının qeyri-rentabelliyi;
4) Mövcud dünya qiymətləri səviyyəsində mineral xammalın və məhsulun çıxarılmasının qeyri-rentabelliyi;
5) Bəzi ölkələrin mineral resurslarla özünü təmin edə bilməməsi (Yaponiya, ABŞ, Fransa və s.);
6) Bəzi ölkələrin öz mineral resurslarından istifadə üçün iqtisadi gücünün – maliyyə imkanlarının olmaması;
7) Dünya ölkələrində baş verən iqtisadi və siyasi böhranlar;
8) Qərb və İnkişaf Etmiş Ölkələrin xammal siyasəti və s.

Dünya ölkələrində enerjidaşıyıcılarına və xammalla təminatın qlobal problemləri aşağıdakılardır:

1) Ölkələr üzrə faydalı qazıntı ehtiyatlarının qeyri-bərabərliyi;
2) Təbii mineral xammalın süni və ya sintetik xammal növləri ilə əvəz edilməsi;
3) Yerin mineral resursları sonsuz deyil, azalır və tükənir. Bu da ümumbəşəri problemə çevrilir;

4) Bu məhsulların əsas istehsalçıları, hasilatçıları İnkişaf Etməkdə Olan, əsas istehalkçıları sənaye cəhətdən İnkişaf Etmiş Ölkələrdir;

5) Kömürün çox hissəsinin yerin dərin qatlarında (1800 m-dən dərin) yerləşməsinə görə, hasilatının qeyri-mümkünlüyü;

6) Enerjidaşıyıcıları və xammala olan tələbatın daim artması;

7) Enerjidaşıyıcılarının qiymətinin artması;

8) Emaledici sənayenin gücü ölkələr üzrə tam fərqlənir, daim zəifləyir və yeniləşdirmə zərurəti yaradır və s.

Dünyada enerjidaşıyıcıları və xammala olan tələbat ölkələr, regionlar və dünya üzrə hər il müəyyən edilir və 10-20-30 il üzrə proqnozlar verilir. Bu sahədə dünyada energetika konfransları (məsələn, Detroyt Dünya Energetika Konfransı) xüsusi rol oynayır. Həmin beynəlxalq məclislərdə təsdiqlənmiş, ehtimal edilən və mənimsənilən ehtiyatlar qiymətləndirilir, təhlil edilir, tələbatın ödənilməsi yolları və istiqamətləri müəyyənləşdirilir.

Enerjidaşıyıcıları və xammala olan tələbatın ödənilməsi yolları aşağıdakılardır:

1) Süni xammal növlərinin işlənib hazırlanması, mineral xammala olan (dəmir filizi, dəmir məmulatı, polad və s.) tələbatın azalmasına güclü təsir edir;

2) Günəş elektrik stansiyalarının yaradılması;

3) Külək elektrik stansiyalarının yaradılması;

4) Çox materialtutumlu əmtəə istehsalının azaldılması və az material tutumlu əmtəələrin istehsalının artırılması və s.

Hazırda dünya elektrik enerjisi istehsalında AES-lərin payı 24 faiz təşkil edirsə, gələcəkdə günəş enerjisindən istifadənin artırılması heabına, bunun azaldılması nəzərdə tutulur.

Gələcəkdə enerjidaşıyıcıları və xammala olan tələbatın ödənilməsi istiqamətində aşağıdakı əsas meyillərin nəzərə alınması lazım gəlir:

1) Qarşıdakı 50 ildə dünyada istehlak edilən enerjidaşıyıcıları içərisində neftin xüsusi çəkisi azalacaqdır;

2) Həmin dövrdə təbii qazın, xüsusilə günəş və külək enerjisinin xüsusi çəkisi artacaqdır;

3) Metala olan tələbat azalacaq, kimya mənşəli süni və sintetik xammala olan tələbat artacaqdır;

4) Dünyada dəmir filizinin əsas hasilatçısı (istehsalçısı) Braziliya, əsas istehlakçıları Asiya ölkələri – Çin, Yaponiya və Cənubi Koreya olacaqdır;

5) Təkrar xammaldan istifadənin genişləndirilməsi və sürətlə artırılması daha da aktuallaşacaqdır və s.

Müasir dövrdə dünya ölkələrinin enerji təhlükəsizliyinin təmin edilməsi üçün ətraf mühitin qorunması şərtilə yeni enerji mənbələrinin – külək, günəş, dağ çayları, biokütlə və geotermal su mənbələri hesabına alternativ və bərpaolunan enerji istehsalının artırılması ən prioritet istiqamət kimi qarşıda durur.

Son 60 il ərzində dünya ixracatında xammal, ərzaq, mineral yanacaq, qara və əlvan metallar ixracatı aşağı düşdüyü halda, emal sənayesi məhsulları, o cümlədən, maşın və nəqliyyat avadanlıqları ixracatı artmışdır. Bu da onu göstərir ki, dünya ölkələri maksimum imkanları səviyyəsində xammal ixracatını azaltmağa, hazır məhsul ixracatını artırmağa daha maraqlıdırlar.

## 9. DÜNYA İQTİSADİYYATINDA OKEANLAR VƏ OKEANLARDAN İSTİFADƏ EDİLMƏSİ PROBLEMLƏRİ

Yunanca "okeanos" sözündən götürülmüş Okean sözünün hərfi mənası Yer kürəsini əhatə edən böyük çay mənasını verir. Yerin materik və adaları arasındakı əraziləri əhatə edən, ümumi duz tərkibinə malik olan bütöv su örtüyünə dünya okeanı deyilir. Hidrosferin 94

faizini təşkil edir və Yer səthinin 70,8 faizini tutur. Okean hidrosferin əsas hissəsi olmaqla atmosfer və Yer qabığı ilə daim qarşılıqlı əlaqədədir. O, günəş enerjisinin və rütubətin nəhəng akkumlyatoru olmaqla Yerdə temperaturu tənzimləyir və qurunun uzaq rayonlarının rütubətlənməsi üçün münasib şərait yaradır.

Okean tərkibində zülallarla zəngin olan qida mənbələri, həmçinin, energetika, kimya və mineral ehtiyatlar mənbəyidir.

Fiziki – coğrafi xüsusiyyətlərinə görə dünya okeanı ayrı-ayrı okeanlara, dənizlərə, körfəzlərə, buxtalara və boğazlara ayrılır. Dünyada 4 okean (Sakit, Atlantik, Hind və Şimal-Buzlu okean), 32 dəniz (Sakit okean – 10 , Atlantik okean – 8, Hind okeanı – 4, Şimal-Buzlu okeanı – 10 dəniz) mövcuddur. Dünya okeanının ümumi səthi - 361 mln km$^2$, həcmi 1370 mln km$^3$, orta dərinliyi 3795 m, maksimal dərinliyi 11022 m-dir. Ən böyük okean Sakit okean (səthi 179,6 mln km, ümumi səthin 50 faizi), sonraki yerləri Atlantik, Hind və Şimal-Buzlu okeanları tutur. Səthinə görə dünya okeanının 50 faizini Sakit okean, 25 faizini Atlantik okean, 21 faizini Hind okeanı və 4 faizini Şimal-Buzlu okeanı təşkil edir. Sahəsinə görə Yer kürəsinin ən böyük dənizləri - Mərcan dənizi (Sakit okean, 4791 min km$^2$), Ərəbistan dənizi (Hind okeanı, 3683 min km$^2$), Cənubi Çin dənizi (Sakit okean, 3447 min km$^2$), Karib dənizi (Atlantik okeanı, 2754 min km$^2$), Aralıq dənizi (Atlantik okeanı, 2500 min km$^2$), Berinq dənizi (Sakit okean, 2304 min km$^2$), ən kiçik dənizləri - Azov dənizi (Atlantik okeanı, 38 min km$^2$) və Ağ dənizdir (Şimal- Buzlu okeanı, 90 min km$^2$). Dərinliyinə görə Yer kürəsinin ən dərin dənizləri – Mərcan dənizi (Sakit okean, 9140 m), Karib dənizi (Atlantik okeanı, 7680 m), Banda dənizi (Sakit okean, 7440 m), Sulavesi dənizi (Sakit okean, 5842 m), ən dayaz dənizləri – Azov dənizi (Atlantik okeanı, 14 m), Yava dənizi (Sakit okean, 54 m), Şərqi Sibir dənizidir (Şimal-Buzlu okean, 1550 m).

Dünya okeanı zəngin mineral ehtiyatlar (suda həll olmuş kimyəvi elementlər və dəniz dibinin altındakı faydalı qazıntılar) mənbəyidir. Dəniz sularından ildə təqribən 10 mln t xörək duzu, natrium-sulfat, Maqnezium-xlorid, kalium-xlorid və brom alınır. Okeandan alınan mineral xammal dəyərinin 90 faizindən çoxunu neft və qaz verir. Təqribi hesablamalar görə okeanda neftin (305 m dərinliyə qədər sahədə) geoloji ehtiyatı 280 mlrd t, qazınkı 140 trilyon m$^3$ -dir. Dənizin dibindən neft və qaz çıxarılan ən iri rayonlar İran və Meksika körfəzləridir. Dənizin dibi digər faydalı qazıntılar – rutil, zirkon, qalay, mis, dəmir, qızıl, nikel, mirvari və s. ilə zəngindir. Okeandan enerji alınması zamanı dalğaların gücü, qabarma və çəkilmə nəticəsində yaranan səviyyə dəyişkənliyi, su səthi ilə dib arasındakı temperatur fərqi və s.-də mühüm potensial enerji əhəmiyyətinə malikdir. Qabarmaların enerji gücü təqribən 1 mlrd kvt-dır. İlk sənaye qabarma su elektirik stansiyası Fransada (La-Manş boğazı sahilində) tikilmişdir. 1968-ci ildə SSRİ-də Murmansk şəhəri yaxınlığında Qabarma SES-i istifadəyə verilmişdir. Okean suyunda onun həcminin təqribən 1/5000-ni təşkil edən ağır su ($D_2O$) vardır. Yer kürəsində iqlim və havanın formalaşmasında Okean əsas rol oynayır.

Okeanda canlı orqanizmlər – resurs potensialı daha geniş yayılmışdır. Dəniz florası və faunası çox zəngindir. Bitki aləmi 10 mindən çox, heyvanat aləmi 160 minə çatır, 16 min növ balıq vardır.

Okean böyük bioloji ehtiyatlar mənbəyidir. Dünyada işlədilən heyvan mənşəli zülalların 12-15 faizini və heyvan piyinin 3-4 faizini verir. İldə təqribən 60 mln t balıq və dəniz heyvanı (balina, morj, suiti və s.) ovlanır.

Dünya okeanı nəhəng resurs mənbəyinə malik olmaqla bərabər ölkələrarası nəqliyyat-iqtisadi əlaqələrdə böyük rol oynayır. Onun Hərbi Dəniz Donanması (Dəniz aviasiyası), dəniz nəqliyyatı,dəniz florası və faunası sahələri vardır.

Gəmilərlə yük və sərnişin daşınmasını həyata keçirən nəqliyyat növünə dəniz nəqliyyatı deyilir. Dəniz nəqliyyatı beynəlxalq və daxili daşımalarda geniş tətbiq olunur.

Dünya yük dövriyyəsinin təqribən 4/5-ü okean yolları – dəniz nəqliyyatı ilə həyata keçirilir. Dünya ölkələri iqtisadiyyatının müxtəlif sahələrində okeandan istifadə problemləri

(gəmiçilik, neft, qaz, digər ehtiyatlardan səmərəli istifadə, dəniz ekologiyası və s.) qlobal xarakter olmaqla mühüm iqtisadi, siyasi, hərbi və hüquqi məsələlərin həlli ilə bağlıdır.

Dünya okeanından istifadə sahəsində əsas yeri dəniz nəqliyyatı tutur. Dəniz nəqliyyatının əsas vasitələrinə müxtəlif təyinatlı gəmilər, tankerlər, qayıqlar və s. daxildir. Bunlar yük və sərnişin daşınmasını həyata keçirən əsas nəqliyyat növləridir.

Gəmi yük və sərnişin daşımaq, təsərrüfat, elmi-tədqiqat, ov, idman, turizm, faydalı qazıntı hasilatı, habelə hərbi məqsədlər üçün quraşqırılmış üzən qurğudur. Qədim tarixi vardır, ilk iqtisadi nəqliyyat vasitəsidir. Təyinatına görə nəqliyyat, ov, sənaye – təsərrüfat, hərbi, elmi-tədqiqat, xidmət və s. məqsədli gəmi növləri vardır. Gəmilər üzmə sahələrinə, hərəkətverici qüvvəyə, üzmə səviyyəsinə, yükqaldırma qabiliyyətinə, tutumuna və s. əlamətlərə görə qruplara ayrılır.

Tanker (sistern, çən, tutum) – rezervuarlarında maye, yarımmaye və səpələnən yüklər (neft, benzin, sipirt, sürtkü və qida yağları, şərab, maye qaz, yeyinti məhsulları və s.) daşıyan iri gəmilərdir. Bunlara yük qapalı boru kəməri ilə doldurulur və nasoslarla boşaldılır. Tankerin yükgötürmə qabiliyyəti 500 min t-a qədər, subasımı isə 590 min t-a qədər olur.

Yük gəmilərinə konteyner, treyler gəmiləri, lixterevoz və s. daxildir. Həmçinin, yük-sərnişin, turist, texniki təyinatlı və s. gəmilərdən istifadə edilir. Yük gəmiləri quruluşuna, texniki göstəricilərinə, yüksaxlama rejminə, funksiyalarına və s. əlamətlərinə görə də qruplaşdırılır.

Gəmi digər mənalarda da işlədilir. Çoxyerli uçuş aparatlarına (təyyarə, helikopter, dirijabl) hava gəmisi, adamların kosmosa uçuşunu təmin edən kosmik uçuş aparatlarına isə kosmik gəmi deyilir.

Azərbaycanda XIX əsrin II yarısından başlayaraq neft sənayesinin sürətli inkişafı neft və ondan alınan məhsulları istehlak yerlərinə çatdırmaq üçün dəniz nəqliyyatını inkişaf etdirmək zərurəti yaratmış və Bakının port kimi əhəmiyyəti artmışdır. 1861-ci ildə Rusiyanın bütün su magistrallarında üzən sərnişin, yük və yedək gəmilərinin 72,5 faizi (296-sı) Xəzərdə işləyirdi. Dünyada ilk neft tankerinin "Zoroastr"-ın ("Zərdüşt", 1877) yaradılması və sonra bu tipli digər tankerlərin inşası, həmçinin, dünyada ilk "Vandal" teploxodunun (1903) Xəzərdə üzməsi ilə dəniz neftdaşıma nəqliyyatının inkişafında yeni mərhələ başlandı. Bakı portundan 40 ölkənin müxtəlif gəmiləri yük daşıyırdı. 1900-cu ildə Bakı limanı quru yük, neft məhsulları və sərnişin daşımalarına görə dünyada 1-ci yeri tuturdu. Hələ 1908-ci ildən Xəzərdə tutmu 6 min t olan dəniz tankerləri işləməyə başlamışdır.

Dünya okeanının beynəlxalq – hüquqi rejminin tənzimlənməsi sahəsində aşağıdakı beynəlxalq təşkilatlar fəaliyyət göstərir:

1) Dənizçilik sahəsində hökumətlərarası təşkilat – Beynəlxalq Dəniz Təşkilatı (BDT);
2) YUNESKO-nun okeanoqrafiya komissiyası;
3) BMT-nin milli yuridiksiyaya aid edilən sərhədlərdən kənardakı Okean və dənizlərin dibindən dinc məqsədlərlə istifadə Komitəsi;
4) BMT-nin dəniz hüququ Komitəsi və s.

1981-ci il mayın 2-də Dəniz hüququ üzrə beynəlxalq Konvensiya qəbul edilmişdir. 150-yə qədər dövlət bu konvensiyanı imzalamışdır. Dünya okeanının bütün fəaliyyət sahələrini tənzimləyən ilk və əsas sənəddir.

BDT mütəmadi olaraq dünyanın müxtəlif ölkələrində dəniz hüququna həsr edilmiş konfranslarını keçirir, dövlətlərin müraciətlərinə baxılır, əsas müddəalar, proqramlar və konsepsiyalar qəbul edilir.

Dəniz hüququ ilə ticarət və hərbi dənizçiliyin, balıqçılğın və dəniz ovçuluğunun həyata keçirilməsi, dənizlərin bioloji və mineral ehtiyatlarının hasilatı, elmi-tədiqatlar aparılması zamanı əmələ gələn münasibətlərin hüquqi normaları müəyyən edilir.

Dəniz hüququnun 3 əsas sahəsi mövcuddur: Milli, Beynəlxalq ümumi və Beynəlxalq xüsusi Dənizçilik hüququ.

Milli Dənizçilik hüququ ticarət, hərbi və elmi dənizçilik, balıqçılıq və dəniz ovçuluğu, dənizin mineral və s. ehtiyatlarının hasilatı məsələlərini tənzimləyir, müxtəlif dəniz akvatoriyalarının, milli suverenitetdə olan daxili və ərazi sularının, yanaşı zonların, onların dibinin və kontinental şelfin (dayazlığının) rejimini müəyyən edir. Dəniz hüququnun prinsipləri Ticarət Gəmiçiliyi Məcəlləsində, dövlət və hökumətlərin qəbul etdiyi normativ aktlarda, hökumətlərarası beynəlxalq sazişlərdə təsbit edilir.

Dənizin, gölün və çayın sahilində yerləşən, dalğalardan təbii və süni formada müdafiə olunan, gəmilərin dayandığı, xidmət göstərildiyi, yükləmə - boşaltma əməliyyatları aparıldığı, xüsusi texniki qurğularla təmin edilmiş su-quru ərazisinə liman (buxta, pristan, qavan) deyilir. Limanlar – dəniz, xidmətedici və çay limanlarına bölünür. Dəniz limanlarının əsas elementlərinə akvatoriya (su hissəsi) və ərazi (sahil hissəsi) hissələri daxildir.

Limanların əsas nəqliyyat-iqtisadi göstəriciləri aşağıdakılardır:

1) Limanın yük dövriyyəsi;
2) Limanın gəmi dövriyyəsi;
3) Limanın yükburaxma qabiliyyəti.

Yük dövriyyəsinə - il ərzində hər iki istiqamətdə limandan keçən yüklərin miqdarı(t-la) daxil edilir. Limanın yükburaxma qabiliyyətinə - il ərzində hər iki istiqamətdə limana daxil olduqdan sonra xüsusi rejimlərdə saxlanılan, emal edilən və buraxılan yüklərin miqdarı (t-la və s.) daxil edilir.

Dəniz limanları mülki və hərbi limanlara bölünür.

Mülki limanlara yük, ticarət, balıqçılıq və s. limanlar daxildir. Digər cəhətdən limanlar ümumi və ixtisaslaşdırılmış limanlara bölünür. Ümumi limanlara, əsasən, beynəlxalq ticarət limanları daxildir (Sankt-Peterburq, Vladivostok, London, Marsel, Nyu-York və s.). İxtisaslaşmış limanlar özləri dörd qrupa bölünür:

1) Kömür limanı (Kardif limanı);
2) Meşə materialları limanı (Arxangelsk);
3) Neft limanı (Abadan, Ceyhan);
4) Sərnişin limanı (Yalta, Soçi, Kalk limanı – Fransa) və s.

Sərnişin limanlarında yük əməliyyatları ikincidərəcəli əhəmiyyət kəsb edir. Dəniz limanlarının xüsusi növü dəniz stansiyasıdır. Burada gəmilər yanacaqla, su ilə və ərzaqla təchiz edilir.

Balıqçılıq limanları spesifik xarakter daşıyır. Burada həmçinin balıqçılıq zavodları və sexləri fəaliyyət göstərir.

Dəniz limanlarında nəqliyyatın əsas növləri – dəmiryolu, avtomobil, su və boru kəməri nəqliyyatı qovuşur və yüklər birindən digərinə ötürülür.

Nəqliyyat əhəmiyyətinə görə limanlar – dünya, beynəlxalq və yerli limanlara ayrılır.

Dünya limanaları (dünya ticarət mərkəzlərində) okeandan materikə gələn güclü yük axınlarını qəbul edir və əks tərəfə göndərir. Beynəlxalq limanlar ölkələrarası yük axınlarını, yerli limanlar isə ölkədaxili limanlar arasında sərnişin və yük axınlarını (kiçik gəmilərlə) qəbul edir və göndərir.

Dünyanın nəhəng limanları – Rotterdam, London, Nyu-York, Sankt-Peterburq, Arxangelsk, Hamburq, Odessa, İstanbul, Pirey və s. limanlardır.

Çay limanları iri çayların dənizlərə çıxan nisbətən yaxın ərazilərində yerləşir. Əsasən sərnişin və ixtisaslaşmış liman kimi xüsusi yükdaşımaları məqsədilə yaradılır. Ən tanınmış çay (daxili) limanları – Xerson, Nikolayev, Mançester, Amsterdam, İliçovsk və s. limanlarıdır.

Geniş mənada liman coğrafi ərazilərin birləşdiyi yer və məkana deyilir. Bu baxımdan quru – su ərazisinin birləşdiyi yer dəniz (çay) limanı, quru – hava ərazisinin birləşdiyi yer hava limanı adlanır (Aeroportlar).

Dünya okeanından istifadə edilməsini zəruri edən amillər aşağdakılardır:

1) Dünya okeanında mövcud olan təbii-bioloji sərvətlərdən istifadə edilməsi (balıq, balina, bitkilər və s.);

2) Quru ərazilərdə olmayan, yalnız dəniz və okeanlarda mövcud olan dəniz heyvanlarından istifadənin zəruriliyi;

3) XXI əsrin proqnozlaşdırılan ən böyük problemlərindən biri olan təmiz və içməli suya olan tələbatın dəniz suyunun təmizlənilməsi yolu il ödənilməsi;

4) Dünyada ən ucuz nəqliyyat növü hesab edilən dəniz nəqliyyatının inkişaf etdirilməsi və dəniz daşımalarının artırılması;

5) Okean sularının qabarmasından və çəkilməsindən elektirik enerjisinin istehsalı məqsədilə istifadə edilməsi;

6) Təbiətdə bütün digər təbiət sahələrindən daha çox oksigen verən dünya okeanının oksigen potensialından səmərəli istifadə edilməsi;

7) Sənayenin və səhiyyənin müxtəlif sahələrində istifadəsi böyük iqtisadi əhəmiyyət kəsb edən yodun alınmasında dünya okeanının təbii resurslarından istifadə edilməsi;

8) Hərbi heyətin və mülki əhalinin qida rasionunda vacib olan okean balıq konservlərinin istehsalının artırılması və genişləndirilməsi;

9) Qida və kimya sənayesində çox böyük tələbat olan duzun hasil edilməsi üçün okean və dənizlərin şor suyundan istifadə edilməsi və s.

Dünya okeanından istifadə edilməsinin əsas problemləri aşağdakılar hesab edilir:

1) Ərazi sularının dünya ölkələrinə mənsubiyyəti sahəsində olan mübahisə və münaqişələr;

2) Dəniz quldurluğunun və bu sahədəki cinayətkarlığın artması;

3) Müxtəlif okeanlara daxil olan dənizlərin bəzilərinin dərinlik səviyyəsinə görə onlardan istifadənin çətinliyi və qeyri-mümkünlüyü;

4) Okeanlardan hasil edilən məhsulların emalının qeyri-mümkünlüyü və ya baha başa gəlməsi;

5) Okean və ya dənizlərdə baş verən zəlzələlərdən əmələ gələn sunamilərdən insan və əmlak resurslarının mühafizə edilməsi;

6) Okean və dənizlərdə üzən çoxtonnajlı neft tangerlərinin batması nəticəsində okean florası və faunasının məhv olması;

7) Gəmilərin batması nəticəsində ekoloji fəlakətlərin baş verməsi zamanı böyük maddi və ekeoloji itkilərin əmələ gəlməsi;

8) Dünya neft hasilatında birinci yeri tutan dənizdən neft çıxarılmasında neft və qazın texniki sızmalarına görə okean və dənizlərin çirklənməsi zamanı flora və faunanın qorunması;

9) Dənizlərin dibinin və səthinin bölünməsi zamanı dünya ölkələrinin mövqe müxtəlifliyi və bunun iqtisadi layihələrin reallaşdırılmasına təsiri;

10) Okean və dənizlərin su səthinin qabarmasına görə böyük quru ərazilərinin və əmlakın itirilməsi və məhv olmasının qarşısının alınması və s.

## 10. DÜNYANIN QLOBAL EKOLOJİ PROBLEMLƏRİ

Ekoloji problem çoxəsirlik problem olsa da, XIX əsrin ikinci yarısından sənayeləşmə prosesi ilə əlaqədar olaraq planetdə çox kəskinləşmə başlamışdır.

Təbiət və cəmiyyət vahid bir tam olmaqla biri digərinə birbaşa təsir edir. Təbiət cəmiyyətə xidmət edirsə, cəmiyyət də təbiətə xidmət etməli və onu qoruyub saxlamalıdır.

Təbiət canlı orqanizm olduğu üçün milli sərhədlərdən kənara çıxır, transmilli xarakter alır və ətraf mühitin mühafizəsinin beynəlxalq tənzimlənilməsi zərurətini yaradır.

Təbiətdən səmərəli istifadəetmə və ətraf mühitin mühafizəsi hər bir dövlətin iqtisadi siyasətinin mühüm tərkib hissəsidir. Ətraf mühitin çirklənməsi nəticəsində hər il dünya ölkələrinin ÜDM-i 0,7-5 faiz aşağı düşür. Avropa ölkələrində təsərrüfat fəaliyyətinin düzgün aparılmamasına görə ətraf mühitə dəyən zərər ÜDM-in 3-5 faizi qədər qiymətləndirilir. Dünya ölkələri bir-birilə hava, su və yeraltı sərhədlərə malikdir. Bu sərhədlər arasındakı təbiət hadisələri bir-birilə üzvi bağlıdır, daim bir-birinə qarışır və ümumi problemə çevrilir.

Son 100 ildə planetin becərilən torpaqlarının 25 faizi bə meşə sahəsinin 67 faizə qədəri məhv olmuşdur. Dünyada hər on il ərzində məhsuldar torpaqların 7 faizi istifadədən çıxır.

XX əsrin 50-60-cı illərində ekoloji problem böhran vəziyyətə çatmışdır. Dünya ekoloji ekspertlərinin verdiyi məlumata görə hər dəqiqə ərzində planetin meşə sahəsinin yarım hektarı, hər iki il ərzində bütün Finlandiya ərzisi qədər azalır. Əgər bu proses belə davam edərsə, əkinə yararlı torpaq sahəsi 50 ildən, meşə sahəsi isə 5-10 ildən sonra qalmayacaqdır.

Bütün qlobal iqtisadi problemlər kimi ekoloji problem də planetar xarakter kəsb edib, insanların həyatının bütün sahələrinə təsir göstərir və həlli üçün bütün dünya ölkələrinin kollektiv birləşməsini zəruri edir. Ekoloji problem bütün ölkələrdə və qitələrdə ildən-ilə daha da kəskinləşir, milli səviyyədən beynəlxalq səviyyəyə keçir, ekoloji böhranlara və "partlayışlara" gəlib çatır.

Ekologiya eko sferanın bütün qatlarını əhatə edir. Ekosferaya yerin təki, üz qabığı, atmosfer və onun bütün sahələri daxil edilir.

Dünyada ekoloji problemin kəskinləşməsinin əsas səbəbləri aşağıdakılardır:

1) Kimyəvi gübrələrdən həddən artıq istifadə edilməsi nəticəsində istifadəyə yararlı torpaq sahələrinin sıradan çıxması;

2) Torpaqların şoranlaşması nəticəsində əkinə yararlı torpaqların azalması;

3) Suyun çirklənməsi nəticəsində içməli su ehtiyatlarının azalması;

4) Sənaye və məişət tullantlarından səmərəli istifadə edilməməsi;

5) Sənaye tullantılarının təhlükəsiz yerdə basdırılmaması (radiasiyanın artması);

6) Məişət tullantılarının vaxtında məhv edilməməsi;

7) Atmosferə tüstü buraxılması;

8) Kanalizasiya sistemlərinin düzgün çəkilməməsi;

9) Radioloji stansiyaların düzgün yerləşdirilməməsi;

10) Okean və dənizlərdə yük gəmilərinin (neft tankerlərinin) batması;

11) Tufan və daşqınların baş verməsi;

12) Silahların yeraltı sınaqlarının aparılması;

13) Flora və fauna xəstəliklərinə qarşı tədbirlərin görülməməsi;

14) Sənaye müəssisələrinin düzgün yerləşdirilməməsi;

15) Silahlardan istifadə edilməsi və s.

Təbiətdən istifadə və ətraf mühitin mühafizə edilməsi məqsədilə aşağıdakı beynəlxalq tənzimləmə tədbirləri görülür:

1) Ətraf mühitin çirklənməsinin normaları müəyyən edilir və limitləşdirilir;

2) Ətraf mühitin çirklənməsi prinsipləri və məsafələri müəyyən edilir;

3) Texnologiyaların ekoloji təmizlik dərəcələri müəyyənləşdirilir;

4) Ekoloji "işğalçılar" müəyyən edilir və onlara iqtisadi sanksiyalar tətbiq edilir;

5) Tullantılardan istifadə rejimləri aydınlaşdırılır;

6) Bir çox ölkələrdə ətraf mühitin mühafizəsinin kompleks proqramları qəbul edilir və onlara nəzarət olunur;

7) Ətraf mühitə nəzarət və vəziyyətin qiymətləndirilməsi məqsədilə monitorinqlər aparılır;

8) Ətraf mühitin mühafizəsinin idarə edilməsinin operativ sistemi tətbiq edilir (Ətraf mühitə vurulan ziyana görə cərimə ödəmə, tullantıların ödənişli normaları, tullantı atılmaya görə vergilər və s.);

9) Ekoloji reqlamentasiya apanlması (heyvanları, balıqları, quşları ovlama və tutma vaxtı və həddi; ağacları kəsmə və meyvələri, otları yığma vaxtı və həddi; təbiət nemətlərinin yığılmasının ekoloji normaları və s.);

10) Ekoloji nəzarət aparılması (ekoloji polislər və s.);

11) "Ekoloji təmiz məhsul" beynəlxalq müsabiqələrinin keçirilməsi;

12) Üçüncü (yoxsul) ölkələrdə kasıblığın aradan qaldırılmasına yönəldilən tədbirlər (məcburiyyətdən təbiəti məhvetmə və s.).

Bütün bu beynəlxalq tənzimlənmə tədbirlərinin görülməsi üçün dünya ölkələri arasında beynəlxalq əməkdaşlığın yaradılması və qarşılıqlı əlaqələndirilməsi lazım gəlir.

Müasir dövrdə heç bir ölkə təklikdə ekoloji-iqtisadi problemləri həll edə bilməz. Ekoloji təhlükələrin həlli üçün hazırlanan və yerinə yetirilən iqtisadi tədbir və proqramların icra kompleksi ekoloji-iqtisadi problem adlanır. Ekoloji problemin baş səbəbkarı əgər bir dövlətdirsə (hüquqi şəxslər və s.), onun qurbanları isə ətraf dövlətlər və son nəticədə bütün planetdir. 1984-cü ildə yaradılmış Amerika "Dünya durumu" institutunun məlumatına görə təbii mühitə və planetin resurslarına ağır yükü 8 ölkə - ABŞ, Yaponiya, Almaniya, Rusiya, Çin, Hindistan, İndoneziya və Braziliya qoyur. Bu 8-likdə dünya əhalisinin 56 faizi yaşayır, bütün meşə sahəsinin 53 faizi yerləşir, dünya ÜDM-nin 59 faizi istehsal edilirsə, atmosferə zəhərli tullantılarının 58 faizi də bu ölkələrin payına düşür (ABS-23%, Çin - 13%, Rusiya - 7%).

Ekoloji problemlərin həlli külli miqdarda maliyyə vəsaiti tələb edir. Bu vəsaitin toplanılması və istifadəsi dünya ölkələri üzrə müxtəlif iqtisadi qurumlar və beynəlxalq təşkilatlar tərəfindən aparılır. Bunlar da ekologiyanı beynəlxalq əməkdaşlıq meydanına çevirir. Bu sahədə əməkdaşlığa XX əsrin 60-70-ci illərindən başlanmışdır. Hazırda qlobal miqyasda bir çox nüfuzlu ekoloji-iqtisadi və sosial-demoqrafik mərkəzlər fəaliyyət göstərir. 1968-ci ildən insanlığın gələcəyi haqqında ilk həyəcan təbili çalan Arnoldo Perlu tərəfəindən yaradılan Roma klubu fəaliyyət göstərir. 1970-ci idlə ABŞ prezidenti R.Nikson "Dünya günü" beynəlxalq aksiyasını keçirməklə, yeni eranın – insanlığın ekoloji düşüncə dövrünə keçildiyinin tarixi əsasını qoydu. İki il ərzində bütün İnkişaf Etmiş Ölkələr bu hərəkata fəal qoşuldurlar. 1972-ci ildə Stokholm konfransında "Stokholm fəaliyyət planı" rəsmi olaraq qəbul edildi. Bu planda beynəlxalq səviyyədə ekoloji hüquq normaları, qaydaları, hökumət dairələri və beynəlxalq ictimaiyyətin vəzifə və funkisyalaraı nəzərdə tutulmuşdur.

Beynəlxalq ekoloji hüququn əsas vəzifə və prinsiplərinin hazırlanması və əlaqələndirilməsi məqsədilə aşağıdakı beynəlxalq əməkdaşlıq qurumları yaradılmışdır:

1) BMT-nin ətraf mühit proqramı(UNEP);
2) Ətraf mühitin mühafizəsi üzrə Avropa agentliyi;
3) BMT-nin ətraf mühit və inkişaf konfransı (KOONOSR);
4) Ətraf mühitin qorunması üzrə çoxsaylı müstəqil qeyri-hökumət təşkilatları və hərəkatları (partiyalar, hərəkatlar, cəmiyyətlər və s.).

Ekoloji inteqrasiya sahəsində konkret proqram və lahiyələrin hazırlanması və yerinə yetirilməsi sahəsində əsas rolu qeyri-hökumət təşkilatları oynayır. Onlar bu sahədəki ölkədaxili və xarici zəruri problemlərlə daim məşğul olurlar. Məsələn, QRİNPİS.

XX əsrin 90-cı illərinin əvvəllərindən başlayarq Avropa ölkələrinin (Avstriya, Böyük Britaniya, Norveç və s.) sosial-demokrat partiyalarının proqramına ekoloji siyasətin daxil edilməsi bu problemlərin həllinə güclü təkan vermişdir.

Müntəzəm olaraq BMT, UNEP, Aİ, ÜTT və digər beynəlxalq təşkilatlar tərəfindən ekoloji problemlərin həllinə dair simpoziumlar, konfranslar, tədqiqatlar keçirilir və problematik məsələlər həll edilir. UNEP-in "Ekotexnika" beynəlxalq inistitutu bu sahədə fəal

iş aparır. Beynəlxalq və regional maliyyə təşkilatları, TMK-lar, hökumət orqanları, müxtəlif səviyyəli firmalar və fiziki şəxslər bu problemlərin həllini maliyyələşdirirlər.

Dünyanın qlobal ekoloji problemlərinin müzakirəsi və ekoloji məsələlərin həll edilməsi məqsədilə BMT-nin təşkil etdiyi dövlət və hökumət başçılarının sammiti keçirilir. Bu sahədə BMT-nin 1997-ci ildə qəbul etdiyi iqlim dəyişikliklərinə dair Kioto protokolunun müstəsna əhəmiyyəti olmuşdur. Hazırda dünyada baş verən ekoloji problemlərə diqqətin daha da artırılması zərurəti yarandığı üçün Kioto protokolunu əvəz edə biləcək yeni bir beynəlxalq razılaşmanın (protokolun) işlənib hazırlanması və qəbul edilməsinə böyük ehtiyac vardır.

Hazırda dünyada Transmilli Şirkətlərin ekoloji hesabatına başlanılmışdır. İlk ekoloji hesabat 1990-cı ildə nəşr edilmişdir. İki ildən sonra BMT-nin Ətraf Mühit və İnkişaf Konfransı (KOONOSR) "Gündəlikdə XXI əsr" müraciətini qəbul etmiş və bütün dünya kompaniyalarına və müəssisələrinə "Təbiətin mühafizəsi fəaliyyəti, enerji və təbii resurslardan istifadənin nəticələri haqqında hesabat" vermələrini təklif etmişdir. O vaxtdan hər il nəhəng firmaların – TMK-ların maliyyə hesabatları kimi, ekoloji hesabatları da müvafiq hökumət orqanlarına təqdim edilir. Bu hesabata "yaşıl" uçot da deyilir.

Ekoloji hesabat mövcud vəziyyəti qiymətləndirmək, təhlil etmək, ictimaiyyətə zəruri informasiyaları çatdırmaq, ekoloji xərclərin səviyyəsini müəyyən etmək, rayonun radioaktivlik dərəcəsini öyrənmək, firmanın əhali arasındakı imicini qorumaq və s. məqsədlərlə hazırlanır.

Kompaniyaların ekoloji hesabatları beş səviyyədə hazırlanır. Hər bir səviyyə firmanın ekoloji vəziyyətinin səviyyəsini müəyyən edir.

TMK-ların (kompaniyanın) ekoloji hesabatı strukturunun birinci bölməsi giriş hissə adlanır.

Giriş hissədə obyektin ünvanı, kompaniyanın ətraf mühit siyasəti, kompaniyanın ekoloji məqsədi (orta və uzunmüddətli) verilir.

İkinci bölmə - obyektin təsvir edilməsidir. Bu bölmədə əsas təşkilati vahidlər, məhsulun əsas nomenklaturu, obvektin iş şəraiti, ekoloji situasiya (vəziyyət), hüquqi-normativ tələblər (lisenziya, tullantı normaları və s.), nəzarət orqanları (milli, yerli və s.) verilir.

Üçüncü bölmə - təbiətdən istifadənin səmərəli təşkili adlanır. Bu bölmədə struktura (insan resurları və təşkilati aspektlər), proqram və məqsədlər, ətraf mühitin mühafizəsi metodikası (sutəmizləmə, tullantıların yandırılması və s.), kompleks yanaşma (yeni texnologiya), metodlar - sistemlər (manitorinq, hesablama, qiymətləndirmə), fövqəladə hallarda fəaliyyət planı şərh edilir.

Dördüncü bölmə müqayisə məlumatları (keçən dövrlərlə müqayisədə) adlanır. Bu bölmədə atılma məlumatları, səciyyəvi məlumatlar (səs-küy, iy və s.), sanitar- gigenik şərait məlumatları, istehsalat təhlükəsizliyi məlumatları, şikayətlər, mühafizə xərcləri göstərilir.

Beşinci bölmə - rabitə bölməsi adlanır. Bu bölmədə əhalinin yerli orqanlarla münasibətləri, "Açıq qapı" günləri və s. verilir.

Firmaların ekoloji hesabatlarının sonunda ümumi təhlükə və pozuntular, əlaqə vasitələri verilir.

Beynəlxalq səviyyədə ekoloji siyasət dövlətlərin ekoloji təhlükəsizlik, ekoloji norma, qayda və standartların müəyyən edilməsi və onlara riayət edilməsinə yönəldilmiş fəaliyyətlərinin əlaqələndirilməsidir. BMT çərçivəsində bu fəaliyyətin əsas proqramları hazırlanır və yerinə yetirilir.

Ekoloji problemlərin həlli dünya ölkələrinin birgə fəaliyyətini və inteqrasiyasını tələb edir. İnteqrasiya ekoloji fəaliyyətin konkret sahələrindən asılı olaraq Ümumdünya Ərzaq və Kənd Təsərrüfat Təşkilatı (FAO), Ümumdünya Səhiyyə Təşkilatı, UNEP və digər beynəlxalq təşkilatlar tərəfindən tənzimlənir.

Dünya ölkələrinin ekoloji inteqrasiyanın qəbul edilmiş əsas prinsipləri aşağıdakılardır:

1) Ekoloji sistem sərhədlərə malik deyil;

2) Biosfer potensial – dövlətin əsas varidatıdır;

3) Təsərrüfat fəaliyyəti həmişə ekoloji təhlükəsizliyə xidmət etməlidir;

4) İnsan varlığına səbəb olan ekoloji təhlükə onun özünə qarşı çevrilir və onu məhv edir;

5) Beynəlxalq ekoloji münasibətlər ekoloji inam və qarşılıqlı ekoloji yardım prinsipi əsasında qurulmalıdır;

6) Ekoloji təhlükənin gizlədilməsi insan xəstəliyinin gizlədilməsinə bərabər hesab edilir. Gizlədilən xəstəlik ölümə səbəb olur;

7) Ekoloji problemi həll etməkdən əvvəl onun əmələ gəlməsinə qarşı mübarizə aparılmalı və ona imkan verilməməlidir;

8) Ekoloji təhlükə "qığılcımdan alov törər" fiziki hadisəsi ilə eynidir. ilkin mərhələdə - ən aşağı səviyyədə onun qarşısı alınmalıdır.

Göstərilən əsas prinsiplərin daim nəzərə alınması, ekoloji proqramların qəbul edilməsində istifadə edilməsi, ekoloji təhlükəsizliyin təmin edilməsi, ekoloji münasibətlərin yaradılması ekoloji problemlərin həll edilməsi sahəsində zəruri vəzifələr kimi qarşıda durur.

# MÖVZU 6. DÜNYA İQTİSADİYYATINDA ƏHALİ, ƏMƏK BAZARI VƏ İŞÇİ QÜVVƏSİNİN BEYNƏLXALQ MİQRASİYASI

## SUALLAR

1. Dünya iqtisadiyyatında əhalinin yeri və rolu.
2. Dünyada əhalinin artımı və artım templəri.
3. Dünyada əhalinin yerləşməsi və əmək resursları.
4. Dünya iqtisadiyyatında əmək bazarı.
5. Dünyada işçi qüvvəsinin beynəlxalq miqrasiyası.
6. Dünya iqtisadiyyatında şəhərlərin yeri və rolu.
7. Dünya iqtisadiyyatının qlobal demoqrafik problemləri.

## Əsas ədəbiyyat


1. Lomakin V.K. Dünya iqtisadiyyatı. Bakı, 2015, Azərbaycan dilində, səh. 236-272 (pdf).
2. Ələkbərov Ə.H. və b. Beynəlxalq iqtisadi münasibətlər. Dərslik, Bakı, 2010, səh. 23-45, 123-157.
3. Qafarov Şamil. İctimai əmək bölgüsü və onun müasir sosial-iqtisadi problemləri, Bakı, 1999.
4. Mehbalıyev S., İsgəndərov R. Əmək bazarı və əhalinin sosial müdafiəsi, Bakı, 2002.
5. İƏİT məşğulluq hesabatı (OECD – Employment Outlook), illər üzrə.
6. BƏT-in (İLO) hesabatları, hər il.
7. World Urbanization Prospects. ECOSOS, hər il.
8. World Population  Prospects. ECOSOS, hər il.
9. İnsan inkişafı haqqında məruzə. Bütün dünya, hər il.
10. International Migration Report(hər il). United Nations. New – York, 2018.
11. Trends in International Migration. Annual Report 2018, OECD 2018. və s.
12. “Azərbaycan Respublikasının  Miqrasiya Məcəlləsi” 02 iyul 2013-cü il, 713-IV Q nömrəli Azərbaycan Respublikası qanunu  ilə təsdiq edilmişdir.  Və s. müvafiq qanunlar.
13. BƏT-in konvensiyaları və sazişləri (400-dən çox).


**MUZEYLƏR:**
1. Paris insan muzeyi – elmi-tədqiqat və elmi-dərketmə mərkəzi;
2. Buxarest antropologiya muzeyi  və s. muzeylər;
3. Dövlət ermitajı (Sank – Peterburq) və s.

## 1. DÜNYA İQTİSADİYYATINDA ƏHALİNİN YERİ VƏ ROLU

Dünyada insanların yaranması, təzahürü, formalaşmas, əhalinin yaşayış məskənləri, yerləşməsi, artımı, miqrasiyası haqqında ətraflı materiallar verən əsas təşkilatlar aşağıdakılardır:

**1. Beynəlxalq Əmək Təşkilatı (BƏT)** – International Labour Organization (ILO).

1919-cu ildə yaradılıb, 1946-cı ildən BMT-nin ixtisaslaşdırılmış təşkilatıdır. 190 üzvü vardır. Qərargah – mənzili Cenevrədədir. Əvvəlcə Beynəlxalq Əmək Bürosu adlanırdı.

**2. BMT-nin Əhali Fondu**  (United Nations Population Fund – UNFPA).

Qərargah – mənzili Nyu-Yorkda yerləşir. 1969-cu ildə yaradılıb.

**3. Beynəlxalq Miqrasiya Təşkilatı (BMiqT)** – International Migration Organization.

1919-cu ildə Qaçqınların İşi üzrə Beynəlxaq Təşkilat kimi yaradılıb, 1989-cu ildə BMiqT-ə çevrilib. 146 dövlət daxildir. Onların 124-ü daimi üzvlər, 22-si isə müşahidəçidir. Dünya ölkələrində 100-dən çox missiyası və 400-dən çox şöbəsi vardır. Qərargah – mənzili Cenevrədədir.

**4. BMT-nin Qaçqınların İşi üzrə Ali Komisarlığı.** 1951-ci ildə yaradılmışdır. 53 üzvü vardır. Qərargah – mənzili Cenevrədədir. Ölkələrdə nümayəndəlikləri fəaliyyət göstərir.

**5. BMT-nin İnkişaf Proqramı (United Nations Development Programme –** UNDP). 1965-ci ildə yaradılıb. 5 regional bürodan ibarətdir. Qərargah – mənzili Nyu-Yorkdadır. 6 rəsmi dili vardır – BMT-nin rəsmi dilləri.

**6. Beynəlxalq İşəgötürənlər Təşkilatı (International Organization of Employers).** Qərargah – mənzili Cenevrədədir. və s.

Dünyanda əhali problemləri ilə məşğul olan Hökumətlərarası Təşkilatlar (Məsələn, Avropa Şurası və s.) və QHT-lər fəaliyyət göstərir.

**İnsan (Human)** bəşəriyyətin ən möcüzəli varlığıdır.

Əhali – Yer kürəsində və dünyanın ayrı-ayrı hissələrində (qitə, ölkə, region, ölkələr qrupu – birliklər) daima yaşayan, dəyişən və yenilənən insan toplusudur.

Dünya təsərrüfat əlaqələri sisteminin son məqsədi əhaliyə – insanlara xidmət etmək və onların tələbatını ödəməkdir. Dünya təsərrüfat əlaqələrinin yaradıcısı, təşkilatçısı və qurucusu da insanlardır, əhalidir.

Avropada insan (dəqiq deyilsə, insan yox azxantrop) təqribən 2 mln il bundan əvvəl təzahür edib. Avropda tapılan ən ilkin əmək alətlərinin tarixi 2,3 mln ildir. Lakin Avropda sivilizasiya cəmi 3 min il bundan əvvəl başlamışdır[1].

İnsan sivilizasiyasının ilkin ocağı isti iqlimli, münbit torpaqlı çayların – qədim Mesopotamiyanın Dəclə və Fərat, qədim Misirin Nil, Cənub – Şərqi Asiyanın Qanq və s. çay vadiləri hesab edilir. Bu ərazilərdə 3000 il bundan əvvəl dünyanın ən qədim ilkin dövlətləri, Qədim Şərq dövlətləri yaranmışdır[2]. Bu da onu göstərir ki, ən qədim dünya dövlətlərinin yaranması tarixi 6000 ildən çoxdur. Misir firounlarının 4000 il bundan əvvəl mumyalanmış cəsədləri indi də Misir Ehramlarında saxlanılır.

Dünya ölkələrində əhalinin əsas göstəriciləri aşağdakılardır:

- Əhalinin sayı və onun artım dinamikası;
- Demoqrafik proseslərin intensivliyi: doğum, ölüm, təbii artım, kəbin;
- Yerləşmə, urbanizasiya, miqrasiya;
- Yaş – cins tərkibi və ailə göstəriciləri;
- Təhsil səviyyəsi;
- İrq, dil, etnos və din tərkibi;
- Ac adamların sayı, onların kəmiyyət və digər göstəriciləri və s.

Dünya iqtisadiyyatında və ölkələrin milli iqtisadiyyatında əhalinin rolu aşağıdakı göstəricilər ilə müəyyən edilir:

1. Hər bir ölkənin əhalisinin ümumdünya əhalisində xüsusi çəkisi faizlə;
2. Hər bir ölkədə adambaşına düşən ÜDM, ABŞ dolları ilə;
3. Hər bir ölkədə adambaşına düşən ümumi gəlir, ABŞ dolları ilə;
4. Hər bir ölkədə adambaşına düşən xarici borc, ABŞ dolları ilə;
5. Hər bir ölkədə adambaşına düşən qızıl-valyuta ehtiyatları, t (kq) və ABŞ dolları ilə;
6. Hər bir ölkədə işsizlərin sayı (məşğulluq);
7. Sektorlar üzrə işləyənlərin sayı;
8. Dövlət və xüsusi sektorlarda işləyənlərin sayı;

---

[1] М.В.Конотопов, С.И.Сметанин. История экономика зарубежных стран. Москва, “Кно Рлс”, 2010,стр.16.

[2] Yenə orada, səh. 40.

9. Əhalinin artım tempi;
10. Dünya ölkələrində əhalinin sosial strukturu;
11. Dünya ölkələrində əməkhaqqının səviyyəsi;
12. Dünya ölkələrində miqrasiyanın vəziyyəti və s.

Dünya ölkələrində əhalinin siyahıya alınmasına XVII əsrin 60-cı illərindən (Kanada – 1666, ABŞ – 1790, Fransa – 1801) başlanmışdır.

Azərbaycanda əhalinin ilk siyahıya alınması 1897-ci ildə aparılmışdır. 1926-cı ildən başlayaraq, demək olar ki, hər on ildən bir (onilliyin 9-cu ili, yəni 1959, 2019-cu illər) aparılır. Bütün ölkələr əhalinin illik sayı və siyahıya alınması haqqında məlumatları BMT-nin Əhali Fonduna (UNFPA) verirlər.

Dünya ölkələrinin iqtisadi və siyasi gücü onların əhali sayının çoxluğu ilə yox, əhalisinin elmi və intellektual səviyyəsi ilə ölçülür. Bu göstəricilərə uyğun olaraq ölkənin iqtisadi gücü, əhalinin həyat səviyyəsi, uzunömürlülüyü və dünyadakı mövqeyi də artır və yüksəlir.

Dünya iqtisadçıları ABŞ-ın sürətli inkişafını ölkədə məşğulluğun peşəkar – ixtisas strukturunda əqli(intellektual) əməyin böyük payı – üstün yerə malik olması ilə sübut edirlər. Həmin işçilər rəmzi olaraq “ağ varatniklilər” adlandırmaqla ümumi məşğul olanların 75 faizini təşkil edir. Bunun da səbəbi Amerika sənayesinə dünyanın bütün ölkələrindən yüksək texnoloji və elmtutumlu sahələrə (aerokosmik, elektron, telekommunikasiya, informasiya texnologiyaları, tibbi – bioloji, hərbi və s.) ən yüksək peşəkar mütəxəssislərin cəlb edilməsidir. Əgər XIX əsrin ortalarına qədər dünya iqtisadiyyatının lideri Qərbi Avropa dövlətləri idisə, ondan sonra bu liderlik ABŞ-a keçmişdir.

Niderland Riyaziyyat və İnformatika Mərkəzinin statistika üzrə mütəxəssisi Peter Qrunvaldın hesablamalarına görə 162 min il bundan əvvəl yaranan bütün bəşər (insanlıq) tarixindən indiyə qədər Yer kürəsində 107 mlrd-dan çox adam doğulmuşdur[1]. Hazırda planetdə yaşayanlar bu qədər doğulmuş adamın 7 faizni təşkil edir. Əhalisi 80 mln nəfərdən çox olan 20 ölkə vardır (2019). Bunlardan 8-i müsəlman, 3-ü isə müsəlmanların çox olduğu ölkələrdir.

**8 müsəlman ölkələri**

1. İndoneziya – 272 mln
2. Pakistan 216 mln
3. Nigeriya – 204 mln
4. Bangladeş – 170 mln
5. Filippin – 106 mln
6. Misir – 99 mln
7. İran – 83 mln
8. Türkiyə - 82 mln

**Müsəlman əhalisi çox olan qeyri-müsəlman 3 ölkə**

1. Hindistan – 200 mln
2. Efiopiya – 55 mln
3. Rusiya – 30 mln

[1] Сколко людей жило на земле за всю историю. Новые Известия. Дата обращения 22 января 2016.

Dünya rəmzi olaraq iki hissədən ibarətdir: əhali və resurslar. Əhali və resurslar Yer kürəsində tammailə fərqli yerləşib.

Planet əhalisinin 35 faizi iki dövlətdə: Çin XR və Hindistanda yaşayır. Əhali sıxlığı və əhali seyrəkliyi qitələr, dövlətlər və regionlar üzrə çox fərqlidir. Dünyanın bütün resursları dövlətlərə və onların əhalisinə xidmət edir. Onları birləşdirən, əlaqələndirən və bağlayan geniş təkraristehsal mərhələləridir. Onun üçün də resurslarla bərabər dünya əhalisi hərtərəfli öyrənilməli, sonra isə dünya iqtisadiyyatının sahə strukturunun öyrənilməsi zərurəti yaranır.

## 2. DÜNYA ƏHALİSİNİN ARTIMI VƏ ARTIM TEMPLƏRİ

Bəşər tarixində dünya əhalisinin sayı və yaşayış məskənləri daim dəyişmişdir. 10 000 il bundan əvvəl dünyada 5 mln, bizim eranın başlandığı vaxt 300 mln adam olmuşdur.

Dünya əhalisinin demoqrafiyası heç bir tarixi dövrdə sabit olmamış, hər zaman dəyişikliyə məruz qalmışdır. XX əsrdən əvvəlki dövrdə dünya əhalisinin sayı çox yavaş artırdı. Bunun səbəbi daha çox aramsız müharibələr, epidemiyalar, insanların həyat səviyyəsinin aşağı olması ilə əlaqədardır. 1900-cü ildə dünya əhalisi 1,6 mlrd, 1960-da 3 mlrd, 2000-də 6 mlrd olmuşdur. Demoqrafların hesablamalarına görə dünya əhalisi bu sürətlə artmaqda davam etsə, 2040-cı ildə dünyada 10 mlrd insan yaşayacaqdır.

Dünyada ən süratli təbii artım 1950-1970-ci illərində müşahidə olunmuşdur. Bu zaman təbii artım 1,8%-dən çox olmuşdur. Ən çox təbii artım 1963-cü ildə olmuşdur. Bu zaman dünyanın təbii artımı 2,2% təşkil edib. Müxtəlif vaxtlarda dünya əhalisinin təbii artımı da müxtəlif olmuşdur.

XX əsr dünya tarixində görünməmiş dərəcədə əhali artımı ilə səciyyələnir. BMT-nin verdiyi məlumata görə 1804-cü ildə dünyada 1,0 mlrd, 1927-ci ildə, yəni təxminən 100 ildən sonra 2,0 mlrd, 1960-cı ildə, yəni 33 il sonra 3,0 mlrd əhali olmuşdur. Mövcud mənbələrdə göstərilir ki, 1987-ci ildə dünya əhalisi orta hesabla 5,0 mlrd nəfərə çatmışdır. Məsələn, 1985-ci ildə orta hesabla illik artım 1,73% olduğu halda, 1960-cı illərdə əhalinin illik orta artımı ən yüksək dərəcədə olmuşdur (2,1%). Rəsmi məlumata görə, 1950-1985-ci illər arasındakı 35 illik müddətdə dünya əhalisi 2,5 mlrd-dan 4,8 mlrd-dək artmış, bu müddət ərzində planetimizin əhali sıxlığı hər kvadrat kilometr sahədə 17 nəfərdən 30 nəfərə çatmışdır. Eyni zamanda, 2002-ci ildə dünya əhalisi orta hesabla 6,1 mlrd, 2005-ci ildə isə təxminən 6,2 mlrd olmuş, XXI əsrin axırına kimi dünya əhalisinin 12-13 mlrd-a çatması və onun nisbətən stabilləşməsi gözlənilir. Əhali artımı, xüsusilə şəhərlərin böyüməsi ətraf mühitə daha çox təsir göstərir və ekoloji problemlərin yaranmasına səbəb olur. 1900-cu ildə şəhər əhalisi dünya əhalisinin 5%-ni təşkil edirdisə, 1987-ci ildə bu faiz 40-a çatmışdır. Hazırda isə bu 50%-dən çoxdur. Son illər bəzi ölkələrdə dünya əhalisinin 3%-i 5 mln-dan artıq əhalisi olan şəhərlərdə məskunlaşmışdır. BMT-nin verdiyi məlumata görə 1984-cü ildə dünyanın 34 şəhərində əhalinin sayı 5 mln-dan artıq olmuşdur. 2025-ci ilə belə şəhərlərin sayı 93 olacaqdır. Hazırda şəhər əhalisinin 65%-i əhalisi 1 mln-dan artıq olan şəhərlərdə yaşayır.

Dünyada əhalinin sayı və artımı haqqında bir çox beynəlxalq təşkilatlar hesabatlar verir. BMT-nin məlumatına əsasən qitələr və regionlar üzrə dünya əhalisinin 2050-ci ilə qədər artım templəri cədvəl 6.1-də verilmişdir.

Cədvəl 6.1-dən görünür ki, 2050-ci ilə qədər dünyada, Afrikada və Latın Amerikasında əhalinin daha da artması, Avropada isə azalacağı proqnozlaşdırılır (Dünya sabit davam edərsə).

**Cədvəl 6.1**

**BMT-nin məlumatına əsasən qitələr və regionlar üzrə dünya əhalisi (mln – faiz)**

| İl | Dünya | Asiya | Afrika | Avropa | Latın Amerikası | Şimali Amerika | Okeaniya |
|---|---|---|---|---|---|---|---|
| **2000** | 6,115 | 3,698-60 | 819-13 | 727-11 | 521-8 | 319-5 | 31-0,5 |
| **2005** | 6,512 | 3,937-60 | 921-14 | 729-11 | 557-8 | 335-5 | 34-0,5 |
| **2010** | 6,909 | 4,167-60 | 1,033-15 | 733-10 | 589-8 | 352-5 | 36-0,5 |
| **2015** | 7,302 | 4,391-60 | 1,153-15 | 734-10 | 618-8 | 368-5 | 38-0,5 |
| **2020** | 7,675 | 4,596-59 | 1,276-16 | 733-9 | 646-8 | 383-5 | 40-0,5 |
| **2025** | 8,012 | 4,773-59 | 1,400-17 | 729-9 | 670-8 | 398-5 | 43-0,5 |
| **2030** | 8,309 | 4,917-59 | 1,524-18 | 723-8 | 690-8 | 410-4 | 45-0,5 |
| **2035** | 8,571 | 5,032-58 | 1,647-19 | 716-8 | 706-8 | 421-4 | 46-0,5 |
| **2040** | 8,801 | 5,125-58 | 1,770-20 | 708-8 | 718-8 | 431-4 | 48-0,5 |
| **2045** | 8,996 | 5,193-57 | 1,887-21 | 700-7 | 726-8 | 440-4 | 50-0,6 |
| **2050** | 9,150 | 5,231-57 | 1.998-21 | 691-7 | 729-8 | 448-4 | 51-0,6 |

Dünyada əhalinin artımına təsir edən iki əsas amil vardır:

1. Təbii artım;
2. Mexaniki artım.

Təbii artım dedikdə doğulanların sayından ölənlərin sayı çıxılır və hər 100 nəfərə görə hesablanır. Əhalinin təbii artımında əsas sıçrayış XX əsrin 60-cı illərində olmuşdur – 2%-dən çox (hər 1000 nəfərə 20 nəfərdən çox). Sonralar bu göstərici 2-1,5% və ya hər 1000 nəfərə 20-15 nəfər arasında olmuşdur.

Demoqraflar təbii artıma görə ölkələri 2 tipə bölürlər:

1. Təbii artımın I tipi (müasir növ) – bu tipə aşağı ölüm, aşağı təbii artım aiddir. Bu tipə əsasən İEÖ-lər aiddir. Səbəb isə əhalinin sosial vəziyyətinin, tibbin, elmin, təhsilin səviyyəsinin yüksək olmasıdır. Hal hazırda bu ölkələrdə təbii artım olduqca aşağı səviyyədədir. Buraya Avropa ölkələri, Kanada, Yaponiya, Avstraliya aiddir.
2. Təbii artımın II tipi (ənənəvi növ) – təbii artımın ənənəvi növündə yüksək doğum, orta ölüm, yüksək artım müşahidə olunur. Bu tipə əsasən İEOÖ-lər aiddir. Buraya Afrika, Okeaniya, Asiya, Latın Amerikasını aid etmək olar. Burada təbii artım olduqca yüksəkdir. Dünya əhalisinin sayı, əsasən, bu ölkələrin hesabına artır.

Ümumiyyətlə artımın II tipində artımın yüksək olmasının əsas səbəbləri – təhsilin aşağı səviyyəsi, erkən yaşda evlənmə, ailənin planlanmaması, səhiyyənin vəziyyətinin pis olmasıdır. Bu tip ölkələrə “demoqrafik partlayış” xasdır. Misal olaraq Asiyada 1,4-2%, Latın Amerikasında 1,5-2,2%-dir. Təbii artımın I tipində artımın olduqca az olmasının səbəbləri urbanizasiya və müasir həyat tərzi, gec evlənmə, boşanma hallarının çoxalması, təhsilin, elmin, səhiyyənin yüksək səviyyədə olmasıdır. Bu tip ölkələrə isə “demoqrafik böhran” xasdır. Əhalinin müxtəlif səviyyədə təbii artımları bir çox hallarda ölkənin milli maraqlarına təhlükə yaradır.

Dünya, qitələr və bəzi regionlar üzrə əhalinin 1500-cü ildən 2150-ci ilə qədər olan son 650 illik artımı cədvəl 6.2-də verilmişdir. 6.2-ci cədvəldən görünür ki, 1500-cü ildə dünyada 458 mln nəfər əhali olmuşdur ki, onlar da əsasən Asiyada yaşamışdır. Bu dövrdə artım tempi ən çox Latın Amerikası və Karib Hövzəsi, Şimali Amerika və Avropada olmuşdur.

**Cədvəl 6.2**

**Dünya əhalisinin tarixi artımı[1]**
**(mln nəfər)**

| Region | 1500 | 1600 | 1700 | 1800 | 1900 | 1950 | 1999 | | 2008 | 2050 | 2150 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Dünya<br>Afrika<br>Asiya<br>Avropa | 458<br>86<br>243<br>84 | 580<br>114<br>339<br>111 | 682<br>106<br>436<br>125 | 978<br>107<br>635<br>203 | 1,650<br>133<br>947<br>408 | 2,521<br>221<br>1,402<br>547 | 5,978<br>767<br>3,634<br>729 | | 6,707<br>973<br>4,054<br>732 | 8,909<br>1,766<br>5,268<br>628 | 9,746<br>2,308<br>5,561<br>517 |
| L. Amerikası və Karib Hövzəsi | 9 | 10 | 10 | 24 | 74 | 167 | 511 | | 577 | 809 | 912 |
| Ş. Amerika<br>Okeaniya | 3<br>3 | 3<br>3 | 2<br>3 | -<br>2 | 82<br>6 | 172<br>13 | 307<br>30 | | 337<br>34 | 392<br>46 | 398<br>51 |

Dünya iqtisadiyyatının yeni dövrünün başlandığı zaman ölkələrin əhalisi az olmuşdur. XX əsrin əvvəlində - 1900-cü ildə bəzi dünya dövlətlərinin əhalisi cədvəl 6.3-də verilmişdir. Bu cədvəldən də görünür ki, son 120 il ərzində əhali nə qədər sürətlə artıb. Bu mənbədə 233 ölkə verilib, lakin bəzi ölkələrin adları dəyişdirilib.

**Cədvəl 6.3**

**1900-cü ildə dünya ölkələrinin əhalisi**
**(indiki sərhədlər daxilində)[1]**

| Sıra № | Ölkələr | Əhalisi |
|---|---|---|
| | Dünya | 1,6 mlrd nəfər |
| **3.** | Azərbaycan | 1,7 mln nəfər |
| **36.** | Vatikan | 300 nəfər |
| **71.** | Hindistan | 284 mln nəfər |
| **75.** | İran | 9 mln nəfər |
| **92.** | Çin | 400 mln nəfər |
| **151.** | Fələstin | 407 min nəfər |
| **162.** | Rusiya | 71 mln nəfər |
| **169.** | Səudiyyə Ərəbistanı | 1,5 mln nəfər |
| **185.** | ABŞ | 76 mln nəfər |
| **204.** | Türkiyə | 11 mln nəfər |
| **233.** | Yaponiya | 43 mln nəfər |

Dünya iqtisadiyyatında əhalinin artım tempi ölkələrin iqtisadi inkişafına təsir edən ikinci əsas amildir. Yer kürəsində əhalinin milyardlar üzrə artım tempi 6.4-cü cədvəldə verilib. Lakin nəzərə almaq lazımdır ki, milyardlıqların olması haqqında digər mənbələrdə bəzi fərqlər olsa da, cüzi olduğu üçün təsir etmir.

[1] http://population.un.org/ECOSOS
[1] World Population Prospects. ECOSOS

**Cədvəl 6.4**

**Yer kürəsində (planetində) əhalinin artım tempi[1]**

| Sıra № | Neçə mlrd nəfər | İl | Neçə ildən sonra |
|---|---|---|---|
| **1.** | 1 mlrd nəfər | 1804 | 304 il sonra |
| **2.** | 2 mlrd nəfər | 1927 | 123 il sonra |
| **3.** | 3 mlrd nəfər | 1960 | 33 il sonra |
| **4.** | 4 mlrd nəfər | 1974 | 14 il sonra |
| **5.** | 5 mlrd nəfər | 1987 | 13 il sonra |
| **6.** | 6 mlrd nəfər | 1999 | 12 il sonra |
| **7.** | 7 mlrd nəfər | 2011 | 12 il sonra |

Dünya əhalisinin 1-ci milyardı 1804-cü ildə olmuşdur. Son 50 ildə dünyada hər 12-13 ildən bir əhali 1 mlrd nəfər artır. Belə davam edərsə, 2111-ci ildə dünya əhalisinin sayı 2 dəfə artaraq 15 mlrd nəfərə çatacaqdır. Çoxsaylı beynəlxalq təşkilatlar qarşıdakı uzunmüddətli dövr üçün dünya ölkələrinin əhalisinin artımına dair proqnozlar verirlər. ECOSOS-un verdiyi proqnoz 6.5-ci cədvəldə verilmişdir.

**Cədvəl 6.5**

**ECOSOS-a görə bəzi dünya ölkələrində əhalinin artım proqnozu[2]**
**(mln nəfər)**

| Sıra № | Dünya(ölkə) | 2015 | 2020 | 2030 | 2050 | 2100 | |
|---|---|---|---|---|---|---|---|
| | Dünya | 7383 | 7701 | 8322 | 9300 | 11072 | |
| **1.** | Hindistan | 1309 | 1383 | 1512 | 1658 | 1516 | |
| **2.** | Çin | 1397 | 1424 | 1441 | 1364 | 1220 | |
| **3.** | Nigeriya | 181 | 206 | 264 | 410 | 793 | |
| **4.** | ABŞ | 319 | 331 | 354 | 389 | 447 | |
| **5.** | Konqo DR | 76 | 89 | 120 | 197 | 378 | |
| **28.** | Türkiyə | 78 | 83 | 88 | 95 | 85 | |
| **38.** | İran | 79 | 83 | 88 | 93 | 72 | |
| **100.** | Azərbaycan | 9 | 10 | 11 | 16 | 20 | |

ECOSOS-un bu proqnozunda 232 ölkə verilir. Amma nəzərə alınmalıdır ki, bu proqnoz sabit dünya düzəni - şəraiti üzrə verilir. Gələcəkdə nə baş verəcəyini heç kəs deyə bilməz.

Bəzən dünyanın əhalisi keyfiyyət göstəriciləri üzrə təhlil edilərkən 1 mlrd-lıq "Qızıl Dünya" ifadəsi də işlədilir.

## 1 mlrd-lıq "Qızıl Dünya"

1 mlrd-lıq "Qızıl Dünya" dedikdə dünya əhalisinin 12 faizini və ÜDM-nin 43 faizini (2006) təşkil edən G7 ölkələrinin – Ən İnkişaf Etmiş Ölkələrin 1 mlrd əhalisi nəzərdə tutulur. Amerikada – ABŞ və Kanada, Avropada – Böyük Britaniya, Fransa, Almaniya və İtaliya, Asiya da – Yaponiya bu 7-liyə daxildir. 1997-2014-cü illərdə Rusiya da bura müvəqqəti daxil olduğu üçün bəzən G8 qrupu da adlandırılır.

[1] i informatsiya.ru//mirovaya-statistika/823-rostnaseleniya-planety-zemlya.html
[2] World Population Prospects. ECOSOS, 2015

Bu yanaşma dünya ölkələrinin iqtisadi inkişafı və əhalinin həyat səviyyəsini nəzərdə tutur. Dünya ölkələri əhalisinin həyat səviyyələri kimi yerləşməsində, sıxlığında və əmək resurslarında da fərqlər çoxdur.

**İnsan İnkişafı İndeksi (III)**

Dünya ölkələrində əhalinin rifahını əks etdirən göstərici İİİ-dir. 1990-cı ildən BMT-nin İnkişaf Proqramı tərəfindən nəşr edilən "İnsan İnkişaf Hesabatı"ında verilir. Bu indeks əhalinin rifahını ÜDM-dən daha geniş şəkildə əks etdirir. İİİ insan inkişafının üç ölçüsünü özündə birləşdirir:

1. Uzun və sağlam ömür (orta ömür uzunluğu əsasında hesablanır);
2. Təhsil səviyyəsi (təhsil alanların say nisbəti əsasında hesablanır);
3. Layiqli yaşayış standartları (Alıcılıq Qabiliyyəti Pariteti –AQP gəlir əsasında hesablanır).

Ölkələr reytinq sistemi ilə 4 kateqoriyaya bölünür:

1. 1 – 10-cu yerlər – insan inkişafı çox yüksək olan ölkələr;
2. 11 – 63-cü yerlər – yüksək ölkələr;
3. 64 – 146-cı yerlər – orta ölkələr;
4. 146-dan sonrakı ölkələr – insan inkişafı aşağı olan ölkələr hesab edilir.

## 3. DÜNYADA ƏHALİNİN YERLƏŞMƏSİ VƏ ƏMƏK RESURSLARI

Dünyada insanların meydana gəlməsi, formalaşması haqqında teoloji və materialist nəzəriyyələr vardır. Dünya arxiologiya, etnoqrafiya, tarix, astronomiya və digər elmlərin verdiyi məlumatlara görə ilk insanlar Çində, Mesopotamiyada və ümumiyyətlə, Şərqdə olmuşdur. Avropda insan (arxantrop) təqribən 2 mln il bundan əvvəl yaranmışdır. Ondan sonrakı dövrlərdə digər ərazilərə hərəkət edərək məskunlaşmış, yerləşmiş və miqrasiya nəticəsində bütün dünyaya yayılmışdır. Dünyanın altı qitəsindən beşində əhali daim yaşayır, birində - Antarktidada isə daimi yaşayış yoxdur, elmi-tədqiqat stansiyalarında işləyən qütbçülər(polyarnik) yaşayır. Dünyanın qitə və regionları üzrə əhalinin yerləşməsi cədvəl 6.6-da verilmişdir.

**Cədvəl 6.6**

**Dünyanın qitə və regionları üzrə əhalinin yerləşməsi**

| Qitə-Materik | Sıxlıq (nəfər/km$^2$) | Əhali-mln nəfər (2018) | Əhalisi ən çox olan ölkə | Əhalisi ən çox olan şəhər |
|---|---|---|---|---|
| Asiya | 86,7 | 4,140 | Çin | Tokio |
| Afrika | 32,7 | 994 | Nigeriya | Qahirə |
| Avropa | 70 | 738 | Rusiya | Moskva |
| Ş. Amerika | 22,9 | 528 | ABŞ | Mexiko |
| C. Amerika | 21,4 | 385 | Braziliya | San-Paulo |
| Avstraliya və Okeaniya | 4,25 | 36 | Avstraliya | Sidney |

Cədvəl 6.6-dan görünür ki, dünyada əhalisi ən az olan qitə (materik) Avstraliyadır. Asiya və Avropda əhali sıxlığı yüksəkdir. Burada qitələrin ərazisi ilə dövlətlərin sayı, ərazisi və əhalisinin qarşılıqlı müqayisəli təhlili aparılmalıdır. Bütün dünya əhalisinin 1/3-dən çoxu – 35 faizi iki dövlətin Çin XR və Hindistanın ərazisində yaşayır. Bunların əhalisi bir-birinə yaxın olsalar da , Hindistanın ərazisi Çinin ərazisindən 3 dəfə kiçikdir.

Ərazisinə və əhalisinə görə dünyanın ən böyük on ölkəsi cədvəl 6.7-də verilmişdir.

**Cədvəl 6.7**

**Ərazisinə və əhalisinə görə dünyanın ən böyük ölkələri**[1]

| Ərzisinə görə | | | Əhalisinə görə | | |
|---|---|---|---|---|---|
| **Sıra №** | **Ölkələr** | **Sahəsi, mln $km^2$** | **Sıra №** | **Ölkələr** | **Əhalisi, mln nəfər** |
| **1.** | Rusiya | 17,1 | **1.** | Çin XR | 1410,5 |
| **2.** | Kanada | 9,9 | **2.** | Hindistan | 1268,9 |
| **3.** | Çin XR | 9,6 | **3.** | ABŞ | 322,7 |
| **4.** | ABŞ | 9,5 | **4.** | İndoneziya | 255,4 |
| **5.** | Braziliya | 8,6 | **5.** | Braziliya | 206,0 |
| **6.** | Avstraliya | 7,7 | **6.** | Pakistan | 196,1 |
| **7.** | Hindistan | 3,2 | **7.** | Nigeriya | 186,9 |
| **8.** | Argentina | 2,8 | **8.** | Banqladeş | 160,2 |
| **9.** | Qazaxıstan | 2,8 | **9.** | Rusiya | 146,5 |
| **10.** | Əlcəzair | 2,3 | **10.** | Yaponiya | 127,1 |

6.7-ci cədvəldən görünür ki, ərazisinə görə dünyanın ən böyük 10 dövlətindən 5-i Asiyada, 4-ü Amerikada, 1-i isə Avstraliya və Okeaniyadadır. Lakin əhalisinə görə dünyanın ən çox əhalisi olan 10 dövlətindən 7-si Asiyadadır. Əgər 1900-cü ildə Avropada dünya əhalisinin 20 faizi, 2000-ci ildə 10 faizi yaşayırdısa, 2100-cü ildə 4 faizi yaşayacaqdır. Hətta 2100-cü ildən digər planet olan **Marsda** milyonlarla insan yaşayacaqdır.

Dünyada əhalinin yerləşməsini dövlət və ərazilərdə yaşayan əhalinin sayı göstərir. ECOSOS dünyanın 245 dövlət və ərazisində olan əhalinin sayını hər il göstərir. 2019-cu ildə dünyanın bəzi ölkələrinin əhalisi 6.8-ci cədvəldə verilmişdir.

Dünya əhalisinin sayı 2019-cu ildə 7,7 mlrd nəfər olmuşdur. Cədvəl 6.8-dən görünür ki, bu dövrdə ən çox əhalisi olan ölkələr Çin XR, Hindistan və ABŞ olmuşdur. Artıq Hindistanın əhalisi Çin XR-ə yaxınlaşır. Birinci onluqda 4 müsəlman ölkəsi vardır.

6.8 və 6.9-cu cədvəllərdəki dünya ölkələrinin əhali sayını göstərən hesabatı hər il əlavə edilməklə təhlil edilməli, ümumiləşdirilməli və meyillər qiymətləndirilməlidir.

**Cədvəl 6.8**

**2019-cu ildə dünyanın bəzi ölkələrinin əhalisi**[1]

| Sıra № | Ölkə | Əhalinin sayı (mln nəfər) | Dünya əhalisində payı, faizlə | Sıra № | Ölkə | Əhalinin sayı (mln nəfər) | Dünya əhalisində payı, faizlə |
|---|---|---|---|---|---|---|---|
| **1.** | Çin XR | 1399 | 18,0 | **23.** | İtaliya | 60 | 0,7 |
| **2.** | Hindistan | 1367 | 17,6 | | | | |
| **3.** | ABŞ | 331 | 4,2 | | | | |
| **4.** | İndoneziya | 272 | 3,6 | **35.** | Ukranya | 42 | 0,5 |
| **5.** | Pakistan | 216 | 2,7 | **36.** | İraq | 39 | 0,5 |
| **6.** | Braziliya | 211 | 2,7 | **38.** | Əfqanıstan | 38 | 0,4 |
| **7.** | Nigeriya | 204 | 2,6 | **41.** | S.Ərəbistanı | 34 | 0,4 |
| **8.** | Banqladeş | 170 | 2,1 | **49.** | Yəmən | 29 | 0,3 |
| **9.** | Rusiya | 147 | 1,9 | **54.** | Avstraliya | 25 | 0,3 |
| **10.** | Meksika | 127 | 1,6 | **64.** | Qazaxıstan | 18 | 0,2 |
| | | | | **70.** | Suriya | 17 | 0,2 |
| **17.** | İran | 83 | 1,0 | **88.** | Azərbaycan | 10 | 0,1 |
| **18.** | Almaniya | 83 | 1,0 | **98.** | İsrail | 8 | 0,1 |
| **19.** | Türkiyə | 82 | 1,0 | **100.** | İsveçrə | 8 | 0,1 |
| **20.** | Fransa | 68 | 0,8 | **130.** | Gürcüstan | 3,7 | 0,04 |
| **21.** | B.Britaniya | 66 | 0,8 | **138.** | Ermənistan | 2,9 | 0,03 |

[1] https://geo.koltyrin.ru/samye_bolshie_strany_mira.php
[1] World Population Prospects. ECOSOS, 2020.

**Cədvəl 6.9**

**BMT-nin məlumatına görə 2020-ci ildə dünyada ən çox (100 mln-dan çox) əhalisi olan 14 ölkə**

| Sıra № | Ölkə | Milyon nəfər | Sıra № | Ölkə | Milyon nəfər |
|---|---|---|---|---|---|
| **1.** | Çin | 1439 | **8.** | Banqladeş | 165 |
| **2.** | Hindistan | 1380 | **9.** | Rusiya | 146 |
| **3.** | ABŞ | 331 | **10.** | Meksika | 129 |
| **4.** | İndoneziya | 274 | **11.** | Yaponiya | 127 |
| **5.** | Pakistan | 221 | **12.** | Efiopiya | 115 |
| **6.** | Braziliya | 213 | **13.** | Filippin | 110 |
| **7.** | Nigeriya | 206 | **14.** | Misir | 102 |

BMT-nin 2020-ci ildə dünyanın 234 ölkəsinin əhalisi haqqında verdiyi məlumata görə dünya əhalisinin sayı 7,8 mlrd nəfər olmuşdur. Əhalisi 1 mln-a qədər 76, 1 – 10 mln arası əhalisi olan 75, 10 – 50 mln arası əhalisi olan 54, 50 – 100 mln arası əhalisi olan 15, ən çox əhalisi olan, yəni əhlaisi 100 mln-dan çox olan ölkələrin sayı 14 olmuşdur[1]. Dünya ölkələrinin 64 faizini əhalisi 10 mln-a qədər olan ölkələr təşkil edir (151 ölkə). Əhalisi 100 mln-dan çox olan 14 dövlətdən 6-sı tam, 4-ü isə qismən müsəlman dövlətləridir (Hindistan, Efiopiya, Rusiya, Çin).

Dünya əhalisinin sıxlığı bir çox amillərə görə regiondan regiona dəyişir. Hazırda dünya əhalisinin orta sıxlığı hər $km^2$ -ə 45 nəfərdir. Dünya əhalisinin böyük hissəsi, yəni 85 faizi Şərq yarımkürəsində yaşayır. Əhalinin orta sıxlığına görə birinci yeri Banqladeş tutur. Avropada isə sıxlığına görə ilk yerləri Niderland və Almaniya tutur. Burada sıxlıq hər kvadrat km-ə 2000 nəfərdir. Dünyanın ən çox məskunlaşmış əraziləri Şərqi və Cənubi-Şərqi Asiya, Çin, Koreya, İndoneziya və Vyetnamdır. Yer kürəsi ərazisinin 7 faizində planet əhalisinin 70 faizi yaşayır. Dünyanın 245 dövlət və ərazisindən əhalisinin sayına görə 88-ci olan, 10 mln nəfər əhalisi olan Azərbaycandır ki, bu da dünya əhalisinin 0,13 faizini təşkil edir. Dünya Əhali Fondunun hesabatında göstərilir ki, dünyada hər saniyədə 2,6 nəfər dünyaya gəlir. 1970-ci ildə dünya əhalisi indikinin yarısı qədər olub. Əhalinin belə sürətlə artmasının əsas səbəbi kimi İEOÖ-lərdə ailə planlamasının aparılmaması göstərilir. Bu artımın normal saxlanılması yalnız həmin ölkələrdə əhali artımı sahəsində dövlət siyasətinin aparılması, ailə planlaşması, ölkələr üzrə əhali artımının dövlət strategiyasının hazırlanması, tətbiqi və nəzarət edilməsi halında mümkündür.

Dünyada əhali sıxlığı ən az olan ölkələr aşağıdakılardır:

1. Avstraliya;
2. Namibya (Cənub-Qərbi Afrika);
3. Liviya;
4. Monqolustan;
5. Qrenlandiya (Danimarka).

Yer kürəsinin bəzi əraziləri yaşayış üçün əlverişsiz kateqoriyalı ərazilər qrupuna daxildir. Bu ərazilər ekstremal ərazilər olmaqla yer kürəsinin quru ərazisinin 15 faizini əhatə edir (məsələn, Saxara, Antraktida, Qrenlandiya, Şimal-Şərqi Rusiya və s.).

Dünya əhalisi linqivistik xüsusiyyətlərinə görə də bölünür. Bütün dillər qohumluq münasibətlərinə görə dil ailələrinə, dil ailələri də, öz növbəsində, dil qruplarına bölünür. Daha geniş yayılmış dil ailələri bunlardır: Hind-Avropa, Çin-Tibet, Malayziya-Polineziya, Sami-Hami, Bantu, Altay, Qafqaz, Ural, Sudan və s. Hind-Avropa dil ailəsinə 2,5 mlrd-dan çox insan daxildir.

[1] http://Population.un.org/ECOSOS, 2021

Dünya əhalisi yaş tərkibinə görə üç qrupa bölünür. Birincisi, 0-14 yaş qrupudur. Bu yaş qrupu dünya əhalisinin 34%-ni təşkil edir, ikinci, yaş qrupu isə 15-65 yaş qrupudur. Bu yaş qrupu cəmiyyətdə maddi nemətlərin əsas istehsalçısıdır. Bu yaş qrupunda dünya əhalisinin 58%-i cəmlənib. Üçüncü yaş qrupuna isə 65 yaşdan yuxarılar aiddir. 65 yaşdan yuxarılar isə dünya əhalisinin 8%-ni tutur.

Əhalinin cins tərkibində isə yeni doğulan uşaqlar arasında oğlanların sayı hələlik çoxdur. Dünya ölkələrində qadınlar kişilərdən çox olub dünya əhalisinin 51%-ni, kişilər isə 49%-ni təşkil edir. Ancaq bəzi Asiya və Afrika ölkələrində bu nisbət dəyişir. Buna səbəb erkən nikah, çox uşaqlılıq, cəmiyyətdə və ailədə qadının hüquqlarının tapdalanması və qadınlara qarşı zorakılıqdır.

Dünya ölkələrinin əmək resurslarına təsir edən amillərdən biri ölkələrdəki əməkhaqının vəziyyətidir. Bəzi dünya ölkələrində orta əməkhaqqı reytinqi cədvəl 6.10-da verilmişdir.

**Cədvəl 6.10**

**2019-cu ildə bəzi dünya ölkələrində orta əmək haqqı**[1]

| № | Ölkələr | İl ərazində orta əməkhaqqı (dollarla) | Ay ərzində orta əməkhaqqı (dollarla) |
|---|---|---|---|
| 1. | Monako | 186080 | 15507 |
| 2. | Lixteynşteyn | 116300 | 9692 |
| 3. | Bermud adaları | 106140 | 8845 |
| 4. | İsveçrə | 80560 | 6713 |
| 5. | Norveç | 75990 | 6333 |
| 9. | ABŞ | 58270 | 4856 |
| 19. | Almaniya | 43490 | 3624 |
| 20. | Kanada | 42870 | 3573 |
| 42. | Türkiyə | 10940 | 912 |
| 45. | Rusiya | 9230 | 769 |
| 46. | Çin | 8690 | 724 |
| 49. | Qazaxıstan | 7970 | 664 |
| 57. | İran | 5430 | 453 |
| 72. | Pakistan | 1580 | 132 |
| 76. | Əfqanıstan | 560 | 47 |
| 77. | Madaqaskar | 480 | 33 |
| 78. | Konqo DR | 460 | 8 |

Cədvəl 6.10-dan görünür ki, bəzi dünya ölkələrində il və ya ay ərzində orta əməkhaqqı çox yüksəkdir, bu da həmin ölkələrə işçi axınının artmasına səbəb olur.

Dünya ölkələrində həyat səviyyəsinin artması əhalinin uzunömürlü olmasına birbaşa təsir edir (cədvəl 6.11.).

**Cədvəl 6.11**

**Dünyada əhalisi uzunömürlü olan dövlətlər**

| № | Ölkələr | Ümumi əhali (il) | Kişilər (il) | Qadınlar (il) |
|---|---|---|---|---|
| 1. | Yaponiya | 80,7 | 77,5 | 84,0 |
| 2. | Avstraliya | 79,8 | 75,4 | 82,7 |
| 3. | İsveçrə | 79,8 | 76,7 | 82,6 |

[1] http://visasam.ru/emigration/vybor/srednya-zarplatav-mire.html

| | | | | |
|---|---|---|---|---|
| **4.** | İsveç | 79,6 | 77,0 | 82,4 |
| **5.** | Kanada | 79,4 | 76,0 | 83,0 |
| **6.** | İslandiya | 79,4 | 77,2 | 81,8 |
| **7.** | İtaliya | 79,0 | 75,8 | 82,4 |
| **8.** | Fransa | 78,8 | 74,8 | 82,9 |
| **9.** | İspaniya | 78,8 | 75,3 | 82,5 |
| **10.** | Norveç | 78,7 | 75,7 | 81,8 |
| **11.** | İsrail | 78,6 | 76,6 | 80,7 |
| **12.** | Yunanıstan | 78,4 | 75,9 | 81,2 |
| **13.** | Niderland | 78,3 | 75,4 | 81,3 |
| **14.** | Malta | 77,9 | 75,5 | 80,6 |
| **15.** | Belçika | 77,8 | 74,5 | 81,3 |
| **16.** | Yeni Zellandiya | 77,8 | 74,8 | 80,9 |
| **17.** | Böyük Britaniya | 77,7 | 75,0 | 80,5 |
| **18.** | Avstriya | 77,7 | 74,5 | 81,0 |
| **19.** | Almaniya | 77,4 | 74,3 | 80,8 |
| **20.** | Finlandiya | 77,4 | 73,7 | 81,2 |

Cədvəl 6.11-də göstərilən əhalisi uzunömürlü olan dövlətlərin əhalisinin adambaşına düşən illik gəlirlərini və həmin ölkələrin adambaşına düşən illik ÜDM-ni götürüb müqayisə etdikdə, bu birbaşa sübut edilir: Dövlətin əhalisinin uzunömürlülüyü həmin ölkənin əhalisinin həyat səviyyəsi ilə düz mütənasibdir.

## 4. DÜNYA İQTİSADİYYATINDA ƏMƏK BAZARI

İşçi qüvvəsi insanın malik olduğu və onlar tərəfindən maddi və mənəvi rifah üçün istifadə olunan fiziki və zehni qabiliyyətin məcmusudur. İşçi qüvvəsinin daşıyıcısı əhalidir, insandır və cəmiyyətin məhsuldar qüvəsi olan işçinin şəxsində mövcuddur.

Bazar iqtisadiyyatı şəraitində işçi qüvvəsi əmtəədir, satılır və alınır, istehlak dəyəri və qiyməti vardır. Lakin bu əmtəənin bəzi xüsusiyyətləri vardır. Alqı-satqı zamanı bu əmtəənin dəyəri ödənilir, istehlak dəyəri isə zəbt olunur və əmtəə alıcının mülkiyyətinə keçir. İşçi qüvvəsinin sahibi isə onun yiyəsidir, o zəbt olunmur və oluna da bilməz. Nəticədə işçi qüvvəsi yox – göstərilən xidmət satılır – qarşılıqlı əlverişli şərtlərlə icarəyə verilir. İşçi qüvvəsi satılmır, ondan istifadə hüququ satılır.

Dünya ölkələrində iqtisadi fəal əhali işləyənlərə və işsizlərə bölünür, işləyənlər isə muzdlu işçi qüvvəsi, işəgötürənlər və özləri məşğul olanlara bölünür.

Əmək bazarının əsas elementləri aşağıdakılardır:

1. İşçi qüvvəsinə tələbat;
2. İşçi qüvvəsinin təklifi;
3. İşçi qüvvəsinin qiyməti (əməkhaqqı);
4. Əmək bazarında rəqabət;
5. Əmək bazarının infrastrukturu;
6. Həmkarlar təşkilatları.

Əmək bazarının subyektləri aşağdakılardır:

1. İşəgötürənlər;
2. Muzdlu işçilər;
3. Dövlət idarələri;
4. Vasitəçi təşkilatlar və s.

Fəaliyyət dairəsinə görə əmək bazarı iki yerə bölünür:

1. Daxili əmək bazarı;
2. Xarici əmək bazarı.

İnzibati-ərazi və məkan ölçüsünə görə əmək bazarı üç yerə bölünür:

1. Yerli əmək bazarı;
2. Milli əmək bazarı;
3. Beynəlxalq əmək bazarı.

Tənzimlənmə səviyyəsinə görə əmək bazarı üç yerə bölünür:

1. Tənzimlənən əmək bazarı;
2. Tənzimlənməyən (kölgəli) əmək bazarı;
3. Natamam əmək bazarı.

## ƏMƏK BAZARININ MODELLƏRİ

İşçi qüvvəsini satanların və alanların qarşılıqlı fəaliyyətinin aşağıdakı modelləri (prosesin qurulma sxemi) mövcuddur:

1. Təmiz rəqabətli əmək bazarı modeli;
2. Monopsonik model (bir alıcının inhisarında olan);
3. Həmkarlar ittifaqlı model;
4. İkitərəfli inhisar modeli.

Burada modellərin hər birinin riyazi-iqtisadi təsviri verilə bilinər.

Əmək bazarı modelləri arasında Yaponiya, ABŞ və İsveç əmək bazarı modelləri daha çox diqqəti cəlb edir.

## Məşğulluq

Ölkələrdə insanların iş yeri ilə təmin edilməsi, onların əmək fəaliyyətində iştirakı və yaranan münasibətlər sisteminin məcmusuna **məşğulluq** deyilir. İş yeri ilə təmin edilmiş məşğul əhali işdən çıxmaqla işsizlərə, işsizlərin işə düzəlməsi ilə məşğul əhaliyə çevrilməsi prosesi gedir. Məşğul əhali muzdlu işçi, sahibkarlar və müstəqil işləyənlər qruplarına bölünür. Məşğulluğun məhsuldar, rasional (optimal paylanmış) və səmərəli növləri vardır. Ölkədə məşğulluq siyasi-iqtisadi hadisə və prosesdir. Hər bir ölkə özünün məşğulluq siyasətinin əsas istiqamətlərini müəyyən edir və özünün məşğulluq haqqında qanununu qəbul edir.

## İşsizlik

İş qabiliyyətinə malik olan, işləmək istəyən və iş tapa bilməyən insanların sosial-iqtisadi vəziyyətinin məcmuuna **işsizlik** deyilir. İşsizlik hər bir ölkənin məşğulluq haqqında qanununda müəyyən edilən statusla müəyyən edilir və hesablanma metodologiyasına görə ölkələr üzrə fərqlənir. Beynəlxalq təşkilatlar, xüsusilə BƏT(ILO) işsizlik statusunu bütün ölkələr üzrə ümumiləşmiş formada verir.

İşsizliyin əsas göstəriciləri aşağıdakılardır:

1. Ölkədə işsizlik səviyyəsi;
2. Ölkədə işsizliyin yaranma tempi;
3. Ölkədə işsizliyin davaetmə müddəti.

Ölkələrdə baş verən işsizliyin növləri aşağıdakılardır:

1. Friksion işsizlik (ən yaxşı işə getmək üçün işdən çıxanlar);
2. Struktur işsizlik (təsərrüfat dəyişikliyi);
3. Tsiklik işsizlik (təsərrüfatın azalması).

Yaranma səbəbinə görə işsizliyin aşağıdakı növləri vardır:

1. Məcburi işsizlik;
2. Könüllü işsizlik.

Leqallığına görə işsizlik rəsmi (qeydiyyatdan keçən) və gizli işsizliyə bölünür.

Ölkələr üzrə hər il işsizliyin səviyyəsi hesablanır. Hər bir ölkədə işsizliyin xüsusiyyətləri və səbəbləri olur. İşsizlik iqtisadi və sosial nəticələrə gətirib çıxarır, demoqrafik dəyişikliklər baş verir və beynəlxalq əmək miqrasiyası güclənir.

İşsizlik ölkələrin demoqrafik vəziyyətinə birbaşa təsir edir və əhalinin sosial müdafiəsi prosesi mürəkkəbləşir. Hər bir ölkə yaşayış minimumunu və minimal istehalk səbətini (büdcəsini) müəyyən edir və təsdiqləyir. Məşğulluğun artması ölkədə sosial müdafiənin güclənməsinə, işsizliyin artması isə sosial müdafiənin zəifləməsinə səbəb olur. Çünki hər bir məşğul şəxs hər ay sosail müdafiyə fonduna vəsait ödəyir.

İnkişaf Etmiş Ölkələrdə hər bir normal insanın cəmiyyətdəki və bu dünyadakı dəyəri onun dövlətdən aldığı yox, ölkəsinə (dövlətinə) verdikləri ilə (elmi, mənəvi, vergi və s. dəyərlər) qiymətləndirilir.

Dünyada əmək bazarı məşğulluq və işsizlik məsələlərini özündə əks etdirən klassik və neoklassik əmək nəzəriyyələri və yanaşmaları əsasında müəyyən edilir. Bu sahədə Adam Smit, David Rikardo, Alfred Marşall, Artur Piqu və s. iqtisadçı və sosioloqların nəzəriyyələri daha çox diqqəti cəlb edir.

Əmək bazarı cəmiyyətin iqtisadi və sosial-siyasi həyatının ən incə və həssas sahəsi olduğu üçün hər bir ölkə əmək bazarında ümumi iqtisadi tarazlıq yaradılmasında daim maraqlı olmalıdır.

### Tripartizm

Dünyada əmək bazarında olan üçtərəfli münasibətlər – işçilər, işəgötürənlər və dövlət münasibətləri **Tripartizm** adlanır. Tripartizmin birləşdiricisi Həmkarlar İttifaqıdır. Burada "Həmkarlar İttifaqı – Dövlət" və "Həmkarlar İttifaqı – İşəgötürənlər" münasibətləri daha böyük rol oynayır. Dövlət orqanları və işəgötürənlər qarşısında işçilərin mənafeyini qoruyan və müdafiə edən məhz Həmkarlar Təşkilatlarıdır.

Hazırda bütün dünya ölkələrində Tripartizmi tənzimləyən üçtərəfli sazişlər milli səviyyələrdə bağlanır. Baş sazişlə və onlara oxşar sazişlər ölkələr üzrə rəngarəng olub, hər bir ölkədə özünəməxsus əlamətləri vardır. Hər bir ölkənin hökuməti, Həmkarlar İttifaqları Konfederasiyası və Sahibkarlar (işəgötürənlər) təşkilatları arasında Baş Kollektiv Saziş bağlanır.

Dünya ölkələrində və onlar arasında əmək proseslərini tənzimləyən Beynəlxalq Əmək Təşkilatının (ILO) qəbul etdiyi əmək konvensiyaları və tövsiyyələrdir.
1919-cu ildən, yəni BƏT yaranandan indiyə qədər bu sahədə 200-ə qədər Konvensiya və 200-dən çox tövsiyyə qbul edilmişdir. Hər bir dövlət bu konvensiyaları öz parlamentlərində ratifikasiya edir və bu konvensiyalara qoşulur.

Dünya iqtisadiyyatında əmək bazarı müstəqil fənn kimi öyrənilir.

## 6. DÜNYADA İŞÇİ QÜVVƏSİNİN BEYNƏLXALQ MİQRASİYASI

Miqrasiya latın sözü olub (migratio) yerdəyişmə mənasını verir. İqtisadi mənada əhali miqrasiyası ölkənin milli sərhədlərindən çıxaraq daimi və uzunmüddətli dövrdə başqa ölkələrə hərəkəti, yerləşməsi, yaşaması və məskunlaşmasına deyilir. İşçi qüvvəsinin miqrasiyası əhali miqrasiyasının tərkib hissəsidir. Əhali miqrasiyasi qədim, işçi qüvvəsinin miqrasiyası sonradan əmələ gəlmişdir.

İşçi qüvvəsinin beynəlxalq miqrasiyası - əmək resurslarının (işçi qüvvəsinin) ölkənin milli sərhədlərindən çıxaraq uzun müddət başqa ölkələrdə fəaliyyət göstərməsinə deyilir.

Dünya iqtisadiyyatında insan resursları ikitərəfli həlledici rola malikdir. Birincisi – bütün dünya iqtisadiyyatı insanlar tərəfindən qurulur, yaradılır, hərəkətə gətirilir və inkişaf

etdirilir, ikincisi – bütün dünya iqtisadiyyatının son məqsədi insanların - əhalinin və ölkələrin tələbatını ödəməklə dayanıqlı inkişafa nail olmaqdır.

Tarixi nöqteyi-nəzərdən işçi qüvvəsinin beynəlxalq miqrasiyası yenidir, XIX əsrin ortalarından yaranmağa başlamış və ondan sonra dalğalarla sürətlənmişdir.

İşçi qüvvəsinin beynəlxalq miqrasiya dalğaları aşağıdakılardır:

1) XIX əsrin 40-cı illərində "kartof aclığından" İrlandiyadan ABŞ-a əhalinin axını dalğası;

2) XIX əsrin 80-ci illərində Avropada taxılın qiymətinin aşağı düşməsindən İtaliya və digər Avropa ölkələrindən ABŞ-a axın dalğası;

3) XX əsrin 20-ci illərində I Dünya müharibəsindən sonra Avropada həyat səviyyəsinin aşağı düşməsinə görə ABŞ-a axın dalğası;

4) II Dünya Müharibəsindən sonra bütün qitələrdən "beyin axınlarının" Şimali Amerikaya axın dalğası;

5) 1956-cı ildə Macarıstanda antikommunist hərəkatının güclənməsinə görə qaçqın dalğası;

6) 1975-ci ildə Vyetnamda, 1980-ci ildə Kubada baş verən antikommunist hərəkatından əmələ gələn qaçqın dalğası;

7) 80-ci illərdə Meksikadan Karib Hövzəsi ölkələrinə axın dalğası;

8) 1991-ci ildə SSRİ və Yuqoslaviyanın dağılması, sosialist sisteminin çökməsi nəticəsində müxtəlif istiqamətlərə miqrasiya dalğaları;

9) Kanada, Avstraliya və Fars körfəzi ətrafı neft ölkələrinə miqrasiya dalğaları;

10) Daha çox gəlir əldə edilməsi və yüksək həyat səviyyəsinə nail olmaq məqsədilə bütün ölkələrin "güclü beyinlərinin" İnkişaf Etmiş Ölkələrə indi də davam edən miqrasiya dalğaları və s.

Dünyada əhali və işçi qüvvəsinin beynəlxalq miqrasiyası dövlətlərin miqrasiya siyasətindən birbaşa asılıdır.

İnkişaf Etmiş Ölkələr və proqressiv ölkələr özünün imiqrasiya və emiqrasiya siyasətlərinin səmərəliliyini artırmaq üçün proqramlar hazırlayır və qəbul edirlər.

İmiqrasiya siyasətinə aşağıdakı elementlər daxil edilir:

1) Miqrantların peşəkarlıq səviyyəsi:
   a) Təhsil haqqında sənədlər (sertifikatlar);
   b) İxtisas üzrə iş təcrübəsi.
2) Yaş məhdudiyyətlərinin tətbiqi;
3) Sağlamlıq vəziyyəti (sənədləri);
4) Siyasi məhdudiyyətlər (terrorçuluq, hərbi birləşmələr);
5) Şəxsi məhdudiyyətlər (quldurluq, xəstəliklər);
6) İşçi qüvvəsinin kvotalaşdırılması;
7) Maliyyə məhdudiyyətləri;
8) Müddət məhdudiyyətləri;
9) Qadağalar;
10) Milli – coğrafi prioritetlər;
11) Qeyri – qanuni (qeyri – leqal) miqrasiyaya görə sanksiyalar sistemi;
12) Reemiqrasiyanın həvəsləndirilməsi proqramları və s.

İşçi qüvvəsinin beynəlxalq miqrasiyasının səbəbləri iki qrupa bölünür:

I. İqtisadi səbəblər:
   - Əməkhaqqının səviyyəsi;
   - Həyat səviyyəsi;
   - Mənzil təminatı;
   - Sosial güzəştlər;
   - Sığorta təminatı;

- ❖ Təqaüd imkanları;
- ❖ Ekoloji durum;
- ❖ Təbii fəlakətlər və s.

II. Qeyri – iqtisadi amillər:

- ❖ Siyasi vəziyyət;
- ❖ Milli durum;
- ❖ Dini durum (ayrıseçkilik, semitimz);
- ❖ Etnik münaqişələr (irqi);
- ❖ Müharibə və münaqişələr;
- ❖ Kütləvi xəstəliklər (epidemiyalar);
- ❖ Təbii iqlim şəraiti və s.

İşçi qüvvəsinin beynəlxalq miqrasiyasının səbəbləri dünyanın qitələri, regionları və ölkələri üzrə ayrı-ayrılıqda təhlil edilməlidir.

Beynəlxalq təşkilatlar beynəlxalq miqrasiyanı əsas 5 göstərici üzrə qiymətləndirir:

1) İmiqrasiya;
2) Emiqrasiya;
3) Miqrasiya saldosu;
4) “Beyin Axını”;
5) Reemiqrasiya (geri qayıtma – vətəninə).

İşçi qüvvəsinin beynəlxalq miqrasiyasının formaları aşağıdakılardır:

I. İstiqamətinə görə (5 istiqamət);

II. Ərazi əhatəsinə görə

1. Qitələrarası;
2. Qitədaxili.

III. Miqrantların ixtisas səviyyəsinə görə:

1. Yüksəkixtisaslı işçi qüvvəsi;
2. Aşağıixtisaslı (ixtisazsız, qara) miqrantlar.

IV. Müddətinə görə:

1. Birdəfəlik (qitələrarası);
2. Müddətli (qitədaxili);
3. Mövsümi (gəlir əldə etmək üçün hər il);
4. Gündəlik (müxtəlif ölkələrin eyni yaşayış məntəqələri arasında).

V. Qanuniliyinə görə:

1. Leqal;
2. Qeyri-leqal.

BƏT-in təsnifatına görə beynəlxalq əmək miqrasiyası 5 əsas tipə ayrılır:

1. Kontraktlar (müqavilələr) üzrə işləyənlər;
2. Professional (peşəkar) işçilərin miqrasiyası;
3. Köçkünlər;
4. Qaçqınlar;
5. Qeyri-leqal imiqrantlar.

Beynəlxalq əhali miqrasiyasının əsas formaları bunlardır:

1) Əmək miqrasiyası (beynəlxalq, xarici);
2) Beynəlxalq ailə miqrasiyası;
3) Xarici turzim miqrasiyası.

Beynəlxalq təşkilatlar dünyada və ayrı-ayrı ölkələrdə olan beynəlxalq miqrantların sayı barədə hesabatlar verirlər. 6.12-ci cədvəldə dünya və bəzi ölkələr üzrə beynəlxalq miqrantların sayı verilmişdir.

**Cədvəl 6.12**

**Miqrantların sayına görə dünya ölkələri[1](2015)**

| № | Ölkələr | Miqrantların sayı, mln nəfər | Ölkə əhalisinin sayı, mln nəfər | Dünya üzrə miqrantların sayında payı, faizlə | Ölkə əhalisinin sayında payı, faizlər |
|---|---|---|---|---|---|
| **1.** | ABŞ | 46,6 | 322 | 19,1 | 14,5 |
| **2.** | Almaniya | 12 | 81 | 4,9 | 14,9 |
| **3.** | Rusiya | 11 | 143 | 4,7 | 8,1 |
| **4.** | S. Ərəbistanı | 10 | 31 | 4,1 | 32,3 |
| **5.** | Böyük Britaniya | 8,5 | 65 | 3,5 | 13,2 |
| **6.** | BƏƏ | 8,0 | 9,1 | 3,2 | 88,4 |
| **7.** | Kanada | 7,8 | 36 | 3,2 | 21,8 |
| **8.** | Fransa | 7,7 | 64,3 | 3,1 | 12,1 |
| **9.** | Avstraliya | 6,7 | 24 | 2,7 | 28,2 |
| **10.** | İspaniya | 5,8 | 46,1 | 2,4 | 12,7 |
| **20.** | Küveyt | 2,8 | 3,8 | 1,1 | 73,6 |
| **91.** | Azərbaycan | 0,264 | 9,7 | 0,1 | 2,7 |
| **232.** | Tuvalu | 0,141 | 9,9 | 0,0 | 1,4 |
| | **Dünya üzrə:** | 243,7 | 7349,4 | 100 | 3,3 |

6.12-ci cədvəldə beynəlxalq imiqrantların dünya və dünya ölkələri üzrə sayı, dünya miqrantları və ölkə əhalisininn sayındakı payı verilmişdir. 2015-ci ildə dünyada əhalinin sayı 7,3 mlrd nəfər, miqrantların sayı isə 244 mln nəfər olmuşdur. Hər ilin miqrasiya meyilləri təhlil edilməlidir. Lakin nəzərə almaq lazımdır ki, hər bir ölkə hər il özünün imiqrantlarla bərabər emiqrantları haqqında hesabatlar verirlər (cədvəl 6.13 və 6.14-ə bax).

**Cədvəl 6.13**

**Beynəlxalq emiqrantların mənşə ölkəsinə görə sayı (2015, BMT)**

| № | Ölkələr | Sayı, mln nəfər | Ölkə əhalisində payı, faizlə |
|---|---|---|---|
| **1.** | Hindistan | 15,5 | 1,1 |
| **2.** | Meksika | 12,3 | 8,8 |
| **3.** | Rusiya | 10,5 | 6,8 |
| **4.** | ÇXR | 9,5 | 0,6 |
| **5.** | Banqladeş | 7,2 | 4,2 |
| **6.** | Pakistan | 5,9 | 3,0 |
| **7.** | Ukrayna | 5,8 | 11,5 |
| **8.** | Filippin | 5,3 | 5,0 |
| **9.** | Suriya | 5,0 | 21,3 |
| **10.** | Böyük Britaniya | 4,9 | 7,0 |
| **53.** | Azərbaycan | 1,1 | 10,5 |
| **66.** | Ermənistan | 0,937 | 23,7 |
| **232.** | Vatikan | 0,182 | 20,8 |

Beynəlxalq imiqrantların və emiqrantların sayını ECOSOS 232 ölkə üzrə verir.

[1] International Migration Report. ECOSOS, 2016. "Beynəlxalq miqrasiya meyilləri: 2015-ci ilin təhlilləri"

**Cədvəl 6.14**

**Beynəlxalq miqrasiya reytinqinə görə dünya ölkələri**
**(2015, BMT-ECOSOS)**

| № | Ölkələr | Hər 1000 nəfər əhaliyə düşən miqrantların sayı |
|---|---|---|
| **1.** | Qətər | 22 |
| **2.** | Lüksemburq | 17 |
| **3.** | BƏƏ | 12 |
| **4.** | Bəhreyn | 13 |
| **5.** | İngiltərə | 12 |
| **6.** | Suriya | -19,7 |
| **7.** | Ermənistan | -5,8 |
| **8.** | Qayana | -8,0 |
| **9.** | İordaniya | -13,2 |
| **10.** | Qırğızıstan | -5,2 |
| **11.** | Gürcüstan | -2,7 |

Dünyada əhalinin, o cümlədən, işçi qüvvəsinin sayı son 30 ildə daha sürrətlə artmışdır. Əgər 1960-cı ildə dünyada əmək (işçi) miqrantları 3,2 mln, 1995-ci ildə 35 mln nəfər olmuşdursa, bu rəqəm 2020-ci ildə 250 mln nəfərə çatmışdır. Nəticədə dünyada işçi qüvvəsinin aşağıdakı əsas beynəlxalq mərkəzləri yaranmışdır:

1) ABŞ;
2) Qərbi Avropa ölkələri;
3) Asiya – Sakit Okean regionu ölkələri;
4) Yaxın Şərqin neft hasil edən ölkələri;
5) Avstraliya;
6) Rusiya;
7) Latın Amerikası ölkələri və s.

Hazırda dünyada işçi qüvvəsinin əsas cazibə mərkəzləri 7-dir. Bunlar ayrı-ayrılıqda təhlil edilməli və səbəbləri ortaya qoyulmalıdır. 2018-ci ildə dünyada 200 mln nəfərdən çox (6,4 faiz) işsiz qeydə alınıb (BƏT). Bunun az görünməsinin əsas səbəbi ölkələr üzrə işsizlərin hesablanması metodikasının müxtəlifliyi və qeydiyyatı vəziyyətidir. Faktiki bundan dəfələrlə çoxdur.

## 6. DÜNYA İQTİSADİYYATINDA ŞƏHƏRLƏRİN YERİ VƏ ROLU

Dünyada vahid "şəhər" anlayışı yoxdur. Müxtəlif ölkələrdə şəhərlərin müxtəlif meyarları vardır:

- ABŞ-da – şəhər yaşayış məntəqəsinin inzibati funkisyasını yerinə yetirir;
- Niderlandda – əhalisinin sayı 20 mindən çox olan inzibati ərazi;
- İslandiyada – əhalisi 200 nəfərdən çox hər hansı bir yaşayış məntəqəsi;
- Rusiyada – əhalisi 12 min nəfərdən çox, əhali məşğulluğu əsasən sənaye və xidmət sferasında (65%-dən çox) olan yaşayış məntəqələri şəhər hesab edilir.

Şəhərlər müxtəlif əlamətlərinə görə qruplaşdırılır:

**I.** Əhalisinin sayına görə:

1) Kiçik şəhərlər: əhalisi 20 min nəfərdən 50 minə qədər;
2) Orta şəhərlər: əhalisi 50-100 min nəfər olan şəhərlər;
3) İri (böyük) şəhərlər: əhalisi 100-500 min nəfər olan şəhərlər;
4) Nəhəng şəhərlər: əhalisi 500 min -1 mln nəfər olan şəhərlər;
5) Milyoner şəhərlər: əhalisi 1 mln-dan çox olan şəhərlər.

2015-ci ildə dünyada əhalisi milyoner-şəhər olan şəhərlərin sayı 356-516 arasında olmuşdur. Səbəbi bir çox ölkələrdə, əsasən Çində əhalinin sayı haqqında dəqiq məlumatların olmamasıdır.

Şəhərlər yaranma dövrlərinə, iqtisadi-coğrafi xüsusiyyətlərinə, funkisyalarına, əhalisinin sayına, ərazisinə, konfiqurasiyasına, planlaşdırma strukturuna, tikililərin sıxlığı və qədimliyinə görə, iqtisadi inkişaf səviyyəsinə, qonşu ərazilərə təsir dairəsinə, iqtisadi, sosial, demoqrafik, dini və s. əlamətlərinə görə çox müxtəlif qruplara bölünür və fərqlənir.

Yaranma dövrünə görə:

1) Qədim şəhərlər – bizim eranın IV əsrinə qədər mövcud olan şəhərlər: Afina, Roma, Vavilon, Karfagen;
2) Orta əsr şəhərləri – IV-XVII əsrlərdə yaranan şəhərlər;
3) Müasir şəhərlər – XVIII-XX əsrlərdə yaranan şəhərlər.

Milyoner şəhərlər əsasən İnkişaf Etməkdə Olan Ölkələrdə olmaqla, daha sürətli tempdə artır. Dünyada birinci milyoner şəhər Roma olmuşdur (bizim eradan əvvəl III-I əsrlərdə Roma İmperiyasının intibah dövründə).

XIX əsrin əvvəlində 1 milyoner şəhər (Pekin), XX əsrin əvvəlində 10 milyoner şəhər, XXI əsrin əvvəlində 300-dən çox milyoner şəhər olmuşdur.

Əhalisinin sayına görə dünyanın ən böyük şəhəri Tokio – 20 mln (Worldofschool.ru) hesab edilirdi. Hazırda Çunçin (ÇXR), Şanxay (ÇXR), Kəraçi (Pakistan) və Pekin (ÇXR) hesab edilir.

**II. Funksiyalarına görə** dünya şəhərləri 9 qrupa bölünür:

1) Sənaye şəhərləri – Norilski, Sumqayıt və s.
2) Liman şəhərləri – Naxodka, Pirey, Mumbay və s.
3) İnzibati mərkəzlər (mərkəz şəhərlər) – Vaşinqton, Moskva, Bern, İslamabad, Bakı və s.
4) Elmi şəhərlər (mərkəzlər) – Oksford, Kembric, Boston (Harvard), İstanbul və s.
5) Kurort şəhərlər – Antalya, Soçi, Kislovodski, Niçça və s.
6) Mədəniyyət şəhərləri – Paris, Roma, London və s.
7) Turistik şəhərlər (mərkəzlər) – Suzdal, Las-Veqas,Roma, Paris və s.
8) Diplomatik şəhərlər – Cenevrə, Brüssel, Bern, Vyana və s.
9) Çoxfunksiyalı şəhərlər (elmi, sənaye, turizm, liman və s.) – Moskva, Paris, Hamburq, Roma, Tokio, Şanxay, Sinqapur, Mexiko, Sidney, Berlin, London, Nyo-York, Rio-de-Janeyro və s.

Şəhərlər iki səciyyəvi xarakterli funkisyaları yerinə yetirirlər:

1) Şəhəri formalaşdıran funkisyalar – sənaye, nəqliyyat, elmi, rekreasiya (əyləncə) və s.
2) Şəhərə xidmət funkisyaları – şəhərdaxili nəqlityyat, kommunal xidmətlər, qidalanma və s.

Şəhərlər bəzən ixtisaslaşır – xalça (Təbriz), saat (Bern), ipək (Şəki), neft (Bakı), Samovar (Tula) və s.

**III. İqtisadi-coğrafi vəziyyətinə görə** dünya şəhərləri bölünür:

1) Nəqliyyat qovşaqlarında olan şəhərlər – Novosibirisk (Rusiya), Donetsk (Ukrayna), Münxen (Almaniya);
2) İri emal region sənaye şəhərləri – Yaroslavl, İvanova, Tehran, Urumçi;
3) İri dağ-mədən region sənaye (emal) şəhərləri – Norilsk, Nijni Tagil, Daşkəsən, Rustavi;
4) İri (intensiv) kənd təsərrüfatı region (aqrar) şəhərləri – Krasnodar, Voronej, Təbriz, Lənkəran;
5) Bank-maliyyə şəhərləri – Bern, Münxen, Pekin;
6) Birja şəhərləri – Nyu-York, London, Tokio;

7) Ərazi əmək bölgüsündə iştirakına görə şəhərlər – Samovar (Tula) və s.

Dünya ölkələrində şəhərlərin statusu parlamentlər və müvafiq icra hakimiyyəti orqanları tərəfindən müəyyən edilir.

**Mədəniyyət funkisyalarına görə şəhərlər:**

1) Ədəbiyyat və incəsənət mərkəzləri (şəhərləri) – London, Edinburq, Nyu-York, Paris, Dublin;
2) Muzey şəhərləri – Paris, Roma, İsgəndəriyyə;
3) Universitet şəhərləri – Harvard, Oksford, Kembric;
4) Festival şəhərləri – Zaylsburq, Rio-de-Janeyro, Vyana;
5) Konqres şəhərləri – Kuala-Lumpur, Münxen, Qahirə;
6) Dini mərkəz şəhərləri – Yerusəlim, Çikaqo, Mədinə, Məkkə.

**Təsərrüfat funkisyalarına görə şəhərlər:**

1) Beynəlxalq səviyyəli iri sənaye şəhərləri – Detroyt, Berlin, Qanjo;
2) İnzibati – ərazi səviyyəli iri sənaye şəhərləri – Perm, Xarkov, Təbriz, İjevski;
3) Kooperativ sənaye mərkəzləri (şəhərləri) – İzmir, Rostov, Leypsiq, Bakı;
4) Nəqliyyat mərkəzləri – Frankfurt, İstanbul, Sinqapur, Mumbay;
5) Kurort şəhərlər – Karlovı-Vara, Antalya, Şarm-al-Şeyx (Misir), Varna, Davao (Filippin);
6) Bank şəhərləri – London, Sürix, Nyo-York, Frankfurt na Mayne, Cenevrə, Paris, Pekin;
7) Dünyanın maliyyə şəhərləri (mərkəzləri) – London, Nyu-York, Honkonq, Sinqapur, Sürix, Frankfurt na Mayne;
8) Birja şəhərləri – Nyu-York, London, Tokio, Şanxay, Honkonq, Sidney, Moskva, Yoxannesburq (CAR), Çikaqo;
9) Muzey şəhərləri – Drezden (gigiyena), Buxarest (antropologiya), Sank-Peterburq (Ermitaj), Paris (Luvr) və s.

Funkisyalarına görə şəhərlərin quruluşuna zəruri tələblər irəli sürülür və bu tələblərin şərtlərinə uyğun olaraq həmin şəhərlər tanınır.

**Planlaşdırma strukturuna görə:**

1) Qərbi Avropa şəhərləri;
2) Asiya (şərq) şəhərləri (Ərəb şəhərləri);
3) Afrika şəhərləri;
4) Şimali Amerika və Avstraliya tipli şəhərlər.

**Qərbi Avropa şəhərləri**

1) Şəhər iki hissədən ibarət olur: “köhnə şəhər” və “yeni şəhər”;
2) Mərkəzdə bazar meydanı olur;
3) Muzeylər, heykəltaraşlıq əsərləri, qədim sənət əsərləri, yeməkxanalar və s. yerləşir;
4) Mədəni-kütləvi tədbirlər keçirilir və s.

Dünya ölkələrində əhalinin daha sıx və kompakt yaşadığı ərazilər meqapolis, aqlomerasiya və meqalopolislər adlanır.

Böyük şəhərlərə meqapolis deyilir (yunanca meqa – böyük, polis – şəhər deməkdir).

Ərazicən bir-birinə yaxın yerləşmiş ətraf ərazi və birləşmiş yaşayış məntəqələrinə aqlomerasiya deyilir (şəhər və şəhərətrafı ərazi: İstanbul və ətrafı). İri və ardıcıl birləşən aqlomerasiyalara meqalopolis deyilir (Moskva-Vladimir – Nijni-Novqorod).

## Kateqoriyalar üzrə şəhərlər

Dünya şəhərləri 9 kateqoriya üzrə qruplaşdırırlır və birinci onluqlar üzrə verilir:
1. Əhalisinin sayı;
2. Aqlomerasiya əhalisinin sayı;
3. İmiqrantların sayı;
4. Bahalı şəhərlər;
5. Metrolarda sərnişin axını;
6. Metroların uzunluğu;
7. Hava sərnişinlərinin sayı;
8. Milyarderlərin sayı;
9. Məcmu gəlir.

**Böyüklüyünə görə şəhərlər 3 əsas qrupa bölünür:**
1. Alfa şəhərlər (əhalisi 10 mln-dan yuxarı);
2. Beta şəhərlər (5-10 mln arası);
3. Qamma şəhərlər (1-5 mln).

Alfa şəhərlər dünya şəhərləri və ya qlobal şəhərlər hesab edilir. Bu şəhərlər dünya iqtisadi sisteminin mühüm elementidir.

Əhalisi 1 mln-dan aşağı olan şəhərlər milli şəhərlər adlanır və müxtəlif əlamətlər üzrə qruplaşdırılır.

Böyük şəhərlər dünya şəhərləri və ya qlobal şəhərlər olmaqla nəhəng meqapolis və metropolislərdir.

2020-ci ildə qitələr üzrə meqapolislərin sayı aşağıda verilmişdir.

### Asiya üzrə:

1. Qanco (Çin) – 45 mln nəfər;
2. Tokio (Yaponiya) – 40 mln;
3. Cakarta (İndoneziya) – 35 mln;
4. Şanxay (Çin) – 31 mln;
5. Dehli (Hindistan) – 30 mln.

### Şimali Amerika üzrə:

1. Mexiko (Meksika) – 23 mln nəfər;
2. Nyu-York (ABŞ) – 22 mln;
3. Los-Angelos (ABŞ) – 18 mln;
4. Çikaqo (ABŞ) – 11 mln;
5. Vaşinqton (ABŞ) – 10 mln.

### Cənubi Amerika üzrə:

1. San-Paulu (Braziliya) – 22 mln nəfər;
2. Buenos-Ayres (Argentina) – 16 mln.

**Afrika üzrə:**

1. Laqos (Nigeriya) – 18 mln nəfər;
2. Qahirə (Misir) – 17 mln.

**Avstraliya üzrə:**

1. Sidney – 6 mln nəfər;
2. Melburn – 5 mln.

Avropada alfa və beta şəhərlər yoxdur.

Dünyanın ən böyük aqlomerasiyaları 6.14-cü, əhalisi 20 mln nəfərdən çox olan şəhərlər 6.15-ci, əhalisi 10-20 mln olan şəhərlər 6.16-cı, təkcə şəhər əhalisi 4-10 mln olan şəhərlər 6.17-ci cədvəllərdə verilmişdir.

**Cədvəl 6.14**

**Dünyanın ən böyük aqlomerasiyaları (2019)**

| № | Aqlomerasiya | Ölkə | Əhali, mln nəfər | Sahəsi, km$^2$ | Əhali sıxlığı, adam/km$^2$ |
|---|---|---|---|---|---|
| **1.** | Tokio-İokoqama | Yaponiya | 38,5 | 8223 | 4700 |
| **2.** | Cakarta | İndoneziya | 34,3 | 3367 | 10200 |
| **3.** | Dehli | Hindistan | 28,1 | 2240 | 12600 |
| **4.** | Manila | Filippin | 25,0 | 1813 | 13800 |
| **5.** | Seul-İnçxon | C. Koreya | 24,3 | 2745 | 8900 |
| **6.** | Mumbay | Hindistan | 23,6 | 881 | 26900 |
| **7.** | Şanxay | Çin | 22,1 | 4015 | 5500 |
| **8.** | Nyu-York | ABŞ | 21,0 | 11875 | 1700 |
| **9.** | San-Paulu | Braziliya | 20,9 | 3043 | 6900 |
| **10.** | Mexiko | Meksika | 20,3 | 2370 | 860 |
| **15.** | Qahirə | Misir | 16,9 | 1917 | 8800 |
| **16.** | Moskva | Rusiya | 16,5 | 5698 | 2900 |
| **22.** | Tehran | İran | 14,4 | 1684 | 8600 |
| **23.** | İstanbul | Türkiyə | 13,8 | 1360 | 10200 |
| **100.** | Monterrey | Meksika | 4,3 | 958 | 4500 |

Dünya milyoner şəhərləri əhalisinin sayına görə 4 qrupa bölünür:

I. Əhali sayı 20 mln nəfərdən çox olan şəhərlər;
II. Əhali sayı 10-20 mln olan şəhərlər;
III. Əhali sayı 4-10 mln olan şəhərlər;
IV. Əhali sayı 4 mln-a qədər olan şəhərlər.

**Cədvəl 6.15**

**Əhalisi 20 mln nəfərdən çox olan şəhərlər – aqlomerasiyalar (4 şəhər)**

| № | Şəhər | Əhalisi, mln nəfər | Şəhərin sahəsi, km$^2$ | Əhali sıxlığı (nəfər/km$^2$) | Ölkə |
|---|---|---|---|---|---|
| **1.** | Çunçin | 53,2 | 82403 | 600 | ÇXR |
| **2.** | Şanxay | 24,1 (şəhər ətrafı kəndlərlə) | 6340 | 3809 | ÇXR |
| **3.** | Kəraçi | 23,5 | 3527 | 6663 | Pakistan |
| **4.** | Pekin | 21,5 (şəhər ətrafı kəndlərlə) | 16410 | 1311 | ÇXR |

**Cədvəl 6.16**

**Təkcə şəhər əhalisi 10-20 mln olan şəhərlər (17 şəhər)**

| № | Şəhər | Əhali (mln nəfər) | Ölkə |
|---|---|---|---|
| **5.** | Dehli | 16,3 | Hindistan |
| **6.** | Laqos | 15,1 | Nigeriya |
| **7.** | İstanbul | 13,8 | Türkiyə |
| **8.** | Tokio | 13,7 | Yaponiya |
| **9.** | Quanco | 13,0 | ÇXR |
| **10.** | Mumbay | 12,4 | Hindistan |
| **11.** | Moskva | 12,3 | Rusiya |
| **12.** | Dəkkə | 12,0 | Banqladeş |
| **13.** | Qahirə | 11.9 | Misir |
| **14.** | San-Paulu | 11,8 | Braziliya |
| **15.** | Lahor | 11,3 | Pakistan |
| **16.** | Sencjen | 10,4 | ÇXR |
| **17.** | Seul | 10,3 | Cənubi Koreya |

**Cədvəl 6.17**

**Təkcə şəhər əhalisi 4-10 mln olan şəhərlər (44 şəhər)**

| № | Şəhər | Əhali (mln nəfər) | Ölkə |
|---|---|---|---|
| **18.** | Cakarta | 9,9 | İndoneziya |
| **19.** | Kinşasa | 9,7 | Konqo DR |
| **20.** | Tyançzin | 9,3 | ÇXR |
| **21.** | Mexiko | 8,5 | Meksika |
| **22.** | Lima | 8,5 | Peru |
| **23.** | Banqalor | 8,4 | Hindistan |
| **24.** | London | 8,4 | Böyük Britaniya |
| **25.** | Nyu-York | 8,4 | ABŞ |
| **26.** | Bankok | 8,2 | Tayland |
| **27.** | Dunquan | 8,2 | ÇXR |
| **28.** | Tehran | 8,1 | İran |
| **29.** | Əhmədabad | 8,0 | Hindistan |
| **30.** | Boqota | 7,7 | Kolumbiya |

2019-cu ildə dünyada əhalisi 4 mln nəfərdən çox olan şəhərlərin sayı 61, əhalisi 4 mln-a qədər olan şəhərlərin sayı 455 olmuşdur. Bunlardan da 17 şəhər Çin XR-da, 9 şəhər Hindistandadır. Əhalisi 1 mln-dan çox olan 516 şəhər olmuşdur. Bu say, demək olar ki, hər il dəyişsə də, ümumi meyl davam edir. Əhali sayındakı hesabat materiallarında olan fərqlər cüzi dəyişir, bu da ölkələrin əhali statistikasında olan metodologiya ilə bağlıdır.

Dünya şəhərlərinin ümumi sahəsi dünyanın quru ərazisinin 1 faizə qədərini təşkil edir.

Dünya iqtisadiyyatında şəhərlərin nəqliyyat yollarına çıxışı mühüm rol oynayır. Bu cəhətdən şəhərlər aşağıdakı əlamətlər üzrə qruplaşdırılır:

1. Dünyanın nəhəng dəniz liman şəhərləri (Şanxay, Sinqapur, Rotterdam və s.);
2. Dünyanın nəhəng sərnişin hava limanları (Atalanta, İstanbul, London və s.);
3. Dünyanın nəhəng yük hava limanları (Memfis – ABŞ, Syanqan – Çin, Ankoric – ABŞ və s.);
4. Dünyanın nəhəng konteyner limanları (Sinqapur, Rotterdam, Pusan – Koreya) və s.

Dünyanın ən iri maliyə şəhərləri (mərkəzləri) 6.18-ci, şəhər əhalisinin artım dinamikası 6.19-cu və dünyanın ən varlı 10 şəhəri 6.20-ci cədvəllərdə verilmişdir.

**Cədvəl 6.18**

**Dünyanın ən iri maliyyə şəhərləri (mərkəzləri)**

| № | Şəhərlər | Əlamətləri | Gücü | Birjalar |
|---|---|---|---|---|
| **1.** | Nyu-York | 1) İqtisadi<br>2) Maliyyə<br>3) Mədəniyyət<br>4) Siyasət | Dünya maliyyəsinin 40 faizinə nəzarət edir | 1) Fond birjası<br>2) Ticarət birjası<br>3) NASDAQ<br>4) Ticarət palatası |
| **2.** | London | 1) Siyasət<br>2) Maliyyə<br>3) Mədəniyyət | 1) Siyasi<br>2) İqtisadi | Qitələrarası neft birjası |
| **3.** | Honkonq | 1) Ofşor ərazi<br>2) Ödənişsiz liman<br>3) Gömrük rüsumu, ƏDV yoxdur | 1) Azad ticarət<br>2) Aşağı vergi<br>3) Dövlətin iqtisadiyyata qarışması | Banklar |
| **4.** | Sinqapur | "Şərqi Asiya Pələngi" | 1) Az mavergi<br>2) TMK-lar | 1) Elektronika<br>2) Gəmiqayırma<br>3) Maliyyə xidmətləri |
| **5.** | Şanxay | Əhali sayına görə 1-ci | Maliyyə və ticarət mərkəzi | 1) Şanxay Fond Birjası<br>2) Şanxay Qızıl Birjası |
| **6.** | Tokio | 1) Siyasi<br>2) Maliyyə<br>3) Sənaye<br>4) İqtisadiyat | İnvestisiya bankları | 1) Fond Birjası<br>2) Sığorta şirkətləri |
| **7.** | Toronto (Kanada) | İqtisadiyyat | 1) Meqapolisdir<br>2) Nəqliyyat<br>3) Nəşriyyat<br>4) Media | Valyuta birjası |
| **8.** | Sürix | Qlobal şəhər, maliyyə-elm mərkəzi | İqtisadiyyat və maliyyə mərkəzi | 1) Banklar<br>2) Sığorta şirkətləri |
| **9.** | Pekin | 1) Nəqliyyat<br>2) Siyasət<br>3) Mədəniyyət<br>4) Təhsil | Azad sahibkarlıq | 1) Banklar<br>2) Sığorta şirkətləri |
| **10.** | Frankfurt - Mayn | 1) Ticarət<br>2) Mədəniyyət<br>3) Təhsil<br>4) Turizm<br>5) Nəqliyyat | 1) Avropa Mərkəzi Bankı<br>2) Almaniya Federal Bankı<br>3) Frankfurt birjası<br>4) Frankfurt yarmarkası<br>5) "Alfa şəhərlər" 20-liyə daxildir | Fond birjası |

**Cədvəl 6.19**

**Dünyada şəhər əhalisinin artım dinamikası[1]**

| İllər | Şəhər əhalisinin sayı | Dünyanın ümumi əhalisinin sayında şəhər əhalisinin payı, fizlə |
|---|---|---|
| **1900** | 220 mln | 13 |
| **1950** | 736 mln | 29 |
| **1990** | 2,2 mlrd | 43 |
| **2000** | 2,8 mlrd | 46 |
| **2005** | 3,1 mlrd | 48 |
| **2015** | 4,0 mlrd | 47 |
| **2050 (BMT-nin proqnozu)** | 6,3 mlrd | 66 |

[1] World Population Prospects. ECOSOS, 2016.

**Cədvəl 6.20**

**Dünyanın ən varlı 10 şəhəri (2018)**

| № | Şəhər | ÜDM (mlrd dollar) | Sahəsi, km$^2$ | Əhalisi, (mlrd nəfər) |
|---|---|---|---|---|
| **1.** | Tokio | 1520 | 2187 | 13,1 |
| **2.** | Nyu – York | 1210 | 1213 | 8,2 |
| **3.** | Los – Angelos | 789 | 1320 | 3,7 |
| **4.** | Seul | 779 | 605 | 10,0 |
| **5.** | London | 731 | 1570 | 8,1 |
| **6.** | Paris | 669 | 105 | 10,4 |
| **7.** | Osaka (Yaponiya) | 654 | 522 | 1,5 |
| **8.** | Çikaqo | 524 | 606 | 2,7 |
| **9.** | Moskva | 520 | 2510 | 11,5 |
| **10.** | Şanxay | 516 | 6340 | 23,0 |

Nəzərə almaq lazımdır ki, aqlomerasiyalar və şəhərlərin öz əhalisi haqqındakı rəqəmlər daim dəyişir. Təhlil zamanı mütləq ayrı-ayrı illər göstərilməli və dinamika nəzərə alınmalıdır.

### Dünyanın ən kiçik 7 şəhəri

Elə şəhərlər var ki, orada cəmi iki kişi və 2 qadın yaşayır (Maza, Şimali Dakota – ABŞ).

Bəzi kiçik şəhərlər:

1) Xum (Xorvatiya). Ən kiçik şəhər kimi Ginnesin rekordlar kitabına düşüb. 2001-ci ildə burada 17 adam yaşayıb. Son 1000 ildə şəhərin siması dəyişməyib.

2) Maza (Şimali Dakota Ştatı) ABŞ-dadır. 2 kişi və 2 qadın yaşayır. Cəmi 4 nəfər. 1893-cü ildə şəhər statusu alıb.

3) Rabşteyn (Çexiya). 1337-ci ildə şəhər statusu alıb.

4) Vatikan – bir neçə adda verilir. 800 nəfər əhali yaşayır.

## 7. DÜNYA İQRİSADİYYATININ QLOBAL DEMOQRAFİK PROBLEMLƏRİ

Demoqrafiya əhalidən bəhs edən elmlərdən biri olub, əhalinin sayı, yerləşməsi, tərkibinin dəyişməsi, əhalinin təkrar istehsalı prosesini, yayılma qanunauyğunluqlarını, onlara təsir göstərən amilləri və nəticələri öyrənir. Əhalinin öyrənilməsi müasir dünya iqtisadiyyatının ən aktual problemlərindəndir. Bu problem ölkələrin milli sərhədlərindən kənara çıxıb qlobal xarakter alır. Əhali artımı bioloji proses olmaqla yanaşı, onun inkişafı əhalinin ictimai, iqtisadi, əmək və sosial fəaliyyəti ilə bağlıdır.

Cəmiyyət və əhalinin inkişafı haqqındakı nəzəriyyələrin yaranma tarixi olduqca qədimdir.

Qədim yunan alimlərindən Hippokrat, Strabon və b. əhalinin inkişafında coğrafi mühitin müəyyənedici əhəmiyyətə malik olduğunu sübut etmişlər.

Qədim yunan filosofu Platona görə əhalinin sayını artırmaq və ya azaltmaq lazım gələrsə, adamları maraqlandırmaq, inandırmaq, təkid etmək və lazım gələrsə immiqrasiya edilməyi məsləhət görürdü. Aristotel göstərirdi ki, torpaq xüsusi mülkiyyətə mənsub olduğuna görə əhali artımı sürətlə çoxala bilməz. O, hamiləliyin qarşısının alınmasının əleyhinə idi.

Şərq filosofları doğumu və uşaqların çox olmasını müdafiə edərək göstərirdilər ki, çox əhali hərbi və iqtisadi cəhətdən möhkəmlik deməkdir.

XIV əsr türk filosofu İbn-Xaldünə görə əlverişli iqtisadi şərait və siyasi quruluş doğumun artmasına və ölümün azalmasına təsir edir. Əhali artımı ilə maddi ehtiyatlar tərs mütənasibdir.

İlk dəfə Matyu-Qell göstərmişdir ki, əhalinin artım sürəti maddi nemətlər istehsalının artım sürətindən çox böyükdür.

İngilis keşişi və tarixçisi T.Maltusun "Əhali artımı qanunlarına dair təcrübə" əsərində özünün «Əhali artıqlığı» nəzəriyyəsini vermişdir. Bu nəzəriyyəyə görə getdikcə torpaqların məhsuldarlığı azaldığına görə maddi nemətlər çox yavaş, yəni ədədi silsilə ilə (1-2-3-4-5-6 və s.), əhali isə həndəsi silsilə ilə (2-4-8-16-32-64 və s.), yəni sürətlə artır. Onun fikrincə əhalinin artımına nəzarət edilməsə, onda kütləvi qırğın verən xəstəliklərə və müharibələrə qarşı mübarizə aparmaq lazım gəlməyəcək.

Müasir qloballaşma şəraitində bu nəzəriyyə özünü xüsusilə büruzə verir, bütün dünya ölkələrinin diqqətini cəlb edir və onun müasir modifikasiyaları tətbiq edilir. Ölkənin ərazisindən, əhalinin sıxlığından, təbii sərvətlərin həcmindən, istehsalın inkişafından, iş yerlərindən və s. amillərdən asılı olaraq aşağıdakı demoqrafik problem konsepsiyaları irəli sürülür:

1) Əhalinin "sıfır artım" konsepsiyası;

2) "Fiziki hədd" konsepsiyası və s.

Hər bir ölkə göstərilən konsepsiyaları özünün demoqrafik siyasəti və əhali artımI planlaşdırılması yolu ilə aparmalı, müvafiq beynəlxalq təşkilatlar onu tənzimləməli və əlaqələndirməlidir.

XX əsrdə dünya əhalisinin sayı 1,5 mlrd nəfərdən 6,1 mlrd nəfərə, son 60 ildə 2,5 mlrd nəfərdən 7,8 mlrd nəfərə çatıb. Əgər 1-ci 50 illikdə dünyada əhali 1 mlrd nəfər artmışdısa, 2-ci 50 illikdə 3,5 mlrd nəfər artıb, 2025-ci ildə 8,5 mlrd nəfərə, 2050-ci ildə isə 10 mlrd nəfərə çatacağı gözlənilir. Demoqraflar eramızın əvvəlində, yəni 0-ci ildə dünya əhalisinin sayının 150-326 mln nəfər olduğunu göstərirlər. Bunun da 220 mln-u Asiyada, 40 mln-u Amerikada, 35 mln-u Avopada, 30 mln-u Afrikada və 2 mln nəfəri Avstraliyada yaşayırdı. İlk 10 əsr ərzində əhali artımı nəinki olmamış, hətta aşağı düşmüşdür. Sonrakı əsrlərdə çox yavaş sürətlə artmışdır.

XII-XIV əsrlərdə dünyanın bir sıra ölkələrində, xüsusilə Avropada yayılmış epidemiya - taun xəstəliyi nəticəsində kütləvi insan qırğını əhalinin sayı azalmışdır. XIV əsrdə taun xəstəliyindən Avropa əhalisinin ən azı 40 faizi, XV əsrdə yenə bu səbəbdən 20 mln nəfər, XIX əsrdə aclıqdan 25 mln adam (ən çoxu Hindistanda) qırılmışdır. İkinci Dünya müharibəsində 60 mln nəfər həlak olmuşdur.

Birləşmiş Millətlər Təşkilatının İqtisadi və Sosial Şurası (ECOSOS) ekspertlərinin hazırladığı məruzəyə görə, 2020-ci ildə Yer kürəsinin əhalisi 7,8 mlrd nəfərə çatmışdır. Beləliklə, son 6 ildə planetimizin sakinlərinin sayı 600 mln nəfər artmışdır.

2021-ci ilin əvvəlində dünyada əhalinin sayına görə, ilk beş yeri Çin (1,4 mlrd nəfər), Hindistan (1,3 mlrd), ABŞ (334 mln), İndoneziya (269 mln) və Pakistan (213 mln) tutur. Sonrakı iki yerdə Braziliya və Nigeriya - müvafiq olaraq 209 və 200 mln nəfər təşkil etmişdir.

Planetin ən az inkişaf etmiş regionlarında son 10 ildə əhali artımı orta səviyyədən 1,6 faiz yuxarı olmuşdur. Lakin sənayecə inkişaf etmiş ölkələrdə əhali ildə cəmi 0,3 faiz artmışdır.

Məruzə müəlliflərinin proqnozlarına görə, dünya əhalisi 2050-ci ilədək 8,9 mlrd nəfərə çatacaqdır, yəni qarşıdakı 30 il ərzində əhalinin illik artımı 1,1 faiz təşkil edəcəkdir.

Bizim era dövründə əhalinin ikiqat artımı müxtəlif dövrlərdə baş vermişdir:

1-ci ikiqat artım 1500 il ərzində (b.e.ə. - 1500-cü illər);

2-ci ikiqat artım 300 il ərzində (1500 – 1800-cü illər);

3-cü ikiqat artım 120 il ərzində (1800 – 1920-ci illər);

4-cü ikiqat artım 50 il ərzində (1920 – 1970-ci illər) olmuşdur.

Əhalinin artımı ictimai, iqtisadi, bioloji proseslərin təsiri ilə əhalidə gedən kəmiyyət və keyfiyyət dəyişikliklərinin nəticəsidir.

Dünya əhalisinin artımı qitələr üzrə kəskin fərqlənmişdir. Bu fərqlənmə müxtəlif dövrləri əhatə edir. Əhalinin qitələrdəki artımı dünya əhalisinin ümumi artım tempi ilə bağlıdır. Qitələrdəki artım coğrafi kəşflərlə əlaqədar əhalinin ölkələr və qitələrarası miqrasiya edilməsinin nəticəsidir. Qitələrarası miqrasiyanın əsas istiqamətləri aşağıdakı kimi olmuşdur:

1) Avropa əhalisinin Asiya və Amerikaya miqrasiyası;
2) Afrikalıların məcburi olaraq Amerikaya köçürülmələri;
3) Avropalıların – əsasən ingilislərin Avstraliyaya miqrasiya edilməsi.

Bu səbəblərdən həmin qitələrin əhalisi sıçrayışla artmış, Avropa və Afrika əhalisinin az vaxt ərzində azalmasına təsir etmişdir.

Dünya əhalisinin yarıdan çoxu – 60 faizi Asiyada, 10 faizi Avropada, 14 faizi Amerikada, 12 faizi Afrikada, 3,5 faizi Avstraliyada, 0,5 faizi Okeaniyada, həmçinin, 16 faizi inkişaf etmiş, 76 faizi İnkişaf Etməkdə Olan, 8,1 faizi keçid iqtisadiyyatlı ölkələrdə (digər hesablamaya görə - 16 faiz inkişaf etmiş, 84 faizi İEOÖ-lərdə) yaşayır. Dünya əhalisinin 22 faizi Çində, 21 faizi Hindistanda və 5 faizi Şimali Amerikada, 2,5 faizi Rusiyada yaşayır.

Qlobal demokrafik problemlərin həllində materiklər, ölkələr, ölkə birlikləri və regionlar üzrə əhalinin yaş, cins, ictimai, milli, mərkəz, rayon, şəhər, kənd, əmək, sosial, təhsil, ixtisas, ailə və s. göstəricilər üzrə qruplaşdırılması, təhlil edilməsi siyasi və dövlət əhəmiyyəti kəsb edir.

Son 100 il ərzində dünyada güclü urbanizasiya prosesi gedir. Urbanizasiya – əhalinin şəhərlərə axını və yerləşməsi, ölkə və rayonların şəhərləşməsi deməkdir. Müasir urbanizasiya sistemini sürətləndirən amillər aşağıdakılardır:

1) Dünya əhalisinin İkinci Dünya müharibəsindən sonra sürətlə artması;
2) Sənaye və kənd təsərrüfatının elmi-texniki nailiyyətlər əsasında inkişafı;
3) İnfrastrukturun, nəqliyyatın inkişafı və təkmilləşməsi;
4) Təbii ehtiyatlardan istifadənin intensivləşməsi;
5) İctimai həyatda mədəni inqilabların baş verməsi və s.

Hazırda dünya əhalisinin 37 faizi şəhərlərdə, 63 faizi kənd yerlərində, müvafiq olaraq İnkişaf Etmiş Ölkələrdə 66/34, İEOÖ-lərdə isə 25/75 faizi yaşayır. Dünyada urbanizasiya prosesi artmış olsa da ölkələr üzrə bu fərqlənir.

Əhalinin təbii hərəkəti doğum və ölüm prosesidir, təbii artım isə doğum və ölüm prosesinin nəticəsidir, əhali törəməsi aradan gedən nəslin yeniləri ilə əvəz olunması prosesinə deyilir. Əhali törəməsi göstəricilərinə əhalinin doğumu, ölümü, tərkibi, sıxlığı, doğum əmsalı, ölüm əmsalı və s. daxildir.

Dünya ölkələri əhalinin doğum, ölüm və törəmə göstəricilərinə görə 3 qrupa bölünür və təhlil edilir:

I qrup: Çox doğum və çox ölüm olan ölkələr;
II qrup: Çox doğum və az ölüm olan ölkələr;
III qrup: Az doğum və az ölüm olan ölkələr.

Hər bir dövlət özünün demoqrafik siyasətini aparmaq məqsədi ilə müxtəlif dövrlərdən – əsasən 10 ildən bir əhalinin siyahıya alınmasını apararaq geniş məlumat bankı əldə edir. Demoqrafik siyasətin əsas vasitələrinə aşağıdakılar daxil edilir:

1) Əhali artımının planlaşdırılması;
2) Əhali artıqlığı və əhali azlığı;
3) Ailə planlaşdırılması;
4) Demoqrafik balansın tərtib edilməsi;
5) Ömrün uzadılması yolları;
6) Doğumun artırılması və ölümün azaldılması;
7) Urbanizasiyanın və suburbanizasiyanın tənzim edilməsi;
8) İşsizliyin azaldılması;
9) Təhsil və peşə ixtisasının artırılması;

10) İstehsalın və infrastrukturun səmərəli yerləşdirilməsi və s.

Dünya ölkələrində demoqrafik siyasətin regional xüsusiyyətləri vardır.

Afrika qitəsində əhalinin 25 faizinin ailəni nizamlama proqramı varsa, 13 ölkəsində bu proqram yoxdur, 21 ölkəsində bu proseslə maraqlanmır və bunun əleyhinədirlər.

Latin Amerikası ölkələri demoqrafik siyasətlərinə görə 5 yerə bölünür:

1. Əhalinin çox artmasını müdafiə edən ölkələr (Argentina, Uruqvay);

2. Əhali artımı haqqında heç bir proqram irəli sürməyən dövlətlər (Braziliya, Peru);

3. Ümumdövlət proqramı hazırlamaq niyyətində olan ölkələr (Kolumbiya, Meksika, Nikaraqua, Panama, Ekvador və s.);

4. Demoqrafik siyasət proqramını ölkənin iqtisadi və siyasi xətti ilə əlaqələndirməyi irəli sürən ölkələr (Kuba, Qvatemala);

5. Artımın zəiflədilməsi siyasətini aparan ölkələr (Salvador, Dominikan, Honduras və s.).

Asiyada ailənin planlaşdırması geniş yayılmışdır. Bəzi ölkələrin ailənin planlaşdırılması proqramı (Çin, Pakistan, Sinqapur, Şri-Lanka, Türkiyə və s.) vardır, bəzi ölkələrdə belə proqramlar yoxdur, lakin bu məsələ ilə səhiyyə və sosial təminat idarələri məşğul olur, bəzi ölkələr isə məşğul olmur (İran, Əfqanıstan).

Avropanın bir çox ölkələrində ailənin planlaşdırılması geniş miqyasda aparılır və artımı məhdudlaşdıran tədbirlər görülür (Danimarka, Hollandiya), bir neçə ölkə bunu ailənin daxili işi hesab edir (Avstriya, Fransa, Almaniya, Norveç), bir neçə ölkə rəsmi proqram hazırlamır (Yunanistan, İspaniya).

Avstraliyada ailənin planlaşdırılması aparılmır. Əksinə artımın təbliğatı tədbirləri keçirilir.

Demoqrafik problemlərin aktual problemlərinə dair mütəmadi olaraq BMT-nin müvafiq idarə və bölmələri beynəlxalq demoqrafik konqreslər, konfranslar və tədbirlər keçirir.

Müasir dövrdə dünya ölkələrində baş verən demoqrafik problemlərin yaranmasının əsas səbəbləri aşağıdakılar hesab edilir:

1) Əhalinin kortəbii artımı və ya azalması;

2) Əhalinin kortəbii yayılması və miqrasiyası;

3) Yaşayış məntəqələrinin salınmasının qeyri-səmərəliliyi;

4) Böyük şəhərlərin həddən artıq böyüməsi və şəhərətrafi yararsız məhəllələrin əmələ gəlməsi;

5) Yoxsulluq və onun azaldılması proqramlarının olmaması;

6) Savadsızlıq və onun ləğv edilməsi proqramlarının olmaması;

7) İşsizlik və onun azaldılması proqramlarının olmaması;

8) Xəstəliklər və onun qarşısının alınması proqramlarının olmaması;

9) Pozğunluqlar və onun qarşısının alınması proqramlarının olmaması (fahişəlik, uşaq alveri, narkomaniya və s.);

10) Aclıq və onun qarşısının alınması proqramlarının olmaması;

11) "Beyin axını" problemi və onun qarşısının alınması proqramlarının olmaması və s.

Bütün bu və bu kimi qlobal problemlərin qarşısının alınması və azaldılması hər bir ölkə üçün birtərəfli və qarşılıqlı çoxtərəfli əsaslarla öz həllinin tapılmasını tələb edir.

Ekspertlər 2100-cü ildə Avropa əhalisinin 40 faiz azalacağını qeyd edirlər. Araşdırmaların nəticələrinə görə, bu fakt doğum səviyyəsinin aşağı düşməsi və qadınların bir çoxunun gec yaşda ana olmaq istəyi ilə bağlıdır. Tarix boyu ilk dəfədir ki, əhalinin azalmasının kəskin şəkildə sürətləndiyi qeydə alınıb. Avstriya Elmlər Akademiyasının professoru Volfqanq Lutsun tədqiqatına görə, bu proses 2000-ci ildən başlanıb və daha çox gənc qadınların uşaq sahibi olmaması ilə bağlıdır.

Hesablamalara görə, 2065-ci ildə işləyən hər avropalıya iki təqaüdçü düşəcək. Professor Lutsa görə, əhalinin qocalma prosesinin sürətlənməsinin bir çox sosial və iqtisadi

səbəblərindən yan qaçmaq mümkündür. Bunun üçün hökumətlər stimullaşdırıcı şərait yaratmalıdırlar. Elə şəraitlər ki, qadınlarda daha erkən yaşlarda ana olmaq istəyi baş qaldırsın.

Statistik hesablamalar hazırda Avropada doğum səviyyəsinin orta göstəricisinin kəskin şəkildə azaldığını göstərir.

Demoqrafların mövqeyinə görə, gec yaşda ana olmaq tendensiyası 40 il də davam etsə, 2100-cü ildə Avropa İttifaqının əhalisi 55-114 mln azalacaq. Bu hesablamalar zamanı Aİ-yə digər regionlardan olan immiqrantları nəzərə almayıblar, ancaq alimlər onu da qeyd edirlər ki, işə yararlı olan əhali çatışmazlığını immiqrantların hesabına aradan götürməyə çalışmaq başqa tipli sosial problemlərə yol aça bilər.

# MÖVZU 7. DÜNYA AQRAR İSTEHSALI

## SUALLAR

1. Dünyanın kənd təsərrüfatı və onun fərləndirici xüsusiyyətləri.
2. Dünya kənd təsərrüfatı (aqrar) istehsalının strukturu.
3. Dünyada əsas bitkiçilik məhsullarının istehsalı və ixracı.
4. Dünyada əsas heyvandarlıq məhsullarının istehsalı, ixracı və idxalı.
5. Dünya ölkələrinin aqrar siyasətinin əsas istiqamətləri.
6. Qlobal ərzaq problemi.

## Ədəbiyyat


1. Lomakin V.K. Dünya iqtisadiyyatı, Bakı, 2015, səh. 191-207.
2. Quliyev Eldar. Aqrar iqtisadiyyat. Koperasiya nəşriyyatı, Bakı, 2015.
3. Salahov S. Aqrar sahənin dövlət rənzimlənməsi. Bakı, Nurlan, 2004.
4. Мировая экономика и международный бизнес. Под. ред. В. В. Полякова. КНОРУС, М., 2011, стр. 325-349.
5. Серова Е.В. Аграрная экономика. М.: Госуниверситет “Высшая Школа Экономики”, 1999.
6. World Development Indicators. World Bank, hər il.
7. FAOSTAT Database. https://apps.fao.org/page/collections.
8. Ümumdünya Ərzaq Proqramının (WFP) hesabatları.
9. Beynəlxalq Kənd Təsərrüfatının İnkişafı Fondunun (IFAD) hesabatları.


## 1. DÜNYANIN KƏND TƏSƏRRÜFATI VƏ ONUN FƏRLƏNDİRİCİ XÜSUSİYYƏTLƏRİ

Dünya kənd təsərrüfatının əsas istehsal amili torpaqdır.

Dünya əhalisinin ərzaq təminatının əsas mənbəyi kənd təsrrüfatıdır.

Dünyanın su resurslarının əsas istehlakçısı aqrar sektorun əsas alt sektoru olan kənd təsərüfatıdır.

Kənd təsərrüfatı dünya iqtisadiyyatının birinci sahə sektoru olan aqrar sektorun ilkin və əsas alt sektorudur.

Dünyanın kənd təsərrüfatı dünya aqrar sektorunun əsas hissəsidir.

Dünyanın kənd təsərrüfatı dünya iqtisadiyyatının üç sahə sektorunun ən qədimidir.

Dünyada təbiət cisimlik əlamətinə görə iki yerə bölünür:

1. Canlı təbiət (qidalanan, nəfəs alan, böyüyən və artan canlılar – bitkilər, heyvanlar və adamlar);
2. Cansız təbiət (cansız cisimlər – dağlar, daşlar və s.).

Canlı təbiət özü 4 yerə bölünür:

1. Canlı həyat (Yer planetində);
2. Mikroorqanizmlər (bakteriyalar, viruslar, göbələklər);
3. Bitki dünyası;
4. Heyvanat dünyası.

Cansız təbiət 3 yerə bölünür:

1. Litosfera (yerin altı və quruluşu);
2. Hidrosfera (su ərazisi);
3. Atmosfer və hava (göy ərazisi).

Canlı və cansız təbiətin bir-birinə qarşılıqlı təsiri: Günəş, hava, su və torpaq. Biri o birinə təsir edir, biri olmasa, digəri də ola bilməz.

Canlı təbiətdə təbii heyvanların sayı azalır (fil, meymun, ayı, pələng, dəvə və s.), təsərrüfat heyvanlarının və quşların sayı artır. 14 000 ildir ki, kərgədanların nəsli kəsilib.

Flora – dünyada olan bütün bitki qruplaşmalarının cəmidir.

Flora fondu – müəyyən regionun bitki növlərinin məcmusudur: Azərbacan florası, Qafqaz florası və s.

Yerin florası hazırda 375 min növü birləşdirir ki, bununda 250 mini çiçəkli bitkilərin payına düşür. Dünyada 11 mindən çox gül növü vardır.

Fanuna – dünyada olan bütün heyvan növlərinin məcmusudur.

Fauna fondu – müəyyən bir regionun heyvanat aləmi növlərinin məcmusudur.

Dünya tarixində heyvanların 1 mln-dan çox, bitkilərin 500 minə qədəri və göbələklərin 100 mindən çox növü olmuşdur.

Dünyada kənd təsərrüfatı məhsullarının əsas vətəni aşağıdakı ərazilər hesab edilir:

1. Buğda – qədim Mesopotamiya (indiki İraq);
2. Düyü – Şərqi Asiya;
3. Qarğıdalı – Şimali Amerika (Meksika);
4. Kartof – Cənubi Amerika (Boliviya);
5. Üzüm – Yaxın Şərq (Türkiyə);
6. Alma – Cənubi Qazaxıstan və Qırğızıstan;
7. Qoz (yunan qozu) – Yunanıstan;
8. Pambıq – Hindistan;
9. Zəfəran – Cənubi Avropa və Azərbaycan (Abşeron yarımadası);
10. İpək – Çin və s.

Tarixi mənbələrdə kənd təsərrüfatı məhsullarının yabanı haldan mədəni hala keçməsinə qədərki 10 minlərlə illərdə bu məhsulların əmələ gəlməsi, yayılması, məskunlaşması və indiki dövrə qədərki tarixi yolu haqqında elmi maraq doğuran materiallar verilir.

Dünyada aqrar sektorun – xüsusilə kənd təsərrüfatı və ərzaq məhsullarının istehsalı, tədarükü, emalı, istehlakı, ehtiyatı, idxalı, ixracı və ticarəti haqqında materialları ölkələrdən alan, toplayan, təhlil edən, ümumiləşdirən, tövsiyyələr hazırlayan, maliyyələşdirən, yardım göstərən, milli dövlətlərlə əlaqələr yaradan əsas təşkilatlar FAO, ÜƏP və İFAD-dır.

**FAO – Food and Agriculture Organization of the United Nations (BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı).**

**Devizi – Latınca "Fiat Panis" – "Çörək Olacaq"**

Əsas vəzifəsi dünyada əhalinin ərzaq təminatı, aclığa qarşı mübarizə və ölkələr arasında ərzaq təhlükəsizliyinin siyasi həllidir.

Qərargah mənzili Romadadır (İtaliya). 194 ölkə üzvdür və 2 ölkə assosiasiv üzvdür. Əsas dilləri – ingilis, ispan, fransız, rus, çin və ərəb dilləridir. 16 oktyabr 1945-ci ildə yaradılıb.

Böyük strukturu – baş direktor dəftərxanası, 8 departamaneti, idarələri, şöbələri, büroları, bölmələri, törəmə qurumları və s. fəaliyyət göstərir.

FAO-nun, həmçinin, YUNESCO, YUNİSEF və YUNEYDS-in (yoluxucu xəstəliklər – SPİD və s.) xoşməramlı səfirləri seçilir (YUNEYDS – BMT-nin VİÇ/SPİD üzrə Birləşmiş Proqramı).

16 oktyabr 1945-ci il – FAO-nun yarandığı gün hər il dünyada "Ümumdünya Ərzaq Günü" kimi qeyd edilir.

## Ümumdünya Ərzaq Proqramı
## (World Food Programme – WFP)

Dünyada nəhəng humanitar təşkilatlardan biridir. Hər il ehtiyacı olan ölkələrə 4 mln t-dan çox qida məhsulu göndərir.

1963-cü ildə BMT sistemində ərzaq yardımı orqanı kimi yaradılıb.

İnzibati mərkəzi Romadadır (İtaliya). BMT-nin hökumətlərarası təşkilatıdır.

## Beynəlxalq Kənd Təsərrüfatının İnkişafı Fondu (International Fund for Agricultural Development – IFAD)

BMT-nin ixtisaslaşdırılmış təşkilatıdır. Maliyyə resurslarının yaradılması ilə məşğuldur. 1974-cü il Ümymdünya Ərzaq Konfransı çərçivəsində qəbul edilən razılaşmaya görə 1977-ci ildə yaradılıb.

Qərargah – mənzili Romadadır (İtaliya).

Əsas məqsədi İEOÖ-lərdə kənd əhalisi yoxsulluğunun ləğv edilməsidir. Ona görə ki, dünyanın yoxsul əhalisinin 75 faizi bu ölkələrin kənd yerlərində yaşayır. Ayrılan maliyyə vəsaitinin isə yalnız 4 faizi kənd yerlərində aqrar sektorun payına düşür və onlara gedib çatır.

IFAD-n hesabatlarında bu məsələlər geniş verilir.

**Dünya kənd təsərrüfatının fərqləndirici xüsusiyyətləri aşağdakılardır:**

1. Kənd təsərrüfatı olmayan ölkə yoxdur.
2. Əsas vəzifəsi əhalini qida və ərzaq, yeyinti və yüngül sənayeni xammalla təmin etməkdir.
3. Maddi istehsalın yeganə sahəsidir ki, təbii şəraitdən birbaşa asıldır.
4. Kənd təsərrüfatı sahəsi dünyanın müxtəlif ölkələri və regionları üzrə tamamilə fərqlənir.
5. Dünya kənd təsərrüfatında dünyanın iqtisadi aktiv əhalisinin 1 mlrd nəfəri (13 faizi) işləyir.
6. Ölkənin ərzaq təhlükəsziliyi bu sahədən birbaşa asılıdır.
7. Dünya ölkələrində kənd təsərrüfatının inkişaf sahələri və məhsuldarlığı 5 iqlim qurşağından asıldır.
8. Dünyada kənd təsərrüfatı istehsalına 12000 il bundan əvvəl başlanmışdır.
9. Dünya ölkələrində kənd təsərrüfatının istehsalı, əsasən, dövlət subsidiyaları hesabına başa gəlir.
10. Dünyada quru ərazilər artmadığına və əksinə azaldığına görə kənd təsərrüfatı intensivləşdirmə əsasında inkişaf etdirilir (gübrələmə, gendəyişmə və s.).
11. Bu sahədə istehsalın əsas amili torpaqdır.
12. Torpağı artırmaq və istehsal etmək mümkün deyildir.
13. Münbit torpaq sahələri ildən-ilə azalır və kənd təsərrüfatı dövriyyəsindən çıxır.
14. Kənd təsərrüfatı istehsalı mövsümi xarakter daşıyır.
15. Texnikadan, maşın və avadanlıqlardan istifadə dövrlər üzrə qeyri-bərabər olur.
16. Fəsillər üzrə kənd təsərrüfatı məhsullarının qiymətləri daim dəyişir.
17. Bu sahənin tullantıları digər sahələrdə istifadə edilir (bitkiçilik – küləş, heyvandarlıq – yem; heyvandarlıq – peyin; əkinçilik – kübrə və s.).

Dünya təsərrüfatının ən qədim sahəsidir, məhsul istehsalı sahəsi kimi kənd təsərrüfatına 12 min il bundan əvvəl başlanılmışdır.

Dünyada iqtisadi aktiv əhalinin 1,1 mlrd nəfərə qədəri, 14,4 faizi, kənd təsərrüfatında çalışır.

Dünya ölkələrinin kənd təsərrüfatının vəziyyətinə iqlim qurşaqları birbaşa təsir edir. İqlim qurşaqları beş qurşağa bölünür:

1. Soyuq qurşaq;
2. Sərin qurşaq;
3. Mülayim qurşaq;
4. İsti qurşaq;
5. Çox isti (yandırıcı) qurşaq.

İqlim qurşaqları içərisində əsas kənd təsərrüfatı məhsulları mənbəyi kimi, hətta ildə iki dəfə məhsul verən isti qurşaqlar mühüm rol oynayır. Təbii iqlim şəraiti kənd təsərrüfatı məhsullarının istehsalı və tədarükündə başlıca rol oynayır. Mülayim qurşaqlar ikinci yer tutur. Çox isti qurşaqlar, əsasən, səhra və yarımsəhra ərazilərdir. Əhalinin məskunlaşması və aqrar məhsulların istehsalında əhəmiyyət kəsb etmir. Soyuq qurşaq əraziləri, əsasən, kənd təsərrüfatı məhsulları idxal edən ölkələrdir.

Dünyanın kənd təsərrüfatı təbiətin dörd ünsürü – su, torpaq, yel(hava), odun(Günəş) üzərində qurulur və formalaşır. Bu dörd ünsürün mövcudluğu, bir-birini tamamlaması və həmahəngliyi ilə canlılar yaranıb. Canlıların alisi və dünyanın əşrəfi insandır. Minilliklər boyu insan təbiətlə ünsiyyətdən bəhrələnib. İlk yaranan torpaqdır, torpağı canlandıran sudur, bir-biri ilə birləşdirən havadır və gücləndirən isə istidir, oddur, daha dəqiq deyilsə Günəşdir. Bütün canlı təbiət – bitkilər və heyvanlar məhz dörd ünsürdən yaranıb, hərəkətə gəlib, inkişaf edib, nəticədə kənd təsərrüfatı bir sahə kimi formalaşıb. Müqəddəs kitabımız "**QURANİ – KƏRİM**"də Allah-taala göstərir ki, "Mən Yerdə, Göyə nə varsa, Sizin üçün yaratdım". Deməli təbiət yalnız yerlə məhdudlaşmır. Günəş göz cisimlərinin tacı və həyat çeşməsidir. O sakinləri olduğumuz Yer kürəsini isidir, bütün canlılara həyat verir. Əgər bir neçə dəqiqəliyə günəş sönsə, kainat zülmətə qərq olar, buz bağlayar və həyat məhv olar. Deməli, dünyanın kənd təsərrüfatı günəş, torpaq, su və hava üzərində yaranıb, yaşayıb və qiyamət gününə qədər davam edəcəkdir.

Torpaq, ərazi – insan həyatının əsası, bazisi, bünövrəsi, varlığı və mənliyidir. Bunun üzərində bəşəriyyət yaranmış, inkişaf etmiş, fəaliyyət göstərmiş və əbədi davam edir. Torpaqsız, ərazisiz insanlar və dövlətlər arasında qarşılıqlı əlaqə və münasibətlər baş verə bilməz. İnsan həyatının mövcudiyyəti üçün zəruri, ilkin maddi baza olan ərzaq məhsulları və xammal, məhz torpağın altı və üstündə əmələ gəlir.

İnsan həyatı üç qida – çörək, duz və su üzərində qurulmuşdur. Dünyanın (insanların) ən böyük kəşfi **çörəkdir.**

## 2. DÜNYA KƏND TƏSƏRRÜFATI (AQRAR) İSTEHSALININ STRUKTURU

Dünya iqtisadiyyatının strukturu öz tərkibində dörd struktura - ərazi, sahə, geniş təkraristehsal və sosial-iqtisadi struktura bölünür (1-ci mövzuya bax). Dünya iqtisadiyyatının sahə strukturu isə üç sektora – birinci sektor – aqrar (kənd təsərrüfatı), ikinci sektor – sənaye (industriya) və üçüncü sektor – xidmət sektorlarına bölünür. Bəzən məhsulun (əmtəənin) əmələgəlmə mənbəyinə əsaslanaraq sahə sektorunun birinci sektoruna ilkin sektor kimi kənd təsərrüfatı (aqrar) və hasilat sənayesi, ikinci sektoruna isə emal sənayesi və tikinti daxil edilir.

Bütün xammal və yarımfabrikatlar burada yaranır və ikinci sektor olan emal sektoruna keçir. İkinci sektor – emal sektorunda hazır məhsula çevrilir və üçüncü sektor olan xidmət sektorunda başa çatır.

Kənd təsərrüfatı və hasilat başlanğıcdır, ilkin mərhələdir və növbəti prosesləri hərəkətə gətirir. İstehsal nöqteyi-nəzərindən istehsal sənayeni və kənd təsərrüfatını, sənaye isə öz tərkibində hasilat və emal sənayesini birləşdirir.

Nəzərə almaq lazımdır ki, beynəlxalq təşkilatlar dünya iqtisadiyyatının sahə strukturunun birinci sektorunu aqrar sektor kimi qruplaşdırır və aqrar sektoru dörd alt sektora bölür:

1. Kənd təsərrüfatı;
2. Meşə təsərrüfatı;

3. Balıqçılıq təsərrüfatı;
4. Ovçuluq təsərrüfatı.

Kənd təsərrüfatı alt sektoru bütün ölkələrdə olduğu və geniş əhatə dairəsinə malik olduğu üçün də aqrar sektor yox, kənd təsərrüfatı sektoru kimi işlədilir. Bu isə dörd alt sektordan birincisi və əsasıdır. Qalan üç alt sektor – meşə, balıqçılıq və ovçuluq sektorları isə bütün ölkələrdə yoxdur. Bu ölkələrin qitələrdəki yerləşmə mövqeyindən və iqlim şəraitindən asılı olaraq fərqlənir.

Dünyanın kənd təsərrüfatı iki sahəyə bölünür: bitkiçilik 72 və heyvandarlıq 16 alt sahələrə bölünür.

**Bitkiçilik sahələrinə** dörd əsas alt sahə daxildir:
1. Meyvəçilik;
2. Tərəvəzçilik;
3. Əkinçilik (tarlaçılıq);
4. Bitkiçilik.

**Heyvandarlıq** sahələrinə beş əsas alt sahə daxildir.
1. Maldarlıq (istehsalın 25 faizi);
2. Qoyunçuluq (4 faizi);
3. Donuzçuluq (40 faizi);
4. Quşçuluq (30 faizi);
5. Balıqçılıq (1 faizi).

Hər bir alt sahə özlüyündə subalt sahələrə bölünür.

Məsələn, maldarlıq üç subalt sahəyə bölünür:
1. Ətlik maldarlıq;
2. Südlük maldarlıq;
3. Ət-südlük maldarlıq və s.

Bitkiçilik dörd subsahəyə bölünür:
1. Taxılçılıq;
2. Texniki bitkiçilik;
3. Bağçılıq (meyvəçilik və tərəvəzçilik);
4. Yemçilik və s.

Dünyada son 90 ildə aqrar (kənd təsərrüfatı) sektor ilə sənaye (industriya) sektoru arasında güclü inteqrasiya prosesi getmişdir. Kənd təsərrüfatı və sənaye müəssisələrinin təşkilati və kommersiya birliklərinin birgə fəaliyyəti prosesində Aqrar Sənaye Kompleksi (ASK) formalaşır, kənd təsərrüfatı və sənaye müəssisələrinin vahid sistemi yaranır.

ASK bütün istehsal zəncirini əhatə etməklə üç sferaya bölünür:

I. Sfera – Kənd təsərrüfatı üçün istehsal vasitələri istehsal edən və bu sahələrə istehsal-texniki xidmət göstərən sənaye sferası;

II. Sfera – Kənd təsərrüfatı sferası (əkinçilik və heyvandarlıq);

III. Sfera – Ərzaq və kənd təsərrüfatı xammalının daşınması, emalı və satışı sferası.

Fəaliyyət sahələrinə görə ASK iki sahəyə bölünür:
1) Kənd təsərrüfatı (əkinçilik və heyvandarlıq);
2) Qarışıq sahələr – meşə təsərrüfatı, ovçuluq, balıqçılıq və s.).

İnkişaf Etmiş Ölkələrdə ASK-nın bütün istehsal zəncirinin III sferası daha sürətlə inkişaf edir, II sferanın – kənd təsərrüfatının xüsusi çəkisi azalır. ABŞ-da bütün ərzaq məhsullarının 75 faizi III sferada yaradılır.

Dünyada ASK sferalarının nisbəti 30:10:60 faizdir. ÜDM-də kənd təsərrüfatı 2-3 faiz təşkil edir. Ümumi işçi qüvvəsinin 3-4 faizi bu sahənin payına düşür.Keçid iqtisadiyyatlı ölkələrin ASK-sının strukturunda II sferanın – kənd təsərrüfatının payı daha çoxdur. İnkişaf Etməkdə olan Ölkələrdə (İEOÖ) kənd təsərrüfatının ənənəvi istehsal və istehlakı yüksəkdir, tədarük və emal aşağı səviyyədədir, əsasən, ev təsərrüfatları bu işlə məşğul olur. Tropik və subtropik bitkilər, əsasən, bu ölkələrdədir (kofe, kakao, çay, təbii kauçuk, banan, şəkər çuğunduru və s.).

Dünyanın kənd təsərrüfatı dünya əhalisinin, insanların qidaya olan tələbatını ödəyən əvəzolunmaz sahəsidir. Ümumi dünya üzrə insanların qida tələbatlarının ödənilməsinin baza məhsulları cədvəl 7.1-də verilmişdir. Dünya üzrə insanların ərzaq məhsulları ilə təmin olunmasında bitkiçilik məhsulları 84 faiz, heyvandarlıq məhsulları isə 16 faiz təşkil edir.

**Cədvəl 7.1**

**İnsanların qida tələbatının ödənilməsində əsas baza məhsulların payı**

| № | Məhsul qrupları | İstehlakda payı, faizlə |
|---|---|---|
| 1. | Taxıl | 56 |
| 2. | Heyvandarlıq məhsulları (xammalı) | 11 |
| 3. | Meyvə və tərəvəz | 10 |
| 4. | Yağ və piylər | 9 |
| 5. | Şəkər | 7 |
| 6. | Kökümeyvəlilər | 7 |
| | **CƏMİ:** | 100 |

7.1-ci cədvəldən göründüyü kimi, dünyada insanların ərzaq məhsullarına olan tələbatında əsas məhsul – bitkiçilik məhsullarının əsasını təşkil edən taxıl (56 faiz) və heyvandarlıq məhsullarının əsasını təşkil edən heyvandarlıq məhsulları və xammalıdır (11 faiz). Digər ərzaq məhsulları istehsal zəncirinin sonrakı mərhələlərində yaranır və yeni-yeni ərzaq məhsulları əmələ gəlir.

Dünya iqtisadiyyatının sektorlar üzrə ÜDM-i regionlar üzrə dünya təsərrüfat sisteminin vəziyyətini əks etdirir.

**Cədvəl 7.2**

**Dünyada yardılan ÜDM-in (dəyərin) sahə sektorları üzrə payı, faizlə**[1]

| № | Regionlar və ölkələr | İstehsal sferasında | | | Xidmət sferasında |
|---|---|---|---|---|---|
| | | Cəmi: | Sənayedə | Kənd təsərrüfatında | |
| 1. | Yüksək gəlirli ölkələr | 27,0 | 26,0 | 1,0 | 73,0 |
| 2. | Orta gəlirli ölkələr | 46,8 | 37,2 | 9,6 | 53,2 |
| 3. | Aşağı gəlirli ölkələr | 54,0 | 28,8 | 25,2 | 46,0 |
| 4. | Avrozona | 28,5 | 26,7 | 1,8 | 71,5 |
| 5. | Avropa və Mərkəzi Asiya | 40,4 | 33,6 | 6,8 | 59,6 |
| 6. | L.Amerikası və Karib hövzəi | 38,9 | 32,6 | 6,3 | 61,1 |
| 7. | Ş. Asiya və Sakit Okean | 58,8 | 47,0 | 11,8 | 41,2 |
| 8. | Orta Şərq və Ş. Amerika | 51,4 | 40,1 | 11,3 | 48,6 |
| 9. | Cənubi Asiya | 47,6 | 29,0 | 18,6 | 52,5 |
| 10. | Saxaradan Cənuba Afrika | 47,2 | 32,0 | 15,2 | 52,9 |
| | **Dünya:** | 31,0 | 28,0 | 3,0 | 69,0 |

Ölkələrin inkişaf səviyyəsini göstərən ən mühüm göstərici ÜDM-in iqtisadi sektorlar üzrə vəziyyətidir. 7.2-ci cədvəldən görünür ki, İEOÖ-lərdə və üçüncü dünya ölkələrində kənd

[1] World Development Indicators. 2018, Vaşinqton

təsərrüfatında yaradılan dəyər (ÜDM) İEO-lərə nisbətən çoxdur: aşağı gəlirli ölkələrdə 20-25 faiz, Cənubi Asiyada 18 faiz, Saxaradan Cənuba Afrikada 15 faiz, orta gəlirli ölkələrdə 10 faizə yaxındır. İEÖ-lərdə isə 1-2 faizdir. Sonrakı yerlərdə sənaye və xidmət sektoru gəlir. Xidmət sektorunun ÜDM-dəki payı yüksək gəlirli ölkələrdə 73,0 faiz və Avrozonada 71,5 faizdir (7.2-ci cədvələ bax). Ümumi dünya üzrə ÜDM-də kənd təsərrüfatı 3,0 faiz, sənayedə 28 faiz (cəmi istehsalda 31,0 faiz) və xidmət sektorunda isə 69 faizdir. Deməli, xidmət sektorunda ÜDM-in yüksək olması ölkənin yüksək inkişaf səviyyəsini göstərir. Son 30 ildə dünyada xidmət sektoru daha sürətlə artır. Amma nəzərə almaq lazımdır ki, dünyada və xüsusilə Asiyada əhalinin sayı sürətlə artır. Ərazi, torpaq sahəsi, su və digər təbii resurslar isə artmır və tükənir. Ona görə də, digər sektorlara nisbətən kənd təsərrüfatı məhsullarının istehsalı, tədarükü və emalı dünyanın birinci problemidir. XXI əsrin ən böyük problemi dünyada təmiz hava, təmiz su və təmiz qida problemidir. Artıq dünyada su ikinci neft hesab edilməyə başlanılıb.

## 3. DÜNYADA ƏSAS BİTKİÇİLİK MƏHSULLARI İSTEHSALI VƏ İXRACI

Dünyanın aqrar (kənd təsərrüfatı) istehsalı dünyada mövcud olan quru və su əraziləri üzrəində formalaşır. Əgər birinci sektor olan aqrar sektorun kənd təsərrüfatı və meşə təsərrüfatı quru ərazilərdə formalaşırsa, balıqçılıq və ovçuluq təsərrfatları quru və su ərazilərdə formalaşır. Quru ərazilər ölkələrin və dünyanın torpaq fondunu əmələ gətirir və bir-birindən fərqlənir. Dünyanın bitkiçilik və heyvandarlıq məhsulları məhz torpaqlar üzərində əmələ gəlir.

Dünya torpaq fondunun strukturu aşağıda verilmişdir:

1. 33 faiz – az məhsuldar torpaqlar (səhra, bataqlıq, donmuş torpaqlar, buzlaqlar və s.);
2. 30 faiz – meşəliklər;
3. 23 faiz – çəmənliklər və otlaqlar;
4. 11 faiz - əkilən torpaqlar (əkin yerləri, bağlar, üzümlüklər və s.);
5. 3 faiz – antropogen landşaft (yaşayış məntəqələri, sənaye zonaları, nəqliyyat xəttləri və s.).

Göründüyü kimi, dünya torpaq fondunun 36 faizi az məhsuldar torpaqlar və 3 faizi antropogen torpaqlar, 30 faizi meşəliklər, 23 faizi çəmənliklər və otlaqlardır, yalnız 11 faizi əkilən torpaqlardır. Bu da onu göstərir ki, dünyada bitkiçilik üçün yararlı torpaq fondu çox azdır. Bitkiçilik üzrə 72 məhsuldan əsas məhsulların istehsalının öyrənilməsi lazım gəlir.

### Buğda

Dənli bitkilərin cəmi olan taxıl - əsas taxıl tipli bitkilərə (buğda, arpa, çovdar, vələmir) və darıyabənzər taxıl bitkilərinə (darı, düyü, qarğıdalı) bölünür.

Buğda əsas ərzaq bitkisidir, əkin sahəsinə görə dünyada birinci yeri tutur. Dünyada ilk əkilən bitkidir. B.e.ə. 700-800-cü illərdə Qərbi Asiyada əkilməyə başlanılıb.

Dünyanın 70 ölkəsində hər il 700 mln t-dan çox buğda istehsal edilir. Buğda, əsasən, Çin, ABŞ, Kanada, Argentina, Rusiya, Avstraliya, Fransa, Qazaxıstan və Ukranyada istehsal edilir. Ən iri buğda ixracatçıları ABŞ, Kanada, Avstraliya, Argentina və Fransadır. Buğdanın yarıdan çoxunu Asiya, Afrika və Latın Amerikası ölkələri ərzaq məqsədilə, Qərbi Avropa və Yaponiya isə yem taxılı kimi idxal edir.

Dünyada buğda istehsalı üzrə məlumatları FAO və İƏİT (OCED), dünya taxıl istehsalının 70 faizini 10 nəhəng taxıl istehsalçısı olan ölkə, 92 faizini 30 ölkə verir. 100-dən artıq ölkədə taxıl istehsal edilir, dünyanın 53 ölkəsində il ərzində 1 mln t-dan çox taxıl istehsal olunur. Dünya taxıl istehsalının 17 faizini Çin XR, 13 faizini Hindistan, 8 faizini Rusiya, 7

faizini ABŞ, 5 faizini Kanada, 5 faizini Fransa, 4 faizini Ukranya, 3 faizə yaxınını Türkiyə istehsal edir.

Bütün dünya əhalisinin əsas qidası olan buğda istehsalının vəziyyəti 7.3-cü cədvəldə verilmişdir.

7.3-cü cədvəldən göründüyü kimi, dünya ölkələri üzrə 2016-cı ildə 2000-ci illə müqayisədə buğda istehsalı Ukraynada 2,5 dəfə, Rusiyada 2,1 dəfə, Özbəkistanda 1,6 dəfə artmışdır. Bu dövrdə dünya üzrə əhali artımı isə 20 faiz artmışdır. Hətta bəzi ölkələrdə - Fransada, Türkiyədə taxıl istehsalı azalmışdır. Azərbaycan taxıl istehsalına görə 2014-cü ildə dünyada 46-cı yerdə olmuşdur (1,41 mln t). Əgər dünyada 2000-ci ildə 585,9 mln t buğda istehsal edilmişdirsə, 16 ildən sonra – 2016-cı ildə dünyada 749,5 mln t (127 faiz) buğda istehsal edilmişdir.

**Cədvəl 7.3**

**2000-2016-cı illərdə dünya ölkələri üzrə buğda istehsalı (mln t)[1]**

| № | Ölkələr | 2000 | 2005 | 2010 | 2016 | 2016-cı ildə 2000-ci ilə nisbətən, faizlə |
|---|---|---|---|---|---|---|
| 1. | Çin XR | 99,6 | 97,4 | 115,1 | 131,7 | 132,2 |
| 2. | Hindistan | 76,3 | 68,6 | 80,7 | 93,5 | 122,5 |
| 3. | Rusiya | 34,4 | 47,6 | 41,5 | 73,3 | 213,0 |
| 4. | ABŞ | 60,7 | 57,2 | 60,1 | 62,9 | 103,6 |
| 5. | Kanada | 26,5 | 25,7 | 23,1 | 30,5 | 115,0 |
| 6. | Fransa | 37,3 | 36,8 | 38,2 | 29,5 | 79,0 |
| 7. | Ukranya | 10,1 | 18,6 | 16,8 | 26,1 | 258,4 |
| 8. | Pakistan | 21,0 | 21,6 | 23,3 | 26,0 | 123,8 |
| 9. | Almaniya | 21,6 | 23,6 | 24,1 | 24,5 | 113,4 |
| 10. | Avstraliya | 22,1 | 25,1 | 22,1 | 22,3 | 100,9 |
| 11. | Türkiyə | 21,0 | 21,5 | 19,6 | 20,6 | 98,0 |
| 13. | Qazaxıstan | 9,0 | 11,1 | 9,7 | 15,0 | 166,6 |
| 15. | İran | 8,0 | 14,3 | 15,0 | 11,1 | 138,7 |
| 20. | Özbəkistan | 3,5 | 6,1 | 6,7 | 6,9 | 197,1 |
| | **CƏMİ:** | 585,9 | 626,9 | 651,3 | 749,5 | 127,9 |

Dünya taxıl bazarında ciddi təlatümlər baş verməkdədir. BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) proqnozuna (məlumatına) görə dünya taxıl istehsalı 2020-ci ildə əvvəlki illə müqayisədə 2,4 faiz azalaraq 2,6 mlrd t təşkil edəcəkdir.

2018-ci ildə Azərbaycanda 2 mln 820 min t taxıl istehsal edilmişdir ki, bu da 2017-ci illə müqayisədə 2 faiz çoxdur. Azərbaycan respublikası Kənd Təsərrüfatı Nazirliyinin məlumatına görə bunun 1 mln 844 min t-u, yəni 65,3 faizi buğda, qalan 976 min t-u digər taxıl məhsulları olmuşdur.

Nəzərə almaq lazımdır ki, hər bir ölkədə olduğu kimi Azərbaycanda da taxılın bir hissəsi taxıl ehtiyatına yönəldilir. Azərbaycanda taxıl ehtiyatı Fövqəladə Hallar Nazirliyinin Dövlət Material Ehtiyatları Agentliyinin Dövlət Taxıl Fondu tərəfindən formalaşdırılır.

## Düyü

Dünyada düyünü ikinci çörək adlandırırlar. Düyü (Latınca oryza) dünya əhalisinin 50%-nin əsas yeməyinin ikincisidir. Ən çox düyü istehlak edən ölkələr Vyetnam, Banqladeş, İndoneziya, Hindistan və Çindir.

Ən qədim dənli bitkilərindən biri hesab edilir. Vətəni Asiya – Hindistan və Çindir. Becərilmə tarixi 7000 ilə çatır. Ticarətdə məhşur olan ərəblər düyünü Nilin münbit vadisinə bu eranın əvvəllərində gətirmiş, Sicilya adasında isə 827-ci ildən, ümumiyyətlə, Avropada

[1] FAOSTAT Database, 2017

XIV-XV əsrlərdən, Şimali Amerikada XVI-XVII əsrlərdən əkilməyə başlanılmışdır. Düyü ərzaq bitkiləri içərisində ən mühümü olub, Yer kürəsi əhalisinin yarıdan çoxu onunla qidalanır.

Rusiyaya düyü I Pyotrun təşəbbüsü ilə gətirilib. O tacirləri düyü gətirmək üçün Özbəkistana göndərib. Gətirilən düyü əvvəlcə Həştərxanda əkilib. Rusiyada düyü XX əsrdən becərilməyə başlanılıb. Düyünün ən yeni məskəni Avstraliyadır. Statistik məlumata görə XX əsrin 80-ci illərində dünya üzrə təxminən 375 mln t düyü istehsal edilmişdir. Hazırda yer kürəsi əhalisinin 50 faizə qədərini qidalandıran da düyüdür. İl ərzində dünyada hər bir nəfər orta hesabla 58 kq düyü istehlak edir.

Dünya düyü istehsalında əsas qitə Asiyadır. Bunu 7.4-cu cədvəl əyani göstərir.

**Cədvəl 7.4**

**Dünya ölkələri üzrə düyü istehsalı (mln t)[1]**

| № | Ölkələr | 2014 | 2016 |
|---|---|---|---|
| 1. | Çin | 206,5 | 211,1 |
| 2. | Hindistan | 157,2 | 163,7 |
| 3. | İndoneziya | 70,8 | 79,4 |
| 4. | Banqladeş | 53,2 | 50,5 |
| 5. | Vyetnam | 44,9 | 43,1 |
| 6. | Tayland | 32,6 | 25,8 |
| 7. | Myanma | 26,4 | 21,3 |
| 8. | Filippin | 18,9 | 12,4 |
| 9. | Nigeriya | 6,0 | 11,3 |
| 10. | Braziliya | 12,2 | 10,6 |
| 11. | Pakistan | 10,5 | 10,3 |
| 12. | ABŞ | 10,1 | 10,2 |

Görünür ki, 2016-cı ildə 2014-cü ilə nisbətən düyü istehsalı üzrə əsas ölkələrdə istehsalın həcmi artmış, nisbətən düyü istehsalı üzrə kiçik ölkələrdə istehsalın həcmi azalmışdır. Məsələn, Banqladeş, Tayland və Myanmada. Bəzi hesabatlarda istehsalın həcmi illər üzrə, bəzi hesabatlarda isə əkin ili və ya mövsümü ilə verilir. Rəqəmlərdəki fərqlər ölkələrin statistik qurumları və metodologiyaları ilə əsaslandırılır.

7.4-cü cədvəldən göründüyü kimi dünyada ən çox düyü istehsal edən ölkələr Çin və Hindistandır. Dünya üzrə düyü istehsalının təqribən yarıya qədəri bu ölkələrin payına düşür. Sonrakı yerlərdə İndoneziya, Banqladeş, Vyetnam və digər dövlətlər gəlir.

**Cədvəl 7.5**

**2000-2016-cı illərdə dünyada düyü istehsal [2]**

| İllər | Milyon t |
|---|---|
| 2010 | 487 |
| 2015 | 514 |
| 2016 | 518 |

Dünyada buğdadan fərqli olaraq düyünün fərqləndirici əlamətlərindən biri onun istehsalı və istehlakında regionallığıdır. Bütün regionlarda düyü bitmir.

[1] FAOSTAT Database, 2017, https://apps.fao.org/page/collections

[2] FAOSTAT Database, 2017.

## Qarğıdalı

Dənli bitkilərdən biri də qarğıdalıdır. Latınca – "Zea" mays, rus dilində mais adlanır. Bir çox növləri vardır. Əsas növü şəkər qarğıdalısıdır. Vətəni indiki Meksikadır (Şimali Amerika). 7-12 min il bundan əvvəl becərilməyə başlanılıb. 8700 il bundan əvvəl ev mətbəxinə daxil olub. Ən çox istifadə sahələri – kütləvi iaşə, qida, tibb və yemçilikdir.

Dünyada dənli bitkilər içərisində buğdadan sonra ikinci yerdə ən çox satılan qarğıdalıdır. Hər il dünyada 100 mln t-dan çox qarğıdalı ixrac edilir.

Dünyada qarğıdalı istehsalının vəziyyəti 7.6-cı cədvəldə verilmişdir.

**Cədvəl 7.6**

**Dünyada qarğıdalı istehsalı [1]**

| İllər | Milyon t |
|---|---|
| 1970 | 265,9 |
| 1980 | 396,7 |
| 1990 | 483,3 |
| 2000 | 592,4 |
| 2005 | 713,4 |
| 2009 | 818,9 |

7.6-cı cədvəldən görndüyü kimi, dünyada qarğıdalı istehsalı XX əsrin 60-80-ci illərindən sürətlə artmışdır.

Qarğıdalı istehsalı ölkələr üçün də qeyri-bərabərdir. Əsas istehsalçı region Amerikadır. Qarğıdalı istehsalı üzrə əsas ölkələr 7.7-ci cədvəldə verilmişdir.

**Cədvəl 7.7**

**Qarğıdalı istehsalı üzrə əsas dünya ölkələri (mln t) [2]**

| № | Ölkələr | 1985 | 1995 | 2005 | 2016 |
|---|---|---|---|---|---|
| **1.** | ABŞ | 225,4 | 187,9 | 282,2 | 384,7 |
| **2.** | Çin | 64,1 | 112,3 | 139,4 | 231,6 |
| **3.** | Braziliya | 22,1 | 36,2 | 35,1 | 64,1 |
| **4.** | Argentina | 11,9 | 11,4 | 20,4 | 39,7 |
| **5.** | Meksika | 14,1 | 18,3 | 19,3 | 28,2 |
| **6.** | Ukranya | - | 3,3 | 7,1 | 28,0 |
| **8.** | İndoneziya | 4,3 | 8,2 | 12,5 | 20,3 |
| **9.** | Rusiya | - | 1,7 | 3,0 | 15,3 |
| **12.** | Ruminya | 11,9 | 9,9 | 10,3 | 10,7 |
| **18** | Serbiya | - | - | - | 7,3 |

7.7-ci cədvəldən görünür ki, dünyada qarğıdalı istehsalı üzrə 2016-cı ildə birinci yerdə ABŞ olmuşdur (384,7 mln t). Çinin də qarğıdalı istehsalında payı yüksək olub (231,6 mln t).

Digər ölkələr üzrə qarğıdalı istehsalında Braziliya, Argentina, Meksika, Avropa ölkələrindən Ukranya, Rusiya, Ruminya daha çox paya malikdir

Ölkə əhalisinin sayı, emal sənayesinin strukturu, tələbatın həcmi və s. səbəblərdən asılı olaraq dünya ölkələrinin qarğıdalı ixracı və idxalı təbii ki, fərqlidir. Bu 7.8-ci cədvəldən də görünür.

[1] FAOSTAT Database, 2010.

[2] Yenə orada.

**Cədvəl 7.8**

**2017-ci ildə dünyanın əsas qarğıdalı ixracatçı və idxalçı ölkələri[1]**

| № | İxracatçı ölkələr | Milyon t | № | İdxalatçı ölkələr | Milyon t |
|---|---|---|---|---|---|
| **1.** | ABŞ | 49,7 | **1.** | Yaponiya | 15,0 |
| **2.** | Braziliya | 20,7 | **2.** | Misir | 10,9 |
| **3.** | Ukraniya | 17,6 | **3.** | Meksika | 10,4 |
| **4.** | Argentina | 15,9 | **4.** | Koreya Respublikası | 10,2 |
| **5.** | Fransa | 5,8 | **5.** | İspaniya | 6,3 |
| **6.** | Ruminya | 3,7 | **6.** | İran | 6,0 |
| **7.** | Hindistan | 3,6 | **7.** | Niderland | 5,4 |
| **8.** | Rusiya | 3,5 | **8.** | Vyetnam | 4,8 |
| **9.** | Macarıstan | 2,5 | **9.** | İtaliya | 4,6 |
| **10.** | Serbiya | 2,4 | **10.** | Əlcəzair | 4,1 |

7.8-ci cədvəldən göründüyü kimi, göstərilən səbəblərə görə dünya üzrə istehsalda olduğu kimi, ixracatda da birinci yerdə ABŞ olduğu halda, idxalatda isə Yaponiya və Misirdir. İxracatda Avropa ölkələrindən Ukranya, Fransa, Ruminya, idxalatda Koreya Respublikası, İspaniya və İranın payı yüksəkdir. Bu seqmentdə təbii iqlim şəraiti, texnoloji inkişaf səviyyəsi və milli amillər də daha çox diqqəti cəlb edir.

Dünya ölkələrində kartof istehsalı 7.9 və şəkər istehsalı 7.10-cu cədvəllərdə verilmişdir.

**Cədvəl 7.9**

**2015-ci ildə dünya kartof istehsalında "Top – 10" ölkə[2]**

| № | Ölkələr | Məcmu yığm, mln t | Məhsuldarlıq t/ha |
|---|---|---|---|
| **1.** | Çin | 96 | 17,0 |
| **2.** | Hindistan | 46 | 22,9 |
| **3.** | Rusiya | 34 | 15,9 |
| **4.** | Ukranya | 24 | 17,6 |
| **5.** | ABŞ | 20 | 47,2 |
| **6.** | Almaniya | 12 | 47,4 |
| **7.** | Fransa | 8 | 47,9 |
| **8.** | Polşa | 8 | 27,8 |
| **9.** | Hollandiya | 7 | 45,7 |
| **10.** | Belarus | 6 | 20,4 |

Dünyanın kartof istehsalı üzrə əsas ölkələri Çin və Hindistandır. Rusiya, Ukranya, Almaniya, Fransa, Polşa, hətta Belarus da dünya kartof istehsalında böyük paya malikdir. Hər hektardan məhsuldarlığa görə ABŞ, Almaniya və Fransa digər istehsalçılardan 2 dəfə yüksəkdir ki, bu da yüksək ASK və texnologiya ilə əlaqədardır.

[1] FAOSTAT Database, 2018.
[2] FAOSTAT Database, 2016.

**Cədvəl 7.10**

**2017-2018-ci il mövsümündə dünya şəkər istehsalında "Top – 10" ölkə**[1]

| № | Ölkələr | İstehsal, mln t | Adambaşına düşən istehsal, kq |
|---|---|---|---|
| 1. | Braziliya | 40,2 | 190 |
| 2. | Hindistan | 27,7 | 21 |
| 3. | Avropa İttifaqı | 20,1 | 39 |
| 4. | Tayland | 11,2 | 16 |
| 5. | Çin | 10,5 | 8 |
| 6. | ABŞ | 8,0 | 25 |
| 7. | Pakistan | 6,5 | 33 |
| 8. | Meksika | 6,5 | 50 |
| 9. | Rusiya | 6,4 | 44 |
| 10. | Avstraliya | 4,8 | 195 |

Dünyanın şəkər istehsalı üzrə əsas ölkələri Braziliya, Hindistan, Tayland və Çindir. Adambaşına düşən şəkər istehsalına görə Avstraliya (195 kq), Braziliya (190 kq), Meksika (50 kq) və Rusiya (44 kq) əsas yerləri tutur.

## Pambıq

Pambığın dörd növü vardır. Vətəni Hindistandır. B.e.ə. 5000-ci illərdən becərilməyə başlanılıb. Əsasən, Asiya ölkələrində-Hindistan, Çin, Pakistan, Türkiyə və Özbəkis-tanda tədarük edilir. Dünya istehsalı üzrə birinci onluq ölkələri 7.11-ci cədvəldə verilir. Cədvəldən göründüyü, kimi dünyada pambıq istehsalı üzrə əsas ölkələr

Hindistan və Çindir. Son 35 ildə dünyanın bəzi ölkələrində - Hindistanda, Çində, Braziliyada, Avstraliyada pambıq istehsalı artdığı halda, hətta bəzi ölkələrdə - Özbəkistanda və Suriyada azalmışdır.

**Cədvəl 7.11**

**Dünya ölkələrində pambıq istehsalı**[2] **(min t)**

| № | Ölkələr | 1985 | 1995 | 2005 | 2019 |
|---|---|---|---|---|---|
| 1. | Hindistan | 1484 | 2186 | 2476 | 6200 |
| 2. | Çin | 4147 | 4768 | 5700 | 6000 |
| 3. | ABŞ | 2924 | 3897 | 5164 | 4800 |
| 4. | Braziliya | 943 | 479 | 1196 | 2600 |
| 5. | Pakistan | 1217 | 1802 | 2122 | 1700 |
| 6. | Türkiyə | 518 | 851 | 800 | 900 |
| 7. | Özbəkistan | ... | 1265 | 1250 | 700 |
| 8. | Avstraliya | 267 | 421 | 578 | 650 |
| 9. | Yunanıstan | 168 | 433 | 359 | 410 |
| 10. | Suriya | 170 | 216 | 331 | 190 |

[1] FAOSTAT, Roma, 2019
[2] FAOSTAT, Roma, 2020.

## İpək

İpək – ipək qurdunun hazırladığı baramanın açılmasından əmələ gələn ipək sapdan alınan təbii elastik lif və ya iplikdir. Bu təbii ipək sap – lifdən toxunan parçalara ipək parçalar deyilir. İpək qurdunun hazırladığı baramanın sənaye üsulu ilə açılması ilə ipək sap əmələ gəlir. Ümumiyyətlə, ipək geniş mənada – sap, iplik, yumşaq parça və ya digər ipək əşyalar mənasında işlədilir. Sənaye və məişət təyinatlı ipək iplik hazırlanır. Vətəni Çindir.

Hələ 500 il b.e.ə. ipəyin Avropa ölkələrinə daşınması ilə əlaqədar olaraq məhşur Böyük İpək Yolu əmələ gəlmişdir.[2] Hazırda dünyada istehsal olunan ipəyin 50 faizə qədəri Çinin payına düşür. Qədim İpək Yolu "Şərqi Çin – Mərkəzi Asiya – Xəzər dənizinin cənubu – Azərbaycan – Levent bölgəsi – Aralıq dənizi – Avropa ölkələri", "Şərqi Çin – Hindistan – Qırmızı dəniz – Aralıq dənizi – Avropa ölkələri" xətti ilə hərəkət edirdi. Sonrakı dövrlərdə digər xətlər üzrə də "Şərq – Qərb" ticarət – iqtisadi əlaqələri yaranmış və inkişaf etmişdir.

Dünyada kənd təsərrüfatı məhsullarını daha çox istehsal edən ölkələr aqrar ölkələr hesab edilir. Əsas kənd təsərrüfatı məhsulları ilə daha çox tanınan ölkələr fərqləndirilir. Məsələn, ipək, düyü Çin, mal əti Hindistan, kofe Braziliya, balıq Yaponiya, qoz-fındıq Türkiyə, zəfəran isə Azərbaycanın vətəni hesab edilirdi.

Nəzərə almaq lazımdır ki, ölkə əhalisinin sayından və istehlak səbətindən asılı olaraq kənd təsərrüfatı məhsullarının istehsalı, ixracı və idxalı çox fərqlənir. Bu məhsulların əsas ixracatçıları 7.12-ci cədvəldə verilmişdir.

7.12-ci cədvəldən də görünür ki, ixracatda əsas ölkələr Asiya ölkələridir.

**Cədvəl 7.12**

**2016-cı ildə dünyanın əsas kənd təsərrüfatı məhsulları ixracatçısı olan "Top – 10" ölkəsi**

| № | Ölkələr | Məhsul |
|---|---|---|
| **1.** | Çin | Düyü |
| **2.** | Hindistan | Mal əti |
| **3.** | Rusiya | Taxıl |
| **4.** | ABŞ | Buğda |
| **5.** | Braziliya | Kofe |
| **6.** | İndoneziya | Bitki yağı |
| **7.** | Yaponiya | Balıq |
| **8.** | Türkiyə | Qoz-fındıq |
| **9.** | Almaniya | Donuz əti |
| **10.** | Fransa | Üzüm |

Asiya ölkələri ərazi və torpaq fonduna görə böyük ölkələr olsalar da, əhalisi də həddən artıq çox və istehlak həcmi isə böyükdür. Dünya ticarətində kənd təsərrüfatı məhsulları əmtəə nomenklaturuna görə iki qrupa bölünür:

1) Ərzaq malları qrupuna yaxın olan kənd təsərrüfatı məhsulları (heyvandarlıq məhsulları, taxıl və taxıl məhsulları, meyvə və tərəvəz, şəkər, ərzaq təyinatlı mallar, bitki yağları və s.);

2) Kənd təsərrüfatı məhsulları xammalı (kauçuk, dəri, gön, xəz, meşə-ağac məmulatı, toxuculuq lifləri, pambıq, yun və s.).

Son 60 il ərzində dünya ixracatında kənd təsərrüfatı məhsullarının payı aşağı düşür.

[2] M.Əmrahov. Böyük İpək Yolu, Bakı, 2011, səh.4.

# 5. DÜNYADA ƏSAS HEYVANDARLIQ MƏHSULLARI İSTEHSALI, İXRACI VƏ İDXALI

Heyvandarlıq dünya kənd təsərrüfatı sektorunda bitkiçilikdən (əkinçilikdən) sonra yaranmışdır. Heyvandarlıq ərazinin iqlim şəraiti və torpaq örtüyü ilə birbaşa əlaqədardır.Dünya kənd təsərrüfatı istehsalında heyvandarlıq sahəsinin çoxsaylı fərqli xüsusiyyətləri vardır. Belə ki, ərazisinin quru və su, çəmənlik və otlaq, dağlıq və düzənlik, soyuq, isti və s. ərazilərdən asılı olaraq heyvandarlıq sahələri fəaliyyət göstərir.

Heyvandarlıq məhsulları hazır ərzaq (qida) məhsulu və yeyinti sənayesi xammalı kimi istehlaka gedir. Bu məhsulların istehlakında milli, dini və təbii amillər böyük rol oynayır. Bir məhsul həm hazır, həm də xammal rolunu oynayır, biri digərinin emalına və yaranmasına səbəb olur.

Ət-süd və digər heyvandarlıq məhsullarından çoxsaylı digər məhsullar təkrar istehsal edilir. Ət, süd, balıq ilkin heyvandarlıq məhsullarıdır. Hasiledilmə mənsubiyyətinə görə də çox fərqlənir. Şəxsi (fərdi) istehlakda böyük paya malik olsa da, statistikası dəqiq aparılmır. Tədarük və emal sənayesinə bölünür.

## Ət

Ət sənayesi emal yeyinti sənayesinin tərkib hissəsidir. Buraya ət məhsullarının bütün çeşidlərinin emalı, yarımfabrikat ət məhsulları, qiymətli tibbi preparatlar (insulin, qeparin. linokain və s.), həmçinin, jelatin, yapışqan və s. məhsullar daxildir.

Dünya ət istehsalının əmtəə strukturu 2017-ci ildə aşağıdakı kimi olmuşdur:

1. Donuz əti – 40 faiz;
2. Quş əti – 30 faiz;
3. Mal əti – 25 faiz;
4. Qoyun əti – 4 faiz;
5. Digər ət məhsulları – 1faiz.

Göründüyü kimi, dünyanın ümumi ət istehsalında 40 faizlə donuz əti birinci, 30 faizlə quş əti ikinci, 25 faizlə mal əti üçüncü, 4 faizlə qoyun əti dördüncü və 1 faizlə digər ət məhsulları təşkil edir. Ət istehsalında dünya ölkələrinin vəziyyəti 7.13-cü cədvəldə verilmişdir.

**Cədvəl 7.13**

**2017-ci ildə dünya ölkələrində ət istehsalının həcmi[1] (mln t)**

| Sıra № | Ölkələr | Ət istehsalı, mln t | Dünya ət istehsalında payı, faizlə |
|---|---|---|---|
| 1. | ABŞ | 12,1 | 19,6 |
| 2. | Braziliya | 9,5 | 15,4 |
| 3. | Avropa İttifaqı | 7,8 | 12,7 |
| 4. | Çin | 7,0 | 11,8 |
| 5. | Hinditsan | 4,2 | 6,9 |
| 6. | Argentina | 2,7 | 4,4 |
| 7. | Avstraliya | 2,1 | 3,3 |
| 8. | Meksika | 1,9 | 3,1 |
| 9. | Pakistan | 1,7 | 2,8 |
| 10. | Türkiyə | 1,7 | 2,7 |

[1] FAOSTAT Database, 2018

7.13-cü cədvəldən görünür ki, dünya ölkələrindən ümumi ət istehsalında ən böyük paya malik ABŞ (təqribən 20 faiz), Braziliya (15,4 faiz), Çin (11,8 faiz) və Hindistandır (6,9 faiz).

Lakin ətin növləri üzrə istehsalı, tədarükü və emalı tamamilə fərqlidir. Məsələn, mal əti üzrə əsas istehsalçı Hindistan, qoyun əti istehsalı üzrə Avstraliya və Yeni Zelandiya, donuz əti üzrə ABŞ və Braziliyadır. Türkiyənin dünya ət istehsalında payı 2,7 faizdən çoxdur.

**Süd**

Dünyada süd istehsalının vəziyyəti 7.14-cü cədvəldə verilmişdir.

**Cədvəl 7.14**

**2015-ci ildə dünya süd istehsalının ümumi həcmi**[2]

| № | Əmtəə mövqeyi | İstehsalın həcmi, mln t |
|---|---|---|
| 1. | Süd, cəmi | 808,7 |
| 2. | Turşudulmuş süd məhsulları | 415,5 |
| 3. | Pendir | 22,6 |
| 4. | Quru süd | 17,4 |
| 5. | Yağ | 10,5 |
| 6. | Yağı götürülməmiş quru süd | 4,4 |
| 7. | Yağı azaldılmış quru süd | 4,0 |
| 8. | Kazein | 0,4 |

Dünya süd istehsalının əmtəə mövqeyində (strukturunda) əsas məhsul mövqeyi turşudulmuş süd məhsulları (415,5 mln t – 51,3 faiz), pendir (22,6 mln t – 2,7 faiz), quru süd (17,4 mln t – 2,1 faiz), yağdır (10,5 mln t – 1,2 faiz). Əmtəə xüsusiyyətinə görə əsas ixrac mövqeyi isə qurudulmuş süddür. Ümumi süd istehsalında dünya üzrə əsas ölkələr Hindistan, ABŞ, Pakistan və Çindir. 2030-cu il proqnozunda bu ölkələrlə yanaşı Avropa İttifaqı ölkələri, Braziliya və Rusiyada süd istehsalının daha da artması göstərilir.

Dünyada mal ətinin əsas ixracatçıları – Hiindistan, Avstraliya, Braziliya, Niderland, Kanada və ABŞ-dır.

Qoyun ətinin əsas ixracatçıları – Avstraliya və Yeni Zenlandiyadır.

Süd məhsullarının əsas ixracatçıları – Niderland, İrlandiya və Danimarkadır.

Yağın əsas ixracatçıları – Yeni Zelandiya, Niderland və İrlandiyadır.

Hər il dünya bazarlarına 5 mln başdan çox diri iribuynuzlu mal, 10 mln-dan çox donuz, 15 mln-dan artıq qoyun çıxarılır və ixrac edilir.

Kənd təsərrüfatı məhsullarının xammal və hazır məhsullarının istehsalı, tədarükü, emalı və ticarətində də çoxsaylı fərqli və səciyyəvi xüsusiyyətlər vardır. Bu sahədə hasilatdan və emal sənayesindən fərqli olaraq iqlim şəraiti, məsafə, vaxt, regional və milli əlamətlər də mühüm rol oynayır. Fors-major hallar tez-tez baş verir. Proqnozlaşdırmaya qeyri-obyektiv səbəblər çox təsir edir. Dünya ölkələri, regionları və qitələri üzrə dünya ticarətinin həcmi, istiqamətləri və nomenklaturu dəyişir.

Əsas ixracatçı və idxalçı regionlar və ölkələr 7.15-ci cədvəldə verilmişdir.

7.15-ci cədvəldən görünür ki, qitələr, qitələrin regionları, ölkələr üzrə ixracat və idxalatın vəziyyəti fərqlənir. Qərbi Avropa ölkələri dünyanın əsas İnkişaf Etmiş Ölkələri olduğu üçün kənd təsərrüfatı mallarının həm ixracında, həm də idxalında əsas yeri tutur. Təqribən dünya üzrə yarısını – 46-47 faizini təşkil edir. Kənd təsərrüfatı məhsullarının xammal kimi idxalatı çox, kənd təsərrüfatı hazır emal məhsullarının ixracı daha çoxdur.

[2] FAOSTAT Database, 2016

**Cədvəl 7.15**

**2018-ci ildə dünyada kənd təsərrüfatı məhsulları üzrə ixracatçılar və idxalçılar[1]**

| Göstəricilər | Əsas ixracatçılar (dünya ticarətində payı, faizlə) | Əsas idxalçılar (dünya ticarətində payı, faizlə) |
|---|---|---|
| Dünya ixracatı – 783 mlrd dol.<br>Dünya ticarətində payı – 9 faiz<br>2010-2018-ci illərdə illik artım – 15 faiz<br>Avropadaxili ticarət – 297 mlrd dol. | Qərib Avropa – 47 faiz<br>Asiya – 18 faiz<br>Şimali Amerika – 17 faiz<br>Latın Amerikası – 10 faiz<br>MDB – 3 faiz | Qərbi Avropa – 46 faiz<br>ABŞ – 11 faiz<br>Yaponiya – 8 faiz<br>Çin XR – 5 faiz |

Asiyada kənd təsərrüfatı malları istehsalının çox olmasına baxmayaraq əhalinin çoxluğuna və emal sənayesinin zəifliyinə görə ixracatı daha azdır. Kənd təsərrüfatı mallarının ixracatında Asiya 18 faiz, Şimali Amerika 17 faiz, nəhəng Latın Amerikası 10 faiz, hətta Rusiya kimi böyük ölkənin daxil olduğu MDB 3 faiz paya malikdir. Dünya idxalatında Qərbi Avropadan sonra ABŞ 11 faiz, Yaponiya 8 faiz və Çin XR 5 faiz paya malik olub.

Aqrar sektor məsələləri ilə məşğul olan beynəlxalq təşkilatlar bir çox ölkələr üzrə bazarın tutumunu verirlər. Tələb, təklif (istehsal, tədarük, emal), istehlak, yığım (ehtiyat) və ixracat. Həmçinin, məhsullar üzrə ölkə qrupları verilir (kartof ölkələri, buğda ölkələri, pambıq ölkələri və s.).

Məhsuldarlıq üzrə ölkələr verilir (hər hektara, hər baş mal-qaraya və s.).

Bir nəfərə düşən kənd təsərrüfatı məhsullarının istehsalı və maya dəyəri verilir.

Ölkələr üzrə gübrə istehsalı və sərfiyyatı, traktor və s. kənd təsərrüfatı maşınlarının alınması, investisiya qoyuluşu, kənd təsərrüfatına ayrılan subsidiyalar və s. verilir.

FAO dünya ölkələrində ərzaq və kənd təsərrüfatı məhsullarının istehlakı vəziyyətini araşdırır, ümumiləşdirir və tövsiyyələr verir. FAO hesab edir ki, insanın gündəlik ərzaq qəbulu 1100 kkal enerji ekvivalentindən aşağı olduqda **"kritik aclıq vəziyyəti"** baş verir.

İnsanın həyat fəaliyyətinin saxlanılması üçün zəruri olan minimum rifah və həyat vasitələrinin cəminə **"yaşayış minimumu"** deyilir.

İnsanın fiziki qüvvəsini bərpa etmək üçün zəruri olan minimum ərzaq və xidmət çeşidlərinin cəminə **"minimum istehlak səbəti"** deyilir.

İnsan orqanizminin saxlanılması üçün minimum qidanın çatışmazlığı və ya tamam olmamasına **"mütləq aclıq"** deyilir.

FAO-nun qəbul etdiyi dünya ərzaq təhlükəsziliyi normalarına görə insan gün ərzində 2600 kkal enerji ekvivalentində ərzaq qəbul etməlidir.

Engel qanununa görə gəlirlər artdıqca ərzaq xərclərinin xüsusi çəkisi azalır, xidmətlərə olan xərcləri artır.

2020-ci illərin əvvəllərində dünyanın üçüncü, yoxsul ölkələrində - xüsusilə bəzi Afrika ölkələrində, Suriyada, Yəməndə, Somalidə və s. ölkələrdə kritik aclıq vəziyyətində milyonlarla insan yaşayır. Qlobal açlıq indeksi 2020-ci ilin əvvəlinə dünyada 815 mln insanın aclıqdan əziyyət çəkdiyini açıqlayıb. İndeksə görə hər gün 21 min insan aclıq və qıtlıq səbəbindən dünyasını dəyişir. Bir çox ölkədə aclığın əsas səbəbi müharibə, digərlərində isə quraqlıq təbii fəlakətlərdir.

[1] WTO.International Trade Statistics 2018.

## 5. DÜNYA ÖLKƏLƏRİNİN AQRAR SİYASƏTİNİN ƏSAS İSTİQAMƏTLƏRİ

Aqrar siyasət və ya kənd təsərrüfatı siyasəti ölkədə kənd təsərrüfatının və aqrar biznesin digər sahələrinin dinamik və effektiv inkişafına yönəldilmiş tədbirlər kompleksidir. Məqsəd əhalinin ərzaq məhsullarına olan tələbatının maksimum ödənilməsi və həyat səviyyəsinin yüksəldilməsidir. Aqrar siyasətin vəzifələrinə aqrar resursların dərindən öyrənilməsi, ən səmərəli ərazilərin müəyyən edilməsi, aqrar prosedurаların vaxtında və yüksək səviyyədə yerinə yetirilməsinə nəzarət edilməsi, kənd təsərrüfatı istehsalçılarının problemlərinin öyrənilməsi, onlara köməklik göstərilməsi, subsidiyaların verilməsi, kənd təsərrüfatı əməliyyatlarının sığortalanması, kənd təsərrüfatı məhsullarının satış bazarlarının tapılması və məhsulların satışının təşkil edilməsi, istehsalçıların texnika və dərmanla təmin edilməsi, faizsiz və azfaizli kreditlərin verilməsinə yardım göstərilməsi və s. bu kimi vəzifələr daxil edilir. Bu vəzifələr müxtəlif məzmunlu, xarakterli, tutumlu və güclü siyasət alətləri ilə həyata keçirilir. Dünya ölkələrində bunun ən güclü aləti subsidiyalaşdırmadır. Bəzi ölkələrdə kənd təsərrüfatı məhsulları bazar qiymətləri ilə əhalidən alınır və aşağı qiymətlərə satılır. Bu da iş yerlərinin yaradılması və əmək bazarının inkişafına səbəb olur.

Ölkənin iqtisadi inkişafının nəzəri-praktiki əsasını məhz dövlətin apardığı siyasət təşkil edir. Kənd təsərrüfatı və ya aqrar siyasət iqtisadi siyasətin ayrılmaz tərkib hissəsi olmaqla ərzağın əsas mənbəyidir. Haqlı olaraq FAO-nun emblemində dünyaya bəyan edilir ki, "Fiat Panis" – "Hə çörək olacaq". Ölkənin ərzaq təminatı dövlətin bir nömrəli vəzifəsi olmaqla kənd təsərrüfatı məhsullarının istehsalının həcmi və effektivliyindən asılıdır. Ölkənin siyasi sabitliyinin, dayanıqlılığının və möhkəmliyinin sütunu məhz ölkənin ərzaq təminatı və ya kənd təsərrüfatı məhsulları ilə təminatıdır. Ərzaq təminatı yoxdursa və ya qıtlıqdırsa, ölkə məhv olur. Bunu keçmiş SSRİ-nin vəziyyəti bir daha sübut etdi.

Müasir dünyada da kənd təsərrüfatı məhsulları istehsalının həcmi, bu sahədə məşğul olanların sayı, hər nəfərə düşən illik məhsul istehsalı dövlətin iqtisadi inkişaf səviyyəsinə birbaşa təsir göstərir. ÜDM-in yaradılmasında kənd təsərrüfatının payı az olan ölkələr belə, iqtisadiyyatın bu sektorunu vacib hesab edir, ona böyük vəsait ayırır və diqqət yetirir. Çünki aqrar sektor, onun tərkib hissəsi olan kənd təsərrüfatı, ilk növbədə, zəruri tələbatı ödəyəndir, yaşamağın "qapısı"dır, məşğulluqdur, qida mənbəyidir və sağlamlıqdır.

Bu da sübut edir ki, dünya ölkələrində kənd təsərrüfatının inkişafı birbaşa dövlətin aqrar siyasəti ilə bağlıdır.

Müasir dövrdə **dövlətlərin aqrar siyasətinin əsas istiqamətləri** aşağdakılar hesab edilir:

1. Suvarılan torpaqların artırılması;
2. Damcılama ilə suvarma üsuluna keçilməsi;
3. "Ağıllı bağlar"ın yaradılması;
4. Çoxmərtəbəli bağların yaradılması;
5. Mükəmməl aqrar servisin yaradılması;
6. Torpaqların təmizlənməsi;
7. Ən müasir kənd təsərrüfatı texnikasının yaradılması;
8. Peşəkar aqronomların hazırlanması;
9. Bütün zəncir halqalarında soyuducuların tikilməsi;
10. "Tarla-ev" zəncirinin qurulmasıı;
11. Geni dəyişdirilmiş məhsul tədqiqatlarının aparılması;
12. Kompleks ekoloji proqramların hazırlanması və yerinə yetirilməsi;
13. Çaylara və dənizlərə çirklənmiş və zəhərli suların axıdılmasının qarşısının alınması;
14. Kənd təsərrüfatı istehsalçılarına beeynəlxalq və dövlət səviyyəsində köməklik edilməsi;
15. Baş verə biləcək quraqlıqlara əvvəlcədən texniki və texnoloji hazırlıqlı olmaq;

16. Hər vaxt baş verməsi gözlənilən tufan, daşqın, sel, sunami və zəlzələlərə texniki və texnoloji hazırlıqlı olmaq;

17. Dəniz suyunun müasir texnologiyalar ilə təmizlənib syvarma və işməli suya çevrilməsi üçün uzunmüddətli layihələrin həyata keçirilməsi;

18. Əkinçilik üçün yaramayan bütün ərazilərdə damcı üsulu ilə meşələrin salınması;

19. Hər bir ölkədə mövcud olan ağacların sayı qədər yeni ağacların əkilməsi, bitən və quruyan ağacların illik uçotunun aparılması;

20. Kənd təsərrüfatının dövlət tənzimlənməsi və s.

Göstərilən istiqamətlərdə özünün aqrar siyasətini aparan dövlətlərdə kənd təsərrüfatı məhsullarının istehsal həcmi, onun keyfiyyəti və effektivliyi digər ölkələrdən dəfələrlə yüksəkdir.

## Kioto protokolu

Dünya ölkələrinin kənd təsərrüfatının vəziyyəti və inkişafı təbii iqlim şəraiti ilə birbaşa bağlıdır. Ölkənin təbii iqlim şəraiti onun kənd təsərrüfatı məhsulları istehsalının çeşidi və həcmi ilə birbaşa bağlıdır. Təbii iqlim şəraitinə uyğun olaraq kənd təsərrüfatının bitkiçilik və heyvandarlıq sahələri yaradılır və inkişaf etdirilir.

Lakin son 30 ildə dünyanın kənd təsərrüfatında iqlim dəyişiklikləri ən böyük problemə çevrilmişdir. İqlim dəyişiklikləri isə dünya ölkələrində ətraf mühitin çirklənməsi, atmosferə zəhərli qazların daha çox buraxılması ilə əlaqələndirilir.

1992-ci il mayın 9-da Nyu-Yorkda Birləşmiş Millətlər Təşkilatı iqlim dəyişmələri haqqında Çərçivə Konvensiyasını qəbul etmişdir. İnkişaf Etmiş Ölkələrin öhdəlikləri ilk dəfə 1995-ci ildə Berlində keçirilən Tərəflər Konfransının (TK-1) birinci konfransında nəzərdən keçirilmişdir. 1997-ci ilin dekabrında Yaponiyanın Kioto şəhərində keçirilən bu mühüm müşavirədə təqribən 10 000 nümayəndə, müşahidəçi və jurnalist iştirak etmiş, 11 dekabr 1997-ci ildə Kioto protokolu imzalanmış, 16 mart 1998-ci ildə imzalanmaq üçün açılmışdır. Konsensus əsasında qəbul olunmuş qərarda (1/T.K3) İnkişaf Etmiş Sənaye Ölkələrinin istixana qazlarının ümumi tullantısının ən azı 5 faiz ixtisar edəcəkləri haqqında protokol qəbul edilmiş ki, bu da “Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri haqqında Çərçivə Konvensiyasının Kioto Protokolu” adlanır. 18 iyul 2000-ci ildə (№ 912 – IQ) Azərbaycan Respublikası bu protokola qoşulmuşdur. Tarixdə ilk dəfə istixana qazları tullantısının azaldılmasını nəzərdə tutan bu müqavilə - protokol 2005-ci il fevralın 16-da qüvvəyə minib. Kioto protokoluna qoşulmuş ölkələr istixana qazları tullantılarını 5 faiz azaltmağı öhdəyə götürdükləri halda, belə tullantıların azalma dərəcəsi 20 faizdən çox olub.

Kioto protokoluna əməl edilməməsi dünyada iqlim dəyişmələrinin daha da artmasına – buzlaqların əriməsinə, sunamilərin, sel və daşqınların daha da artmasına, planetdə iqlim zonalarının dəyişməsinə, quraqlıqların əmələ gəlməsinə, nəticədə dünya kənd təsərrüfatında kataklizmlərə gətirib çıxaracaq, dünyanın məhvəri pozulacaq, kənd təsərrüfatında məhsuldarlıq aşağı düşəcəkdir. Ona görə də, hazırda bütün dünya dövlətləri bu protokola qoşulmalı, hökumətlərinin aqrar siyasətini məhz bu sahəyə yönəltməlidirlər.

Böyük Britaniya tədqiqatçılarının hesablamalarına görə 2019-cu ildə böyük təbii fəlakətlər (qasırğa, tufan və s.) dünya ölkələrinə 140 mlrd ABŞ dol. zərər vurub. BMT-nin Ətraf Mühit Proqramının 2019-cu il məlumatına görə təbiətin çirklənməsi nəticəsində hər il dünyada 8-8.5 mln nəfər həyatını itirir. Hindistanda 2 mln-a, Çində 1,5 mln-a qədər adam bu problemdən ölür.[1]

[1] www.statista.com

## Roma Klubu (İsveçrədə yerləşir)

Roma Klubu – Beynəlxalq İctimai Təşkilat (analitik mərkəz) olmaqla 1968-ci ildə italyan sənayeçisi Aurelio Peççi tərəfindən təsis edilmişdir. Dünyanın siyasi, maliyyə, mədəniyyət və elm elitasının nümayəndələrini birləşdirir. Təşkilat dünyada biosferanın inkişaf perspektivlərinin, insan və təbiət münasibətlərinin öyrənilməsi sahəsində əhəmiyyətli rol oynamışdır. Hər il özünün illik konfranslarını keçirir, məruzələr hazırlayır, dünya ölkələrinin müxtəlif auditoriyaları müzakirə edir və tövsiyyələr verir.

Roma Klubuna üzvlük məhduddur – 100 üzvü vardır. Qaydaya görə hökumət üzvü eyni vaxtda Roma Klubunun üzvü ola bilməz. Üzvlərin heç biri heç bir dövlət təşkilatını təmsil edə bilməz.

Roma klubu mütəmadi olaraq aktual qlobal problemlər üzrə məruzələr nəşr edir. Məsələn, "Dünya dinamikası" (1971), "Birinci qlobal inqilab" (1991) və s.

Hazırda qərargahı Vintenturda (İsveçrə) yerləşir.

## Biotexnoloji inqiliab

Biotexnologiya yunan sözü olub "bios" – həyat, "teken" – sənət, "loqos" – söz, öyrənmə mənasını verir. Biologiya və texnika sahələrinin kəsişməsində yerləşən elm sahəsidir. İnsanı əhatə edən təbii sərvətlərin onun tələblərinə uyğun dəyişdirilməsinə yönəldilmiş təcrübələr kompleksidir. Bioloji agentlərin (canlı orqanizmlər, toxuma və hüceyrələr) köməyi ilə insan üçün faydalı olan məhsulların alınmasının kompleks metod və üsullarını əks etdirir.

Bu termini ilk dəfə 1917-ci ildə macar mühəndisi Karl Ereki tətbiq etmişdir. 2003-cü ildə keçirilən bioloji elmlər üzrə dünya formunda biotexnologiyanın – "qırmızı", "yaşıl", "ağ", "boz" və "göy" sahələri təklif edilmişdir.

"Yaşıl İnqilab"ın XX əsrin 30-50-ci illərində baş verməsi nəticəsində həmin ölkələr qısa dövrdən sonra – yəni 70-80-ci illərdə çox yüksək nailiyyətlər əldə edilmiş, aqrotexniki parklar və lizinq firmaları yaranmış, kimyəvi vasitələrdən istifadənin azaldılmasına nail olunmuş, bəzi gübrə və dərman növlərindən istifadənin qadağan edilməsi üçün proqramlar həyata keçirilmiş, nəticədə "yaşıl inqilab"dan "bioloji inqilab"a keçid baş vermişdir.

Biotexnoloji inqilab dünya ölkələrinin kənd təsərrüfatının inkişafında yeni bir mərhələdir. Bu inqilab nəticəsində kənd təsərrüfatı məhsullarının yeni sortları yaradılmış, gübrələrdən istifadə faydalılığı artırılmış, yeni texnologiyalardan istifadə sahələri genişlənmişdir.

Biotexnoloji inqilab iki istiqamətdə - "orqanik kənd təsərrüfatı" və "alternativ kənd təsərrüfatı" istiqamətində baş vermişdir. 1980-ci illərdən sonrakı dövrü əhatə edən "orqanik kənd təsərrüfatı"nda süni gübrələrdən istifadə edilməsi qadağan edilir, torpağın kimyəvi yemlənməsi dayandırılır, növbəli əkin sisteminə keçilir, bitki tullantılarından və təbii peyindən istifadə edilir, torpağın mexaniki kultivizasiyası aparılır, zərərvericilərə qarşı mübarizədə normalaşdırılmış bioloji metodlardan istifadə edilir və nəticədə insan mənafeyinə xidmət edən kənd təsərrüfatı sistemi formalaşır.

2000-ci illərin əvvəllərindən başlayaraq əvvəlcə ABŞ-da, sonrakı illərdə Asiya və Avropa ölkələrində "alternativ kənd təsərrüfatı" və ya "davamlı-möhkəm kənd təsərrüfatı" sisteminə - gen mühəndisliyinə başlanılmışdır.

Gen mühəndisliyi hazırda kifayət qədər yüksək inkişaf səviyyəsinə qalxmış və molekulyar biologiyanın ən mühüm istiqamətinə çevrilmişdir. Gen mühəndisliyi hesabına insanlıq təbabət, kənd təsərrüfatı və bir sıra digər sahələrdə bir çox problemlərin həlli imkanı qazanmışdır. İstehsalatda müasir qida texnologiyasının tətbiqi insan sağlamlığı və inkişafına dair məsələləri gündəmə gətirir və yeni imkanlar açır. Əgər 1960-cı ildə bir fermer orta

hesabla 26 insanı təmin edirdisə, biotexnoloji inqilab nəticəsində artıq 2017-ci ildə bir fermer 155 insanı təmin edə bilir. Hazırda baş verən rəqəmsal inqilab nəticəsində 2050-ci ildə bir fermer 250 insanı kənd təsərrüfatı məhsulları ilə təmin edə biləcəkdir. Nəticədə məhsuldarlıq ciddi surətdə artacaqdır.

## “Yaşıl İnqilab”

“Yaşıl inqilab” termini ilk dəfə 1968-ci ildə ABŞ-da istifadə edilmişdir.

Yaşıl inqilabın əsası 1943-cü ildə Meksikada Rokfeller fondunun kənd təsərrüfatı proqramını irəli sürməsi ilə qoyulmuşdur. Bu Yaşıl inqilab proqramının icrası nəticəsində 1951-1956-cı illərdə Meksika özünü taxılla tamamilə təmin etmiş və hətta taxıl ixracına başlanmışdır. Bu illər arasında taxılın məhsuldarlığı 3 dəfədən çox artmışdır.

“Yaşıl inqilab” müasir aqrotexniki qaydalar və elmi nailiyyətlərdən (avtomatlaşdırma, kimyalaşdırma, elektrikləşdirmə, irriqasiya, melorasiya, seleksiya, damcılama və s.) geniş istifadə etməklə kənd təsərrüfatı məhsullarının yüksək məhsuldarlığına nail olmaqdır. Son 30 ildə dünyanın aqrar ölkələrində və kənd təsərrüfatı üçün nisbətən az yararlı ölkələrində (məsələn, İsrail, Çin XR və s.) çox yüksək məhsuldarlığın əldə edilməsi məhz “Yaşıl inqilab”, onun tərkib hissəsi olan aqrosənaye və avtomatlaşdırma olmuş, ən yeni texnologiyaların – suçiləmə, damcılama, temperatur tənzimləmənin kompüterləşdirilmiş sisteminə keçilmiş, dünya ölkələrində, o cümlədən, Azərbaycanda ən müasir tələblərə cavab verən aqroparklar yaradılmış və bu proses sürətlə davam etməkdədir.

## “Ağıllı bağ”lar

Müasir dünyada aqrar yeniliklərin ən tanınmış istiqamətlərindən biri də “Ağıllı bağ”ların yaradılmasıdır. Telefon və komputerlərlə idarə edilən, bütün prosesin insan əməyindən istifadə edilmədən yerinə yetirildiyi (suvarma, dərmanlama və s.) meyvə-tərəvəz sahələrinə “ağıllı bağ” deyilir. 2019-cu ildə Azərbaycanda - Quba rayonunda ilk “ağıllı bağ” fəaliyyətə başlamışdır.

## Aqroparklar

Dünya iqtisadiyyatının sürətlə qloballaşması, milli iqtisadiyyatların dünya iqtisadi sisteminə sürətlə inteqrasiyası şəraitində həm beynəlxalq, həm də regional və daxili bazarlarda istehsalçıların üzləşdiyi kəskin rəqabət aqrar sahədə, xüsusilə kənd təsərrüfatında yeni texnologiyaların, informasiya-kommunikasiya texnologiyalarının, müasir tələblərə uyğun idarəetmə və marketinq üsullarının tətbiqini, eləcə də modern kənd təsərrüfatı istehsal subyektlərinin yaradılmasını zəruri etmişdir.

Aqropark dedikdə kənd təsərrüfatı istehsalının qeyri-kənd təsərrüfatı fəaliyyəti ilə bir yerdə, vahid istehsal məkanında qruplaşdırılması və həmin fəaliyyətin kombinasiyası – kənd təsərrüfatı məhsullarının istehsalı ilə emalı proseslərinin, aqrotexniki və logistika, sanitar və fitosanitar, marketinq və digər xidmətlərin vahid məkanda, eyni istehsal ərazisində icrası və aparılmasını birləşdirən ən innovasiyalı təsərrüfat tipidir (aqrofirmadır). Belə təsərrüfatda həm xammal istehsalı, həm də emal proseslərinin yüksək rentabelli olması, ətraf mühitin qorunması, torpaq və su resurslarından səmərəli istifadə edilməsi imkanları yaranır, bitkiçiliyin və heyvandarlığın, bunların birləşməsi ilə emal sənayesinin inkişafı üçün möhkəm baza yaranır, yüksək məhsuldarlıq əldə edilir və dünya bazarına çıxış başlayır.

Aqroparklar müxtəlif formalarda – ixtisaslaşmış və qarışıq aqroparklar formasında yaradılır. Aqroparkların üstünlükləri aşağıdakılardır:

1. Aqroparklarda “istehsal – emal – logistika – marketinq” qapalı zənciri yaranır, hər bir hissə özünüidarə prinsipi ilə işləyir, ortaq problemlər və ümumi maraqlar birləşərək aqrofirmanın rəqabətədavamlılığı və iqtisadi gücü artır;
2. Müasir texnika və texnologiyaların, informasiya kommunikasiya texnologiyalarının tətbiqi üçün şərait yaranır, texnikadan istifadə əmsalı yüksəlir və ortaq xərclər azalır;
3. Nəqliyyat xərcləri və enerji sərfiyyatı azalır;
4. Ətraf mühitin qorunması, su və torpaq resurslarından səmərəli istifadə və onların mühafizəsi təmin edilir;
5. İstehlakçılarla istehsalçılar arasında birbaşa əlaqə - “körpü” yaranır;
6. Urbanizasiyanın azalmasına dəstək verilir;
7. Kənd təsərrüfatı məhsullarının istehsalı və tədarükündə mövsümlük aradan qalxır;
8. Regionlarda iş yerlərinin açılmasına dəstək verilir;
9. Aqroməhsullarla ölkənin xarici bazara çıxışı genişlənir;
10. Kənd təsərrüfatının iqtisadi və sosial səmərəliliyi artır və s.

Azərbaycan günəş enerjisindən daha çox fayda götürmək imkanına malik olduğu üçün aqroparklar sürətlə yaradılır və gələcəkdə daha da artacaqdır. Çünki bu fəaliyyət Azərbaycan Prezidenti tərəfindən irəli sürülən “Aqropark” konsepisyasıdır. Aqroparkların sürətlə artmasına görə artıq Azərbaycan məhsulları Rusiya, Avropa, Çin və s. ölkə bazarlarında tanınmış brendlərə çevrilmişdir.

**Semiramidanın asma bağları**

Dünyanın yeddi möcüzəsindən biri də Semiramidanın asma bağlarıdır. Digər bir adı Amitisin asma bağlarıdır. Amitis Babil hökumdarı II Novuxodonosorun sevimli arvadının adıdır. Asma bağlar müasir Hillə (İraq) şəhərinin yaxınlığında, qədim şəhər-dövlətində yerləşmişdir. Sıra dağlar üzərində altımərtəbəli, pilləvari tikilmiş, məhsuldar torpaq qatı ilə örtülmüşdür. Minlərlə qul gecə-gündüz dəri tuluqlar asılmış nəhəng çarxları fırladaraq Fərat çayından asma bağlara su qaldırmışlar. Nəticədə çox gözəl – güllü-çiçəkli, barlı-bəhrli, meyvəli bağ əmələ gəlmişdir. Asma bağlar Fərat çayının daşması nəticəsində məhv olmuşdur. Son illərdə Cənub-Şərqi Asiyada – Çində, Cənubi Koreyada, Sinqapurda və digər ölkələrdə tikilməyə başlanan çoxmərtəbəli bağlar qədim Semiramidanın asma bağlarının varisi, müasir texnologiyalar əsasında tikilmiş çoxmərtəbəli asma bağlardır. Gələcəkdə belə çoxmərtəbəli asma bağların sürətlə artırılması nəzərdə tutulur. Qarşıdakı onilliklərdə bir çox ölkələrdə onların böyük şəhərlərinin yaxınlığında çoxmərtəbəli belə bağların salınması müasir dövrün zərurətidir.

## 6. QLOBAL ƏRZAQ PROBLEMİ

Ərzaq məhsullarının istehsalı, bölgüsü, mübadiləsi və istehlakı dünya təsərrüfat əlaqələri sisteminin mühüm tərkib hissəsi olub, dünya siyasətində ən prioritet yer tutur. Bu dünya təsərrüfat fəaliyyətinin əsas obyekt və subyekti olan insanların və işçi qüvvəsinin həyat fəaliyyəti ilə birbaşa bağlıdır.

Dünya əhalisinin sürətlə artması ilə əlaqədar olaraq qarşıya aclıq, daha dəqiq deyilsə, ərzaq məhsullarının istehsalı və istehlakı problemi çıxır. Bu problem XX və XXI əsrin 1 nömrəli həll edilməli problemi hesab edilir. Hazırda Yer kürəsində yaşayan 7,8 mlrd nəfər adamdan təqribən 1.1 mlrd nəfəri – yeddidə biri hər il normal həyat fəaliyyəti üçün tələb olunan qidanı az istehalk edir və yaxud qida tələbatını ödəyə bilmir. 500 mln nəfərdən 1 mlrd nəfərə qədər adam xroniki aclıq çəkir, 13 mln-a qədər adam aclıqdan və yaxud pis qidalanmadan ölür, hər 8 nəfərdən biri normal çəkidən azdır, hər 4 nəfərdən birinin boyu

normadan aşağıdır. Belə bir vəziyyətdə FAO-nun 2019-cu il hesabatına görə hər il dünyada 1,5 mlrd t qida atılır.

Dünya ölkələrində əhalinin sayı, artım tempi, istehsalın ümumi həcmi, adambaşına düşən istehsal, istehlak və s. səbəblərdən asılı olaraq əhalinin ərzaq təminatı səviyyəsi müəyyən edilir.

Dünyada ərzaq probleminin yaranma səbəbləri aşağdakılar hesab edilir:

❖ Dünya ölkələrində baş verən "demoqrafik partlayışlar";
❖ Adambaşına düşən istehsal ilə istehlak arasındakı qeyri-bərabərlik (qidanın balanslaşdırılmaması);
❖ Məhsuldarlığın aşağı düşməsi;
❖ Emal texnologiyasının aşağı səviyyəsi;
❖ İşsizliyin yüksək həddi;
❖ Kasıblığın yüksək həddi;
❖ Təbii iqlim şəraiti;
❖ Torpaq resurslarından səmərəli istifadə edilməməsi;
❖ Siyasi səbəblər və s.

Göstərilən bu və bu kimi səbəblər dünyada ərzaq probleminin daha da kəskinləşməsinə gətirib çıxarır. Lakin dünya ölkələri üçün ərzaq problemi səciyyəvi xüsusiyyətlərə malikdir.

Dünya ölkələri üzrə ərzaq probleminin səciyyəvi xüsusiyyətləri aşağıdakılardır:

❖ Ərzaq problemi əsasən İnkişaf Etməkdə Olan Ölkələrdə yaranır;
❖ Bu problem III Dünya ölkələrinin hamısının əsas problemidir;
❖ İEOO-lərin bir qrupunda (Argentina, Braziliya, Meksika, Türkiyə, İndoneziya, Mərakeş və s.) adambaşına düşən ərzaq məhsullarının istehlak normaları orta fiziki normaları üstələyir (gün ərzində 3000 kkal-ını keçir);
❖ Qərb və Avropa ölkələrində "Yaşıl inqilab" proqramları tətbiq edilir və dövlət tərəfindən həvəsləndirilir;
❖ İnkişaf Etmiş Ölkələrin ASK təsərrüfat tiplərinə dövlət subsidiyaları tətbiq edilir və əlverişli kreditlər verilir;
❖ İnkişaf Etmiş Ölkələr ərzaq yardımı edən, İEOÖ-lər ərzaq yardım alan ölkələrdir;
❖ III Dünya ölkələrində texnika və texnologiyanın səviyyəsi çox aşağıdır və s.

Göstərilən səciyyəvi xüsusiyyətlər dünya ölkələrində ərzaq probleminin həll edilməsinə və ya problemin kəskinləşməsinə səbəb olur.

Ərzaq istehsalının başlıca mənbəyi kənd təsərrüfatıdır. Dünya iqtisadiyyatının bu sahəsi dünya əhalisinin 45 faizinin həyat fəaliyyəti ilə birbaşa əlaqədardır, iqtisadi aktiv əhalinin 47 faizindən çoxu bu sahədə çalışır. Əməkqabiliyyətli əhalinin İnkişaf Etmiş Ölkələrdə 5 faizə qədəri, İEOÖ-lərdə 60 faizə qədəri, Asiya və Afrika ölkələrində 60 faizdən çoxu bu sahədə işləyir.

Dünyada ərzaq məhsullarının istehsalı sürətlə artır. Son 30 ildə bu göstərici 35 faiz artmış və əhali artımını üstələmişdir. Bu artım sənaye cəhətdən İnkişaf Etmiş ÖLkələrdə nisbətən az (10 faiz), İnkişaf Etməkdə Olan ÖLkələrdə yüksək (75 faiz) olmuşdur. Adambaşına düşən artım müvafiq olaraq 2 və 15 faiz olmuşdur. Xüsusilə Çin və Hindistanda çox olmuşdur (76 və 71 faiz). Afrika və Yaxın Şərq ölkələrində səviyyə aşağı düşmüşdür.

Ərzaq məhsulları istehsalında əsas göstərici kimi adambaşına düşən gündəlik kalori ilə təminat götürülür. Əhalinin kalori ilə təminatı ümumdünya, sənaye ölkələri, İnkişaf Etməkdə Olan Ölkələrdə artdığı halda, keçid iqtisadiyyatlı ölkələrdə azalmış, az inkişaf etmiş ölkələrdə dəyişməmişdir.

Dünya ixracatında ərzağın xüsusi çəkisi azalmışdır (içkilər və tütün daxil olmaqla). Emal edilən ərzaq məhsullarının xüsusi çəkisi artmışdır.

Dünya ölkələrində əhalinin il ərzində hər nəfərə düşən ərzaq məhsulları istehlakı tamamilə fərqlənir. İqlim şəraitindən, milli və dini adət-ənənələrdən, yaş və cins tərkibindən, gəlirlərindən və s. asılı olaraq istehlakın həcmi də dəyişir.

Müxtəlif ölkələrin Elmi-Tədqiqat Qida İnstitutlarının, Beynəlxalq Ərzaq Tədqiqatları və digər elmi-tədqiqat mərkəzlərinin hesablamalarına görə hər bir şəxs gün ərzində 2800-3200 kkal qida qəbul etməlidir. Müəyyən edilmiş həmin kalori müxtəlif amillərin təsiri altında müxtəlif məhsullarla əvəzlənməklə ödənilir.

Azərbaycan Respublikasında il ərzində hər nəfərə çörək məhsullarının istehlakı (155 kq), Ukraynadan (124 kq), Polşadan (119 kq), Rusiyadan (118 kq), ABŞ-dan (113 kq), Almaniyadan (79 kq) çoxdursa, kartof istehlaki (48 kq), tərəvəz və bostan məhsulları istehlakı (79 kq) həmin ölkələrin hamısından azdır. Dünya ölkələrində il ərzində hər nələrə düşən qida məhsulları istehlakının təhlili göstərir ki, bu göstərici ölkənin coğrafi, iqlim və iqtisadi vəziyyəti ilə birbaşa əlaqədar olaraq dəyişir. İnkişaf Etmiş Ölkələrdə ərzaq problemləri uzunmüddətli layihələrlə tənzimlənir, idarə olunur, proqnozlaşdırılır, gözlənilən problemlərə qarşı qabaqlayıcı dövlət tədbirləri görülür. Ərzaq problemləri, əsasən, zəif inkişaf etmiş üçüncü dünya ölkələrində yaranır.

Qlobal ərzaq problemlerinin həlli, əlaqələndirilməsi və tənzimlənməsində BMT sisteminə daxil olan aşağıdakı beynəlxalq təşkilatlar mühüm rol oynayır:

1) BMT-nin Ümumdünya Ərzaq Şurası (Roma – İtaliya) – 1974;
2) BMT-nin Ümumdünya Ərzaq Proqramı (Roma – İtaliya) – 1963;
3) BMT-nin Ərzaq və Kənd Təssərrüfatı Təşkilatı FAO (Roma – İtaliya) – 1945;
4) BMT-nin (EKOSOS-un) Beynəlxalq Kənd Təsərrüfatının İnkişafı Fondu (Roma – İtaliya) - İFAD (1977);
5) BMT-nin Ətraf Mühit Proqramı (YUNEP);
6) BMT-nin Ticarətin İnkişafı Konfransı (YUNKTAD).

Hökumətlərarası beynəlxalq təşkilatlar:

1) Ümumdünya Ticarət Təşkilatı (WTO);
2) İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD);
3) Ümumdünya Gömrük Təşkilatı.

Beynəlxalq əmtəə təşkilatları (və ya sazişləri):

1) Kakao üzrə beynəlxalq saziş;
2) Kofe üzrə beynəlxalq saziş;
3) Toxuculuq malları üzrə beynəlxalq saziş (təşkilat) və s.

Qeyri-hökumət təşkilatları:

1) Beynəlxalq Ticarət Palatası;
2) Ticarət - Sənaye Palataları;
3) Beynəlxalq yeyinti sənaye və istehlak malları assosiasiyası və s.

BMT sisteminə daxil olan, BMT sisteminə daxil olmayıb müstəqil faliyyət göstərən beynəlxalq təşkilatlar, həmçinin, beynəlxalq əmtəə təşkilatları, qeyri-hökumət beynəlxalq təşkilatları dünyanın müxtəlif ölkələrində ərzaq probleminə dair araşdırmalar aparır, monitorinqlər keçirir, ərzaq qıtlığı, aclıq, susuzluq, təbii fəlakətlər və s. bu kimi hallarda ərzaq yardımlarının göstərilməsi, ərzaq məhsulları istehsalının artırılması proqramlarının hazırlanması və həyata keçirilməsi, qrantlar ayrılması və s. bu kimi vəzifələri yerinə yetirirlər.

Ümumdünya Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) qiymətləndirməsinə görə yaxın gələcəkdə dünya miqyasında ərzaq istehsalını dörd problem (təhlükə) gözləyir:

1) Hava şəraitinin pisləşməsi;
2) Təmiz su və enerji resurslarının tükənməsi;
3) Torpağın çirklənməsi və zəhərlənməsi;
4) İfrat iqtisadi liberalizm (iqtisadiyyatın tənzimlənməməsi).

Bu təhlükələr ümumdünya qlobal təhlükələri olmaqla, hər bir dövlətin iqtisadi siyasətinin müəyyən edilməsində daim diqqət mərkəzində dayanmalıdır.

Hər bir insanın sağlam və fəal həyat şəraitinin təmin edilməsi üçün zəruri miqdar və keyfiyyətdə ərzaq məhsullarının fasiləsiz təmin edilməsinə **ərzaq təhlükəsizliyi deyilir**. Ərzaq təhlükəsizliyi aşağıdakı ərazi səviyyələri üzrə müəyyən edilə bilər:

1) Dünya ərzaq təhlükəsizliyi;
2) Regional ərzaq təhlükəsizliyi;
3) Milli (dövlət) ərzaq təhlükəsizliyi;
4) Yerli ərzaq təhlükəsizliyi;
5) Ev təsərrüfatı (ailə) ərzaq təhlükəsizliyi.

Ərzaq təhlükəsizliyinin ərazi səviyyələri üzrə təmin edilməsinin hər bir səviyyə üçün müvafiq proqramları hazırlanır, maliyyələşdirilir və həyata keçirilir.

Ərzaq təhlükəsizliyi günlərin sayı ilə ölçülür. Bu günlərə **təhlükəsizliyin təminatı müddəti** də deyilir. Bu müddət ərzində istehlak digər dövlətlərin mövcud ehtiyatları hesabına ödənə bilər. Lakin bu ödənmə bir çox daxili və xarici amillərdən, məhsulun növündən, dövrlərdən və digər amillərdən asılı olur.

Milli ərzaq təhlükəsinin yaranma səbəbləri aşağıdakılar hesab edilir:

1) Tədarük, emal və istehsalın azalması;
2) Torpaq resurslarından səmərəsiz istifadə edilməsi;
3) Kənd təsərrüfatı xammalı və ərzaq istehsalçılarına dövlət tərəfində maliyyə yardımı göstərilməməsi;
4) Milli istehsalçıların marağının qorunmaması (proteksionizmin tətbiq edilməməsi);
5) Əhali planlaşdılmasının düzgün aparılmaması;
6) Təbii iqlim şəraitinin pozulması (quraqlıq yağıntı, sel, sunami, tufan, radiasiya və s.);
7) İstehlakın struktur fərqlərinin nəzərə alınmaması;
8) Ölkələrarası təsərrüfat əlaqələrinin düzgün qurulmaması;
9) Məhsuldarlığın aşağı düşməsi;
10) Ölkədə “Yaşıl inqilab” proqramının olmaması;
11) Kənd təsərrüfatında mexanikləşdirmə və avtomatlaşdırma səviyyəsinin aşağı olması;
12) Emal texnologiyasının zəifliyi və s.

Ərzaq təhlükəsinin yaranmasının qarşısını almaq hər bir səviyyə üçün xarakterik əlamətlərə malik olmaqla, onun baş verəcəyini maksimum azaltmaq, qarşısını almaq və ehtiyat tədbirlərinin görülməsi zərurət tələb etməklə, qabaqlayıcı proqramların hazırlanması, tətbiq edilməsi və həyata keçirilməsi daim çevik və yeni formalar tələb edir.

Qlobal və milli ərzaq təhlükəsi aşağıdakı son nəticələrə gətirib çıxarır:

1) Ərzaq qıtlığı yaranır;
2) Ərzaq məhsullarının qiyməti bahalaşır;
3) Yarım qidalanma prosesi gedir (doymamazlıq);
4) Aclıq əmələ gəlir;
5) Ölkə vətəndaşının qida rasionu zəifləyir;
6) Şəxslərin və ailələrin ərzaq (qida) məhsullarına sərf etdiyi xərclər artır;
7) Xəstəliklər və epidemiyalar yayılır, adam ölümü artır;
8) Qeyri-leqal miqrasiya əmələ gəlir;
9) Ərzaq böhranları (taxıl, çörək) yaranır və s.

Hər bir dövlət özünün vatandaşlarının əsas və zəruri qida məhsulları ilə qəbul edilmiş standartlara və normalara uyğun olaraq istehlak təminatı vəzifəsini yerinə yetirən iqtisadi siyasət proqramını yerinə yetirməlidir.

Dünyanın İnkişaf Etməkdə Olan Ölkələrində əhalinin ərzaqla təminatının ağırlaşması, aclıq baş verməsi və ciddi problemlərin yaranması təcili və əsaslı tədbirlərin görünməsini zəruri edir. Bu problemin həllində əsas alət kimi ərzaq yardımı götürülür. Ərzaq resurslarının güzəştli

kreditlər və əvzsiz verilməsi şərtilə basqa ölkəyə göndərilməsinə **ərzaq yardımı** deyilir. Əgər XX əsrin 70-ci illərində hər il 8 mln t taxıl yardım göstərilirdisə, bu rəqəm 90-cı illərdə 13 milvon, 2010-cu illərdə 20 mln t-a çatmışdı ki, bu da illik istehsalın 7 faizinə bərabərdir. Həmin dövrdə qeyri-taxıl ərzaq yardımı (quru süd, bitki yağı və s.) 330 min t-dan 1,8 mln t-a qalxmışdır. Ərzaq yardımının 70 faizdən çoxu Saxaravanı Afrika ölkələrinə, Asiya ölkələrindən – Hindistan, Pakistan və Şri-Lankaya, Latın Amerikasından – Salvador, Qvatemala, Yamayka və Peruya göstərilir.

Dünya ərzaq yardımı ilə bərabər beynəlxalq yardımın digər forması olan texnika və texnologiyanın verilməsi yolu ilə də yardımlar göstərilir ki, bu da son nəticədə ərzaq yardımı edilməsinə xidmət edir.

Ərzaq yardımı ikitərəfli və çoxtərəfli əsaslarla aparılır. İkitərəfli yardımlara bir dövlətin digər dövlətə, çoxtərəfli yardımlara – beynalxalq təskilat və birliklərin yardımları daxil edilir.

Ərzaq yardımı göstərən əsas aşağıdakılardır:

1) İnkişaf Etmiş Ölkələr (ABŞ, Böyük Britaniya, Fransa və s.);
2) Yeni sənaye ölkələri (Cənubi Koreya, Malayziya və s.);
3) Bəzi İEOÖ-lər (Braziliya, Türkiyə və s.);
4) Aİ, İƏİT, OPEC və s. beynəlxalq təşkilatlar.

Dünyada ərzaq problemlərinin həlli və ərzaq yardımlarının göstərilməsində FAO, Ümumdünya Ərzaq Şurası, Beynəlxalq kənd təsərrüfatının inkişaf fondu və s. təşkilatlar mühüm rol oynayır. Ərzaq yardımlarının göstərilməsinə iqtisadi, humanitar, milli, dini və hərbi səbəblərlə bərabər, sırf siyasi səbəblər də təsir göstərir.

# MÖVZU 8. DÜNYA SƏNAYE İSTEHSALI

## SUALLAR

1. Dünya sənaye istehsalının təkamülü, inkişaf mərhələləri və sənaye inqilabları.
2. Dünya sənayesinin strukturu.
3. Dünya sənaye istehsalının müasir vəziyyəti.
4. Dünyanın hasilat sənayesi  və onun xüsusiyyətləri.
5. Dünyanın emal sənayesi və onun xüsusiyyətləri.
6. Dünya ölkələrinin sənaye siyasətinin əsas istiqamətləri.
7. Kosmik məkanın mənimsənilməsi problemi.
8. Dünya iqtisadiyyatının hərbi – siyasi problemləri.

## Əsas ədəbiyyat


1. Lomakin V.K. Dünya iqtisadiyyatı, Bakı, 2015, səh.208-272.
2. Hüseynov T.Ə. Sənayenin iqtisadiyyatı, Bakı, 2000.
3. Промышленная политика и международные отношения. Книга 1,2. Челябинск, 2005.
4. Родионова И.А. Мировая экономика – индустриалный сектор. Москва и друг. города, 2005.
5. International Energy Outlook. Hər il.
6. OPEC Annual Statistical Bulletin. Hər il.
7. World Bureau of Metal Statistics. Hər il.
8. The Fourth Industrial Revolition, https://www.britannica.com
9. Statistical Review of World Energy, Energy economics, https://www.bp.com
10. World Development Indicators, World Bank.
11. Global Economic Prospects, World Bank.
12. World Economic Outlook, IMF.
13. Monthly Bulletin of Statistics.
14. Azərbaycan Respublikasının dövlət təsnifatı. Sənaye məhsullarının statistik təsnifatı (siyahısı), List of Products of the European Community (Üçüncü seriya), AZT036 – 2009. Rəsmi nəşr.


## Muzeylər – Elmi-Tədqiqat və elmi-dərketmə mərkəzlərinin materialları

1. Tarix muzeyləri (məsələn, Paris Luvr muzeyi);
2. Tarix – diyarşunaslıq və arxeologiya muzeyləri (Misir muzeyi – Qahirə);
3. İncəsənət muzeyləri (Puşkin muzeyi – Moskva);
4. Qalareliyalar (Dövlət  Tretyakov qalareyası – Moskva);
5. Əmtəə muzeyləri (Xalça muzeyi);
6. Əmtəə fondları (Rusiya almaz fondu);
7. Palientologiya muzeyləri (Budapeşt);
8. Silah palataları (Rusiya silah palatası);
9. Elm muzeyləri (Yaponiya Milli Elm Muzeyi – Tokio);
10. Dövlət Ermitajı (Sankt-Peterburq);
11. Texnika – politexnika muzeyləri;
12. Biologiya – zoologiya muzeyləri;
13. Vətən, müharibə və hərbi muzeylər;
14. Şəxsiyyət muzeyləri;

15. Milli muzeylər və s.
Əmtəə muzeylərinə misal olaraq aşağıdakıları qeyd etmək olar:
1. Azərbaycan xalça muzeyi (Bakı şəhəri);
2. Tula silah muzeyi;
3. Tula samovar muzeyi;
4. Anqarski saat muzeyi (Rusiya, İrkutski vilayəti);
5. Sankt-Peterburq metrologiya muzeyi;
6. Yantar muzeyi (Rusiya, Kalininqrad);
7. Su muzeyi (Sankt-Peterburq);
8. BMW muzeyi (Almaniya – Münxen);
9. Valday zənglər muzeyi (Rusiya, Novqorod vilayəti, Valday şəhəri);
10. Pul muzeyləri (İstanbul, Hollandiya və s.);
11. Bakı Neft Muzeyi (Azərbaycan);
12. Çörək muzeyi (Azərbaycan, Ağdam şəhəri) və s.

# 1. DÜNYA SƏNAYE İSTEHSALININ TƏKAMÜLÜ, İNKİŞAF MƏRHƏLƏLƏRİ VƏ SƏNAYE İNQİLABLARI

Sənaye istehsalı (zavod istehsalı, fabrik istehsalı – ingiliscə manufaktura) işçi qüvvəsinin cəlb edilməsi ilə maşın və alətlərlə məhsul istehsalına deyilir. Sənaye (promısel) rus sözündən götürülüb istehsal etmək, mədən mənaları verir.

**Sənaye istehsalı** – mürəkkəb texnoloji proses olub, çoxsaylı istehsalat – texnoloji hissələrdən ibarətdir.

Sənaye sektoru mühəndis araşdırmaları və sənaye dizaynı ilə sıx bağlıdır.

**Sənaye istehsalı** – sənaye avadanlıqlarından istifadə etməklə xammal və materialların hazır məhsula çevrilməsi proseslərinin məcmusudur. Sənaye istehsalı bazarın indikatorudur.

**Sənaye istehsalı** – innovasiya proseslərinin çoxsaylı mərhələlərindən ibarətdir.

**Sənaye istehsalı** – xüsusi sənaye avadanlıqları vasitəsilə seriyalı və kütləvi mal istehsalıdır.

**Sənaye istehsalı** – istehlak bazarının tələbatını ödəmək üçün xammal, material və yarımfabrikatların hazır məhsula çevrilməsi prosesidir.

**Sənaye istehsalı** – birdəfəlik (tək) istehsaldan seriyalı, seriyalı istehsaldan kütləvi istehsala doğru gedir.

Sənaye xammal və yanacaq hasilatı, elektirik enerjisi və əmək alətləri istehsalı, xammal, material və məhsulların istehsalı və emalı məqsədilə yaradılmış müəssisələrin (mədən, şaxta, elektrik stansiyası, zavod, fabrik, kombinat və s.) birliyidir. Sənaye uzun inkişaf yolu – sadə kapital istehsalı, manufaktura və fabrik mərhələlərini keçməklə bugünkü yüksək inkişaf mərhələsinə gəlib çatmışdır. Sənaye xalq təsərrüfatının mühüm sahəsi olub cəmiyyətin məhsuldar qüvvələrinin inkişaf səviyyəsinə birbaşa təsir edir.

Sadə kapitalist istehsalı - əl əməyi əsasında eyni cinsli əmək və məhsul istehsalını aparan ictimai əmək forması, manufaktura (latın sözü olub, latın sözləri “manus” - əl, “faktura”- hazırlanma sözlərindən əmələ gəlmişdir) – sadə kapitalist istehsalından sonrakı ikinci mərhələ olmaqla əllə peşə texnikası əsasında aparılan əmək bölgüsü, fabrik (latın sözü olub, “faber” – usta, “fabrik” – emalatxana sözlərindən əmələ gəlmişdir) – iri maşın istehsalı olub, maşın üsulu ilə xammalın emalı aparılan əmək bölgüsü forması və ya iri maşın industriyasıdır.

Manufakturadan iri maşın indisturiyasına (sənayesinə) keçilməsi ilə əlaqədar olaraq XVIII əsrin 60-lı illərindən XIX əsrin əvvəllərinə qədər Böyük Britaniyada sənaye inqilabı baş vermiş, sonrakı dövrlərdə ABŞ və Almaniyada sürətlə inkişaf edərək daha da genişlənmiş, nəticədə dünyada Sənayecən İnkişaf Etmiş Ölkələr (SİEÖ) əmələ gəlmişdir.

Sənaye maddi istehsalın iki əsas sahəsindən biridir. Məhsulun iqtisadi cəhətdən təyini əlamətinə görə “A” – ağır (istehsal vasitələri istehsalı) və “B” – yüngül və yeyinti (istehlak malları istehsalı) sənaye sahələrinə də bölünürdü. Əmək cisimlərinə təsir əlamətlərinə görə hasilat və emaledici sənaye sahələrinə bölünür. Dördüncü sənaye inqilabından sonra emal sənayesi ümumi sənaye məhsulu dəyərinin 90 faizini özündə birləşdirir. Bu sahədə maşınqayırma, kimya, elektroenergetika daha sürətlə inkişaf edir. Elm tutumlu mikroelektronika, EHT, robotqayırma, atom və aviakosmik istehsal, üzvi sintez kimyası və mikrobiologiyanın xüsusi çəkisi artır.

Dünya sənayesində fokslaşdırıcı meyillər baş verir. Belə ki, dünyada sənayenin dünya okeanı sahillərinə meyil etməsi güclənir. Ayrı-ayrı sənaye sahələrinin yerləşməsinə təbii və sosial-iqtisadi amillər təsir edir. Hasilat sənayesi təbii xammalın yayıldığı regionlara, yüksək xammal və enerjitutumlu emal sənayesi texnoloji inkişaf, əmək resursları, istehalakçı, nəqliyyat və s. regionlara daha çox meyil edir.

Dünya sənaye istehsalı uzun bir tarixi yol keçərək müasir vəziyyətə gəlib çatmışdır.Bu yol müxtəlif təkamül mərhələlərini keçmişdir. Dünya sənaye istehsalının tarixi feodalizm dövründən başlayır. Dünya sənaye istehsalının yaranması və inkişafı sənayedə kapitalist münasibətlərinin genezisi və təkamülü mərhələlərini əhatə edir.

Dünya sənaye istehsalının inkişaf mərhələləri 8.1-ci sxemdə verilmişdir.

**Sxem 8.1**

**Dünya sənaye istehsalının inkişaf mərhələləri**

| **İctiami-iqtisadi formasiya** | **Sənaye istehalının forması** | **İstehsal subyekti** | **Əməyin kapitala tabeçilik xarakteri** |
|---|---|---|---|
| Feodalizm – inkişafın III mərhələsi (Avropa, XVI-XVII əsrlər) | Sənətkarlıq (şəhərdə sexlərin təşkili, kəndlərdə kənd təsərrüfatının sənətkarlıq istehsalı ilə birləşməsi) | Sənətkar – istehsal vasitələrinin sahibi və eyni zamanda, işçi kimi çıxış edir | Tabeçiliyi olmur |
| Feodalizm – XVI-XVII əsrlər, kapitalist ukladının genezisi | Ailədaxili əmək bölgüsü əsasında ev istehsalı | Kustar – istehsal vasitələrinin sahibi və işçi kimi çıxış edir. | Əməyin kapitala formal tabeliyinin genezisi |
| Feodalizm. Kapitalist ukladı: “manufaktura kapitalizmi” XVII-XVIII əsrlər | Əmək bölgüsüz – sadə istehsal kooperasiyası, əl əməyinin bölgüsü – manufaktura əsasında mürəkkəb kapitalist kooperasiyası | Muzdlu işçi – sənaye kapitalisti | Əməyin kapitala formal tabeçiliyi |
| XVIII əsrin sonundan – kapitalist ictiami-iqtisadi formasiyası | Maşın – fabrika kooperasiyası əsasında iri maşınlı əmək bölgüsü üzrə mürəkkəb kapitalist kooperasiyası | Muzdlu işçi – sənaye kapitalisti | Əməyin kapitala real tabeçiliyi |
| XX əsrin ortalarından sonra sosialyönümlü kapitalist istehsalı | Mexanikləşdirilmiş, avtomatlaşdırılmış, robotlaşdırılmış, kompüterləşdirilmiş fabrik və zavodlar | Muzdlu işçi – sənaye kapitalisti və səhimdar cəmiyyətləri | Əməyin kapitala yüksək əməkhaqqı tabeçiliyi və gəlir əldəetmə |

8.1-ci sxemdən görünür ki, Feodalizm – kapitalist ukladı olub "manufaktura kapitalizmi" kimi XVII-XVIII əsrləri əhatə edir. Bu mərhələdə sənaye istehsalının əsas forması sadə istehsal kooperasiyasıdır. Bu dövrdə əmək bölgüsüz – sadə istehsal kooperasiyası yaranmış, uzun dövrdən sonra əl əməyinin bölgüsü – manufaktura əsasında mürəkkəb kapitalist kooperasiyası formalaşmışdır. İstehsalın subyekti kimi muzdlu işçi – sənaye kapitalisti çıxış etmişdir. Əməyin kapitala formal tabeçiliyi olmuşdur.

Kapitalizm – XVIII əsrin sonundan kapitalist ictimai-iqtisadi formasiyası dövrüdür. Bu mərhələdə sənaye istehsalının əsas forması maşın – fabrika kooperasiyası (irimaşınlı) əsasında əmək bölgüsü üzrə mürəkkəb kapitalist kooperasiyası yaranmışdır. İstehsalın subyekti kimi yenə də muzdlu işçi – sənaye kapitalisti çıxış etmişdir. Artıq bu mərhələdə əməyin kapitala real tabeçiliyi başlamışdır.

Sosial kapitalizm – XX əsrin ortalarından sonra sosialyönümlü kapitalist istehsalı dövrüdür.Bu mərhələdə sənaye istehsalının əsas forması olan mexanikləşdirilmiş, avtomatlaşdırılmış robotlaşdırılmış, kompüterləşdirilmiş fabrik və zavodlar yaranmışdır. İstehsalın subyekti kimi muzdlu işçi – sənaye kapitalisti və səhmdar cəmiyyətləri çıxış etmiş-dir. Əməyin kapitala real tabeçiliyi olmaqla, yüksək əməkhaqqı – gəlir əldəetmə prosesi başlamışdır.

Dünya sənaye istehsalının yaranması və təşəkkül tapması dünyanın sənaye inqilabları nəticəsində baş vermişdir. Sənaye inqilablarının mahiyyəti və başvermə dövrü ilə əlaqədar tarixi iqtisadi mənbələrdə azca fərqli olan fikirlərin olması həmin sənaye çevrilişi və yeniliyinin ideya (nəzəriyyə) kimi irəli sürülməsi, əsaslandırılması, təsdiqlənməsi, ayrı-ayrı elementlərinin patentləşdirilməsi və rəsmiləşdirilməsi ilə əlaqədardır.

XVIII əsrin sonlarından başlayaraq indiyə qədər tarixi baxımdan qısa olan 236 il ərzində aşağıdakı sənaye inqliabları olmuşdur.

### Sənaye inqilabları

**I sənaye inqilabı:** 1784-cü ildə Şotlandiyalı mexanik Ceyms Uaytın buxar maşını ixtira etməsi. Rusiya mənbələrində Polzunovun buxar maşını ixtira etməsi haqqında məlumatlar verilir.

1807-ci ildə buxar maşını gəmilərdə və 1812-ci ildə lokomotivlərdə istifadəyə başlanılıb.

**II sənaye inqilabı:** 1870-ci ildə elektrikin ixtira edilməsi və elektirikləşdirməyə başlanılması.

I sənaye inqilabından 86 il sonra baş vermişdir.

**III sənaye inqilabı:** 1969-cu ildə elektronikanın kəşf edilməsi, sənayedə informasiya texnologiyaları və kompüterləşdirməyə başlanılması. II sənaye inqilabından bir əsr – 100 il sonra baş vermişdir.

**IV sənaye inqilabı:** 2000-ci ildə süni intellekt və ya robotun hazırlanması, insansız istehsala başlanması. III sənaye inqilabından 30 il sonra baş vermişdir.

Robotlaşdırmanın sürətlə tətbiqi indiki sənaye istehsalının ən prioritet istiqamətidir. Artıq "Sofiya" – süni qadın yaradılmışdır (2018-ci ildə Bakıda olub).

Davos İqtisadi Formunun təşkilatçılığı ilə IV Sənaye İnqilabı Mərkəzi yaradılmışdır. San-Fransiskoda yerləşir.

I-III sənaye inqilabları təqribən 100 il fasilələrlə baş vermişdir. Dördüncü isə daha tez baş vermiş, səbəbi isə sürətli inkişafdır. Hazırki yaşadığımız dövr - IV sənaye inqilabı dövrü "körpü" dövrü hesab edilir.

Artıq V sənaye inqilabı haqqında ideyalar irəli sürülür. Belə hesab edilir ki, 2020-ci ildə dünyanın ən zəngin adamı hesab edilən "Tesla" kompaniyasının sahibi İlon Maskın söz

verdiyi 2026-cı ildə Mars planetində şəhər salması reallığa çevrilərsə, bu dünyanın V sənaye inqilabı ola bilər.

Sənaye inqilabları nəticəsində bir-birini yaradan və bir-birindən törənən yeni-yeni məhsullar əmələ gəlmişdir. I və II sənaye inqilablarından sonra kəşf edilən əsas innovativ sənaye məhsulları 8.2-ci cədvəldə verilmişdir.

**Cədvəl 8.2**

**Sənaye inqilabları nəticəsində ilk kəşf edilən əsas innovativ sənaye məhsulları**

| İllər | Nə kəşf edilib | İllər | Nə kəşf edilib |
|---|---|---|---|
| 1784 | Buxar maşını | 1877 | Qramafon |
| 1793 | Pambıqtəmizləmə maşını | 1878 | Mikrofon |
| 1807 | Buxar gəmisi | 1879 | Elektrik lampası |
| 1828 | Dəmiryolu | 1884 | Viskoza |
| 1831 | Elelktrik generatoru | 1886 | Hidroelektrik stansiyası |
| 1839 | Fotoqrafiya | 1888 | Kamera, radio |
| 1844 | Teleqraf | 1892 | Dizel mühərriki |
| 1846 | Pnevmatik şin | 1895 | Rentgen aparatı |
| 1849 | Dəmir-beton | 1896 | Simsiz teleqraf |
| 1850 | Benzin | 1899 | Aspirin |
| 1851 | Soyuducu, tikiş maşını | 1900 | Drijabl |
| 1859 | Benzin mühərriki | 1903 | Təyyarə |
| 1867 | Dinamit (Nobellər) | 1906 | Elektron lampa |
| 1873 | Yazı maşını | 1925 | Televiziya |
| 1876 | Telefon | | Və s. |

8.1-ci cədvəldən göründüyü kimi, I sənaye inqilabından sonra dünya sənaye istehsalında çevirilişlər baş vermiş, mexaniki sənaye alət və maşınlarından odun, kömür, dizel, benzin və elektrik maşını və avadanlıqlarına keçilmişdir.

Nəzərə almaq lazımdır ki, I sənaye inqilabından əvvəl bəzi ölkələrdə əllə işləyən mexaniki toxum əkən, sap (ip) əyirən, xırman və s. maşınları olmuşdur.

Müasir texnologiyalar sənayeni (industriyanı) sürətlə dəyişir, insan əməyi getdikcə azalır və demək olar ki, insanın fiziki əməyinə ehtiyac qalmır.

Dünya sənaye istehsalı sürətlə artdıqca və tərəqqi etdikcə bir tərəfədən yüksək inkişaf təmin edilir, digər tərəfdən yeni problemlər ortaya çıxır.

Məsələn, Yer kürəsinin ətrafında sənayenin inkişafı nəticəsində insanların düzəltdiyi 22 min obyekt dövr edir (2015). Nəticədə hər il Yer kürəsinin atmosferinə buradan 100-300 t kosmik toz, zibil-tullantı düşür. Bu da iqlim dəyişmələrinə səbəb olan təhlükəli amillərdən biri hesab edilir.

Dünyanın, onun tərkib hissələri olan dünya ölkələrinin sənaye istehsalı problemlərini öyrənən, tədqiq edən, ümumiləşdirən və tövsiyyələr hazırlayan əsas beynəlxalq təşkilat UNİDO-dur.

## UNİDO – BMT-nin Sənayenin İnkişafı Təşkilatı (UNİDO – United Nations Industrial Development Organization)

BMT-nin dünya ölkəlkərinin sənaye sahəsindəki fəaliyyətini əlaqələndirən mərkəzi orqanıdır. BMT-nin ixtisaslaşdırılmış təşkilatıdır (agentliyidir).

17 noyabr 1966-cı ildə BMT-nin Baş Assambleyasının qərarı ilə yaradılmış, 1985-ci ildə ixtisaslaşdırılmış agentliyə çevrilmişdir. Mənzil-qərargahı Vyanada (Avstriya) yerləşir. Üzv ölkələrin sayı 171-dir(2019). 60 ölkədə daimi nümayəndəliyi vardır.

2 dekabr 2013-cü ildə UNİDO-nun Baş Konfransının 15-ci sessiyasında “Ümumdünya sənayesi dayanıqlı inkişaf yolunda” deklorasiyası (ingilis abreviaturası ilə ISID) qəbul edilmişdir.

UNİDO-nun fəaliyyət prioritetləri dörd tematik istiqamətə yönəldilmişdir:

1. İctimai rifahın yüksək nəticələrinə nail olmaq;
2. İqtisadi rəqabətqabiliyyətliyin inkişafı;
3. Ətraf mühitin mühafizə edilməsi;
4. Bilik və inistitutların möhkəmləndirilməsi.

Bu istiqamətlərin hər biri ISID deklarasiyasının müxtəlif akseptlərində öz əksini tapmışdır.

2009-cu ildən UNİDO səayenin inkişafı haqqında “Making it: industry for development” jurnalını nəşr edir.

## 2. DÜNYA SƏNAYESİNİN STRUKTURU

Milli iqtisadiyyat dövlətlərin və ərazilərin əmək bölgüsü əsasında tarixən təşəkkül tapmış istehsal və xidmət sahələrinin kompleksi və onların məcmusudur. İqtisadiyyatın sahə strukturu milli iqtisadiyyat üzərində qurulur.

Milli iqtisadiyyatın əsas baza sahələri (sektorları) kənd təsərrüfatı, sənaye və xidmət sferalarıdır. Öz tərkibində istehsal infrastrukturu olan tikinti, nəqliyyat və rabitəni də birləşdirir. Baza sahələri strukturunda iki böyük qrup olan maddi istehsal sahələri – kənd təsərrüfatı və sənaye, sosial-mədəni sfera olan xidmət sferası əmələ gəlir.

Baza (əsas) sahələr, həmçinin, iri, kiçik və alt (sub) sahələrə bölünür. İri sənaye sahələrinin tərkibində birləşdirilmiş 11 iri, 150 kiçik və 300-ə qədər alt(sub) sənaye sahəsi fəaliyyət göstərir. Hər birinin səciyyəvi əlamətləri və xüsusiyyətləri vardır.

Dünya ticarət dövriyyəsinin 80 faizini sənaye məhsulları təşkil edir.

Dünya iqtisadiyyatının sahə strukturunun 2-ci sektoru olan sənaye (industriya) üç böyük sahəyə bölünür:

1. Hasilat sənayesi;
2. Emal sənayesi;
3. Elektroenergetika sənayesi.

Hasilat sənayesinə – dağ-kimya xammalı, qara və əlvan metal filizləri, metallurgiya üçün qeyri-filiz xammalı, qeyri-metal filizi, neft, qaz, kömür, torf, şist, duz, qeyri-filiz tikinti materialları, əhəngdaşı, həmçinin, hidroelektrik stansiyaları, su kəmərləri, meşə istismarı müəssisələri, balıqtutma və dəniz məhsulları istehsalı müəssisələri daxil edilir.

Emal sənayesinə – maşınqayırma, qara və əlvan metal istehsalı, prokat, kimya, neft-kimya məhsulları, maşın və avadanlıqlar, ağac emalı və sellüloz-kağız sənayesi məhsulları, sement və digər tikinti materialları, yüngül və yeyinti sənaye məhsulları, yerli sənaye, həmçinin, nəqliyyat zəncirinin təmiri (paravoz, lokomotiv və s.), istilik elektrik stansiyaları, kino sənayesi və s. müəssisələr daxil edilir.

Elektroenergetika – energetikanın ən mühüm sahəsi olub, elektrik enerjisinin istehsalı və ötürülməsi sahələrini əhatə edir.

Dünya iqtisadiyyatının sahə strukturunun 2-ci sektoru olan sənaye sektorunu beynəlxalq təşkilatlar “industriya sektoru” hesab edir. Müasir təsnifat modelinə görə ikinci sektora – industriya sektoruna hasilat və emal sənayesi, elektroenergetika, istehsalyönümlü tikinti, kommunal təsərrüfatı, o cümlədən elektrik, qaz və su təchizatı daxildir.

İndustriya – latın sözü olub iqtisadi mənada fəaliyyət, geniş mənada maşın, avadanlıq və texnika ilə fabrik-zavod fəaliyyətinə deyilir. Çox geniş mənada işlədilir. Məsələn:

- ❖ Ağır industriya;
- ❖ Musiqi industriyası;

- ❖ Turizm industriyası;
- ❖ Gözəllik industriyası;
- ❖ Tibbi industriya;
- ❖ Maliyyə industriyası;
- ❖ Hərbi industriyası;
- ❖ İndustriya qiqantları;
- ❖ Daş industriyası;
- ❖ Mədəniyyət industriyası;
- ❖ Kosmik industriyası;
- ❖ Qida industriyası;
- ❖ Kompüter industriyası;
- ❖ Alman industriyası və s.

Sənayenin sürətli inkişafı və genişlənməsi nəticəsində industriya anlayışı əmələ gəlmişdir. İndustriya yeni, sənaye ənənəvi anlayışdır.

Sənaye – bütün dünyada maddi istehsalın əsas, başlıca və aparıcı sahəsidir. Ümumi Daxili Məhsulun (ÜDM-in) və Milli Gəlirin 30-40 faizə qədəri məhz bu sahədə formalaşır.

Dünyada sənaye sahələrinin təsnifatı aşağıdakı əsas qruplar üzrə aparılır:

1) İstehsal edilən məhsulun iqtisadi təyinatına görə: neft, qaz, kömür sənayesi və s.;
2) İstehsal prosesində məhsulun funkisonal xarakterinə görə: kimya, meşə sənayesi və s.;
3) Buraxılan məhsulun məqsədli təyinatında eyniliyə görə: qara metallurgiya, əlvan metallurgiya və s.;
4) Xammalın təkrar emalında ümumiliyinə görə: qızıl, nikel, gümüş, dəmir və s.;
5) Tətbiq edilən texnologiyaların uyğunluğuna görə: Yüngül sənaye, yeyinti sənayesi və s.

Beynəlxalq təcrübədə sənaye sahələri qruplaşdırılarkən ən çox əmək predmetinə təsirin xarakterinə görə qruplaşdırma aparılır. Bu zaman bütün sənaye iki əsas sahəyə ayrılır:

1) Hasilat sənayesi;
2) Emal sənayesi.

Hasilat sənayesinin tərkibinə yerin təki, meşə və su ərazisində olan xammal, material və yanacaq halında hasil edilən sənaye sahələri daxil edilir: neft, qaz, kömür, meşə, tikinti materialları və s.

Emaledici sənayenin tərkibinə xammal və materialların emalı ilə məşğul olan sənaye sahələri daxil edilir: Metallurgiya, kimya, yeyinti və s. sənaye sahələri.

Emal edilən ilkin xammalın mənbəyinə görə emal sənayesi iki qrupa bölünür:

1) Sənaye təyinatlı xammalı emal edən sənaye sahələri: qara, əlvan metallurgiya və s.
2) Kənd təsərrüftı təyinatlı xammalı emal edən sənaye sahələri: ət, süd, şəkər, pambıq və s.

Dünya ölkələrində sənayenin təkamülü, inkişafı və genişlənməsi nəticəsində sənaye kompleksləri formalaşmışdır. Sənaye kompleksləri ölkələrin sənaye sahələrinin inkişaf səviyyələrindən asılı olaraq fərqlənir. Sənaye cəhətdən inkişaf etmiş ölkələrdə sənaye kompleksləri yaranır. İnkişaf etmiş dünya ölkələrində olan sənaye kompleksləri 8.3-cü sxemdə verilmişdir.

**Sxem 8.3**

**Dünya ölkələrinin sənaye kompleksi**




8.2-ci sxemdən görünür ki, dünya ölkələrinin sənayesi 8 əsas kompleksdə birləşir. Hər bir kompleksin tərkibinə müxtəlif alt sənaye sahələri daxildir və bu komplekslər ölkələr üzrə fərqlənirlər. Bu səkkiz kompleksdən 3-ü birinci sektorun – aqrokultur sektoru ilə sənaye sektorunun müştərək kompleksidir.

Dünya ölkələrinin yanacaq-energetika kompleksinin ümumi strukturu 8.3-cü sxemdə verilmişdir.

8.3-cü sxemdən görünür ki, yanacaq-energetika kompleksinə yanacaq, elektroenergetika sənayesi və enerjinin nəqli vasitələri daxildir.

Dünya ölkələrinin sənaye sahələri bir-birindən fərqli olduğu üçün bütün ölkələr üçün vahid sənaye sahələri təsnifatı yoxdur. Hər bir ölkə milli iqtisadiyyatının sahə strukturundan asılı olaraq təsərrüfatın sahə təsnifatını müəyyən edir. Məsələn, Sovet dövründə SSRİ-də "Xalq Təsərrüfatı Sahələrinin Ümumittifaq Klassifikatoru" qəbul edilmişdir (OKOHX). İnkişaf Etmiş Ölkələrdə (İEÖ) sənaye sahələri, demək olar ki, eyni olsa da, zəif inkişaf etmiş ölkələrdə bəzi sənaye sahələri, təbii ki, yoxdur. Lakin bütün ölkələrdə "iqtisadi fəaliyyət növlərinin təsnifatı" vardır.

İnkişaf Etmiş Ölkələrin (İEÖ) sənaye sahələrinə aşağıdakı sənaye sahələri aid edilir:

1. Elektroenergetika;
2. Yanacaq sənayesi;
3. Qara metallurgiya sənayesi;
4. Əlvan metallurgiya sənayesi;
5. Kimya və neft-kimya sənayesi;
6. Maşınqayırma və metal emalı sənayesi;
7. Meşə, ağac emalı və sellüloz-kağız sənayesi;

8. Tikinti materialları sənayesi;
9. Şüşə və çini-saxsı qablar sənayesi;
10. Yüngül sənaye;
11. Yeyinti sənayesi;
12. Mikrobiologiya və biokimya sənayesi;
13. Dəyirman  və yem sənayesi;
14. Tibb sənayesi;
15. Poliqrafiya sənayesi və s. sənaye istehsalı sahələri.

Hər bir sənaye sahəsinin tərkibində alt (sub) sənaye sahələri də vardır. Məsələn, maşınqayırma və metal emalı sənayesinin alt sahəsi kimi müdafiə (silahqayırma), kosmik sənaye, yüngül sənayenin alt sənayeləri kimi toxuculuq, tikiş, gön, xəz, ayaqqabı, qalantereya sənaye sahələri, tikinti materialları sənayesinin alt sahələri kimi 10-dan artıq alt sənaye sahələri vardır.

**Sxem 8.4**

**Dünya ölkələrinin yanacaq-energetika kompleksinin ümumi strukturu**



# 3. DÜNYA SƏNAYE İSTEHSALININ MÜASİR VƏZİYYƏTİ

Dünyada yaradılan ÜDM-in sahə strukturunda əgər aqrar sektorun (kənd təsərrüfatının) payı 3 faiz idisə, sənayenin payı 28 faizdir(cədvəl 7.2-yə bax). Yüksək gəlirli ölkələrin ÜDM-ində sənayenin payı 26,0 faiz, orta gəlirli ölkələrdə 37,2 faiz, aşağı gəlirli ölkələrdə 28,8 faiz, Avrozonada 26,7 faiz, Şərqi Asiya və Sakit okean regionunda 47,0 faiz olmuşdur. Bu da onu göstərir ki, İnkişaf Etmiş Ölkələrin ÜDM-ində kənd təsərrüfatının xüsusi çəkisi az, İnkişaf Etməkdə Olan Ölkələrdə isə daha çoxdur.

İEÖ-lər sənaye ölkələri, İEOÖ-lər, əsasən, aqrar ölkələrdir.

Tarixi aspektdən yanaşıldıqda dünya sənaye istehsalının inkişafı XIX əsrin 70-li illərindən başlayır. I və II Dünya müharibələri Avropada sənayenin inkişafını zəiflədir və II Dünya müharibəsindən sonra dünya sənayesi sürətlə inkişaf etməyə başlayır. 1950-2015-ci illərdə dünya sənaye istehsalında birinci 10 ölkə cədvəl 8.2-də verilmişdir.

**Cədvəl 8.2**

**1950-2015-ci illərdə dünya sənaye istehsalında birinci 10 ölkə[1] (faizlə)**

| № | Ölkə | 1950 | Ölkə | 1990 | Ölkə | 2015 |
|---|---|---|---|---|---|---|
| 1. | ABŞ | 26,9 | ABŞ | 19,4 | ABŞ | 20,5 |
| 2. | SSRİ | 15,1 | SSRİ | 12,9 | Çin | 12,7 |
| 3. | Böyük Britaniya | 9,5 | Yaponiya | 10,0 | Yaponiya | 8,7 |
| 4. | AFR | 6,8 | AFR | 7,4 | Almaniya | 6,2 |
| 5. | Fransa | 4,6 | Çin | 4,2 | Hindistan | 4,1 |
| 6. | İtaliya | 2,4 | Fransa | 4,0 | Fransa | 3,3 |
| 7. | Çin | 1,9 | Böyük Britaniya | 3,8 | Böyük Britaniya | 3,2 |
| 8. | Kanada | 1,7 | İtaliya | 3,7 | Braziliya | 3,1 |
| 9. | Hindistan | 1,4 | Braziliya | 2,2 | Rusiya | 2,2 |
| 10. | İsveç | 1,3 | Kanada | 2,2 | İtaliya | 2,1 |
| **Dünya sənaye istehsalında 10 aparıcı ölkənin payı** | | | | | | |
| | | 71,6 | | 69,8 | | 66,1 |
| **Dünya sənaye istehsalında 3 aparıcı ölkənin payı** | | | | | | |
| | | 51,5 | | 42,3 | | 41,9 |

Cədvəl 8.2-dən göründüyü kimi, 1950 və 1990-cı illərdə dünya sənaye istehsalında ilk iki yeri ABŞ və SSRİ tuturdu. 1991-ci ildə SSRİ dağıldıqdan sonra onun varisi hesab edilən Rusiya 9-cu yerə düşmüşdür. Dünya sənayesinin birinci 10-luq ölkələrindən 2-si Amerika, 6-sı Avropa, 2-si Asiya ölkələri olmuşdur. 2015-ci ildə dünya sənaye istehsalının 66,1 faizi 10 aparcı ölkənin, 41,9 faizi 3 aparıcı ölkənin – ABŞ, Çin və Yaponiyanın payına düşmüşdür. Çin 1950-ci ildə 7-ci, 1990-cı ildə 5-ci yerdən, 2015-ci ildə 2-ci və sonrakı illərdə 1-ci yerə çıxmışdır.

Dünya ölkələrinin iqtisadi inkişaf səviyyəsini əks etdirən əsas göstərici sənaye istehsalının həcmidir. Böyük "G-20" qrupu da, əsasən, bu göstərici əsasında formalaşmışdır. Çünki sənaye istehsalı dünya ölkələrini və xalqlarını mal, məhsul və əmtəələrlə təmin etməklə bərabər 3-cü sektora – xidmət (servis) sektoruna da meydan yaradır.

2016-cı ildə sənaye istehsalının həcminə görə dünyanın TOP-20 ölkəsi 8.3-cü cədvəldə verilmişdir.

---

[1] The World Economic Outlook, www.imf.org ,2016

**Cədvəl 8.3**

**2016-cı ildə sənaye istehsalının həcminə görə (AQP ilə) dünyanın TOP-20 ölkəsi**[1]

| № | Ölkələr | Sənaye istehsalının həcmi, mln dollar | Sənaye istehsa-lının həcmi, faizlə | 1 yanvar 2017-ci ildə əhalinin sayı, mln nəfər | 1 nəfərə düşən sənaye istehsalının həcmi, dollarla | 1 nəfərə düşən sənaye istehsalının həcmi, faizlə |
|---|---|---|---|---|---|---|
| | **Bütün dünya:** | **37142138** | **100** | **7515** | **4942** | **100** |
| **1.** | Çin XR | 9082290 | 24,45 | 1388 | 6542 | 132 |
| **2.** | ABŞ | 3860480 | 10,39 | 326 | 11825 | 239 |
| **3.** | Hindistan | 2572695 | 6,93 | 1342 | 1916 | 39 |
| **4.** | Rusiya | 1340710 | 3,61 | 143 | 9351 | 189 |
| **5.** | Yaponiya | 1311912 | 3,53 | 126 | 10408 | 211 |
| **6.** | İndoneziya | 1295984 | 3,49 | 263 | 4918 | 100 |
| **7.** | Almaniya | 1201658 | 3,24 | 81 | 14902 | 302 |
| **8.** | Səudiyyə Ərəbistanı | 811839 | 2,19 | 33 | 24795 | 502 |
| **9.** | Meksika | 786687 | 2,12 | 130 | 6041 | 122 |
| **10.** | Cənubi Koreya | 733020 | 1,97 | 51 | 14457 | 293 |
| **11.** | Braziliya | 695970 | 1,87 | 211 | 3295 | 67 |
| **12.** | İran | 560256 | 1,51 | 81 | 6921 | 140 |
| **13.** | Böyük Britaniya | 549236 | 1,48 | 65 | 8384 | 170 |
| **14.** | Fransa | 528241 | 1,42 | 65 | 8134 | 165 |
| **15.** | İtaliya | 524156 | 1,41 | 60 | 8765 | 177 |
| **16.** | Kanada | 483786 | 1,30 | 37 | 13209 | 267 |
| **17.** | Türkiyə | 462590 | 1,25 | 80 | 5752 | 116 |
| **18.** | Tayland | 437697 | 1,18 | 68 | 6409 | 130 |
| **19.** | Misir | 437580 | 1,18 | 95 | 4596 | 93 |
| **20.** | Polşa | 432372 | 1,16 | 39 | 11212 | 227 |
| | **Cəmi 20 ölkə:** | **28109159** | **76,0** | **4686** | **5999** | **121** |

8.3-cü cədvəl dünyanın aparıcı 20 sənaye ölkəsinin sənaye istehsalının mənzərəsini əks etdirir. Aydın görünür ki, dünyada 2016-cı ildə sənaye istehsalının həcminə görə 1-ci yerdə Çin XR olmuşdur. Sonrakı yerlərdə üçlüyə daxil olan ABŞ və Hindistan, onluğa daxil olan Rusiya, Yaponiya, İndoneziya, Almaniya, Səudiyyə Ərəbistanı, Meksika və Cənubi Koreya olmuşdur.

2016-cı ildə təkcə Çin dünya sənaye məhsulunun dörddə birini – 24,45 faizini istehsal etmişdir. Çinlə ABŞ bir yerdə dünya sənaye məhsulunun üçdə bir hissəsindən çoxunu – 35 faizini istehsal etmişdir. Dünyanın TOP-20 ölkəsi dünya sənaye məhsulunun dörddə üç hissəsindən çoxunu – 76 faizini istehsal etmişdir. “Böyük üçlük” dünya iqtisadiyyatının ən nəhəng iqtisadiyyatlarıdır ki, bunu 8.4-cü cədvəldən görmək olar.

8.4-cü cədvəldə göstərilən hər beş göstərici üzrə həmin dövrdə birinci yerdə Çin, ikinci yerdə ABŞ və üçüncü yerdə Hindistan olmuşdur. Bu üçlükdə iki Asiya və bir Amerika ölkələri dayanır. Avropanın 26 İnkişaf Etmiş Ölkələrindən heç biri yoxdur. Sənaye istehsalının həcminə görə TOP-20-də “7+1” İnkişaf Etmiş Ölkələr, dünyanın əsas sənaye ölkələri və beş İslam ölkəsi dayanmışdır.

[1] UNİDO. “Making it: industry for development”.

**Cədvəl 8.4**

**2016-cı ildə dünyanın "Böyük üçlük" ölkələri**

| № | Göstəricilər | Bütün dünya, faizlə | Çin | ABŞ | Hindistan | Üçlük |
|---|---|---|---|---|---|---|
| 1. | Əhali (01.01.2017) | 100 | 18,5 | 4,3 | 17,9 | 41 |
| 2. | ÜDM (AQP ilə) | 100 | 17,8 | 15,5 | 7,3 | 41 |
| 3. | Sənaye istehsalının həcmi (AQP ilə) | 100 | 24,5 | 10,4 | 6,9 | 42 |
| 4. | Ümumi ilkin enerji istehlakı | 100 | 22,3 | 16,2 | 6,0 | 44 |
| 5. | İl ərzində elektrik enerjisi istehsalı | 100 | 24,0 | 18,3 | 5,1 | 47 |

Dünya ölkələrinin sənaye istehsalında "kiçik dördlük" alt qrupu da vardır ki, buraya dünya sənaye məhsulunun 13,8 faizini təşkil edən dörd ölkə - Rusiya (3,6 faiz), Yaponiya (3,5 faiz), İndoneziya (3,4 faiz) və Almaniya (3,2 faiz) daxil edilir.

1929-cu ilə qədər əvvəlcə Çar Rusiyası, sonrakı illərdə SSRİ-nin tərkibində olan RSFSR aqrar ölkə olmuşdur. İlk dəfə 1929-cu ildə SSRİ-də paravoz istehsalı sənayeləşmənin simvolu kimi hərəkətverici qüvvəsi hesab edilmiş, 57 il sonra 1956-cı ildə teplovoz, 1961-ci ildə elektrovoz istehsalına başlanmış və bu nəqliyyat vasitəsi sənayeləşməyə güclü təkan vermişdir.

Beynəlxalq iqtisadi təşkilatların verdiyi məlumatlara görə 2011-ci ildə Çin sənaye istehsalının həcminə görə ABŞ-ı üstələmişdir.

2014-cü ildə BVF və DB ÜDM-in AQP-yə (Alıcılıq Qabiliyyəti Pariteti) görə Çinin ABŞ-ı üstələməsini göstərmişdir. ABŞ-ın əhalisi (2019) Çinin əhalisindən 4 dəfə az olduğu üçün ABŞ-ın adambaşına düşən ÜDM-i Çinin adambaşına düşən ÜDM-indən, təbii ki, 4 dəfə çoxdur. 2011-ci ildən 2016-cı ilə qədərki, dövrdə ÜDM-in 6-7 faizlik artım tempini Çin aşağı salsa da, yenə də Çinin sənaye istehsalının həcmi 2,5 dəfə ABŞ-dan çoxdur. Adambaşına düşən ÜDM yenə də ABŞ-dan 1,8 dəfə azdır. Nəzərə almaq lazımdır ki, sənaye istehsalının həcmi əsasdır, əsasən, xidmət sektorunda yaranan ÜDM-dən daha vacibdir. Ona görə ki, sənaye istehsalı daha ilkindir və əsasdır, xidmət sektoru bunun üzərində dayanır.

Dünyanın iqtisadi ekspertlərinin fikrinə görə ABŞ – dünyanın iqtisadi nüvəsi, "Qızıl Milyardlığın" **ən böyük varlı ölkəsi** və "sivil dünya"nın simasıdır.

Çin – dünyanın "Qızıl ortaqlığı", sənaye lideri və "Qızıl Milyardlıq" üçün enerji rəqibidir.

Hindistan ərazisinin kiçikliyi və çoxluğuna görə hələlik zəif görünsə də, öz potensialına görə sürətlə yüksələcəyi proqnozlaşdırılır.

Dünya ölkələrinin inkişafı, o cümlədən, sənaye cəhətdən onların resursları, texniki-texnoloji səviyyəsi və intellektual peşəkar kadrları ilə birbaşa bağlıdır. Resursları olmayan və ya az olan ölkələr intellektual əmək və texniki-texnoloji səviyyəsinə görə İnkişaf Etmiş Ölkələrə çevrilirlər.

XX əsrin 50-60-cı illərində Yaponiya xarici xammalın emalı fabrikinə çevrilmişdir.

Yaponiyada XX əsrin 70-80-ci və 90-cı illərindən sonrakı dövr iqtisadi inkişafın ikinci – üçüncü dövrü və ya intellektual texniki-texnoloji dövrü sayılır.

2015-ci ildə dünya ÜDM-inin 12 faizi Yaponiyanın payına düşmüşdür.

Son 20 ildə dünyada sənayenin inkişafını sürətləndirən kreativ sənayedir, onun yeni istiqamətlərini hazırlayan **startaplardır**. Hər gün yeni bir sənaye yeniliyi ortaya çıxır. Kanadada dünyada ilk dəfə 11 dekabr 2019-cu ildə elektriklə işləyən təyyarə uçuş edib.

# 4. DÜNYANIN HASİLAT SƏNAYESİ VƏ ONUN XÜSUSİYYƏTLƏRİ

Dünyada hasilat sənayesi mineral xammalın çıxarılması vəzifəsini yerinə yetirir. Mineral xammal istehsal prosesinin ilkin materialı və onun maddi əsasıdır.

Məhsulların dəyərində xammalın xüsusi çəkisi hazır məhsuldan asılı olaraq 10-90 faiz arasında dəyişir: maşınqayırmada 10-12 faiz, kimya məhsullarında 80-90 faiz və s.

Dünyada mineral xammalın hasilatı çox sürətlə artır. Son 80 ildə istifadə edilən mineral xammal, ondan əvvəlki bütün bəşəriyyət tarixində istifadə edilən mineral xammala bərabərdir. Həmin dövrdə İnkişaf Etmiş Ölkələrdə sənaye istehsalının ümumi həcmi 3,5 dəfə artıdığı halda, metalın orta illik istehlakı bundan 3 dəfə çox , dağ-kimya xammalı istehlakı 3,5 dəfə çox, enerjinin ilk mənbələrinin (neft, qaz, kömür, uran) istehlakı 2,6 dəfə çox artmışdır.

Beynəlxalq təşkilatların hesablamalarına görə dünyada mineral xammal ehtiyatları çox olsa da, onların hasil edilməsi əsas şərtdir. Xammal ehtiyatı hasil edildikdə ölkəyə gəlir gətirir. Ölkələrdə mineral xammal növləri sayına və hasilatın həcminə görə də fərqlənirlər. Bəzi ölkələr hasil edilən xammal növlərinin sayına, digər ölkələr hasil edilən xammalın həcminə görə qruplaşdırılır. Mineral xammalın hasilatında ən çox paya malik olan ölkələr verilir.

Dünyanın əsas mineral xammal növlərinin ölkələr üzrə hasilatı 8.5-ci cədvəldə verilmişdir.

**Cədvəl 8.5**

**Dünyanın əsas mineral xammal növlərinin ölkələr üzrə hasilatı[1], 2014-cü il**

| № | Xammal növü | Əsas neçə ölkə | Ölçü vahidi | Hasilat | Hasilatçı ölkələr |
|---|---|---|---|---|---|
| 1. | Neft | 6 | mln t | 3800 | Səudiyyə Ərəbistanı, Rusiya, Çin, ABŞ, İran, Çin Venesuela |
| 2. | Qaz | 4 | mlrd $m^3$ | 2700 | Rusiya, Kanada, ABŞ, Əlcəzair |
| 3. | Kömür | 3 | mln t | 5400 | Çin, ABŞ, Rusiya |
| 4. | Uran | 3 | min t | 45 | Kanada, Çin, ABŞ |
| 5. | Dəmir filizi | 5 | mln t | 780 | Braziliya, Avstraliya, Çin, Rusiya, ABŞ |
| 6. | Boksitlət | 3 | mln t | 130 | Qvineya, Yamayka, Braziliya |
| 7. | Mis filizi | 4 | mln t | 14,5 | ABŞ, Çili, Rusiya, Qazaxıstan |
| 8. | Qızıl | 4 | t | 2500 | CAR, ABŞ, Avstraliya, Kanada |
| 9. | Almaz | 5 | mln karat | 70 | Konqo, Bostvana, Rusiya, Avstraliya, CAR |
| 10. | Fosfat filizi | 3 | mln t | 140 | ABŞ, Mərakeş, Çin |

8.5-ci cədvəldən göründüyü kimi, hasilatçı ölkələrin 1-ci onluğunda ABŞ 8 xammal üzrə, Rusiya 6 xammal üzrə, Çin 5 xammal üzrə, Kanada 3 xammal üzrə, Avstraliya 3 xammal üzrə, CAR 2 xammal üzrə və Braziliya 2 xammal üzrə lider ölkələrdir.

[1] Mineral Commodity Summaries 2015. U.S. Geological Survey. Wash, 2015.

Mineral xammal növlərindən neft üzrə 6, qaz üzrə 4, kömür üzrə 3, uran üzrə 3, dəmir filizi üzrə 5, boksitlər üzrə 3 və s. ölkələr hasilatda böyük paya malikdirlər. Nəzərə almaq lazımdır ki, bu rəqəmlər illər üzrə dəyişir. Elmi-tədqiqatlar və bazar konyukturunun müəyyən edilməsi araşdırmalarında illər üzrə daha dəqiq verilməlidir.

Dünya iqtisadiyyatının digər sektorları kimi sənaye sektoru və onun tərkib hissəsi olan hasilat sənayesinin vəziyyətini tədris prosesində ətraflı vermək mümkün deyildir. Odur ki, hər bir sektorun əsas növlərinin hasilatının vəziyyəti verilir. Ehtiyatlar bu dərs vəsaitinin 5-ci, istehlaklı və ixracatı digər mövzularda qısa, ədəbiyyat siyahısında verilən əsas müvafiq beynəlxalq təşkilatların hesabatlarında ətraflı verilir.

Dünya ölkələrində neft hasilatının vəziyyəti 8.6-cı cədvəldə verilmişdir.

Cədvəl 8.6-da verilən 2018 və 2019-cu illərdə dünya ölkələri üzrə neft hasilatının vəziyyəti göstərir ki, 2019-cu ildə dünyada 4,4 mlrd t neft hasil edilmişdir. Hasilatda birinci üçlüyə ABŞ, Rusiya və Səudiyyə Ərəbistanı daxil olmuşdur. Bu üç ölkə dünya neftinin 41,8, beş ölkə 53,1, on ölkə 71,6 faizini hasil etmişdir. Hasil olunan neftin 71 faizi qeyri OECD, 29 faizi OECD, 37 faizi OPEC, 63 faizi qeyri OPEC, 1,6 faizi Avropa İttifaqı ölkələrində hasil edilmişdir. BP dünyanın 98 ölkəsində neft hasilatını göstərir və 49 ölkənin neft hasilatını verir (dərslərdə ətraflı izah edilməlidir).

**Cədvəl 8.6**

**Dünya ölkələri üzrə neft hasilatı[1] (mln t)**

| № | Ölkələr | 2018 | 2019 | Dünya üzrə, faizlə |
|---|---|---|---|---|
| 1. | ABŞ | 671,6 | 747,7 | 16,7 |
| 2. | Rusiya | 563,3 | 568,1 | 12,7 |
| 3. | Səudiyyə Ərəbistanı | 576,8 | 556,6 | 12,4 |
| 4. | Kanada | 268,3 | 274,9 | 6,1 |
| 5. | İraq | 227,0 | 234,2 | 5,2 |
| 6. | Çin | 189,1 | 191,0 | 4,3 |
| 7. | BƏƏ | 176,7 | 180,2 | 4,0 |
| 8. | İran | 224,7 | 160,8 | 3,6 |
| 9. | Braziliya | 140,2 | 150,8 | 3,4 |
| 10. | Küveyt | 146,8 | 144,0 | 3,2 |
| 13. | Qazaxıstan | 91,2 | 91,4 | 2,0 |
| 22. | Venesuela | 75,6 | 46,6 | 1,0 |
| **24.** | **Azərbaycan** | **39,2** | **38,1** | **0,9** |
| 33. | Türkmənistan | 12,6 | 12,5 | 0,3 |
| 49. | Suriya | 1,1 | 1,1 | ... |
| | Dünya üzrə cəmi: | 4499,5 | 4484,5 | 100 |
| | OECD ölkələri | 1213,9 | 1288,3 | 28,7 |
| | Qeyri OECD ölkələri | 3285,6 | 3196,2 | 71,3 |
| | OPEC | 1781,4 | 1680,0 | 37,5 |
| | Qeyri OPEC ölkələri | 2718,1 | 2804,5 | 62,5 |
| | Avropa İttifaqı ölkələri | 72,8 | 72,0 | 1,6 |

Dünyada neft hasilatı haqqında hesabatları OPEC, BP, Beynəlxalq Energetika Agentliyi və s. təşkilatlar verir. OPEC əsasən, barellə, BP barel və t-la verir. Bəzi fərqlər olur ki, bunu da həmin təşkilatların hesablama metoologiyası ilə izah etmək olar.

Neftin digər yanacaq-enerji növlərindən fərqli xüsusiyyətləri vardır:

1. Neft ehtiyatlarında olduğu kimi neft hasilatı da dünyanın bütün ölkələrdində yoxdur;

[1] Statistical Review of World Energy, 2020.

2. Müxtəlif ölkələrdə neft ehtiyatları müxtəlif dərinliklərdə yerləşir;
3. Neftin bir çox markaları vardır, tərkibinə, keyfiyyətinə və qiymətinə görə fərqlənir;
4. Neft daha çox okeanətrafı dəniz ərazilərində yerləşib;
5. Neftin daşınma arealı daha genişdir, əsasən, neft kəmərləri və tankerlərlə daşınır;
6. Neft qiymətləri daha sürüşkəndir, beynəlxalq bazarlarda – birjalarda təyin olunur;
7. Neft əmtəəlik əlamətinə görə ikili əhəmiyyət daşıyır: yanacaq-enerji mənbəyi və emal sənayesinin xammalı kimi;
8. Neft daha çox qeyri OECD və qeyri OPEC ölkələrində hasil edilir;
9. Neft yataqlarında neftlə bərabər qaz kondensatları da vardır və neftlə bərabər hasil edilir;
10. Ölkələr neft hasilatından və qiymətlərindən bəzən siyasi təsir vasitəsi kimi istifadə edirlər.

Dünya ölkələri üzrə təbii qaz hasilatı 8.7-ci cədvəldə verilmişdir.

Cədvəl 8.7-dən göründüyü kimi, 2019-cu ildə dünyada 4,0 trilyon $m^3$ -ə qədər qaz hasil edilmişdir. Qaz hasilatı üzrə birinci beşliyə ABŞ (23,1 faiz), Rusiya (17,0 faiz), İran (6,1 faiz), Qətər (4,5 faiz) və Çin (4,5 faiz) daxil olmuşdur. BP-nin verdiyi Dünya Enerji İcmalında dünyanın 103 ölkəsində təbii qaz vardır, yarıdan çoxunda sənaye əhəmiyyəti kəsb etmir. Qaz hasilatı haqqında 49 ölkənin məlumatları verilir.

Dünyada hasil edilən təbii qazın 62,2 faizi qeyri OECD, 37,8 faizi isə OECD ölkələrində, 2,5 faizi Avropa ittifaqı ölkələrində hasil edilmişdir.

Təbii qazın digər yanacaq-enerji növlərindən fərqli xüsusiyyətləri vardır:

1. Təbii qaz ehtiyatlarında olduğu kimi təbii qaz hasilatı da dünyanın bütün ölkələrində yoxdur;
2. Təbii qazın daşınma arealı kiçikdir, əsasən, qaz kəmərləri ilə daşınır;
3. Qaz qiymətləri, əsasən, sabitdir, tərəflərarası razılıqla müəyyən olunur;
4. Təbii qaz yanacaqla bərabər kimya sənayesi və elektrik enerjisi xammalı kimi də istifadə edilir;
5. Qazın saxlanılması üçün böyük vəsait rələb olunur, böyük həcmli qaz anbarları lazım gəlir;
6. Təbii qaz ən çox qeyri OECD ölkələrində hasil edilir, OECD ölkələrində ən çox istehlak edilir;
7. Təbii qaz sıxılmış formada da saxlanılır və ixrac edilir.
8. Təbii qaz kəmərlərindən bəzi hallarda siyasi təzyiq vasitəsi kimi də istifadə edilir və s.

**Cədvəl 8.7**

**Dünya ölkələrində təbii qaz hasilatı[1], mlrd $m^3$**

| № | Ölkələr | 2019 | Dünyada payı, % | № | Ölkələr | 2019 | Dünyada payı, % |
|---|---|---|---|---|---|---|---|
| **1.** | ABŞ | 920,9 | 23,1 | **14.** | Türkmənistan | 63,2 | 1,6 |
| **2.** | Rusiya | 679,0 | 17,0 | **24.** | Pakistan | 33,9 | 0,8 |
| **3.** | İran | 244,2 | 6,1 | **27.** | Hindistan | 26,9 | 0,7 |
| **4.** | Qətər | 178,1 | 4,5 | **30.** | Azərbaycan | 24,3 | 0,6 |
| **5.** | Çin | 177,6 | 4,5 | **31.** | Qazaxıstan | 23,4 | 0,6 |
| **6.** | Kanada | 173,1 | 4,3 | **49.** | Yəmən | 0,6 | ... |
| **7.** | Avstraliya | 153,5 | 3,8 | | Dünya üzrə cəmi: | 3989,3 | 100 |
| **8.** | Norveç | 114,4 | 2,9 | | OECD ölkələri | 1506,2 | 37,8 |
| **9.** | Səudiyyə Ərəbistanı | 113,6 | 2,8 | | Qeyri OECD | 2483,2 | 62,2 |
| **10.** | Əlcəzair | 86,2 | 2,2 | | Aİ ölkələri | 101,0 | 2,5 |

[1] BP Statistical Review of World Energy, 2020.

Təbii qaz haqqında BP ilə yanaşı OPEC və digər təşkilatlar ətraflı hesabatlar verirlər.

Təbii qazın ehtiyatları və xüsusilə hasilatı dünya ölkələrinin əhali sayı ilə sanki tərs mütənasibdir. Dünya əhalisinin 35 faizini təşkil edən Çin və Hindistanda dünya üzrə hasil edilən qazın 5,2 faizi hasil edilir. Dünya əhalisinin cüzi bir hissəsinin olduğu Qətərin dünya qaz hasilatında payı 4,5 faiz olmuşdur (dərslərdə ölkələr üzrə geniş təhlil edilməlidir).

Dünya ölkələrində kömür, digər mineral resurslar və elektrik enerjisinin hasilatı beynəlxalq təşkilatların hesabatları üzrə verilməli və təhlil edilməlidir (əsas ədəbiyyatlara bax).

Dünya hasilat sənayesinin vəziyyətini və perspektivlərini aşağdakı kimi qiymətləndirmək olar:

1) Daim yeni yataqlar kəşf edilir və mənimsənilir;
2) Xammala olan tələbat daim artır;
3) Elmi-Texniki Tərəqqi hasilata sürətlə təsir edir;
4) Yeni xammal əvəzediciləri yaradılır;
5) Ölkələr üzrə mineral xammala tələbat artır;
6) Hasilatçılar İnkişaf Etməkdə Olan, emaledicilər İnkişaf Etmiş Ölkələrdir;
7) Qarşıdakı 100 ildə dünyada istehlak edilən enerjidaşıyıcıları içərisində neftin xüsusi çəkisi azalacaqdır;
8) Həmin dövrdə təbii qazın, atom enerjisinin, xüsusilə günəş və külək enerjisinin xüsusi çəkisi artacaqdır;
9) Metala olan tələbat azalacaq, kimya mənşəli süni və sintetik xammala olan tələbat artacaqdır;
10) Xammaldan təkrar istifadə genişlənəcək və sürətlə artacaqdır və s.

## 5. DÜNYANIN EMAL SƏNAYESİ VƏ ONUN XÜSUSİYYƏTLƏRİ

Dünyada maddi istehsalın başlıca sferalarından biri emal sənayesidir. Aşağdakı sahələri əhatə edir:

1) Kimya sənayesi;
2) Telekommunikasiya sənayesi;
3) Metallurgiya sənayesi;
4) Maşınqayırma sənayesi;
5) Yeyinti sənayesi;
6) Yüngül sənaye;
7) Meşə və ağac emalı sənayesi və s.

Emal sənaye sahələri özlüyündə çoxsaylı yarım sahələrə (bölmələrə) ayrılır. Məsələn, beynəxalq statistikada maşınqayırma 5 bölməyə ayrılır:

- Metal məhsulları;
- Qeyri-elektrik maşınqayırma;
- Elektrik maşınqayırma;
- Nəqliyyat avadanlıqları;
- Dəqiq alətlər və s.

Müasir dövrdə dünya ÜDM-ində emal sənayesinin payı 16 faiz olsa da, bu sahənin şərti – xalis məhsulu sürətlə artır. Belə ki, əgər 2010-cu ildə dünyada emal sənayesinin şərti – xalis məhsulu 7 trilyon ABŞ dolları olmuşdursa, 2018-ci ildə 9 trilyon dollara (2015-ci ilin qiymətləri ilə) çatmışdır. Bu artım həm İnkişaf Etmiş, həm də İEOÖ-lərdə olmuşdur. 2007-ci ildə (dünya maliyyə-iqtisadi böhranı başlanana qədər) emal sənayesinin istehsal etdiyi şərti – xalis məhsulun həm dünyada, həm də ABŞ və Böyük Britaniya kimi postsənaye ölkələrində özünün tarixi maksimum səviyyəsinə çatmışdır. Böhran illərində bu artım bir qədər zəifləmiş və 2011-ci ildən sonra bu artım davam etmişdir. Emal sənayesinin şərti – xalis məhsulunun

həcmi nəhəng İEOÖ-lərdə, xüsusilə Çin, Hindistan, Braziliya və Rusiyada daha sürətlə artmışdır. Qlobal emal sənayesində onların payı on il ərzində 21 faizdən 39 faizdə çatmışdır. 2000-2010-cu illərdə Çin dünyada bu göstəriciyə görə 4-cü yerdən 2-ci yerə, Braziliya 12-ci yerdən 6-cı yerə, Hindistan 14-cü yerdən 10-cu yerə, Rusiya 21-ci yerdən 11-ci yerə və İndoneziya 20-ci yerdən 13-cü yerə qaxlmışdır. 2011-ci ildən sonra Çin daha da sürətlə inkişaf edərək "Dünya fabriki"nə çevrilmiş və dünya tarixində ilk dəfə ABŞ-ı üstələyərək dünyada 1-ci yerə çıxmışdır. Bu deyilənləri 8.7-ci cədvəldən aydın görmək olar.

**Cədvəl 8.7**

**Qlobal emal sənayesində şərti – xalis məhsulun xüsusi çəkisinə görə əsas dünya ölkələri**[1]

| Yeri | 2000-ci il | 2010-cu il | 2018-ci il |
|---|---|---|---|
| **1.** | ABŞ | ABŞ | Çin |
| **2.** | Yaponiya | Çin | ABŞ |
| **3.** | Almaniya | Yaponiya | Almaniya |
| **4.** | Çin | Almaniya | Yaponiya |
| **5.** | Böyük Britaniya | İtaliya | Braziliya |
| **6.** | İtaliya | Braziliya | Cənubi Koreya |
| **7.** | Fransa | Cənubi Koreya | Fransa |
| **8.** | Cənubi Koreya | Fransa | Hindistan |
| **9.** | Kanada | Böyük Britaniya | İtaliya |
| **10.** | Meksika | Hindistan | Böyük Britaniya |
| **11.** | İspaniya | Rusiya | İndoneziya |
| **12.** | Braziliya | Meksika | Rusiya |
| **13.** | Tayvan | İndoneziya | Meksika |
| **14.** | Hindistan | İspaniya | Türkiyə |
| **15.** | Türkiyə | Kanada | Kanada |

8.7-ci cədvəl dünyanın qlobal emal sənayesinin mövcud vəziyyətini ölkələr üzrə əyani əks etdirir. Diqqəti daha çox cəlb edən dünyanın emal sənayesində Çinin, Braziliyanın, İndoneziyanın və Türkiyənin sürətlə inkişaf etməsidir.

Dünyanın nəhəng ölkələrinin ÜDM-ində emal sənayesinin payı həmin ölkələrdə dünya bazarının tələbinə daha çevik cavab verən daha yeni, müasir, innovativ və rəqəmsal texnologiyalara əsaslanan məhsul istehsalının artması ilə izah edilir.

Dünya ticarətində – dünya ixracatında həm İEÖ, həm də İEOÖ-lərdə dünya iqtisadiyyatının ikinci sektoru olan emal sənayesi daha böyük, daha əhəmiyyətli və aparıcı rol oynayır. Emal sənayesi ölkəyə daha böyük, xammal ixracatından 10 dəfədən çox gəlir gətirir, istehsal zəncirinin təkrar mərhələləri yaranır, işləyir və daha çox iş yerləri yaradır.

Dünya ölkələrinin milli iqtisadiyyatlarında emal sənayesinin rolu və əhəmiyyəti bir çox amillərdən asılıdır. Bunlara ölkənin iqtisadi inkişaf səviyyəsi, bu sektorun məhsullarına tələbatın səviyyəsi, Elmi-Tədqiqat və Təcrübə Konstruktor İşlərinin (araşdırmalarının) vəziyyəti, çevik texnoloji innovasiyalar, xüsusilə rəqəmsal texnologiyaların daha sürətlə tətbiqi daxil edilir.Dünya ölkələrinin iqtisadi inkişaf səviyyəsini əks etdirən əsas göstərici sənaye istehsalının həcmidir. Böyük "G-20" qrupu da əsasən bu göstərici əsasında formalaşmışdır. Çünki sənaye istehsalı dünya ölkələrini və xalqlarını mal, məhsul və əmtəələrlə təmin etməklə bərabər 3-cü sektora – xidmət (servis) sektoruna da meydan yaradır.

Dünya ölkələrinin sənaye istehsalının vəziyyəti təhlil edilərkən görünür ki, sənaye istehsalında hasilat sənayesindən çox emal sənayesinin vəziyyəti ölkənin əsas inkişaf göstəricisidir. Belə ki, dünyanın 37 İnkişaf Etmiş Ölkələrindən birinci beşliyə daxil olanlar məhz emal sənayesinin lider ölkələridir ki, bunun 8.8-ci cədvəl sübut edir.

---

[1] H/S Global Insight, M. Kinsey Global Institute

**Cədvəl 8.8**

**Dünya emal sənayesinin lider ölkələri[1] (2010-cu ilin qiymətləri ilə)**

| Ölkələr | Dünya emal sənayesində payı, faizlə | | Bir nəfərə düşən emal sənaye məhsulu | |
|---|---|---|---|---|
| | 2005 | 2015 | 2005 | 2015 |
| ABŞ | 22,3 | 19,1 | 5195 | 5397 |
| Çin | 9,8 | 17,6 | 927 | 1163 |
| Yaponiya | 12,1 | 11,6 | 7872 | 8263 |
| Almaniya | 7,6 | 6,5 | 6760 | 7195 |
| Koreya Respublikası | 2,8 | 3,5 | 5823 | 6602 |
| Rusiya | 1,6 | 1,5 | 868 | 978 |

8.9-cu cədvəldən göründüyü kimi, dünyanın emal sənayesinin lider ölkələri ABŞ, Çin, Yaponiya, Almaniya və Cənubi Koreyadır. Bir nəfərə düşən emal sənayesi məhsuluna görə 1-ci yerdə Yaponiya, sonrakı yerlərdə Almaniya, Koreya Respublikası, ABŞ və 5-ci yerdə Çindir ki, bu da əhalinin sayına görədir. Çox böyük təbii sərvətləri və hasilat sənayesi olan Rusiya emal sənayesində payına görə heç 20-liyə düşə bilmir.

Dünya emal sənayesinin sahə strukturu dinamikdir və daim dəyişir. Bunu 8.9-cu cədvəldən görmək olar.

**Cədvəl 8.9**

**Dünya emal sənayesinin strukturu[2], faizlə**

| № | Emal sənayesi sahələri | 2000 | 2010 | 2015 |
|---|---|---|---|---|
| **1.** | EHM, ofis avadanlığı və telekommunikasiya vasitələri | 15 | 24 | 29 |
| **2.** | Kimya və neft emalı | 16 | 17 | 16 |
| **3.** | Metal məmulatları və maşınlar | 15 | 13 | 12 |
| **4.** | Yeyinti sənayesi | 12 | 10 | 9 |
| **5.** | Nəqliyyat vasitələri | 10 | 10 | 9 |
| **6.** | Kağız və poliqrafiya | 8 | 7 | 6 |
| **7.** | Əsas metallar | 6 | 5 | 4 |
| **8.** | Ağac emalı | 2 | 2 | 2 |
| **9.** | Toxuculuq sənayesi | 5 | 2 | 2 |
| **10.** | Geyim, ayaqqabı və dəri məmulatı | 4 | 2 | 1 |
| **11.** | Digər emal sənayesi sahələri | 7 | 8 | 10 |

8.10-cu cədvəldən göründüyü kimi, 2015-ci ildə dünya emal sənayesində 1-ci yeri 29 faizlə EHM, ofis avadanlığı və telekommunikasiya vasitələri, 2-ci yeri 16 faizlə kimya və neft emalı, 3-cü yeri 12 faizlə metal məmulatları və maşınlar tutur. Qalan sahələr 1-9 faiz arasında paya malikdir.

Dünya ölkələri üzrə emal sənayesinin vəziyyəti çox fərqlidir və aparıcı ölkələr İnkişaf Etmiş Ölkələrdir. Emal sənayesi məhsullarının 73 faizi 10 ölkənin və 60 faizə qədəri 6 ölkənin payına düşür. Radio-televiziya istehsalının 86 faizi 3 ölkənin (ABŞ, Yaponiya və Çin XR) payına düşür.

Emal sənayesinin əmtəə, sahə və ərazi strukturunun inkişafı ümumdünya əmək bölgüsünün fasiləsiz dərinləşməsi prosesini əks etdirir, yeni istehsal sahələri və yeni məhsulların yaranmasına səbəb olur ki, bunun da kökündə sənayenin beynəlxalq kooperasiyası dayanır.

---

[1] INDSTAT – 2016 edition. Industrial Statistics Database

[2] Monthly Bulletin of Statistics, 2016

Dünya emal sənayesinin coğrafi ərazi strukturu kimi sahə və əmtəə strukturu da çox genişdir. Bunlardan nümunə üçün bəzi məhsulların hasilat vəziyyəti verilir. Lakin əsas ədəbiyyat siyahısındakı mənbələrdən digər emal sənaye məhsullarının hasilatı, istehlakı, ixracı və s. məlumatların götürülüb dərslərdə təthlil olunması tövsiyyə edilir. Yaxşı olar ki, hər bir məhsul üzrə təqdimatlar verilsin və debatlar keçirilsin.

Qızıl dünyada özünün pul və metal valyuta funkisyasını itirmiş və əmtəə funkisyasını yerinə yetirməyə başlamışdır. Uzun illər qızıl valyuta məzənnələri müəyyən edilməsində əsas meyar olmuşdur. Onun hasilatı və emalının xüsusi rejimləri mövcuddur.

Dünya ölkələri üzrə qızıl istehsalı 8.10-cu cədvəldə verilmişdir. 8.10-cu cədvəldən göründüyü kimi dünyada qızıl istehsalı artmaqda davam etmişdir. 2011-ci ildə dünyada ən çox qızıl hasil edən ölkələr Çin (369 t), Avstraliya (259 t), ABŞ (233 t) və Rusiya (214 t) olmuşdur.

Dünya üzrə istehsal edilmiş 2812 t qızılın 70,69 faizini 12 ölkə istehsal etmişdir. İstehsal edilmiş qızılın zərgərlik məlumatlarına çevrilməsi və istehlakı ölkələr üzrə çox fərqlənir.

**Cədvəl 8.11**

**2005-2011-ci illərdə dünya ölkələri üzrə qızıl istehsalı[1], t-la**

| № | Ölkələr | 2000 | 2010 | 2011 | Faizlə |
|---|---|---|---|---|---|
| **1.** | Çin | 172 | 351 | 369 | 13,1 |
| **2.** | Avstraliya | 296 | 261 | 259 | 9,2 |
| **3.** | ABŞ | 355 | 229 | 233 | 8,2 |
| **4.** | Rusiya | 143 | 203 | 214 | 7,6 |
| **5.** | CAR | 428 | 203 | 198 | 7,1 |
| **6.** | Peru | 133 | 185 | 178 | 5,9 |
| **7.** | İndoneziya | 140 | 140 | 115 | 4,0 |
| **8.** | Kanada | 155 | 91 | 108 | 3,9 |
| **9.** | Qana | 74 | 81 | 91 | 3,5 |
| **10.** | Meksika | 25 | 79 | 85 | 3,1 |
| **11.** | Özbəkistan | 88 | 71 | 71 | 2,5 |
| **12.** | Papua Yeni Qvineya | 76 | 70 | 67 | 1,7 |
| | **12 ölkənin yekunu:** | 2060 | 1964 | 1988 | 70,69 |
| | **Digər ölkələr:** | 506 | 745 | 824 | 29,30 |
| | **Bütün dünyada:** | 2591 | 2709 | 2812 | 100 |

2011-ci ildə dünya üzrə qızıl istehlakının 52 faizi zərgərlik məmulatlarına, 18 faizi yığıma (ehtiyat), 16 faizi investisiyalara, 12 faizi sənaye istehalakına və 2 faizi digər yerlərə yönəldilmişdir.

Qiymətli metallardan olan gümüşün və alüminiumun hasilatı 8.11 və 8.12-cü cədvəllərdə verilmişdir.

Cədvəllərdən görünür ki, dünya üzrə gümüş hasilatında 10 aparıcı ölkədən beşi Amerika qitəsi ölkələri, alüminium istehsalında isə əsas istehsalçılar Çin və digər Asiya ölkələridir.

[1] www.dollar Daze.org

**Cədvəl 8.11**

**Dünya ölkələrində gümüş hasilatı[1], t-la**

| № | Ölkələr | 2011 | 2015 | № | Ölkələr | 2011 | 2015 |
|---|---|---|---|---|---|---|---|
| **1.** | Avstraliya | 1725 | 1700 | **7.** | Polşa | 1167 | 1300 |
| **2.** | Boliviya | 1214 | 1300 | **8.** | Rusiya | 1200 | 1500 |
| **3.** | Kanada | 661 | 500 | **9.** | ABŞ | 1120 | 1100 |
| **4.** | Çin | 3700 | 4100 | **10.** | Çili | 1291 | 1600 |
| **5.** | Meksika | 4150 | 5400 | | **Digər ölkələr:** | 3553 | 5000 |
| **6.** | Peru | 3419 | 3800 | | **Bütün dünya:** | 23200 | 27300 |

**Cədvəl 8.12**

**Dünyada alüminium istehsalı[2], min t**

| № | Ölkə və qitələr | 2010 | 2015 |
|---|---|---|---|
| **1.** | Çin | 16131 | 31672 |
| **2.** | Asiya | 5224 | 8105 |
| **3.** | Avropa | 8053 | 7574 |
| **4.** | Şimali Amerika | 4689 | 4469 |
| **5.** | Okeaniya | 2277 | 1978 |
| **6.** | Afrika | 1742 | 1687 |
| **7.** | Cənubi Amerika | 2508 | 1325 |
| | **Bütün dünya:** | 41153 | 57890 |

Dünya emal sənayesinin səciyyəvi xüsusiyyətləri aşağdakılardır:

1) Yeni texnika və texnologiyanın daha sürətlə tətbiqi;
2) Elektronika, telekommunikasiya və informasiya texnologiyaları daha yüksək templə artır;
3) Dünya ölkələrində kimya məhsulları istehsalının artması digər sahə məhsullarının nisbətən azalmasına təsir edir;
4) Əlvan metallara nisbətən qara metalların istehsalı azalır;
5) Elmtutumlu sənaye sahələrinin xüsusi çəkisi artır;
6) İEOÖ-lərdə emaledici sənaye ildən-ilə genişlənir və bu sahədə sənaye müəssisələri daha sürətlə artır;
7) Emal sənaye sahələrinin 60-70 faizi İnkişaf Etmiş Sənaye Ölkələrində yerləşir;
8) İnkişaf Etməkdə Olan Ölkələrdə emaledici sənayenin artım sürəti yüksəlir;
9) Dünya dəzgah buraxılışının 87 faizi 10 ölkədədir;
10) Dünyada yarımkeçiricilərin 83 faizini ABŞ və Yaponiya firmaları istehsal edir;
11) Yeyinti və yüngül sənaye İnkişaf Etməkdə Olan Ölkələrdə daha da genişlənir və s.

Qədim zamanlarda insanlara ancaq 18 kimyəvi element məlum idisə, XVIII əsrdə onlara 29, XX əsrin ortalarında isə 80 element məlum idi. Müasir sənaye istehsalının inkişafı Mendeleyev cədvəlindəki, demək olar ki, bütün elementlərin texnikada tətbiq edilməsini zəruri etmişdir. Nəticədə son 70 ildə dünyada çoxsaylı və çoxtəyinatlı xammal növləri kəşf edilmiş və onların mənimsənilməsinə başlanılmışdır.

---

[1] www.ereport.ru/articles/commod/silver.htm
[2] www.ereport.ru/articles/commod/aluminum.htm

## 6. DÜNYA ÖLKƏLƏRİNİN SƏNAYE SİYASƏTİNİN ƏSAS İSTİQAMƏTLƏRİ

Ölkənin sənaye siyasəti onun təbii resursları üzərində qururlur və onun şaxələndiriməsi daha böyük səmərə verir.

Ölkələrin sayı qədər sənaye siyasəti tətbiq edilir. Sənaye siyasəti onun elmi-texniki səviyyəsindən yaranır. Dünya ölkələrinin sənaye siyasətlərinin əsas istiqamətləri aşağdakılardır:

1. Birməhsullu sənayedən asıllığın azaldılması və ləğv edilməsi;
2. Ölkənin sənaye istehsalının ixtisaslaşması;
3. Ölkənin sənaye istehsalının kooperasiyası;
4. Dünya bazarına daha çevik daxil olması;
5. Yanacaq mühərrikli avtomobillərdən elektrik mühərrikli avtomobillərə keçilməsi;
6. Dronlarla daşımalara keçilməsi;
7. Sürücüsüz nəqliyyat vasitələrinə keçilməsi;
8. Sənaye məhəllələri və sənaye parklarının yaradılması;
9. Sənaye klasterlərinin yaradılması;
10. Sənaye müəssisələrinin şəhər daxilindən çıxarılması;
11. Tüstüsüz sənaye müəssisələrinin yaradılması;
12. Alman maşını təcrübəsindən istifadə edilməsi;
13. Tullantısız sənaye müəssisələrinin yaradılması;
14. Alternativ enerji növlərinin artırılması yolu ilə digər enerji növlərindən istifadənin azaldılması;
15. "Ağıllı şəhər" və "ağıllı kənd"lərin yaradılması;
16. Ölkə sənayesinin şaxələndirilməsi;
17. Startapların artırılması və genişləndirilməsi;
18. Autsorsinq – xarici resurslardan istifadə edilməsi və s.

Dünyada sənaye istehsalı özünün yüksək nöqtəsinə çatmaqdadır. Artıq Tesla kompaniyasının sahibi İlon Mask qarşıdakı 6 ildə - 2026-cı ildə Mars planetində koloniya salmağa hazırlaşır.

Dünya ölkələrində sənayenin inkişafı həmin ölkələrin sənaye siyasəti üzərində qurulur. Sənaye siyasəti ölkənin resursları, elmi-texniki tərəqqisi, intellektual mühəndisliyi və uzunmüddətli proqnozları ilə müəyyən edilir. Sənaye siyasətində əsas hədəf kimi sənayedə klasterləşmə, texnoparkların, sənaye məhəllələrinin, Azad İqtisadi Zonaların, ASK-ların və s. yaradılması, inkişafı və modernləşdirilməsi durur.

"Klaster" (ingiliscə cluster) termini bir çox mənalarda işlədilir: 1) kist, salxım, 2) yığışma, toplaşma, təmərküzləşmə, 3) qruplaşma. İqtisadiyyata qədər bu termin bir çox təbiət elmlərində müfəvvəqiyyətlə tətbiq edilirdi. İlk dəfə 1930-cu illərin axırlarında riyaziyyat sahəsində çoxölçülü məlumatların klaster təhlili aparatı kimi formalaşmışdır. Digər sahələrdə - qeyri-üzvi kimya, fizika və s. elmlər sahəsində də klasterləşmə tətbiq edilmişdir.

Sonrakı dövrlərdə zavodların, fabriklərin, firmaların, müəssisələrin, təsərrüfat sahələrinin, coğrafi cəhətdən bir yerdə toplanması, yığılması kimi "ərazi-istehsal kompleksi", "sənaye rayonu", "texnopolis", "biznes-inkubator", "regional klaster", "texnopark" və s. kimi terminlər işlədilir. Son illər "sənaye – innovasiya klasteri" və "innovasiya klasteri" daha çox yaradılmaqdadır.

Sənaye siyasəti nəticəsində dünyada sənaye ölkələri qrupu yaranır:

1. Sənaye istehsalının artım tempi yüksək olan ölkələr (Çin, Azərbaycan, Türkiyə, Hindistan, Tayvan və s.);
2. Sənaye istehsalının artım tempi orta olan ölkələr (İspaniya, İsveç və s.);
3. Sənaye istehsalının artım tempi olmayan ölkələr (Ukrayna, Ermənistan və s.).

Dünya üzrə sənaye istehsalının ümumi meyilləri ölkələrin sənaye siyasətindən yaranır. Dünyada sənaye istehsalının kənd təsərrüfatı istehsalına birbaşa təsiri baş verir. Kənd təsərrüfatında sənayeləşmə sürətlənir. Ekoloji problemlər yaranır. Sənaye və ətraf mühitin mühafizəsi proqramlarının işlənib hazırlanması, ekoloji iqtisadiyyatın yaradılması zərurəti ortaya çıxır.

Ekoloji iqtisadiyyat iqtisadiyyatın ekoloji məhdudlaşdırmalarla inkişafına əsaslanır.

Qlobal ekoloji problemlərə təbii mühitin pozulması, ətraf mühitin çirklənməsi, təbii ehtiyatların tükənməsi, əhalinin zəruri təminatının (qida, qaz, su və s.) pisləşməsi və s. daxildir. Qlobal ekoloji problemləri kəskinləşdirən okean və dənizlərdə gəmilərin qəzaya uğraması, silahlardan və partlayıcı vasitələrdən istifadə, sənaye müəssisələri və radioloji stansiyalara qoyulan tələblərə əməl edilməməsi, çirkab sular, tufan, daşqın və s. kimi səbəblərdir.

## 7. KOSMİK MƏKANIN MƏNİMSƏNİLMƏSİ PROBLEMİ

Kosmik məkanın mənimsənilməsi hazırda sənaye cəhətdən inkişaf etmiş bütün ölkələrin əsas məqsədidir.

Məkan və zamanca sonsuz olan bütün aləm və ya dünya kainat adlanır. Kainat insan şüurundan asılı olmayan obyektiv varlıqdır. O, külli miqdarda göy cisimlərindən, onların sistemlərindən və göy cisimləri arasındaki seyrək maddələrdən ibarətdir. Kainatda kütləsi ulduzlardan milyonlarla dəfə çox olan cisimlər vardır.

Ulduzların təkamül xüsusiyyətləri və yaşı onların enerji balansı vasitəsilə təyin edilir. Enerji mənbəyi ulduzların mərkəz hissəsində gedən istilik nüvə reaksiyalarıdır. Bu zaman hidrogen heliuma, böyük temperaturlarda isə helium karbona və s. elementlərə çevrilir.

Günəşin yaşı 5 mlrd il qəbul edilir. Nüvə enerjisi ona hələ bir neçə mlrd il kifayət edər. Qalaktikalar öz oxu ətrafında təqribən 200 mln ilə fırlanır. Hesab edilir ki, qalaktikaların orta yaşı təqribən 10 mlrd ildir və yaşı 20 mlrd ildən çox olan qalaktika yoxdur. Hər böyük qalaktikada təqribən bir neçə yüz mlrd ulduz, metaqalaktikada isə təqribən 100 mln qalaktika olduğundan kainatdakı ulduzların sayı $10^{19}$-dan çoxdur. Ona görə bu ulduzlar ətrafında olan planetlərdə həyatın mümkünlüyü haqda fikir yürüdülür. Yerdəki həyata uyğun şərait Günəş sistemində yoxdur. Yerdəki həyat şəraitinin fiziki parametrlərinin sərhədləri (temperaturun, atmosferin sıxlığı və tərkibi, gündüzün uzunluğu və s.) hələ dəqiq aydınlaşdırılmamışdır. Kainatda həyat üçün yararlı şəraitə malik xeyli planet ola bilər.

Yer - Günəş sisteminin Günəşdən məsafəsinə görə üçüncü, ölçüsü və kütləsinə görə beşinci planetidir. Yer qrupu planetləri - Merkuri, Venera, Yer və Mars arasında ən böyüyüdür. Yerin Günəş sistemindəki başqa planetlərdən fərqi onda həyatın mövcudluğu və insanın meydana gəlməsidir.

Əmək alətlərindən istifadə insana Yerə sahib olmaq imkanı verdi. Zehni əmək alətlərinin yaranması və texnikanın inkişafı ona Yer kürəsindən kənara, yəni kosmik fəzaya çıxmağa şərait yaratdı. Texnika insana Yerin təbiətini dəyişmək imkanı verdi. Elm və texnikanın inkişafı insana Günəş sistemindən kənara çıxmaq imkanı verəcəkdir. Aya uçuş, Günəş sistemi planetlərinə avtomat stansiyaların ("Venera", "Mars», "Pioner", "Mariner", "Vayocer" və s.) göndərilməsi bu sahədə ilk addımlar hesab edilir.

"Kosmos" – yunan sözü olub, aləm və kainat mənasını verir. Kainatin sinonimi kimi işlədilir. Bəzən Yer (atmosfer ilə birlikdə) Kainata aid edilmir.

Dünyada kosmosun mənimsənilməsinə kosmik uçuşlardan başlanılmışdır. Müxtəlif tipli kosmik uçuş aparatlarının fəzada hərəkəti - şərti olaraq Yer səthindən 100 km hündürlükdə aparılan uçuşlara kosmik uçuşlar deyilir.

Kosmik aparatin uçuş trayektoriyası üç xarakterik sahəyə bölünür: qalxma, orbital uçuş və enmə.

Kosmik fəzanın verilmiş nöqtəsinə qalxma aktiv sahədir. Bundan ötrü qaldırıcı raket Kosmik Aparata başlanğıc sürət verir, onu müəyyən bucaq altında fəzaya qaldırıb əvvəlcədən müəyyən olunmuş nöqtəyə çıxarır. Orbital uçuş sahəsi passiv sahə adlanır, çünki burada Kosmik Aparatın uçuşu göy mexanikası qanunlarına tabedir. Enmə zamanı Kosmik Aparatın uçuş sürəti getdikcə azaldılır. Yerə və yaxud digər fəza cisimləri üzərinə oturarkən sıfra bərabər olur. 1957-ci il oktyabrın 4-də SSRİ-də və dünyada Yerin ilk süni peykinin kosmik fəzaya buraxılması ilə kosmik uçuşlar – kosmosun mənimsənilməsi erası başlanmışdır. 1961-ci il aprel ayının 12-də insanın kosmik fəzaya uçuşu isə dünyada ilk dəfə kosmik uçuşda olmuş SSRİ vətəndaşı Y. A. Qaqarinin adı ilə bağlıdır. İlk ABŞ astronavtı A. Şepard 1961-ci il mayın 5-də kosmosa uçmuşdur.

Kosmonavt (hərfi mənası dəniz səyyahı), bəzi ölkələrdə istifadə olunan – pilotla idarə olunan Kosmik Aparat heyətinin üzvüdür. Kosmonavt hazırlanmasına 1959-cu ildə ABŞ-da, 1960-cı ildə SSRİ-də başlanmışdır. İlk qadın kosmonavt V.V.Tereşkova 1963-cü il iyunun 16-da kosmosa uçmuşdur. "İnterkosmos" proqramına uyğun olaraq bir sıra ölkələrin kosmonavtları da kosmik uçuşlarda olmuşlar.

Kosmonavtika (gəmiçilik sənəti) – astronavtika – pilotla idarə olunan və avtomatik kosmik aparatlar vasitəstilə kosmik fəzanın və yerdənkənar obyektlərin mənimsənilməsini təmin edən elm və texnika sahələri kompleksidir.

Kosmosun mənimsənilməsinin əsas mərhələləri aşağıdakılardır:

1) 1883-cü ildə K.E.Siolkovski kosmik uçuş nəzəriyyəsinin əsasını qoymuşdur;
2) 1928-ci ildə N.İ. Tixomirovun rəhbərliyi altında ilk barıtlı raketlərin uçusu təşkil edilmişdir (sonra maye yanacaqlı və elektrik mühərrikli);
3) 1933-cü ildə S.P.Korolyovun ilk raket uçuşu təşkil edilmişdir;
4) 1957-ci ildə dünyada Yerin ilk süni peyki buraxılmışdır;
5) 1961-ci ildə insanın kosmosa ilk uçusu olmuşdur;
6) 1969-cu ildə Amerika astronavtları ayın səthinə enmişlər;
7) Kosmik aparatların daim təkmilləşdirilməsi mərhələləri (açıq kosmosa çıxış, uzunmüddətli yasayış və s.).

Kosmik Aparatların kütləsi bir neçə kq-dan 10 t-a qədər (bəzən çox), orbitinin hündürlüyü 150 km-dən 400 000 km-ə qədər olur. Bunlara – «Kosmos», «Elektron», «Proton» seriyalı Sovet Yerin Süni Peykləri, «Eksrloyer»), «OGO», «OSO», «OAO» və s. amerikan peyk - rəsədxanaları, həmçinin, planetlərarası avtomatik stansiyalar, o cümlədən «Luna», «Venera», «Mars», «Zond» (SSRİ), «Mariner», «Reyncer», «Pioner, «Serveyer», «Vikinq» (ABŞ) və s. avtomatik elmi-tədqiqat kosmik aparatları aiddir.

İxtisaslaşdırılmış kosmik aparatlar, əsasən, meteroloji müşahidələr, rabitə və yerin təbii sərvətlərinin tədqiqi üçündür. Naviqasiya, rabitə və idarəedici, çoxməqsədli kəşfiyyatçı (o cümlədən fotoşəkilçəkən, radiotexniki, metereoloji, ballistik, raketlərin start meydanlarını aşkar edən nüvə partlayışlarına nəzarət edən və s.) növləri vardır.

Aya və planetlərə buraxılan uçuş aparatlarına Kosmik Zondlar aid edilir. Dünyada ilk Kosmik Zond «Luna - 1» 1959-cu il yanvarın 2-də SSRİ-də buraxılmışdır. Həmin Zond Ayın yaxınlığından keçərək Günəş sisteminin ilk süni planeti olmuşdur. Ay, Mars və Veneranı tədqiq etmək üçün buraxılan Kosmik Zondlar çox vaxt planetlərarası avtomatik stansiyalar, Ay stansiyaları və yaxud Ay Zondları adlandırılır.

Dünyada Kosmik Aparatların daha təkmil və yeni növləri yaranır və ildən-ilə təkmilləşir.

Beynəlxalq kosmos hüququ – kosmik fəaliyyəti həyata keçirməklə əlaqədar dövlətlərin və digər subyektlərin hüquq və vəzifələrini, həmçinin, kosmik fəza, Ay və digər Göy cisimlərinin beynəlxalq hüquqi rejimini müəyyən edən hüquq normalarının məcmusudur. Bu hüquq sahəsi XX əsrin 60-cı illərindən formalaşmışdır. Bəzi İnkişaf Etmiş Ölkələrdə «Planetlərarası hüquq», «Astronavtika Hüququ» və s. adlanır. Kosmik hüququn mənbəyi

beynəlxalq müqavilə və beynəlxalq adətdir. BMT kosmik hüquq normalarının işlənib hazırlanmasında mühüm rol oynayır. 1959-cu ildən BMT-nin kosmik fəzadan dinc məqsədlərlə istifadə üzrə xüsusi Komitəsi fəaliyyət göstərir. Kosmik hüquq normalarına dair aşağıdakı beynəlxalq sənədlər və təşkilatlar mövcuddur:

1) Kosmos haqqında müqavilə (1967);
2) Atmosferdə, kosmik fəzada və su altında nüvə silahlarının sınağının qadağan edilməsi haqqında müqavilə (1963-cü il Moskva müqaviləsi);
3) Kosmonavtları xilas etmək, kosmonavtları qaytarmaq və kosmik fəzaya buraxılan obyektləri qaytarmaq haqqında saziş (1968);
4) Avropa Kosmos Agentliyi və s.

Kosmosun tədqiqi və ondan istifadə sahəsində elmi-texniki əməkdaşlıq üzrə bir sıra çoxtərəfli və ikitərəfli beynəlxalq sazişlər bağlanmışdır.

Kosmos hüququnun aşağıdakı əsas prinsipləri kosmos haqqında müqavilədə verilmişdir:

1) Kosmik fəzanın və Göy cisimlərinin tədqiqi və onlardan istifadənin azadlığı;
2) Beynəlxalq hüququn, o cümlədən, BMT nizamnaməsinin əsas prinsiplərinin kosmik fəzanın və Göy cisimlərinin tədqiqi və onlardan istifadəyə şamil edilməsi;
3) Dövlətlərin buraxdıqları kosmik obyektlər üzərində suveren hüquqlarının gözlənilməsi və s.

SSRİ-nin təşəbbüsü ilə kosmos haqqında bir sıra müqavilə və konvensiyalar bağlanmışdır. Bir sıra ölkədə Kosmos problemlərinin öyrənilməsi üzrə elmi-tədqiqat mərkəzləri yaradılmışdır.

Kosmosun aşağı təbəqəsi olan Atmosfer bütün canlı aləmin yaşayışını təmin edir. Onun öyrənilməsinin elmi və təsərrüfat əhəmiyyəti böyükdür. XX əsrin 60-cı illərindən başlayaraq SSRİ-də və bir çox İnkişaf Etmiş Ölkələrdə buraxılan meteroloji raket və peyklər (sputniklər) Atmosfer haqqındakı məlumatları verir, atmosfer hadisələrinin qanunauyğunluqlarını öyrənməyə və tənzimləməyə imkan yaradırlar. Ona görə də, bu sahədəki dövlətlərarası hüquq və vəzifələri tənzimləyən çoxsaylı beynəlxalq müqavilə və sazişlər mövcuddur.

Dünya ölkələrinin kosmosun mənimsənilməsi sahəsində əldə etdikləri nailiyyətləri aşağıdakı kimi qruplaşdırmaq olar:

1) Kosmik kəşfiyyat sahəsində;
2) Kosmik geodeziya sahəsində;
3) Kosmik naviqasiya sahəsində;
4) Kosmik biologiya, tibb və fiziologiya sahasində;
5) Kosmik rabitə sahəsində;
6) Kosmik psixologiya sahəsində;
7) Kosmik texnologiyalar sahəsində;
8) Kosmik meterologiya sahəsində;
9) Kosmik uçuş sahəsində;
10) Kosmik hayat sahəsindəki nailiyyətlər və s.

Kosmosun mənimsənilməsi sahəsində bütün istiqamətlərdə əldə edilən nailiyyətlər ildən-ilə artır və genişlənir. Bu nailiyyətlər, əsasən, İnkişaf Etmiş Ölkələrdə olan güclü elmi potensialın həmin ölkələrə digər ölkələrdən daxil olan "beyin axını", nəhəng maliyyə vəsaitinin sərf edilməsi hesabına başa gəlir. XX əsrin 60-cı illərindən başlayaraq İnkişaf Etmiş Ölkələr arasında güclü rəqabət gedir, atom-nüvə silahının yaradılmasında olduğu kimi, indi də Ay səthinə və planetlərə ilk dəfə çatmaq uğrunda yarış gedir.

Qeyd etmək lazımdır ki, kosmosun mənimsənilməsi iqtisadi, siyasi və hərbi cəhətdən nə qədər əhəmiyyətlidirsə, bir o qədər də yeni problemlər yaradır, kosmosun ekoloji tarazlıgı

pozulur, atmosferdə böyük həcmdə toz kütləsi yaranır, bu da fəlakətlərə gətirib çıxaran iqlim dəyişiklərinə səbəb olur.

Kosmik məkanın mənimsənilməsini zəruri edən amillər aşağıdakılardır:

1) Dünya ölkələrində mövcud olan yerin təbii sərvətlərinin öyrənilməsi, tədqiq edilməsi və istifadə sahələrinin müəyyən edilməsi;

2) Sənaye və kənd təsərrüfatı üçün çox böyük əhəmiyyət kəsb edən kosmik müşahidələrin aparılması;

3) Müasir dünya iqtisadiyyatını onsuz təsəvvür etmək mümkün olmayan rabitə - informasiya əlaqələrinin yaradılması;

4) Dünya okeanında, dənizlərdə, çaylarda, limanlarda və kanallarda naviqasiyanın vəziyyətini öyrənmək;

5) Yerüstü sərvətlərin, dağların, meşələrin, nəqliyyatın hərəkəti istiqamətlərinin, silahların yerləşdirilməsi, sınaqdan keçirilməsi və s. dair kosmik fotoşəkillərin çəkilməsi;

6) Ayrı-ayrı ölkələrin süni peyklərinin, sputniklərinin və kosmik stansiyaların yaradılması;

7) Kosmik fəzanın və Göy cisimlərinin tədqiq edilməsi;

8) Göy cisimlərinin mövcud və mümkün olan resurslarından istifadə edilməsi;

9) Yer qrupu planetlərində həyatın, canlı orqanizimlərin və üzvi maddələrin olub-olmamasını müəyyən etmək;

10) Atmosferin alt hava qatında olan qazlardan (azot, oksigen və s.) səmərəli istifadə edilməsi;

11) Günəş enerjisinin yığılması, saxlanılması və maksimum istifadə edilməsi;

12) Kosmik məkanın potensialından maksimum istifadə edilməsi;

13) Kosmosda uzunmüddətli yaşayışa nail olunması və s.

Göstərilən zəruri amillərin reallaşdırılması zamanı çoxsaylı, çoxtərəfli və müxtəlif xarakterli problemlər meydana çıxır.

Hazırda dünyada kosmik məkanın mənimsənilməsi sahəsində qarşıda duran əsas problemlər aşağıdakılardır:

1) Kosmosda uzunmüddətli və ya daimi uçuşun (yaşayışın) təmin edilməsi;

2) Günəş sisteminə daxil olan və yerə yaxın olan planetlərə və onların peyklərinə (məsələn, Aya) enmək və tədqiqatlar aparmaq;

3) Günəş sisteminə daxil olan planetlərdə canlı həyatın və ya insan həyatının mövcudluğunun öyrənilməsinin hələlik qeyri-mümkünlüyü;

4) Kosmosdan Yer kürəsinin bütün ərazilərini və məntəqələrini tam və aydın müşahidə etmək;

5) Kosmosdan atmosfer hadisələrini və proseslərini tam izləmək və nizamlaşdırmaq (yağış, dolu, tufan, fırtına və s.);

6) Planetlərarası uçuşlar təşkil etmək və digər planetlərin potensialından istifadə etmək;

7) Digər planetlərin maddi varlıqlarından xammal və mineral ehtiyatlar kimi istifadə etmək;

8) Kosmosun mənimsənilməsinə sərf edilən külli miqdarda maliyyə vəsaitinin yaxın vaxtlarda səmərə verməməsi;

9) Kosmik tədqiqatlar və sınaqlar zamanı kosmosda əmələ gələn ağır toz kütləsinin azaldılması və s.

Kosmik məkanın mənimsənilməsi və kosmik resurslardan istifadə edilməsi hazırkı dövrün və XXI əsrin ən böyük problemi kimi bütün dünya dövlətlərini və alimləri daim düşündürür, onları bu istiqamətdə daha ciddi tədqiqatlar aparmağa yönəldir.

# 8. DÜNYA İQTİSADİYYATININ HƏRBİ-SİYASİ PROBLEMLƏRİ

Dünya ölkələrinin tarixində hərbi-siyasi vəziyyət sabit, dəyişkən və gərgin olmaqla müxtəlif tarixi dövr və mərhəllərdən keçmişdir. XX əsrin birinci yarısında dünyada hərbi-siyasi vəziyyətin gərginləşməsi nəticəsində İkinci Dünya müharibəsi baş vermiş, Birinci Dünya müharibəsində (1914-1918) 9 mln nəfərdən çox, İkinci Dünya müharibəsində isə 50 mln nəfərdən çox adam ölmüşdür.

XX əsrin ikinci yarısından başlayaraq dünyada hərbi-siyasi vəziyyət tamamilə dəyişmişdir. 1945-ci ildə İkinci Dünya müharibəsi başa çatmış, Avropada faşizm məhv edilmiş və 1945-ci ildə BMT yaranmışdır.

1940-cı illərin axırlarında dünya iki cəbhəyə ayrılmışdır. 1949-cu ilin yanvar ayında sosialist dövlətlərinin hökumətlərarası iqtisadi təşkilatı QİYŞ (SEV), həmin il kapitalist ölkələrinin əsas hərbi-siyasi bloku NATO (Şimali Atlantika Müqaviləsi Təşkilatı - «Vaşinqton müqaviləsi») və 1955-ci il mayın 14-də sosialist ölkələrinin hərbi-siyasi təşkilatı olan Varşava Müqaviləsi Təşkilatı yaranmışdır. Bununla da dünya kapitalist və sosialist cəbhələrinə bölünmüş, Soyuq müharibə dövrü başlamış, hər iki tərəfdə güclü silahlanma olmuş, hər tərəf dünya ölkələrinin bir qismini öz təsir dairəsinə salmağa can atmış, hərbi xərclər sürətlə artmış, lokal müharibələr (Vyetnam, Kuba, Kamboca, Əlcəzair, Koreya və s.) baş vermiş, bəzi ölkələr sosialist cəbhəsinin təsir dairəsindən çıxmağa cəhd göstərmiş (Macarıstan, Çexoslavakiya və s.) və s. hərbi-siyasi proseslər getmişdir.

Ümumiyyətlə 1949-cu il dünya siyasi və iqtisadi tarixində ən əlamətdar il olmuşdur. Belə ki, bu ildə 3 çox mühüm dünya əhəmiyyətli tarixi hadisə baş vermişdir:

1) Şimali Atlantika İttifaqı (NATO) yaradılmışdır;

2) Avropa Şurası (AŞ) yaradılmışdır;

3) 1949-cu il avqust ayının 29-da SSRİ-də atom-nüvə silahının (bombasının) ilk sınağı həyata keçirilmişdir.

Həmin vaxta qədər Amerika Birləşmiş Ştatları atom-nüvə silahına malik yeganə fövqəldövlət idi. Çünki hələ SSRİ-dən 4 il əvvəl, yəni 1945-ci il iyulun 16-da ABŞ dünyada ilk dəfə atom silahının sınağını hayata keçirmiş, bu sahədə inhisarçılığa başlamış va kütləvi qırğın silahını əlinə alaraq öz siyasi rəqiblərinə təsir gücünə malik olmuşdur. Hətta ABŞ 1945-ci il avqustun 6-da Yaponiyanın Xirosima, avqustun 8-də Naqasaki şəhərlərinə atom bombası ataraq öz hərbi gücünü göstərmişdir.

1950-1960-cı illərdə bir çox ölkələr müstəmləkə sistemindən azad olmuş və müstəqillik əldə etmişlər. ABŞ başda olmaqla Qərb ölkələri, SSRİ başda olmaqla sosialist ölkələri (Şərq ölkələri) qarşı-qarşıya dayanmışlar. Yeni silahların yaranması və kosmosun fəth edilməsi sahəsində güclü rəqabət getmişdir.

1975-ci ildə ATƏM (Avropa Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsi) yaradılmışdır. Finlandiyanın paytaxtı Helsinkidə ATƏM-in yekun aktı qəbul edilmişdir. 1994-cü ildə ATƏM təşkilat statusu alaraq ATƏT adlandırdı. Bu təşkilat Avropada və ümumən dünyada beynəlxalq təhlükəsizliyin təmin edilməsində güclü təşkilata çevrilmişdir.

1980-ci illərin sonlarında Dünya Sosializm sistemi zəifləmiş, "Perestroyka" nəticəsində SSRİ süquta uğramış, 1991-ci ildə SSRİ faktiki olaraq dağılmış, 15 müstəqil dövlət öz müstəqilliyini elan etmiş, Varşava Müqaviləsi Təşkilatına xitam verilmiş, Sosialist ölkələri Sosializm lagerindən uzaqlaşmış, MDB yaranmış, Yuqoslaviya Federasiyası dağılaraq 7 müstəqil dövlətə çevrilmiş və hərbi-siyasi vəziyyət tamam dəyişmişdir. Soyuq müharibəyə son qoyulmuş, NATO şərqə doğru genişlənməyə başlamış, yeni yaranan müstəqil dövlətlər Qərbyönümlü siyasət aparmağa başlamış, mərkəzi planlaşdırma sistemindən bazar iqtisadiyyatı yoluna keçmiş və dünya ölkələrinin beynəlxalq inteqrasiyası prosesi güclənmişdir.

1990-cı illərin əvvəllərindən başlayaraq SSRİ-dən və Yuqoslaviyadan ayrılan dövlətlərdə seperatizm baş qaldırmış, lokal münaqişələr - Çeçenistan, Abxaziya, Dağlıq Qarabağ və Dnestryanı Respublikada münaqişələr başlamışdır. Azərbaycanın qədim ərazisi – Dağlıq Qarabağ və 7 rayon Ermənistan tərəfindən işğal edilmişdir.

Hazırda dünyanın bəzi regionlarını təsir dairəsində saxlamaq üçün güclü rəqabət gedir. 2001-ci il 11 sentyabrda ABŞ-da törədilən terrorla əlaqədar olaraq hərbi-siyasi vəziyyət daha da gərginləşmiş, lokal müharibə və münaqişələr indi də davam edir.

Dünya ölkələrində hərbi sənaye indi daha sürətlə inkişaf edir. Hərbi təyinatlı məhsulların yaradılması üçün mövcud olan istehsal güclərinin, infrastrukturun və idarəetmə orqanlarının məcmuuna Hərbi-Sənaye Kompleksi (HSK) deyilir. HSK öz tərkibində maddi resursları, işçi qüvvəsini, istehsal firmalarını və elmi-tədqiqat təşkilatlarını birləşdirir. Onlar hərbi ehtiyacların ödənilməsi məqsədilə silah, əlaqələndirici məhsullar və xidmətlərin istehsalı funksiyasını yerinə yetirirlər. Hərbi məhsulların istehsalında hərbi istehsal müəssisələri (şifrələnmiş, rəmzi və uyğunlaşdırıcı adlarla – "Poçt qutusu" və s.), yığıcı istehsalatlar, sınaq poliqonları, elmi laboratoriyalar, elmi-tədqiqat institutları, təmiredici, modernləşdirici zavodlar və s. iştirak edir. Son hazır hərbi məhsul buraxılışının əsas şərtlərinə energetika, xammal, qara və əlvan metallurgiya, müasir elektronika və cihazqayırma, infrastruktur (rabitə, nəqliyyat), maliyyə vəziyyəti, hərbi elm, etibarlı xarici iqtisadi əlaqələr və s. daxil edilir.

Dünya Məcmu Milli Məhsul istehsalında hərbi məhsulların payı 2,5 faiz, dünya ticarətində silah və hərbi texnikanın payı 1 faizə qədərdir. Lakin dünya hərbi-sənaye bazasının rolu və əhəmiyyəti onun kəmiyyət göstəricilərindən çox-çox üstün və siyasi əhəmiyyətli rol oynayır. HSK-da əlaqələndirici hərbi məhsullar istehsalı - kompüter, peyk,dron, rabitə sistemləri, informasiya vasitələri, nəzarət qurğuları və s. xüsusi sahələr kimi böyük üstünlüyə malikdirlər.

Hərbi-Sənaye bazasının inkişafına iki əsas amil birbaşa təsir edir:

1) Dünyada hərbi-siyasi vəziyyətin dəyişməsi;

2) Silah vasitələrinin daim təkmilləşməsi və yenilərinin buraxılması (nüvə silahı, raket texnikası, yüksək dəqiqlikli silahlar və s.).

Hazırda dünyada hərbi-iqtisadi potensialı çox güclü olan 10 aparıcı dövlət vardır. Dünya ölkələri hərbi-siyasi mövqelərinə görə NATO meyilli, Nüvə silahlı, Silah istehsalını artıran dövlətlərə bölünürlər.

Silahların struktur tərkibi dünya ölkələri üzrə çox fərqlidir və daim mövqe dəyişikliyi gedir. Məsələn, tank əleyhinə raket istehsalını 15 dövlət mənimsəyib.

Hazırda dünya ölkələrindən təqribən 30-u bronetank vasitələri istehsal edə bilirlər. Bu tipli silahların istehsalı azalır. Hərbi aviasiya sənayesinin istehsal etdiyi hərbi dron, təyyarə və vertalyot istehsalı artır. Strateji və uzaq bombardmançı təyyarə istehsalçıları olan dövlətər çox məhdud saydadır.

Dünya ölkələrində əvvəlcə hərbi xərclərin azalmasının əsas səbəbləri soyuq müharibənin dayandırılması, Varşava Müqaviləsi Təşkilatının ləğv edilməsi, SSRİ-nin süqutu və s. hesab edilir.

Dünyada hərbi-siyasi vəziyyətin dəyişməsi və soyuq müharibənin dayanması konversiyaya səbəb olmuşdur. Konversiya hərbi-sənaye kompleksinin (müəssisələrinin) hərbi təyinatlı məhsullar istehsalından mülki təyinatlı məhsullar istehsalına keçməsinə deyilir.

Dünyada silah və hərbi texnika istehsalının əsas mərkəzləri - Şimali Amerika mərkəzi (ABŞ, Kanada), Qərbi Avropa mərkəzi (Almaniya, Fransa, Böyük Britaniya, İtaliya), MDB mərkəzi (Rusiya, Ukrayna və s.), Avropa "əyalət" hərbi-sənaye mərkəzi (İspaniya, Avstriya, Çexiya, Slovakiya, Bolqarıstan), Asiya mərkəzi (Şimali və Cənubi Koreya, Türkiyə, Yaponiya, Pakistan, Hindistan, İsrail), Latın Amerikası mərkəzi (Braziliya və Argentina), Afrika (CAR) va Avstraliya mərkəzləridir.

Dünyanın hərbi silahlı qüvvələrində 29 mln nəfər (11 mln – inkişaf etmiş, 18 mln – inkişaf etməkdə olan) hərbi təyinatlı xidmət sahələrində 80 mln-a qədər, xalis hərbi sənayedə 17 mln nəfər fəaliyyət göstərir. Silah və hərbi texniki istehsalı nəhəng vəsait hesabına başa gəlir. Ona görə də hərbi xərclərin həddi, mülki məqsədli xərc maddələrindən (təhsil, səhiyyə, sosial və s.) yüksək olur, bu vəsait insanın inkişafı və rifahına xidmət etmir və insan qırğınına səbəb olur.

BMT və digər beynəlxalq təşkilatların və hərbi iqtisadiyyatın hesablamalarına görə konversiya hərbi xərcləri azaldır, hərbi qulluqçuların, hərbi sənaye işçilərinin sayını aşağı salır, dövlət büdcələrinə müsbət təsir göstərir, adambaşma düşən gəlirləri artırır, mürəkkəb texnika təyinatlı və xalq istehlakı malları istehsalını artırır və digər iqtisadi inkişaf göstəricilərinə təkan verir.

Soyuq müharibənin başa çatması, sosialist sisteminin süqutundan sonra bazar iqtisadiyyatı yoluna keçən ölkələrdə konversiya prosesi sürətlə getmişdir.

Hazırda dünyada mövcud olan əsas hərbi-siyasi təşkilatlar aşağıdakılardır:

1) Şimali Atlantika Müqaviləsi Təşkilatı (NATO);
2) Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT);
3) Avropa Şurası;
4) Avropa İttifaqı;
5) Qərbi Avropa İttifaqı;
6) Avropa Nüvə Tədqiqatları Təşkilatı;
7) Regional hərbi-siyasi təşkilatlar və s.

**NATO** - dünyada ən güclü hərbi-siyasi təşkilatdır. 2020-ci ildə üzvlərinin sayı 28 olmuşdur. Son 15 ildə Şərqə doğru genişlənir. Strukturuna aşağıdakı qurumlar daxildir:

1) Şimali Atlantika Şurası (Daimi Şura);
2) Müdafiə Planlaşdırma Komitəsi;
3) Nüvə Planlaşdırma qrupu;
4) Digər komitələr;
5) Baş katib.

Hərbi məsələlər üzrə NATO-nun orqanları:

1) Hərbi komitələr (Daimi Hərbi Komitə);
2) Beynəlxalq hərbi qərargah.

NATO-nun tərkibində Şimali Atlantika Assambleyası və Sülh Naminə Tərəfdaşlıq Proqramı fəaliyyət göstərir.

**ATƏT** - ATƏM-in varisidir. ATƏM-in yekun akti 1975-ci ildə Helsinkidə Avropanın 33 ölkəsi, ABŞ və Kanada tərəfindən imzalanmışdır. Hazırda 57 üzvü vardır. 1990-cı ildə Yeni Avropa üçün Paris Xartiyası qəbul edilmişdir. Hər iki ildən bir sammitini keçirir (məsələn, 1996 - Lissabon, 1998 - İstanbul sammitləri).

ATƏT-in strukturuna daxildir:

1) Dövlət və hökumət başçılarının toplantısı (sammiti);
2) ATƏT-in Xarici İşlər Nazirləri Şurası;
3) Yüksək vəzifli şəxslər komitəsi;
4) ATƏT-in daimi komitəsi;
5) ATƏT-in fəaliyyətdə olan sədri;
6) Milli azlıqların işi üzrə ali komissar;
7) Təhlükəsizlik sahəsində əməkdaşlıq üzrə forum;
8) Demokratik Təsisatlar və İnsan Hüquqları üzrə büro;
9) Parlament Assambleyası;
10) ATƏT-in katibliyi;
11) Baş katib;
12) ATƏT-in missiyaları;

13) Sanksiyaların müdafiəsi üzrə missiyalar;
14) Barışıq va Arbitraj məhkəməsi;
15) Birgə məsləhətləşmə qrupu;
16) Açıq səma üzrə məsləhətləşmə komissiyası.

1992-ci il yanvar ayının 20-dən Azərbaycan Respublikası ATƏT-in üzvüdür. 1992-ci il mart ayının 24-də Dağlıq Qarabağ probleminin həll edilməsi məqsədilə ATƏT-in Minsk qrupu yaradılmışdır.

**Avropa Şurası** 1949-cu il may ayının 5-də yaradılmışdır. Şuranın məqsəd və vəzifələri AŞ-nin nizamnaməsində göstərilmişdir. Təşkilatın orqanlarına - Nazirlar Komitəsi, Parlament Assambleyası, Katiblik və s. daxildir. Strasburqda (Fransa) yerləşir.

**Avropa İttifaqı** Avropa İqtisadi Birliyinin yaradılması haqqında 1957-ci il Roma müqaviləsi əsasında yaradılmışdır. Üzvlərinin sayı 27-dir. Aİ-nin orqanlarına daxildir:

1) Avropa Şurası (bu orqanı müstəqil beynəlxalq təşkilat olan Avropa Şurası ilə qarışdırmaq olmaz);
2) Avropa Parlamenti (Lüksemburqda yerləşir);
3) Avropa İttifaqı Şurası (Brüsseldə yerləşir);
4) Avropa Komissiyası (Brüsseldə yerləşir);
5) Avropa Məhkəməsi.

Əsas orqanlarla yanaşı Aİ çərçivəsində çoxsaylı yardımçı orqanlar da fəaliyyət göstərir.

Qərbi Avropa İttifaqı 1948-ci ildə yaradılıb. 10 üzvü vardır. Brüsseldə yerləşir.

Avropa Nüvə Tədqiqatları Təşkilatı 1954-cü ildə yaradılıb, 18 üzvü vardır. Cenevrədə yerləşir.

Dünya silah bazarı beynəlxalq hərbi-iqtisadi əlaqələrdə çox mürəkkəb bir mexanizmdir. Silah ticarətinin iki əsas əlaməti vardır:

1) İxracatçılar çox böyük gəlir əldə edir;
2) Dünyanın müxtəlif regionlarında mövcud olan hərbi-siyasi vəziyyətə və silah idxalçısı olan ölkələrin siyasi kursuna təsir edir.

Dünya silah bazarının bir çox səciyyəvi xüsusiyyətləri vardır:

1) Adi xarici ticarət əlaqələrindən fərqli olaraq silah və hərbi texnika ixracatçıları idxalçı dövlətləri daha çox özünə cəlb edir, bağlayır və asılı edir;
2) İxracatçılar öz silah və hərbi texnikasını idxalçıların ərazisində sınaqdan keçirirlər;
3) Silah ticarətində inhisarçılıq daha da güclüdür və bir neçə dövlətin əlindədir;
4) Silah və hərbi texnika alıcıları servis xidməti, ehtiyat hissələri və döyüş xammal-materialı, modernləşdirmə və s. səbəblərə görə satıcı dövlətlərdən (ixracatçılardan) asılıdırlar;
5) Silah və hərbi texnika satıcıları və alıcıları arasındakı əlaqələr, bağlanmış müqavilə və sazişlər uzunmüddətli olur;
6) Bu məhsullarla ticarət dövlətlərarası sazişlər əsasında aparılır;
7) Silah və hərbi texnikanın leqal (qanuni) ticarəti ilə yanaşı, bəzi dünya ölkələrində qeyri-leqal (qanunsuz - gizli, oğurluq) ticarəti də böyük xüsusi çəkiyə malikdir. Bəzən qeyri-leqal, leqal ticarəti 3-5 dəfə üstələyir.

Dünya silah və hərbi texnika bazarının inkişafında aşağıdakı struktur dəyişiklikləri baş verir:

1) Son dövrlər silah ticarətində bazar amillərinin rolu əhəmiyyətli dərəcədə güclənir və iqtisadi cəhətdən mənfəətli sazişlər daha çox bağlanır, iqtisadi mənafelər siyasi mənafeləri üstələyir;
2) Dünya silah ticarətində hazır silah növlərinin satışı ilə bərabər, silahların ehtiyat hissələrinin və silahlanma xammal - materialının payı artır, yeni silah növlərinin istehsalı üçün lisenziya ticarəti sürətlə genişlənir;

3) Silah idxalçısı olan dövlətlər satıcı ölkələrdən güzəştli kreditlər almaq, həmin vəsaiti silah alışına sərf etməyə və barter müqavilələrinə daha çox üstünlük verirlər;

4) Lizinq və lend-liz müqavilələri ilə silah alışı da sürətlə artır (İspaniya və Tayvan lizinq yolu ilə amerikan desant gəmilərindən istifadə edirlər və s.);

5) Silah bazarında coğrafi istiqamətlər dəyişir. Nəhəng idxalçılar Asiya ölkələri - Yaponiya, Hindistan, Çin, İsrail, Tayvan, Səudiyyə Ərəbistanı, Misir və İraqdır;

6) Dünya silah bazarında yeni ixracatçı dövlətlər yaranıb (Ukrayna, Qazaxıstan, İsrail, Cənubi Koreya, İsveç, Avstriya, Çin, Argentina və Braziliya);

7) Dünya silah bazarında rəqabət mübarizəsinin əsas formaları kimi siyasi maraqlar, siyasi təzyiqlər, dolayı təsirlər, hədələrdən istifadə edilir və s.

Dünya iqtisadiyyatının digər sahələrindən fərqli olaraq hərbi-siyasi problemlər səciyyəvi xüsusiyyətlərə malikdir. Bu problemlər siyasi, hərbi, milli, dini, elmi-texniki və s. amillərin təsiri nəticəsində yaranır. Beynəlxalq aləmdə sülhün və təhlükəsizliyin təmin edilməsi, demokratiyanın və insan hüquqlarının qorunması, iqtisadi maraq və mənafelərin reallaşdırılması, avtoritar rejimlərin qorunub saxlanılması, beynəlxalq hüquqa zidd olaraq ərazi iddialarının baş qaldırması və s. səbəblərdən dünya ölkələri arasında müharibə və münaqişələr artır, rəqabət və qarşıdurma yaranır, silah satışı və alışı artır, qarşılıqlı münasibətlər gərginləşir və hərbi-siyasi problemlər mürəkkəbləşir. Ölkələrarası qarşılıqlı münasibətlərin tənzimlənməsi və beynəlxalq təşkilatların təsiri ilə bu problemlərin həll edilməsinə səy və cəhd göstərilmir. Dünya yenidən soyuq müharibə dövrünə qayıdır. Silahlanma və müharibələr yenidən artır.

Dünyanın ən güclü ordusu olan 15 ölkəsi 8.13-cü cədvəldə verilmişdir.

**Cədvəl 8.13**

**Dünyanın ən güclü ordusu olan 15 ölkəsi[1] (2016-cı il)**

| № | Dövlətlər | Hərbi büdcəsi, mlrd dollar | Ordunun ümumi sayı, mln nəfər | Tankların sayı | Hərbi təyyarələrin sayı | Sualtı qayıqların sayı |
|---|---|---|---|---|---|---|
| 1. | ABŞ | 601 | 1,4 | 8848 | 13892 | 72 |
| 2. | Çin | 216 | 2,3 | 9150 | 2860 | 67 |
| 3. | Rusiya | 84,5 | 0,8 | 15398 | 3429 | 55 |
| 4. | C. Koreya | 62,3 | 0,6 | 2381 | 1412 | 11 |
| 5. | Fransa | 62,3 | 0,2 | 623 | 1264 | 10 |
| 6. | B. Brita-niya | 60,5 | 0,14 | 407 | 936 | 10 |
| 7. | Hindistan | 51 | 1,4 | 6464 | 1905 | 15 |
| 8. | Yaponiya | 41,6 | 0,3 | 678 | 1613 | 16 |
| 9. | Almaniya | 40,2 | 0,18 | 408 | 663 | 4 |
| 10. | İtaliya | 34 | 0,3 | 586 | 760 | 6 |
| 11. | Avstraliya | 26,1 | 0,05 | 59 | 408 | 6 |
| 12. | Türkiyə | 18,2 | 0,5 | 3778 | 1020 | 13 |
| 13. | İsrail | 17 | 0,16 | 4170 | 684 | 5 |
| 14. | Pakistan | 8,5 | 0,6 | 2924 | 1073 | 8 |
| 15. | Misir | 4,4 | 0,5 | 4624 | 1107 | 4 |

8.13-cü cədvəldən göründüyü kimi 2016-cı ildə hərbi büdcəsinə görə ən güclü ordusu olan dövlətlər ABŞ, Çin və Rusiya olmuşdur. Bu göstərici üzrə Türkiyə dünyada 12-ci olmuşdur.

[1] www.vestifinance.ru/articles/79089/page=7

# MÖVZU 9. DÜNYA XİDMƏTLƏR İSTEHSALI

## SUALLAR

1. Xidmətlərin mahiyyəti, fərqləndirici xüsusiyyətləri və dünya ÜDM-ində mövqeyi.
2. Xidmətlərin təsnifatı və əsas növləri.
3. Dövlət xidmətlərinin mahiyyəti, məzmunu və xüsusiyyətləri.
4. Biznes (kommersiya) xidmətlərinin müasir vəziyyəti.
5. Dünya xidmətlər bazarının tərkibi.

## Əsas ədəbiyyat


1. Xasbulatov R.İ. Beynəlxalq iqtisadi münasibətlər, Bakı, 2014, səh. 250-292.
2. Əliyev Etibar. Beynəlxalq iqtisadi hüquq. "Uni Print", Bakı, 2012, səh. 231-374.
3. Ələkbərov Ə.H.və b., Beynəlxalq iqtisadi münasibətlər. "Çaşıoğlu", 2010, səh. 241-277, 319-349, 391-405.
4. Seyidoğlu Halil. Uluslararası iktisat, İstanbul, 2003, səh 790-804.
5. Ataşov Bəyalı, Ələkbərov Əvəz, Xuduyev Nizami. Sığorta işi, Bakı, 2018.
6. Аббасов А.М., Мамедов З.Ф. Элэктронизация финансовой индустрии в условиях сетевой экономики, Баку, 2007.
7. Фомичев В.И. Международная Торговля, Москва, ИНФРА – М, 1998.
8. Дюмулен И.И. Международная Торговля, Москва, ВАВТ, 2010.
9. Дюмулен И.И. Международная Торговля, Тарифное и нетарифное регулирование, М., ВАВТ, 2009.
10. Дюмулен И.И. Международная торговля услугами. М. Экономика, 2003.
11. Шмиттгофф К. Экспорт: Право и практика Международной Торговли. М.1993.
12. Руфат М. Касумов. Рынок международного туризма: теория и практика. Баку, "Нурлан", 2001.
13. WTO. International Trade Statistics. Hər il.
14. WTO. World Trade Report. Hər il.
15. WTO. Annual Report, Hər il.
16. Standard International Trade Classification Revision 4 – https://unstat.un.org
17. UNCTAD. Handbook of Statistics, Geneva, Hər il.
18. World Bank, Development Report, Hər il.
19. IMF, World Economic Outlook, Hər il.


## 1. XİDMƏTLƏRİN MAHİYYƏTİ, FƏRQLƏNDİRİCİ XÜSUSİYYƏTLƏRİ VƏ DÜNYA ÜDM-İNDƏ MÖVQEYİ

Xidmətlər iqtisadi kateqoriya kimi çox geniş anlayışdır. Bir-birilə oxşar tərəfləri olması ilə bərbabər fərqli tərəfləri də vardır. Tarixən ticarətin tərkib hissəsi kimi qədim olsa da, dünya iqtisadiyyatının sahə sektoru kimi yenidir, dünya iqtisadiyyatının sahə strukturunun 3-cü sektorudur. Tərkibində çoxsaylı elementləri birləşdirir.

Beynəlxalq təşkilatların qəbul etdikləri sənədlərə, dünya ölkələrinin milli qanunvericiliklərinə müvafiq olaraq qarşılıqlı gəlir əldə etmək məqsədilə dünya ölkələrinin iqtisadi subyektləri – hüquqi və fiziki şəxsləri arasında əmələ gələn xidmət göstərmə proseslərinin məcmusuna **xidmətlər deyilir.**

BMT-nin 6 baş orqanından 3-cüsü olan ECOSOS-un funkisonal komissiyaları - sosial inkişaf komissiyası, əhali və inkişaf komissiyası, ixtisaslaşdırılmış qurumları – Ümumdünya

Səhiyyə Təşkilatı (WHO), YUNESCO, Beynəlxalq Əmək Təşkilatı (ILO), Ümumdünya İntellektual (əqli) Mülkiyyət Təşkilatı, BMT-dən kənar Ümumdünya Ticarət Təşkilatı (WTO), Ümumdünya Turizm Təşkilatı, müxtəlif fondlar, proqramlar və s. dünya ölkələrində xidmət problemləri ilə birbaşa məşğuldurlar. Bu beynəlxalq təşkilatların xidmətlər istiqamətindəki fəaliyyəti, məqsəd və vəzifələri ətraflı öyrənməlidir. Məsələn, ÜST və s.

## ÜST (WHO - BO3)

Ümumdünya Səhiyyə Təşkilatı - World Health Organization (WHO) Cenevrədə yerləşir. 6 rəsmi dili vardır. 7 aprel 1948-ci ildə yaradılıb. 7000 (2018) əməkdaşı vardır. Ana təşkilatı ECOSOS-dur. 194 ölkə üzvdür.

Hələ 1839-cu ildə İstanbulda, sonra müxtəlif illərdə Mərakeşdə, Misirdə, Parisdə kütləvi xəstəliklərlə (taun, vəba) mübarizə üzrə şuralar və konfranslar yaradılmışdır. Regional bürolardan, xəstəliklər üzrə agentliklərdən və subregional kommisyalardan ibarətdir.

BMT-nin bu sahədə 14 beynəlxalq günlərini keçirir (məsələn, tütünə qarşı, diabetə qarşı, donorlar və s. günləri keçirir). Xoşməramlı səfirləri seçilir.

Fiziki və hüquqi şəxslərin istehlak tələbatını ödəyən və maddi (əşya) formada olmayan fəaliyyət xidmət sayılır. Xidmətlər də əmtəə kimi hazırlanır və çoxsaylı elementləri birləşdirməklə istehsal olunur. Elə buna görə də xidmətlər istehsalı kimi işlədilir. Amma nəzərə almaq lazımdır ki, istehsal edilmiş və hazırlanmış xidmət yalnız onu hazırlayan və istehsal edənə məxsusdur, onu hazırlayıcının və istehsal edənin özündən ayırmaq qeyri-mümkündür. Məsələn, mobil telefonla danışan zaman operator danışan şəxsə rabitə xidməti göstərir, gəlir əldə edir, həmin rabitə xidmətini operatorun özündən ayırmaq, onun əlindən almaq mümkün deyil.

Xidmətlər və ticarət bir-birini yaradır və bir-birilə tamamlanır. Bir tərəfdən xidmətlər ticarətin tərkib hissəsidir və xidmətlər də alqı-satqı predmetidir. Digər tərəfdən də ticarət xidmətlərin tərkib hissəsidir. Bunlar arasında fiziki sədd qoymaq olmaz. Ümumi yanaşmada istehsal edib və sonra göstərdiyi kombinləşmiş yekun nəticənin satılması xidmətlər istehsalının predmetini təşkil edir.

Əhatə dairəsinə görə xidmətlərin ikinci forması olan beynəlxalq xidmətlərin səciyyəvi əlamətləri daha çoxdur. Çünki xidmət məkan və zaman daxilində baş verir. Beynəlxalq xidmətin əsas xüsusiyyəti budur ki, xidmətin istehsal olunma (hazırlanma) vaxtı ilə istehlak edilmə vaxtı eyni olur və üst-üstə düşür.

Xidmət sektorunun kənd təsərrüfatı (aqrar) və sənaye sektorundan aşağıdakı fərqli xüsusiyyətləri vardır:

1. Kənd təsərrüfatı (aqrar) və sənaye (industriya) sektorları geniş təkrar istehsalın real sektorunu – istehsal sferasını təşkil edirsə, xidmət (servis) geniş təkrar istehsalın qeyri-istehsal – xidmət sektorunu təşkil edir;

2. Xidmət sektorunun tərkibində istehsalyönümlü və istehsal xarakterli xidmətlər də vardır (məsələn, nəqliyyat, iaşə və s.). Sektorların hansı sahələrə daxil olması ölkələrin iqtisadiyyatının dövlət təsnifatlarında verilir;

3. Xidmətlər əmtəələrlə birlikdə beynəlxalq ticarətin predmetini təşkil edir, onların mübadiləsi ilə dünya ölkələri öz tələbat və ehtiyaclarını təmin etsələr də, əmtəələr ölkələr arasında hərəkət edir, digər ölkələrdə istehlak edilir, xidmətlər isə istehsal edildiyi yerdə istehlak edilə bilinir;

4. Əmtəələrdən fərqli olaraq xidmətlər müqaviləli və müqaviləsiz göstərilə bilinər. Beynəlxalq xidmət müqaviləsi öz predmetinə daxil olan mülkiyyət hüququnu digər tərəfə verə bilmir. Ona görə ki, bu müqavilədə məqsəd xidmət göstərib gəlir əldə etməkdir. Müqaviləsiz xidmət sadə formada, birdəfəlik və razılıq əsasında baş verir;

5. Xidmətlərin konkret maddi (əşya) əsası yoxdur, xidmət maddi əşya deyildir, xidmətin hər hansı bir növünün tərkib elementi kimi çıxış edir (məsələn, restoran xidmətində ət və s.).

Əgər 2018-ci ildə dünya üzrə yaradılan ÜDM-in 3 faizi dünya iqtisadiyyatının sahə strukturunun 1-ci sektoru olan kənd təsərrüfatı (aqrar) sektorunda, 28 faizi 2-ci sektoru olan sənaye (industriya) sektorunda yaradılmışdırsa, 69 faizi 3-cü sektor olan xidmət (servis) sektorunda əldə edilmişdir. Ölkələrin və regionların inkişaf səviyyəsindən asılı olaraq bu sektorun da xüsusi çəkisi dəyişir. Belə ki, iqtisadi inkişaf səviyyəsi aşağı olan ölkələrin ÜDM-ində xidmət sektorunun payı aşağı (aşağı gəlirli ölkələrdə 46 faiz). İnkişaf səviyyəsi yüksək olan ölkələrdə yuxarı (yüksək gəlirli ölkələrdə 73 faiz və s.) olmuşdur (bax, cədvəl 7.2-yə).

Dünya ölkələrində əmək qabiliyyətli əhalinin 50 fazidən çoxu xidmət sektorunda fəaliyyət göstərir. Ona görə də hər bir ölkənin xidmət sektoru onun inkişafını müəyyən edən əsas amillərdən biridir. Xidmət sektorunda əhalinin məşğulluğu ildən-ilə daha da artacaqdır.

Ölkələr üzrə il ərzindəki xidmətlərin vəziyyətini ölkələrin tədiyyə balansı əks etdirir. Tədiyyə balansının standart modelini BVF-nin (IMF) qəbul etdiyi "Tədiyyə balansı üzrə rəhbərlik" əks etdirir. Bu rəhbərliyin (sənədin) "Cari əməliyyatlar hesabı" adlanan I hissəsinin "Əmtəə və xidmətlər" adlanan A hissəsinin, "Xidmətlər" adlanan B althissəsində 11 xidmət – nəqliyyat, rabitə, tikinti, sığorta, maliyyə, informasiya və s. xidmətlərin ixracı və idxalı verilir (BVF. Tədiyyə balansı üzrə rəhbərlik. Beşinci nəşri, 1993). Hökumət sənədidir. Ölkənin əmtəə və xidmətlərlə xarici əlaqələrini əks etdirən iqtisadi gücüdür.

## 2. XİDMƏTLƏRİN TƏSNİFATI VƏ ƏSAS NÖVLƏRİ

Xidmətlər dünya iqtisadiyyatının sahə strukturunun 3-cü sektoru, geniş təkrar istehsalın 2-ci sferasıdır. Çoxsaylı əlamətlər üzrə təsnifləşdirilir və qruplaşdırılır.

Dünya ölkələrində xidmətlər göstərilmə səviyyəsinə görə iki qrupa bölünür:

1. Makrosəviyyəli xidmətlər (hərbi, mühafizə, sosial-təminat və s.);
2. Mikrosəviyyəli xidmətlər (turizm, nəqliyyat firmaları, salonlar, restoranlar, təmir, məişət xidməti və s.);

Məqsədinə görə xidmətlər iki qrupa bölünür:

1. Gəlir əldə etmək məqsədilə göstərilən xidmətlər və ya pullu xidmətlər, kommersiya xidmətləri (ticarət, iaşə, salon, reklam, sığorta, nəqliyyat, informasiya və s.);
2. Ölkənin təhlükəsizliyi, onun əhalisinin zəruri tələbatının ödənilməsi üçün göstərilən xidmətlər (hərbi və mühafizə xidmətləri, dövlətin təhsil və səhiyyə, rabitə, sosial müdafiə və s. xidmətləri).

Hüquqi əsasına görə xidmətlər iki qrupa bölünür:

1. Leqal xidmətlər;
2. Qeyri-leqal (gizli) xidmətlər.

Ölkənin milli qanunvericiliyinə müvafiq, vergi və ədliyyə orqanlarında qeydiyyata alınan xidmətlərə leqal, ədliyyə və vergi orqanlarında qeydiyyatdan keçməmiş, gizli fəaliyyət göstərilən xidmətlərə qeyri-leqal xidmətlər deyilir.

Əhatə dairəsinə görə xidmətlər iki qrupa bölünür:

1. Ölkədaxili xidmətlər;
2. Beynəlxalq xidmətlər.

Ölkədaxili xidmətlərə – ölkənin daxilində göstərilən çoxsaylı istehsal və sosial yönümlü xidmətlər daxil edilir (tikinti, təchizat, məişət və s. xidmətlər).

Beynəlxalq xidmətlərə – ölkədən xaricdə göstərilən istehsal yönümlü və sosial yönümlü xidmətlər daxil edilir(sərnişin və yükdaşıma, rabitə, turizm və s. xidmətlər).

Makrosəviyyəli xidmətlər – ölkələrin dövlət büdcəsindən ayrılmış maliyyə mənbələri hesabına göstərilən, gəlir əldə etmək məqsədi olmayan, ölkələrin təhlükəsizliyinin, onların əhalisinin zəruri tələbatlarının ödənilməsi vəzifəsini yerinə yetirən xidmətlərdir.

Mikrosəviyyəli xidmətlər – gəlir əldə etmək məqsədilə yaradılmış dövlət (hökumət) idarələrinin tərkibinə daxil olan firmalar (şirkətlər), özəl firmalar (şirkətlər) və fərdi göstərilən xidmətlərdir. Əhatə dairəsi daha geniş və xidmət növləri daha çoxdur.

Beynəlxalq ticarət bütün dünya ölkələrinin əmtəələr və xidmətlər üzrə ticarətinin cəmindən ibarətdir. Əmtəələrlə beynəlxalq əmtəə mübadiləsi, xidmətlərlə beynəlxalq ticarət əsasında xidmətlər mübadilsəi baş verir.

Alqı-satqı obyektinin (predmetinin) görünmə əlamətinə görə beynəlxalq ticarət iki yerə bölünür:

- Görünən (əşya, maddi formada) beynəlxalq ticarət;
- Görünməyən (əşya, maddi formada olmayan) beynəlxalq ticarət.

Predmeti konkret maddi formada əşyadan ibarət olan ticarətə görünən beynəlxalq əmtəə ticarəti, predmeti konkret maddi formada əşyadan ibarət olmayan, görünməyən, predmeti xidmət olan ticarətə beynəlxalq xidmət ticarəti deyilir.

Dünya iqtisadiyyatının sahə strukturunun 3-cü sektoru olaraq xidmətləri əsasən iki əlamətinə görə qruplaşdırmaq olar:

1. Təkrar istehsal prosesində yerinə görə;
2. İstiqamətinə görə.

Dünya iqtisadiyyatının təkrar istehsal prosesindəki yerinə görə növləri 9.1-ci və istiqamətinə görə növləri 9.2-ci sxemdə verilmişdir.

**Sxem 9.1**

**Təkrar istehsal prosesindəki yerinə görə xidmətlərin növləri**




9.1-ci sxemdən göründüyü kimi təkrar istehsal prosesindəki yerinə görə xidmətlər istehsal yönümlü xidmətlərə (xidmət sənayesinə) və sosial yönümlü xidmətlərə bölünür. İstehsal yönümlü xidmətlərə o xidmətlər daxil edilir ki, əvvəlcə xidmət istehsal edilir və ya hazırlanır, sonra isə xidmət göstərilir. Belə ki, ev tikiləndən, yol çəkiləndən, rabitə şəbəkəsi

qurulandan –yəni istehsal ediləndən sonra xidmət göstərilir. Sosial yönümlü xidmətlərə o xidmətlər daxil edilir ki, artıq hazır vəziyyətdədir, yəni xidmət göstərilə bilər (icarə,təhsil, sığorta,bank,hüquq və s.).

Bu xidmətlərin biri digərinə təsir edir, şərait yaradır və davam etdirir.

9.2-ci sxemdən göründüyü kimi istiqamətinə görə xidmətlər infrastruktur (nəqliyyat, rabitə və s.) və sahə xidmətlərinə ( dövlət, təhsil, səhiyyə, sosial müdafiə və s.) bölünür. Hər birinin fərqli, oxşar və hibrid növləri vardır.

**Sxem 9.2**

**İstiqamətinə görə xidmətlərin növləri**




ÜTT klassifikatoru xidmətlərlə beynəlxalq ticarəti 12 bölməyə və 160 növə ayırır:

1. İşgüzar xidmətlər – 46 qrup;
2. Telekommunikasiya xidmətləri – 25 qrup;
3. Tikinti və konstruktor xidmətləri – 5 qrup;
4. Distribüter xidmətləri – 5 qrup;
5. Təhsil xidmətləri – 5 qrup;
6. Maliyyə və sığorta xidmətləri – 17 qrup;
7. Ətraf mühitin mühafizəsi xidmətləri – 4 qrup;
8. Tibbi xidmətlər – 4 qrup;
9. Turizm xidmətləri – 4 qrup;
10. Əyləncə, mədəni və idman xidmətləri – 5 qrup;
11. Nəqliyyat xidmətləri – 33 qrup;
12. Bu qruplara daxil olmayan digər xidmət növləri (7 növ xidmətlər).

ÜTT-nin xidmətlər klassifikatoru xidmət fəaliyyətinin strukturu haqqında ilkin təsəvvür yaradır. Bu təsnifatdan görünür ki, işgüzar xidmətlər qrupu çox geniş və predmeti eynicinsli deyil. Bu qrup peşəkar xidmətləri birləşdirir. Bu qruplara hüquqi, vergi və auditor, mühasibat, elmi-tədqiqat, konsaltinq, lizinq, hərbi maşın və avadanlıqların icarəsi, reklam və s. xidmətlər daxil edilir.

ÜTT katibliyinin statistika şöbəsi xidmətlərlə beynəlxalq ticarətin ətraflı və dəqiq statistikasını aparır. Hər bir qrupa çoxsaylı xidmət növləri daxildir.

1947-ci ildən qüvvədə olan "QATT-1947" sazişi ancaq beynəlxalq əmtəə ticarətini tənzimləyirdi, xidmətlərlə beynəlxalq ticarəti tənzimləmək funksiyasını yerinə yetirmirdi. Xidmətlərlə ticarəti beynəlxalq səviyyədə regional sənədlər – Avropa İttifaqı, OECD çərçivəsində qəbul edilmiş sənədlər tənzimləyirdi. Bu da çoxsaylı problemlər yaradırdı.

Beynəlxalq səviyyədə xidmətlərin sürətlə artması və genişlənməsi universal səviyyədə və dairədə beynəlxalq ticarətlə bərabər xidmətləri tənzimləyən çoxtərəfli beynəlxalq sazişin qəbul edilməsini zəruri edirdi. Ona görə də ÜTT-nin 1986-1994-cü il "Uruqvay Raundu" ikinci bir sazişi "Xidmətlərlə Ticarət üzrə Baş Sazişi" (GATS – General Aqreement on Trade in Services) qəbul etdi, 1 yanvar 1995-ci ildən qüvvəyə mindi.

QATS (XTBS) xidmətlərin beynəlxalq ticarətini universal səviyyədə tənzimləyən beynəlxalq müqavilədir. Bu müqavilə (saziş) dünya ticarəti tarixində ilk dəfə olaraq ölkələrin bu sahədəki fəaliyyətinin qayda və prinsiplərini müəyyən etmişdir.XTBS ümumi çərçivə sazişidir. Konkret xidmət növlərinin tənzimlənməsi bu sazişlə tənzimlənmir. XTBS xidmətlərin növlərini göstərir, ayrı-ayrı xidmət növlərinin anlayışlarını vermir. Bu sazişə görə xidmətlərin ticarəti dedikdə xidmətlərlə təmin olunma başa düşülür. Xidmətlərlə təmin olunmaya xidmətlərin hazırlanması (istehsalı), bölgüsü, marketinqi, satışı və xidmətlərin istehlakçıya çatdırıması daxil edilir.

Bu da onu göstərir ki, nə qədər xidmət növü varsa, bir o qədər də fərqli xidmət anlayışları vardır. Ölkələr üzrə fərqlənir. Beynəlxalq Ticarət Standartları Təsnifatı, ölkələrin Dövlət Təsnifatları və ölkələrin xidmətlər sahəsində olan müvafiq hökumət orqanları bu fəaliyyət növlərini müəyyən edir.

## 3. DÖVLƏT XİDMƏTLƏRİNİN MAHİYYƏTİ, MƏZMUNU VƏ ÜSUSİYYƏTLƏRİ

Əmtəələrdən fərqli olaraq xidmətlərin heç də hamısı ticarət predimeti deyil. Məqsədi və mənbələrinə görə iki xidmət formasından biri dövlət tərəfindən – ölkələrin büdcə vəsaiti hesabına maliyyələşdirilən xidmətlərdir. Dövlətlərin müvafiq hökumət orqanları tərəfindən yerinə yetirilir. Buraya ölkələrin dövlət büdcələrindən maliyyələşdirilən dövlət təhsil, səhiyyə, sosial təminat və s. xidmətlər daxildir. Bəzi ölkələrdə bu xidmətlər tam dövlət tərəfindən, bəzi ölkələrdə isə dövlət və kommmersiya (biznes) müəssisələri (firma və şirkətləri) tərəfindən yerinə yetirilir. Nəqliyyat, rabitə, maliyyə, sığorta, elm, təhsil və səhiyyə bütünlüklə dövlət mülkiyyətində olan ölkələrdə bu xidmətlər tam dövlət xidmətləri hesab edilir (SSRİ dövründə olduğu kimi). Dövlətlərin iqtisadi sistemindən asılı olaraq xidmətlərin formaları da dəyişir.

Bəzi ölkələrdə dövlət tərəfindən maliyyələşdirilən xidmətlərin strukturu cədvəl 9.1-də verilmişdir.

**Cədvəl 9.1**

**2016-cı ildə ölkələrin dövlət büdcəsindən maliyyələşdirilən xidmətlərin strukturu[1], faizlə**

| Ölkə | Dövlət idarəçiliyi | Müdafiə (hərbi) | Təhsil (elm) | Səhiyyə | Sosial təminat | Mədəniyyət | Sair xərclər |
|---|---|---|---|---|---|---|---|
| Rusiya | 2,39 | 16,3 | 3,6 | 1,8 | 7,3 | 0,5 | 1,6 |
| Belarus | 5,2 | 4,1 | 17,6 | 2,5 | 16,5 | 0,9 | 13,2 |
| Braziliya | 15,4 | 2,6 | 3,6 | 5,2 | 29,5 | 0,1 | 1,8 |
| İngiltərə | 7,6 | 9,9 | 3,3 | 14,0 | 26,6 | 0,5 | 1,0 |
| Macarıstan | 16,9 | 3,6 | 3,3 | 7,9 | 28,7 | 1,9 | 4,1 |
| Almaniya | 8,8 | 6,4 | 0,8 | 16,8 | 45,3 | 0,3 | 0,9 |
| İtaliya | 7,5 | 3,6 | 8,3 | 11,3 | 38,0 | 1,0 | 1,2 |
| Çin | 11,4 | 19,0 | 2,9 | 0,4 | 0,1 | 0,6 | 7,1 |
| Lüksemburq | 10,6 | 1,5 | 8,6 | 2,9 | 50,8 | 1,3 | 1,6 |
| ABŞ | 9,4 | 5,7 | 7,0 | 15,6 | 45,0 | 0,5 | 0,4 |
| İsveç | 4,7 | 5,5 | 5,0 | 10,3 | 48,2 | 0,7 | 0,7 |
| Yaponiya | 3,6 | 4,1 | 6,0 | 1,6 | 36,8 | 0,2 | 1,1 |

[1] CIA – The World Factbook – Field Listing: Budget

9.1-ci cədvəldən göründüyü kimi dünyada Lüksemburq, İsveç, Almaniya, ABŞ kimi ölkələr büdcəsi sosial yönümlü, Çin, Rusiya kimi ölkələr büdcəsi müdafiə (hərbi) yönümlü ölkələr hesab edilir. Azərbaycan Respublikasının son dövrlərdəki dövlət büdcələri sosial yönümlü büdcələr sırasına daxil edilir.

Həmin il (2016) ölkələrin dövlət büdcəsində təhsilə daha çox vəsait ayıran Belarus (17,6 faiz), Lüksemburq (8,6 faiz), İtaliya (8,3 faiz), ABŞ (7,0 faiz) və Yaponiya (6,0 faiz), səhiyyəyə daha çox vəsair ayıran Almaniya (16,8 faiz), ABŞ (15,6 faiz), İngiltərə (14,0 faiz) və İsveç (10,3 faiz), sosial təminata daha çox vəsait ayıran Lüksemburq (50,8 faiz), İsveç (48,2 faiz), Almaniya (45,3 faiz) və ABŞ (45,0 faiz) olmuşdur.

Dünya xidmətlər bazarında əsas güc və fəaliyyət özəl sektorun, Transmilli Şirkətlərin, beynəlxalq maliyyə təşkilatlarının, xidmət sektorunda fəaliyyət göstərən təşkilat və firmaların, hətta fiziki şəxslərin üzərinə düşür. Öz xidmət dairəsinə, əldə etdiyi gəlirlərə, vergi ödəmələrinə və s. göstəricilərinə görə bu sektor böyük rol oynamış olsa da, ayrı-ayrı ölkələrdə xidmət sektorunun səciyyəvi sahələri dövlət büdcəsinin xərcləri hesabına təmin edilir. Bu elə xidmət sahələridir ki, onlar özəl sektor tərəfindən təşkil edilə bilməz və ya dövlət tərəfindən təşkil edilməsi zəruri olan xidmət sahələridir (Məsələn, dövlət idarəçiliyi, müdafiə, sosial təminat, səhiyyə, təhsil və s.).

Ölkələrin xidmət sahəsinə dövlət büdcələrindən ayırdığı xərclərin strukturu idarəçilik sistemindən, ölkənin iqtisadi sistemi və iqtisadi modelindən asılı olaraq müxtəlifdir (cədvəl 9.1.) Bu xərclər dünya xidmətlər bazarından fərqli olaraq daxili və milli xidmətlər bazarını əhatə edir, beynəlxalq sazişlərlə yox, milli qanunvericilik sənədləri əsasında təşkil edilir. Lakin daxili və milli xidmətlər yenə də beynəlxalq xidmətlərə qoşulur.

Dövlət büdcəsindən xidmət sektoruna ayrılan xərclərin həcminə görə də ölkənin dövlət büdcəsinin yönümlüyü müəyyən edilir. Sosial sferaya daha çox vəsait ayıran ölkələrin büdcəsi sosial yönümlü, müdafiə (hərbi) sferasına daha çox vəsait ayıran ölkələrin büdcəsi müdafiə yönümlü dövlət büdcəsi və s. hesab edilir.

## 4. BİZNES (KOMMERSİYA) XİDMƏTLƏRİNİN MÜASİR VƏZİYYƏTİ

Sahə xidmətlərində dövlət orqanları tərəfindən göstərilən xidmətlər ikili xarakter daşıyır. Əksər sahə xidmətləri dövlətin müvafiq struktur orqanları tərəfindən göstərilir.

Ödənişsiz (pulsuz) xidmət yoxdur. Dövlət xidmətləri dövlətin büdcəsindən ayrılmış vəsait hesabına, biznes xidmətləri isə əvəzi və haqqı istehlakçı tərəfindən ödənilməklə özəl müəssisələr, firmalar və şirkətlər tərəfindən yerinə yetirilir. Məsələn, özəl nəqliyyat, tibb, təhsil və s. firmaların və şirkətlərin göstərdikləri xidmətlər.

Bunların hər birinin fəaliyyəti müvafiq icra hakimiyyəti orqanları tərəfindən bazar iqtisadiyyatının tələblərinə uyğun tənzimlənir, ödənişli, kommersiya və biznes xidmətləri kimi hesablanır.

Əgər dövlət xidmətləri ölkələrin büdcəsindən ayrılan vəsait hesabına göstərilirsə, biznes xidmətləri gəlir əldə etmək məqsədilə biznes və kommersiya firmaları, şirkətləri və fizki şəxslər tərəfindən istehsal edilən, hazırlanan, fizki və hüquqi şəxslərə göstərilən xidmətlərdir.

Fiziki şəxslərin göstərikləri xidmətlər (dərzi, bərbər, dülgər və s.) köhnə xidmətlərdirsə, ildən-ilə yeni xidmət sferaları, növləri yaranır və göstərilir. Bu xidmət qrupları və xidmət növləri daha çoxdur, bir-birindən mülkiyyət münasibətləri, göstərilmə mexanizmi və xüsusiyyətlərinə görə fərqlənirlər.

Son 40-50 il ərzində dünya ölkələrində sürətlə artan və genişlənən bəzi xidmət sferaları haqqında bəzi məlumatlar bu mövzuda verilir. Dünyada ən sürətlə inkişaf edən bank, sığorta, reklam, peyk və s. xidmətlərdir. Hər birinin də əsas məqsədi dövlətin və özlərinin gəlirlərinin artırılmasıdır.

Bank xidmətləri maliyyə xidmətlərinin tərkib hissəsi olmaqla, əhaliyə və firmalara xidmət göstərməklə gəlir əldə edən ən geniş xidmət növlərindən biridir. Dünyanın nəhəng 10 bankı haqqında bəzi məlumatlar 9.2-ci cədvəldə verilmişdir.

**Cədvəl 9.2**

**2019-cu ildə dünyanın nəhəng "Top – 10" bankı[1]**

| № | Bankın ad | Ölkə | Nə vaxt yaranıb | Aktivləri, mlrd dollar | İşçilərin sayı, min nəfər |
|---|---|---|---|---|---|
| **1.** | Industrial and Commercial Bank of China (ICBC) | Çin, Pekin | 1984 | 4009 | 460 |
| **2.** | China Construction Bank Corporation | Çin | 1954 | 3400 | 372 |
| **3.** | Agriculture Bank of Chine | Çin, Pekin | 1951 | 3235 | 387 |
| **4.** | Bank of China LTD | Çin | 1912 | 2991 | 328 |
| **5.** | Mitsubishi UFJ Financial Group | Yaponiya, Osako | 2005 | 2780 | 310 |
| **6.** | JP Morgan Chase | ABŞ, Nyu-York | 2000 | 2533 | 290 |
| **7.** | HSBC Holdings plc | İngiltərə, London | 2004 | 2520 | 170 |
| **8.** | BNP Paribas | Fransa, Cenevrə, Paris, London | 1990 | 2357 | 165 |
| **9.** | Bank of Amerika (BOA) | ABŞ, Şimali Karolina, Şarlott | 1998 | 2281 | 215 |
| **10.** | Credit Agrikole | Fransa | 2012 | 2117 | 190 |

**Aktivlərinə görə ölkə banklarının sayı – "Top-100"lük**

- Avropa İttifaqı – 36
- Çin – 18
- ABŞ – 12
- Yaponiya – 8
- Fransa – 6
- Böyük Britaniya – 6
- Kanada – 6
- Almaniya – 5
- İspaniya –5
- Avstraliya – 4
- Braziliya – 4
- C. Koreya – 4
- İsveç – 4
- İtaliya – 3
- Niderland – 3
- Sinqapur – 3
- Belçika – 2
- İsveçrə – 2
- Rusiya – 1
- Hindistan – 1
- Tayland -1 və s.

[1] ru.fxssi.com/top-20-крипнейших банков мира

**Cədvəl 9.3**

**Dünyanın nəhəng sığorta kompaniyaları**[1]

| № | Sığorta kampaniyaları | 2018, daxilolma, mlrd dollar | Ölkə | Sığorta növü - ixtisaslaşması |
|---|---|---|---|---|
| 1. | Berkshire Hathaway | 210,8 | ABŞ | Əmlak |
| 2. | AXA | 129,2 | Fransa | Həyat/Sağlamlıq |
| 3. | Allianz | 122,7 | Almaniya | Əmlak |
| 4. | Japan Post Holdings | 118,7 | Yaponiya | Həyat/Sağlamlıq |
| 5. | Pinq an Insurance | 110,3 | Çin | Həyat/Sağlamlıq |
| 6. | Assicuzazioni Generali | 102,5 | İtaliya | Həyat/Sağlamlıq |
| 7. | China Life | 101,2 | Çin | Həyat/Sağlamlıq |
| 8. | State Farm Insurance Cos | 75,7 | ABŞ | Əmlak |
| 9. | Metlife | 69,9 | ABŞ | Həyat/Sağlamlıq |
| 10. | Munich Re Group | 69,4 | Almaniya | Əmlak |

**Cədvəl 9.4**

**"Warc 100" nüfuzlu analitik platformasının versiyasına görə 2015-ci ildə dünyanın 50 ən effektiv reklamedicilərі və brendləri**[2]

| № | Reklam kampaniyaları | Balı | Brend (ən effektiv) |
|---|---|---|---|
| 1. | Procter&Camble | 594 | Coca-Cola |
| 2. | Unilever | 477 | McDonald's |
| 3. | The Coca-Cola Company | 455 | OPSM |
| 4. | Heineken | 294 | IKEA |
| 5. | Peps Co | 231 | Always |
| 6. | McDonald's | 208 | Heineken |
| 7. | Wolkswagen Group | 207 | Vodafone |
| 8. | Mondelez International | 194 | Volvo |
| 9. | Tata Group | 178 | Wolkswagen |
| 10. | Lixottika | 151 | Pantene |
| 20. | Volvo Group | 104 | Intermarche |
| 30. | IBM | 78 | BMW |
| 40. | BMW | 66 | Whisper |
| 50. | SPC | 54 | United Nations |

9.2-ci cədvəldən görünür ki, dünyanın "Top-10" bankları arasında aktivlərinə görə 10 bankından 4-ü Çin, 2-si ABŞ, 2-si Fransa banklarıdır. Bu da onu göstərir ki, bu banklar dünyada firmalara, şirkətlərə və əhaliyə ən çox xidmət göstərən və gəlir əldə edən banklardır.

Müasir dövrdə xidmət sektorunda fəaliyyəti ildən-ilə artan və genişlənən sığorta xidmətləridir. Dünyanın 10 nəhəng sığorta kompaniyasından 3-ü ABŞ-a və 2-si Almaniyaya məxsusdur. Onların gücü illik sığorta daxil olmaları ilə hesablanır. 2018-ci ildə bu göstərici üzrə ABŞ-ın "Berkshire Hathaway" sığorta kompaniyası lider olmuşdur. Dünya üzrə əsas sığorta növü həyat (sağlamlıq) və əmlak sığortası xidmətləridir (Cədvəl 9.3-ə bax).

Dünyada reklam xidmətləri bir çox əlamətlər üzrə qiymətləndirilir. Bunlardan biri reklamedicilik səviyyəsidir və analitik platformalar balları ilə hesablanır. 2015-ci ildə dünyanın ən güclü reklamedici kompaniyalarının birinci 50-liyində birinci üçlüyə – "Procter&Camble", "Unilever" və "The Coca-Cola Company" daxil olmuşdur. Bu kompaniyaların hər biri özünün ən effektiv brendləri ilə tanınır (cədvəl 9.4-ə bax).

---

[1] Insurance information institute
[2] https://www.sostav.ru/publication/50

Beynəlxalq informasiya xidməti informasiya məhsullarının ötürülməsi və alınması, sərhədlər üzərindən informasiya xidmətlərinin göstərilməsidir. Qlobal informasiya şəbəkəsi olan internet informasiya xidmətlərinin ən sürətlə inkişaf edən və çox-çox gəlir gətirən sahəsidir. Reklam xidmətinin dünya meydanıdır. Beynəlxalq turizm xidməti dünyaya açılan pəncərədir və s.

Bu xidmətlərin hər biri ətraflı öyrənilməli və təhlil edilməlidir.

**Telekommunikasiya – peyk xidmətləri**

Bu xidmətlər dünyanın az saylı İnkişaf Etmiş Ölkələrində mövcuddur, böyük maliyyə vəsaiti və elmi-texniki inkişafla bağlıdır.

Azərbaycanın 2020-ci ildə 3 peyki fəaliyyət göstərir. İlk peyk "Azerspace – 1" 8 fevral 2013-cü ildə, ikinci peyk "Azesky" 2014-cü ilin dekabrından, üçüncü peyk – "Azerspace – 2" 26 sentyabr 2018-ci ildə orbitə buraxılmışdır.

Azərbaycanın peyk xidmətlərindən əsasən MDB regionu, Avropa, Afrika, Orta və Yaxın Şərq və Asiya regionlarında istifadə edilir. Müştərilərə 4 dildə - azərbaycan, rus, ingilis və türk dillərində 24/7 rejimdə fasiləsiz xidmət göstərilir. Azərbaycanın dünyanın üçdə bir hissəsini əhatə edən telekommunikasiya peykləri vardır. Azərbaycan Qafqazın ilk peyk operatoruna malik olan ölkəsidir. "Azerspace – 1" peyki üzərindən 100-ə yaxın televiziya və radio kanalı yayımlanır. Peyk xidməti "Azərkosmos" tərəfindən göstərilir. Bu xidmətdən Azərbaycan hər il 100 milyonlarla dollar gəlir əldə edir.

## 5. DÜNYA XİDMƏTLƏR BAZARININ TƏRKİBİ

Xidmətlər dünya iqtisadiyyatının sahə strukturunun 3-cü sektorudur. Göstərildiyi kimi istehsal yönümlü xidmətlərə (xidmət sənayesinə) və sosial yönümlü xidmətlərə bölünməklə, dövlət tərəfindən və firmalar, şirkətlər və fiziki şəxslərin göstərdikləri xidmətlərə bölünür. Buradan da xidmətlərin sənaye və ya xidmətlər sektorlarına daxil olma əlamətləri müəyyən edilir.

Nəzəri təsnifatlarda və beynəlxalq təşkilatların hesabatlarında xidmətlərin sənaye(istehsal) və ya xidmət sektoruna daxil edilməsi meyarları verilir. Ölkələrin tədiyyə (ödəniş) balanslarının əmtəə və xidmətlər hissəsinin xidmətlər yarım hissəsində ölkə xidmətlərinin vəziyyəti dəqiq verilir. Göstərilən səbəblərə görə dünya ölkələrində xidmətlər istehsalı və dünya xidmətlər bazarı kimi təqdim edilir.

Dünya xidmətlər bazarı daha geniş anlayışdır. Dünya xidmətlər istehsalı dünya xidmətlər bazarının tərkib hissəsidir və daha geniş əhatə dairəsinə malikdir. Dünya xidmətlər bazarı dünya bazarında xidmətlərin alqı-satqısının məcmusudur. Tərkibi 9.3-cü sxemdə verilmişdir.

9.3-cü sxemdə olduğu kimi xidmətlər bazarında xidmətlərin növləri bazarlar üzrə qruplaşdırılır. Hər birinin tərkibində çoxsaylı xidmət növləri vardır. Məsələn biznes xidmətlərinə gəlir əldə etmək məqsədilə göstərilən – ticarət, iaşə, hotelçilik, reklam və s. xidmətlər, maliyyə xidmətlərinə bank, sığorta, audit və s. xidmətlər daxil edilir. Dövlət və gömrük xidmətlərinin səciyyəvi xüsusiyyətləri daha çoxdur.

Dünya ölkələrində xidmət məsələləri ilə Ümumdünya İqtisadi Forumu (ÜİF) – Davos forumu və digər qrumlar hesabtlar yazırlayır.

**Sxem 9.3**




## Davos İqtisadi Forumu (DİF)

1970-ci ildə Cenevrə Universitetinin professoru Klaus Şvab Avropa dövlətləri rəhbərlərinin toplanması təşəbbüsünü irəli sürmüş, 1971-ci ilin yanvarında ilk dəfə Davos İqtisadi Forumu keçirilmişdir. 1987-ci ildə bu qurum ÜİF-ə çevrilmişdir. 1988-ci ildə baş mənzil-qərargahı Davosdan Cenevrəyə köçürülmüşdür. Lakin forumlar Davosda keçirilir. Hər ilin yanvar ayında Davos forumu keçirilir. Ümumdünya İqtisadi Forumu (ÜİF) hər il "Qlobal Rəqabətqabiliyyətlilik haqqında Hesabat" hazırlayır və məruzə edir. Birinci məruzə 1979-cu ildə edilmişdir və ardıcıl davam etdirilir.

Dünya xidmətlər bazarının hər biri haqqında beynəlxalq maliyyə təşkilatları mütəmadi olaraq hesabatlar verirlər. Dünya bankının "Doing Business – 2019-cu il" hesabatında 190 ölkə verilmişdir. Azərbaycan 190 ölkə sırasında 25-ci olmaqla, əvvəlki ilə görə 32 pillə irəliləmiş və 57-ci pillədə olmuşdur. O cümlədən:

- Biznesə başlamaq üzrə 18-dən 9-cu;
- Tikinti üzrə icazələrin alınmasına görə 161-dən 61-ci;
- Elektrik təchizatı şəbəkəsinə qoşulmaya görə 102-dən 74-cü;
- Əmlakın qeydiyyatı üzrə 21-dən 17-ci;
- Kreditlərin alınmasına görə 122-dən 22-ci;
- Kiçik investorların maraqlarının qorunmasına görə 10-dan 2-ci;
- Vergilərin ödənilməsi üzrə 35-dən 28-ci;
- Müflisləşmənin həddinə görə 47-dən 45-ci yerə qalxmışdır.

Bu hesabatlar daim verilir və dünya ölkələrinin mövqeyi qiymətləndirilir.

Xidmətlər bazarının da daxil olduğu dünya bazarı bu fənnin 12-ci mövzusu olan "Dünya bazarı" mövzusunda ətraflı öyrənilir.

# MÖVZU 10. DÜNYA İQTİSADİYYATINDA NƏQLİYYAT VƏ KOMMUNİKASİYA SİSTEMLƏRİ

## SUALLAR

1. Dünya iqtisadiyyatında nəqliyyatın yeri və rolu.
2. Dünya nəqliyyat sistemi.
3. Dünya ölkələrində nəqliyyatın müasir vəziyyəti.
4. Qlobal nəqliyyat dəhlizləri və nəqliyyat marşrutları.
5. Dünya iqtisadiyyatında beynəlxalq kanallar və Azərbaycanın dünya okeanına çıxışı.
6. Dünya iqtisadiyyatında kommunikasiya sistemləri.

## Əsas ədəbiyyat


1. Lomakin V.K. Dünya iqtisadiyyatı. Bakı, 2015, səh. 121-133.
2. Məmmədov Z.S. XXI əsr: İqtisadi inkişafın nəqliyyat faktoru. Bakı, 2002.
3. İmanov T.İ. Logistikanın əsasları. II hissə, Bakı, 2005, səh. 339-468.
4. Məmmədov T.C., Məmmədov M.Q., Ələkbərov Ə.Ə.. Ərzaq malları ticarətinin təşkili. Ali məktəblər üçün dərslik. “Maarif” nəşriyyatı, Bakı, 1991, səh. 335-366.
5. Meydan Sinan. ATATÜRK ve kayıp kıta MU. İstanbul, 2014.
6. Экономика и организация внешнеторговых перевозок. Учебник. Под. ред. К.В.Холопова. М., 2000.
7. Зимовец А.В. Международные транспортные операции. Таганрог. Изд. ТИЗ. Э., 2008.
8. Beynəlxalq Dəmir Yolları İttifaqının hesabatları.
9. Beynəlxalq Avtomobil Nəqliyyatı İttifaqının hesabatları.
10. Beynəlxalq Dəniz Təşkilatının hesabatları.
11. Beynəlxalq Mülki Aviasiya Təşkilatının hesabatları.
12. Ümumdünya Poçt İttifaqının hesabatları.
13. Beynəlxalq Elektrik Rabitə İttifaqının hesabatları.
14. TRASEKA-nın hesabatları.
15. Nəqliyyat növləri və yükdaşımalar üzrə QHT-lərin icmalları (120-dən çoxdur).
16. İnformasiya-Kommunikasiya Texnologiyaları sahəsində hüquqi aktlar.

Təyyarələrin havadakı hərəkətini göstərən saytlar:

1. Flightradar 24;
2. ISTSTATUS.com.


## 1. DÜNYA İQTİSADİYYATINDA NƏQLİYYATIN YERİ VƏ ROLU

Nəqliyyat maddi istehsalın xüsusi sferasıdır. Sənaye və kənd təsərrüfatından fərqi budur ki, istehsal prosesində yeni məhsul yaratmır, onun fiziki və kimyəvi xassələrini və keyfiyyətini dəyişmir. Nəqliyyatın məhsulu müəyyən məkanda yükləri, insanları hərəkət etdirir və onların yerini dəyişir.

Nəqliyyat çoxcəhətli formada məhsuldar qüvvələr və istehsal münasibətlərinin vacib sahəsi olmaqla, dünya iqtisadiyyatının başlıca tərkib hissəsindən biri kimi sahələr arasında əlaqələndirici arteriya rolunu oynayır. Bu əlaqələrin bağlılığı və yaxud tamlığı olmadan hər hansı ərazi, respublika, iqtisadi rayon daxilində mövcud sərvətlərin istismara cəlb olunması, istehsal sahələrinin ərazi üzrə səmərəli təşkili, yüklərin və sərnişin daşımalarının tələbata müvafiq şəkildə həyata keçirilməsi mümkün deyildir.

Nəqliyyat – maddi istehsalın davamı sahəsi olmaqla beynəlxalq əmək bölgüsünün maddi əsasını təşkil edir, istehsalın yerləşməsinə, ixtisaslaşması və kooperasiyasının, inteqrasiya proseslərinin və dünya təsərrüfat əlaqələri sisteminin inkişafına birbaşa təsir edir.

Nəqliyyat – dünya təsərrüfatının əlaqələndiricisi, birləşdiricisi və bağlayıcısıdır.

Nəqliyyat – dünya təsərrüfatının istehsal infrastrukturunun davamıdır.

Nəqliyyatı dünya iqtisadiyyatının barometri adlandırırlar. Dünya nəqliyyatında 100 mln nəfərdən çox adam çalışır. Dünyanın nəqliyyat şəbəkəsinin ümumi uzunluğu 70 mln km-dən çoxdur. Hazırda dünyanın bütün nəqliyyatı il ərzində yanacağın 20-25 faizini istehlak edir. Ümumi istehlakda avtonəqliyyatın payı 83 faiz, aviasiyanın payı 13 faizdir.

Nəqliyyat olmadan iqtisadi sektorlar öz funksiyalarını yerinə yetirə bilməz. Əmtəələrin istehsalına və ticarətinə yönələn bu iqtisadi prosesi məhz nəqliyyat başa çatdırır. Nəqliyyat vasitəsilə əmtəələr (mal, məhsul, xammal) öz istehlakçılarına (istehsal və şəxsi istehlaka) və ya alıcılarına çatdırılır. Bu əlamətinə görə iqtisadiyyatın infrastruktur, yük və sərnişin daşımalarını həyata keçirdiyi üçün nəqliyyat xidmət sahəsidir. Beləliklə, nəqliyyat tədavül dairəsində istehsal prosesinin davamıdır.

K. Marks göstərir ki, nəqliyyat "... tədavül prosesi çərçivəsi daxilində və tədavül prosesi üçün istehsal prosesinin davamıdır"[1]. Tədavül isə geniş təkrar istehsalın üçüncü mərhələsidir.

K. Marks yazır ki, "Məhsulların bir istehsal yerindən başqasına daşınmasının ardınca, hazır məhsulların istehsal dairəsindən istehlak dairəsinə daşınması gəlir. Məhsul ancaq o zaman istehlak üçün hazır olur ki, bu yerdəyişməni başa vurmuş olsun"[2]. Bütün yerdəyişmələri yerinə yetirən də nəqliyyatdır, onun ayrı-ayrı növləridir.

Mal, material, əmək, maliyyə, nəqliyyat və informasiya axınlarının hərəkəti proseslərinin məcmusuna logistika deyilir. Müasir dövrdə logistikanın istehsal, tədarük, bölüşdürücü, nəqliyyat, anbar, tara, informasiya və s. istiqamətləri vardır.

Səmərəli logistika əmtəələrin hərəkəti və ya mal yeridilişinə sərf edilən vaxtın 30-40 faiz azaldılmasına imkan verir. Mal yeridilişi prosesinin dartıcı qüvvəsi isə nəqliyyatdır. Müxtəlif mənalarda logistika hətta orta əsrlərdə işlədilsə də, mülki sahədə 1950-ci illərin əvvəllərindən ilk dəfə ABŞ-da istifadə edilməyə başlanmış, həmin əsrin 70-ci illərində inkişaf etmiş dünya ölkələrində geniş istifadə edilməyə başlanmışdır. "Logistika" termini fransız, yunan, rus və s. dillərdə bir-birinə yaxın mənalarda işlədilsə də, hamısı üçün eyni mənaya malik olan "təchiz etmək", "yerləşmək" və "hərəkət etdirmək" kimi başa düşülür və qəbul edilir. Logistikanın mənbəyi mal və material, təşkilatçısı əmək və maliyyə, hərəkətvericisi nəqliyyat, əlaqələndiricisi isə informasiya axınlarıdır. Logistika nəqliyyat daşımalarının dəyərini və vaxtını azaltmaqla yanaşı, istehsal xərclərini də aşağı salır.

İqtisadi əlaqələrin formalaşması nəqliyyatla sıx bağlı olub, bir-birilə qarşılıqlı əlaqədə inkişaf edir. Nəqliyyat birləşdirici, iqtisadi əlaqələr isə bağlayıcı rolunu oynayır və bir-birilə qarşılıqlı vəhdət təşkil edir. İqtisadi əlaqələr nəqliyyat coğrafiyasının ikinci tərəfi olub, istehsalın çoxsahəli inkişafı və ixtisaslaşması, təbii ehtiyatların zənginliyi və onların istehsalına şərait yaradan insan cəmiyyəti ilə sıx şəkildə bağlıdır. İqtisadi əlaqələr vasitəsilə insanlar münasibətə girir və özlərinin maddi ehtiyatları olmadıqları halda daxili ehtiyaclarını ödəmək imkanlarına nail olurlar.

Tarixi baxımdan hərəkət vasitəsi kimi uzun illər əsasən ev heyvanlarından, xüsusilə at və dəvəvlərdən istifadə olunmuşdur. Böyük İpək Yolunun nəqliyyat vasitəsi dəvələr olmuşdur. XIX əsrin əvvəllərindən başlayaraq elmi-texniki tərəqqi nəticəsində mexaniki nəqliyyat vasitələri yaranmağa başlamışdır.

Dünyada ilk dəmiryolu 1825-ci ildə Böyük Britaniyada çəkilmişdir. Dünyada motoru parla işləyən ilk iki dəmiryolu xətti 1830-cu ildə İngiltərədə Liverpul-Mançester, ABŞ-da isə

[1] K.Marks. "Kapital" , II cild, Azərnəşr, Bakı, 1956, səh. 151.
[2] K.Marks. "Kapital" , II cild, Azərnəşr, Bakı, 1956, səh. 149.

Çarliston – Oqasta arasında açılmışdır. 1833-cü ildə Fransada, 1835-ci ildə Almaniya və Belçikada, 1837-ci ildə Rusiyada Peterburq – Çarskoye Selo (26 km) arasında açılmışdır.

Sonrakı dövrlərdə bir-birinin ardınca yeni-yeni nəqliyyat vasitələri yaradılmış, tarixi baxımdan qısa bir dövrdə dünyada nəqliyyat növləri formalaşmış, yük və sərnişin daşımaları aparılmışdır. Son 110 il dünya nəqliyyat tarixinin ən sürətli inişaf dövrü olmaqla dünya ölkələrini və ərazilərini birləşdirmiş, yaxınlaşdırmış və dünya təsərrüfat əlaqələri sisteminin yaranmasına səbəb olmuşdur.

Dünyada müxtəlif nəqliyyat növlərinin yaranması, inkişafı, genişlənməsi və dünya ölkələri arasında yük və sərnişin daşımaları haqqında ətraflı materiallar hazırlayan, toplayan, təhlil edən, tövsiyələr hazırlayan aşağıdakı beynəlxalq təşkilatlardır:

**1. Beynəlxalq Dəmir Yolları İttifaqı:**

1922-ci ildə yaradılıb, Parisdə yerləşir, 100 ölkədən 200-dən çox milli dəmiryolu kompaniyası bu təşkilatın üzvüdür.

**2. Beynəlxalq Avtomobil Nəqliyyatı İttufaqı:**

1948-ci ildə yaradılıb, Cenevrədə yerləşir, 180 üzvü var.

**3. Beynəlxalq Dəniz Təşkilatı:**

1958-ci ildə yaradılıb, Londonda yerləşir, 150 üzvü var.

**4. Beynəlxalq Mülki Aviasiya Təşkilatı:**

1944-cü ildə yaradılıb, Monrealda (Kanada) yerləşir, 185 üzvü var.

**5. Ümumdünya Poçt İttifaqı:**

1874-cü ildə yaradılıb, Berndə yerləşir, 195 üzvü var. Dünyada yaradılan ilk beynəlxalq təşkilatdır.

**6. Beynəlxalq Elektrik Rabitə İttifaqı:**

1932-ci ildə yaradılıb, Cenevrədə yerləşir, 193 üzvü var. 1865-ci ildə yaradılmış Beynəlxalq Telekommunikasiya İttifaqının varsidir.

**7. TRASEKA proqramı:**

1993-cü ildə Brüsseldə yaradılıb, Azərbaycanda – Bakıda yerləşir və s.

## 2. DÜNYA NƏQLİYYAT SİSTEMİ

Nəqliyyat maddi istehsalın 3-cü sahəsidir. Latın sözü olub "yerdəyişmə" mənasını verir. Dünya təsərrüfatının "qan damarı" adlandırılır. Dünya isə böyük və yumurudur. Yer kürəsinin ekvator dairəsinin radiusu – orta kəməri 40 min km-dir. Qitələr arasında su (dəniz) və hava nəqliyyatı, qitələr daxilində bütün nəqliyyat növləri hərəkət edir, yük və sərnişin daşımalarını yerinə yetirilir.

Bütün dünya ölkələrinin və bütün nəqliyyat növlərinin və onlar arasında yaranan nəqliyyat münasibətlərinin məcmusuna dünya nəqliyyatı deyilir. Onların fəaliyyətinin əlaqələndirilmiş və birləşdirilmiş şəbəkəsinə dünya nəqliyyat sistemi deyilir. Dünya nəqliyyat sistemi 10.1-ci sxemdə verilmişdir.

**Sxem 10.1**



10.1-ci sxemdən görünür ki, dünya nəqliyyat sistemi öz tərkibində bir-birilə zəncirvarı bağlı dünya ölkələrində olan nəqliyyat yolları, müxtəlif texniki-iqtisadi göstəricilərə malik olan nəqliyyat vasitələrini, dövlət və özəl sektora mənsub olan nəqliyyat müəssisələrini, şirkətlərini və idarələrini əhatə edir. Onların hər biri ölkələr üzrə fərqlidir, müvafiq beynəlxalq təşkilatların və ölkələrin müvafiq nəqliyyat orqanlarının sənədlərində verilir.

Yük və sərnişin daşımalarında nəqliyyat vasitələrinin texniki xarakteristikası mühüm rol oynayır. Hər bir nəqliyyat vasitəsinin texniki xarakteristikası onun yük və sərnişin götürmə və daşıma imkanlarını göstərir. Dəmiryolu nəqliyyatında vaqonların, platformaların, sisternlərin, dəniz və çay nəqliyyatında yük və sərnişin götürmə qabiliyyəti, eni və uzunluğu, suya girmə hündürlüyü, temperatur rejimi, avtomobil nəqliyyatında markalarına görə texniki xarakteristikası, yük və sərnişin götürmə qabiliyyəti, temperatur rejimi, digər nəqliyyat vasitələrinin səciyyəvi texniki-iqtisadi göstəriciləri müəyyən edilir, ən səmərəli, ucuz və qısa daşımaları yerinə yetirən nəqliyyat vasitələri YUNSİTRAL-ın şərtlərinə uyğun seçilir.

Yükdaşımalarda unimodal (bir növlü), qarışıq (iki nəqliyyatlı), kombinələşdirilmiş (ikidən çox nəqliyyatla) və multimodal daşımaların seçilməsi böyük gəlir və zərər verə bilər. Bunun üçün nəqliyyat növlərinin seçilməsi bütün amillər üzrə təhlil edilməli, hesablanmalı və daşıma üçün seçilən nəqliyyat növləri qiymətləndirilməlidir.

Nəqliyyat növlərinin daha çox cəlbediciliyi ondan ibarətdir ki, onlar hər yerdə - yerdə, suda və havada hərəkət edir və bir-birinə kombinələşdirilə bilinirlər. Nəqliyyatın hərəkət yerinə görə növləri sxem 10.2-də verilmişdir.

10.2-ci sxemdən göründüyü kimi hərəkət yerinə görə nəqliyyatın dörd – quru, su, hava və elektron yolları vardır. Quru yolları olan avtomobil və boru kəməri yoluna relssiz nəqliyyat da deyilir. Hər bir yolun bir-birindən fərqli səciyyəvi xüsusiyyətləri, üstün və zəif cəhətləri vardır. Dərslərdə ölkələr üzrə bu məsələlər dərindən təhlil edilməlidir. Bu nəqliyyat növlərinin inkişafı ölkənin elmi-texniki inkişaf və sənayesinin inkişaf səviyyəsi ilə birbaşa bağlıdır. Sənaye cəhətdən inkişaf etmiş ölkələrdə yeni-yeni yollar çəkilir, nəqliyyat vasitələri buraxılır və istifadəyə verilir.

Nəqliyyat növlərinin yaranması, inkişafı və təkmilləşdirilməsi tarixi ayrıca bir mövzunun predmetidir. Çünki bu qısa dövrdə, son 150 ildə baş vermiş olsa da, sadə vasitələr kimi qədim dövrlərdən başlayıb. Əvvəllər qoşqu (dəvə, at və s.) nəqliyyatı, heyvanlarla yük və poçt daşımaları olub, indi az olsa da, yerli daşımalarda istifadə edilir.

**Sxem 10.2**




Dünya ölkələrində müxtəlif nəqliyyat növləri onların nəqliyyat komplekslərini əmələ gətirir.

İki növdən artıq nəqliyyat vasitəsilə daşımalara kombinələşdirilmiş daşımalar deyilir.

Vahid nəqliyyat sistemi kimi nəqliyyat iki alt sistemdən – ümumi istifadədə olan və ümumi istifadədə olmayan nəqliyyat sistemlərinə bölünür. Ümumi istifadədə olan nəqliyyat sistemi ölkənin milli iqtisadiyyatının müstəqil sahəsi olub, təsərrüfat sahələrinin və əhalinin

yük və sərnişin daşımalarına olan tələbatının ödənilməsinə xidmət edir. Buraya məxsus olan nəqliyyat vasitələri mübadilə sferasına və əhaliyə xidmət göstərir. Bu səciyyəvi əlamətinə görə onları, yəni dəmr yolu, su, avtomobil, hava və boru kəmər nəqliyyatlarını birlikdə **magistral nəqliyyat** adlandırırlar.

İstehsal prosesinin tərkibi olan, nəqliyyat müəssiələrinə mənsub olmayan istehsaldaxili nəqliyyat vasitələrinə ümumi istifadədə olmayan nəqliyyat sistemi deyilir.

Dünya ölkələrinin nəqliyyatının vəziyyəti nəqliyyat sisteminin əsas göstəriciləri ilə qiymərləndirilir. Dünya nəqliyyat sisteminin əsas göstəriciləri 10.1-ci cədvəldə verilmişdir.

**Cədvəl 10.1**

**Dünya nəqliyyat sisteminin əsas göstəriciləri**

| № | Əsas göstəriciləri | Xarakteristika |
|---|---|---|
| **1.** | Yük dövriyyəsi (t/km) | Daşınan yüklərin həcmi |
| **2.** | Sərnişin dövriyyəsi (sərnişin/km) | Daşınan sərnişinlərin sayı |
| **3.** | Nəqliyyat şəbəkəsinin sıxlığı (daş./km) | Daşınan yüklərin və sərnişinlərin yolun ümumi uzunluğuna nisbəti |
| **4.** | Yolların uzunluğu (km) | Nəqliyyat yollarının uzunluğu |
| **5.** | Kabotaj | Bir ölkənin limanları arasında gəmilərlə daşımalar |
| **6.** | Fraxt | Yük və sərnişinlərin daşınma haqqı |

10.1-ci cədvəldən görünür ki, ölkələrin nəqliyyat sistemlərinin məcmusu olan dünya nəqliyyat sisteminin əsas göstəriciləri yük dövriyyəsi, sərnişin dövriyyəsi, nəqliyyat şəbəkəsinin sıxlığı, yolların uzunluğu, bir ölkənin limanları arasında gəmilərlə daşımalar və fraxtdır.

Daşınan yüklərin t/km-lə həcminə yük dövriyyəsi, sərnişinlərin sərnişin/km-lə daşıma sayına sərnişin dövriyyəsi, daşınan yüklərin və sərnişinlərin yolun ümumi uzunluğuna nisbətinə nəqliyyat şəbəkəsinin sıxlığı, nəqliyyat yollarının uzunluğuna yolların ümumi uzunluğu, bir ölkənin limanları arasında gəmilərlə daşımalara kabotaj, yük və sərnişinlərin daşıma haqqının ödənilməsinə fraxt deyilir.

Bu məsələlər "INCOTERMS – 2020"-də verilir.

## 3. DÜNYA ÖLKƏLƏRİNDƏ NƏQLİYYATIN MÜASİR VƏZİYYƏTİ

Hazırda dünyada hər il 100 mlrd t yük və 1 trilyondan çox sərnişin daşınır. Yük daşımasında əsas rolu dəniz nəqliyyatı, sərnişin daşımalarında isə əsas rolu avtomobil nəqliyyatı oynayır.

Nəqliyyatın inkişaf səviyyəsinə təsir edən əsas amillər aşağıdakılardır:

1. Məhsuldar qüvvələrin inkişafı;
2. Ərazilərin ölçüləri və istifadə edilmə vəziyyəti;
3. Ərazinin coğrafi əmək bölgüsündə iştirakı (qoşulması) səviyyəsi və s.

Dünyanın quru əraziləri dünya ölkələri üzrə qeyri-bərabərdir. Ən böyük ərazili olan ölkələr (məsələn, Rusiya 17 mln km$^2$), orta ərazili ölkələr (Azərbaycan 86,6 min km$^2$) və kiçik ərazili (məsələn, Vatikan 0,44 km$^2$)müstəqil dövlətlər vardır. Səhra əraziləri (məsələn, Saxara 9 mln km$^2$), buzlaq və bataqlıq ərazilər vardır.

Dünyada nəqliyyat növlərinin bəzi göstəriciləri üzrə fərqlənən lider ölkələr və səciyyəvi regionlar aşağıda verilir:

- ❖ Dünya yük dövriyyəsində lider nəqliyyat – dəniz;
- ❖ Dünya sərnişin dövriyyəsində lider nəqliyyat – avtomobil;
- ❖ Nəqliyyat şəbəkəsinin sıxlığında dünyanın lider regionu – Avropa;
- ❖ Dünyada ən çox avtomobil parkı olan ölkə – ABŞ;

❖ Dünyada dəniz daşımaları üzrə lider ölkə – Panama;
❖ Gəmiçiliyin intensivliyi üzrə lider olan okean – Atlantik;
❖ Dəmiryolu üzrə ən çox yük dövriyyəsi olan ölkə – Rusiya;
❖ Avtomobil nəqliyyatı olmayan regionlar – Saxara, Şimali Kanada, Şimal-Şərqi Rusiya, Cənubi Amerikanın orta şimalı, Mərkəzi Avstraliya;
❖ Boru kəməri olmayan qitə – Afrika, Şərqi Asiya, Qərbi Avstraliya;
❖ Dəmiryolu olmayan regionlar – Mərkəzi və Şimali Afrika, Orta Çin, Cənubi Amerikanın Şimalı, Şimali Kanada və Qərbi Avstraliya;

Göründüyü kimi dünyada avtomobil nəqliyyatı, hətta dəmiryolu və boru kəməri olmayan regionlar vardır.

Nəqliyyat növlərinin ən çox istifadə edildiyi dünya regionları aşağıdakılardır:

**Avtomobil nəqliyyatı**

1) Qərbi Avropa;
2) Şərqi ABŞ;
3) Cənubi Amerikanın Cənub-Şərqi;
4) Şərqi Avropa;
5) Şərqi Avstraliya və s.

**Dəmiryolu nəqliyyatı**

1) Qərbi Avropa;
2) Şərqi Avropa;
3) Hindistan;
4) Şərqi Çin;
5) Cənubi Amerikanın cənubu və s.

**Boru kəmərləri**

1) Qərbi və Mərkəzi ABŞ;
2) Qərbi Asiya;
3) Mərkəzi Avropa;
4) Qərbi Avropa;
5) Mərkəzi Asiya və s.

Deməli, dünyada avtomobil nəqliyyatından ən çox Avropa və Amerikada, dəmiryolundan Avropa, Hindistan və Çində, boru kəmərindən Qərbi və Mərkəzi ABŞ, Qərbi Asiya və Avropada, hava nəqliyyatından ABŞ və Avropada (bax, flightradar24) istifadə edilir.

Dünya nəqliyyatından istifadə vəziyyətini nəqliyyat dövriyyəsinin strukturu əyani göstərir (cədvəl 10.2.).

10.2-ci cədvəldən görünür ki, dünyada yük dövriyyəsinə görə dəniz, sərnişin daşımasına görə 1-ci yerdə avtomobil nəqliyyatıdır.

**Cədvəl 10.2**

**2018-ci ildə dünya nəqliyyat dövriyyəsinin strukturu**[1]

| **№** | **Nəqliyyat növü** | **Yük dövriyyəsi, faizlə** | **Sərnişin dövriyyəsi, faizlə** |
|---|---|---|---|
| **1.** | Dəniz | 61 | 0,5 |
| **2.** | Dəmiryolu | 14 | 10 |
| **3.** | Boru kəməri | 12 | --- |
| **4.** | Avtomobil | 10 | 80 |
| **5.** | Çay | 3 | 0,5 |
| **6.** | Hava | --- | 9 |
| | **Cəmi:** | 100 | 100 |

[1] http://www.google.az/search=транспорт+мира

Dünya nəqliyyat şəbəkəsinin ümumi uzunluğu, dəniz xətləri istisna olmaqla 36 mln km-dir. Daşımalarda 650 mln-dan çox avtomobil, 40 mindən çox dəniz gəmiləri, 10 min reys təyyarəsi və 200 mindən artıq lokomotiv iştirak edir. Dünya təsərrüfat əlaqələrində ölkələrin nəqliyyat yollarının uzunluğu mühüm rol oynayır.

## Dəmiryolu

Dünyada dəmir yollarının uzunluğu 1,3 mln km-dir. 151 ölkədə dəmiryolu vardır[2]. 100 km-dən yuxarı dəmiryolu olan ölkələr 133-dür. Monakoda 2 km, Lesotoda 2 km, Laosda 4 km, Nauruda 5 km və Nikaraquada 6 km dəmiryolu vardır. Ölkələr üzrə 2018-ci ildə dəmir yollarının uzunluğu:

1) ABŞ – 257 min km;
2) Çin – 124 min km;
3) Rusiya – 85 min km;
4) Hindistan – 67 min km;
5) Kanada – 46 min km;
20) Qazaxıstan – 16 min km;
21) İran – 12 min km;
23) Türkiyə – 12 min km;
48) Türkmənistan – 3,5 min km;
56) Azərbaycan – 3,5 min km;
79) Gürcüstan – 1,5 min km;
81) Səudiyyə Ərəbistanı – 1,4 min km;
94) Ermənistan – 0,8 min km;
133) Surinam – 166 km.

## Avtomobil yolları

Dünyada avtomobil yollarının uzunluğu 64 mln km-dir. 221 ölkənin avtomobil yolları haqqında məlumat verilir[1].

100 km-dən yuxarı avtomobil yolu olan ölkələr 214-dür. Tuvaluda 8 km avtomobil yolu vardır.

Ölkələr üzrə 2018-ci ildə avtomobil yollarının uzunluğu:

1) ABŞ – 6,7 mln km;
2) Hindistan – 5,6 mln km;
3) Çin – 4,8 mln km;
4) Braziliya – 1,7 mln km;
5) Rusiya – 1,5 mln km;
19) Türkiyə – 236,6 min km;
28) İran – 172,9 min km;
52) Qazaxıstan – 91,5 min km;
72) Azərbaycan – 59,1 min km;
73) Türkmənistan – 58,5 min km;
109) Gürcüstan – 20,4 min km;
143) Ermənistan – 7,7 min km.

---

[2] Beynəlxalq Dəmir Yolları İttifaqının hesabtı, 2019
[1] ABŞ MKİ-nin "Ümumdünya faktlar kitabı", 2018

## Magistral boru kəmərləri

Magistral boru kəmərlərinin uzunluğu 3,2 mln km-dir. 125 ölkənin böru kəmərləri haqqında məlumat verilir[2].

100 km-dən artıq boru kəməri olan ölkələr 118-dir. Liberiyada 4 km, Lixteynşteyndə 20 km boru kəməri vardır.

**Cədvəl 10.3**

**Dünya ölkələrində boru kəmərlərinin uzunluğu (min km)**

| № | Ölkə | Bütün kəmərlər | Qaz kəmərləri | Neft kəmərləri | Neft məhsulları kəmərləri |
|---|---|---|---|---|---|
| **1.** | ABŞ | 2,225 | 1984 | --- | 240 |
| **2.** | Rusiya | 259 | 165 | 80 | 13 |
| **3.** | Kanada | 100 | 76 | --- | 24 |
| **4.** | Çin | 86 | 48 | 23 | 15 |
| **5.** | Ukrayna | 45 | 37 | 4 | 4 |
| **8.** | İran | 38 | 23 | 8 | 7 |
| **15.** | Qazaxıstan | 26 | 12 | 14 | 1 |
| **24.** | Türkiyə | 15 | 12 | 3 | --- |
| **35.** | Türkmənistan | 9 | 7 | 2 | --- |
| **43.** | **Azərbaycan** | 6 | 3 | 3 | --- |
| **63.** | Gürcüstan | 3 | 2 | 1 | --- |
| **67.** | Ermənistan | 2 | 2 | --- | --- |

Dünyada dəmir yollarının uzunluğu 10 min km-dən yuxarı olan 22 ölkə vardır. Ən uzun dəmiryolu olan ölkə ABŞ, 2-cü yerdə Rusiya, 23-cü yerdə Türkiyədir.

Dünya ölkələrində dəmir yollarının sürətli çəkilişi XX əsrin əvvəllərində olmuşdur. Hazırda dünyanın 160-a qədər ölkəsində dəmiryolu vardır.

Dünyanın 16 ölkəsində digər ölkələrlə dəmiryolu əlaqələri yoxdur. Məsələn, Avstraliya, İndoneziya, Surinam, MAR və s.

Dünyanın 42 ölkəsində hər hansı bir dəmiryolu xətti belə (tramvay, metro) yoxdur. Məsələn, Bəhreyn, İslandiya, Yəmən, Qətər, Kipr, Malta, Çad və s.

Dəmiryolu nəqliyyatı kütləvi və böyük həcmli yüklərin ilin istənilən vaxtında, hər hansı hava şəraitində, gecə və gündüz, fasiləsiz daşınmasını yerinə yetirir. Digər nəqliyyat növləri ilə müqayisədə ətraf mühitə az ziyan vurur və az enerji tələbatına malikdir.

Üstünlükləri - yüksək daşıma qabiliyyətlidir, kütləvi yük və sərnişin daşıma imkanı daha çoxdur, daşımanın maya dəyəri nisbətən aşağıdır, daşıma sürəti yüksəkdir, daşıma zamanı böyük manevr etmə imkanları vardır, bütün yüklər üçün universal nəqliyyat növüdür, çatışmazlığı – topoqrafik, hava və ekoloji şəraitə görə böyük kapital qoyuluşu tələb edir, xərcləri bir qədər yüksəkdir və hərəkət vaxtı çoxdur.

Dəniz və çay nəqliyyatı su yolu nəqliyyatı olduğu üçün beynəlxalq təşkilatların materiallarında bəzən su nəqliyyatı adı altında verilir. Dünya nəqliyyatının bütün növləri içərisində ən ucuz başa gələn dəniz nəqliyyatıdır. Ölkələrarası yükdaşımaların 65 faizə qədəri (hər il ərzində yükdaşımaların ümumi həcmi 4 mlrd t-dan çoxdur) onun payına düşür. Beynəlxalq ticarət yüklərinin 80%-ni bu nəqliyyat aparır. Dəniz yollarının ümumi uzunluğu milyonlarla kilometrlə - dəniz mili ilə ölçülür (1 dəniz mili 1852 m-dir). Dəniz gəmiləri ilə əsasən kütləvi yüklər – axan maye məhsullar (neft), naval, filiz, kömür, üfürülən və səpələnən məhsullar, taxıl, konteynerlər(hazır və yarımfabrikatlar) və s. daşınır. Bütün yer kürəsi

[2] ABŞ MKİ-nin "Ümumdünya faktlar kitabı", 2018

boyunca, dairəvi, qitələrdən – qitələrə daim tangerlər, paromlar, yük və sərnişin gəmiləri və s. üzür.

Dünyanın bütün dəniz donanmasının 40 faizini neft və neft məhsullarının beynəlxalq daşımalarını aparan tangerlər yerinə yetirir. Dünyanın nəhəng dəniz limanları – Sinqapur (yük dövriyyəsi 325 mln t), Hollandiyanın Rotterdam (320 mln t), ABŞ-ın Yeni Orlean (225 mln t), Çinin Şanxay (185 mln t), Syanqan (175 mln t), Yaponiyanın Tiba (170 mln t), Belçikanın Antverpen (130 mln t), ümumi yük dövriyyəsi 50-100 mln t arasında olan Almaniyanın Hamburq, İtaliyanın Genuya, Misirin İsgəndəriyyə, İranın Xark və s. limanlarıdır.

Dəniz nəqliyyatı xarici dövlət daşımalarına xidmət edir. Üstünlükləri – böyük yükgötürmə qabiliyyəti, daşıma uzaqlığı və aşağı maya dəyəri, çatışmazlığı – daşımanın mövsümiliyi, yalnız portlar arası daşıması və daşıma sürətinin aşağı olmasıdır.

Avtomobil nəqliyyatı dünyada XX əsrin nəqliyyatı hesab edilir. Bu əsrdə avtomobil nəqliyyatı yaranıb, təkmilləşdirilib və parlayıb. Hazırda dünya nəqliyyat şəbəkəsi uzunluğunun 70%-i onun payına düşür. Dünyada indi 0,8 mlrd-a qədər avtomobil vardır. Nəqliyyat növləri içərisində avtomobil nəqliyyatı dünyada sərnişin dövriyyəsinə görə birinci (80%), yük dövriyyəsinə görə dördüncü yerdədir (8%). Yeganə nəqliyyat növüdür ki, yük və sərnişinləri "qapıdan qapıya" apara bilir. Son 60-70 il ərzində dünyada avtomobil yollarının uzunluğu 3 dəfədən çox artıb.

Avtomobil nəqliyyatı ən geniş yayılmış, sərbəst və digər nəqliyyatlara köməkçi, tamamlayıcı nəqliyyat növüdür. Bütün istiqamətlərdə hərəkət edə bilir, dəniz və çaylardan bərələrlə keçə bilir, elastikdir.

Üstünlükləri – böyük manevretmə imkanları vardır, yükləmə yerindən alıcının anbarına qədər gedə bilir, sürəti yüksəkdir, sərnişin daşımalarında da effektivdir, çatışmazlığı – daşımanın maya dəyərinin yüksək olması və yük götürmə qabiliyyətinin aşağı olmasıdır.

Boru kəməri nəqliyyatı tamamilə qeyri-adidir. Onun nəqliyyat vasitələri yoxdur, özü hərəkət etmir, hərəkət edən kəmər daxilindəki məhsuldur (maye məhsullar, neft, qaz, su və s.). Dünya ölkələrinin neft kəmərləri ötürmə çeşidinə görə - xam neft, neft məhsulları və təbii qaz kəmərlərinə bölünürlər. Çəkilməsi böyük vəsait, vaxt və mühafizə tələb edir, lakin uzun müddət (70-80 il və daha çox) istismar edilir. Dəmiryolu və bəzi yerlərdə su nəqliyyatından da ucuz başa gəlir. Boru kəməri ilə hasil edilən neftin 95 faizi hərəkət edir.

Üstünlüyü – hasilat yerindən istehlakçı məntəqəsinə qədər istənilən diametrdə, materialda boru qoyula bilir, daşınmanın maya dəyəri aşağıdır, daşınma zamanı itkilərin minimum olması, çatışmazlığı – yalnız maye və ya qaz halında yükləri daşıya bilir.

Dünyada enerji daşıyıcılarına olan tələbin ildən-ilə daha da artması boru kəməri ilə neft, neft məhsulları və qazın daşınmasını həyata keçirən bu kəmərlərin daha çox çəkilişinə səbəb olmuşdur. Digər nəqliyyat növlərindən fərqli olaraq bu nəqliyyat növündən dünyanın 100-ə qədər ölkəsi istifadə edir. ABŞ və Kanada kimi nəhəng ölkələrdə xam neft kəmərləri yoxdur.

**Hava nəqliyyatı**

Təyyarə uçuşu ilk dəfə 1903-cü ildə olub. "Flayer" 59 saniyə havada qalıb, 260 metr uçub (ABŞ-da, Rayt qardaşları). ABŞ-da dünya hava nəqliyyatı sərnişinlərinin 50 faizi daşınır. Sonrakı yerlərdə Rusiya, Yaponiya, Kanada, Böyük Britaniya, Fransa və Almaniya durur.

Dünyada 43794 aeroport vardır ki, onların da 34-ü nəhəng aeroportlardır.

ABŞ-da – 17, Avropada – 8 nəhəng aeroport vardır:

Çikaqo, Dallas, Los-Angelos, Atlanta, London, Tokio, Frankfurt və İstanbul hava limanları.

Hava nəqliyyatı dünyada ən yeni və dinamik nəqliyyat növüdür. Qitələrarası daşımalarda birinci yeri tutur. İnkişaf Etmiş Ölkələrdə çox sıx hava xətləri vardır. Nəhəng hava (təyyarə) parkları ABŞ, Fransa, Almaniya, Kanada və Avstraliyadadır.

Hər il dünyada 10 mln-a qədər uçuş reysi olur. Hər gün 25 minə yaxın təyyarə havada uçur.

Üstünlükləri – mümkün olan bütün yerlərə qısa vaxtda çatma imkanı, hərəkət məsafəsinin qısa olması (belə ki, bu məsafə dəmiryolu məsafəsindən 25-30 faiz, dəniz və çay məsafəsindən 50 faiz qısa olur), kapital qoyuluşunun aşağı olmasıdır, çatışmazlığı – metroloji şəraitdən asılı olması, yanacaq sərfinin çox olması, daşımanın maya dəyərinin yüksək olmasıdır.

Hazırda dünyada fantastik nəqliyyat layihələri nəzərdə tutulur.

Çin Xalq Respublikası ölkənin şimal-şərqindən başlayaraq ABŞ-a qədər uzanacaq sürət qatarı layihəsini həyata keçirməyə çalışır.

Layihə icra olunarsa, dəmiryolu xətti Çinlə bərabər daha üç ölkənin – Rusiya, ABŞ və Kanadanın ərazisindən keçməlidir. Belə ki, Mançuriya – Sibir – Alyaska – Kanadanı əhatə edəcək dəmiryolu xətti Berinq boğazından dənizin dibindən qazılacaq tuneldən keçəcək. Layihə uğurla icra olunarsa, Çindən sürət qatarı ilə saatda 350 km sürətlə iki günə Amerikaya çatmaq mümkün olacaq.

Layihə üzrə dəmiryolu xəttinin uzunluğu 13 min km-dir. Bu dünyanın ən uzun dəmiryolu olan Trans – Sibir xəttindən 3 min km çoxdur. Layihənin icrasının ən böyük çətinliyi Berinq boğazından dənizin dibindən 200 km tunelin tikintisi ilə bağlı ola bilər. Xatırladaq ki, La-Manşdakı tunel dörd dəfə qısadır.

Hazırda dünyada Ümumi Daxili Məhsulun həcminə görə ikinci böyük dövlət olan və iqtisadiyyatı son 10-15 ildə çox sürətlə inkişaf edən Çinin bui fantastik layihəsi dünyanın ən yeni texnoloji və innovasiyalı nəqliyyat layihəsi olacaqdır.

Artıq 2020-ci ildən başlayaraq Almaniyada saatda 80 km sürətlə gedən birtəkərli elektrik velosipedləri sınaqdan çıxarılıb.

## 4. QLOBAL NƏQLİYYAT DƏHLİZLƏRİ VƏ NƏQLİYYAT MARŞRUTLARI

Nəqliyyat dəhlizləri ölkələrarası münasibətlərin qurulması və möhkəmləndirilməsinə xidmət edir. Bu dəhlizlər uzun dövr ərzində regionlar arasında təbii yaranan nəqliyyat-iqtisadi əlaqələrin nəticəsində formalaşmışdır. Ölkələrin iqtisadi inkişaf və texniki-texnoloji tərəqqisi ilə əlaqədar daha da möhkəmlənmişdir.

Dünya bankının təyinatına görə bütün nəqliyyat və logistik infrastrukturun, həmçinin milli və regional orqanların fəaliyyətinin məcmusuna **nəqliyyat dəhlizi** deyilir.

Nəqliyyat dəhlizləri beynəlxalq və milli nəqliyyat dəhlizlərinə bölünür. Beynəlxalq nəqliyyat dəhlizləri iki və daha artıq ölkənin nəqliyyat xətlərini birləşdirməklə qlobal nəqliyyat dəhlizlərinə çevrilir. Milli nəqliyyat dəhlizləri ölkənin milli sərhədləri daxilindəki bütün nəqliyyat xətlərini əhatə edir.

Qitələrarası və ölkələrarası dəniz marşrutları, o cümlədən Şimali və Cənubi Amerika, Afrika, Yaxın Şərq və s. su və quru yolları marşrutları çox böyük əhatə dairəsinə malikdir (bu mövzu ayrıca öyrənilməlidir). Burada əsasən dünyanın quru ərazisinin 36%-ni təşkil edən Avroasiyanın qlobal nəqliyyat dəhlizləri və nəqliyyat marşrutlarına diqqət yetirilir(cədvəl 10.4-ə bax).

10.4-cü cədvəldən görünür ki, qlobal nəqliyyat dəhlizləri çoxdur, uzunluqları və yükdaşıma müddəti fərqlidir. Bu dəhlizlər və marşrutlar zəncirvarı "Xablar"la birləşir və bir-birinə ötürücü funksiya yerinə yetirirlər. Əgər Xablar bir-birinə partnyordursa, nəqliyyat dəhlizləri və marşrutları bir-birinə rəqibdirlər. Hazırda dünyada nəqliyyat dəhlizləri və marşrutları uğrunda mübarizə gedir, tranzit nəqliyyat bazarı yaranır və güclənir.

**Cədvəl 10.4**

**Əsas "Şərq-Qərb" və "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizləri (marşrutları)**

| № | Yollar (marşrutlar) | Uzunluğu (km) | Neçə günə |
|---|---|---|---|
| 1. | Cənub Dəniz Yolu (marşrutu) ("Şərq-Qərb") | 23000 | 45-60 |
| 2. | Şimal quru yolu – Lyanyunqan (Çin) – Dostık (Qazaxıstan) – Moskva (Rusiya) – Brest (Belarus) – Hamburq (Almaniya) | 11518 | 14-16 |
| 3. | Mərkəz quru yolu (marşrutu) – Lyanyunqan – Dostık – Nur-Sultan – Ozinki (Saratov – Rusiya) - Brest | 9654 | 12-14 |
| 4. | Cənubi Asiya quru yolu – Lyanyunqan – Dostık – Səraxs (Türkmənistan) – Tehran (İran) - İstanbul | 10769 | 20-23 |
| 5. | Transxəzər – TRASECA ("Şərq-Qərb") – Lyanyunqan – Dostık – Aktau – Bakı – Tbilisi (Poti) – İstanbul | 10648 | 20-23 |
| 6. | Şimal Dəniz Yolu (ŞDY) – Murmansk – Viladivastok, Sankt-Peterburq – Vladivastok (şimaldan) | 10400 | 18-20 |
| 7. | Transsibir quru yolu (magistralı) Naxodka – Petropavlovsk – Helsinki | 11060 | 18-20 |
| 8. | Çunçin (Çin) – Duysburq (Almaniya) quru yolu | 10769 | 15-16 |
| 9. | Cənub quru yolu (marşrutu) – Kaşqar (Çin) – Oş (Qırğızıstan) – Herat (Əfqanıstan) | 6010 | 17-20 |
| 10. | "Şimal-Cənub" marşrutu (quru-su yolu) – Sankt-Peterburq – Maxaçkala – Bakı – Astara – Bəndər Abbas – Mumbay | 7200 | 13-15 |

**Mənbə:** Cədvəl beynəlxalq nəqliyyat marşrutları haqqında verilmiş məlumatlar əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Cənub Dəniz Yolu ("Şərq – Qərb" marşrutu) dünyanın ən qədim dəniz yolu – su yoludur. Hələ yelkənli gəmilər dövründən – XV əsrdən fəaliyyətə başlamışdır. "Yeni Dünyanın" – Amerikanın, Hindistanın və s. ərazilərin kəşfi məhz dəniz yolları ilə başlamış, təkmilləşmiş, modernləşdirilmiş və dünyanın ən böyük yükdaşıma nəqliyyat növünə - "Şərq-Qərb" dəniz daşımaları marşrutuna çevrilmişdir. Süveyş kanalının 1869-cu ildə açılması ilə bu yol daha da əhəmiyyət qazanmışdır.

Sonra 10-dan artıq qlobal nəqliyyat dəhlizi və nəqliyyat marşrutu əmələ gəlmişdir. Panama kanalının 1920-ci ildə açılması beynəlxalq yükdaşımalara böyük təsir göstərmişdir (ətraflı öyrənilməsi tövsiyə olunur). Burada isə gələcək perspektivləri nəzərə alınaraq Şimal Dəniz Yolu və "Şimal-Cənub" nəqliyyat marşrutuna diqqət yetirilmişdir.

## Şimal Dəniz Yolu (dəhlizi)

Uzaq Şərqdən Avropaya qədər Şimal Dəniz Yolu (ŞDY) ilə yüklərin daşınması marşrutu Cənub Dəniz Yolunun (Süveyş kanalı ilə) alternativi hesab edilir. Şimal Dəniz Yolunun uzunluğu Sankt-Peterburqdan Vladivastoka qədər Şimal dənizini keçməklə 14 min km, Cənub Dəniz Yolunun uzunluğu Süveyş kanalından keçməklə 23 min km-dir. Coğrafi olaraq bir dairə əmələ gətirir. Qısa olsa da, Şimal Buzlu okeanının 5 dənizindən və Sakit okeanın Berinq boğazında buzlaqların olması ilə əlaqədar olaraq hərəkət çox çətindir. Bütün yük gəmiləri hərəkət edə bilmir. Atom buzqıran gəmilərdən istifadə edilir. Odur ki, ŞDY ilə yüklərin daşınması həcmi azdır. 2018-ci ildə tranzit yüklər də daxil olmaqla bu yolla 18 mln t yük daşınmışdır. Belə hesab edilir ki, qlobal istiləşmə ilə əlaqədar olaraq Şimal Dəniz Yolu gələcəkdə Cənub Dəniz Yolunun bəlkə də alternativi ola bilər.

Şimal Dəniz Yolunun alternativi Süveyş və Panama kanallarından keçən nəqliyyat arteriyalarıdır. Əgər Süveyş kanalından keçməklə Murmansk limanından Yaponiyanın

İokoqama limanına qədər olan məsafə 12840 dəniz mili və ya 23112 km məsafədirsə (1 dəniz mili=1852 m), Şimal Dəniz Yolu ilə 5770 dəniz mili və ya 10386 km-dir, ondan 2,2 dəfə qısadır[1]. Bu yolun özü də iki bölməyə ayrılır. Birincisi – Qərbi Arktika bölməsi (Murmanskdan Dudinkaya qədər Rosatomflotun buzqıran gəmiləri), ikincisi – Şərqi Arktika bölməsi (Dudinkadan Çuxotkaya qədər Uzaq Şərq Dəniz Gəmiçiliyinin buzqıran gəmiləri xidmət edir).

Tranzit daşımalar zamanı ŞDY-nin iqtisadi üstünlükləri – yanacağa qənaət edilməsi, hərəkət vaxtının az olması, Süveyş kanalından fərqli olaraq gəmilərin boğazdan keçmə haqqının olmaması, yolda gəmilərin keçmə növbəliliyinin olmaması və dəniz quldurları hücumunun olmaması hesab edilir.

## Transsibir və Baykal – Amur Magistralı (BAM)

**Transsibir yolu** bütün Sibiri keçməklə Vladivastok – Moskva xəttini birləşdirir. BAM isə bu xətdən şimala doğru Baykaldan Komsomolsk – Amura qədərki xətti birləşdirir. Baykalda Transsibirə birləşir.

Transsibir dəmiryolu marşrutunun uzunluğu 9289 km-dir. Qədim adı Böyük Sibir Yoludur. Avrasiyada Moskvanı Rusiyanın Şərqi Sibir və Uzaq Şərqin nəhəng şəhərləri ilə birləşdirir. Dünyanın ən uzun dəmiryoludur. Yükdaşıma qabiliyyəti ildə 100 mln t-dur. Bu yolda sürətli sərnişin qatarının yolda olma vaxtı 6 gündür.

**Baykal – Amur Magistralı (BAM)** Şərqi Sibir və Uzaq Şərqi birləşdirən dəmiryoludur. Əsas yolu Tayşet – Sovet Havanıdır, uzunluğu 4287 km-dir. BAM Transsibir magistralından Tayşetdən Vanino (Xabarovsk) dəniz limanına qədərki hissəsinə görə 500 km-ə qədər qısadır.

Yer planetinin orta diametri 12742 km, dünyanın ən uzun avtomobil yolu olan Moskva – Vladivastok şəhərləri arasındakı avtomobil yolunun uzunluğu 9146 km, Kalininqrad – Vladivostok yolunun uzunluğu isə təqribən 10 000 km-dir.

## "Şimal – Cənub" nəqliyyat marşrutu (dəhlizi)

"Şimal – Cənub" beynəlxalq nəqliyyat marşrutu (dəhlizi) Baltikyanı ölkələrdən Rusiya – Azərbaycan və İran ərazisindən keçməklə Şaquli istiqamətdə Şərqə doğru Hindistanla nəqliyyat əlaqəsini yaradır. Bu dəhlizin digər marşrutlar, xüsusilə Süveyş kanalından keçməklə Cənub Dəniz Yolundan əsas üstünlüyü daşıma məsafəsinin iki və daha çox qısa (7,2 km), yükdaşımaların, xüsusilə konteyner daşımalarının dəyərinin aşağı olmasıdır.

Bu dəhliz Xəzər dənizi ilə qarşılaşdığı üçün üç istiqamətdə şaxələnir və davam edir:

1. Transxəzər;
2. Şərqi Xəzər;
3. Qərbi Xəzər istiqamətləri.

**Transxəzər** – Rusiyanın Astarxan, Olya və Maxaçkala limanlarından İranın Ənzəli, Əmirabad və Nouşəhər limanlarına, **Şərqi Xəzər** – birbaşa Qazaxıstan və Türkmənistan dəmir yollarından keçməklə Təcən – Səraxs, Ətrək – Qarqan stansiyalarından çıxmaqla İran dəmiryolu şəbəkəsinə qoşulmaqla, **Qərbi Xəzər** isə - Rusiyanın Astarxan – Maxaçkala – Samur istiqamətində Azərbaycan və İranın Astara – Rəşt – Qəzvin dəmiryolu istifadəyə verilməklə Bəndər Abbas və Hindistanın Mumbay limanına qədər hərəkət edəcəkdir. Bu da ən yaxın məsafə olan Qərbi və Şimali Avropa ilə nəqliyyat-iqtisadi əlaqələrini Azərbaycan üzərindən nəhəng Asiya ölkələri ilə birləşdirir.

---

[1] Beynəlxalq Dəniz Təşkilatının hesabatı. London, 2018

Lakin nəzərə almaq lazımdır ki, hələ SSRİ dövründən Azərbaycanın cənub sərhəddində olan Naxçıvan Muxtar Respublikasının Culfa şəhərindən İranın Culfa şəhərinə və cənuba doğru dəmiryolu fəaliyyət göstərirdi. Təəssüf ki, bu strateji yol Azərbaycanın 20 faiz ərazsinin Ermənistan tərəfindən işğalı nəticəsində 30 ilə yaxındır ki, bağlanmışdır (torpaqlarımızın işğaldan azad olunması ilə birlikdə bu istiqamətdə nəqliyyat dəhlizinin bərpasına başlanılmışdır).

"Şimal – Cənub" Beynəlxalq dəhlizinin uzunluğu 7,2 min km-dir. Şimali Avropanı Hindistan və Fars körfəzi ölkələri ilə, başqa sözlə Sankt-Peterburqla Mumbay (Hindistan) limanını birləşdirir. Bu dəhlizin yaradılması Süveyş kanalının yükünün azaldılmasına xidmət etməklə bərabər onunla rəqabət aparacaqdır. Bununla da Rusiya – İran və Türkiyə "üçbucağı" əmələ gəlir.

"Şimal – Cənub" nəqliyyat dəhlizi qədim Çinin İpək Yolunu tamamlayır və daha da gücləndirir. "İpək Yolunun iqtisadi kəməri" hesab edilən bu dəhlizin üç marşrutundan ən əlverişli və əhəmiyyətlisi məhz Azərbaycan marşrutudur. "Şimal-Cənub" nəqliyyat dəhlizinin də açar ölkəsi Azərbaycandır.

Müasir dünya iqtisadiyyatında ölkənin açıq dənizə çıxışının olması onun mütləq üstünlüklərindən biridir.

Bu problemin həll edilməsi dərin iqtisadi və siyasi təfəkkürə əsaslanan siyasət tələb edirdi. Bunun da yeganə çıxış yolu quru nəqliyyat dəhlizləri ilə açıq dənizə və dünya okeanına çıxış idi ki, Azərbaycan özünün transkontinental layihələrini həyata keçirməklə bu problemi həll etmiş oldu. Açıq dənizə çıxışı olmayan Azərbaycan Avrasiyanın nəqliyyat mərkəzi funkisyasını öz üzərinə götürüb. Mövcud reallıq bu dəhlizin rolunun ildən-ilə artmasını sübut edir. "Dünya fabriki" Çin və Avropa dövlətlərinin iqtisadi maraqları isə bunu zəruri edir.

Azərbaycan Şərqlə Qərbin, Şimalla Cənubun qovuşduğu, qitələrin birləşdiyi və bağlandığı məkanda yerləşdiyi üçün Avroasiyanın demək olar ki, bütün qlobal nəqliyyat dəhlizləri buradan keçir. Bu dəhlizlərə aşağıdakı əsas dəhlizlər daxildir:

1. Böyük İpək Yolu ("Şərq-Qərb" beynəlxalq nəqliyyat dəhlizi);
2. "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizi;
3. TRASECA beynəlxalq nəqliyyat dəhlizi;
4. Trans – Xəzər beynəlxalq nəqliyyat marşrutu;
5. Cənub – Qərb nəqliyyat dəhlizi;
6. Bakı – Tbilisi – Qars dəmiryolu xətti və s.

Bu nəqliyyat dəhlizləri fənnin 15-ci mövzusunda öyrənilir.

## 5. DÜNYA İQTİSADİYYATINDA BEYNƏLXALQ KANALLAR VƏ AZƏRBAYCANIN DÜNYA OKEANINA ÇIXIŞI

Dünya təsərrüfat əlaqələri sistemində okeanlar, dənizlər, çaylar və kanallar xüsusi rol oynayır. Bunun əsas səbəbi su nəqliyyatı ilə yükdaşımanın digər nəqliyyat növlərinə nisbətən daha ucuz başa gəlməsidir.

Dünya təsərrüfat əlaqələri sistemində, beynəlxalq ticarət-iqtisadi əlaqələrində, yük və sərnişin daşımalarında, xarici turizmdə, şəhər memarlığında və s. sahələrdə su nəqliyyatının tərkib hissəsi olan, əlaqələndirici və birləşdirici rol oynayan, uzun məsafələri qısaldan, böyük iqtisadi əhəmiyyət kəsb edən su kanallarının müstəsna rolu vardır. Dünyada kiçik suvarma kanalları nəzərə alınmadan, ticarət-iqtisadi və coğrafi-nəqliyyat əlaqələrində əhəmiyyətli rolu olan 184 su kanalı vardır. Planetin ən nəhəng 11 gəmi kanalı aşağıdakılardır:

1. Süveyş kanalı
2. Panama kanalı
3. Ağ dəniz - Baltik kanalı
4. Ortaalman kanalı

5. Qeta kanalı
6. Klonq ("Asiya Venesiyası")
7. Avqust kanalı
8. Korinfski kanalı (ən qısa gəmi arteriyası)
9. Kaledonsk kanalı
10. Kilski kanalı
11. Volqa-Don kanalı

Dünya ölkələrinin təsərrüfat əlaqələri sistemində inqilabi rol oynayan, okeanları, dənizləri, ölkələri bir-birinə birləşdirən, ölkələrarası ticarət əlaqələrinin artmasına təkan verən, yükdaşıma müddətini və xərclərini aşağı salan, bütün ölkələrin, o cümlədən Azərbaycanın təsərrüfat əlaqələri sistemində xüsusi rolu olan 4 beynəlxalq dəniz və okeanları birləşdirən və beynəlxalq gəmiçilik üçün istifadə olunan hidrotexniki qurğulardır. Bu kanallara dünya ölkələrinin nəqliyyat-iqtisadi kəmər də deyilir.

## Süveyş kanalı

Sinay yarımadasının qərbində, Misir Ərəb Respublikasının ərazisində yerləşən, Aralıq dənizi ilə Qırmızı dənizi bir-birinə birləşdirən süni su kanalıdır. Uzunluğu 163 km, ən dərin yeri 300 metrdir. Şimaldan-cənuba axır. Afrika qitəsində yerləşməsinə baxmayaraq, bu kanal Asiya və Avropa dənizçiliyi üçün çox əhəmiyyətli su yoludur. Əsas limanları Port-Səid və Süveyş şəhərləridir. Kanalın çəkilişi Fransa diplomatı və mühəndisi Ferdinand de Lessepsin rəhbərliyi altında 1859-1869-cu illər arasında aparılmış və 17 noyabr 1869-cu ildə açılmışdır. Hər il kanaldan 17-18 min gəmi keçir. 1 gəminin keçid müddəti 11-16 saatdır. Bu o deməkdir ki, hər saat ərzində 2 gəmi keçə bilir. Dünya dəniz yükdaşımalarının 10%-i bu kanal vasitəsilə həyata keçirilir.

Süveyş kanalı Afrika və Avroasiya materikləri arasında şərti sərhəd hesab edilir. Hind okeanı ilə Atlantik okeanının Aralıq dənizi akvatoriyası arasında qısa su yoludur. Bu yol alternativ marşrutla müqayisədə 8 min km qısadır.

2014-cü ildə bu kanala paralel 72 km uzunluğunda, şlüzü olmayan, gəmilərin ikitərəfli hərəkətini təmin etmək üçün Yeni Süveyş kanalının tikintisinə başlanmış və 6 avqust 2015-ci ildə yeni kanal açılmışdır.

Kanalların bir problemi vardır. Gəmilər hərəkət zamanı torpağa otura bilər. Məsələn, 2021-ci ilin mart ayında 18000 konteyner aparan “Ever Given” gəmisi Süveyş kanalının dayaz hissəsində torpağa batmış, kanalı bağlamış, mln-larla dollar zərər vurmuşdur. Odur ki, hər bir beynəlxalq kanalın alternativi olmalıdır. Bu kanalın alternative Azərbaycandan keçən “Şimal – Cənub” nəqliyyat dəhlizidir.

## Panama kanalı

İki okeanın birləşdirilməsini nəzərdə tutan bu kanalın çəkilişi ideyası hələ XVI əsrdə irəli sürülmüşdür. 1790-cı ildə ispan Alessandro Malaspin tərəfindən kanalın layihəsi hazırlanmışdır. Beynəlxalq ticarətin həcminin artması ilə əlaqədar olaraq bu kanala XIX əsrin əvvəlində maraq daha da artmışdır. 1814-cü ildə İspaniya bu beynəlxalq kanalın çəkilməsi haqqında qanun qəbul etmişdir. 1825-ci ildə Mərkəzi Amerika dövlətləri konqresi belə bir analoji qərar qəbul etmişdir. Kaliforniyada qızılın kəşfi ilə əlaqədar olaraq ABŞ-ın bu kanala marağı daha da artmışdır. Həmin dövrdə bu ərazilərdə marağı olan ölkələrin (Böyük Britaniya, Fansa, Kolumbiya, Nikaraqua və s.) uzun danışıq və razılaşmalarından sonra 1879-cu ildə kanalın çəkilişinə başlanmışdır. Çox böyük həcmdə qızıl, ABŞ dolları, frank, funt-sterlinq sərf edilmişdir. Tikinti dövründə maraqları toqquşan ölkələr arasında gedən müharibələr zamanı 20 mindən çox adam ölmüşdür. Nəhayət ki, kanalın əsas tikintisi 1904-cü

ildən başlamış, 15 avqust 1914-cü ildə başa çatmış, birinci okean gəmisi "SS Anson" kanaldan keçmişdir. Rəsmi olaraq kanalın açılışı 12 iyun 1920-ci ildə olmuşdur. 10 ilə tikinti başa çatmışdır.

Qarşılıqlı razılaşmaya görə kanala 31 dekabr 1999-cu ilə qədər ABŞ tərəfindən nəzarət edilmiş, ondan sonra Panama hökumətinə verilmişdir.

Panama kanalı Sakit okeandan Atlantik okeanına axır, iki okeanı birləşdirir, Şimali və Cənubi Amerikanı ayırır, Sakit okeandan Panama körfəzi ilə Atlantik okeandan Karib dənizlərini birləşdirir. Hazırkı Panama dövləti ərazisindədir. Uzunluğu 81,6 km-dir. Bunun 65,2 km-i quru, 16,4 km-i isə Panama və Limon buxtaları ərazisindədir. Ümumi eni 150 metr, şlüz kameraların eni 33 metr, dərinliyi 12 metrdir. Tikinti 9,3 mlrd ABŞ dollarına başa gəlmişdir.

Bu kanal materikləri fırlanmadan, birbaşa, daha yaxın su nəqliyyatı əlaqələri yaradır. Panama kanalı ABŞ-ın şərqində olan Nyu-Yorkdan, qərbində olan San- Fransiskoya qədər olan 22,5 min km-lik dəniz yolunu qısaltmaqla 9,5 min km-ə endirir, daha dəqiq desək bu yolu 13 min km qısaldır ki, bu da çox böyük ticarət- iqtisadi səmərə deməkdir.

Kanaldan bir gəminin orta keçmə vaxtı 9 saat, minimum keçmə vaxtı 4 saat 10 dəqiqədir. Kanalın maksimum gəmi buraxma qabiliyyəti bir gün ərzində 48 gəmidir. Yəni hər 0,5 saatda bir gəmi keçir. Hər il kanaldan 14 min gəmi keçir, 280 mln t-a qədər yük daşınır ki, bu da dünya okean yükdaşımalarının 5 faizini təşkil edir.

Panama kanalı nəinki Qərb yarımkürəsində, hətta bütün dünyada insanlığın yaratdığı fantastik tikinti məhsuludur, dünya ölkələrinin iqtisadiyyatına və ticarətinə birbaşa təkan verən texniki layihədir, mexanizmdir və qurğudur. Bu kanal fövqəladə geosiyasi əhəmiyyət kəsb edir, bəzən ölkələrin iqtisadiyyatı və siyasətinə təsir alətinə çevrilir.

Kanalın həddən artıq böyük iqtisadi səmərəliliyinə görə ölkələr və yükdaşıyıcı şirkətlər daim növbədə dayanırlar. Bu da tariflərin artmasına və münaqişələrə səbəb olur. Məlumdur ki, su nəqliyyatı ən ucuz başa gələn nəqliyyat növüdür. Azərbaycanın bütün dəniz yollarının başlandığı Bakı (Ələt) Xəzərin ən iri limanıdır. Okeana bibaşa çıxışı olmadığına görə Xəzər göl, sahəsinin böyüklüyünə və okeana vasitəli çıxışı olduğu üçün Xəzər dənizi kimi qəbul edilməlidir. Xəzər dənizinin ən böyük limanı olan Bakıdan (Ələtdən) Mərkəzi Asiyada olan Qazaxıstanın Aktau, Bektaş, Türkmənistanın Türkmənbaşı, Rusiyanın Həştərxan və Maxaçkala, İranın Ənzəli limanları arasında tarixən və xüsusilə son illər möhkəm gəmiçilik əlaqələri mövcuddur.

Azərbaycanın dünya okeanına 2 çıxış yolu vardır:

1. Azərbaycan Xəzər dənizi – Volqa çayı – Volqa-Don kanalı – Don çayı – Azov dənizi – Kerç boğazı – Qara dəniz – Bosfor boğazı – Mərmərə dənizi – Dardanel boğazı – Egey dənizi – Aralıq dənizi – Cəbbəlültariq boğazı – Atlantik okeanı vasitəsi ilə dünya okeanına çıxa bilir;

2. Azərbaycan Xəzər dənizi –Volqa-Baltik – Baltik - Ağ dəniz kanalları ilə yenə də dünya okeanına çıxa bilir.

Azərbaycanın Şərq istiqamətində Xəzər dənizi üzərindən gəmilərlə Bakı – Aktau, Bekdaş və Türkmənbaşı arasında mühüm dəmiryol bərə keçidi vardır. Bu keçidlər vasitəsilə yük avtomobilləri, dəmiryolu vaqonları və neft tankerləri hərəkət edir və bu bərənin fəaliyyəti ildən-ilə sürətlə artır.

## Ağ dəniz – Baltik kanalı

Belomorkanal kimi tanınan bu kanal Baltik dənizindən Sankt-Peterburqu keçməklə Ladoqa gölünə, oradan isə Oneqa gölünü keçməklə, Cənubi Qərb – Şimali Şərq istiqamətində axan və Ağ dənizə tökülən (Baltik dənizi – Sankt-Peterburq – Ladoqa gölü – Oneqa gölü – Ağ dəniz) kanaldır.

1931-1933-cü illərdə, rekord qısa vaxtda, dayanmadan, həbs və sürgün edilmişlərin əli, gücü ilə tikilmiş, 2 avqust 1933-cü ildə istifadəyə verilmişdir.

SSRİ-nin Lager tikintisi də adlandırılırdı. 1932-ci ildə tikintidə 100 min nəfər işləyirdi. O vaxtkı SSRİ-nin, indiki Rusiyanın Kareliya Respublikası ərazisindədir. Kanalın ümumi uzunluğu 227 kilometr, maksimum dərinliyi 5 metrdir, 19 şlüzü vardır.

## Volqa – Baltik su yolu

Volqa-Baltik su yolu Xəzər və Baltik dənizləri basseynlərini birləşdirən Rusiya Federasiyasının şimal-qərbində kanallar, çaylar və göllər sistemidir. Uzunluğu 1100 km-dir. Volqa-Baltik su yolunun tərkib hissəsi olan Volqa-Baltik gəmi kanalı 1960-1964-cü illərdə tikilmişdir, uzunluğu 367 km-dir. 4 iyun 1964-cü ildə istifadəyə verilmişdir.

Volqa-Baltik su yolu (1810-1963-cü illərdə Marinski su sistemi) Rusiya Federasiyasının Şimal-Qərbindədir. Rıbinski su hövzəsi – Çerepoveç şəhəri – Şeksna çayı – Ağ dəniz – Kovja çayı – Marinski kanalı – Viteqra çayı – Oneqa kanalı – Oneqa gölü – Svir çayı - Ladoqa gölü – Neva çayını birləşdirir. Azərbaycanın Xəzər dənizindən Volqa çayı ilə şimal istiqamətdə Baltik dənizindən Atlantik okeanına olan çıxış yoludur.

## Volqa – Don kanalı

Rusiyanın Avropa hissəsinin Volqoqrad və Rostov vilayətləri ərazisindən keçən, Volqa və Don çaylarının ən yaxın yerlərini birləşdirən, 101 km uzunluğunda olan, Volqadan Dona, Şərqdən Qərbə doğru axan, 13 şlüzdən ibarət olan kanaldır.

1569-cu ildə türk II Sultan Səlim tərəfindən başlanmış, siyasi-hərbi və iqtisadi səbəbdən 500 ilə qədər çəkilişi davam etmiş, nəhayət 1923-cü ildə istifadəyə verilmişdir.

Hər il bu kanal vasitəsilə 13-14 mln t yük daşınır, 12-13 min gəmi keçir, yəni hər gün 50-yə qədər gəmi keçir. Azərbaycan bu kanalın imkanlarından geniş istifadə edir. Volqa-Don kanalı tarixdə “Türk-Or”, yəni Türk xəndəyi adı ilə qalmışdır. Çünki "Türk-Or”un çəkilməsində əsas məqsəd Qədim Türküstanı (Turanı) Osmanlı imperiyası ilə nəqliyyat və iqtisadi cəhətdən birləşdirmək idi.

Lakin bu kanalda olan problemləri həll etmək məqsədilə 1948-ci ildə kanalın genişləndirilməsinə başlanılmış və 1952-ci ildə tam istifadəyə verilmişdir. Kanalın ən aşağı dərinliyi 3,5 metrdir. İlin naviqasiya dövrü 237 gündür. 5 min t-a qədər yükgötürmə qabiliyyəti olan gəmilər keçə bilir. Nə qədər problemi olmuş olsa da, Aralıq dənizinə və Atlantik okeanına çıxmaq üçün ən əlverişli su yoludur.

Azərbaycanın Şərqdən çıxışı yalnız Xəzər dənizi və dəniz vasitəsilə sərhəd ölkələri, Şimaldan Rusiya, Şərqdən Qazaxıstan və Türkmənistan, Cənubdan isə İrandır. Unikal və təbii resurslarla çox zəngin olan Xəzər dənizi Avrasiya materikinin iki böyük hissəsinin sərhəddində yerləşir.

## Bosfor boğazı

İstanbul qitələrarası bir şəhər olmaqla iki qitədə yerləşən nadir şəhərlərdən biridir. Uzunluğuna görə 150 km, eninə görə 50 km ərazini tutur. Əhalisi 15 mln nəfərdən çoxdur.

Bosfor boğazının sahilində yerləşən İstanbul Türkiyənin əsas sənaye, ticarət, mədəniyyət və liman şəhəridir. Bosfor boğazı Qara dəniz, Mərmərə dənizi və Aralıq dənizini birləşdirən yeganə dəniz yoludur. Dünyada ən çox yüklənmiş su arteriyası hesab edilir. Hər il bu boğazdan 200 mln t-dan artıq neft daşınır. Bu da Süveyş kanalı ilə müqayisədə üç dəfədən çoxdur.

Bosfor boğazının uzunluğu 29 km, eni 3,6 km və maksimal dərinliyi 120 m-dir.

Boğazlar dünya iqtisadiyyatında böyük ticarət, dünya siyasətində strateji və hərbi əhəmiyyətə malikdirlər.

Okeanları birləşdirən boğazlar:

1. Magellan boğazı (Atlantik və Sakit okeanı birləşdirir – Çilidə);
2. Dreyk boğazı (Atlantik və Sakit okean arasında ən enli boğaz – 820 km, Çili).

Dənizləri birləşdirən boğazlar:

1. Bosfor boğazı;
2. Dardanel boğazı.

Dənizlə okeanı birləşdirən boğazlar:

1. La-Manş boğazı;
2. Cəbəllütariq boğazı.

Okean və dənizləri birləşdirən boğazlar:

1.Mozambik boğazı (Afrika ilə Madaqaskar arasında ən uzun boğaz – 1760 km, Hind okeanı);

2.Katteqat boğazı (Skandinaviya ilə Yutlandiyanı ayırır, Şimal və Baltik dənizləri akvatoriyası, Danimakra və İsveç, uzunluğu 200 km).

### Hörmüz boğazı

Oman körfəzi və Fars körfəzi arasında strateji əhəmiyyətli boğazdır. Şimal sahilində İran, cənub sahilində BƏƏ və Omanın eksklavı Musandam yerləşir. Boğazın ən ensiz yeri 54 km-dir (34 mil). Uzunluğu 195 km-dir. Ən dərin yeri 229 m-dir. Hind okenaı akvatoriyasına daxildir. Bu boğaz neft ixrac edən Fars körfəzi ölkələrinin açıq okeana çıxışı üçün yeganə keçiddir və dünyanın strateji cəhətdən ən əhəmiyyətli boğazıdır.

Dünyada ən çox neft ixracı Hörmüz boğazı ilə gəmilər vasitəsilə həyata keçirilir. Ümumi neft ixracatının 20 faizi bu boğazdan keçir.

## 6. DÜNYA İQTİSADİYYATINDA KOMMUNİKASİYA SİSTEMLƏRİ

Kommunikasiya – "communicato" latın sözü olub rabitə və əlaqə mənasını verir. Dünya iqtisadiyyatında üç mənada işlədilir:

1.Texniki kommunikasiya;

2.Hərəkət kommunikasiyası;

3.İnformasiya kommunikasiyası.

**Texniki kommunikasiya** bir nöqtədən, yerdən, qurğudan və şəxsdən digərinə müəyyən rabitə kanalları ilə məhsulun göndərilməsinə deyilir.

**Hərəkət kommunikasiyasına** nəqliyyat vasitələri, onların hərəkət marşrutları, rabitə kanalları və şəhər təsərrüfatının yeraltı şəbəkəsi daxil edilir.

**İnformasiya kommunikasiyana** informasiyanın ötürülməsi, mübadiləsi və çatdırılması vasitələri daxildir.

Kommunikasiya iki və daha çox subyekt arasında məhsul və informasiya mübadiləsi prosesidir.

Beynəlxalq istehsalın tərkib hissəsi kimi nəqliyyat və rabitə xarici iqtisadi əlaqələrin inkişafında fəal iştirak edir. Nəqliyyat özü kommunikasiyanın tərkib hissəsidir. İlk yaranan sadə rabitə əlaqələri, ardınca nəqliyyat əlaqələri, daha sonra isə müasir anlamda informasiya – kommunikasiya əlaqələri və vasitələri olmuşdur.

İEO-lərdə ÜDM-nin 10 faizə qədəri, orta gəlirli ölkələrdə 7 faizə, aşağı gəlirli ölkələrdə 5 faizə qədəri nəqliyyat və rabitə sahələrində yaradılır. Son 10 ildə kommersiya xidmətlərinin ümumi həcmində nəqliyyatın payı azalaraq 27 faizdən 23 faizə, informasiya və

kommunikasiya xidmətlərinin payı 35 faizdən 42 faizədək artmışdır. İxrac məhsulları və xidmətlərinin ümumi həcminin 15 faizini nəqliyyat və rabitə xidmətləri təşkil edir.

Texniki bazasına görə rabitə iki əsas növə - poçt və elektrik rabitələrinə bölünür. Poçt rabitəsinə bağlamaların, sənədlərin, dövrü mətbuatın, pul köçürmələrinin, kommunal ödəmələrin və s. aparılması, elektrik rabitəsinə isə işarələrin, siqnalların, tezliklərin, yazılı mətnlərin, təsvirlərin və digər növ məlumatların naqillər, radio, optik və s. elektrik sistemləri ilə ötürülməsi və qəbul edilməsi prosesləri daxildir. Elektrik rabitəsi telefon, videotelefon, teleqraf, faks, radio yayımı, televiziya, elektron poçt, məlumatların ötürülməsi, işlənilməsi və saxlanılması funkisyalarını yerinə yetirir. Bu zaman informasiyanı ölçmək üçün ölçü vahidi qəbul edilmişdir.

İnformasiya ölçüsü – informasiyanı ölçmək üçün ən minimal informasiya ölçü vahidi kimi **bit** (ingiliscə - binary digit – ikili rəqəm) qəbul edilmişdir. Praktikada isə əsasən aşağıdakı daha böyük informasiya ölçü vahidləri işlədilir:

1 Bayt = 8 bit;
1 Kb (kilobayt) = 1024 bayt = $2^{10}$ bayt;
1 Mb (meqabayt) = 1024 kb = $2^{20}$ bayt;
1 Gb (gigabayt) = 1024 mb = $2^{30}$ bayt;
1 TB (terabayt) = 1024 gb = $2^{40}$ bayt;
1 Pb (petabayt) = 1024 tb = $2^{50}$ bayt;
1 Eb (eksabayt) = 1024 pb = $2^{60}$ bayt;
1 Zb (zetabayt) = 1024 eb = $2^{70}$ bayt.

Bu ölçü vahidləri ilə telekommunikasiya vasitələrinin gücü və informasiya tutumu qiymətləndirilir.

Kommunikasiya daha geniş anlayışdır. Nəqliyyatdan istifadə tarixi uzun dövrü əhatə etdiyi, ölkədaxili və xarici əlaqələrin predmeti, məhsuldar qüvvələrin yerdəyişdiricisi və birləşdiricisi olduğuna görə nəzəri mənbələrdə və sənədləşmələrdə “nəqliyyat və rabitə” kimi daha çox işlədilir. Nəqliyyat istehsal və istehlak arasında zaman və məkan fərqini qısaldır. Telekommunikasiya vasitələrinin – peyklərin, internetin yaranması və sürətli inkişafı nəticəsində ölkədaxili və beynəlxalq əlaqələrdə bəzi nəqliyyat vasitələrinə tələbat azalır və ixtisara düşür. Artıq rəmzi mənada dünya “kiçilir”, yer kürəsinin istənilən yerinə 24 saat ərzində fiziki obyekt (insan, maşın, əmtəə və s.) çata bilirsə, informasiya obyekti olan məlumat telekommunikasiya vasitələri ilə bir anda – saniyədə çata bilir (SWIFT sistemi, video görüntü və s.).

SWIFT – (ingiliscə - SWIFT, Society of Worldwide Interbank Financial Telecommunications – Dünya Banklararası Maliyyə Telekommunikasiyaları Cəmiyyəti) beynəlxalq pul hesablaşmalarını və ödənişlərini kompüter şəbəkələri və banklararası telekommunikasiyalar vasitəsilə həyata keçirmək üzrə avtomatlaşdırılmış sistemdir. 1973-cü ildə Brüsseldə 15 ölkənin 240 bankı tərəfindən beynəlxalq hesablaşmaların sadələşdirilməsi və ümumiləşdirilməsi məqsədilə yaradılmışdır. 1977-ci ildən fəaliyyət göstərir, dünya ölkələri arasında ticarət və valyuta-maliyyə əməliyyatlarının aparılmasında müstəsna rol oynayır və bəzi hallarda siyasi təsir vasitəsinə çevrilə bilir. Dünya iqtisadiyyatının kommunikasiya sistemində əhəmiyyətli rol oynayır.

2010-2020-ci illərdə informasiya-kommunikasiya sektorunda məhsul (xidmət) istehsalı 4 dəfədən çox artmışdır. Artımın orta illik tempi 29 faiz olmuşdur. İKT sektorunun məhsul (xidmət) istehsalının 92 faizi rabitə sektorunun payına düşmüşdür[1]. Kommunikasiya sistemlərinin tətbiqi ölkələrin ÜDM-ini 4 faiz artıra bilər.

Müasir dövrdə dünya iqtisadiyyatının bütün sektorları üzrə ən sürətli inkişaf İKT altsektoruna aiddir. Son 70 ildəki inkişaf bizim eranın 1950-ci ildəki inkişafından daha sürətli

---

[1] UNCTAD. İnformasiya iqtisadiyyatı hesabatı, “BERİ, İnformasiya cəmiyyətinin qiymətləndirilməsi” 2019-2020-ci illər.

olub. Lakin informasiya iqtisadiyyatı bütün ölkələri əhatə etmir. Aşağı gəlirli, zəif inkişaf etmiş və yoxsul ölkələrdə hələ də internetə çıxışı məhdud olan, istehsal və xidmət sektorlarında kompüterləşməsi zəif olan ölkələr vardır.

Yerin ətrafında pilotsuz uçan kosmik aparata süni peyk deyilir. 2018-ci ildə dünyanın 61 ölkəsinin süni peyki olmuşdur. Dünyada ilk süni peyk 4 oktyabr 1957-ci ildə buraxılmış SSRİ-nin "Sputnik – 1" peykidir.

Yerin ətrafında fırlanan 7 min süni peykdən yalnız 1400-ü işləkdir. Qalanların istifadə müddəti bitdiyi üçün onları "kosmik zibil" hesab edirlər. Ən çox süni peykə malik olan ölkələr – ABŞ, Rusiya, Çin, Yaponiya, Hindistan, Fransa və Kanadadır. MDB-nin 6 ölkəsinin, o cümlədən Azərbaycanın süni peykləri vardır.

Süni peyklər elmi tədqiqatlar və kommersiya məqsədilə buraxılır. Bunlar hərbi, metroloji, naviqasiya, rabitə və s. peyklərə bölünürlər.

Kommersiya məqsədilə istifadə edilən süni peyklər dünya ölkələrində informasiya xidmətləri kimi hər il böyük həcmdə gəlir gətirir və zəif ölkələr süni peyk ölkələrindən asılı vəziyyətə düşür. Süni peyklər dünyada və ölkələr arasında XX əsrin ən böyük kəşfi hesab edilən **İnternetin** yaranmasına səbəb olmuşdur. İnternet beynəlxalq informasiya-kommunikasiya şəbəkəsi olub ölkələrin telekommunikasiya kompaniyaları tərəfindən yerinə yetirilir, xidmət göstərilir və böyük həcmdə gəlir əldə edilir.

Dünya ölkələrinin 20-dən artıq nəhəng telekommunikasiya kompaniyaları vardır ki, onlarda aktivlərinin həcminə, işçilərinin sayına, fəaliyyət sahələrinə, istifadəçilərinin sayına və s. əlamətlər üzrə qruplaşdırılır (cədvəl 10.5 və10.6-ya bax).

**Cədvəl 10.5**

**2017-ci ildə istifadəçilərin sayına görə dünyanın nəhəng 10 telekommunikasiya kompaniyası[1]**

| № | Kompaniyanın adı | Ölkə | Neçə ölkədə xidmət edir | İstifadəçilərin sayı (mln) | Bazar dəyəri (mlrd dollar) |
|---|---|---|---|---|---|
| 1. | China Mobile | Çin | 118 | 849 | 215 |
| 2. | Verizon Communications | ABŞ | 150 | 849 | 192 |
| 3. | AT&T | ABŞ | 200 | 355 | 245 |
| 4. | Vodafone Group | B. Britaniya | 195 | 44 | 68 |
| 5. | Nippon Telegraph & Telephone Corporation | Yaponiya | 148 | 88 | 86 |
| 6. | Softbank Group | Yaponiya | 136 | 260 | 81 |
| 7. | Duetsche Telecom | Almaniya | 50 | 100 | 76 |
| 8. | Telefonica S.A. | İspaniya | 21 | 232 | 53 |
| 9. | America Mobile | Meksika | 30 | 363 | 50 |
| 10. | China Telecom | Çin | 39 | 194 | 310 |

10.5-ci cədvəldən görünür ki, istifadəçilərin sayına görə dünyanın 10 nəhəng telekommunikasiya kompaniyası ABŞ, Çin və Yaponiya, bazar dəyərinə görə ABŞ, xidmət etdiyi ölkələrin sayına görə yenə də ABŞ telekommunikasiya kompaniyaları olmuşdur.

Telekommunikasiya kompaniyaları arasında aktivlərinə görə ABŞ-ın "Microsoft" kompaniyası birinci yeri tutmuşdur. Dünyada ilk dəfə 1974-cü ildə yaradılan bu kompaniya dünyanın kommunikasiya kompaniyalarının aparıcılarındandır.

[1] https://goantifraud.com/ru/blog/660-10-krupneyshin-telekommunikacionnyh-kompaniy-mira.html

**Cədvəl 10.6**

**Fəaliyyət sahələrinə görə dünyanın bəzi ən tanınmış telekommunikasiya kompaniyaları**

| № | Kompaniya-nın adı | Sahəsi | Ölkə/ştat | Yaran-dığı il | Kim yaradıb | Aktiv-ləri, mlrd dollar |
|---|---|---|---|---|---|---|
| **1.** | Google (Quql) | İnternet | ABŞ, Kaliforniya | 1998 | Sergey Brin, Larri Peyc | 131 |
| **2.** | Microsoft | Hesab-lama texnikası | ABŞ, Vaşinqton | 1974 | Bill Qeyts, Poll Allen | 407 |
| **3.** | Vodafon (Vodafone Group) | Mobil şəbəkə | Böyük Britaniya | 1984 | Ernest Xarrison, Cerri Bent | 122 |
| **4.** | YAHOO (Yexu) | İnternet | ABŞ, Kaliforniya | 1995 | Cerri Yanq, Devid Filo | 45 |
| **5.** | Facebook (feysbuk) | İnternet reklam | ABŞ, Kaliforniya | 2004 | Mark Zukerberq və b. | 220 |

2021-ci ildə dünyanın bazar kapitalına görə Top-10 nəhəng texnoloji kompaniyaları aşağıdakılar olub:

1. Apple Inc.
2. Microsoft
3. Amazon Inc.
4. Alphabet Inc.
5. Tencent
6. Facebook
7. Alibaba Group
8. TSMC
9. Nvidia
10. Samsung

Bunlarla yanaşı dünyanın sənaye cəhətdən İnkişaf Etmiş Ölkələrinin fəaliyyət sahələrinə, məhsul növlərinə, xalis kapitalına, dövriyyəsinə, əməliyyat və xalis gəlirlərinə, aktivlərinə, əməkdaşlarının sayına, törəmə müəssisələrinə və s. digər göstəricilərinə görə yüzlərlə telekommunikasiya, elektrik avadanlığı, elektronika və texnoloji kompaniyaları vardır ki, onlar da reytinqlərinə görə "Top-10", "Top-20", "Top-50", "Top-100" və digər qruplara bölünürlər (14-cü mövzuya bax).

İlk dəfə olaraq elmə "rəqəmsal iqtisadiyyat" terminini 1995-ci ildə Amerika alimi və informatiki (Massaçusets universiteti) Nikolas Neqroponte gətirmişdir. Onun təşəkkülü, formalaşması və sürətli inkişafı dünyanın iqtisadi lider ölkələri – ABŞ, Böyük Britaniya, Almaniya, Yaponiya, Çin XR və s. ölkələrinin inkişafının prioritet istiqamətinə çevrilmişdir. Bugünkü dünya iqtisadiyyatının hədəfi "rəqəmsal iqtisadiyyat"dır.

Dünyanın tanınmış politoloqu Kissencer yazırdı ki, neftə nəzarət edərək dövlətləri idarə edə bilərsiniz. Ərzağa nəzarət edərək xalqları idarə edə bilərsiz. Müasir rəqəmsallaşma dövründə isə bir tezis tam özünü sübut edib: "İnformasiya – İnnovasiya – Texnologiya"lara nəzarət etməklə dünyanı idarə edə bilərsiniz.

# MÖVZU 11. BEYNƏLXALQ TİCARƏT

## SUALLAR

1. Beynəlxalq ticarətin mahiyyəti, rolu və əhəmiyyəti.
2. Beynəlxalq ticarəti tənzimləyən əsas beynəlxalq təşkilatlar.
3. Beynəlxalq ticarətin strukturu və təsnifatı.
4. Xarici ticarət siyasəti.
5. Xarici ticarət əməliyyatları.
6. Malların göndərilməsinin bazis şərtləri (İNKOTERMS – 2020).
7. Xarici İqtisadi Fəaliyyətin Əmtəə Nomenklaturası (XİFƏN).
8. Dünyanın ən nəhəng Ticarət Mərkəzləri.

**Əsas ədəbiyyat**


1.Seyidoğlu Halil. Uluslararası iktisat. Teori, politika və uyğulama. İstanbul, 2003, səh. 11-202.

2.Xasbulatov R.İ. Beynəlxalq iqtisadi münasibətlər. Bakı, 2014, səh. 74-181.

3.Ələkbərov Ə.H. və b. Beynəlxalq iqtisadi münasibətlər. Bakı, Çaşıoğlu, 2010, səh. 46-122.

4.Hacızadə Elşən. Dünya iqtisadiyyatı və Azərbaycan. Bakı, 2018, səh. 736-753.

5.Kərimli İ. Beynəlxalq iqtisadi münasibətlərin müasir problemləri. Bakı, 2006, səh. 176-238.

6.İsrafilov H.A. Qloballaşma şəraitində istehlak kooperasiyasının təkmilləşdirilməsi istiqamətləri. Bakı, Elm, 2010, səh. 342-382.

7.Məmmədov T.C., Məmmədov M.Q., Ələkbərov Ə.Ə. Ərzaq malları ticarətinin təşkili. Ali məktəblər üçün dərslik. “Maarif” nəşriyyatı, Bakı, 1991, səh. 5-22; 135-160.

8.Məhərrəm Ağamalıyev, Tahir Şükürov. Ticarət müəssisələrinin iqtisadiyyatı (Dərslik). Bakı, 2010.

9.Azərbaycan və Dünya Ticarət Təşkilatı (WTO). İqtisadi tədqiqatlar mərkəzi, 2006.

10. Фомичев В.И. Международная Торговля, ИНФРА – М, 2000.

11. Дюмулен И.И. Международная Торговля, Москва, Экономика, Политика, Практика. Москва, ВАВТ, 2010.

12. Моделирование глобалъных экономических процессов. Москва, “Экономика”, 1984, стр. 250-304.

13. WTO. World Trade Report, Cenevrə. Hər il.

14. WTO. International Trade Statistics. Hər il.

15. The World Bank. World Development Report. Vaşinqton. Hər il.

16. UN/DESA, World Economic and Social Prospects. Hər il.

17. UNCTAD. Handbook of Statistics. Cenevrə. Hər il.

18. Monthly bulletin of Statistics. UN. Hər il.

19. INCOTERMS – 2020.

20. “Malların təsviri və kodlaşdırılmasının harmonikləşdirilmiş sistemi”. Ümumdünya Gömrük Təşkilatı. 1990.


## 1. BEYNƏLXALQ TİCARƏTİN MAHİYYƏTİ, ROLU VƏ ƏHƏMİYYƏTİ

Klassik ticarət əmtəə tədavülünün pul vasitəsilə həyata keçirilən formasıdır.

Ticarət alqı-satqı əməliyyatlarının aparılması prosesidir.

Ticarət alqı-satqı aktlarının həyata keçirilməsi məkanıdır.

Ticarət alqı-satqı proseslərinin məcmusudur.

Alqı-satqı əməliyyatlarının aparılması miqyasına görə ticarət daxili (ölkədaxili) və xarici (ölkəxarici) ticarətə bölünür.

**Daxili ticarət** təşkilati-texniki halqa, təşkilati-texniki mərhələ kimi – topdan ticarətə və pərakəndə ticarətə bölünür.

Xarici ticarət və onun bütün ölkələrin xarici ticarətini əhatə edən beynəlxalq ticarət forması çoxsaylı əlamətlər üzrə qruplaşdırılır.

Beynəlxalq bazarlar beynəlxalq ticarət vasitəsilə təşkil edilir (12-ci mövzu).

Elektron ticarətin 80 faizi firmalar (şirkətlər, müəssisələr) arasında aparılan əməliyyatlardan ibarətdir.

Beynəlxalq ticarət – beynəlxalq əmtəə-pul münasibətləri sistemi olub, dünyanın bütün ölkələrinin xarici ticarətini birləşdirir. Beynəlxalq ticarət tarixən mövcud olmuş qədim alqı-satqı əlaqələrinin təkamülü nəticəsində XVI-XVIII əsrlərdə dünya bazarının təşəkkülü prosesində yaranmışdır. Bununla belə beynəlxalq ticarət terminindən ilk dəfə XII əsrdə italyan iqtisadçı alimi, "İtaliyanın şimalında xalq kütlələrinin hakimiyyəti" iqtisadi traktatının müəllifi Antonio Marqaretti istifadə etmişdir.

Dünya ölkələri, əraziləri və regionları arasında əvvəlcə xarici ticarətin və sonrakı dövrlərdə beynəlxalq ticarətin yaranması, təkamülü və formalaşması beynəlxalq ticarətin klassik və neoklassik nəzəriyyələri əsasında inkişaf etmişdir.

XIX əsrin əvvəlindən Birinci Dünya müharibəsinin başlandığı 1914-cü ilə qədər, demək olar ki, 100 il ərzində dünya ticarətinin həcmi 100 dəfədən çox artmışdır. Tanınmış fransız iqtisadçı alimi Mişel Pebro hesab edir ki, XX əsrin II yarısında beynəlxalq mübadilə "partlayış xarakteri" aldıqdan sonra dünya ticarəti yüksək templə inkişaf etməyə başlamışdır. ÜTT hesab edir ki, axırıncı onilliklər dünya ticarətinin həcmi dünya istehsalının həcmini əhəmiyyətli dərəcədə üstələyir. Belə ki, 1950-2000-ci illərdə dünya ticarətinin həcmi 20 dəfə artdığı halda, dünya istehsalının həcmi 6 dəfə artmışdır. 1950-ci ildə ümumi dünya istehsalının yalnız 8 faizini ixrac təşkil etdiyi halda 1999-cu ildə ümumi ixrac dövriyyəsi 26,4 faiz olmuşdur. 1950-1998-ci illərdə dünyada ixracatın həcmi 16 dəfə artmışdır. Qərb iqtisadçılarının qiymətləndirilməsinə görə 1950-1970-ci illər arasındakı dövr beynəlxalq ticarətin inkişafının "qızıl dövrü"dür. 1870-1913-cü illərdə dünya ticarətində 1-ci yerdə İngiltərə olmuşdur. XX əsrin 70-ci illərində dünyada ixracın həcmi 5 faizə qədər, 80-ci illərində daha çox aşağı düşmüş, 80-ci illərin sonlarında artmağa başlamışdır. XX əsrin ikinci yarısında xarici ticarətin dinamikası qeyri-bərabər olmuşdur. 90-cı illərdə Qərbi Avropa beynəlxalq ticarətin baş mərkəzinə çevrilmişdir. Onun ixracatı ABŞ-ın ixracatını demək olar ki, 4 dəfə üstələmişdir. 80-ci illərin axırlarında Yaponiya rəqabətqabiliyyətlilik amilinə görə liderlər sırasına çıxmışdır. Həmin dövrdə ona Asiyanın Yeni Sənaye Ölkələri – Sinqapur, Honkonq, Tayvan qoşulmuşdur. Lakin 90-cı illərin ortalarında ABŞ yenə də rəqabətqabiliyyətliliyə görə dünyanın liderləri sırasına çıxmışdır. 2007-2008-ci il böhranına qədər 1990-2000-ci illərdə dünya ticarətinin həcmi ildə orta hesabla 6 faiz artmışdır.ÜTT-nin məlumatına görə 2007-ci ildə dünyada əmtəə və xidmətlərin ixracı 16 trilyon ABŞ dolları olmuşdur.

Dünyanın ümumi ticarət həcminin 80 faizi əmtəələrin, 20 faizi isə xidmətlərin payına düşmüşdür. 2012-ci ildə dünyada əmtəə və xammalın illik ticarət dövriyyəsi 20 trilyon dollara yaxın olmuşdur. YUNKTAD-ın 2013-cü il hesabatına görə dünyada əmtəə və xidmətlərlə ticarətin 2010-cu illərə qədərki artım tempi 2011-ci ildə yenidən azalaraq 5 faizə qədər, 2012-ci ildə 2 faizə qədər aşağı düşmüşdür. 2017-ci ildə dünya ticarətinin artım tempi 4,6 faiz, 2018-ci ildə isə 3 faizə qədər olmuşdur.

2008-ci ildən başlayaraq hər il Ümumdünya İqtisadi Formunun (Davos Formunun) "Dünya ticarətinin vəziyyəti və stimullaşdırılması" məruzəsi nəşr edilir. Bu məruzədə dünya ölkələrində malların və investisiyaların sərhəddən keçirilməsinin əlverişli şərait dərəcəsi və

bu kimi göstəricilər üzrə reytinqi verilir. Bununla da hər il dünya ölkələrinin ticarət və investisiya vəziyyəti qiymətləndirilir.

Beynəlxalq ticarət – dövlətlər və ya onların milli təsərrüfatları arasında əmtəə və xidmətlərin mübadiləsi olub, dünyanın bütün ölkələrinin xarici ticarətinin məcmusudur.

Dünya iqtisadiyyatının bütün əlamətlər üzrə əsas obyekti beynəlxalq ticarətdir. Beynəlxalq ticarətin həyata keçirilməsi ilə bağlı olaraq dövlətlər, hökumətlər, hökumət qurumları və digər subyektlər arasında müəyyən ictimai münasibətlər əmələ gəlir ki, bu münasibətlər də beynəlxalq ticarət münasibətləri kimi təzahür edir. Beybəlxalq ticarət münasibətləri özündən daha geniş anlayış olan beynəlxalq iqtisadi münasibətlərin bir hissəsidir. Bütün iqtisadi münasibətlərin tarixi baxımdan ən qədimi, mexanizminə görə mürəkkəbi və məqsədinə görə ən çox gəlir gətirəni də məhz ticarət münasibətləridir.

Beynəlxalq ticarət münasibətləri ən sadə əmtəə mübadiləsindən başlamış, bir qədər artaraq ticarət tərəfdaşlığına, daha da genişlənərək ticarət əlaqələrinə çevrilmiş, miqyası və dairəsi böyüməklə ticarət əlaqələrinə, dövlətlərarası ticarət münasibətlərinə, beynəlxalq ticarət obyektinə gəlib çatmışdır.

Fəaliyyət sahəsi kimi ticarət çox qədim, tarixi baxımdan beynəlxalq iqtisadi fəaliyyət sahəsi kimi çox yenidir və cavandır.

Bu terminin elmi dövriyyəyə daxil edilməsinə və onun beynəlxalq sənədlərdə istifadə olunmasına, xüsusilə 1966-cı ildə BMT-nin Baş Assambleyası tərəfindən Beynəlxalq Ticarət Hüququ üzrə BMT Komissiyasının – YUNSİTRAL (United National Commission on International Trade Law) yaradılmasına böyük təsir göstərmişdir. XX əsrin ortalarında yaranmasına və nisbətən yeni termin olmasına baxmayaraq, beynəlxalq ticarət hüququnun öz tarixi qədimdir. Beynəlxalq ticarət hüququ ilə tənzimlənən münasibətlərin – beynəlxalq ticarət münasibətlərinin yaranması, beynəlxalq ticarətin həyata keçirilməsi qədim dövrlərə gedib çıxır. Beynəlxalq ticarət münasibətləri beynəlxalq əmək bölgüsü, onun əsas formalarından biri olan istehsalın beynəlxalq ixtisaslaşması nəticəsində əmələ gəlmişdir.

Tarixin elə bir dövrü gəlib çatmışdır ki, həmin dövrdə əmtəələr (mallar, məhsullar) təkcə şəxsi – ailə istehlakı üçün deyil, digər ehtiyacları ödəmək üçün həm də satış məqsədilə istehsal edilmişdir. Satış məqsədilə istehsal olunmuş mallar isə, təbii ki, ticarət əlaqələrinin, sonra isə genişlənərək xarici ticarət əlaqələrinin yaradılması zərurətini ortaya çıxarmış, əvvəlcə ikitərəfli, genişlənmə nəticəsində çoxtərəfli xarici ticarət əlaqələrinin yaranmasına, ticarət-iqtisadi xarakterli müqavilə və sazişlərin bağlanmasına gətirib çıxarmışdır. Əvvəllər belə müqavilələr qəbilə-tayfa qurumları arasında bağlanırdı. Sonralar isə təkmilləşərək alqı-satqı, başqa sözlə ticarət müqavilələri müxtəlif ölkələrin vətəndaşları – tacirləri, daha sonra firmaları, müəssisələri, dövlət və hökumət qurumları, beynəlxalq təşkilatları və s. arasında bağlanmağa başlanmışdır.

Beynəlxalq ticarət əmtəələrin, xidmətlərin və əqli mülkiyyət məhsullarının mübadiləsi, alqı-satqı proseslərinin məcmusudur. Bu ticarət vasitəsilə dünya ölkələri öz tələbatlarını təmin edirlər. Bu da onu sübut edir ki, beynəlxalq ticarət beynəlxalq əmək bölgüsü nəticəsində müxtəlif ölkələrin əmtəə istehsalçıları arasında əlaqə formasıdır.

"Beynəlxalq ticarət" Xarici ticarət" demək deyildir. Bu anlayışları bir-birindən fərqləndirmək lazımdır:

1. "Beynəlxalq ticarət" "xarici ticarət" anlayışından daha genişdir;
2. Beynəlxalq ticarət müxtəlif ölkələrin xarici ticarətlərinin məcmusudur;
3. Bütün dünya ölkələrinin ticarətinin məcmusuna beynəlxalq ticarət deyilir;
4. Beynəlxalq ticarətin coğrafiyası daha genişdir;
5. Beynəlxalq ticarətin əmtəə strukturu daha mürəkkəbdir;
6. Xarici ticarət hər hansı bir ölkənin digər ölkələrlə ticarəti deməkdir;
7. Xarici ticarət iki ölkə arasında, beynəlxalq ticarət isə daha çox ölkə arasında aparılır;

8. Xarici ticarət əlaqələrində az, beynəlxalq ticarət əlaqələrində daha çox ölkə iştirak edir;
9. Xarici ticarətin coğrafiyası və əmtəə strukturu məhduddur;
10. Xarici ticarət dövriyyəsi az, beynəlxalq ticarət dövriyyəsi daha çoxdur;
11. Beynəlxalq ticarət həm dövlətlər, həm də ayrı-ayrı ölkələrin şəxsləri arasında həyata keçirilir və s.

Beynəlxalq ticarət mürəkkəb iqtisadi kateqoriya olduğu üçün ona üç aspektdən – təşkilati-texniki, təşkilati-bazar və sosial-iqtisadi aspektdən yanaşılmalıdır.

Təşkilati-texniki aspektdən beynəlxalq ticarət ölkələrin dövlət tərəfindən rəsmiləşdirilmiş milli təsərrüfatları arasında əmtəələrin və xidmətlərin hərəkətinin fiziki həcmini öyrənir.

Sosial-iqtisadi aspektdən beynəlxalq ticarət ictimai-iqtisadi münasibətlərin xüsusi tipi kimi əmtəə və xidmətlərin mübadiləsi prosesində dövlətlərin iqtisadi inkişaf səviyyəsinə təsirini öyrənir.

Beynəlxalq ticarətin qiymətləndirilməsinin əsas göstəriciləri aşağdakılar hesab edilir:

- Dünya əmtəə dövriyyəsinin dəyər və fiziki həcmi;
- Dünya ölkələrinin əmtəə dövriyyəsinin ümumi, əmtəə və coğrafi strukturu;
- İxracın ixtisaslaşma və sənayeləşmə səviyyəsi;
- Beynəlxalq ticarət, ixrac və idxal, ticarət şəraitinin elastiklik əmsalı;
- Xarici ticarət, ixrac və idxal kvotası;
- Ticarət balansı və s.

Tanınmış fransız iqtisadçı alimi Mişel Pebro yazır ki, "Beynəlxalq ticarət istehsalın motorudur... İqtisadiyyat çox və daha çox əmtəə və xidmətlərin xarici ticarətindən asılıdır[1]. Dünya iqtisadiyyatının inkişafı ticarətlə başlamışdır.

Hər bir ölkədə, ərazidə özünün iqtisadi və çoğrafi xüsusiyyətlərinə görə müəyyən bir əmtəə müəyyən bir dövrlərdə pul rolunu oynamışdır. Məsələn, Romada – mis, Yunanıstanda – dəmir, mis parçaları və qaramal kəlləsi, Rusiyada – xəz, dəri, Afrikada – fil sümüyü, Hind okeanı sahillərində - balıqqulağı, Çində - çay, Ərəbistanda – qaramal və s. belə pullardan idi. Hətta bir zaman qulun özü də pul rolunu oynamışdır. XIX əsrin sonlarında Afrikanın bəzi yerlərində, Qərbi Sudanda qul qiymət vahidi idi. Görünür, Azərbaycanda da ilk zamanlar pul rolunu qaramal oynamışdır. Məlumdur ki, indi də xalq arasında çox vaxt növündən asılı olmayaraq hər bir əmtəəyə "mal" deyirlər (ərzaq malları, təsərrüfat malları və s.)[2]. Ona görədə nəzəri iqtisadiyyat mövqeyindən qəbul edilmiş əmtəələr dedikdə faktiki olaraq alqı-satqı obyekti olan bütün mallar, məhsullar, xidmət və intellektual məhsullar başa düşülür.

Lakin heçdə bütün əmtəə və xidmətlər beynəlxalq ticarətin obyekti kimi çıxış etmirlər. Buna görə də ticarət edilə bilən və edilə bilməyən əmtəə anlayışları fərqləndirilir.

*Ticarət edilə bilinən əmtəələr* dedikdə müxtəlif subyektlər arasında hərəkət edə bilən əmtəələr nəzərdə tutulur. Onların qiymətləri həm daxili, həm də dünya bazarlarında tələb və təklifin qarşılıqlı təsiri ilə müəyyən edilir.

*Ticarət edilə bilinməyən əmtəələr* isə istehsal olunduğu ölkədə istehlak edilən və ölkələr arasında hərəkət etməyən əmtəələr başa düşülür. Onların qiyməti milli çərçivədə mövcud olan tələb və təklif nisbəti ilə müəyyən edilir.

Beynəlxalq ticarətin obyekti kimi əmtəələrin, xidmətlərin və əqli mülkiyyət məhsullarının çıxış etdiyini nəzərə alaraq onun üç forması - əmtəələrlə, xidmətlərlə və əqli məhsullarla beynəlxalq ticarəti baş verir.

*Əmtəələrlə beynəlxalq ticarət* müxtəlif ölkələrin əmtəə istehsalçıları arasında beynəlxalq əmək bölgüsü əsasında meydana gələn əlaqələr formasıdır.

---

[1] Мишелъ Пебро. Международные экономические, валютные и финансовые отношения (перевод с французского). Москва, Издателъская группа «Прогресс» «Универс», 1994, стр. 33

[2] Qara Əhmədov. Bu günə necə gəlib çıxmışıq. Azərbaycan Dövlət Nəşriyyatı. Bakı, 1989, səh.87

*Xidmətlərlə beynəlxalq ticarət* müxtəlif ölkələrin satıcıları və alıcıları arasında xidmətlərlə mübadiləni əks etdirən dünya təsərrüfat əlaqələrinin xüsusi bir formasıdır.

***Xarici ticarətin milli iqtisadiyyat üçün əhəmiyyətini*** ümumi şəkildə aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Xarici ticarət ölkənin istehsal və resurs çatışmazlığını aradan qaldırır;
2. Daxili tələbdən daha artıq istehsala maraq yaradır;
3. Rəqabəti artırır;
4. Daxili bazarın tələbatını ödəyir;
5. Gəlir əldə edilməsinə imkan verir;
6. İqtisadi dinamizmi gücləndirir və s.

***Beynəlxalq ticarətin dünya iqtisadiyyatı sistemində yeri*** aşağıdakılarla müəyyən edilir:

- ❖ Dünya təsərrüfat əlaqələrinin bütün formalarının (kapital ixracı, istehsal kooperasiyası, elmi-texniki əməkdaşlıq və s.) nəticələri məhz onun vasitəsilə reallaşdırılır;
- ❖ Əmtəələrlə beynəlxalq ticarətin inkişafı son nəticədə xidmətlərlə beynəlxalq mübadilənin dinamikasını müəyyən edir;
- ❖ Beynəlxalq ticarətin inkiaşfı regional iqtisadi inteqrasiyanın mühüm şərtidir və beynəlxalq əmək bölgüsünün daha da dərinləşməsinə şərait yaradır;
- ❖ Beynəlxalq ticarət xarici investisiya və beynəlxalq hesablaşmalar prosesini stimullaşdırır. və s.

***Beynəlxalq ticarət*** dedikdə bütün dünya ölkələrinin xarici ticarətlərinin məcmusunu əks etdirən əmtəə-pul münasibətləri sferası başa düşülür. Başqa sözlə, beynəlxalq ticarət müxtəlif ölkələrin satıcıları və alıcıları arasında əmək məhsulları (əmtəə və xidmətlər) ilə mübadilə sistemidir.

***Xarici ticarət*** isə milli təsərrüfatlar arasında əmtəə və xidmətlərlə mübadilədir. “Xarici ticarət” termini ancaq ayrıca götürülmüş ölkə üçün tətbiq edilə bilər.

***Beynəlxalq ticarətin subyektləri*** kimi aşağdakılar çıxış edir:

- ❖ Dünya ölkələri;
- ❖ Regional inteqrasiya qrupları;
- ❖ Transmilli, milli şirkətlər və s.

Beynəlxlaq ticarətdə kapitalın dövriyyəsinə görə birinci yerdə dünya maliyyə bazarı dayanır. XX əsrin sonlarına qədər daha çox dünya suda kapitalı bazarı adlandırılan bu bazar son 50-60 il ərzində xarici investisiyaların, səhmlərin, digər qiymətli kağızların, suda və kreditlərin sürətlə artmasına görə əvvəlki məzmunundan fərqlənərək dünya maliyyə bazarına çevrilmişdir.

Beynəlxalq Valyuta Fondunun qiymətləndirməsinə görə hazırda bu bazarda maliyyə məhsullarının dəyəri real iqtisadiyyat məhsullarının (əmtəə və xidmətlər) dəyərini 3,5 dəfə üstələyir (13-cü mövzuya bax).

## “Ticarət Allahı”

Qədim yunan mifologiyasına görə Qermes **“Ticarət Allahı”** sayılır. “Ticarət Allahı” kimi – ticarət hamisi, himayədarı və ya havadarı olan Qermesin heykəli qoyulmuşdur (Sağlam bədənli, şəstli, açıq geyimli, yanında oğlan uşağı olan, özündən razı cavan kişi heykəli). Bu mifologiyaya görə “Ticarət Allahı” ticarətdən gəlir, mənfəət, var-dövlət əldə etməyə, ağıllı, dəqiq, səbirli, çevik və düşünülmüş nəticə çıxarmağa və hərəkət etməyə kömək edir və arxada dayanır. Qermesin atası Zevs, anası isə Mayyadır. Tarixən peşəkar tacirlər, ticarətçilər və beynəlxalq ticarətçilər “Ticarət Allahı”nı özünə inam, ümid və gəlir əldə etmə rəmzi kimi qəbul etmiş, müqəddəs saymış və ona itaət etmişlər.

## 2. BEYNƏLXALQ TİCARƏTİ TƏNZİMLƏYƏN ƏSAS BEYNƏLXALQ TƏŞKİLATLAR

Beynəlxalq ticarəti tənzimləyən əsas beynəlxalq təşkilatlar yaradılması ardıcıllığına görə aşağıdakılardır:

1. 1919-cu il: Beynəlxalq Ticarət Palatası (BTP);
2. 1944-cü il (qərar qəbul edilib): Beynəlxalq Valyuta Fondu (BVF – IMF), Dünya Bankı (DB – WB), Beynəlxalq Ticarət Təşkilatı (yaradılmadı);
3. 1946-cı il: Beynəlxalq Standartlaşdırma Təşkilatı (BST – ISO);
4. 1947-ci il: GATT sazişi;
5. 1953-cü il: Dünya Gömrük Təşkilatı (DGT);
6. 1964-cü il: YUNKTAD;
7. 1966-cı il: YUNSİTRAL;
8. 1967-ci il: Ümumdünya İntellektual (Əqli) Mülkiyyət Təşkilatı (WIPO);
9. 1994-cü il: ÜTT (WTO), GATT, GATS və TRİPS sazişləri.

Bu təşkilatlar və sazişlər ətraflı "Beynəlxalq İqtisadi Təşkilatlar" fənnində öyrənilir. Burada bəzi əsas məlumatlar verilir.

### Beynəlxalq Ticarət Palatası (BTP) – International Chamber of Commerce (ICC)

Beynəlxalq ticarət sahəsində ilk beynəlxalq təşkilatdır. 1919-cu ildə yaradılmışdır. Qərargah mənzili Parisdə yerləşir. 110 ölkə, 6 mindən çox şirkət, 1500-dən artıq Sahibkarlar İttifaqı bu palatanın üzvüdür. Qeyri-Hökumət Təşkilatıdır. İNCOTERMS-ləri (sonuncu "İNCOTERMS – 2020") bu təşkilat qəbul edir.

**Dünya iqtisadiyyatı sisteminin 3 dayaq sütunu aşağıdakılardır:**

1. **Beynəlxalq Valyuta Fondu (BVF – IMF);**
2. **Dünya Bankı (DB – WB);**
3. **Beynəlxalq Ticarət Təşkilatı – Ümumdünya Ticarət Təşkilatı (ÜTT – WTO).**

İkinci Dünya müharibəsinin getdiyi bir vaxtda – 1944-cü ilin iyul ayında ABŞ-ın Nyu-Qempşir ştatının Bretton-Vuds şəhərində keçirilən dünya valyuta-maliyyə konfransında BVF, DB və BTT-nin yaradılması haqqında qərar qəbul edilmişdir.

BVF və DB yaradılmış, 1947-ci il yanvarın 1-dən fəaliyyətə başlamış, BTT (ÜTT) isə 47 il sonra 1994-cü ildə yaradılmışdır.

### Beynəlxalq Standartlaşdırma Təşkilatı (BST) – International Organization for Standartization – ISO

1946-cı ildə yaradılmış və 1947-ci ildə fəaliyyətə başlamışdır. Qərargah mənzili Cenevrədədir. 164 üzvü vardır. QHT-dir. Beynəlxalq standartların hazırlanması ilə məşğuldur.

### GATT sazişi

GATT (TTBS) beynəlxalq ticarət sahəsindəki ilk sazişdir. TTBS – "Tariflər və Ticarət üzrə Baş Saziş" (GATT – General Agreement of Tarifs and Trade).

BMT-nin nizamnaməsi 21 noyabr 1947-ci il 24 mart, 1948-ci ildə Havanada (Kuba) keçirilən ticarət və məşğulluq məsələləri konfransında qəbul edilmiş və imzalanmışdır. Lakin ratifikasiya edilmədiyi üçün rəsmi beynəlxalq təşkilat kimi yaranmamışdır. 30 oktyabr 1947-

ci ildə Cenevrədə 23 dövlət tərəfindən onu əvəz edən QATT sazişi imzalanmış, 1994-cü ilə qədər beynəlxalq saziş və qeyri-formal beynəlxalq təşkilat kimi fəaliyyət göstərmişdir.

**Dünya Gömrük Təşkilatı (World Customs Organization)**

23 yanvar 1953-cü ildə yaradılmışdır. Brüsseldə yerləşir (Belçika). 182 üzvü vardır. Rəsmi dilləri ingilis və fransız dilləridir. Malların kodlaşdırılması, harmonizasiyası, təfsiri, gömrük prosedurаları və s. bu kimi məsələlər üzrə konvensiyalar qəbul edir (XİFƏN və s.).

**YUNCTAD – United Nations Conference on Trade and Development**

BMT-nin Ticarət və İnkişaf Konfransı (BMTTİK). 1964-cü ildə yaradılmışdır. Cenevrədə yerləşir. 195 ölkəni birləşdirir. Ticarət və investisiyalar üzrə hər il hesabatlar (report) nəşr edir.

**BMT-nin Beynəlxalq Ticarət Hüququ Komissiyası (YUNSİTRAL) – United Nations Commission on International Trade Law (UNCITRAL)**

1966-cı ildə yaradılmışdır. Vyanada yerləşir. BMT-nin Baş Assambleyasının köməkçi, beynəlxalq ticarət hüququ sahəsində mərkəzi hüquqi orqanıdır. Bu sahədə zəruri olan konvensiyalar, sazişlər və qanunlar qəbul edir.

**Ümumdünya İntellektual (Əqli) Mülkiyyət Təşkilatı (WIPO – World Intellectual Property Organization)**

1967-ci ildə yaradılıb (de-fakto 1893-cü ildən). Qərargah-mənzili Cenevrədədir. 193 dövlət üzvüdür, 90-dan çox ölkədə nümayəndəlikləri vardır. **Təşkilati strukturuna daxildir**:

Baş Assambleya;

WIPO Konfransı;

3.Kordinasiya Komitəsi;

4.Beynəlxalq Büro.

**Aparat strukturuna daxildir:**

Baş Direktor;

Daimi Komitələr;

Uzunmüddətli Komitələr;

İşçi qruplar.

**Ümumdünya Ticarət Təşkilatı (ÜTT – WTO)**

ÜTT “Tariflər və Ticarət üzrə Baş Sazişin” (GATT) varisi kimi 1 yanvar 1995-ci ildə fəaliyyətə başlayan beynəlxalq təşkilatdır. Dünya ticarətinin 97 faizini əhatə edən 182 üzvü (2020-ci ilə) və 24 müşahidəçisi vardır. Dövlətlər arasında ticarətin qlobal qaydalarını müəyyənləşdirən əsas beynəlxalq təşkilatdır. Əsas vəzifəsi ölkələr arasında tarazlı, maneəsiz, şəfaf və azad ticarət aparılmasını təmin etməkdir. Məqsədi üzv ölkələrin əhalisinin rifah halının yaxşılaşdırılmasıdır. Çoxtərəfli ticarət sazişləri əsasında ölkələrarası ticarət münasibətlərinin tənzimlənməsini həyata keçirir. Qərarlar Konsensus əsasında bütün üzvlərin razılığı ilə qəbul edilir. Təşkilatın ali qərar qəbuledici orqanı 2 ildə bir dəfə keçirilən Nazirlər Konfransıdır. Qərargah-mənzili Cenevrədədir. Rəsmi dilləri ingilis, fransız və ispan dilləridir. ÜTT-nin

qərarları bütün üzv ölkələrdə parlament tərəfindən ratifikasiya olunur. Azərbaycan ÜTT-nin üzvü deyildir, müşahidəçi qismində çıxış edir, qarşıdakı illərdə üzv olması gözlənilir.

### GATS sazişi

GATS – General Agreement on Trade in Services (Xidmətlərlə Ticarət üzrə Baş Saziş – XTBS) 1994-cü ildə GATT-ın 8-ci – Uruqvay raundunda (Uruqvay – Cenevrə) qəbul edilib. "GATT – 47" sazişində xidmət sektoru əhatə edilməmişdi. Ona görə də "GATS – 94" sazişi qəbul edildi, ÜTT üzvlərinin xidmətlərlə ticarət rejminin əsasları, onların hüquq və öhdəlikləri bu sazişdə öz əksini tapdı. GATS sazişi haqqında bu dərs vəsaitinin 9-cu mövzusunda məlumatlar verilib.

### "Əqli (intellektual) mülkiyyətin ticarət aspektlərinə dair saziş" – (TRİPS – Agreement on Trade Related Aspects of Intellectual Property Rights)

1994-cü ildə Uruqvay raundunda digər sazişlərlə bir yerdə qəbul edilib. TRİPS ilə aşağıdakı hüquqlar qorunur:

- ❖ 1-ci bölmə: Müəlliflik hüquqları (elm, ədəbiyyat və incəsənət əsərlərinin müəllifliyini müəyyən edir);
- ❖ 2-ci bölmə: Əmtəə nişanları (müəssisənin mal və xidmətlərinin mənsubluğunu müəyyən edir);
- ❖ 3-cü bölmə: Coğrafi göstəricilər ( malın mənşəyini – ölkəni, regionu müəyyən edir);
- ❖ 4-cü bölmə: Sənaye mülkiyyəti nümunələrini qoruyur (istehsal sirri – "nou-hau" və s.);
- ❖ 5-ci bölmə: Patent (ixtira) hüququ;
- ❖ 6-cı bölmə: İnteqral sxemlərinin topologiyası;
- ❖ 7-ci bölmə: Məxfi (qapalı) informasiyalar.

TRİPS sazişinin (müqaviləsinin) iştirakçıları ÜTT (WTO) üzvü olan ölkələrdir.

## 3. BEYNƏLXALQ TİCARƏTİN STRUKTURU VƏ TƏSNİFATI

Dünyada, yer kürəsində istehsal olunan, becərilən və hasil edilən bütün məhsullar daxili və xarici ticarətlə realizə olunur.

Beynəlxalq ticarət dövlətlərin qitələrdə, dünyanın qitələr üzrə regionlarında, yarımada, ada, dəniz və okean ətrafında yerləşməsindən asılı olaraq xarici ticarətinin məcmusu olduğuna görə onun çox müxtəlif əlamətləri üzrə strukturu formalaşmışdır. Əsasən 12 əlamət üzrə beynəlxalq ticarətin strukturu 11.1-11.2-ci sxemlərdə verilir.

Sxemlərdən görünür ki, beynəlxalq ticarət çox müxtəlif əlamətlərə - əhatə, ərazi dairəsinə, predmetinə, tərəflərin sayına, əlaqələrin tərkibinə, səviyyəsinə, ticarət rejminə, fəaliyyət mexanizminə, aparılma mərhələlərinə, predmetlərin sayına, təşkilati formasına və digər əlamətlərinə görə qruplaşdırılır.

Əhatə dairəsinə görə ticarət əvvəlcə yerli (lokal) və böyük ərazili və çoxsubyektli ölkələr üçün xarakterik olan daxili ticarətə, ardınca ikitərəfli xarici ticarətə, sonra isə çoxtərəfli dövlətlərarası qlobal ticarətə bölünürlər. Burad ölkələrin inzibati - ərazi strukturu, unitar, federativ və konfederativ strukturu, ərazi vahidləri və s. əlamətlər üzrə ticarətində fərqli xüsusiyyətlər vardır.

Ərazi əlamətinə görə ölkələrin qitədaxili, ada, yarımada, anklav, eksklav, açıq dənizə çıxışı olan, bir sərhədli və çox sərhədli ölkələrinin daxili və xarici ticarətində bir-birindən fərqli ticarət formaları və əməliyyatları baş verir. Daxili ticarətə ölkənin milli və iqtisadi

sərhəd ərazi subyektləri arasında baş verən, xarici ticarətə ölkələrin milli sərhədlərindən kənar subyektlər arasındakı ticarət əlaqələri daxil edilir.

Alqı-satqı obyektinin predmetinə görə əmtəələrlə ticarət özü xammal, yarımfabrikat, hissələr, kompleksləşdirici məmulatlar, detallar və s. məhsullarla ticarət və hazır məhsullarla ticarətə bölünür. Burada əsasən Xarici İqtisadi Fəaliyyətin Əmtəə Nomenklaturundan istifadə edilir. Xidmətlərlə ticarətin 16 növünün hər birinin fərqləndirici xüsusiyyətləri vardır. Xüsusilə ölkələrin milli qanunvericiliyinə görə aparılması mexanizmi dəyişir. İntellektual (əqli) məhsulların (mülkiyyətin) xarici ticarəti tamamilə fərqli hüquqi aspektlərə malikdir və göstərildiyi kimi TRİPS sazişi və ölkələrin milli qanunvericiliyi ilə birgə aparılır.

Tərəflərin sayına görə beynəlxalq ticarət ikitərəfli və çoxtərəfli ticarətə bölünürlər. İkitərəfli ticarətə iki ölkə - subyekt arasında baş verən, çoxtərəfli ticarətə üç və daha çox subyekt arasında baş verən ticarət əlaqələri daxil edilir. İkitərəfli xarici ticarət yalnız bu əlaqələrə girən iki xarici ölkə subyektləri arasındakı qarşılıqlı razılaşmalar əsasında, çoxtərəfli beynəlxalq ticarət isə çoxtərəli razılaşmalar əsasında həyata keçirilir.

**Beynəlxalq ticarətin strukturu**

**Sxem 11.1**




**Sxem 11.2**




**Sxem 11.3**



**Sxem 11.4**




**Sxem 11.5**




**Sxem 11.6**




**Sxem 11.7**




**Sxem 11.8**



**Sxem 11.9**




**Sxem 11.10**




**Sxem 11.11**




**Sxem 11.12**




11.5-ci sxemdən göründüyü kimi əlaqələrin tərkibinə görə beynəlxalq ticarət beş hissədən ibarət olur. Ölkələrin iqtisadi sahələri (aqrokultur, industriya, xidmət) daxilində baş verən ticarətə sahədaxili beynəlxalq ticarət, sahələr arasında baş verən ticarətə sahələrarası beynəlxalq ticarət, ayrı-ayrı ölkələrdə yerləşmiş firmalar daxilində baş verən ticarətə firmadaxili (məsələn, “Nestle” şirkətinin ayrı-ayrı ölkələrdəki firmaları arasında) beynəlxalq ticarət, müxtəlif sahələrin firmalar arasında baş verən ticarətə firmalararası beynəlxalq ticarət, mağaza, market, ticarət mərkəzləri, mollar və s. ticarət nöqtələri ilə fiziki (hüquqi) şəxslər-alıcılar arasında baş verən ticarətə mağaza-alıcı ticarəti deyilir.

Beynəlxalq ticarət aparılma səviyyəsinə görə makrosəviyyədə və mikrosəviyyədə baş verir. Makrosəviyyəli ticarətə dövlətlər, hökumətlər, hökumət orqanları (nazirlik, dövlət komitələri, dövlət şirkətləri, agentliklər, dövlət xidmətləri, idarələri, və s.), beynəlxalq təşkilatlar, beynəlxalq birjalar arasında əmələ gələn beynəlxalq ticarət, mikrosəviyyəli ticarətə milli, transmilli şirkətlər, hüquqi şəxslər, ticarət firmaları, mərkəzləri, mağazalar, marketlərin və s. ticarəti daxil edilir.

Ticarət rejiminə görə beynəlxalq ticarət adi, ən əlverişli, imtiyazlı və diskriminasiyalı (ayrıseçkili) ticarət rejimlərinə bölünür. Adi (ənənəvi) rejimdə tərəflər sərbəst, hər tərəfin maraqlarına cavab verən və qarşılıqlı razılaşma yolu ilə ticarət əlaqələrində iştirak edirlər. Ən əlverişli ticarət rejimində tərəfdaşlar bir-birinə ən sərfəli, rahat və xeyirli şərait yaradır, imtiyazlı (preferensial) ticarət rejimində tərəfdaşlara bəzi imtiyazlar və ya üstünlüklər verilir,

diskriminasiyalı (ayrıseçkili) ticarət rejimində tərəfdaşlar arasında ayrıseçkilik qoyulmaqla tərəfdaşlara müxtəlif vergi və rüsum fərqləri tətbiq edilir.

Beynəlxalq ticarət subyektləri fəaliyyət mexanizminə görə pərakəndə, topdan, birja, torq (tender), auksion (hərrac), yarmarkalar və sərgilərə bölünür. Pərakəndə ticarət alıcılara (istehlakçılara) son satışı həyata keçirən, topdan ticarət pərakəndə ticarət müəssisələrinə (nöqtələrinə) və alıcılara (istehlakçılara) son satışı həyata keçirən, birja ticarəti səciyyəvi birja məhsullarının topdansatış qaydasında alıcılara satışını aparan, torqlar (tenderlə ticarət) ən yaxşı və ən üstün şərtlərlə malların satın alınmasını təşkil edən, auksionlar (hərraclar) satılan predmetə (obyektə) sonuncu ən çox qiymət verib almaqla aparılan ticarət, yarmarkalar və sərgilər ən yeni istehsal edilən, alıcılara reklam edilmək üçün məhsulların nümayiş etdirilməsi və müstəsna hallarda satışını aparan təşkilati-texniki struktur subyektləridir. Aparılma mərhələlərinə görə beynəlxalq ticarət istehsal, kommersiya və ticarət müəssisələri mərhələsində aparılan ticarətə bölünür. Müxtəlif ölkələrin istehsal müəssisələrində (fabrik, zavod, firma, birlik və s.) aparılan ticarət – istehsal mərhələsində beynəlxalq ticarət, müxtəlif ölkələrin istehsal və kommersiya mərhələlərində aparılan ticarət – kommersiya mərhələsində aparılan beynəlxalq ticarət, ticarət mərkəzlərində aparılan ticarət (“Mall of America” “Dream Mall”, “Cəvahir”, “Dubay Mall”, “Vegas”, “Qolden Resurs”, “Çin Mall” və s. ticarət mərkəzləri) ticarət mərkəzlərində aparılan ticarət hesab edilir.

Məqsədinə görə beynəlxalq ticarət istehsal, elmi-texniki, satış (firma), marketinq və sənaye əməkdaşlığı istiqamətində aparılan ticarətə bölünür. İstehsal istiqamətində aparılan beynəlxalq ticarət ölkədə istehsalın təşkili, artırılması və genişləndirilməsi, elmi-texniki istiqamətdə aparılan beynəlxalq ticarət innovasiyaların və yeni texnologiyaların tətbiqi, satış (firma) istiqamətində aparılan beynəlxalq ticarət firmaların satış həcminin daha da artırılması, marketinq istiqamətində aparılan beynəlxalq ticarət bazarın daha da genişləndirilməsi və sənaye əməkdaşlığı istiqamətində aparılan beynəlxalq ticarət ölkələr arasında əməkdaşlığın gücləndirilməsini və son nəticədə daha çox mənfəət əldə edilməsi məqsədini qarşıya qoyur.

Beynəlxalq ticarət predmetlərinin sayına görə bir predmetli və çox predmetli olur. Bir predmetli beynəlxalq ticarətin alqı-satqı obyekti bir məhsuldan (neft, buğda və s.), çox predmetli beynəlxalq ticarətin alqı-satqı obyekti çoxsaylı məhsullardan (dəmir, ağac və s.) ibarət olur.

Təşkilati formasına görə beynəlxalq ticarət kontraktlı (müqaviləli), birgə proqramlı və birgə müəssisəli olur. Tərəflərin qarşılıqlı razılığı ilə bağlanmış kontrakt əsasında aparılan ticarət kontraktlı, müəyyən dövr üçün birgə qəbul edilmiş proqramdan irəli gələn ticarət birgə proqramlı, çoxsaylı tərəflərin iştirakı ilə yaradılmış müəssisənin apardığı ticarət birgə müəssisəli beynəlxalq ticarətdir.

Bütün əlamətlər üzrə beynəlxalq ticarətin aparılması aləti müqavilədir (kontraktdır). Beynəlxalq alqı-satqı müqavilələrinə kontrakt deyilir. Müqavilə kontrakt funkisyasını yerinə yetirə bilər. Kontrakt (alqı-satqı müqavilələri) müqavilə funkisyasını yerinə yetirə bilməz. Kontraktların quruluşu, əsas hissələri, məzmunu, qəbulu, reyestri və ləğv edilməsi ayrıca bir mövzuda öyrənilməlidir.

## 4. XARİCİ TİCARƏT SİYASƏTİ

Politika (siyasət) yunan sözü olub, bir çox mənalarda – “Poli” – çoxluq, “tokos” – maraqlar, yəni maraqlar çoxluğu, dövlət fəaliyyəti, idarəetmə üslubu, münasibətlər strategiyası və s. mənalarda işlədilir. İlk dəfə b.e.ə. IV əsrdə Aristotel tərəfindən bu termin istifadə edilmişdir. Bu terminə 17 mənada tərif verilir: Mümkünlər incəsənəti; dövlət işlərində iştirak; resursların idarə edilməsi; təşkilatların fəaliyyəti; idarəetmə qabiliyyəti; ən yaxşı yolun seçilməsi istedadı və s.

Siyasət fəaliyyət istiqamətinə, sahəsinə, miqyasına, məzmununa, subyektlərinə və s. əlamətəərinə görə növlərə bölünür. Siyasətin istiqamətinə görə növləri 11.1-ci cədvəldə verilir.

**Cədvəl 11.1**

**Siyasətin istiqamətinə görə növləri**

| İqtisadi siyasətin növləri | Sosial siyasətin növləri |
|---|---|
| - Ticarət<br>- Maliyyə<br>- Valyuta<br>- Gömrük<br>- İnvestisiya<br>- Büdcə<br>- Bank<br>- Sığorta<br>- Kredit<br>- Turizm və s. | - Təhsil<br>- Elm<br>- Miqrasiya<br>- Demoqrafiya<br>- Humanitar<br>- Səhiyyə<br>- Mədəniyyət<br>- Milli<br>- Ailə<br>- Gənclər<br>- İdman<br>- Pensiya<br>- Dini və s. |

11.1-ci cədvəldən göründüyü kimi iqtisadi və sosial siyasətin 20-dən artıq, təkcə iqtisadi siyasətin 10-dan artıq növü vardır. Onları bir-birindən ayrı icra etmək mümkün deyil, qarşılıqlı əlaqə və asılılıqdadır. Hər bir siyasət növü ayrıca bir mövzunun predmetidir. İqtisadi siyasət növləri arasında ölkəyə daha çox gəlir gətirməsinə görə ticarət siyasəti, mürəkkəbliyinə və əhəmiyyətinə görə xarici ticarət siyasəti daha çox diqqəti cəlb edir. Hər bir ölkənin xarici ticarət siyasətinin əsas məqsədləri – ölkənin BƏB-də iştirakının ən səmərəli yollarını tapmaq, ixracın həcminin artırılması, idxalın həcminin azaldılması, hazır məhsulların ixracına nail olunması, xammal və yarımfabrikatların ixracının azaldılması, ölkə üçün zəruri əmtəə, mal, xammal, material, texnika və texnologiyaların ölkəyə gətirilməsinə təsir etmək, ixrac və idxal qiymətlərinin reallığını stimullaşdırmaq, maksimum azad, sərbəst və liberal xarici ticarət şəraiti yaratmaq, inhisarçılığın qarşısını almaq və s. bu kimi funksiyalardır.

Dünya iqtisadiyyatında ölkələr müxtəlif əmtəə bazarlarında müxtəlif paya və mövqelərə malik olurlar. Dünya bazarında iştirak etmək, bu bazarda özünün maraq və mənafelərini qorumaq üçün beynəlxalq ticarət münasibətlərində iştirak edən subyektlər ən səmərəli və gəlirli üsul və yollardan istifadə edirlər ki, bu hərəkətlərin ümumiləşmiş yolu xarici ticarət siyasətidir. Dövlətin (ölkənin) digər dövlətlərlə xarici ticarət münasibətlərinin tənzimlənməsi və inkişafına yönəldilmiş məqsədyönlü fəaliyyətin məzmununa xarici ticarət siyasəti deyilir.

Ölkənin xarici ticarət siyasəti xarici ticarət metodları (alətləri) ilə tənzimlənir ki, bu alətlər də 11.13-cü sxemdə verilmişdir[1].

Dövlətin milli iqtisadi mənafeyi və maraqların qorunması məqsədilə xarici ticarət siyasətində üç siyasət istiqaməti – proteksionist, mülayim və açıq (azad) ticarət istiqaməti tətbiq edilir. Bu istiqamətlərin əsasında xarici ticarət siyasəti dayanır. Tarif metodlarının əsas alətləri olan gömrük rüsumları və tarif kvotası idxal əməliyyatlarının tənzimlənməsində, qeyri-tarif metodlarının kəmiyyət (miqdar) metodlarının əsas alətləri olan kvotalaşdırma və lisenziyalaşdırma idxal əməliyyatlarının, lisenziyalaşdırma və könüllü məhdudlaşdırma ixrac əməliyyatlarının, gizli metodlar olan dövlət alışları, yerli komponentlərdən istifadə, texniki maneələr, vergi və yığımlar yenə də idxal əməliyyatlarının, maliyyə metodları subsidiyalar, kreditləşdirmə, dempinq və s. metodlar isə ixrac əməliyyatlarının tənzimlənməsində tətbiq edilir.

[1] Киреев А. Международная экономика. М., «Международные отношения», 1999, 4.1, стр. 200

**Sxem 11.13**

**Ticarət siyasəti alətlərinin təsnifatı**

| **Metodlar** | **Ticarət siyasəti alətləri** | **Tənzimləyici əməliyyatlar** | |
|---|---|---|---|
| Tarif metodları | 1. Gömrük rüsumları<br>2. Tarif kvotası | | İdxal<br>İdxal |
| Qeyri-tarif metodları:<br>I. Kəmiyyət (miqdar) metodları | 1. Kvotalaşdırma<br>2. Lisenziyalaşdırma<br>3. Könüllü məhdudlaşdırma | ixrac<br>ixrac | idxal<br>idxal |
| II. Gizli metodlar | 1. Dövlət alışları<br>2. Yerli komponentlərdən istifadə<br>3. Texniki maneələr<br>4. Vergi və yığımlar | | idxal<br>idxal<br>idxal<br>idxal |
| III. Maliyyə metodları | 1. Subsidiyalar<br>2. Kreditləşdirmə<br>3. Demping | ixrac<br>ixrac<br>ixrac | idxal<br>idxal<br>idxal |

Dünya ölkələrində xarici ticarətin dövlət tənzimlənməsi metodları tətbiq edilir ki, bu metodlar 11.14-cü sxemdə verilir.

**Sxem 11.14**

**Xarici ticarətin dövlət tənzimlənməsi metodları**



Bütün dünya ölkələrində xarici ticarətin iqtisadi effektivliyi onun 11.14-cü sxemdə verilən dövlət tənzimləməsi metodları ilə birbaşa bağlıdır. Bu metodlar ölkənin xarici ticarətinin barometri hesab edilir. Daxili bazarı qorumaq, yerli istehsalı artırmaq, qiyməti sabit saxlamaq, əhalinin tələbatını təmin etmək, büdcə gəlirlərini artırmaq, ölkəyə möhkəm valyuta gətirmək, ölkədən valyuta çıxışının qarşısını almaq və s. birbaşa bu metodlarla tənzimlənir.

Dünya ölkələrinin xarici ticarət siyasətində aşağıdakı dövlət təsir vasitələri mühüm rol oynayır:

1. Mərkəzi bankların faiz dərəcələri;
2. Gömrük tarifləri və rüsumları;
3. Neft qiymətləri;
4. İnflyasiya səviyyəsinin aşağı salınması (sabit saxlanılması);
5. Milli valyutanın məzənnəsinin sabit saxlanılması və s.

Faiz dərəcələrinin aşağı salınması iqtisadi inkişafı hərəkətə gətirir və artırır. Gömrük tarifləri və rüsumları idxalın və ixracın səviyyəsinə təsir edir. Neft qiymətləri digər bütün qiymətlərə və ölkənin valyuta ehtiyatlarına təsir edir. Məsələn, hər gün (05.01.2020: neft qiymətləri 65-dən 70 dollara qalxdığı vaxt) Azərbaycandan 700 min barel neft ixrac edilirdi. Əgər bir gündə dünya bazarında neftin qiyməti 1 dollar qalxırdısa, Azərbaycan 700 min dollar, bir ay ərzində 5 dollar qalxırdısa, 105 mln dollar əlavə neft gəliri gətirmiş olurdu.

İnflyasiyanın sabit saxlanılması milli valyutanın gücünü artırır. Milli valyutanın məzənnəsinin sabit saxlanılması onun ehtiyatlarının və əhalinin banklara olan ehtibarının artmasına səbəb olur.

Demək olar ki, dünyanın bütün ölkələrinin milli valyutalarının məzənnəsi dünyanın əsas valyutası olan ABŞ dolları ilə birbaşa bağlıdır. Dollar 30-a qədər ölkə və ərazinin milli pul vahididir. Şifahi və yazılı sənədləşmələrdə dollar deyərkən ABŞ dolları nəzərdə tutulur.

**Xarici ticarət siyasətinin iki əsas istiqaməti vardır:**

- ❖ Azad ticarət siyasəti;
- ❖ Proteksionizm siyasəti.

**Azad ticarət siyasətinin** əsasında beynəlxlaq ticarətin liberallaşdırılması prinsipi dayanır. Bu da beynəlxalq ticarət hüququnun əsas prinsiplərindən biridir. Liberallaşdırma iki əsas şərti (vəzifəni) qarşıya qoyur:

- ❖ Gömrük tariflərinin tədricən azaldılması;
- ❖ Qeyri-tarif manelərinin aradan qaldırılması.

**Proteksionizm** - milli bazarı (iqtisadiyyatı) xarici rəqabətdən müdafiəyə yönəldilən dövlət siyasətidir. Burada xarici ticarətin həm tarif, həm də qeyri-tarif tənzimləmə metodlarından istifadə edilir.

Xarici ticarətin dövlət tənzimlənməsinin iki əsas metodu vardır:

I. Gömrük – tarif tənzimlənmə metodu;
II. Qeyri-tarif tənzimlənmə metodu.

**I. Xarici ticarətin gömrük – tarif tənzimlənmə metodu.**

Gömrük tarifinin tətbiq edilməsi ilə digər dövlətlərin ticarət münasibətlərinin nizamlaşdırılmasına gömrük – tarif tənzimlənmə metodu deyilir. Bu dövlətin gömrük tariflərindən istifadə etməklə milli iqtisadiyyatını müdafiə etməsi prinsipindən irəli gəlir.

Gömrük rüsumlarının malların hərəkət istiqamətinə görə 3 növü vardır:

1) İdxal rüsumu;
2) İxrac rüsumu;
3) Tranzit rüsumu.

Gömrük rüsumlarının 20-yə qədər əlamət üzrə növləri vardır.

**II. Xarici ticarətin qeyri-tarif tənzimlənməsi metodu.**

Gömrük tariflərindən istifadə etmədən digər iqtisadi alət və vasitələrlə xarici ticarətin nizamlanmasına qeyri-tarif tənzimlənməsi metodu deyilir.

Xarici ticarətin qeyri-tarif tənzimlənməsi metodları üç növə bölünür:

1) Kəmiyyətcə məhdudlaşdırma;
2) Gizli metodlar;
3) Maliyyə metodları.

I. Kəmiyyətcə məhdudlaşdırma metoduna 4 metod daxildir:
1. Kontingentləşdirmə;
2. Kvotalaşdırma;
3. "Könüllü" məhdudlaşdırma (ikitərəfli sazişlə);
4. Lisenziyalaşdırma.

II. Gizli metodlara daxildir:
1. Dövlət satınalması;
2. Texniki maneə;
3. Vergi və yığımlar.

III. Maliyyə metodlarına bu metodlar daxildir:
1. Subsidiya;
2. Kreditləşdirmə;
3. Dempinq.

**Qeyri-tarif tənzimləmə metodunun digər növləri:**

1) İdxal depoziti;
2) Subsidiya;
3) Ticarətdə texniki maneələr (standartlara, təhlükəsizliyinə, keyfiyyətinə, qablaşdırılmasına, markalanmasına, etiketinə, sertifikatlaşmasına, texniki xarakterisitikasına, texniki sınağına, digər xüsusiyyətlərinə görə yoxlamaların keçirilməsi);
4) Sanitariya tədbirləri (normaları) – səhiyyə orqanları tərəfindən karantin xidməti aparılır;
5) Fitosanitar tədbirləri (normalalrı) – baytarlıq orqanları tərəfindən aparılır;
6) Malların mənşə yerinin müəyyənləşdirilməsi və s.

Bütün bu məsələlər "Gömrük işi" fənnində dərindən öyrənilir.

## 5. XARİCİ TİCARƏT ƏMƏLİYYATLARI

Dünyada hər gün yüz minlərlə xarici ticarət müqaviləsi və sazişləri bağlanılır. Dünyanın bütün ölkələrinin müəssisələrində buraxılan məhsulların üçdə bir hissəsindən çoxu dəniz, dəmiryolu, avtomobil və hava nəqliyyatı terminallarında alıcılarına çatdırmaq üçün yenidən emal edilir. Beynəlxalq ticarətin bir günlük dövriyyəsi və ya malların və xidmətlərin ixracı və idxalı 80 mlrd dolları keçir. Ölkələrarası xarici ticarət sürətlə artır. Əgər 1990-cı ildə dünyanın bütün ölkələri 315 mlrd dollar həcmində mal və xidmətlər ixrac edirdisə, on il sonra bu rəqəm on dəfədən çox artmışdır. Belə ki, 2010-cu illərin əvvəllərində əgər bu rəqəm 6 trilyon dollar idisə, 2018-ci ilə 20 trilyon dollara qalxmış, dünya ölkələrində istehsal edilən bütün malların dördə birdən çox hissəsi - 25 faizdən çoxu beynəlxalq ticarətdə iştirak etmişdir. Son onilliklərdə demək olar ki, dünyanın bütün ölkələrinin ÜDM-ində xarici ticarətin payı sabit olaraq artırdı. Əgər İkinci Dünya müharibəsindən sonrakı dövrdə ölkələrin ixracatı ÜDM-in 10 faizini təşkil edirdisə, bu minilliyin əvvəlində 30 faizə qalxmışdı. Belə bir şəraitdə xarici bazara daxili bazara əlavə kimi baxmaq mümkün deyildi. Dünyanın əksər ölkələri üçün beynəlxalq ticarət milli iqtisadi inkişafın zəruri şərtinə çevrilmişdir. Beynəlxalq ticarətə dünyanın bütün ölkələri cəlb olunmuşdur. Dünya ticarəti dünya sənaye istehsalına nisbətən daha sürətlə artır. Bu da o deməkdir ki, ölkələrin dünya təsərrüfat əlaqələri sistemindəki yeri və rolu ildən-ilə daha da aktuallaşır, zərurətə çevrilir və əhəmiyyət kəsb edir.

Hələ sosialist iqtisadiyyatı sistemində SSRİ-də ümumi əmtəə dövriyyəsinin 70 faizə qədərinin dövlət ticarətinə mənsub olduğu bir dövrdə təsərrüfat əlaqələrinin, o cümlədən ticarət əməliyyatlarının müxtəlif formaları – istehsal olunmuş malların təyinatına görə (şəxsi istehlaka və istehsal istehlakına), malların dövriyyədə iştirakı xarakterinə görə, ərazi miqyasına görə, mal verilməsi halqalarında iştirakına görə, mal verilməsi formalarına görə, fəaliyyət müddətinə görə və s. formalar tətbiq edilirdi[1]. Ona görə ki, ölkələrarası və ölkədaxili təsərrüfat – ticarət əlaqələri olmadan heç bir inkişafdan söhbət gedə bilmzədi və bu mümkün deyildi. Nəzərə alınmırdı ki, təsərrüfat əlaqələrinin qarşısının alınması, məhdudlaşdırılması, çərçivəyə salınması, qadağan edilməsi və s. iqtisadiyyatı çökdürür və məhv edir, bu əlaqələr üçün şəraitin yaradılması isə iqtisadi inkişafa təkan verir. Məsələn, birinci halda SSRİ-nin dağılmasını və ikinci halda Türkiyənin son 50 ildəki sürətli inkişafını göstərmək olar. Bu inkişaf məhz Türkiyənin dünya təsərrüfat əlaqələrində birbaşa və açıq iştirakı nəticəsində mümkün olmuşdur.

Beynəlxalq ticarətdə dünya ölkələrinin ixracatı və idxalatı onun dünya bazarındakı yeri və rolunu əks etdirən mühüm göstəricilərdən biridir. Təhlil göstərir ki, ixracatda və idxalatda dünyanın eyni ölkələri əsas yerləri tuturlar. 2017-ci ildə birinci beşliyə Çin, ABŞ, Almaniya, Yaponiya və Cənubi Koreya daxil olmuşdur. İxracat ölkənin əsas möhkəm valyuta mənbəyidir. İdxalatın həcminin yüksək olması xammal idxalının çoxluğu ilə əlaqədardır ki, bu da sonradan emal edilib hazır məhsul kimi ixracın artmasına gətirib çıxarır. 11.2-ci cədvəldə 2017-ci ildə ixracın və idxalın həcminə görə diqqəti cəlb edən dünya ölkələri verilir. Cədvəldən göründüyü kimi 2017-ci ildə dünya ixracatında 12 faizlə Çin Xalq Respublikası, onun xüsusi ərazisi olan Honkonq (3 faiz) və Çin Respublikası (Tayvan – 1 faiz) ilə birlikdə 16 faizlə birinci yerdə, Almaniya 8 faizlə ikinci yerdə, ABŞ 7 faizlə üçüncü yerdə olmuşdur.2017-ci ildə dünya idxalatında 13 faizlə ABŞ birinci yerdə, 9 faizlə Çin XR ikinci yerdə (Honkonq və Tayvanla 12 faiz) olmuşdur. Dünya ixracatında Türkiyə 29-cu və Azərbaycan 75-ci yerdə olmuşdur ki, bu da ölkələr arasında yüksək göstərici kimi qiymətləndirilir.

**Cədvəl 11.2**

**2017-ci ildə ixrac və idxalın həcminə görə dünya ölkələri[1]**

| № | Dünya və ölkələr | İxracat | | İdxalat | |
|---|---|---|---|---|---|
| | | **Mln dollar** | **Faiz** | **Mln dollar** | **Faiz** |
| | Dünya | 17585000 | 100 | 18000000 | 100 |
| | Avropa İttifaqı | 1929000 | 10 | 2244000 | 12 |
| **1.** | Çin | 2157000 | 12 | 1731000 | 9 |
| **2.** | Almaniya | 1576000 | 8 | 1104600 | 6 |
| **3.** | ABŞ | 1401000 | 7 | 2352000 | 13 |
| **4.** | Yaponiya | 683300 | 3 | 766600 | 4 |
| **5.** | Cənubi Koreya | 552000 | 3 | 514200 | 2 |
| **7.** | Honkonq | 540000 | 3 | 520600 | 2 |
| **14.** | Çin Respublikası (Tayvan) | 344800 | 1 | 272400 | 1 |
| **16.** | Rusiya | 336800 | 1 | 212700 | 1 |
| **29.** | Türkiyə | 150100 | . | 196800 | 1 |
| **37.** | İran | 87520 | . | 62120 | . |
| **53.** | Qazaxıstan | 35280 | . | 30110 | . |
| **75.** | **Azərbaycan** | **16500** | **0,4** | **7035** | **.** |
| **103.** | Türkmənistan | 8756 | . | 4888 | . |
| **123.** | Gürcüstan | 3533 | . | 4828 | . |
| **150.** | Ermənistan | 846 | . | 2988 | . |

[1] T.C.Məmmədov, M.Q.Məmmədov, Ə.Ə.Ələkbərov. Ərzaq malları ticarətinin təşkili. Ali məktəblər üçün dərslik, “Maarif” nəşriyyatı, Bakı, 1991, səh. 165
[1] WTO və Ümumdünya Faktlar Kitabı. 2017

Dünya ixracatında əmtəə strukturu Beynəlxalq Əmək Bölgüsündə əmtəələrin yerini və rolunu əks etdirən əsas göstəricidir. Dünya iqtisadiyyatının birinci sektoru olan kənd təsərrüfatı və hasilat sənayesində istehsal edilib ixracata gedən məhsulların payı 21 faizdir (kənd təsərrüfatı məhsulları 9 faiz, mineral məhsullar 12 faiz). 2017-ci ildə dünya ixracatınınəmtəə strukturu 11.3-cü cədvəldə verilir. Əgər birinci sektorun payına ixracatın 21 faizi düşmüşdürsə, dünya iqtisadiyyatının ikinci sektoru olan emal sənayesi məhsullarının ümumi ixracatdakı payı 79 faiz olmuşdur ki, bunun da 41 faizini maşın və avadanlıqlar, 10 faizini kimya məhsulları və s. təşkil etmişdir. Göründüyü kimi dünya əmtəə ixracında əsas məshullar emal sənayesi məhsullarıdır. Ərzaq məhsulları cəmi 7 faiz, kənd təsərrüfatı xammalı 2 faiz təşkil etmişdir.

Xammal kimi idxalı çox olan ölkələrdə ixrac olunan məhsulların çeşidi daha çox, məhsulu xammal kimi ixrac edən ölkələrdə ixrac olunan məhsulların çeşidi azdır. Xammal idxalı əlavə dəyər zənciri və əlavə dəyər yaradır. Xammal ixracı mövcud olan əlavə dəyər zəncirindən və imkanlarından ölkəni məhrum edir. 2018-ci ildə Azərbaycan xarici ölkələrə 2753 çeşiddə mal ixrac etmişdir.

**Cədvəl 11.3**

**2017-ci ildə dünya ixracatının əmtəə strukturu**

| Əmtəələr | Dünya ixracı, faizlə |
|---|---|
| I. Kənd təsərrüfatı məhsulları:<br>a) Ərzaq məhsulları;<br>b) Xammal | 9<br>7<br>2 |
| II. Mineral məhsullar:<br>a) Qara metal filizi;<br>b) Əlvan metal filizi;<br>c) Yanacaq | 12<br>1<br>2<br>9 |
| III. Emal sənaye məhsulları: | 79 |
| 1) Qara metallar | 2 |
| 2) Kimya məhsulları | 10 |
| 3) Digər yarımfabrikatlar | 7 |
| 4) Maşın və avadanlıqlar | 41 |
| 5) Parçalar | 3 |
| 6) Paltarlar | 3 |
| 7) Digər istehlak malları | 9 |
| 8) Qeyri-istehlak malları | 4 |

Əmtəələrlə və xidmətlərlə beynəlxalq ticarət beynəlxalq biznesin mühüm sferasıdır.

Beynəlxalq səviyyədə, yəni BMT, ÜTT, OECD və digər beynəlxalq səviyyələrdə qəbul edilmiş təyinata görə beynəlxalq ticarət bütün dünya ölkələrinin xarici ticarətinin, əmtəə və xidmətlərin transsərhəd mübadiləsinin məcmusudur. Malların (alqı-satqı predmetinin) ixrac dəyərinin FOB, idxal dəyərinin CİF qiymətləri ilə hesablanması beynəlxalq ticarətin beynəlxalq statistikası və terminoloji bazası əsasında qurulmuşdur.

**İxrac** – ölkədə istehsal olunmuş və ya başqa ölkələrdən gətirilmiş malların (təkrar ixrac) ölkə sərhədlərindən kənara göndərilməsidir. Buraya ölkənin öz istehsalı sayılan mallar, həmçinin ölkəyə gətirilən və təkrar emal olunaraq əsas kəmiyyət və keyfiyyət göstəricilərini dəyişən xarici mənşəli mallar da daxil edilir.

İxracın dəyərinin qiymətləndirilməsi **FOB qiymətləri** və ya mal ixrac edən ölkənin franko-sərhəd qiymətləri üzrə aparılır, yəni malın qiymətinə onun dəyəri, malı ixrac edən ölkənin quru sərhədlərinə və ya göndərmə limanına çatdırılması və gəmi portuna yüklənməsi xərcləri daxil edilir.

**İdxal** – ölkədə istehlak edilmək üçün, həmçinin təkrar ixrac etmək üçün ölkə sərhədlərindən kənardan mal gətirilməsidir.

İdxalın dəyərinin qiymətləndirilməsi **CİF** qiymətləri və ya mal idxal edən ölkənin franko – sərhəd qiymətləri üzrə aparılır, yəni malın qiymətinə onun dəyəri. Malı idxal edən ölkənin sərhədlərinə qədər daşınması və sığorta xərcləri daxil edilir.

**Xarici ticarət dövriyyəsi –** idxal və ixracın dəyərinin cəmidir.

**Xarici ticarət saldosu** – ixrac və idxalın fərqidir. Əgər ixrac idxaldan çoxdursa, müsbət saldo, idxal ixracdan çoxdursa, mənfi saldo alınır.

Humanitar yardım, əvəzsiz kömək və hədiyyələr haqqında göstəiricilər 1999-cu ildən idxal və ixrac əməliyyatlarına daxil edilmişdir.

Xarici ticarətin əsas göstəriciləri ixrac, idxal və ümumi xarici ticarət dövriyyəsidir. Bu göstəricilərlə bərabər dünya ixracatının artım tempi müəyyən edilir:

$$\dot{I}at = \frac{\mathrm{Ci}}{\mathrm{Bi}}\, x\, 100$$

İat – ixracın artım tempi;

Ci – Cari dövrdə ixracın həcmi;

Bi – Bazis dövründə ixracatın həcmini göstərir.

Həmçinin ölkə iqtisadiyyatının xarici ticarətdən asılılığını müəyyən edən ixrac və idxal kvotaları müəyyən edilir:

**İxK=(İxH:ÜDM) x 100%**

İxK – ixrac kvotası;

İxH – ixracın həcmi (dəyəri);

ÜDM – il ərzində ölkənin Ümumi Daxili Məhsulunun həcmidir.

**İdK=(İdH:ÜDM) x 100**

İdK – idxal kvotası;

İdH – idxalın həcmi (dəyəri);

ÜDM – il ərzində ölkənin Ümumi Daxili Məhsulunun həcmini göstərir.

Beynəlxalq ticarət prosesində əmtəə axınlarının iki istiqaməti – ixrac və idxal meydana gəlir.

İdxal və ixrac əməliyyatlarının qiymətləndirilməsi göstəriciləri üçün xarici və beynəlxalq ticarətin aşağıdakı kəmiyyət və keyfiyyət xarakteristikalarının müəyyən edilməsi mühüm əhəmiyyət kəsb edir:

- Dəyər və fiziki həcm (əmtəə dövriyyəsi);
- Dünya ticarətində əmtəə qruplarının nisbətini əks etdirən əmtəə strukturu;
- Ticarət axınlarının ayrı-ayrı ölkələr və onların qrupları arasında bölgüsünü əks etdirən coğrafi strukturu.

**Xarici ticarətin dəyəri həcmi** müəyyən dövr üçün cari valyuta məzənnələrindən istifadə etməklə cari qiymətlərdə hesablanır.

**Xarici ticarətin fiziki həcmi** daimi qiymətlərdə hesablanır və zəruri müqayisələri aparmağa və xarici ticarətin real dinamikasını müəyyən etməyə imkan verir.

**Dünya əmtəə dövriyyəsi** bütün dünya ölkələrinin ancaq ixraclarının həcmini toplamaqla müəyyən edilir və ABŞ dollarında əks olunur.

Xarici ticarət – xarici ticarət əməliyyatları ilə icra edilir. Xarici ticarət əməliyyatları bir çox əlamətlər üzrə təsnifləşdirilir (cədvəl 11.4-ə bax)

**Cədvəl 11.4**

**Xarici ticarət əməliyyatlarının təsnifatı**

| № | Əlamətləri | Əməliyyatların növləri |
|---|---|---|
| **1.** | Ticarət istiqamətinə görə | - İxrac<br>- İdxal<br>- Təkrar ixrac (reeksport)<br>- Təkrar idxal |
| **2.** | Mal qruplarına görə | - Maşın və avadanlıqlar<br>- Xammal və material<br>- Ərzaq<br>- Qeyri-ərzaq və s. |
| **3.** | Malların satışa hazırlıq səviyyəsinə görə | - Hazır məhsullar<br>- Hissə və detallar<br>- Komplektləşdirici avadanlıq və s. |
| **4.** | Mal mübadiləsinə görə | - Barter<br>- Qarşılaşma<br>- Köhnəlmiş məhsulların alışı<br>- Xammal emalı və s. |
| **5.** | Elmi-texniki məhsullar və xidmətlərə görə | - Patent<br>- Lisenziya<br>- "Nou-hau"<br>- İnjiirinq<br>- İcarə (lizinq, lend liz)<br>- Turizm<br>- Rabitə və s. |
| **6.** | Vasitəçilik fəaliyyətinə görə | - Broker<br>- Agent<br>- Konsiqnasiya<br>- Komission<br>- Kooperasiya və s. |
| **7.** | Müsabiqə tipinə görə | - Auksion (hərrac)<br>- Birja<br>- Torq (tender)<br>- Yarmarka<br>- Sərgi və s. |

11.4-cü cədvəldən göründüyü kimi xarici ticarət əməliyyatları əlamətlər üzrə növlərə ayrılırlar. Xüsusilə ticarətin istiqamətinə görə ixrac, idxal, təkrar ixrac (reeksport) və təkrar idxal (reimport) əməliyyatları mahiyyətinə, şərtlərinə, vergi və rüsum dərəcələrinə və s. əlamətlərinə görə fərqlənirlər, ölkə hökumətlərinin qərarı ilə aparılması mexanizmini müəyyən edirlər.

Hər bir ölkə üçün ixrac daha əhəmiyyətlidir. Bu nə qədər əhəmiyyətlidirsə, bir o qədər də məsuliyyətli və mürəkkəbdir. Burada saysız-hesabsız amillərin ölkənin milli maraqları dairəsində hesablanması, müəyyən edilməsi, qiymətləndirilməsi və seçilməsi fəlsəfəsi dayanır. İxracat ölkəyə böyük gəlirlər gətirə bilər və ixrac ölkəni daha böyük zərərlərə apara bilər. Burada dünya iqtisadiyyatını, dünya bazarını və beynəlxalq ticarətin təşkilati-hüquqi əsaslarını dərindən bilmək tələb olunur.

Dünya ölkələrində əmtəə və xidmətlərin illik ixracatı Tədiyyə Balansında öz əksini tapır. Tədiyyə balansının standart komponentləri Beynəlxalq Valyuta Fondunun (İMF) 1993-cü ildə nəşr etdiyi "Tədiyyə balansı üzrə rəhbərlik"də öz əksini tapır (Tədiyyə balansı ayrıca bir mövzuda öyrənilməlidir).

## 6. MALLARIN GÖNDƏRİLMƏSİNİN BAZİS ŞƏRTLƏRİ (İNCOTERMS – 2020)

"INCOTERMS"-in məqsədi dünya ölkələrinin xarici ticarətində ən çox istifadə edilən malların göndərilməsi şərtlərini müəyyən etmək, aydınlaşdırmaq, beynəlxalq qaydalarını hazırlamaq, tərtib etmək, müxtəlif ölkələrdə istifadə edilən ticarət terminləri arasındakı fərqləri azaltmaq, terminlərin şərhindəki fərqləri minimuma endirmək və rahatlaşdırmaqdır. Ona görə də "INCOTERMS"-ə – "Ticarət terminlərinin təfsirinin beynəlxalq qaydaları" deyilir. Mahiyyət etibarilə tərəflər arasında malların göndərilməsinin – verilməsinin, çatdırılmasının, yola salınmasının əsas şərtləridir. Beynəlxalq Ticarət Palatası tərəfindən qəbul edilmiş bu qaydalar – şərtlər beynəlxalq ticarətin həyata keçirilməsini xeyli asanlaşdırır. Alqı-satqı müqavilələrində (kontraktlarda) "INCOTERMS"-ə istinad edilməsi tərəflərin öhdəliklərini dəqiq əks etdirir, hüquqi anlaşılmazlıq risklərini azaldır və iştirakçıların yerinə yetirəcəyi vəzifələri konkret və dəqiq göstərir. Bu sənəd yalnız satıcılar və alıcılar arasında bağlanan alqı-satqı müqavilələrindən irəli gələn münasibətləri tənzimləyir.

Malların göndərilməsinin baziz şərtləri beynəlxalq ticarət adətləri və ticarət təcrübəsi əsasında formalaşıb. BTP 1923-cü ildə bir sıra ölkələr arasında əmələ gələn ticarət adət və ənənələrindən irəli gələn qaydaları ümumiləşdirərək 10 əsas bazis şərtinin məlumat məcmuəsini nəşr etmişdir. Bu şərtlərdən istifadə edilməsinin məqsədə uyğunluğu, səmərəliliyi və unifikasiya edilməsi üzrə aparılan ardıcıl tədbirlər nəticəsində 1936-cı ildə ilk "Beynəlxalq ticarət terminlərinin təfsiri qaydaları" (International Commercial Terms – INCOTERMS) nəşr edilmişdir. 1953, 1967 və 1976-cı illərdə, sonra isə hər 10 ildən bir – 1980, 1990, 2000, 2010 və 2020-ci il versiyaları qəbul edilmişdir. Nəzərə almaq lazımdır ki, INCOTERMS hər onilliyin sonuncu ili qəbul edilir, növbəti onilliyin 1 yanvarından istifadə edilir ("INCOTERMS – 2020" 1 yanvar 2020-ci ildən).

INCOTERMS beynəlxalq ticarətdə iştirak edən tərəflər üçün mütləq və zəruri sənəd deyil, lakin ondan istifadə və ona əsaslanma çox məqsədəuyğun və əhəmiyyətlidir. Çünki beynəlxalq təşkilatların hazırladıqları tipik kontraktlar INCOTERMS-ə istinad edir və beynəlxalq mübahisələr yarandıqda məsələlər ona uyğun aparılır. Bir çox ölkələr onu qanuni sənəd (əsas) kimi (İspaniyada idxal əməliyyatları üzrə, İraqda bütün xarici ticarət sazişləri üzrə) qəbul və istifadə edir.

Dünya iqtisadiyyatının qloballaşması beynəlxalq ticarət subyektlərinin dünya bazarına çıxışını son dərəcə sürətləndirir. Bazar meydanı genişlənir, müxtəlif ölkələrə satılan və müxtəlif ölkələrdən alınan malların həcmi artır, çeşidi genişlənir, hərəkət istiqamətləri dəyişir və mürəkkəbliyi artır.

Ölkələrin xarici tivarətinin və onların məcmusu olan beynəlxalq ticarətin səmərəliləşdirilməsi, asanlaşdırılması, xarici ticarət əməliyyatlarının rahatlaşdırılması və əmtəələrin ölkələr arasında hərəkətində INCOTERMS əhəmiyyətli rol oynayır.

Ticarət terminlərinin təfsirinin beynəlxalq qaydaları – INCOTERMS beynəlxalq ticarətdə istifadə edilməsi tövsiyə edilən əlverişli və əhəmiyyətli beynəlxalq sənəddir. Ticarətin həyata keçirilməsini xeyli asanlaşdırır. Çünki qloballaşma dövründə ölkələrin, firmaların və iş adamlarının dünya bazarına çıxışı daim artır və genişlənir. Beynəlxalq alqı-satqı müqaviləsi olan kontraktların bütün şərtlərinin beynəlxalq hüquqi əsasları, tərəflərin öhdəlikləri və icra mexanizmi burada öz əksini tapmışdır ki, bu da xarici ticarət əməliyyatlarının aparılması zamanı hüquqi anlaşılmazlıqların və səhvlərin baş verməsi riskini azaldır, iştirakçı tərəflərin yersiz zərərə düşməsinin qarşısını alır.

"INCOTERMS" tərəflər arasında vergi, rüsum, digər rəsmi yığımların, gömrük rəsmiləşdirilməsinə çəkilən xərclərin bölüşdürülməsi hissəsində tərəflər arasında çəkilən xərclərin hansı ölçülərdə məqsədəuyğun bölünməsini izah edir.

"INCOTERMS – 2020" 11 şərtdən ibarətdir. Bu 11 unifikasiya edilmiş qayda beynəlxalq ticarətdə tətbiq edilən xarici ticarət müqavilələrində (kontraktlarda) malların

satıcılardan alıcılara qədərki göndərilməsi – verilməsi prosesində iştirakçı tərəflərin hüquq və vəzifələrini əks etdirir, 4 qrupa bölünür:

E qrupu: Yükləmə. 1 şərtdən ibarətdir.

F qrupu: Əsas daşıma alıcı tərəfindən yerinə yetirilir və ödənilir. 3 şərtdən ibarətdir.

C qrupu: Əsas daşıma satıcı tərəfindən yerinə yetirilir və ödənilir. 4 şərtdən ibarətdir.

D qrupu: Çatdırılma. 3 şərtdən ibarətdir.

"E" qrup (EXW) şərtinə görə satıcı malı istehsal yerində, anbarda, satıcının müəssisəsində alıcıya verir. Nəqliyyatın alınması və yükləmə alıcı tərəfindən yerinə yetirilir.

"F" qrupu şərtlərinə görə satıcı malları alıcının göstəridiyi nəqliyyat vasitəsinə qədər çatdırır, yükləmə, daşıma və sonrakı proseslər alıcının üzərinə düşür.

"C" qrupu şərtlərinə görə satıcı malı nəqliyyat vasitəsinə yükləyir, yola salınmasından sonra və daşınma müddətində heç bir məsuliyyət daşımır, sonrakı proses alıcının üzərinə düşür.

"D" qrupu şərtlərinə görə satıcı malın təyinat nöqtəsinə qədər çatdırılmasını təmin edir, risklərə cavab verir və xərcləri ödəyir.

Bu şərtlərin seçilməsi, qəbul edilməsi və istifadə edilməsi tərəflərdən dərin beynəlxalq iqtisadi və hüquqi elmi biliklər, dünya iqtisadiyyatının resurs, nəqliyyat, kommunikasiya, ticarət, vergi, bank, gömrük, valyuta-maliyyə və s. nəzəri baza və praktiki professionallıq qabiliyyəti tələb edir. Belə bir "beynəlxalq iqtisadçı" şüarı vardır: "Tərəflər müqaviləni (kontraktı) bağlayanda qazanır və ya zərərə düşür". Çünki alqı-satqının əsasında müqavilə (kontrakt) şərtləri dayanır. Bu şərtləri təklif edən "INCOTERMS", qəbul edən və istifadə edilən isə iştirakçı tərəflərdir.

"INCOTERMS – 2020"-nin "INCOTERMS – 2010"-dan əsas fərqi DAT termininin DPU termini ilə əvəz edilməsidir. "INCOTERMS – 2020"-nin 11 şərti qruplar üzrə 11.5-ci cədvəldə verilir.

11.5-ci cədvəldən göründüyü kimi bu yeni qaydalar əvvəlki "INCOTERMS – 2010"-dan o qədər də fərqlənmir, bəzi dəyişikliklər və əlavə edilib.

**Cədvəl 11.5**

**INCOTERMS-2020**

| | |
|---|---|
| **E qrupu (1 şərt)** | |
| EXW – Ex Works Departure (… name place) | Franko zavod (... göstərilmiş yer) |
| **F qrupu (3 şərt)** | |
| FCA – Free Carrier Main carriage unpaid (...name place) | Franko-daşıyıcı. Əsas daşıma xərci ödənilməmişdir (... göstərilmiş yer) |
| FAS – Free Alongside Ship (...named port of shipment) | Franko-gəmi göyərtəsi boyunca (... göstərilmiş yüklənmə limanı) |
| FOB – Free on Board (...named port of shipment) | Franko-göyərtədə (... göstərilmiş yüklənmə limanı) |
| **C qrupu (4 şərt)** | |
| CFR – Cost and Freight. Main carriage paid (...named port of destination) | Dəyər və Fraxt. Əsas daşıma xərci ödənilmişdir (... göstərilmiş təyinat limanı) |
| CIF – Cost, Insurance and Freight (...named port of destination) | Dəyər, Sığorta və Fraxt (... göstərilmiş təyinat limanı) |
| CPT – Carriage Paid to (...named place of destination) | Daşınma haqqı ...dək ödənilmişdir (... göstərilmiş təyinat yeri) |
| CIP – Carriage and Insurance Paid to (...named place of destination) | Daşınma və Sığorta haqqı ...dək ödənilmişdir (... göstərilmiş təyinat yeri) |
| **D qrupu (3 şərt)** | |
| DAP – Delivered at Place | Təyinat yerinə çatdırılma |
| DPU – Delivered Named Place Unloaded | Boşaldılma yerinə çatdırma |
| DDP – Delivered Duty Paid | Rüsumları ödəməklə çatdırma |

Bütün nəqliyyat növləri ilə malların göndərilməsinə - EXW, FCA, CPT, CIP, DAP, DPU, DDP, dəniz nəqliyyatı ilə malların göndərilməsində - FAS, FOB, CFR və CIF şərtlərindən istifadə edilir.

Mal verilməsi şərtlərində əsas məqam iştirakçı tərəflərin, yəni alıcılar və satıcıların bu prosesdə öhdəliklərinin müəyyən edilməsidir. Şərtlərə görə tərəflərin öhdəlikləri 11.6-cı cədvəldə verilir.

**Cədvəl 11.6**

**"INCOTERMS – 2020"-də tərəflərin öhdəlikləri**

| Şərtlər | İxrac göm-rük bəyan-naməsi | İxrac limanına çatdırma | İxrac limanında yükün boşaldılması | İxrac limanın-da malın yüklən-məsi | İdxal limanı-na daşı-ma | Sığor-ta | İdxal lima-nında yükün boşal-dılması | İdxal limanın-da malın yüklən-məsi | Təyinat məntə-qəsinə çatdırma | İdxal göm-rük rüsumu | İdxal vergiləri |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| **EXW** | A | A | A | A | A | A | A | A | A | A | A |
| **FSA** | S | S | A | A | A | A | A | A | A | A | A |
| **FAS** | S | S | S | A | A | A | A | A | A | A | A |
| **FOB** | S | S | S | S | A | A | A | A | A | A | A |
| **CPT** | S | S | S | S | S | A | A-S | A-S | S | A | A |
| **CFR** | S | S | S | S | S | A | A-S | A | A | A | A |
| **CIF** | S | S | S | S | S | S | A-S | A | A | A | A |
| **CIP** | S | S | S | S | S | S | A-S | A-S | S | A | A |
| **DPU** | S | S | S | S | S | S-A | S | S | S | S | A |
| **DAP** | S | S | S | S | S | S-A | S | S | S | A | A |
| **DDP** | S | S | S | S | S | S-A | S | S | S | S | S |

**Qeyd**: Cədvəldəki A-alıcı, S-satıcı tərəfin öhdəliklərini əks etdirir.

11.6-cı cədvəldən göründüyü kimi beynəlxalq ticarətdə malların (əmtəələrin, məhsulların) satıcı tərəfdən alıcı tərəfə göndərilməsi, çatdırılması və verilməsi zamanı öhdəliklərin bölüşdürülməsi tərəflərin qarşılıqlı razılığı ilə şərtlər əsasında müəyyən edilir. Tərəflərin vəzifəsi şərtlərdən aydın olur və risklərin ötürülməsi bu şərtlərdən ortaya çıxır.

Bir sözlə, beynəlxalq ticarətin aləti alqı-satqı müqaviləsidir (kontraktıdır), bunun da əsasında mal verilməsi şərtləri və öhdəlikləri dayanır.

# 7. XARİCİ İQTİSADİ FƏALİYYƏTİN ƏMTƏƏ NOMENKLATURU (XİFƏN)

Xarici İqtisadi Fəaliyyətin Əmtəə Nomenklaturunun (XİFƏN) hazırlanması, malların (əmtəələrin) təsnifləşdirilməsi və kodlaşdırılması beynəlxalq ticarətin və onunla zəncirvarı bağlı olan gömrük işinin mühüm tərkib hissəsidir.

Beynəlxalq təşkilatlar beynəlxalq ticarətin predmeti olan malları (məhsulları, əmtəələri) sistemləşdirir, harmonik sistemə salır və qruplaşdırır. Burada məqsəd çoxsaylı çeşidə, qrupa, yarımqrupa, mal mövqeyinə, alt mövqeyinə və digər əlamətlərə görə fərqlənən malların uyğunlaşdırılmış və sistemləşdirilmiş, ardıcıllaşdırılmış və aydın başa düşülən siyahısını əldə etmək olmuşdur. Çünki dünyada mallar çoxsaylı əlamətlərinə, çeşid və altçeşid müxtəlifliyinə malikdirlər. Bu da ölkələr və onların subyektləri arasında xarici ticarətin aparılmasında qarışıqlıq, fikir müxtəlifliyi və və anlaşılmazlıqlara səbəb olurdu.

Malların dəyərinin dəqiq meyarlar əsasında müəyyən edilməsi, qarışdırılması və gömrük ödənişlərinin tutulması onların düzgün qruplaşdırılması və ya təsnifləşdirilməsindən çox asılıdır. Xarici ticarətin gömrük statistikasının dəqiq, malların və nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsinin obyektiv aparılması və milli sərhədlər üzərində gömrük nəzarətinin aparılması zamanı ölkənin gömrük siyasətinin həyata keçirilməsi məqsədilə konkret alət və vasitələrindən istifadə edilməsi üçün də belə bir nomenklaturun olması zəruri idi.

"Əmtəə Nomenklaturu" əmtəələrin ardıcıl və sistemləşdirilmiş siyahısından ibarətdir. Nomenklatura latın sözü olub siyahı mənasını verir. Bu mənada nomenklatura anlayışı sistemləşdirilmiş əmtəə cədvəli, siyahısı və ya mal çeşidləri adlarının məcmusudur.

Dünya ölkələrinin sənaye və kənd təsərrüfatının müxtəlif sahələrində istehsal edilən malların çeşidi daim artır və genişlənir. Yüz minlərlə müxtəlif növ və çeşiddə mallar vardır. Sənədləşdirmələrdə hər birinin ayrı-ayrılıqda verilməsi çox çətin və mümkün olmadığı üçün onların müxtəlif əlamətlərinə və xassələrinə görə yığcam halda bir yerdə cəmləşdirilməsi daha əlverişli, məqsədyönlü və səmərəli hesab edilmiş və malların təsnifləşdirilməsindən istifadə edilmişdir.

"Təsnifləşdirmə" – böyük çoxluqların müəyyən kiçik çoxluqlara (bölmə, qrup, yarımqrup, mövqe, növ, çeşid və s.) bölünməsi və ya qruplaşdırılmasına (sinifləşdirilməsinə) deyilir.

Dünyada malların təsnifləşdirilməsi və mal (əmtəə) nomenklaturasının yaradılmasına hələ 1831-ci ildə Belçikada (Brüsseldə) başlanmış və çoxsaylı iqtisadi konqreslər keçirilmişdir.

İlk dəfə 1853-cü ildə Brüsseldə keçirilən I Beynəlxalq Statisitika Konqresində mal (əmtəə) nomenklaturasının hazırlanması təklif edilmiş və 1913-cü ildə 29 ölkənin iştirakı ilə yenə də Brüsseldə keçirilən II Beynəlxalq Ticarət Statistikası Konqresində ilk mal nomenklaturası qəbul edilmişdir (iqtisadi tarixdə Brüssel nomenklaturası kimi qəbul edilmişdir).

Bu nomenklatura üzrə mallar 5 qrup və 186 maddə üzrə qruplaşdırılmışdır. Beynəlxalq Ticarət Statistikası üçün malların minimal siyahısı 1938-ci ildə dərc edilmişdir.

1931-ci ildə hazırlanmış, 1937-ci ildə tamamlanmış və qəbul edilmiş "Millətlər Cəmiyyətinin Gömrük Nomenklaturası" (Cenevrə Nomenklaturası da adlanırdı) 1950-ci ilə qədər istifadə edilmişdir.

1950-ci ildə Gömrük Əməkdaşlığı Şurasının Brüssel Gömrük Nomenklaturası və həmin il paralal olaraq BMT-nin "Beynəlxalq Ticarət Standartları Təsnifatı" qəbul edilmişdir.

1983-cü ildə Gömrük Əməkdaşlığı Şurası "Malların təsviri və kodlaşdırılmasının harmonikləşdirilmiş sistemi"ni (Harmonized Commodity Description and Coding System) hazırlamış, 1985-ci ildə Brüsseldə "Malların təsviri və kodlaşdırılmasının harmonikləşdirilmiş sistem nomenklaturu" qəbul edilmiş və 1 yanvar 1988-ci ildən qüvvəyə minmişdir (HSN).

HSN hazırda Ümumdünya Gömrük Təşkilatına üzv olan ölkələr üçün 6 rəqəmli tətbiq edilir, 9-14 rəqəmə qədər milli mal nomenklaturları işlənib hazırlanmışdır.

HSN-nin öz spesifik strukturu vardır. Bu toplu 6 pilləlidir:

- Bölmələr (21 bölmə);
- Qruplar (96 qrup);
- Yarımqruplar (33 yarım qrup);
- Mal mövqeləri (pozisiyaları) – 1241 mal mövqeyi;
- Yarımmövqelər (yarımpozisyalar) – 3553 yarımmövqe;
- Submövqelər (subpozisyalar) – 5019 submövqe.

Mal nomenklaturasının əsasını malların müxtəlif əlamətlərinin məcmusu təşkil edir.

Harmonikləşdirilmiş sistemə görə mallar aşağıdakı əlamətlərə görə təsnifləşdirilir:

- Malların mənşəyi;
- Mal hazırlanan materialın növü;
- Malın təyinatı;
- Malın kimyəvi tərkibi.

Göstərildiyi kimi Harmonikləşdirilmiş Sistem Nomenklaturu (HSN) 6 rəqəmli kodlaşmadan ibarətdir. Məsələn 720140.

Kodlaşmadakı ilk iki rəqəm – malın qrupunu, dörd rəqəm – mal mövqeyini, altı rəqəm malın submövqeyini göstərir. Belə ki,

72 – malın qrupu: "Qara metallar";

7201 – malın mövqeyini: "Çuğun və ilkin çuğun formalı";

720140 – malın submövqeyi: "Aynalı çuğun" və s.

Azərbaycan Respublikası "Malların təsviri və kodlaşdırılması üzrə harmonikləşdirilmiş sistem haqqında konvensiya"ya 2001-ci ildə qoşulmuşdur, bu konvensiyaya qoşulmuş ölkələr arasında 101-ci ölkə olmuşdur. HSN əsasında milli mal nomenklaturaları hazırlanır.

Azərbaycan Respublikası XİFƏN-i 10 rəqəmli kod sisteminə malikdir. Azərbaycan Respublikasının gömrük orqanlarında MDB-nin XİFƏN-dən istifadə olunur. MDB XİFƏN-i 3 noyabr 1995-ci ildə təsdiq edilmişdir. 1 yanvar 1999-cu ildən Azərbaycanda MDB-nin XİFƏN-i tətbiq edilir.

## Ştrixlər üzrə malların kodlaşdırılması

1977-ci ildə EAN (European Article Numbering) – Avropa Ştrixli Kodlaşdırma Assosasiyası yaradılmışdır. İqamətgahı Brüsseldədir.

EAN kodu 8,13,14 dərəcəli kodlar sistemindən ibarətdir:

EAN – 8, EAN – 13, EAN – 14.

Müxtəlif enlikli ölçüyə malik strixlər və boş sahələr məcmusundan ibarətdir.

**EAN – 8 kodunun strukturu:**

||| |||| | || | ||| |

Ölkənin kodu, istehsalçının kodu, malın kodu, nəzarət rəqəmi.

**Azərbaycan:**

Ölkənin telefon kodu: 994

Adı: AZ; AZE

Ştrix kodu: 476 (istehsalçı ölkə)

**EAN – 13 kodunun strukturu:**

|||| ||||| | |||| | ||||| |

Ölkənin kodu, istehsalçının kodu, malın kodu;

Nəzarət rəqəmi, kənar ştrixlər, mərkəzi ştrixlər, kənar ştrixlər.

## 8. DÜNYANIN ƏN NƏHƏNG TİCARƏT MƏRKƏZLƏRİ

Dünya ölkələrində, xüsusilə əhalisi çox olan Cənub-Şərqi Asiya ölkələrinin böyük şəhərlərində pərakəndə ticarət şəbəkəsi kimi əhaliyə birbaşa mal satışı və xidmət göstərən, həmçinin istirahət mərkəzi kimi çox böyük həcmli ticarət müəssisələri – "Ticarət mərkəzi", "Mol" və "Autlet" və s. yaradılır. Bunlar bilavasitə həmin şəhərlərin simasına, böyük əmtəə dövriyyəsinə malik olan mədəniyyət mərkəzinə çevrilir, xarici turistləri daha çox cəlb edir və böyük həcmdə alıcı kütləsini toplayır.

**Dünyanın ən nəhəng Ticarət Mərkəzləri aşağıdakılardır:**

1) Mall of America (ABŞ, Bluminqton);
2) "Dream Mall" Ticarət Mərkəzi – Tayvan;
3) Cəvahir Ticarət Mərkəzi (İstanbul);
4) Qolden Resurs Ticarət Mərkəzi (Golden Resources) – Pekin;
5) Bankok Dünya Ticarət Mərkəzi – Tayland;
6) Filadelfiyada Prussiya Kinq Kompleksi – ABŞ;
7) Berjaya Tayms Ckver – Malayziya, Kuala Lumpur;
8) West Edmonton Mall (Kanada) – 0,5 mln $m^2$ sahəsi, əyləncə mərkəzi, nəhəng basseyni və s.
9) Dubay Mall Ticarət Mərkəzi – qış idmanı, dünyanın ən yaxşı akvariumu və s.;
10) Veqas – Rusiya Ticarət Mərkəzi (Rusiyada ən böyük ticarət mərkəzi);
11) Qlobal Mərkəz (New Century Global Center) – Çin;
12) Çin Mall Ticarət Mərkəzi (New South China Mall) – Çin, Dunquan;
13) Asiya Mall (Mall of Asia) Ticarət Mərkəzi – Filippin, Manila;
14) SM Meqamal Ticarət Mərkəzi – Filippin, Manila;
15) Zenqia Plaza – Çin, Qanço və s.

Ən nəhəng ticarət mərkəzlərinin əsas əlamətləri aşağıdakılardır:

- Ən böyük ticarət mərkəzləri Cənub-Şərqi Asiyadadır;
- Forbes versiyasına və digər əlamətlərə görə qruplaşdırılır;
- Ümumi və icarə sahəsinə görə fərqləndirilir;
- Satış və xidmət sahələrinə görə müxtəlif olur;
- "Ticarət mərkəzi", "Mol" və "Autlet" tipində yaradılır və s.

# MÖVZU 12. DÜNYA BAZARI

## SUALLAR

1. Dünya bazarının mahiyyəti,təkamülü və strukturu.
2. Dünya bazarının formalaşmasının əsas mərhələləri.
3. Dünya bazarlarının təsnifatı.
4. Müasir dünya bazarları sistemi.
5. Dünya bazarında qiymətlər.
6. Dünya bazarında birjalar.
7. Beynəlxalq yarmarkalar və sərgilər.

## Əsas ədəbiyyat


1. Lomakin V.K. Dünya iqtisadiyyatı, Bakı, 2015, səh.166-284.
2. Xasbulatov R.İ. Beynəlxalq iqtisadi münasibətlər, Bakı, 2014, səh.611-640.
3. Niftullayev Vaqif. Sahibkarlığın əsasları. "Zaman" nəşriyyat. Bakı, 2002, səh.354-404.
4. Bədirov R., Bədirov M. Kapital bazarı. Bakı, 2003.
5. Sadıxov M. və b. Maliyyə resursları və maliyyə bazarı, Bakı, 2003.
6. Dünya iqtisadiyyatı: Beynəlxalq ticarət, maliyyə və inkişaf. Azərbaycan dilinə tərcümə. Bakı, 2006.
7. Ataşov Bəyalı. Maliyyə bazarları. "Kooperasiya" nəşriyyatı, Bakı, 2016.
8. Мировая экономика и международный бизнес. Под ред. В.В.Полякова. «Кнорус». М., 2011, стр. 135-180.
9. Поляков В.В. Мировой рынок: вопросы прогнозирования. «Кнорус». М., 2004.
10. Фомичев В.И. Международная Торговля, Москва, ИНФРА. – М, 1998, стр. 60-137.
11. Дюмулен И.И. Международная Торговля. Экономика, Политика, Практика. Москва, ВАВТ, 2010, стр. 229-299.
12. Киреев А.П. «Международная экономика» - Т. 1.: «Международные отошения», 2002, стр. 309-329.
13. Шай О. Организация отраслевых рынков. Теория и её применение. М., Изд. Дом Высшей школы экономики, 2014.
14. Əmtəə bazarları: take-profit.org/commidities-market-rates
15. https://markets.ft.com/data (world).


## 1. DÜNYA BAZARININ MAHİYYƏTİ, TƏKAMÜLÜ VƏ STRUKTURU

Bazar əmtəə və xidmətlərin istehsalı, bölgüsü və mübadiləsinin baş verdiyi iqtisadi mexanizmdir. Onun yaranması və təkamülü ictimai əmək bölgüsü və əmtəə istehsalının inkişafı ilə şərtlənir. Əmtəə istehsalının artımı onun mübadiləsini zəruri edir və nəticədə bazar yaranır.

**Dünya bazarı** – bir-birilə qarşılıqlı əlaqədə və asılılıqda olan, təsərrüfat əlaqələrinin bütün formalarını özündə əks etdirən ölkələrin milli bazarlarının məcmusudur.

**"Dünya bazarı"** – haqqında nəzəri-iqtisadi mənbələrdə, lüğətlərdə və ensiklopediyalarda, elmi tədqiqatlarda, tanınmış alimlərin əsərlərində müxtəlif yanaşmalar vardır. Belə ki, dünya bazarı ölkələr arasında beynəlxalaq əmək bölgüsü əsasında əmtəə-pul münasibətləri sistemi, əmtəə və xidmətlərlə beynəlxalq mübadilə sferası, dünya ölkələri bazarlarının məcmusu, ölkələrin tarixən formalaşmış beynəlxalq əmtəə-pul, ticarət-iqtisadi,

maliyyə-kredit münasibətləri sistemi, dünya təsərrüfat əlaqələri sistemi, ayrı-ayrı ölkələrin milli bazarlarını ticarət-iqtisadi sazişlərlə birləşdirən geniş və möhkəm əmtəə və xidmətlərin beynəlxalq mübadiləsi, dünya iqtisadiyyatının subyektləri arasındakı əmtəə-pul sistemi, dünya təsərrüfatının tərkib hissəsi, dünya təsərrüfat əlaqələri sisteminin əsas tərkib hissəsi və s. kimi qiymətləndirilir.

Bu yanaşmaların hər biri məntiqi mahiyyət etibarilə məzmunu əks etdirməklə bərabər, hamısı üçün üç məqam ümumi fikri əks etdirir: beynəlxalq əmək bölgüsü əsasında, dünya ölkələri arasında və əmtəə-pul münasibətlərinin məcmusudur.

**Dünya bazarı** – beynəlxalq əmək bölgüsü əsasında dövlətlərin, sahibkarların, kommersiya təşkilatlarının, firmaların tələb və təklif sferasını, həmçinin mal və xidmətlərin kommersiya mübadiləsini əks etdirən ümumdünya təsərrüfatının tərkib hissəsi, onlar arasında əmtəə-pul münasibətlərinin formalaşmış sistemidir.

**Dünya bazarı** – dövlətlər, kommersiya təşkilatları və sahibkarlar arasında əmtəə-pul münasibətləri sistemidir.

Klassik iqtisadın banilərindən biri Adam Smitin sözləri ilə desək, bazar mexanizmi və ümumimilli inkişaf o vaxt mövcud olur ki, mükəmməl rəqabət olsun, inhisarçılığa yol verilməsin, dəqiq, hamını əhatə edən və ədalətli vergi sistemi işləsin.

Qədim dövrün və orta əsrlərin dünyanın regionları və qitələri üzrə mənzərəsi çox mürəkkəb olub uzun dövrü əhatə etməklə yaranmış, formalaşmış və inkişaf etmişdir. Bu dövrdə insanın fərd kimi yaranmasından başlayaraq dövlətin yaranması və vahid dünya sisteminə çevrilməsinə qədər uzun bir təkamül prosesi baş vermişdir.

**Dünya bazarının təkamülü**




Göründüyü kimi fərd olan insan formalaşdıqdan sonra öz əməyi ilə əmtəə istehsal etməklə özünün zəruri tələbatını ödədikdən sonra ətraf əhalinin, dövlətin tələbatını ödəməyə başlamış və dünya məkanına qoşulmuşdur. Əvvəlcə məhdud miqdarda və çeşiddə, sonra dünya ölkələrində iri maşınlı sənayenin yaranması və inkişafı nəticəsində istehsal milli çərçivədən çıxmış və dünya bazarı yaranmağa başlamışdır. Kapitalizmə keçilmə ilə əlaqədar olaraq bu proses daha da sürətlənmişdir. Dünya bazarının formalaşması uzun tarixi bir dövrü əhatə edir. Bu dövrün əsas mərhələləri aşağıdakılardır:

**I mərhələ:** Quldarlıq quruluşu dövrü. Dünya bazarının yaranma dövrüdür. Qitədaxili ticarət əlaqələri baş verirdi (Finikya, Qədim Misir, Yunanıstan, Roma və s.);

**II mərhələ:** Quldarlıq-sənətkarlıq dövrü. Dünya bazarının inkişafa başlama dövrü. Ərazi bir qədər genişlənir. Aralıq dənizi və Qara dəniz ətrafı ölkələri əhatə edir.

**III mərhələ:** Feodalizm – natural təsərrüfatın üstünlüyü dövrü . Kənd təsərrüfatı məhsulları və kiçik sənətkarlıq müəssisələrinin mübadiləyə qoşulduğu, tacir kapitalının yaranması dövrüdür. Bu dövrdə əmtəə bölgüsü daimi xarakter almamış, vahid milli bazar da formalaşmadığı üçün əlahiddə və lokal xarakter daşıyırdı.

**IV mərhələ:** Kapitalist - əmtəə istehsalı dövrü. Sənaye və kənd təsərrüfatı sahələrinin yaranması və bazar subyektlərinə çevrildiyi dövrdür. Əmək bölgüsünün dərinləşdiyi, əmtəə istehsalının artdığı, bölgünün genişləndiyi və milli bazarın tam formalaşdığı dövrdür. Bu dövr istehsalın ixtisaslaşması və ayrı-ayrı ölkələrin ərazisindən kənara çıxdığı dövrdür. Milli bazarların genişlənməyə başladığı dövrdür.

**V mərhələ:** Müasir dünya bazarı dövrüdür.

Dünya bazarının yaranmasına və inkişafına təkan verən əsas səbəblər aşağıdakılardır:

- ❖ Dünyada gəmiçiliyin və xüsusilə okean gəmilərinin yaranması;

- ❖ Dəniz yollarının yaranması;
- ❖ Beynəlxalq kanalların çəkilməsi (Süveyş, Panama və s.);
- ❖ Bankların açılması;
- ❖ Teleqrafın yaradılması;
- ❖ Kompüterlərin əmələ gəlməsi;
- ❖ İnternetin yaranması və s.

Dünya bazarının yaranmasının əsas səbəbi müxtəlif tarixi dövrlərdə baş verən coğrafi kəşflər, nəqliyyat texnologiyalarının, ölkələr arasında siyasətin dərinləşməsi və diplomatiyanın inkişafı nəticəsində baş verən qloballaşmadır.

Uzun tarixi dövrdə dünya iqtisadiyyatının yaranması, təkamülü və inkişafı nəticəsində nəhayət dünya bazarının strukturu formalaşmışdır. 12.1-ci sxemdə dünya bazarının strukturu verilir.

**Sxem 12.1**

**Dünya bazarının strukturu**




Alqı-satqı obyektlərinin xüsusiyyətlərinə görə dünya bazarının struktur tərkibinə aşağıdakılar daxildir:

1. Dünya əmtəə (istehlak malları) bazarı. Bu sektor öz tərkibində sənaye və ərzaq məhsulları bazarlarını birləşdirir. Bəzən yaşayış və kommersiya daşınmaz əmlak bazarı da buraya daxil edilir;

2. Dünya xidmətlər bazarı. Bütün xidmət növlərini – nəqliyyat, rabitə, turizm, tibb, auditor, sığorta, injiirinq, marketinq və s. xidmətlərini birləşdirir;

3. Dünya kapital (maliyyə) bazarı. Bu sektora investisiya,valyuta, qızıl, qiymətli kağızlar (səhmlər, istiqrazlar və s.) və borc kapitalı bazarı daxildir;

4. Dünya işçi qüvvəsi (əmək) bazarı. Bu sektora alimlər, mühəndislər, mütəxəssislər, peşəkar və qeyri-peşəkar işçilər və s. işçi qüvvəsi daxildir;

5. Dünya istehsal vasitələri bazarı. Bu sektora əmək vasitələri, maşın və avadanlıqlar, texnika və texnologiyalar, xammal və yarımfabrikatlar, yanacaq, enerji, sənaye binaları və qurğuları və s. daxil edilir.

Ölkələr arasında ticarət-iqtisadi münasibətlərin subyektləri kimi dövlət idarələri, Transmilli Korporasiyalar, beynəlxalq maliyyə təşkilatları, kommersiya və sənaye kompaniyaları, sahibkarlar, fiziki şəxslər çıxış edirlər. XXI əsrin əvvəlindən başlayaraq bu bazarların bəziləri elektron formada və ya variantda fəaliyyət göstərməyə başlamışdır.

## 2. DÜNYA BAZARININ FORMALAŞMASININ ƏSAS MƏRHƏLƏLƏRİ

Bazar əmtəə istehsalına xas olan bütün qanun və kateqoriyalarla (tələb, təklif, rəqabət, konyuktura və s.) səciyyələnən və onları özündə birləşdirən iqtisadi anlayışdır. Dünya bazarının yaranması, təkamülü, inkişafı və bugünkü dünya bazarına gəlib çatması uzun bir dövrü əhatə edir. Onun ən birinci və ilkin dövrü natural təsərrüfat olmuşdur. Bu təsərrüfatda hazırlanan və əldə edilən məhsullar istehsalçının şəxsi tələbatının, sonra isə təsərrüfatdaxili ehtiyaclarının ödənilməsi üçün istifadə olunurdu. Təsərrüfatçılığın bu forması cəmiyyətin iqtisadi tarixinin "istehsal" mərhələsini təşkil edir və minilliklər ərzində davam edərək, zaman keçdikcə əmtəə təsərrüfatına çevrilmişdir.

Cəmiyyətdə əmək bölgüsünün yaranması nəticəsində hər bir adam öz tələbatının cüzi bir hissəsini özünün istehsal etdiyi məhsullar hesabına ödəyə bilər. Tələbatının çox böyük hissəsini özünün istehsal etdiyi məhsulları başqa adamların əmək məhsulları ilə mübadilə etməklə ödəyir. Bu da belə bir nəticəyə gəlməyə imkn verir ki, əmək bölgüsünün meydana gəlməsi və onun getdikcə dərinləşməsi bazarın meydana gəlməsinin obyektiv şərtlərindən biridir. Mübadilənin inkişafı pulun meydana gəlməsinə səbəb olmuşdur. Pul isə ticarət sferasının yaranmasına, onun səmərəliliyini və gəlirliliyini artırmaq üçün kommersiya, azad və sərbəstliyini təmin etmək üçün marketinq fəaliyyətinə gətirib çıxarmışdır.

Dünya bazarının yaranması və ya bazar münasibətlərinin formalaşması əmək məhsullarının bir-birinə dəyişdirilməsindən müasir, peşəkar marketinq mərhələsinə qədər keçdiyi dövrə qədərki təşkilati-iqtisadi mərhələləri əhatə edir, müasir bazarın strukturuna gətirib çıxarır. Bazarın formalaşması mərhələləri 12.2-ci sxemdə verilir. 12.2-ci sxemdən göründüyü kimi qədimdə pul yaranana qədər əmək məhsullarının bir-birilə dəyişdirilməsindən sonra, mübadilə, sonrakı mərhələdə tədavül, ticarət, kommersiya və müasir peşəkar marketinq - onun qlobal miqyasda beynəlxalq marketinq mərhələsi yaranmışdır ki, hazırda dünyada bazarın ən geniş olan bu mərhələ prosesi gedir.

**Sxem 12.2**

**Bazarın formalaşması mərhələləri**



Əmək məhsulunun dəyişdirilməsi (mena) bəşər tarixinin ən qədim və sadə iqtisadi əlaqələrinin başlanğıcıdır. İnsanın əldə etdiyi məhsulu ehtiyacı olan digər məhsula dəyişdirilməsinə deyilir. Dəyər insanın yaşaması və fəaliyyət göstərməsi üçün zərurilik və əhəmiyyətlilik dərəcəsi ilə müəyyən edilirdi. Bir məhsulu vermə və bir məhsulu alma (və əksinə) prinsipi (razılığı) ilə baş verirdi. Şərtləri qoyma sərbəst idi, heç bir hüquqi norma yox idi. İnsanın yalnız öz ehtiyaclarını ödəməsi mərhələsi 1-1,5 mln ili əhatə edir (ƏM-ƏM). Pulun yaranmasına qədər mövcud olmuşdur (ƏM – Əmək Məhsulu).

Əmtəə mübadiləsi əmək məhsulunun dəyişdirilməsi (mena) mərhələsindən sonrakı ikinci mərhələdir. İnsanın öz ehtiyacını ödədikdən sonra artıq istehsal etdiyi məhsulları digər tərəflərə verməklə məhsullarla əvəz etməsi – mübadilə etməsi mərhələsidir (Ə – Əmtəə). Bu mərhələdə artıq əmtəələr - məhsullar çeşidindən asılı olmayaraq bir-birinə mübadilə edilir (Ə-Ə). Mübadilə şərtləri qoyulmağa başlayır, tərəflər razılığa gəlir. Hüquqi normalar rəsmən tətbiq edilmir. Yavaş-yavaş dəyər müəyyən edilməyə başlayır (P – Pul, MEM – Məcmu Ekvivalent Məhsul).

Dünya bazarının yaranmasında aşağıdakı bəzi əsas dövrləri, hadisə və prosesləri xüsusi qeyd etmək olar:

1. B.e. IV-VIII əsrlərində sənətkarlığın əkinçilikdən ayrılması, sənətkarlıq məntəqələrinin yaranması;
2. VIII-IX əsrlər “Torpaq-ərazi” birliklərinin yaranması;
3. X əsrdə rus tacirlərinin səyi və təklifləri əsasında Vizantiya ilə ticarət müqavilələrinin bağlanması;
4. XV-XVIII əsrlərdə Böyük Coğrafi Kəşflər;
5. 1492-ci il Xristofor Kolumbun Amerikanı kəşf etməsi;
6. 1535-ci il Rusiyada vahid pul sisteminin yaradılması;
7. 1497-1499-cu illər Vasko da Qamanın Hindistana dəniz yolunu kəşf etməsi;
8. XVII əsr – ticarətin inkişafı nəticəsində Ümumrusiya bazarının formalaşdırılması;
9. 1753-cü il - ölkədaxili gömrüyün ləğv edilməsi;
10. 1765-ci il – dünyada ilk dəfə İ.Polzunovun universal buxar maşınının yaradılması (Rusiya mövqeyi);
11. 1769-cu il – Rusiyada ilk kağız pulun buraxılması;
12. 1769-cu il – ilk dəfə xarici istiqraz buraxılması;
13. 1825-ci il - dünyada birinci Stokton – Darlinqton (İngiltərə) buxar lokomotiv dəmiryolunun açılması;
14. 1860-cı il – Rusiya Dövlət Bankının təsis edilməsi;
15. 1864-cü il – Rusiyada ilk xüsusi kommersiya bankının yaradılması;
16. Qızıl monometallizmin genişlənməsi və Rusiyada pul tədavülünü sürətləndirən S. Vittenin pul islahatı və s.

İlk dəfə kağız pullar Çində XII əsrdə, Azərbaycanda ilk kağız pul - “Som” 1294-cü ildə buraxılmışdır.

**Tədavül** – əmtəə münasibətlərinin yarandığı və fəaliyyət göstərdiyi dövrdə istehsaldan əldə edilmiş məhsulların istehlakçılara çatdırılması mərhələsidir. İstehsalın artması əmtəə mübadiləsinin əmtəə dövriyyəsinə gətirib çıxarır. Əmtəə dövriyyəsi əmtəə mübadiləsinin inkişaf etmiş nəticəsidir. Bu mərhələdə Əmtəə (Ə) Məcmu Ekvivalent Məhsul (MEM) vasitəsilə, maddi və qeyri-maddi formada əmtəəyə çevrilir. Artıq tərəflər öz mövqeyinə uyğun şərtlərlə çıxış edir, maddi və əmlak məsuliyyəti daşıyırlar.

**Ticarət** – pul vasitəsilə həyata keçirilən, icra edilən və hesablaşma aparılan əmtəə tədavülünün bir formasıdır. Müxtəlif yanaşmalara görə iqtisadi münasibətlərin ən qədim formasıdır, geniş təkrar istehsalın hərəkətverici motorudur, alqı-satqı əməliyyatlarının məcmusudur, alqı-satqı məkanıdır, alqı-satqı aktlarının reallaşması meydanıdır, xidmət

sferasıdır, mal yeridilişi halqasıdır və s. Əsas alət puldur, əsas məqsəd gəlir əldə etmək, əsas vəzifə yüksək təşkilatçılıq və xidmət göstərməkdir. Ticarət aparılması məkanına və miqyasına görə daxili və xarici ticarət növlərinə ayrılır. Əsas göstəricisi əmtəə dövriyyəsidir. Daxili ticarət məqsədinə, əmtəə çeşidinin strukturuna və fəaliyyət dairəsinə görə topdansatış ticarət və pərakəndə satış ticarət halqalarına bölünür. Xarici ticarət alqı-satqı obyektinə, əhatə dairəsinə, iştirakçıların sayına, subyektlərinə, obyektlərinə, hesablaşma formalarına və s. əlamətlərə görə müxtəlif formalara bölünürlər.

**Kommersiya** – latın mənşəli söz olub (commercium) hərfi mənada ticarət, iqtisadi mənada ticarət sahibkarlığının və ya biznesinin bir növüdür. Ticarət termini iki mənada işlədilir. Birinci mənada iqtisadiyyatın müstəqil xidmət sahəsi, ikinci mənada məhsulun alqı-satqı aktlarının həyata keçirilməsi prosesini əks etdirir. Kommersiya fəaliyyəti ticarətin ikinci mənasında mənfəət əldə etmək məqsədilə həyata keçirilən alqı-satqı proseslərinin məcmusudur. Fəaliyyət pulun əmtəəyə və sonra əmtəənin pula çevrilməsi prosesini (P – Ə – P) əhatə edir. Sahibkarlıq anlayışından daha dar mənada işlənir. Kommersiya iqtisadi fəaliyyətin xüsusi sahəsidir. İstehsal prosesinin son funksiyası da hesab edilir, bir sıra operativ-təşkilati və təsərrüfat əməliyyatlarını həyata keçirir. Buraya əhali tələbatının və bazarın öyrənilməsi, malverənlərin və alıcıların tapılması, onlarla səmərəli təsərrüfat əlaqələrinin yaradılması, malların daşınması, merçendayzinq, reklam-informasiya tədbirləri, yüksək xidmət və s. daxil edilir. Bütün bu proseslər alqı-satqı müqavilələri və kontraktlar əsasında gedir.

**Marketinq** – ingilis dilində olan “market” sözündən götürülmüşdür, bazar mənasını verir. Daha çox “bazar fəaliyyəti” mənasını verir. 200-dən çox tərifi vardır. Lakin hər birinin kökündə bazarda aparılan məqsədyönlü və peşəkar mal satışı, əmtəənin pula çevrilməsi dayanır (Ə – P). Azad, sərbəst və açıq bazar iqtisadiyyatının ticarət fəlsəfəsidir. Məhz kamil marketinqin əsasında və üzərində beynəlxalq marketinq formalaşır, dünya bazarı qurulur, genişlənir və inkişaf edir.

**Biznes** – (ingiliscə business – məşğuliyyət) gəlir götürməyə yönəldilmiş iqtisadi fəaliyyətdir. Nəzəri və praktiki təsnifatda biznes miqyasına görə kiçik, orta və böyük (iri) fəaliyyət qruplarına ayrılır. Böyük biznes dövlətin iqtisadi və texniki gücünü nümayiş etdirir. Orta biznes daxili iqtisadi konyukturdan asılı olaraq qrup daxilində rəqabət prinsipləri əsasında təşəkkül tapır. Kiçik biznes əsasən daxili bazara köklənən əmtəə və xidmətləri reallaşdırır. Biznes istehsal, kommersiya və maliyyə növlərinə ayrılır.

Hələ qədim dövrlərdən insanlar arasında əmək məhsullarının dəyişdirilməsindən başlayaraq əmtəə mübadiləsinə keçən, geniş təkrar istehsalın tədavül dairəsində formalaşan, ticarət sferasını əmələ gətirən, kommersiya fəaliyyəti ilə səmərəliliyini artıran və peşəkar marketinq mərhələsinə gəlib çatan mərhələlərlə ölkədaxili bazardan dünya bazarına doğru genişlənmə və qloballaşma prosesi gedir və müasir dünya bazarı yaranır və formalaşır.

Əmtəə hələ istehsal edildiyi, toplandığı, dayandığı və saxlandığı halda heç nədir, yararsızdır və “ölü”dür. O vaxt əmtəəyə çevrilir ki, mal yeridilişi prosesini başa vuraraq, istehlakçıya çatmış, daxili, milli, beynəlxalq və dünya bazarında öz yerini tapmış olsun. Çünki mal, xammal və yarımfabrikat bir ölkədə istehsal, emal və bir neçə ölkədə hazır məhsula çevrilməklə ölkə daxilində - daxili bazarı, bir qədər genişlənərək bir hissəsinin xarici bazara keçməsilə milli bazarı daha da genişləndirərək digər ölkələrin bazarlarına qovuşmaqla beynəlxalq bazarı, sonda qlobal bazara birləşərək dünya bazarını əmələ gətirir. Beləliklə, dünya bazarı yaranır (Bax: sxem 12.3.).

12.3-cü sxemdən göründüyü kimi dünya bazarının yaranmasının əvvəlində daxili bazar dayanır, əhatə dairəsi getdikcə genişlənir, iştirakçıların sayı və əmtəə çeşidi artır və əmtəə-pul, valyuta-maliyyə prosesləri və əməliyyatları gedir.

**Sxem 12.3**

**Dünya bazarının yaranması**




**Daxili bazar:** Bu bazarda satılan bütün məhsullar ölkə daxilində istehsal edilib satılan mal bazarıdır.

**Milli bazar:** Bu bazarda – daxili bazarda istehsal edilmiş məhsulların bir hissəsi xarici ölkələrin alıcılarını əhatə edir.

**Beynəlxalq bazar:** Bu bazarda milli bazarın bir hissəsi birbaşa xarici bazarlarla birləşir.

**Dünya bazarı:** Bu bazar beynəlxalq əmək bölgüsü və istehsal amilləri əsasında ölkələr arasında baş verən əmtəə-pul münasibətləri sferasıdır.

## 3. DÜNYA BAZARLARININ TƏSNİFATI

Bazar əmtəə istehsalı zəncirinin növbəti tərkib hissəsi, əmtəələrin satın alınması (P – Ə) və satılması (Ə – P) ilə əlaqədar sövdələşmə və proseslərin məcmusudur.

Böyük inkişaf yolu keçmiş və tarixən formalaşmış dünya bazarı yanaşma mövqeyindən və fəaliyyət mexanizmindən asılı olaraq çox müxtəlif əlamətlər üzrə təsnifləşdirilir:

**I. Əhatə dairəsinə görə dünya bazarı aşağıdakı bazarlara bölünür:**

- Milli bazarlar;
- Regional bazarlar;
- Beynəlxalq bazarlar (dünya bazarları).

**II. Əmtəə strukturuna görə dünya bazarı aşağıdakı bazarlara bölünür:**

- Ərzaq malları bazarı;
- Qeyri-ərzaq malları bazarı;
- İstehsal-texniki təyinatlı məhsullar bazarı (sement, daş, dəmir və s.);
- Elmi-texniki məhsullar bazarı.

**III. Xidmət sahələrinə görə dünya (beynəlxalq) bazarları aşağıdakı bazarlara bölünür:**

- Reklam bazarı;
- Sığorta bazarı;
- Turizm bazarı;
- Nəqliyyat xidmətləri bazarı;
- Restoran xidmətləri bazarı;

- İnformasiya xidmətləri bazarı və s.

**IV. Kapitalın formalarına görə dünya bazarları aşağıdakı bazarlara bölünür:**

- Qiymətli kağızlar bazarı;
- Valyuta bazarı;
- Qızıl bazarı;
- Əmlak bazarı;
- Maliyyə bazarı və s.

Dünya bazarı dünya təsərrüfatının tərkib hissəsidir. Ona görə də dünya bazarında, həmçinin əmtəələrin, xidmətlərin, istehsal amillərinin, texnologiyaların, maliyyə alətlərinin, standartlaşdırmanın, istehlakçıların, xalq təsərrüfatı sahələrinin, infrastrukturun, bazarın, bazar qiymətlərinin və s. amillərin əlamətləri və xüsusiyyətlərinə görə dünya bazarı müxtəlif qruplara bölünür:

**I. Alqı-satqı obyektinə görə:**

**1) Dünya əmtəə və xidmətlər bazarları:**

- Dünya taxıl, kofe bazarı;
- Dünya avtomobil bazarı;
- Dünya maliyyə və bank xidmətləri bazarı və s.

**2) Dünya istehsal amilləri bazarı (resurslar bazarı):**

- Dünya əmək bazarı;
- Dünya kapital bazarı;
- Dünya xammal bazarı (neft,qaz);
- Dünya metal bazarı (qızıl, gümüş, mis) və s.

**3) Dünya pul və maliyyə bazarı:**

- Dünya səhm bazarı:
- Dünya istiqraz bazarı:
- Dünya valyuta bazarı və s.

**4) Dünya texnologiyalar bazarı:**

- Dünya İnternet bazarı;
- Dünya yüksək texnologiyalar bazarı;
- Dünya intellektual mülkiyyət bazarı və s.

**II. Məhsulun standartlaşdırılması səviyyəsinə görə dünya bazarları bölünür:**

**1) Eyni cinsli məhsullar bazarı:**

- Çoxsaylı xammal (pambıq, tütün) bazarları;
- Birja malları bazarı və s.

**2) Diferensiallaşdırılmış məhsullar bazarı:**

- Dünya toxuculuq məhsulları bazarı;
- Dünya avtomobil bazarı;
- Dünya məişət texnikası bazarı və s.

**III. İstehlakçıların tipinə görə dünya bazarları bölünür:**

- Dünya istehlak malları bazarları;
- Dünya industrial (sənaye) malları – istehsal vasitələri bazarları və s.

**IV. Təsərrüfat sahələrinə görə dünya bazarları bölünür:**

**1) Xalq təsərrüfatı sahələri üzrə:**

- Sənaye malları bazarı;
- Kənd təsərrüfatı malları bazarı;
- Xidmətlər bazarı;
- Nəqliyyat vasitələri bazarı;
- Rabitə xidmətləri bazarı;
- Ticarət xidmətləri bazarı;
- Mənzil bazarı;

- Əmlak bazarı və s.

**2) Sənaye sahələri üzrə:**

- Elektroenergetika məhsulları bazarı;
- Yanacaq-enerji məhsulları bazarı;
- Qara metallurgiya məhsulları bazarı;
- Əlvan metallurgiya məhsulları bazarı;
- Kimya və neft-kimya məhsulları bazarı;
- Maşınqayırma və metal emalı məhsulları bazarı;
- Meşə, ağac emalı və sellüloz-kağız məhsulları bazarı;
- Tikinti materialları bazarı;
- Yeyinti məhsulları bazarı;
- Alt sahələr sənayesi məhsulları bazarı və s.

**V. Bazara çıxış imkanlarına görə dünya bazarları bölünür:**

1) Geniş iştirakçısı olan və bazara maneəsiz çıxışı olan dünya bazarları:
- Dünya aqrar məhsullar (taxıl, düyü, kartof) bazarları;
- Dünya yüngül sənaye məhsulları (toxuculuq) bazarları;
- Dünya turizm xidmətləri bazarı və s.

2) Məhdud saylı iştirakçısı olan və bazara az maneəli çıxışı olan dünya bazarları:
- Dünya maşınqayırma məhsulları bazarı (avtomobil, təyyarə);
- Dünya nəqliyyat xidmətləri bazarı (dəmiryolu, avtomobil və s.).

3) Azsaylı iştirakçısı olan və bazara çoxmaneəli çıxışı olan dünya bazarları:
- Metal, kimya məhsulları, idman vasitələri dünya bazarları.

4) Daimi iştirakçısı olan və bazara çıxışı bloka alınan dünya bazarları:
- Xammalın (neft,qaz), almazın, qızılın dünya bazarları və s.

**VI. Bazar iştirakçıları arasında əməliyyatların miqyasına görə bazarlar bölünür:**

1) Yerli (lokal) bazarlar (şəhər, yaşayış məntəqəsi) – beynəlxalq sazişlər bəzi mal növləri üzrə bağlanıla bilər;

2) Regional bazarlar (respublika, ştat, vilayət, dairə);

3) Milli bazarlar (bütün ölkə üzrə) – iri ixracatçı kompaniyalar, idxalçı kompaniyalar;

4) Beynəlxalq (transsərhəd) bazarlar - ən azı iki ölkəni əhatə edən, məsələn: Avropa, Şimali Amerika, Afrika, Asiya bazarları;

5) Qlobal bazarlar – beynəlxalq hava daşımaları, beynəlxalq dəniz daşımaları, beynəlxalq informasiya texnologiyaları və s.

**VII. Bazar strukturlarının tiplərinə görə beynəlxalq bazarlar bölünür:**

1) Satıcıların və alıcıların sayına görə:
- Azsaylı satıcısı olan beynəlxalq bazarlar;
- Çoxsaylı satıcısı olan beynəlxalq bazarlar;
- Azsaylı alıcısı olan beynəlxalq bazarlar;
- Çoxsaylı alıcısı olan beynəlxalq bazarları.

2) Bazar payına görə:
- Bazar payı az olan beynəlxalq bazarlar;
- Bazar payı çox olan beynəlxalq bazarlar.

3) Məhsulun tipinə görə - eyni və müxtəlif cinsli beynəlxalq bazarlar.

4) Resursların mobilliyinə, bazara çıxış maneələrinin sayına görə - çoxmaneəli və azmaneəli beynəlxalq bazarlar.

5) Bazar informasiyalarına görə - simmetrik və asimmetrik beynəlxalq bazarlar və s.

**VIII. Bazar qiymətlərinə alıcıların və satıcıların təsirinə görə beynəlxalq bazarlara bölünür:**

- Dünya birja malları bazarı;
- Kənd təsərrüfatı məhsulları beynəlxalq bazarları (taxıl, kartof, tərəvəz);

- Valyuta bazarı;
- Dondurulmuş balıq beynəlxalq bazarı;
- Zərgərlik məhsulları və qiymətli metalların dünya bazarı (qızıl,gümüş,platin) və s.

**IX. Rəqabətli bazarlar:**

- Hava daşımaları bazarı;
- Yüngül sənaye malları bazarı;
- Əmək bazarları;
- Kənd təsərrüfatı yarmarkaları;
- Kompakt-disk bazarı;
- Kitab bazarları, mağazaları və sərgi-yarmarkalar;
- Apteklər;
- Pərakəndə mağazalar şəbəkəsi və s.

**X. İnhisarçı rəqabət bazarları:**

- Çoxsaylı yeyinti sənaye məhsulları bazarı (süd məhsulları, qənnadı məmulatları, pivə bazarı);
- Paltar bazarı;
- Prestijli (nüfuzlu) mallar bazarı;
- Mebel bazarı;
- Məişət kimyası (sabun və yuyucu vasitələr) malları bazarı;
- Kosmetika bazarı;
- Parlaq üzlü jurnallar bazarı;
- Restoran biznesi və s.

**XI. Beynəlxalq bazarlar ticarətin təşkili növlərinə görə bölünür:**

- Əmtəə birjaları;
- Fond birjaları;
- Auksionlar (hərraclar);
- Beynəlxalq sərgilər;
- Beynəlxalq yarmarkalar;
- Elektron ticarət və s.

Göründüyü kimi dünya bazarı çox geniş anlayışdır. Tərkibi, mahiyyəti, əhatə dairəsi, əmtəə strukturu, xidmət sahələri, kapitalı və digər əlamətləri və səciyyəvi xüsusiyyətləri ilə bir-birilə oxşar cəhətləri olsa da, fəaliyyət mexanizminə, əmtəəlik əlamətlərinə, hərəkət dövrünə, hesablaşma mexanizminə və s. əlamətlərinə görə bir-birindən çox fərqlənirlər.

Əlamətlərindən asılı olmayaraq bütün bazarların ümumi (oxşar) və fərqli cəhətləri vardır. Ümumi (oxşar) cəhətlərinə hamısı üçün eyni olan tələb-təklif münasibətləri, yüksək gəlir əldə edilməsi, bir-birindən qarşılıqlı asılılıq və s., fərqli cəhətlərinə risklərin müxtəlifliyi, valyuta-hesablaşma əməliyyatlarının aparılması mexanizmi, dövlətin müdaxiləsi və s. cəhətləri vardır.

Dünya bazarı dünyada region istiqamətlərinə və regionun əmtəə bazarlarına görə də təsnifləşdirilir. Region istiqamətlərinə görə bazarlar – Avropa bazarı, Asiya bazarı, Şərq bazarı, MDB bazarı və s., regionun əmtəə bazarlarına görə - Yaxın Şərq neft bazarı, Avropa kömür bazarı, Asiya pambıq bazarı, Afrika işçi qüvvəsi bazarı və s. bazarlar kimi bölünür.

Dünya bazarında alqı-satqı obyektinin xüsusiyyətlərindən, bazarların və əhalinin artım tempindən, əhali məskunlaşmasından, tələb və təklifin səviyyəsindən, iqlim dəyişmələrindən, hərbi-siyasi vəziyyətdən, milli, dini tərkibdən və s. asılı olaraq digər bazar qruplaşmaları da vardır. Bunlarla bərabər bazarların artım tempinin artmasına görə bazarları aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Daha sürətlə artan dünya bazarları (məsələn, dünya formakologiya bazarı, dünya kompüter, mobil telefonlar bazarı və s.);

2. Əmtəə çeşidi daha sürətlə genişlənən dünya bazarları (məsələn, dünya smartfon bazarı, dünya informasiya texnologiyaları bazarı və s.);

3. Həcmi azalan dünya bazarları (məsələn, dünya daş kömür bazarı, dünya kağız bazarı və s.).

Dünya bazarının kökündə, bünövrəsində, nüvəsində əmtəə dayanır. Digər bazarlar isə bunun artmasına, inkişafına, genişlənməsinə, tamamlanmasına, son nəticədə tələbin ödənilməsinə və daha böyük gəlir əldə edilməsinə xidmət edir.

Dünya bazarının fəaliyyəti beynəlxalq əmtəə sazişləri və digər sazişlərlə tənzimlənir.

Dünya bazarının müxtəlif əlamətləri üzrə hər bir forması özünün məqsədi və təşkilati formasından asılı olaraq əhatə dairəsi – infrastrukturu ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərirlər. İnfrastruktur ilə bazar fəaliyyəti təşkil edilir. Əmtəə, o cümlədən istehsal vasitələri, xidmətlər, maliyyə, işçi qüvvəsi və s. bazarlar onun təşkil edilməsi, reallaşdırılması, icrası və tamamlanması üçün bazar obyektləri, vasitələri, qurumları və infrastruktur təşkilatları ilə birgə işləyirlər. Dünya bazarının infrastrukturu 12.4-cü sxemdə verilir.

**Sxem 12.4**



Sxemdən göründüyü kimi dünya əmtəə, o cümlədən istehsal vasitələri bazarı - əmtəə birjaları, ticarət mərkəzləri, evləri, şirkətləri, torqlar, auksionlar, sərgilər, yarmarkalar, ehtiyat fondları, standartlaşdırma, antiinhisar, kontrakt, nəqliyyat, gömrük, vergi, reklam, sertifikatlaşdırma, lisenziyalaşdırma və təşkilatları ilə birgə bazar fəaliyyətində iştirak edirlər. Dünya xidmətlər, maliyyə və işçi qüvvəsi bazarları da infrastruktur təşkilatları ilə bazar fəaliyyətini təşkil edirlər.

## 4. MÜASİR DÜNYA BAZARLARI SİSTEMİ

Dünya bazarı əmtəə nomenklaturuna, təyinatına, texnoloji səviyyəsinə və s. əlamətlərinə görə müxtəlif qruplara bölünür. Bu qruplar digər subəlamətlər üzrə əmtəə çeşidlərinə görə bazarlara bölünür:

**I. Dünya ərzaq və kənd təsərrüfatı məhsulları bazarı:**

1. Dünya taxıl bazarı (buğda və s.);
2. Dünya düyü bazarı;
3. Dünya çay bazarı;
4. Dünya ət bazarı (yağ və s.);
5. Dünya balıq və balıq məhsulları bazarı;
6. Dünya yun bazarı;
7. Dünya tütün bazarı;
8. Dünya qarğıdalı bazarı;
9. Dünya bitki yağı bazarı;
10. Dünya süd və süd məhsulları bazarı;
11. Dünya pambıq bazarı;
12. Dünya kofe bazarı;
13. Dünya fastfud bazarı;
14. Dünya meşə materialları bazarı;
15. Dünya yem bazarı;
16. Dünya cins heyvan və quşlar bazarı;
17. Dünya ərzaq bazarı (ümumi) və s.

**II. Dünya qeyri-ərzaq malları bazarı:**

1. Dünya zərgərlik məmulatları bazarı;
2. Dünya mebel bazarı;
3. Dünya toxuculuq malları bazarı;
4. Dünya paltar bazarı;
5. Dünya musiqi alətləri bazarı və s.

**III. Dünya enerji daşıyıcıları bazarı**

1. Dünya neft bazarı;
2. Dünya qaz bazarı;
3. Dünya daş kömür bazarı;
4. Dünya boksitlər bazarı;
5. Dünya koks bazarı;
6. Dünya təbii resurslar bazarı (ümumi);
7. Dünya elektrik enerjisi bazarı və s.

**IV. Dünya metal bazarları:**

1. Dünya qızıl bazarı;
2. Dünya gümüş bazarı;
3. Dünya mis bazarı;
4. Dünya alüminium bazarı;
5. Dünya nikel bazarı;

6. Dünya sink bazarı;
7. Dünya qara metallar bazarı;
8. Dünya əlvan metallar bazarı;
9. Dünya almaz bazarı;
10. Dünya platin bazarı və s.

**V. Dünya texnika və texnologiyalar bazarı:**

1. Dünya avtomobil bazarı;
2. Dünya televizor bazarı;
3. Dünya smartfon bazarı;
4. Dünya elektrotexnika məhsulları bazarı (ümumi);
5. Dünya soyuducular bazarı;
6. Dünya oyun aparatları bazarı;
7. Dünya bərk disklər bazarı;
8. Dünya çap maşınları bazarı;
9. Dünya informasiya texnologiyaları bazarı (ümumi);
10. Dünya planşetlər bazarı;
11. Dünya məişət texnikası bazarı;
12. Dünya robot bazarı;
13. Dünya biometrik sistemlər bazarı;
14. Dünya noutbuk bazarı;
15. Dünya printer bazarı;
16. Dünya kompüter bazarı;
17. Dünya trenajor bazarı;
18. Dünya tibb texnikası bazarı;
19. Dünya təşkilati-texnika bazarı;
20. Dünya dəmiryolu maşınqayırma bazarı;
21. Dünya kosmik sənaye məhsulları bazarı və s.

**VI. Dünya kimya məhsulları bazarı:**

1. Dünya plastik boru bazarı;
2. Dünya avtomobil şinləri bazarı;
3. Dünya mineral gübrə bazarı;
4. Dünya formakologiya bazarı;
5. Dünya polimer materiallar bazarı və s.

**VII. Dünya kağız və qablaşdırma məhsulları bazarı:**

1. Dünya kağız bazarı;
2. Dünya kağız-karton bazarı;
3. Dünya tara bazarı;
4. Dünya qablaşdırma vasitələri bazarı;
5. Dünya etiket bazarı və s.

**VIII. Dünya kapital bazarı:**

1. Dünya səhmlər bazarı (istiqrazlar və s.);
2. Dünya valyuta bazarı;
3. Dünya kriptovalyuta bazarı;
4. Dünya qiymətli kağızlar bazarı;
5. Dünya əmlak bazarı və s.

**IX. Dünya xidmətləri bazarı:**

1. Dünya reklam xidmətləri bazarı;
2. Dünya sığorta bazarı;
3. Dünya turizm xidmətləri bazarı;
4. Dünya informasiya-kommunikasiya texnologiyaları bazarı;

5. Dünya təsviri incəsənət əsərləri bazarı;
6. Dünya yükdaşımaları bazarı;
7. Dünya nəqliyyat xidmətləri bazarı;
8. Dünya rabitə texnologiyaları bazarı və s.

**X. Dünya əmək bazarı:**

1. Dünya işçi qüvvəsi bazarı;
2. Dünya idman bazarı və s.

**XI. Dünya intellektual mülkiyyət bazarları:**

1. Dünya patent bazarı;
2. Dünya lisenziya bazarı və s.

**XII. Dünyanın digər bazarları:**

1. Dünya narkotik vasitələr bazarları;
2. Dünya silah bazarı;
3. Dünyada insan alveri və s.

Dünyada əmtəələr, xidmətlər və intellektual mülkiyyət bazarlarının ümumi cəhətləri ilə bərabər çox fərqləndirici və səciyyəvi xüsusiyyətləri də vardır. Bu məhsulların hasilatı, emalı, tədarükü, hərəkəti, qiymətləri, xarici ticarəti haqqında ixtisaslaşdırılmış, xüsusilə beynəlxalq sahəvi təşkilatlar, hətta qeyri-hökumət təşkilatları daimi monitorinqlər, hesablamalar, təhlillər və araşdırmalar aparır, göstərilən sahələr üzrə dünya bazarlarının proq-nozlarını hazırlayır və bazar iştirakçılarına təqdim edir. Onun əsasında da bazar subyektləri öz inkişaf strategiyalarını müəyyən edirlər.

Bütün əmtəələr üzrə bazarların tərkibi çox geniş və mürəkkəbdir. Onların əmtəə çeşidi və nomenklaturu "Beynəlxalq Standart Ticarət Təsnifatında" verilmişdir. "Beynəlxalq Standart Ticarət Təsnifatı"nın (BSTT) yenidən baxılmış dördüncü variantı BMT-nin "İqtisadi və Sosial Məsələlər Departamenti" tərəfindən 2008-ci ildə yenidən qəbul edilmiş və hazırda bütün dünya ölkələri onun əsasında işləyir[1]. Qara metallar bazarının əmtəə çeşidi və nomenklaturu 12.5-ci sxemdə verilir.

**Sxem 12.5**

**Qara metalların əmtəə çeşidi və nomenklaturu**




[1] unstats.un.org/unsd/publication/seriesM/seriesM_34rev4r.pdf
Департамент по экономическим и социальным вопросом ООН. Нью-Йорк, 2008 год. Международная стандартная торговая классификация. Четвёртый пересмотренный вариант.

12.5-ci sxemdən göründüyü kimi qara metallar bazarı öz tərkibində filiz xammalı, aralıq məhsullar və polad məhsullarını əhatə edir. Hər biri ayrı-ayrılıqda beynəlxalq qara metallar bazarının obyekti kimi çıxış edir, alqı-satqı kontraktlarında ayrıca əmtəə çeşidi kimi göstərilir.

Dünya əmtəə bazarlarının, xüsusilə alüminium, mis, kobalt, qurğuşun, nikel, qalay, gümüş, qızıl, sink, platin, palladium, radium, polad, uran və s. bu kimi əsas metalların, enerji daşıyıcılarının illik istehsalı, istehlakı, qiymətləri haqqında CIA World Factbook, metal və neft birjalarının hesabatlarında daim məlumatlar verilir.

## 5. DÜNYA BAZARINDA QİYMƏTLƏR

Bazar iştirakçılar arasında qiymətlərin əmələ gəlməsi, əmtəə-pul münasibətləri, tələb, təklif, əmtəə mübadiləsi sferasının digər elementləri vasitəsilə həyata keçirilən müxtəlif tipli sabit, daim baş verən, təkrar olunan əlaqələr (istehsal, nəqliyyat, ticarət, texnoloji və digər əlaqələr) sistemidir.

Qiymət bazar iqtisadiyyatının ən mühüm amilidir və bu bazar iqtisadiyyatının obyektiv iqtisadi qanunları əsasında formalaşır.

Qiymət əmtəənin dəyərinin çevrilmiş forması və ya pul ilə ifadəsidir. Dəyər (qiymətlilik) – əmtəənin həcminin (miqyas əhəmiyyətliliyinin) daxili meyarıdır. Öz məzmununa görə dəyər istehlak dəyərinə və mübadilə dəyərinə bölünür. İstehlak dəyəri – əmtəənin insanların tələbatını ödəmə qabiliyyətini, mübadilə dəyəri – əmtəənin başqa əmtəələrlə dəyişilmə qabiliyyətini əks etdirir. İki əmtəənin mübadilə nisbəti onların sabit pul əmtəəsində ifadə olunmuş nisbi qiymətlərini ifadə edir. Qiymət mübadilə dəyərinin səbəbi və mənbəyi olmaqla əmtəəniin son dərəcə faydalılığı ilə müəyyənləşdirilir. Qiymət istehlakçıların konkret əmtəənin alınmasına ödədikləri pul məbləğidir. Qiymət sabit dayana bilmir, tələb və təklif əsasında daim meyil edir, qalxır və enir.

Dünya qiyməti – dünya bazarında hər hansı bir məhsula tələb və təklifin və valyuta məzənnələrinin dəyişməsinin təsiri altında əmələ gəlir. Həmçinin dünya qiymətlərinə dövlət istənilən səviyyədə təsir göstərə bilir (məsələn, lisenziyalaşdırma, idxal və ixracın stimullaşdırılması, kvotalaşdırma, yardım etmə və s.).

Dünya qiymətləri – dünya bazarında satılan məhsulların beynəlxalq dəyərinin pulla ifadəsidir. Bunun əsasında məhsul istehsalının beynəlxalq qiyməti durur və rəqabət mühitində formalaşır.

Dünya bazarında məhsul istehsalı üzrə milli dəyər və qiymətlərin müxtəlif olması onlar arasında rəqabətin yaranmasına səbəb olur, bunun nəticəsində də beynəlxalq qiymətlər, həmçinin beynəlxalq istehsal qiymətləri və ona uyğun dünya qiymətləri formalaşır.

Dünya qiymətləri alıcı, satıcı və ya beynəlxalq ticarətin əsas mərkəzlərinin məhsullarının qiymətində öz əksini tapır. O, dünya bazarında sərbəst konvertasiya olunan valyuta ilə iri və müntəzəm məhsul alqı-satqısı əsasında müəyyən olunur. Maşın, avadanlıq, texnologiya və s. bu kimi məhsulların qiymətləri İnkişaf Etmiş Ölkələrin istehsalçılarının – TMK-larının müəyyən etdiyi qiymətlər, enerji daşıyıcıları, metallar və s. birja məhsullarının qiymətləri isə beynəlxalq əmtəə birjalarında müəyyən edilir. Lakin bu qiymətlər əmtəə xüsusiyyətlərinə, tələb və təklifə, ölkənin coğrafi mövqeyinə və s. əlamətlərinə görə eyni deyildir, ölkələr üzrə müxtəlifdir. Bu da həmin məhsulların dünya qiymətlərinin səviyyəsinə müxtəlif amillərin (ödəniş valyutası, hesablaşma şərtləri, mal verilməsinin xarakteri, əmlak mənsubiyyəti və s.) təsir etməsi ilə bağlıdır.

Dünya qiymətlərinin səviyyyəsinə təsir edən amilləri aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Ümumi iqtisadi amillər: məcmu tələb və təklif, inflyasiya, milli valyutanın məzənnəsi və iqtisadi tsikl. Bu amillər məhsulun növü, çeşidi və istehsal şəraitindən asılı olmayaraq daim fəaliyyətdədir.

2. Konkret iqtisadi amillər: xərclər, gəlir, mənfəət, vergi və yığımlar, istehlak xüsusiyyətləri (keyfiyyət, etibarlılıq, dizayn, prestij və s.) və əvəzedici əmtəələr. Bu amillər konkret məhsulun əmtəəlik xüsusiyyətləri, onun istehsal və satış şəraiti və mövqeyi ilə müəyyən edilir.

3. Səciyyəvi amillər: mövsimilik, istismar xərcləri, komplektlik, zəmanət və servis şərtləri. Bu amillər müəyyən əmtəə və xidmətlər üzrə müxtəlifdir.

4. Xüsusi amillər: dövlət tənzimlənməsi, məhdudiyyətlər, kvotalar, valyuta məzənnəsi və s. Bu amillər isə xüsusi iqtisadi alətlər və mexanizmlər ilə tənzimlənir.

5. Xarici amillər: siyasi, dini, etnik, hərbi və s.

Dünya bazar qiymətlərinin növü və səviyyəsi həmçinin dünya təsərrüfatı subyektlərinin qiymət informasiyası mənbələrindən asılıdır. Buna uyğun olaraq sorğu, preyskurant, birja kotirovkaları, hərrac qiymətləri, kontrakt qiymətləri, statistik qiymətlər və s. qiymətlər əmələ gəlir. Dünya qiymətləri haqqındakı məlumat və informasiyalar illik məcmuə, soraq kitabçaları, sahəvi jurnal, kommersiya büllüetenləri, KİV-lər və s. materiallarla verilir.

Dünya qiymətlərinin bir-birilə qarşılıqlı asılılıqda olan funkisyaları aşağıdakılardır:

1. İndikativ funkisyalar: konkret vaxt ərzində mövcud iqtisadi vəziyyəti qiymətləndirməyə imkan verir;

2. Kommunikativ funkisyalar: bazar subyektləri arasında səmərəli əlaqəni yaratmağa imkan verir;

3. Distributiv funkisyalar: bazar subyektləri arasında gəlirlərin bölgüsünə şərait yaradır;

4. Stimullaşdırıcı funksiyalar: dövlətin və şirkətlərin idxal-ixrac siyasətlərində dəyişikliklərə səbəb olur;

5. Tənzimləyici funksiyalar: məhsulları istehlakçıların tələblərinə cavab verməyən şirkətlərin bazardan çıxıb getməsinə səbəb olur və s.

Dünya bazarına xidmət edən və onun konyukturunu əks etdirən qiymətə dünya qiymətləri deyilir. Dünya bazarında realizə edilən malların dəyərinin pulla ifadəsidir. Bu qiymət dünyada çoxsaylı ticarət sazişlərinin bağlanılması zamanı beynəlxalq kontrakt qiymətlərinin müəyyən edilməsinə xidmət edir.

Ümumiyyətlə geniş təkrar istehsal prosesinin müxtəlif mərhələlərində, dəyər zəncirinin bütün halqalarında qiymətin əmələ gəlməsi mürəkkəb bir prosesdir, riyazi-iqtisadi hesablamalar, təhlillər və metodoloji yanaşmalarla formalaşır.

12.6-cı sxemdən göründüyü kimi vahid qiymət sistemi öz tərkibində sənaye məhsullarının topdansatış qiymətlərini, birja qiymətlərini, kənd təsərrüfatı məhsulu və xammalın tədarük qiymətlərini, sərbəst qiymətləri, istehlak qiymətlərini, kommunal və məişət xidmətləri qiymətlərini (tariflərini və xarici ticarət qiymətlərini) əhatə edir. Beynəlxalq ticarətdə qiymətlərin vəziyyəti bir çox hallarda valyuta kursundan asılıdır. Bazar iqtisadiyyatı şəritində qiymətlər pul dövriyyəsi ilə sıx əlaqədə olur.

Bütün qiymətlər bir-birilə qarşılıqlı əlaqədə olmaqla vahid qiymət sistemini əmələ gətirir. Bazar amillərinin təsiri ilə bu qiymətlər dəyişir.

Vahid qiymər sistemi 12.6-cı sxemdə verilir:

**Sxem 12.6**

**Vahid qiymət sistemi**




Qiymətlərin yaranmasına təsir göstərən amillər üç qrupa – bazar, konyuktura və tənzimləyici amillərə bölünür. Bazar amillərinə – əmtəə bazarlarında müxtəlif, dəyişən istehsaldaxili və qeyri-istehsal xərcləri, konyuktura amillərinə - bazarda vəziyyətin və istehlak tələbinin dəyişməsindən meydana çıxan amillər, tənzimləyici amillərə - dövlətin iqtisadiyyata qarışması ilə əlaqədar olan amillər daxil edilir.

Bütün bunlar da qiymətlərin dəyişməsinə səbəb olur. Dünya qiymətlərinin artmasının əsas səbəbləri aşağıdakılardır:

- Konkret mal qrupu üzrə istehsalın azalması;

- İqtisadi şəraitin qeyri-sabitliyi;
- Firmanın (istehsalçının) inhisarçı vəziyyətə düşməsi;
- Tədavüldə pul kütləsinin çoxalması;
- Vergi yığımının artması;
- Əməkhqaqı ödənişlərinin və tariflərinin çoxalması;
- Əmtəə keyfiyyətinin yüksəldilməsi;
- Dəbə uyğunlaşma xərcləri;
- İşçi çatışmazlığının artması;
- Bürokratik maneələrin artması və s.

Qiymətlərin artması və onun əksi olan qiymətlərin aşağı düşməsi səbəblərini əhatə dairəsinə görə iki qrupa – daxili və xarici amillərə bölmək olar. Xarici amillərə aşağıdakı amilləri daxil etmək olar:

- İstehsalçı və satıcı ölkələrdə siyasi sabitlik dərəcəsi;
- Əmək resurslarının vəziyyəti;
- Maddi (təbii) resursların vəziyyəti;
- Dövlətin iqtisadi siyasətinin xarakteri və prinsipləri;
- İnflyasiya səviyyəsi;
- Bazarın miqyası və seqmentasiyası;
- Bazarın tutumu;
- İnfrastrukturun vəziyyəti;
- Kamil və ya ədalətli rəqabət;
- Vergilərin optimallığı;
- Kənar müdaxilə vəziyyəti və s.

Dünya əmtəə bazarlarında tətbiq edilən qiymətlər aşağıdakı növlərə bölünür:

1. Pərakəndəsatış qiymətləri;
2. Topdansatış qiymətləri;
3. Məlumat qiymətləri;
4. Auksion (hərrac) qiymətləri və s.

Pərakəndəsatış qiymətləri – pərakəndə ticarət müəssisələrində malın son fərdi istehlakçılara satıldığı qiymətlərə deyilir.

Topdansatış qiymətlər – böyük partiyalarla malverilməsi kontraktlarında göstərilən qiymətlərə deyilir. Kontraktın (alqı-satqı müqaviləsinin) icrası prosesində qiymətlərə yenidən baxılması şərtləri daxilində aşağıdakı qiymət növləri tətbiq edilə bilər:

- Möhkəm qiymətlər;
- Dəyişkən qiymətlər;
- Sürüşkən qiymətlər.

Kontraktın imzalanması zamanı müəyyən edilən, kontraktda öz əksini tapan, bütün malverilməsi müddətində təkrar baxılması nəzərdə tutulmayan qiymətlərə möhkəm qiymətlər deyilir. Bəzən bu qiymətlərə sabit, fiksasiya edilmiş və ya zəmanətli qiymətlər də deyilir.

Bazarda qiymət meylinin dəyişməsi ilə əlaqədar olaraq kontraktda nəzərdə tutulmuş hallarda sonradan dəyişdirilmiş qiymətlərə dəyişkən qiymətlər deyilir. Belə qiymətlər xammalın, kənd təsərrüfatı məhsullarının, ağır sənaye məhsullarının uzunmüddətli kontraktlarında istifadə edilir.

Xammal və materialların dəyərinin, əmək haqqının, vergi ödənişlərinin dəyişməsi və s. bu kimi səbəblərdən satılan malların maya dəyərinin dəyişməsinə uyğun olaraq kontraktlarda dəyişdirilmiş qiymətlərə sürüşkən qiymətlər deyilir. Belə qiymətlər tərəfdaşların qarşılıqlı razılaşmaları ilə mənafelərin qarşılıqlı qorunmasına, əlaqələrin möhkəmliyinə xidmət edir.

Məlumat qiymətləri – istehsalçıların kataloqlarda, preyskurantlarda, dövri nəşrlərdə çap edib yaydığı qiymətlərə deyilir. Belə qiymətlər kontrakt qiymətlərində bazis qiymətləri kimi götürülür, tərəflər arasında razılaşmaqla dəyişdirilir və razılaşdırılır.

Auksion (hərrac) qiymətləri – auksionun keçirildiyi vaxt qiymətin minimum həddindən başlayaraq alıcıların konkret mala artırmaqla verdikləri və ən son qiymətin müəyyən edildiyi qiymətə deyilir. Bu qiymət malın satıldığı gün tələb və təklifdən əmələ gələn ona verilən ən mücərrəd qiymətdir. Dəyəri ilə qiyməti arasında fərq daha çox olur. Qiymət dəyərindən çox nadirliyinə görə (unikallığı, təkrarsızlığı) verilir, sosial, milli, mədəni, tarixi, yaşı, dövrü və s. əlamətləri ilə fokslanır.

Dünyanın müxtəlif ölkələrində, hətta böyük ölkələrin müxtəlif regionlarında müxtəlif firmalar tərəfindən istehsal edilən eyni mallara çox müxtəlif sayda və həddə qiymətlər qoyulur. Həmçinin eyni firma tərəfindən istehsal edilmiş eyni əmtəənin müxtəlif ölkələrdə və hətta regionlarında satış qiyməti də fərqlənir və müxtəlif olur. Bunların dünya iqtisadiyyatının qanunauyğunluqlarına görə obyektiv səbəbi resursların qeyri-bərabərliyi, ölkələrin coğrafi yerləşməsi, nəqliyyat əlaqələri, əhali sıxlığı, texnoloji inkişaf səviyyəsi, işçi qüvvəsinin səviyyəsi, informasiya texnologiyaları və s. hesab edilir. Lakin müasir iqtisadi dünyada, böyük rəqabət meydanında beynəlxalq ticarətin səmərəliləşdirilməsi, beynəlxalq marketinq konsepsiyaları, yüksək texnologiyaların tətbiqi, infrastrukturun təkmilləşdirilməsi və s. yolu ilə qiymətin əldə olunmasına, diktə edilməsinə, daha çox mənfəət əldə edilməsi uğrunda mübarizə gedir. Ölkələr üzrə tələb və təklifdə fərq daha da artır. Çünki milli bazarlara nisbətən beynəlxalq bazar daha geniş, daha mürəkkəb və daha rəqabətlidir. Qiymət dünya bazarında yüksək gəlir əldə edilməsi üçün tətbiq edilən və ən çevik, ən təsirli və ən güclü iqtisadi alətdir. Qiymət okeanda üzən yelkənli gəminin yelkən "pərdələri", dənizdə və çayda üzən qayığın dartım "kürəkləri"dir.

Qiymət əmtəənin keyfiyyəti ilə birbaşa bağlıdır. Əmtəəlik xüsusiyyətlərindən və göstəricilərindən asılı olaraq yüksəkkeyfiyyətli məhsulun təbii olaraq qiyməti də yüksək olar. Yekun istehlakda yüksək qiymətli malın istehlak effekti, aşağı keyfiyyətli malın istehlak effektindən daha çox olur. Bunun əsasında dünya bazarında "yüksək keyfiyət-yüksək qiymət, aşağı keyfiyyət-aşağı qiymət" konsepsiyası formalaşmışdır. Ona görə də ölkələrin iqtisadi inkişaf səviyyəsinə və alıcılıq qabiliyyətinə görə istehsalçı ölkələr istehlakçı ölkələr üçün məhsul istehsal edir və ya buna uyğun qiymət müəyyən edirlər. Eyni malın qiyməti bir ölkədə digər ölkədən 2-3 dəfə fərqlidir (məsələn, Çin firmaları mallarının qiyməti və keyfiyyəti, ABŞ, Avropa ölkələri, Yaponiya və s. bu kimi ölkələr üçün digər ölkələrdən yüksəkdir).

Dünya bazar qiymətlərində ölkələr üzrə özünü daha çox büruzə verən əmtəə tərkibinin ölkələr üzrə dəyişdirilməsi, keyfiyyətin aşağı salınması və bunun əsasında da qiymətin aşağı salınmasıdır (məsələn, avtomobil, dərman və s. bu kimi əmtəə tərkibi mürəkkəb olan malların keyfiyyəti və qiymətindəki ölkələr üzrə fərqlər və i.a.).

Tarixən hər hansı bir ölkənin və onun şirkətlərinin öz məhsulları ilə dünya bazarına çıxmasında əsas məqsədi onun daha çox qazanc, gəlir və mənfəət əldə etməsidir. Dünya bazarı isə əmtəələrin daim güclənən rəqabət meydanıdır. Rəqabət meydanına çıxmaq üçün daha yüksək keyfiyyət, daha yüksək və sürətli xidmət, aşağı qiymət təklifi lazım gəlir. Yüksək keyfiyyət əmtəənin keyfiyyət göstəricilərindən, yüksək xidmət servisin mükəmməlliyi və sürətindən, aşağı qiymət isə xammal, texnoloji səviyyə və bazar fəlsəfəsindən, marketinq tədqiqindən və beynəlxalq ticarətin səmərəli təşkilindən birbaşa asılıdır. Dünyanın tanınmış iqtisadçıları dünya bazarını və beynəlxalq ticarəti dünya "okeanı", beynəlxalq ticarətçiləri – treyderləri isə bu okeanda kiçik bir qayığa bənzədirlər. Bu kürəkli qayıqla okenda üzmək üçün bazar iqtisadçılarından böyük peşəkarlıq – dünyanın resurslarını, əhali yerləşməsini, dünya iqtisadiyyatının üç sektorunu, dünyanın iqtisadi mərkəzlərini, dünya nəqliyyat və kommunikasiya sistemini, geniş təkrar istehsal zəncirini, dünyada transmillilləşmə və inteqrasiya proseslərini, beynəlxalq valyuta-maliyyə, investisiya və beynəlxalq ticarət

sistemini dərindən bilmək tələb edilir. Bunları peşəkarcasına bilməyənlər beynəlxalq ticarət, beynəlxalq bazar "okean"ında son nəticədə batır və məhv olurlar. Beynəlxalq bazarda tanınanlar və uğur qazananlar məhz bunları dərindən bilən peşəkarlardır, peşəkar treyderlərdir, iqtisadçılardır və müasir dünya iqtisadi düzənini dərk edənlərdir.

Beləliklə, dünya bazarında qiymətlərin dinamikasına təsir edən əsas amillər – beynəlxalq inhisarlar, valyuta müxtəlifliyi, xammal qiymətlərinin müxtəlifliyi, valyuta-maliyyə böhranları və s. bu kimi amillərdir.

Mineral xammalın dünya qiymətləri sövdələşmənin faktiki qiymətləri ilə müəyyən edilir.

Qiymətlər inqilabı hələ XI əsrdə baş vermişdir.

## 6. DÜNYA BAZARINDA BİRJALAR

Birja əmtəə, qiymətli kağızlar, valyuta və işçi qüvvəsinin topdan satılıb-alınan bazar məkanıdır.

Hələ qədim zamanlarda tacirlər alıcı tapmaq, işgüzar məlumat almaq və hər şeydən əvvəl bu və ya digər malların son qiymətləri haqqında informasiya əldə etmək üçün müəyyən yerdə toplaşırdılar. Bu toplaşmalar bizim eradan əvvəl 2-ci əsrin sonunda Qədim Romada baş verirdi. 1653-cü ildə Marsel tacirləri öz kommersiya işlərini aparmaq üçün yer tələb edirdilər.

Tədricən birja ticarətinin aparılması qaydası zərurəti yarandı. Onların iştirakçıları belə qənaətə gəldilər ki, malların özləri ilə gətirilməsi vacib deyil. Yalnız onun qiyməti haqqında razılığa gəlmək kifayətdir. Qalan məsələlər bağlanmış müqavilədə razılaşdırıla bilinər. Birja bazarlarında (alver meydanlarında) alqı-satqı ilə yanaşı sığortalama, veksellərin təkrar satışı və s. məsələlər həll olunurdu. Müəyyən müddətdən sonra orta əsr birjası müasir cəhətləri əldə etdi.

"Birja" sözünün etimologiyası və yaranma mənbəyi Flandriyanın ən iri ticarət məntəqəsi olan Brüggedən əmələ gəlmişdir. Burada ticarət toplantıları "Burse" mehmanxana-sının yanında məskən salmışdı. Mehmanxananın sahibinin adı Van-der Bursa idi. O, gəlmələr üçün ev tikdi. Bu binanın frontonu (bina fasadının iki maili damla məhdudlaşdırılmış üçbucaq və ya pərgar şəklində yuxarı hissəsi, yaxud qapıların, pəncərələrin üstündə bu cür bəzək) üç pul kisəsi ilə təsvir edilmiş gerblə bəzədilmişdi.

Xarici kommersantlar Brüggeyə gələrək adətən bu mehmanxanada qalırdılar, orada digər tacirlərlə tanış olur, sövdələşmələr bağlayır, uğurlar və uğursuzluqlar haqqında yenilikləri öyrənirdilər. "Burse" mehmanxanası ticarət qonaqlarını ona görə qəbul edirdi ki, bu bina ilə yanaşı ən iri ticarət mərkəzləri olan Florensiyanın və Genuyanın nümayəndələri məskunlaşmışdı. Bir çox tacirlər sövdələşmənin bağlanması üçün məhz bu mehmanxanaya gəlməyə məcbur oldular. Məhz buradan "Burseyə gəlmək", yəni ticarət toplantılarında iştirak etmək ifadəsi əmələ gəlmişdi. Beləliklə Burse adından "birja" sözü meydana gəlmişdir.

Birja üçün ilk xüsusi bina 1531-ci ildə Brügge şəhərinin rəqibi olan Antverpen şəhərində tikilmişdir. Bu tikintinin biçimli sırada cərgəsi bir çox illərdə birjanın rəmzi idi. Onun frontonunda aşağıdakı sözlər yazılmışdı: "Bütün ölkələrin və xalqların ticarət adamları üçün".

XVII əsrin başlanğıcında ticarət və maliyyə fəaliyyətinin mərkəzi Amsterdama keçdi. Məhz bu şəhərdə 1608-ci ildə dünyanın ən məhşur birjalarından biri yarandı. Bir neçə müddət keçdikdən sonra bu birja bankla və Ost-İndiya şirkətinin qərargahı ilə üzbəüz Dam meydanında yerləşən yeni böyük binaya köçdü.

Bu firmanın uğuru sayəsində Niderland dünyanın ən iri maliyyə dövlətinə çevrildi. Amsterdamda bütün əhəmiyyətli işgüzar əməliyyatlar bir araya gəlirdi. 4500 insan hər gün yerli birjada günorta saat ikiyə qədər toplaşırdılar. Birja toplantısında qaydalar nümunəvi idi. Hər bir kommersiya sahəsinə müəyyən yer ayrılırdı. Mindən artıq makler və prisyajnılar

(andlılar) birjaya gələnlərə xidmət edirdilər. Bununla belə alıcı və satıcıların bu kütlə içərisində bir-birini tapması asan deyildi.

Amsterdam həmçinin qiymətli kağızlar bazarının vətəni sayılır. Burada XVII əsrdə ilk fond birjası meydana gəldi. Baxmayaraq ki, hələ əvvəllər dövlət istiqrazları ilə Venetsiyada və Florensiyada ticarət edirdilər. Genuyada qəbzlər (iltizam) və tədiyyə öhdəliklərinin aktiv bazarı, digər şəhərlərdə renta bazarları mövcud idi. Leyptsiq yarmarkalarında Almaniya mədənlərinin "payları" (səhmləri) kotirovka edilirdi. Amsterdam birjasında yeni əlamətlər – qiymətli kağızlarla sövdələşmələrin aşkarlığı və sərbsətliyi ortaya çıxdı.

XVIII əsrin başlanğıcında ticarətin mərkəzi Londona keçir. Məsələ bundadır ki, hələ 1625-ci ildə Britaniya tax-tacının daş-qaşı 3000 funt kredit almaq məqsədilə Amsterdamda girov qoyulmuşdu. 1695-ci ildən başlayaraq London Kral birjası dövlət qiymətli kağızları və səhmləri ilə sövdələşmələri həyata keçirməyə başladılar. Birja o şəxslərin görüş yerinə çevrildi ki, onlar artıq müəyyən miqdar pula malik olsalar da, daha artıq pul əldə etmək arzusunda idilər. Həm Amsterdam, həm də London birjası özünün xüsusi jarqonunu yaratdı. "buğalar" və "ayılar" – birjada möhtəkirlik edən alıcılar və satıcılar, "at sürmək" – dövlət lotereyası biletləri alıb-satmaq və s.

Bu birjaların başlıca xidməti ondan ibarət idi ki, onlar qiymətli kağızlardan pula və əksinə sürətli keçidi təmin edirdilər.

Rusiyada birjanın tarixi 2 əsrdən çoxdur. Belə ki, Rusiyada ilk birja I Pyotrun təşəbbüsü ilə 1703-cü ildə Sank-Peterburqda yaradılmışdır.

Azərbaycanda birjanın yaranması XIX əsrin 70-ci illərinin sonuna təsadüf edir. Belə ki, həmin dövrdə neft sənayesinin inkişafı, xarici kapitalın axını birja ticarətinin yaranmasını zərurətə çevirmişdir.

Əmtəəlik əlamətlərinə görə eyni, bir-birilə yaxın və qarşılıqlı əvəzlənə bilən malların müəyyən edilmiş qaydada və yerdə qiymətinin müəyyən edildiyi, sazişlərinin bağlandığı, daimi fəaliyyət göstərən topdansatış məkanına əmtəə birjaları deyilir.

Bütün beynəlxalq ticarət əmtəələrinin 15-20 faizi əmtəə birjalarında alınıb-satılır.

Bəzi mənbələrə görə, ilk birja 1406-cı ildə Belçikanın Brügge şəhərində yaranmışdır. "Pul kisəsi" mənasını verir. Latınca "bursa" çanta, portfel, rus dilində "koşelyok" mənasında işlədilir.

Birjada alqı-satqı obyektinin formasına görə onlar - əmtəə, fond və valyuta birjalarına, satılan mal çeşidinin strukturuna görə - universal və ixtisaslaşdırılmış birjalara bölünürlər.

Beynəlxalq əmtəə birjaları əsasən 3 ölkədə - İngiltərə, ABŞ və Yaponiyada fəaliyyət göstərir. Bu üç ölkənin payına bütün beynəlxalq birja ticarəti dövriyyəsinin 90 faizi düşür.

**Dünyanın aparıcı beynəlxalq əmtəə birjaları aşağıdakı birjalar hesab edilir:**

1. London birjası – İngiltərə;
2. London metal birjası – İngiltərə;
3. Nyu-York əmtəə birjası – ABŞ;
4. Çikaqo əmtəə birjası – ABŞ.

**Regional əmtəə birjaları:**

1. Vinnipeq əmtəə birjası – ABŞ;
2. Paris əmtəə birjası – Fransa;
3. Sidney əmtəə birjası – Avstraliya;
4. Syanqan əmtəə birjası – Honkonq;
5. Sinqapur birjası;
6. London "Boltik eksçeynidz" (Aİ ölkələrinə buğda satışı üzrə).

Mal (əmtəə) çeşidlərinə görə dünyanın birja ticarəti mərkəzləri, başqa sözlə birja ticarəti şəhərləri – dünyanın əsas əmtəə birjaları 12.1-ci sxemdə verilmişdir. Cədvəldən göründüyü kimi əsas neft və əlvan metal birjaları London və Nyu-York əmtəə birjalarıdır. Dünyada neft və qiymətli metalların gündəlik qiymətləri bu birjalarda müəyyən edilir. Say

etibarilə pambıq və taxıl birjalarının sayı daha çoxdur. Malların demək olar ki, hamısı dünyanın bütün qitələrində istehsal, tədarük və emal edilmiş olsa da, əmtəə birjaları əsasən Avropadadır və əsas beynəlxalq əmtəə birjaları 50-yə qədərdir. Lakin nisbətən kiçik, regional və dar ixtisaslaşdırılmış əmtəə birjaları da vardır.

İxtisaslaşdırılmış birjalarda mal çeşidi məhdud olur. Məsələn:

**I. London metal birjası - əlvan metallar qrupu:** mis, alüminium, nikel, qalay, qurğuşun, sink və s.;

**II. Nyu-York Kompleks əmtəə birjası – qiymətli və əlvan metallar qrupu:** qızıl, gümüş, mis, alüminium və s.;

**III. Nyu-York əmtəə birjası:** neft, dizel yanacağı, mazut, benzin, propan, həmçinin platin, paladium və s.;

**IV. ABŞ (Minneapolis) taxıl birjası – kənd təsərrüfatı malları:** buğda, düyü, qarğıdalı, çay və s.;

**V. London beynəlxalq neft birjası.**

Hələ o vaxt Antverpen (Niderland) birjasının giriş qapısının üzərində yazılan "Bütün xalqların ticarət adamları üçün" – yəni, "ticarət açıqdır, azaddır, sərbəstdir və sərhəd tanımır" birjaların mahiyyətini əks etdirir. Məqsəd yalnız gəlir əldə etmək və bütün insanların tələbatını ödəmək, dövlətləri və xalqları bir-birinə birləşdirməkdir.

**Cədvəl 12.1**

**Dünyanın əsas əmtəə birjaları**

| | |
|---|---|
| **I. Neft birjaları** | 1) London<br>2) Nyu-York |
| **II. Əlvan metal birjaları** | 1) London<br>2) Nyu-York |
| **III. Pambıq birjaları** | 1) Nyu-York<br>2) Nyu-Orlean<br>3) Çikaqo<br>4) Liverpul<br>5) Mumbay<br>6) İsgəndəriyyə<br>7) San-Paulo<br>8) Sidney |
| **IV.Taxıl birjaları** | 1) Çikaqo<br>2) London<br>3) Liverpul<br>4) Rotterdam<br>5) Antverpen<br>6) Milan<br>7) Vinnipeq |
| **V. Şəkər birjaları** | 1) London<br>2) Nyu-York<br>3) Hamburq |
| **VI.Düyü birjaları** | 1) Amsterdam<br>2) Milan<br>3) Rotterdam |
| **VII. Təbii ipək birjaları** | 1) Çokoqama<br>2) Kobe |

| | |
|---|---|
| **VIII. Kofe birjaları** | 1) Nyu-York<br>2) London<br>3) Liverpul<br>4) Amsterdam<br>5) Rotterdam<br>6) Hambuq<br>7) Paris |
| **IX.Təbii kauçuk birjaları** | 1) London<br>2) Nyu-York<br>3) Amsterdam<br>4) Sinqapur<br>5) Kualo-Lumpur |
| **X. Cut birjaları və s.** | 1) London<br>2) Kəlküttə<br>3) Kəraçi |

**Dünyanın əsas fond birjaları aşağıdakılardır:**

1) Nyu-York fond birjası;
2) London fond birjası;
3) Paris fond birjası;
4) Frankfurt fond birjası;
5) Bazel fond birjası;
6) Milan fond birjası;
7) Amsterdam fond birjası;
8) Tokio fond birjası;
9) Sinqapur fond birjası;
10) Tayvan fond birjası və s.

Göründüyü kimi dünyanın 10 əsas fond birjalarından 6-sı Avropada, 3-ü Asiyada və təkcə 1-i Amerikadadır.

## Beynəlxalq auksionlar (hərraclar)

Malların, qiymətli kağızların, əmlakın, incəsənət əsərlərinin və s. alqı-satqı obyektlərinin (məsələn, balıq və s.) əvvəlcədən müəyyən edilmiş yerdə və qaydada açıq (publik) satışına hərrac (auksion) deyilir. Burada səciyyəvi mallar satılır və malı hərracın qalibi alır.

Beynəlxalq auksionlarda satılıb-alınan əsas mallar aşağıda verilir:

**I. Ərzaq malları:**

1. Çay
2. Meyvə
3. Tərəvəz
4. Balıq

**II. Qeyri-ərzaq məhsulları:**

1. Xəz-dəri
2. Yuyulmamış yun

**III. Aqrar məhsullar:**

1. Tütün
2. Gül
3. Tropik meşə materialları
4. At

**IV. Unikal mallar:**

1. Əntiq mallar
2. Unikal əşyalar
3. İncəsənət əsərləri
4. Qədim avtomobillər
5. Kolleksiya obyektləri

**V. Maliyyə aktivləri:**

1. Səhmlər
2. İstiqrazlar

**VI. Digər mallar:**

1. Müflisləşmiş müəssisə malları
2. Müsadirə edilmiş mallar və s.

## 7. BEYNƏLXALQ YARMARKALAR VƏ SƏRGİLƏR

Yarmarkalar V-VII əsrlərdə Avropada meydana çıxmışdır. Həmin dövr əsasən natural təsərrüfatın hökmranlığı və təsərrüfat vahidləri arasında iqtisadi əlaqələrin təsadüfliyi ilə xarakterizə olunur. Buna görə də, ticarət epizodik xarakter daşıyır və cəmiyyətin varlı təbəqəsini xaricdən gətirilən qiymətli və nadir mallarla təchiz edirdilər.

Yarmarkalar X-XI əsrlərdə şəhərlərin yaranması və inkişafı, daxili bazarın formalaşması və beynəlxalq əlaqələrin güclənməsi fonunda daha böyük əhəmiyyət kəsb etməyə başladı və həmin dövrdə ticarət, pul tədavülü, kredit və pul bazarlarının inkişafında müstəsna rol oynadı.

Yarmarkaların keçirilməsində əsas məqsəd onun iştirakçılarına öz istehsalı olan məhsulları nümayiş etdirməyə, eləcə də yeni nailiyyətlər və texniki təkmilləşdirmə haqqında informasiya mübadiləsinə, son nəticədə ticarət sazişləri bağlamağa imkan yaratmaqdan ibarətdir.

Xarici iqtisadi əlaqələrdə iqtisadi əhəmiyyətinə və iştirakçıların tərkibinə görə milli və beynəlxalq yarmarkaları fərqləndirirlər. Milli yarmarkalarda yalnız milli bazarların subyektlərinin mal satmaq hüququ olur. Xarici subyetklər ancaq alıcı kimi çıxış edə bilirlər.

Müxtəlif ölkələrdə istehsal olunmuş çox böyük çeşiddə mal nümunələri bir yerə toplananda, alıcıya imkan verilir ki, qısa vaxtda bazardakı mövcud təkliflə tanış olsun, malların qiymət və keyfiyyətini müqayisə edə bilsin. Bundan sonra qarşı tərəflə danışıqlar aparsın və kommersiya şərtlərini həll edib, kontrakt imzalasın. Satıcı üçün yarmarkanın əhəmiyyəti onunla izah olunur ki, öz məhsullarını müxtəlif şəkildə geniş reklam etdirir, nəşr olunmuş reklam materialları paylanır, reklam filmləri nümayiş etdirilir, işıq reklamları stendləri təşkil edilir və s. Burada məmulatın əyani şəkildə istifadə edilməsi prinsiplərinin nümayiş etdirilməsi də mümkündür. Hətta bəzi hallarda nümunə kimi yarmarkaya çıxarılmış məmulat yoxlanmaq üçün sənaye müəssisələrindən birinə göndərilə də bilər. Digər tərəfdən ixracatçı firma rəqib firmaların məhsullarını öyrənmək üçün çox əlverişli imkanlara malik olur.

Beynəlxalq yarmarkalar müxtəlif ölkələrin işgüzar dairələrinin görüşdüyü yer kimi də böyük əhəmiyyət kəsb edir. Yarmarkalarda müasir standartlara cavab verən məmulat nümunələrinin nümayişi müxtəlif ölkələrdə elmi-texniki tərəqqiyə və beynəlxalq ticarətin yeni, modelləşdirilmiş mallarla təchizinə əməli köməklik göstərir. Digər tərəfdən iqtisadi və elmi-texniki informasiyaların mübadiləsinə şərait yaratmaqla informasiya mənbəyi rolunu oynayır. Hər bir yarmarka ölkələrin rəsmi işgüzar dairələrinə, eləcə də, ictimai rəyə təsir göstərmək imkanına malikdir. Deməli, beynəlxalq yarmarkalarda iştiraka kompleks şəkildə, yəni ticarət-reklam, texniki-iqtisadi və siyasi fəaliyyətin müstəsna dərəcədə səmərəli forması kimi yanaşmaq lazımdır. Onu da qeyd etmək lazımdır ki, nümayiş etdirilən eksponatların

xarakteri baxımından beynəlxalq yarmarkalar yekcins deyildir. Universal və ixtisaslaşdırılmış yarmarkalar göstərilən əlamətə görə fərqləndirilirlər. Universal yarmarkalarda bütün qəbildən olan məmulatlar nümayiş etdirilə bilər. İxtisaslaşdırılmış, yaxud sahəvi yarmarkalarda isə adətən, bir, yaxud da bir neçə qohum sahələrin məmulatları, hər hansı bir tətbiqi elm sahəsində əldə edilən nailiyyətlət nümayiş etdirilir.

İstehsal sferasında gedən dərin ixtisaslaşma prosesi ikinci növ beynəlxalq yarmarkaların üstünlük qazanmasını şərtləndirir. Belə ki, istehsal olunan məhsulların çeşid çoxluğu universal yarmarkaların təşkilini əhəmiyyətli dərəcədə çətinləşdirmişdir.

Yarmarkaların fəaliyyətinin tənzimlənməsi ilə onun keçirildiyi ölkələrin yerli orqanları, eyni zamanda beynəlxalq təşkilatlar məşğul olurlar. Bura nazirlik və baş idarələri, Ticarət-Sənaye Palataları, xarici iqtisadi əlaqələrin inkişafına təsir göstərən ictimai təşkilatları, bələdiyyə idarələrini də aid etmək olar. Əgər ölkədə beynəlxalq yarmarkaların təşkili ilə qeyri-dövlət orqanları məşğul olursa, onda həmin dövlətin hökuməti onlara maddi-texniki bazanın yaradılmasına, mal nümunələrinin güzəştli şərtlərlə quraşdırılmasında və başqa işlərdə kömək edirlər.

Beynəlxalq yarmarkalar və sərgilər marketinq kommunikasiyasının xüsusi formasıdır. Burada mal nümunələri, təsərrüfat, elm və texnika nailiyyətləri mədəniyyət və incəsənət əsərləri nümayiş etdirilir, potensial alqı-satqı sazişləri bağlayacaq tərəflər arasında görüşlər keçirilir, kommersiya mövqeləri dəqiqləşdirilir, danışıqlar aparılır, göstərilən nümunələr üzrə topdansatış ticarət aparmaq üçün xarici ticarət kontraktları və müqavilələri bağlanır.

Dünya ölkələrində fəaliyyət göstərən beynəlxalq yarmarkaların fəaliyyətinin tənzimlənməsi məqsədilə 1925-ci ildə **Beynəlxalq Yarmarkalar İttifaqı (BYİ)** yaradılmışdır. Qərargahı Parisdədir. 2018-ci ildə BYİ-nin tərkibinə 67 ölkədən 228 təşkilat daxil olmuşdur. Təşkilatın 1977-ci ildə Vyanada keçirilən konqresində beynəlxalq yarmarkaların iki forması – ümumsahə yarmarkaları və geniş istehlak malları yarmarkaları təsdiq edilmişdir. Ümumsahə yarmarkaları özü də üç qrupa bölünmüşdür. Hər birinin əmtəə strukturu və fəaliyyət mexanizmi müəyyən edilmişdir.

**Dünyanın ən nəhəng və tanınmış beynəlxalq yarmarkaları aşağıdakılardır:**

1. Leypsiq yarmarkası (Almaniya);
2. Hannover yarmarkası (Almaniya);
3. Köln yarmarkası (Almaniya);
4. Düsseldorf yarmarkası (Almaniya);
5. Frankfurt yarmarkası (Almaniya);
6. Poznan yarmarkası (Polşa);
7. Brno yarmarkası (Slovakiya);
8. Plovdiv yarmarkası (Bolqarıstan);
9. Budapeşt yarmarkası (Macarıstan);
10. Buxarest yarmarkası (Ruminya);
11. Dəməşq yarmarkası (Suriya) və s.

Göründüyü kimi hazırda dünyada təşkil edilən yarmarkaların və orada iştirak edənlərin sayına görə liderlik Qərbi Avropaya, daha dəqiqi Almaniyaya məxsusdur. Bu ölkə 2 mln $m^2$ yarmarka sahəsinə malikdir, həmin sahədə 80 min eksponant – mal nümunəsi yerləşdirmək olur. Elə buna görə də Almaniya yarmarkalarında hər il 7 mln nəfər iştirak edir. Təkcə Hannover yarmarkasının sahəsi 490 min $m^2$-dir.

XXI əsrin əvvəllərindən başlayaraq yeni formatda beynəlxalq sərgilər keçirilir. Çox böyük sahəyə, əmtəə nomenklaturunun genişliyi, xidmət sahələrinin müxtəlifliyi və fəaliyyət müddətinə görə fərqlənən **EKSPO formatlı beynəlxalq sərgilər** keçirilir. İndiyə qədər keçirilmiş **ümumdünya sərgiləri** aşağıdakılardır:

1. Naqoya sərgisi (Yaponiya) – 2005-ci il;
2. Saraqosa sərgisi (İspaniya) – 2008-ci il;

3. Şanxay sərgisi (Çin XR) – 2010-cu il;
4. Yosu sərgisi (Cənubi Koreya) – 2012-ci il;
5. Milan sərgisi (İtaliya) – 2015-ci il;
6. Astana sərgisi (Qazaxıstan) – 2017-ci il;
7. Dubay sərgisi (BƏƏ) – 2020-ci il.

Beynəlxalq yarmarkalarla yanaşı bir-birinə oxşar, ümumi cəhətli, bəzən də bir-birindən fərqlənən beynəlxalq sərgilər də fəaliyyət göstərir. Yarmarkalar sərgilərlə müqayisədə daha qədimdir. Birinci milli sənaye sərgisi 1843-cü ildə Mançestrdə (Böyük Britaniya), bir qədər sonra 1847-ci ildə Londonda təşkil edilmişdir.

1928-ci ildə **“Beynəlxalq Sərgilər haqqında Paris Konvensiyası”** qəbul edilmiş, onun icrasına nəzarət etmək üçün Beynəlxalq Sərgilər Bürosu yaradılmışdır. Qərargahı Parisdə yerləşir.

**Beynəlxalq sərgilərin təşkilati formaları aşağıdakılardır:**

1. Ən qədim mal sərgiləri;
2. Milli sənaye sərgiləri;
3. Ticarət-sənaye sərgiləri;
4. İxracat sərgiləri;
5. Daimi xalq təsərrüfatı sərgiləri (məsələn, VDNX-a – Moskva);
6. Əmtəə nümunələri sərgisi və s.

**Beynəlxalq sərgilər aşağıdakı əsas əlamətlərinə görə qruplaşdırırlır:**

**I. Keçirilmə məqsədinə görə:**

1. Ticarət (kommersiya) sərgiləri;
2. Maarifləndirici – nümayişedici sərgilər.

**II. Keçirilmə dövrünə görə:**

1. Daimi sərgilər;
2. Qeyri-daimi sərgilər;
3. Yubiley sərgiləri;
4. Ümumdünya forum sərgilər.

**III. Nümayiş etdirilən eksponantlara görə:**

1. Ümumsahə sərgiləri;
2. İxtisaslaşdırılmış sərgiləri.

**IV. İştirakçı ölkələrin tərkibinə görə:**

1. Ümumdünya sərgiləri;
2. Beynəlxalq sərgilər;
3. Milli sərgilər;
4. Regional sərgilər;
5. Lokal sərgilər.

**Dünyanın ən tanınmış beynəlxalq sərgiləri aşağıdakılardır:**

1. Beynəlxalq London sərgisi;
2. Ümumdünya Paris sərgisi;
3. Beynəlxalq Milan sərgisi;
4. Beynəllxalq Brüssel sərgisi;
5. Beynəlxalq Buffalo, Sent-Luis, San-Fransisko, Filadelfiya, Çikaqo, Nyu-York sərgiləri (ABŞ);
6. Ümumdünya universal Monreal sərgisi və s.

Göstərilən beynəlxalq yarmarkalar və sərgilərlə yanaşı dünya ölkələrində ümumdünya sahəvi əmtəə sərgiləri, yarmarkaları və hərracları da keçirilir.

# MÖVZU 13. DÜNYA İQTİSADİYYATINDA BEYNƏLXALQ İNVESTİSİYALAR

## SUALLAR

1. Kapital ixracının mahiyyəti, əsas səbəbləri və hərəkətverici qüvvələri.
2. İnvestisiya mənbələri, üsulları və xarici investisiya mühitinin əsas amilləri.
3. Kapitalın beynəlxalq miqrasiyası formaları və investisiyaların növləri.
4. Beynəlxalq investisiyaların vəziyyəti.
5. İnvestisiya portfeli və onun formalaşdırılması mexanizmi.
6. Beynəlxalq investisiyaların əsas prinsipləri və beynəlxalq investisiyaların tənzimlənməsi.

### Əsas ədəbiyyat


1. Lomakin V.K. Dünya iqtisadiyyatı. Bakı,2015, səh. 167-190.
2.Xasbulatov R.İ. Beynəlxalq iqtisadi münasibətlər. Bakı, 2014, səh. 347-390.
3.Ələkbərov Ə.H. və b. Beynəlxalq iqtisadi münasibətlər. Bakı, Çaşıoğlu, 2010, səh. 158-184.
4.Seyidoğlu Halil. Uluslararası iktisat. Teori, politika və uyğulama. İstanbul, 2003, səh. 754-780.
5. Ataşov Bəyalı. Maliyyə bazarları. "Kooperasiya" nəşriyyatı, Bakı, 2016.
6. Sabiroğlu Natiq. Qloballaşma və xarici investisiyalar. Bakı, 2016.
7. Hüseynov Tofiq. Azərbaycanda İnvestisiyalar: Gəlirlər, investisiyalar, sənayeləşdirmə, məşğulluq. AMEA İqtisadiyyat İnstitutu. Bakı, Elm, 2009.
8. Allahverdiyev Z.V. İnvestisiya proseslərinin tənzimlənməsi. Bakı, 2003.
9. Məmmədov Zahid. Beynəlxalq valyuta-kredit münasibətləri və xarici ölkələrin pul-kredit sistemi (Dərslik), Bakı, Qanun, 2001.
10. Koçetov E.Q. Geoiqtisadiyyat. Bakı, 2015, səh. 338-377.
11. Kərimov A.E., Babayev A.A. Qiymətli kağızlar bazarı. Dərslik, Bakı, 2013.
12. Məmmədov N., Bərxudarov M. İqtisadi Təhlükəsizlik. Bakı, "İqtisad Universiteti" nəşriyyatı, Bakı, 2006, səh. 194-215.
13. Уильям Ф. Шарп, Гордон Дж. Александер, Джеффри В. Бэйли. Инвестиции. Изд.: Инфра-М, 2010,стр. 208.
14. Лахметкина Н.И. Инвестиционная стратегия предприятия. М.: КНОРУС, 2014, стр. 230.
15. Элис Шредер. «Уоррен Баффет. Лучший инвестор мира». Изд.: Манн, Иванов и Фербер, 2011, стр. 540-541.
16. Нешитой А.С. Инвестиции. Учебник. М.: «Дашков и К», 2012.
17. UNCTAD. Dünya investisiyaları haqqında məruzə. BMT-nin xülasəsi. Hər il.
18. UNCTAD. World Investment Report. Hər il, tam formatda.
19. Beynəlxalq İnvestisiya Sazişləri (BİS) sistemi.
20. İnvestisiya İnformasiyaları haqqında Sazişlər (İİS).
21. İkiqat Vergitutmanın Aradan Qaldırılması haqqında Müqavilələr (İVAQM).
22. İnvestisiyaların Təminatı üzrə Çoxtərəfli Agentlik (Multilateral Investment Guarante Agency – MIGA).
23. İnvestisiya Mübahisələrinin Tənzimlənməsi üzrə Beynəlxalq Mərkəz (ICSID).
24. İnvestisiya Tədbirlərinin Ticarət Aspektlərinə dair Saziş (Agreement on Trade – Related Investment Mcasures – TRİMS).

# 1. KAPİTAL İXRACININ MAHİYYƏTİ, ƏSAS SƏBƏBLƏRİ VƏ HƏRƏKƏTVERİCİ QÜVVƏLƏRİ

İqtisadiyyatın bütün sahələrinə mənfəət əldə etmək üçün qoyulan vəsaitə (kapital, sərmayə) investisiya deyilir. "İnvestisiya" və "kapital qoyuluşu" eynimənalı (sinonim) anlayışlardır. Xarici investisiyalar "Kapitalın ixracı", "Kapitalın ixracı və idxalı", "Maliyyənin beynəlxalq hərəkəti" və "Kapitalın beynəlxalq hərəkəti" kimi də işlədilir.

İqtisadi nəzəriyyəyə görə kapital öz mahiyyəti etibarilə iki qrupa bölünür:

1) **Fiziki kapital:** istehsal binaları, maşınlar, avadanlıqlar, qurğular və s.
2) **Maliyyə kapitalı:** pul, qiymətli kağızlar, qızıl və s.

Kapital fiziki və maliyyə formasında təmsil olunmuş istehsal amilidir.

Nisbətən dar mənada kapitala aşağıdakı başqa aktivlər də aid edilir:

1) Nizamnamə kapitalı;
2) Səhmdar kapitalı;
3) İnsan kapitalı;
4) Əqli kapital və s.

Lakin belə kapitallar bu fənnin predmetinə aid olmadığı üçün burada onlar haqqında məlumatlar verilmir.

Kapitalın xarici ölkələrdə, ilk növbədə, mənfəət gətirməsi məqsədilə yerləşdirilməsi və fəaliyyət göstərməsinə kapitalın beynəlxalq miqrasiyası deyilir.

Kapital ixracı kapitalın bir ölkədəki milli dövriyyə prosesindən çıxarılıb digər ölkələrdə ən müxtəlif formalarda istehsal prosesinə və s. dövriyyəyə cəlb edilməsidir. Nəticədə xaricə ixrac olunan mallarda öz əksini tapan əlavə dəyər istehsalının reallaşması aktı deyil, onun yaradılması prosesi köçürülür.

"Kapitalın beynəlxalq hərəkəti dedikdə, təkcə istehsal, maşın və avadanlıqlarının hərəkəti başa düşülmür. Fiziki kapital (istehsal vasitələri) ölkələr arasında miqrasiya edir. Kapitalın beynəlxalq hərəkəti dedikdə, eyni zamanda maliyyə vəsaitlərinin və kreditlər (maliyyə resurslarının) axını başa düşülür. Kompaniya maşın, kapital-əmtəə aldıqda, bu axın adi ticarət axını kimi nəzərə alınır[1].

Xüsusi və dövlət kapitalı kapitalın dövlət və ya özəl təşkilatları və kompaniyaları tərəfindən ixracından asılı olaraq aparılır. Beynəlxalq təşkilatlar xəttilə kapitalın hərəkəti müstəqil forma kimi ayrılır. Əmtəə və pul formasında kapital ixracının obyektləri kimi maşın və avadanlıqlar, patent, "nou-xau" və s. çıxış edir (əgər bunlar xaricdə yaradılan və ya alınan firmaların nizamnamə kapitalına daxil edilmək üçün çıxarılırsa).

Kapital ixracı bəzi əlamətlər üzrə 13.1 və 13.2-ci sxemlərində verilir.

13.2-ci sxemdən göründüyü kimi sahibkar kapitalına birbaşa investisiyalar və portfel investisiyaları daxildir. Beynəlxalq Valyuta Fondunun təyinatına görə birbaşa investisiyaların əsas xüsusiyyəti odur ki, investor kapital qoyduğu müəssisə üzərində nəzarət haqqına malik olur. Portfel investisiyaları bu cür nəzarət hüququ vermir. Onlar adətən firmanın xüsusi kapitalının 10-20%-dən az hissəsini təşkil edən səhm paketi (və ya ayrı-ayrı səhmlərlə) ilə və həmçinin istiqraz vərəqələri və s. qiymətli kağızlarla təmsil olunurlar. Ayrı-ayrı ölkələrdə birbaşa və portfel investisiyaları arasında formal sərhəd müxtəlif cür müəyyən olunur, lakin adətən göstərilən hədd 10-20%-dir.

Ümumiyyətlə, nəzərdə tutmaq lazımdır ki, birbaşa və portfel investisiyaları arasında sərhəd əslində şərtidir. Belə ki, əgər kompaniyanın xüsusi kapitalı çox miqdarda mülkiyyətçi arasında paylanıbsa və ya kapitalın heç də böyük olmayan hissəsinə sahib olmayan mülkiyyətçinin əlində əhəmiyyətli texnologiya varsa, nəzarət hüququ hətta çox kiçik miqdarda səhm paketi də verə bilər.

---

[1] P. Lindert. "International Economics". 1991

**Sxem 13.1**




**Sxem 13.2**




Sahibkar və ssuda kapitalı arasında da sərhədlərin qeyri-müəyyənliyi müşahidə olunur. Məsələn, ana firmaların öz xarici firmalarına verdiyi borclar da birbaşa investisiyalara aiddir.

Birbaşa Xarici İnvestisiyaların (BXİ) xarici filial üzərində nəzarət hüququ verməsi onları portfel investisiyalarına nisbətən təbiətcə daha mürəkəb edir. Belə ki, nəzarət olunan filial tez-tez ana firmadan idarəetmə təcrübəsi, kommersiya sirləri, texnologiya, firma adından istifadə hüququ, hansı bazarlara daxil olmaq, hansılardan çəkilmək barədə təlimatlar alır.

BXİ sadəcə kapitalın axını demək deyildir, çünki o bir sıra hallarda ümumiyyətlə görünən kapital hərəkəti nəticəsində yaranmır. Bəzən ana kompaniya investisiyanı qəbul edən ölkədə ilkin maliyyə kapitalını borc götürür və bura yalnız öz əmtəə adını, idarəetmə formalarını və s. görünməz mülkiyyətini əlavə edir. Filial gəlirli müəssisəyə çevrildikdə isə artıq yenidən investisiya olunmuş daxili mənfəət və yeni borca götürülmüş fondlar hesabına böyüyür və bu zaman mənfəətin bir hissəsini ana firmaya verir. Göründüyü kimi burada ana firmanın investisiyası heç də aydın surətdə xalis kapital ixracında ifadə olunmur.

Kapital ixrac etməklə investorlar xaricdə yeni müəssisələr təsis edirlər (müstəqil surətdə və ya yerli partnyorla birlikdə); artıq xaricdə fəaliyyət göstərən firmadan əhəmiyyətli pay alırlar; bu firmanı tamamilə alırlar (udurlar). Xarici ədəbiyyatlarda bu cür firmalar adətən xarici firmalar adlanırlar (ing. Foreign affiliates).

Bu filiallar öz növbəsində bölmələr, assosiativ kompaniyalara və törəmə kompaniyalara bölünürlər. **Bölmələr** (ing. division, branch) xaricdə qeydiyyata alınsalar da, müstəqil kompaniyalar deyillər. **Törəmə kompaniya** (ing. subsidiary) xaricdə öz balansı olan müstəqil kompaniya kimi qeydiyyata alınır (yəni hüquqi şəxsdir), lakin onun üzərində nəzarəti səhmlərin əksər hissəsinə və ya bütün kapitala malik olduğu üçün ana kompaniya həyata keçirir. **Assosiativ kompaniya** (ing. associated company) törəmə kompaniyadan onunla fərqlənirlər ki, o, ana kompaniyanın nəzaərtində deyil, təsiri altında olur. Çünki ana kompaniya səhmlərin əsas hissəsinə deyil, əhəmiyyətli hissəsinə sahib olur.

Bir sıra hallarda xarici filiallara elə müəssisələr aid edilir ki, orada ana firmaya heç bir səhm (pay) məxsus olmur. Bu cür müəssisə üzərində nəzarət müəssisənin idarə edilməsi üzrə kontraktlar və sazişlər bağlanması yolu ilə həyata keçirilir. Bu halda əsas amil mülkiyyətə (və ya onun bir hissəsinə) sahiblik deyil, kooperasiya əsasında kontrakt münasibətlərinin mövcudluğudur. Bu cür münasibətlər üçün "kooperasiya sazişləri" (ing. Cooperative agreements) bağlanır. Həm birgə müəssisə və həm də kooperasiya sazişləri nəzərdə tutulursa, onda "strateji alyanslar" yaradılır.

Son 30 ildə xaricdə fəaliyyət göstərən xarici kapitalın miqdarı və ya ölkənin ikinci iqtisadiyyatının həcmi sürətlə artır.

Bununla bərabər kapitalın beynəlxalq miqrasiyasında əvvəllər mövcud olan birtərəflilik (İEÖ-dən İEOÖ-ə) öz əhəmiyyətini itirir. Bu miqrasiya hər iki istiqamətdə (müxtəlif səviyyədə) və artan intensivlikdə baş verir. Eyni zamanda siyasi element də burada daha aydın nəzərə çarpır. Bütün İEÖ və bir sıra İEOÖ eyni zamanda həm kapital ixracatçısı və həm də idxalçısıdırlar. "Xalis" kapital ixracatçısı kimi yalnız az sayda ölkə çıxış edir. İxrac olunan kapitalın formasına gəldikdə isə birbaşa investisiyaların (istehsal kapitalının) payı sürətlə artmaqdadır. BXİ-nin xüsusi kapital ixracında payı Birinci Dünya Müharibəsinə qədər 10% idisə, müharibələrarası dövrdə bu göstərici 25%-ə, 90-cı illərdən sonra isə 80%-ə çatmışdır.

Ərazi nöqteyi-nəzərdən kapital ixracının əksər hissəsi (təqribən 80%) ABŞ, Böyük Britaniya, Fransa, Almaniya və s. kimi İEÖ-nin payına düşmüşdür ki, bu da dünyada kapital ixracının inhisarlaşmasını göstərir. İlk iki ölkənin payı XX əsrin əvvəllərində 50%, 90-cı illərdən isə təxminən 65% təşkil etmişdir. 50-ci illərin sonundan başlayaraq İEÖ-ə yönəlmiş kapital axını artmış və İEOÖ-ə kapital axını zəifləmiş, İnkişaf Etməkdə Olan Ölkələrə kapital axınında yeni artım 80-ci illərdən yenidən artmışdır.

**Kapital ixracının əsas səbəbləri aşağıdakılardır:**

1) Ölkədə kapital artıqlığı;
2) Dünyanın müxtəlif ölkələrində kapitala tələb və təklifin qeyri-bərabərliyi;
3) Ölkələr üzrə əmtəə vahidinə çəkilən məcmu xərclərin müxtəlifliyi;
4) Xammalın ucuz olması;
5) Əməkhaqqı səviyyəsinin aşağı olması;
6) Ölkənin sabit siyasi vəziyyəti;
7) Ölkədə milli qanunvericiliyin möhkəmliyi;
8) Ölkədə milli valyutanın sabitliyi;
9) Ayrı-ayrı ölkə bazarlarının müqayisəli üstünlükləri;
10) Yerli istehsalın tarixən formalaşdırılması və tanınması və s.

**Kapital ixracının hərəkətverici qüvvələri aşağıdakılardır:**

- Milli iqtisadiyyatların qarşılıqlı əlaqələrinin daim artması;
- Ölkələrarası istehsalın beynəlmiləlləşdirilməsi;

- Beynəlxalq istehsal kooperasiyasının daim artırılması;
- Sənaye cəhətdən İnkişaf Etmiş Ölkələrin iqtisadi siyasətlərinin qarşılıqlı əlaqələndirilməsi;
- İnkişaf Etməkdə Olan Ölkələrin iqtisadi mövqelərinin yaxınlaşması;
- Beynəlxalq ekoloji təhlükəsizliyinin zəruriliyi;
- Beynəlxalq maliyyə təşkilatlarının kapital ixracına marağının artması;
- TMK-ların xarici investisiya gəlirlərinin daha da artması və s.

Nəzəri ədəbiyyat mənbələrinin və beynəlxalq təşkilatların metodologiyalarına görə kapital ixracının aşağıdakı dörd forması verilir:

1. Birbaşa investisiya qoyuluşu;
2. “Portfel” investisiyaları;
3. Beynəlxalq kreditlər (ssuda kapitalı);
4. İqtisadi yardımlar.

Beynəlxalq kapital ixracının və ya beynəlxalq investisiyaların əsas məqsədi mənfəət əldə edilməsi olduğu üçün bəzi hallarda beynəlxalq yardımlar beynəlxalq investisiyalara aid edilmir. Çünki bu ixracatdan mənfəət əldə edilmir, ölkələrarası siyasi, dini, humanitar, milli və s. səbəblərdən meydana gəlir.

## 2. İNVESTİSİYA MƏNBƏLƏRİ ÜSULLARI VƏ XARİCİ İNVESTİSİYA MÜHİTİNİN ƏSAS AMİLLƏRİ

İnvestisiyaların (kapitalın) qoyulmasından əvvəl investisiya toplanılmalı, əldə edilməli və portfeli formalaşdırılmalıdır. İnvestisiyaların yığılması və toplanılması daxili və xarici mənbələrdən əmələ gəlir. Ölkələrin iqtisadi inkişaf səviyyəsindən və sahə strukturundan asılı olaraq bu mənbələrdə və onların payında fərqlər vardır. İnvestisiya mənbələri 13.3-cü sxemdə verilir. 13.3-cü sxemdən görünür ki, investisiyaların daxili və xarici mənbələri çoxdur. Bu mənbələrdən istifadə edilməsi və onların artırılması yollarının tapılması ölkələrin iqtisadi siyasət proqramları və beynəlxalq biznesin fəaliyyət istiqamətlərindən irəli gəlir. İEÖ və İEOÖ-lər üçün investisiya mənbələri tamamilə fərqlidir (diaqram 13.1-ə bax).

**Sxem 13.3**

**İnvestisiyanın mənbələri**



**Diaqram 13.1**

**İEOÖ-lərdə investisiyanın mənbələri-faizlə**




13.1-ci diaqramdan görünür ki, İEOÖ-lərdə ölkədaxili əsas investisiya mənbələri içərisində əsas yeri müəssisə və təşkilatların öz vəsaitləri tutur. Orta hesabla 8 faiz bank kreditləri və 5 faiz əhalinin şəxsi vəsaitləri təşkil edir.

Son 30 ildə dünyada investisiyaların əsas mənbəyi xarici investisiyalardır. **Autsorsinq** – xarici resurslardan istifadə edilməsi ildən-ilə daha da artır. İnvestisiyaların xarici mənbələrindən istifadə edilməsi yolları da ölkələr üçün müxtəlifdir. Bütün hallarda Xarici İnvestisiya mənbələri içərisində TMK-ların vəsaitləri daha çoxdur. Birbaşa xarici investisiyalar müxtəlif üsullarla müxtəlif istiqamətlərdə qoyulur.

Birbaşa Xarici İnvestisiyaların (BXİ) əsas üsulları aşağıdakılardır:

- Xarici ölkədə firma (müəssisə) və ya filialların açılması (100% investorun mülkiyyətində olan);
- Xarici müəssisənin (firmanın) tamamilə alınması;
- Filialların işinin maliyyələşdirilməsi;
- Əmlak hüququnun alınması: torpaqdan istifadə, təbii resurslar və s.;
- "Nou-hau", patent, lisenziya, texnologiya və s. istifadə hüquqlarının alınması;
- Müəssisənin (firmanın) fəaliyyətinə nəzarət hüququ verən xarici kompaniyanın nizamnamə kapitalı səhmlərinin və ya payının alınması və s.

BXİ-nin üsulları çoxşaxəlidir. Əsasən xarici ölkələrdə törəmə firmaların və filialların açılmasına üstünlük verilir. "Portfel" investisiyaları sahəsində artıq kriptovalyutalara meyillər artır.

İnvestisiyaların, həmçinin xarici investisiyaların qoyulmasında əsas problem qoyulan investisiyaların səmərəliliyi və ya nə qədər mənfəətvermə səviyyəsidir. Xarici investisiyanın səmərəliliyinə investisiya mühiti amilləri birbaşa təsir edir. Xarici investisiya mühitinin əsas amilləri 13.4-cü sxemdə verilir.

**Sxem 13.4**




13.4-cü sxemdən görünür ki, xarici investisiya mühitinin siyasi, iqtisadi, sosial və təşkilati amilləri vardır. Bu amillər müxtəlif ölkələrin xarici investisiya və ya BXİ-lərinə müxtəlif səviyyələrdə təsir göstərirlər. Hər biri digər ilə qarşılıqlı əlaqədə və asılılıqdadır. Ekspert hesablamalarına görə xarici investisiya mühitinin əsas amilləri içərisində siyasi amillərdən ölkədə siyasi sabitlik, iqtisadi amillərdən investisiya gücü, sosial amillərdən əməkhaqqının səviyyəsi, təşkilati amillərdən qanunvericilik səviyyəsi baza amilləri hesab edilir.

## 3. KAPİTALIN BEYNƏLXALQ MİQRASİYASI FORMALARI VƏ İNVESTİSİYALARIN NÖVLƏRİ

İnvestisiya qoyuluşunun nəzəri-metodoloji əsasları – investisiya nəzəriyyələri əvvəldə verilmişdir. Kapital ixracının neoklassik, keynsçi, marksist nəzəriyyələri, müasir TMK konsepsiyaları kapitalın beynəlxalq miqrasiyasının əhəmiyyəti, üstünlükləri və problemlərini ortaya qoyur. Bunun reallaşması üçün kapital ixracının – inhisarçı üstünlüklər, məhsulun həyat silsiləsi, eklektik və s. modelləri qurulur. Dünyada kapitalın təmərküzləşməsi, TMK-ların daha da genişlənməsi, dünya bazarının formalaşması, bankların artması, sürətli hesablaşma formalarının tətbiq edilməsi, kriptovalyutaların yaranması, işçi qüvvəsinin artması, resursların azalması və s. çoxsaylı şərtlərdən kapitalın beynəlxalq miqrasiyası formaları əmələ gəlir (sxem 13.5-ə bax).

Ölkə kapitalının bir hissəsinin milli dövriyyədən çıxarılıb, digər ölkənin milli dövriyyəsinə daxil olması kapitalın ixracı olmaqla yanaşı ixracatçı ölkənin digər ölkələrdəki faktiki ikinci iqtisadiyyatıdır. İkinci iqtisadiyyat ixracatçı ölkəyə ikinci iqtisadi güc meydanı yaradır.

13.5-ci sxemdə kapitalın beynəlxalq miqrasiyasının əlamətlər üzrə formaları verilib. Lakin bu miqrasiya formaları digər əlamətlər üzrə də çoxdur. Kapitalın mülkiyyət –

mənsubiyyət əlamətinə görə xüsusi kapital fərdi sahibkarlara, səhmdar cəmiyyətlərinə, TMK-lara mənsub olduğu üçün onun artırılması dövlət siyasətinin əsas istiqamətidir. Çünki dövləti üzərinə heç bir yük düşmədən böyük vergi gəlirləri əldə edir. Dövlət kapitalının miqrasiyası əsasən ölkənin büdcə xərcləri və dövlət ehtiyatlarından formalaşdığı üçün strateji, siyasi, iqtisadi və transregional layihələrə yönəldilir (Məsələn, BTC və s.). Xüsusi kapital sublayihələrdə iştirak edir. Beynəlxalq maliyyə təşkilatları kapital ixracının üçüncü forması olan beynəlxalq kreditlər (ssuda) formasında iştirak edirlər.

**Sxem 13.5**

**Kapitalın beynəlxalq miqrasiyasının formaları**

| **Təsnifat əlamətləri** | **Kapitalın miqrasiyası formaları** |
|---|---|
| Mülkiyyət formalarına görə | - Xüsusi;<br>- Dövlət;<br>- Beynəlxalq maliyyə təşkilatları;<br>- Qarışıq. |
| Kapitalın miqrasiyası müddətinə görə | - Daha qısamüddətli (3 aya qədər);<br>- Qısamüddətli (1 ilə qədər);<br>- Ortamüddətli (1-5 il);<br>- Uzunmüddətli (5 ildən yuxarı). |
| Kapitalın təqdimat formalarına görə | - Əmtəə;<br>- Pul;<br>- Qarışıq. |
| Kapitalın mənsubiyyət xarakterinə görə | - Sahibkar;<br>- Ssuda. |

Kapitalın beynəlxalq miqrasiyası, xarici investisiyalar və Birbaşa Xarici İnvestisiyalar (BXİ) investisiya (sərmayə, yatırım) növləri ilə təzahür edir. Ona qədər əlamət üzrə investisiyalar növlərə ayrılır və təsnifləşdirilir.

**Müxtəlif əlamətlərinə görə investisiyaların növləri aşağıdakılardır:**

**I. İstiqamətlərinə görə:**
1. Maliyyə sahəsinə (səhmlərə və s.);
2. Real sahələrə (istehsala və s.);
3. İntellektual sahəyə (patent və s.).

**II. Qoyulma məqsədinə görə:**
1. Birbaşa investisiyalar (idarəetmədə iştirak üçün);
2. “Portfel” investisiyaları (qiymətli kağızlardan gəlir əldə etmək üçün);
3. Beynəlxalq kreditlər (gəlir əldə etmək üçün və s.);
4. İqtisadi yardımlar (pulsuz, faizsiz, aşağı faizli).

**III. İnvestisiya qoyma tərəfinə görə:**
1. Obyektə birbaşa investisiya qoymaqla (özü tərəfindən);
2. Vasitəçilərlə investisiya qoymaqla.

**IV. İnvestorun əhatə dairəsinə görə:**
1. Daxili investorlar (ölkədaxili);
2. Xarici investorlar (ölkəxarici);
3. Birgə investorlar (qarışıq).

**V. Mənsubiyyət formalarına görə:**
1. Xüsusi investorlar (şəxsi);
2. Dövlət investorları (dövlət büdcəsindən və s.);
3. Qarışıq investorlar (qarışıq).

**VI. Mənbələrinə görə:**
1. Sahibkar investisiyası (şəxsi);
2. Qeyri-sahibkar investisiyası (kreditə götürülən və s.).

**VII. Risk səviyyəsinə görə:**
1. Aqressiv (təcavüzlü) investisiya (böyük riskli);

2. Məqsədyönlü (mülayim) investisiya (orta riskli);
3. Konservativ investisiyalar (rahat).

**VIII. Qoyulma sahələrinə görə:**

1. İstehsal sahələrinə qoyulan investisiyalar (neft və s.);
2. Qeyri-istehsal sahələrinə qoyulan investisiyalar (hotel və s.).

**IX. Davranış (insani) meyarına görə:**

1. Etik (qurucu) investisiyalar (tikinti və s.);
2. Qeyri-etik (dağıdıcı) investisiyalar (silah və s.).

Maliyyə sahəsinə qoyulan investisiyalar əsasən – səhmlərə, real sahədə – istehsala, intellektual sahədə – patentlərə, məqsədinə görə – idarəetmədə iştirakına, investisiya qoyan tərəfə görə – özünün birbaşa investor kimi iştirakına, investorun əhatə dairəsinə görə – daxili investorlara, mənsubiyyət formalarına görə –xüsusi investorlara, mənbələrinə görə – sahibkar investisiyasına, risk səviyyəsinə görə – məqsədyönlü (mülayim) investisiyalara, qoyulma sahələrinə görə – istehsala qoyulan investisiyalara, davranış meyarına görə – etik investisiyalara üstünlük verilir.

**Ölkənin beynəlxalq kapital hərəkətində iştirakı vəziyyəti aşağıdakı göstəricilər ilə müəyyən edilir:**

1) Kapital ixracının həcmi;
2) Kapital idxalının həcmi;
3) Kapitalın ixrac-idxal saldosu;
4) Ölkədə xarici kapitallı müəssisələrin sayı;
5) Xarici kapitallı müəssisələrdə işləyənlərin sayı və s.

Bu göstəricilərə mütləq göstəricilər deyilir.

**Nisbi göstəricilərə isə bu göstəricilər daxildir:**

1) Ölkənin idxaldan nə dərəcədə asılı olması;
2) Kapitalın idxalı əmsalı;
3) Kapitalın ixracı əmsalı;
4) Ölkənin kapitala olan daxili tələbatında xarici kapitalın payı və s.

Bu göstəricilər aşağıdakı formullar ilə hesablanır:

1) Kapitalın idxalı əmsalı:

$$\mathbf{K}(\boldsymbol{id}\text{ə}) = \frac{\mathbf{K(idh)}}{\mathbf{ÜDM}} * \mathbf{100\%}$$

2) Kapitalın ixracı əmsalı:

$$\mathbf{K}(\boldsymbol{ix}\text{ə}) = \frac{\mathbf{K(ixh)}}{\mathbf{ÜDM}} * \mathbf{100\%}$$

3) Daxili kapital tələbatında xarici kapitalın payı:

$$\mathbf{K}(\boldsymbol{xtp}) = \frac{\mathbf{K(idh)}}{\mathbf{K(öot)}} * \mathbf{100\%}$$

K(idh) – Kapital idxalının həcmi;
ÜDM – Ümumi Daxili Məhsul;
K(ixh) – Kapital ixracının həcmi;
K(xtp) – Xarici kapitalın payı;
K(öot) – Ölkədə kapitala olan tələbatdır.

Hər bir ölkənin beynəlxalq kapital hərəkətindəki iştirakı vəziyyəti il üzrə bu formulalar ilə hesablanır və qiymətləndirilir.

## 4. BEYNƏLXALQ İNVESTİSİYALARIN VƏZİYYƏTİ

Kapital və maliyyənin beynəlxalq hərəkəti hər hansı bir ölkədə kapitalın və maliyyə ehtiyatlarının bir hissəsinin müxtəlif formalarda milli təkrar istehsal prosesindən çıxarılaraq başqa bir ölkədə dövriyyəyə buraxılmasıdır.Dünya təsərrüfatı sisteminin beynəlxalq xarakteri artdıqca beynəlxalq kapital hərəkəti sürətlə artır. Azad rəqabət dövründə ölkələr arasında mal hərəkəti ənənəvi olduğu halda, XX əsrdə kapital hərəkəti beynəlxalq əlaqələrin daha tipik cəhətinə çevrilmişdir. 1894-cü ildən II Dünya Müharibəsinin sonuna qədər xarici kapital qoyuluşları təxminən 1/3 qədər artmışdır. II Dünya Müharibəsindən sonra xarici kapital qoyuluşları hər 10 ildə, birbaşa investisiyalar isə hər 6-7 ildə iki dəfə artmışdır. Yalnız 1945-1985-ci illərdə sənaye ölkələrinin kapital ixracı 40 dəfədən çox artmışdır. 1990-cı ildən isə BVF-yə üzv olan ölkələrdə bütün formalarda kapital ixracı 3,5 dəfədən çox artmışdır.

Xarici investisiyaların artması və borc kapitalının beynəlmiləlləşməsi nəticəsində dövlətlərarası kredit təşkilatları sistemi yaradılmış, nəhəng beynəlxalq pul bazarı formalaşdırılmışdır.

Kapitalın və maliyyənin beynəlxalq hərəkəti hər şeydən əvvəl ölkələr arasında istehsal xərclərinin və əməkhaqqının səviyyəsində mövcud olan fərqlə əlaqədardır. Kapital hərəkətini sürətləndirən ən mühüm amillərdən biri ölkələr arasında təbii sərvətlərin qeyri-bərabər bölgüsüdür. Transmilli şirkətlər yüksək mənfəət əldə etmək üçün ucuz xammal mənbələrinə gedirlər. Kapital və maliyyə hərəkəti ənənəvi olaraq mal hərəkətinə də yol açır və bazarların təmin olunmasına şərait yaradır.

Kapital qoyulan ölkə üçün xarici kapital onu qəbul edən ölkədə kapital yığımı və istehsal güclərinə bilavasitə təsir edir. Kapital yığımı problemi İnkişaf Etməkdə Olan Ölkələr üçün xüsusən böyük əhəmiyyət daşıyır. Xarici kapital qoyulduğu ölkədə həm fəaliyyətə başlayarkən gətirdiyi kapital ilə, həm də mənfəətdən yığıma ayrılmalarla istehsal xərclərini artırır. Xarici kapital özü ilə birlikdə texnologiya və müasir idarəçilik təcrübəsini gətirir, elmi-tədqiqat işlərini təşkil edir, yerli kadrların hazırlanmasına önəm verilir.

Xarici kapitalın gətirdiyi valyuta, idxal olunan malların istehsalını daxildə təşkil etməsi (idxalın əvəz olunması) və ixracat potensialının artırılması üzrə gördüyü işlər onu qəbul edən ölkənin tədiyyə balansı müvazinətinin nizamlanması üçün böyük əhəmiyyətə malikdir. Lakin sonralar əldə olunan mənfəətin bir hissəsinin xaricə köçürülməsi tədiyə balansı müavinətinə mənfi təsir edir. Ona görə də kapitalı qəbul edən ölkələr çox vaxt mənfəətin xaricə köçürülməsini məhdudlaşdırırlar.

İnkişaf Etməkdə Olan Ölkələr xarici kapital üzrə yeritdikləri siyasətdə bu kapitalların ixracyönlü istehsala qoyulmasını geniş təşviq edirlər. Xarici kapital iqtisadiyyata dinamik xarakter verir və daxili rəqabəti artırır. Əgər ölkə daxilində hər hansı bir sahədə inhisar varsa, xarici kapitalın daxil olması onu aradan qaldırır, istehsalın artmasına və qiymətlərin aşağı düşməsinə səbəb olur.

Müasir iqtisadi anlamda xarici investisiya iqtisadi inkişafa nail olmaq və sərvətin artırılmasını təmin etmək üçün zəruri təsir komponentlərindən biri hesab olunur. Belə ki, bir çox makroiqtisadi göstəricilərdə baş verən kəmiyyət və keyfiyyət dəyişiklikləri reallaşdırılan investisiya portfelinin həcmi ilə birbaşa əlaqədardır. Ona görə də hər bir dövlət əksər hallarda məhz müxtəlif istiqamətlərdə investisiya qoyuluşunu reallaşdırmaqla iqtisadiyyatın strukturunu təkmilləşdirməyə və bununla da sosial-iqtisadi problemlərin həllinə nail olmağa çalışır. İstənilən ölkədə investisiya fəaliyyətinin rellaşdırılması baxımından ən ümdə məsələ onun maliyyə mənbəyinin təmin edilməsidir.XX əsrin 90-cı illərinə qədər dünyada hər il 0,7-1,2 trilyon ABŞ dolları məbləğində investisiya hərəkət edirdi və sürətlə artırdı. Son 20-30 ildə dünyada beynəlxalq investisiya bazarının inkişaf tempi, beynəlxalq ticarətin inkişaf tempini üstələyirdi. 2018-ci ildə qlobal Birbaşa Xarici İnvestisiyaların (BXİ-nin) həcmi 2017-ci ilə nisbətən 23% azalaraq 1,43 trilyon ABŞ dollarına qədər aşağı düşmüşdür ki, bunun da 712 mlrd dollarını İnkişaf Etmiş Ölkələrə, 671 mlrd dollarını İnkişaf Etməkdə Olan

Ölkələrə  və az bir hissəsi olan 47 mlrd dollarını isə keçid iqtisadiyyatlı ölkələrə  Birbaşa Xarici İnvestisiyalar təşkil etmişdir[1]. Aşağı düşmənin əsas səbəbi investisiya gəlirliyinin aşağı düşməsidir. Belə ki, əgər 2012-ci ildə ümumdünya xarici investisiya gəlirliyi orta hesabla 8,1 faiz idisə, bu gəlirlilik  2018-ci ildə 6,7 faizə düşmüşdür.

İnvestisiya gəlirliyinin azalması dünyanın  bütün regionları və iqtisadi sektorları üzrə olmuşdur.  Bu da onu deməyə əsas verir ki,  artıq bütün investorlar öz investisiya portfeli ilə dərindən işləməli, dərin iqtisadi təhlillər aparmalı,  dərin elmi-nəzəri və praktiki  nəticələrə əsaslanmaqla fəaliyyət göstərməlidirlər.

Q. Menkyü yazır ki, əmtəə və xidmətlərin beynəlxalq axını və kapitalın beynəlxalq hərəkəti  obrazlı desək, bir medalın iki tərəfidir[2].

İqtisadiyyat elmində kapitalın beynəlxalq hərəkəti, investisiya qoyuluşu və investisiya portfeli problemi elmi baxışların təkamülü  və dünya təsərrüfat proseslərinin inkişafı gedişində formalaşmış müxtəlif nəzəri yanaşmalar çərçivəsində tədqiq olunur. Bunun üçün də ilk növbədə, dünyanın  maliyyə resursları öyrənilməlidir.

Dünyanın maliyyə resursları 13.6-cı sxemdə verilir. 13.6-cı sxemdən görünür ki, dünya maliyyə bazarının tərkibinə daxil olan  birbaşa investisiya, səhm, valyuta, kredit, sığorta və derivativ bazarları  içərisində birbaşa  investisiya və səhmlər bazarı aparıcı rola malikdirlər. Dünya ölkələrinin Birbaşa Xarici İnvestisiyaları (BXİ-ləri) 13.1-ci cədvəldə verilir. 13.1-ci cədvəldən görünür ki, 2019-cu ildə dünyada BXİ-lərin həcminə görə əsas ölkələr içərisində  birinci beşlikdə ABŞ, Çin, Almaniya, Braziliya və Honkonq olmuşdur.  24-cü yerdə Türkiyə, 75-ci yerdə Azərbaycan qərarlaşmışdır.

**Sxem 13.6**




**Cədvəl 13.1**

**2019-cu ildə dünya ölkələrinin BXİ-ləri[1]**

| № | Ölkələr | Milyon dollar |
|---|---|---|
| 1. | ABŞ | 258900 |
| 2. | Çin | 203492 |
| 3. | Almaniya | 105277 |
| 4. | Braziliya | 88324 |

[1] UNCTAD. Dünya investisiyaları haqqında hesabat, 2018.  İnvestisiyalar və yeni sənaye siyasəti. Nyu-York və Cenevrə, səh. 8-9.

[2] Q. Menkyü. Ekonomiksin prinsipləri. Bakı, “İqtisad Universiteti” nəşriyyatı, 2009, səh. 553-554.

[1] The World Bank Group: Foreign Direct Investment. 2019

| | | |
|---|---|---|
| **5.** | Honkonq | 86462 |
| **6.** | Sinqapur | 82039 |
| **7.** | İrlandiya | 64535 |
| **8.** | Avstraliya | 60951 |
| **9.** | Fransa | 59849 |
| **10.** | Böyük Britaniya | 58650 |
| **24.** | Türkiyə | 13044 |
| **31.** | Rusiya | 8784 |
| **50.** | İran | 3480 |
| **75.** | Azərbaycan | 1402 |
| **129**. | Ermənistan | 254 |

Diqqəti cəlb edən məqam odur ki, həm investisiya ixracında və həm də investisiya idxalında dünyanın İnkişaf Etmiş Ölkələri öndədirlər. Bunu 13.2-ci cədvəldən görmək olar.

**Cədvəl 13.2**

**Dünyada daha çox investisiya ixrac və idxal edən ölkələr (mlrd dollar) 2018-ci il[1].**

| № | Ölkələr | İxrac | İdxal |
|---|---|---|---|
| **1.** | ABŞ | 1474 | 2018 |
| **2.** | Böyük Britaniya | 772 | 1378 |
| **3.** | Fransa | 535 | 769 |
| **4.** | Niderland | 429 | 546 |
| **5.** | Honkonq | 456 | 407 |
| **6.** | Almaniya | 348 | 834 |
| **7.** | İspaniya | 347 | 333 |
| **8.** | Kanada | 304 | 370 |
| **9.** | Belçika | 259 | 248 |
| **10.** | Avstraliya | 254 | 168 |

13.2-ci cədvəldən göründüyü kimi dünyada ən çox investisiya ixrac və idxal edən ölkələr ABŞ, Böyük Britaniya, Fransa və s. ölkələrdir. İnvestisiya idxalı ixracından çox olan ölkələr ABŞ, Böyük Britaniya, Fransa, Niderland, Almaniya və Kanadadır ki, bunun da səbəbi həmin ölkələrdə portfel investisiyalarının daha çox mənfəətli olmasıdır.

Cədvəldə göstərilən ölkələrlə yanaşı bir çox digər ölkələr də beynəlxalq investisiya proseslərində iştirak etməklə öz milli iqtisadiyyatlarını inkişaf etdirməyə üstünlük verirlər.

Sahibkar kapital ixracının ikinci forması isə **portfel investisiyasıdır.** Kapital ixracının bu formasında yeni müəssisələr yaradılması nəzərdə tutulmur. Kapital qoyuluşu xarici müəssisələrin qiymətli kağızlarının, səhmlərinin, istiqrazlarının və s. qiymətli kağızların alınmasına sərf edilir. Sahibkarlar kapital qoyuluşunun bu formasında həmin müəssisələr üzərində real nəzarət etmək hüququ olmasa da, böyük həcmdə mənfəət əldə edə bilirlər.

## 5. İNVESTİSİYA PORTFELİ VƏ ONUN FORMALAŞDIRILMASI MEXANİZMİ

İnvestisiya portfelinin formalaşdırılmasının əsas prinsiplərinə təhlükəsizliyin təmin edilməsi (baş verəcək bütün risklərdən sığortalanma və gəlirlərin əldə edilməsi sabitliyi), investor üçün ən əlverişli gəlirliyə nail olması, likvidliyin təmin edilməsi, gəlirlilik və risk arasında optimal nisbətin əldə edilməsi aid edilə bilər.

"İnvestisiya portfeli" termini nəzəri tədqiqatlarda və təcrübədə əsasən "qiymətli kağızlar portfeli" (çantası) kimi işlədilir. Lakin geniş mənada investisiya portfelinin strukturuna aşağıdakıları aid etmək olar (sxem 13.7.)

[1] The World Bank Group: Foreign Direct Investment, 2019.

**Sxem 13.7**

**Geniş mənada investisiya portfelinin strukturu**




Burada maliyyə vasitələrinə qiymətli kağızlar, qeyri-maliyyə vasitələrinə əntiq mallar (antikvariat), real investisiya obyektlərinə avadanlıqlar, insan kapitalına elmi-texniki peşəkar mütəxəssislər və intellektual aktivlərə patentlər və s. daxil edilir.

İnvestisiya portfeli investora, başqa sözlə sərmayənin öz sahibinə mənfəət əldə etməyə imkan verən topladığı müxtəlif maliyyə alətlərinin məcmusudur.

İnvestisiya portfeli vahid halda götürülmüş bütün fiziki və hüquqi şəxslərin bütün investisiyalarının cəmidir. Mövcud olan pul istifadə edilmirsə, demək olar ki, işləmir, heç bir gəlir gətirmir, ölü yük kimi yatır. Pul daim hərəkətdə olmalıdır. Bunun üçün də pulu banka qoymaq, səhmlər, istiqrazlar, qızıl, daşınmaz əmlak və s. əldə etməklə istifadə etmək olar ki, bunlara da investisiya alətləri və investisiya aktivləri deyilir. Səhm də, digər aktivlər də kapitaldır. İnvestisiya alətləri və aktivləri yığımına **investisiya portfeli** deyilir.

Nəzəri olaraq investisiya portfelinin daxili tərkibi 13.8-ci sxemdə verilir:

**Sxem 13.8**

**İnvestisiya portfelinin daxili tərkibi**

| **İnvestisiya portfeli** | | | | | |
|---|---|---|---|---|---|
| Səhmlər | İstiqrazlar | Qızıl,valyuta | Daşınmaz əmlak | Əmanətlər | Pay İnvestisiya Fondları (PİF) |

İnvestisiya portfeli sahə strukturuna görə maliyyə, sənaye, xammal, enerji, texnoloji, istehlak, xidmət və s. investisiya portfellərinə bölünür.

İnvestisiya portfeli mənsubiyyətinə görə ölkələrin, korporasiyaların, fondların, müəssisələrin, şəxslərin investisiya portfellərinə bölünür və hər birinin fəaliyyət strategiyası müxtəlifdir.

Hər şeydən əvvəl "portfel" investisiyaları ilə investisiya portfelini bir-birindən ayırmaq lazımdır. "Portfel" investisiyaları kapital ixracının dörd əsas forması – Birbaşa

Xarici İnvestisiyalar (BXİ), “portfel” investisiyaları, beynəlxalq kreditlər (ssuda kapitalı) və iqtisadi yardım formalarından biri olub, daha sürətli artım tempinə malikdir.

İnvestisiya portfeli isə bütün investisiyalara yönəldilmiş maddi və maliyyə resurslarının (valyuta, qiymətli kağızlar, qızıl və s.) məcmusudur. Digər tərəfdən əgər “portfel” investisiyalarına qiymətli kağızlar (əsasən səhmlər, istiqrazlar və s.) daxil edilirsə, investisiya portfelinə bunlarla bərabər bütün formalarda olan Birbaşa Xarici İnvestisiyalar (BXİ), beynəlxalq kreditlər və digər aktivlər də daxil edilir. İnvestisiya portfeli “portfel” investisiyalarından daha geniş anlayışdır, “portfel” investisiyaları investisiya portfelinin tərkib hissəsidir.

Ümumiyyətlə investisiya qoyuluşunun iki əsas forması mövcuddur:

1. Birbaşa (real) investisiyalar;
2. Portfel (maliyyə) investisiyaları.

Birbaşa (real) investisiyalara əsas kapitala və ya maddi-texniki ehtiyatların artırılmasına qoyulan investisiyalar, portfel (maliyyə) investisiyalarına dövlətlərin, onların dövlət və xüsusi kompaniyalarının qiymətli kağızları, bank depozitləri, əmanət sertifikatları, istiqrazlar və s. daxil edilir.

Nəzəri və praktiki yanaşmaya görə investisiya portfelini üç əsas növə bölmək olar:

- konservativ investisiya portfeli;
- aqressiv (təcavüzkar) investisiya portfeli;
- kombinələşdirilmiş (qarışıq və ya orta) investisiya portfeli.

Konservativ investisiya portfeli o portfelə deyilir ki, bütün maliyyə aktivləri dəqiq hesablanmaqla qarşısına konkret gəlir götürmək vəzifəsi qoymuş investor, eyni zamanda maksimum inflyasiya səviyyəsini nəzərə almalı və ondan qorunmalıdır. Bu maliyyə aktivlərinə dövlət istiqrazları, nəhəng təşkilatların istiqrazları, bank depozitləri, qiymətli metallar (qızıl, moneta) və s. daxil edilir. Belə investisiya portfeli uzun müddət üçün hazırlanır.

Aqressiv (təcavüzkar) investisiya portfeli o portfelə deyilir ki, investor bütün aktivlərdən maksimum gəlir gətirmək üçün qarşıya çıxa biləcək böyük risklərə getməklə portfelini açıb işə salır, bəzən böyük gəlirlər əldə etdiyi halda, bəzən də böyük zərərə düşür. Belə maliyyə aktivlərinə fyuçerslər, şirkətlərin (kompaniyaların) qiymətləndirilməmiş səhmləri daxildir. Portfel investisiyalarının təşkilinin bu tipini qarşısına qısa müddətdə böyük gəlir götürmək məqsədi qoymuş, risklərə hazır olan iri, nəhəng bazar oyunçuları seçir.

Kombinələşdirilmiş (qarışıq və ya orta) investisiya portfeli o portfelə deyilir ki, portfelin mövcud olan maliyyə aktivlərindən istifadə zamanı gəlirliliyin, riskəgetmənin, mənfəət əldə etmə müddətinin orta dərəcələri nəzərdə tutulur. Bu da uzunmüddətli, sabitqədəmli, möhkəm və davamlı investisiya portfeli hesab edilir. Bu maliyyə aktivlərinə - investisiya portfeli alətlərinə dövlət qiymətli kağızları və korporasiyaların (şirkətlərin) səhmləri daxil edilir. Bu portfel investorların müflis olmasından qaçmasına şərait yaradır, böyük zərərlərdən qurtarır və investorluq gücünü artırır.

Praktiki olaraq dünya ölkələrində, onların bütün investisiya subyektlərində vahid və standart investisiya portfeli yoxdur və ola da bilməz. Bu investorun maliyyə vəziyyətindən, strategiyasından, mənafeyindən, mövcud vəziyyətdən, peşəkarlıq səviyyəsindən və s. asılı olaraq dəyişir. Portfelin üzü, forması eyni ola bilər, daxili strukturu və tərkibi mütləq fərqli olur.

## İnvestisiya portfeli strategiyası və onun formalaşması mərhələləri

İnvestor investisiya portfelini formalaşdırmaq üçün ən əvvəl özünün son məqsədini əvvəlcədən görməli və həmin məqsədə nail olmaq üçün fəaliyyət mərhələlərini, üsullarını dəqiq müəyyən etməli və gələcək fəaliyyət strategiyasını hazırlamalıdır. Bunun üçün də investisiya portfelinin növünü təyin etməlidir.

İnvestisiya portfeli strategiyasının üç tipi seçilə bilər:

1. Konservativ strategiya;

2. Aqressiv (təcavüzkar) strategiya;
3. Orta (kombinələşdirilmiş və ya qarışıq) strategiya.

Konservativ strategiyada investisiya portfelinə ən az riskli və maksimum likvid aktivlər daxil edilir. İllik 20-40 faizə qədər, minimum mənfəət götürmək nəzərdə tutulur.

Aqressiv (təcavüzkar) strategiyada qoyulan sərmayə 100 faiz mənfəət gətirə bilər. Lakin maksimum risk olur. Ona görə də əksinə proses də baş verə bilər.

Orta strategiyada göstərilən hər iki tip qarşılıqlı əlaqələndirlir, investor aktivin seçilməsində maksimum ehtiyatlı olmalı və baş verə biləcək risklərə hazır olmalıdır. İllik gəlir 30-70 faiz arasında ola bilər.

İnvestisiya portfelinin formalaşdırılması aşağıdakı üç mərhələdən keçir:

1-ci mərhələdə - məqsəd, qarşıya qoyulan məqsədə çatma yolları, qoyulan sərmayələr üzrə zərərlrə hazırlıq müəyyən edilir və aktivlər seçilir;

2-ci mərhələdə - investisiya portfelindən istifadə strategiyası seçilir;

3-cü mərhələdə - investisiya alətlərinin seçilməsi prosesi baş verir.

## İNVESTİSİYA PORTFELİNİN MƏQSƏDİ

İnvestor bu mərhələdə nə qədər investisiya qoyacağına hazır olduğunu və müəyyən edilmiş vaxtda nə qədər gəlir götürəcəyini müəyyən edən fəaliyyət planı hazırlayır. Bunun üçün də qoyacağı investisiya portfelini hesablayır, qiymətli kağızlar bazarını öyrənir və öz aktivlərini seçir.

İnvestisiya portfelinin formalaşdırılması strategiyasının seçilməsi mərhələsində investisiya portfelinin idarə edilməsi strategiyası müəyyən edilir. Bu strategiya investorun məqsədindən və ona nail olunması müddətindən asılı olur.

Bu mərhələdə investisiya portfeli üçün alətlərin seçilməsi mərhələsində investisiya portfelinə daxil edilən, portfelə toplanan aktivləri seçir. Burada investor portfelə alıb yığacağı və portfelə daxil ediləcək aktivləri aşkar etməlidir. Məhz bu məqamda investorun risklərdən qorunması, peşəkarlıq səviyyəsindən asılı olaraq əldə edəcəyi mənfəət və öz portfelinin gəlirliyi həll edilmiş olur.

Qarşıya qoyulmuş məqsəddən, seçilmiş strategiyadan və investisiya portfelinin növündən asılı olmayaraq investisiya portfelinə aşağıdakı aktivlər (elementlər) daxil edilə bilər:

- kompaniyaların (şirkətlərin) səhmləri;
- dövlət istiqrazları və borc pul vərəqələri;
- valyuta, o cümlədən kriptovalyuta;
- forvard və fyuçerslər;
- digər qiymətli kağızlar.

Dünya maliyyə bazarında konkret sınaqdan keçirilmiş və təsdiq edilmiş, yüksək likvidli, az riskli və qısa müddətdə yüksək gəlir gətirəcək investisiya portfelinin yaradılması üsulu yoxdur. Ona görə də maliyyə bazarları - qiymətli kağızlar bazarları dünyada ən sürətlə dəyişən, daim titrəyən, artıb-azalan, çevik, riskli və dinamik bazarlardır. Bir gün ərzində böyük gəlir gətirə bilir və bir gün ərzində böyük zərər verə bilir. Buradan da "Öz investisiya portfelim" konsepsiyası ortaya çıxır. "Öz investisiya portfelim"in yaradılması üç mərhələdən ibarət ola bilər: müddət, məqsəd, formalaşdırma.

İnvestor (şəxs, firma) "Öz investisiya portfelim"in yaradılması üçün ilk növbədə qoyduğu vəsaitin müddətini hesablamalıdır. Nəzərə almaq lazımdır ki, sabit gəlirlik o vəsaitlərin qoyulduğu zaman baş verir ki, aşağı riskli vəsaitlər qoyulmuş olsun. Bu müddət qoyulmuş vəsaitlər üzrə müxtəlif olur və məqsəddən asılı olaraq dəyişir. O aktivlərə vəsait qoyulmalıdır ki, onun gəlirvermə müddəti 5-7 ildən çox olmasın.

İnvestor qarşıya qoyduğu məqsədi müəyyən etməlidir. Öz investisiya portfelini artırmaq üçün portfel tipindən istifadə etməlidir. Vəziyyətdən asılı olaraq konservativ vəsait qoyuluşları üzrə pay faizlərini artıra bilər. Digər variantda daha çox vəsait qoymaqla daha çox faiz əldə etmək üçün balanslaşdırma tipindən istifadə edilə bilər. Bu mərhələdə həmçinin riskə getməklə nə qədər zərərə düşməyin həddini nəzərə almaqla yekun nəticədə mənfəət əldə ediləcəyi müəyyən edilməlidir.

Son olaraq investisiya portfelinin formalaşdırılması mərhələsində əldə edilmiş aktivlər faiz nisbətində bölüşdürülür və portfelin optimal strukturu işlənib hazırlanır. Bu zaman aktivlərin növləri ilə bərabər, həmçinin müxtəlif ölkələr üzrə valyutaların da strukturu müəyyən edilməlidir.

## İNVESTİSİYA PORTFELİNİN ÜSTÜNLÜKLƏRİ VƏ ÇATIŞMAZLIQLARI

İnvestisiya portfelinin yaradılmasının üstünlüklərinə aşağıdakılar aid edilir:
- likvidliyin müxtəlif dərəcələri;
- qiymətli kağızlar bazarının şəffaflığı və açıqlığı;
- gəlirlilik həddi;
- müstəqil idarəetmə;
- gələcək yol xəritəsi və s.

İnvestisiya portfelinin yaradılmasının çatışmazlıqları aşağıdakılar hesab edilir:
- vəsaitlərin itki riski;
- qeyri-peşəkarlıq riskləri;
- partnyorların tanınmaması və s.

İnvestisiya portfelinin necə yaradılmasında bütün əlamətlər üzrə qarşıya çıxan “hə” və “yox” suallarına əsaslandırılmış cavablar tapıldıqdan sonra qərar verilməlidir. Əgər investor özünün valyuta, qızıl və digər vəsaitlərindən istifadə edərək riskə gedirsə, bu risklik həddi ümumi portfelin üçdə bir hissəsindən artıq olmamalıdır. Bu investisiya portfelinin perspektiv artımının ən effektiv yolu hesab edilir. Bu fəaliyyətin bünövrəsində peşəkarlıq, dünya qiymətli kağızlar bazarının konyunkturu, onun dərindən öyrənilməsi və dünya iqtisadiyyatının sistemli təhlili dayanır.

Ümumiləşmiş və ya geniş formada investisiya portfelinə digər aktivlər – daşınmaz əmlak, qiymətli metallar və material qiymətliləri də daxil edilir.

İnvestisiya portfelinə daxil olan hər bir elementin öz payı olur. Bu hər bir aktiv məbləğinin ümumi investisiya məbləğinə faiz nisbəti ilə müəyyən edilir.

Ona görə də hər bir dövlətin, şirkətin, firmanın (müəssisənin), şəxsin investisiya portfeli müxtəlifdir. Dünya ölkələrinin Mərkəzi Banklarının, müxtəlif fondların, Transmilli Şirkətlərinin və s. demək olar ki, hamısının investisiya portfelində qızıldan istifadə edilir ki, buna da səbəb dünya qızıl bazarının vəziyyətinə qızılın ikili statusu təsir göstərir – qızıl qiymətli xammal olmaqla yanaşı, eyni zamanda real olaraq ehtiyat və maliyyə aktivi rolunu oynayır.

Azərbaycan Respublikası Dövlət Neft Fondunun verdiyi hesabata görə 2018-ci ilin martın 31-i tarixinə fondun portfelində 18,4 mlrd ABŞ dolları (48,8 faiz), 10,1 mlrd avro (34,4 faiz), 1,3 mlrd funt-sterlinq (4,9 faiz), 318 mln Avstraliya dolları (0,7 faiz), 1,5 mlrd Türkiyə lirəsi (1 faiz), 23,2 mlrd Rusiya rublu (1,1 faiz), 499,3 mlrd Koreya vonu (1,2 faiz), 3,3 mlrd Çin yuanı (1,4 faiz), 65,9 mlrd Yaponiya yeni (1,6 faiz), 561, 5 mln digər valyutalar (1,5 faiz), 1 mlrd 285,9 mln (3,4 faiz) isə qızıl (970,146 troya unsiya – 30,17 t) olmuşdur.

ARDNF-nin 31 mart 2019-cu il tarixinə investisiya portfelinin 55 faizini ABŞ dolları, 33,3 faizini avro, 5 faizini funt-sterlinq, 0,8 faizini Türkiyə lirəsi, 0,6 faizini Avstraliya dolları, 0,6 faizini Rusiya rublu, 0,5 faizini Koreya vonu, 1,2 faizini Çin yuanı, 1,6 faizini Yaponiya yeni, 1,4 faizini digər valyutalar, 0,4 mln. dollarını (ekvivalent) manat təşkil edib.

Son 25 ildə – 1994-2019-cu illərdə Azərbaycanın neft-qaz sektoruna 100,6 mlrd dollar investisiya yatırılıb ki, bunun da təxminən 85 mlrd dolları xarici investisiyaların payına düşür. Bu dövrdə Azərbaycanda 740 mln t neft hasil edilmişdir.

Belə bir fakt diqqəti cəlb edir ki, dünya sənaye məhsullar istehsalında böyük dövlətlərin payı 80 faiz olduğu halda, dünya enerji ehtiyatlarında onların payı 20 faizə qədərdir. Bunun da əsas səbəbi məhz dünya ölkələri üzrə investisiyaların böyük dövlətlərə – inkişaf etmiş dövlətlərə mənsub olmasıdır. Resursların mövcudluğu hələ inkişaf deyildir. Resursdan istifadə üçün ən əvvəl böyük maliyyə gücü, iqtisadi və intellektual güc, investisiya və ya investisiya portfeli mövcud olmalıdır.

## UORREN BAFFET PRİNSİPLƏRİ

Amerikalı sahibkar, dünyanın ən tanınmış investoru, insanlıq tarixinin ən nəhəng xeyriyyəçisi, planetin milyarderləri sırasında Bill Qeytsdən sonra ikinci, 2018-ci ildə varidatı 108,4 mlrd dollar olan, nəhəng investisiya portfelinə malik olan Uorren Baffetin aşağıdakı 10 prinsipi konseptual baxımdan diqqəti cəlb edir:

1. "İnvestisiya – pulu bu gün yatırıb sabah daha çox pul əldə etməkdən ibarətdir".
2. "Məhsullarını şəxsən bəyəndiyiniz şirkətlərin səhmlərini alın" (O "Jillet" istehsal edən şirkətin səhmlərinin 9 faizlik zərfini alıb).
3. "Sizə məlum olmayan sahələrə heç vaxt sərmayə qoymayın".
4. "Zərərlə işləyən müəssisələrdən uzaq olun".
5. "Hər artan səhmin arxasında uğurlu biznes durur".
6. "Beynəlxalq şəbəkəli biznesə pul qoyun".
7. "Bazarda qalib səhmlər olur və onları tapmaq lazımdır".
8. "Əgər siz həmişə hesablamalardan istifadə edirsinizsə, qısamüddətli hesabat və daim bazar analizi aparırsınızsa, böyük yüksəliklər fəth edəcək və böyük gəlirlər əldə edəcəksiniz".
9. "Ən başlıcası – şirkətin tarixidir".
10. "İlham mənbəyi tələskənlik xoşlamır, gələcəyi görməyi bacarmalısan".

Dünya maliyyə kralının nöqteyi-nəzərindən investorlar dördtərəfli güzgüyə baxmalıdır: arxanı göstərən tarixi faktlar, qarşını göstərən gözləntilər, sağı göstərən ətraf tərəfdaşlar və solu göstərən rəqiblər. İnvestisiya portfelini doldurmaq, böyütmək və artırmaq üçün daha gəlirli sahələr müəyyən edilməli, digər investorların bədbinliyindən və fərasətsizliyindən bacarıqla istifadə edilməli, bazardan geri çəkilən investorların səhmlərini almaq, potensialı güclü olan istiqrazlara sahib olmaq, dünya neft və qızıl bazarını daim tədqiq etmək, beynəlxalq birjaların vəziyyətini daim diqqət mərkəzində saxlamaq, beynəlxalq və regional siyasi-hərbi vəziyyəti qiymətləndirmək və "xərc-gəlir" tərəzisini daim əldə tutmaq lazım gəlir. Gəlir artırsa, mənfəət çoxalırsa, portfel də böyüyür və genişlənir. Gəlir azalırsa, mənfəət gəlmirsə, portfel də kiçilir, boşalır və yox olur.

İnvestisiya portfelindən gözlənilən gəlirliyi aşağıdakı formula ilə hesablamaq olar:

$$\mathbf{P_{gg}=P_{ap}*A_{gg}+P_{bv}*F}$$

Burada:

$\mathbf{P_{gg}}$ – Portfelin gözlənilən gəlirliyi;

$\mathbf{P_{ap}}$ – Portfeldəki aktivlərin payı;

$\mathbf{A_{gg}}$ – Aktivlərdən gözlənilən gəlirlik;

$\mathbf{P_{bv}}$ – Portfeldəki borc vəsaitlərinin payı;

**F** – faiz dərəcəsini göstərir.

Hazırkı dövrdə dünya ölkələrinin maliyyə bazarları subyektlərində –

fondlarda,dövlət və özəl banklarda, firmalarda, müəssisələrdə, fərdi sahibkarlarda, iş adamlarında və s. ən böyük problem onlara məxsus olan investisiya portfelinin ayrı-ayrı aktivlərinin istifadə edilməsinin və ya gəlirlik səviyyəsinin müəyyən edilməsidir.

İnvestisiya portfelinin tərkibinə daxil olan hər bir aktivin fərqli tələbləri, əlamətləri və xüsusiyyətləri vardır. Lakin hamısının bir məqsədi vardır: ən yüksək gəlir götürmək.

**Səhmlərin gəlirliyi** – onun nominal dəyəri və bazar qiymətlərindən birbaşa asılıdır, növündən, vaxtından və alış-satışından asılı olaraq daim dəyişir. Səhm qiymətlərinin müxtəlif modelləri vardır, dinamikdir, birjalarda işləyənlərin peşəkarlıq səviyyəsindən asılı olaraq artan və azalan qiymətlərdən gəlir götürməlidirlər.

**İstiqraz gəlirliyi** – istiqrazın qiymət dəyişməsindən əmələ gəlir, istiqrazın bazar qiymətinin artmasından, faiz dərəcəsinin dəyişməsindən və satışından əldə edilən gəlirlərə bölünür.

**Portfelin qızıl gəlirliyi** – əsasən dünyada baş verən siyasi proseslərdən, dünya liderlərinin mövqelərindən, neft qiymətlərindən, dünya ölkələrinin qızıl istehsalı və istehlakının həcmindən asılı olaraq qiymət dəyişmələrdən və uzaqgörən strategiyadan əldə edilən gəlirlərdir.

**Portfelin valyuta gəlirliyi** – möhkəm valyutalı ölkələrin iqtisadi inkişaf vəziyyətindən, tempindən və inkişaf strategiyasından asılı olaraq həmin ölkə və valyuta ittifaqının valyutalarının dünya bazarındakı məzənnə artımından əldə etdikləri gəlirlərdir.

**Daşınmaz əmlak gəlirliyi** – aktivin qoyulduğu ölkənin iqtisadi-coğrafi mövqeyi, inkişaf səviyyəsi, miqrasiya axını və dayanıqlı inkişaf strategiyasından yaranan əmlak dəyərinin artmasından əmələ gələn gəlirlərdir.

**Əmanət (depozit) gəlirliyi** – beynəlxalq maliyyə institutlarının, bankların və fondların gəlirlərinin artmasından qoyulan əmanətə görə əldə etdikləri gəlirlərdir.

**PİF gəlirliyi** – PİF-lərə qoyulan paya görə fondun əldə etdiyi gəlirlərdən ona çatan gəlirlərdir.

Bunların vahid seçilmə mexanizmi yoxdur. Birbaşa bazarın konyunkturu, dəyişməsi, təhlili və strukturundan asılıdır.

Dünyanın bəzi ölkələrinin iqtisadi geriliyinin səbəblərindən biri də dövlət, özəl və fərdi investorların investisiya portfelindən səmərəli istifadə edə bilməmələri, portfel aktivlərinin gəlirliyinin müəyyən edilmədən istifadə edilməsidir.

## 6. BEYNƏLXALQ İNVESTİSİYALARIN ƏSAS PRİNSİPLƏRİ VƏ BEYNƏLXALQ İNVESTİSİYALARIN TƏNZİMLƏNMƏSİ

Beynəlxalq (xarici) investisiyaların cəlb edilməsinin ilkin şərti onların cəlbediciliyidir. İnvestisiya yatıran hər bir tərəfi düşündürən odur ki, daha çox mənfəət əldə etsin və qoyduğu investisiya təhlükəsiz olsun. Tərəflər bir-birinin maraqlarını nəzərə almalıdır və dövlət təminatına arxayın olmalıdır. Qapalı, aqressor, avtoritar və sanksiya tətbiq edilən ölkələrə xarici investisiya hərəkət etmir. Buradan da beynəlxalq investisiyaların əsas prinsipləri ortaya çıxır.

**Beynəlxalq investisiyaların əsas prinsipləri aşağıdakılardır:**

- Xarici investisiyanın müdafiə olunması prinsipi;
- Dövlətin xarici investisiyanı tənzimləməsi prinsipi;
- İnvestisiyaların sərbəst ixracı prinsipi;
- Xarici investisiyanın milli iqtisadiyyata zərər vurmaması prinsipi;
- Xarici investisiyanın milliləşdirilməsinin yolverilməzliyi prinsipi;
- İkiqat vergitutmaya yol verilməməsi prinsipi.

Xarici investisiyanın müdafiə olunması prinsipinə görə – xarici ölkələrdən daxil olmuş bütün investisiya daxil olmuş dövlət tərəfindən müdafiə olunmalı və qorunmalı, dövlətin xarici investisiyanı tənzimləməsi prinsipinə görə – hər bir dövlət öz qanunvericiliyi və hökumət qərarları ilə xarici investisiyanı tənzimləməli, investisiyaların sərbəst ixracı prinsipinə görə – hər bir dövlətin xarici ölkələrə investisiya ixrac etmək hüququ vardır, xarici investisiyanın milli iqtisadiyyata zərər vurmaması prinsipinə görə – xaricdən daxil

olmuş investisiya bu ölkənin milli iqtisadiyyatına zərər vurmamalı və onun inkişafına təkan verməlidir, xarici investisiyanın milliləşdirilməsinin yolverilməzliyi prinsipinə görə – xaricdən daxil olmuş investisiya milliləşdirilə bilməz, ikiqat vergitutmaya yol verilməməsi prinsipinə görə – xarici investordan ikiqat vergi tutula bilməz. Bu prinsiplər ikitərəfli beynəlxalq sazişlərdə öz əksini tapmalıdır.

Beynəlxalq investisiyaların əsas prinsiplərinə dünya ölkələrinin siyasi rejimləri, demokratik, azad və açıq iqtisadiyyat, neoklassik faktorların iqtisadiyyatda mövqeyi, möhkəm və dayanıqlı bank sistemi, sahibkarlıq dəyərləri və s. bu kimi amillər birbaşa təsir edir, yeni kriptovalyutalar əmələ gəlir və dünya bazarı daha da mürəkkəbləşir.

XXI əsrin qızılı hesab edilən Bitkoinin qiymətinin birdən-birə 58 min dollra qalxması (20.02.21) və birdən-birə 47 min dollara düşməsi etibarlılıq cəhətdən yatırımların (sərmayələrin) qızıla və Bitkoinə çevrilməsi prosesində qeyri-müəyyənlik yaradır. Belə hesab edilir ki, qızıl az riskli, Bitkoin isə çox riskli yatırımdır. İnvestorlar qeyri-müəyyənliklərlə üzləşir, qeyri-səlis məntiqə (Lütfizadə nəzəriyyəsi) məruz qalırlar.

İnvestorlar hansı investisiyalara daha çox üstünlük vermək üçün seçim qarşısında qalır və qarşılıqlı müqayisə etməyə yönəlirlər. Birbaşa və portfel investisiyalarının qarşılıqlı müqayisəsi 13.3-cü cədvəldə verilir. Hansı investisiyanın seçilməsinin konkret meyarları yoxdur. Bu beynəlxalq biznes fəlsəfəsidir, dərin iqtisadi təfəkkür, dünya iqtisadiyyatını dərindən bilmək, təhlil etmək və qərar qəbul etmək qabiliyyəti və istedadı tələb edir.

**Cədvəl 13.3**

**Birbaşa və portfel investisiyalarının qarşılıqlı müqayisəsi**

| Əlamətləri | Birbaşa investisiya qoyuluşu | Portfel investisiya qoyuluşu |
|---|---|---|
| Müəssisənin kapitalında iştirak payı | 10 faizdən çox | 10 faizdən az |
| İdarəetmədə iştirakı | hə | yox |
| Gəlir əldəetmə mənbəyi | Mənfəətin bölünməsi, payının satılması | Dividendlər, səhmlərin dəyərinin artması |
| Vəsaitin yönəldilməsi istiqamətləri | Modenrləşdirməyə, maddi istehsalın artırılmasına | İnvestorun razılığı olmadan istənilən məqsədə |
| İnvestisiya qoyma müddətləri | Ortamüddətli, uzunmüddətli | İnvestorun məqsədinə müvafiq |
| Likvidlik | Aşağı | Yüksək |
| Risklər | Böyük | Portfelin tərkibindən asılı olaraq |

Beynəlxalq investisiyaların əsas prinsipləri arasında xarici investisiyanın müdafiə olunması prinsipi müstəsna rol oynayır. Burada xarici investisiyaları qəbul edən ölkələrin milli qanunvericilikləri və beynəlxalq təşkilatların xarici investisiyaların müdafiə və təmin olunması sahəsində qəbul edilmiş beynəlxalq sənədlər əsas rol oynayır. Bunlardan birincisi İnvestisiyaların Təminatı üzrə Çoxtərəfli Agentliyin təsis edilməsi haqqında Seul Konvensiyasıdır. 1985-ci ildə BYİB çərçivəsində qəbul olunan bu konvensiya əsasında **İnvestisiyaların Təminatı üzrə Çoxtərəfli Agentlik (Multilateral Investment Guarantee Agency – MIGA)** təsis edilmişdir. Konvensiya 1988-ci ildə 21 dövlət tərəfindən ratifikasiya olunduqdan və nizamnamə kapitalının 1/3 hissəsindən az olmayan miqdarda vəsait ödənildikdən sonra qüvvəyə minmişdir. Çoxtərəfli Agentlik BYİB-in filialıdır. Seul Konvensiyasında dünyanın 100-dən çox dövləti iştirak edir. Azərbaycan Respublikası da Seul Konvensiyasının üzvüdür.

Çoxtərəfli Agentliyin tərkibi ayrı-ayrı üzv dövlətlərdən ibarətdir. Seul Konvensiyasını hansı dövlət qəbul etmişsə, həmin dövlət də Çoxtərəfli Agentliyin üzvü hesab olunur. Buna görə də Çoxtərəfli Agentlik öz beynəlxalq-hüquqi statusuna görə **Hökumətlərarası beynəlxalq təşkilatdır.** Mülki-hüquqi status baxımından o, **hüquqi şəxsdir.**

Beynəlxalq investisiya münasibətlərinin tənzimlənməsində Vaşinqton Konvensiyası da iştirak edir; 1965-ci ildə imzalanan və 1966-cı ildə qüvvəyə minən bu konvensiya dövlətlər və xarici investorlar arasında investisiya mübahisələrinin həlli qaydalarını müəyyən edir. Vaşinqton Konvensiyası əsasında **İnvestisiya Mübahisələrinin Tənzimlənməsi üzrə Beynəlxalq Mərkəz** yaradılmışdır.

Vaşinqton Konvensiyasında 100-dən çox dövlət iştirak edir; Azərbaycan Respublikası da bu konvensiyanın üzvüdür.

Beynəlxalq Mərkəzin əsas funksiyası idxalçı dövlətlər və xarici investorlar arasında yaranmış investisiya mübahisələrini həll etməkdən ibarətdir.

Ümumdünya Ticarət Təşkilatı çərçivəsində **İnvestisiya Tədbirlərinin Ticarət Aspektlərinə dair Saziş (Agreement on Trade-Related Investment Measures – TRIMS)** xüsusi əhəmiyyət kəsb edir. ÜTT çərçivəsində investisiyanın beynəlxalq tənzimlənməsi məhz TRIMS sənədinin vasitəsilə həyata keçirilir.

TRIMS müqaviləsi Mərakeş hüquqi aktlar Paketi çərçivəsində qəbul olunmuşdur ki, həmin paket ÜTT-nin hüquqi əsası sayılır. Buna görə də TRIMS sənədi ÜTT-nin üzvü olan bütün dövlətlər üçün məcburidir; bu sazişin həyata keçirilməsini təmin etmək üçün ÜTT çərçivəsində **Ticarətlə Bağlı İnvestisiya Komitəsi** yaradılmışdır.

TRIMS müqaviləsi investisiya ixrac edən ölkələrin mənafeyinə xidmət edir. Belə ki, iştirakçı dövlətlər xarici investisiyanı milli qanunvericilik çərçivəsində elə tənzimləməlidir ki, ÜTT-nin ticarətə aid şərtlərini pozmasın.

ÜTT çərçivəsində investisiyanın tənzimlənməsinə **GATT sazişində** xüsusi diqqət verilmişdir. O, belə bir prinsipdən çıxış edir ki, **xarici investorlar ən əlverişli şərait rejimi** ilə təmin olunmaldır, bu məsələdə dövlətlər diskriminasiyaya yol verməməlidir.

**GATS sazişində** investisiya fəaliyyətinə aid normalar nəzərdə tutulmuşdur.

# MÖVZU 14. DÜNYA İQTİSADİYYATINDA TRANSMİLLİLƏŞMƏ VƏ İNTEQRASİYA PROSESLƏRİ

## SUALLAR

1. Transmilli Korporasiyaların mahiyyəti, genezisi və təkamülü.
2. Beynəlxalq inhisarların əsas formaları.
3. Transmilli Korporasiyaların təsnifatı və əsas qrupları.
4. Transmilliləşmənin xüsusiyyətləri və Transmilliləşmə İndeksi (Tİ).
5. Transmilli Korporasiyaların müasir vəziyyəti və inkişaf dinamikası.
6. Dünyanın əsas istehsal (sənaye) TMK-ları.
7. Dünyanın əsas qeyri-istehsal (xidmət) TMK-ları.
8. Transmilliləşmə və beynəlxalq inteqrasiya prosesləri.

## Əsas Ədəbiyyat


1. Xasbulatov R.İ. Beynəlxalq iqtisadi münasibətlər. Bakı, 2014, səh. 391-435.
2. Bayramov Əvəz. İnhisarizm (monoqrafiya), Bakı, Elm, 2002.
3. Kərimov C. Gənciyev G. Dünya iqtisadiyyatı. Bakı, 2001, səh. 49-71.
4. Transmilli müəssisə və iqtisadi təhlil. Kembric iqtisadi ədəbiyyat nəşrləri. Tərtib edən Ricard E. Caves (Azərbaycan dilinə tərcümə). Bakı, Nurlan, 2004, 329 səh.
5. Həsənov Heydər. İri sahibkarlıq strukturları. Bakı 2007.
6. Пашин С.Т. Функционирование транснациональных компаний: Орг. - экон. обеспечение. - М.: ЗАО «Экономика», 2002.
7. Дениелс Д.Д., Радеба Л.Х. Международный бизнес. М., Изд. «Дело», 1998.
8. Богомолов О.Т. Анатомия глобальной экономики. Учебное пособие. – М.: ИКЦ «Академкнига», 2004.
9. Кузнецов В.С. Международный валютный фонд и мирохозяйственные связи. Москва, 2001.
10. Transnational Corporations Volume 26, 2019, Number 1 https://unctad.org
11. Transnational Corporations https://www.foundation-forgaia.org
12. World Investment Report 2019, Special Economic Zone. https://unctad.org
13. "Müəssisələr haqqında Azərbaycan Respublikasının qanunu". 1 iyul 1994-cü il. VIII fəsil 42 maddədən ibarətdir.
14. "Sahibkarlıq Fəaliyyəti haqqında Azərbaycan Respublikasının qanunu" 15 dekabr 1992-ci il. IV fəsil 17 maddədən ibarətdir.
15. "Səhmdar Cəmiyyəti haqqında Azərbaycan Respublikasının qanunu". 14 iyul 1994-cü il. V fəsil 24 maddədən ibarətdir.


## 1. TRANSMİLLİ KORPORASİYALARIN MAHİYYƏTİ, GENEZİSİ VƏ TƏKAMÜLÜ

Transmilli Korporasiyaların (TMK) meydana gəlməsi kapitalın beynəlmiləlləşməsinin təzahürüdür. Müxtəlif ölkə şirkətlərinin əlaqələrinin qovuşması, beynəlxalq sənaye, xidmət, bank və digər birliklərin əmələ gəlməsi kapitalın beynəlmililləşməsinin mühüm istiqamətidir. Bu şirkətlər onlara qoyulan kapitalların milli mənsubiyyətinə görə beynəlxalq şirkətlərdir. Bu şirkətlərdə müxtəlif ölkələrin inhisarçı qruplarının mənafeləri təmsil olunur. Hal-hazırda dünyanın ən əsas məhsuldar qüvvələri iri istehsalçı şirkətlərə, bütün planetin fəaliyyət sahəsi olan TMK-lara məxsusdur. Onun ənənəvi subyektləri olan iri dövlətlərlə və firmalarla yanaşı qlobal iqtisadiyyat çərçivəsində TMK-lar, çoxsaylı beynəlxalq təşkilatlar və regionlar aktiv

fəaliyyət göstərir. Bütün bunlar meqaiqtisadiyyat meydanında fəaliyyət göstərən iştirakçılardır.

Qloballaşma dövründə bəşər sivilizasiyasının inteqrasiyası proseslərini iqtisadi, siyasi, mədəni və milli inkişafı Transmilli Korporasiyaların fəaliyyətini nəzərə almadan təsəvvür etmək qeyri-mümkündür.

İqtisadi ədəbiyyatlarda "Transmilli Korporasiya" (TMK) kateqoriyası müəyyən edilərkən TMK-ların formalaşmasının əsas əlaməti kimi məhz beynəlxalq əməliyyatlarda iştirakı götürülür. "**Transmilli Korporasiya** birbaşa xarici investisiyalaşmanı həyata keçirən firmadır". "**TMK** iki və ya daha çox ölkədə istehsal aktivlərinə malik olan və ya onlara nəzarət edən firmadır". "**Transmilli Korporasiya** öz əməliyyatlarının əsas hissəsini ölkənin sərhədlərindən kənarda həyata keçirən firma, korporasiyadır ki, o bir ölkədə, çox vaxt isə bir neçə ölkədə qeydiyyatdan keçir və bu ölkələrdə törəmə (qız) kompaniyaları, filiallar və digər müəssisələr şəbəkəsinə malik olurlar". "**Transmilli Korporasiya** aktiv vəsaiti çox olan milli müəssisələrdir". "**Transmilli Korporasiya** bir dövlətin hüdudlarından kənara çıxan, xarici aktivlərə malik olan və satış fəaliyyəti ilə məşğul olan milli şirkətdir" və s.

**Xarici birbaşa investor** – qeyri-rezident kimi kapitalın 50 faizindən çoxuna sahib və hüquqi şəxs statusu olan müəssisəyə - **Törəmə (qız) kompaniya** deyilir.

**Xarici birbaşa investor** – qeyri-rezident kimi kapitalın 50 faizdən azına sahib olan və hüquqi şəxs statusu olmayan müəssisəyə **- Filial** deyilir.

Tamamilə xarici birbaşa investora mənsub olan müəssisəyə - **Assosiasiv kompaniya** deyilir.

**Çoxmilli şirkətlər** bir neçə ölkənin milli şirkətlərinin istehsal, elmi-texniki və ticarət fəaliyyətinin birləşməsi formasıdır.

Milli inhisarlar TMK-ların yaradılmasının əsasını təşkil edir. Hələ XVIII əsrdə klassik kapitalizmin inkişafı İngiltərədən başlamışdır. Heç də təsadüfi deyil ki, K. Marks kapitalist münasibətlərinin təhlilini İngiltərə iqtisadiyytının timsalında şərh etmişdir. Avropanın digər ölkələrindən fərqli olaraq İngiltərədə ilk liberallaşma prosesi həyata keçirilmişdir. İngiltərədə baş vermiş sənaye inqilabı, texnika və texnologiyanın inkişafı TMK-ların yaranması üçün əsas rol oynamışdır. Digər tərəfdən İngiltərə Avropa ölkələri arasında müstəmləkələrə malik olan inkişaf etmiş bir ölkə idi. Ona görə də İngiltərədə yaradılmış ilk "Ost-İndiya" şirkəti 1602-ci ildə TMK-ların yaranmasının əsasını qoymuş oldu.

Dünyada məhşur olan ABŞ korporasiyası "Prokter and Gembl" (sabun və şam istehsalı) 1837-ci ilin 31 mart tarixində Uilyam Prokter və Ceyms Gemblin tərəfdaşlığı nəticəsində yaranmışdır. Xüsusilə U. Prokterin və C. Gemblin Oliviya və Elizabet Norris bacıları ilə evlənməsi firmanın yaranmasına səbəb olmuşdur. Şirkət sürətlə inkişaf etmiş və 1890-cı ildə korporasiya – səhmdar cəmiyyəti kimi qeydiyyatdan keçmişdir.

Müasir dünyanın ən iri neft korporasiyası hesab olunan "Eksson-Mobil"in tarixi D. Rokfellerin 1882-ci ildə qeydiyyatdan keçirdiyi "Standart Oyl of Nyu-Cersi" şirkətindən başlayır. "Eksson-Mobil" korporasiyası vahid korporasiya kimi 1999-cu ilin 30 noyabr tarixindən fəaliyyətə başlamış və həmin il onun satış dövriyyəsi 164 mlrd dollara çatmışdır. Həmin vaxt birinci yeri 1892-ci ildə yaranan ABŞ-ın "General Elektrik" konserni tuturdu.

1903-cü ildə Henri Ford tərəfindən 12 tərəfdaşla birgə yaradılan müəssisə tədricən dünyada avtomobil istehsalına görə ən böyük şirkətə - "Ford Motor Company" korporasiyasına çevrildi. TMK-lar yarandıqları ilk dövrlərdən ticarətlə məşğul olmağa başlamışlar. Məlumdur ki, ticarətə qoyulan kapital tez bir zamanda mənfəət əldə etməyə imkan verir. Bu şirkətin özünəməxsus gəmiləri, nəqliyyat vasitələri var idi. Onlar müstəmləkə ölkələrindən bu nəqliyyat vasitəsilə ucuz qul, xammal, ədviyyat, ətriyyat və s. mallar gətirirdilər.

TMK-ların yarandıqları gündən başlıca məqsədi dünyanın müxtəlif ölkələrindən ucuz xammal alıb, bu xammaldan müxtəlif hazır məhsullar istehsal edərək onları dünya

bazarlarına çıxarmaqdan ibarət idi. Elmi-texniki tərəqqinin inkişafı ilə əlaqədar TMK-ların fəaliyyətində əsaslı dönüş yaranmışdır. Bu proses XX əsrin ikinci yarısından daha da güclənmişdir. Belə ki, tarixi nöqteyi-nəzərdən bu dövr texnologiyanın istehsal prosesinə tətbiq edilməsi ilə bağlı idi. Texniki tərəqqi əsasən elmi kəşflər sayəsində irəliləyirdi. Bu dövrdə istehsal getdikcə ölkə sərhədlərindən daha çox kənara çıxmağa başlamışdır.

XIX əsrin sonunda yüksək texnologiyaları istehsala tətbiq edən TMK-lar öz mənfəətlərini tədricən artırır və bunun nəticəsində onların əlində artıq kapital cəmləşməyə başlayır. Bu artıq kapitaldan sərfəli istifadə edən şirkətlər müflisləşmiş şirkətlərin əmlakını satın alır, onların idarə edilməsi sistemini ələ keçirirdilər. Bu proses həm şaquli, həm də üfüqi istiqamətdə baş verirdi. Başqa sözlə, TMK-lar həm istehsal proseslərinin müxtəlif mərhələlərində iştirak edir və həm də istehsal etdikləri məhsulları böyük bazara çıxarırdılar.

XIX əsrin II yarısından dünya ölkələri arasında müəssisələrin sayına görə İngiltərə birinci yeri tuturdu. TMK-lar yarandığı gündən təkamül prosesi ilə, tərəddüdlərlə inkişaf etmişdir. Belə ki, XX əsrin ilk illəri TMK-lar üçün uğurlu olmuşdur. Müxtəlif ölkələrdə baş verən iqtisadi böhranlar, inqilablar və nəhayət birinci dünya müharibəsi TMK-lar üçün təhlükə yaradırdı. Belə ki, istehsal müəssisələrinin dağılması və dövlətlər arasında olan kəskin münasibətlər onların filiallarının bağlanmasına səbəb olmuş və nəticədə çoxları müflisləşib sıradan çıxırdılar.

Lakin əsas məqsədi mənfəət əldə etmək olan sahibkarlıq dünyası TMK-ların məhv olmasına imkan vermədi. Daha çevik, daha riskli sahibkarlar yeni dövrün tələblərinə cavab verən TMK-lar yaratdılar. Yeni yaranan və yaxud çevikliklə istiqamətini dəyişən TMK-lar təsərrüfatın müxtəlif sahələrinə nüfuz edib, elmtutumlu məhsul istehsalına başladılar. Bu, elmi-texniki tərəqqinin daha da sürətlənməsinə, elm və texnikada yeni-yeni irəliləyişlərə gətirib çıxartdı.

İkinci Dünya müharibəsi sahibkarlıq dünyasında yenidən çətin vəziyyət yaratdı. Müharibə bütün Avropa ölkələrilə bərabər dünya ölkələrinə də öz təsirini göstərdi. Lakin müharibədən sonra Avropa İttifaqı üzvü olan ölkələrdə əhalinin həyat səviyyəsi xeyli yüksəlmişdir. XX əsrin sonlarında Cənubi-Şərqi Asiya ölkələrinin iqtisadiyyatında xeyli yüksəliş və sürətli iqtisadi artıma nail olunmuşdur. Malayziya, Filippin, Koreya Respublikası və s. kimi ölkələr orta əməkhaqqının xeyli yüksəldilməsində və yoxsulluq səviyyəsinin azaldılmasında uğurlar qazanmışdır. Belə bir şərait TMK-ların inkişafına öz təsirini göstərdi. Tarixdən də məlumdur ki, müharibədə bir sıra ölkələr həddindən artıq varlanır, bəziləri də müflisləşirlər.

Müharibədən, ziyandan və dağıntılardan kənarda qalan ABŞ sahibkarları, TMK-ları ağıla sığmaz dərəcədə inkişaf etdirərək yüksək mənfəət əldə etdilər. Beləliklə, maraqlı dövlətlərin başı müharibəyə qarışdığı halda, böyük miqdarda kapital ABŞ TMK-larının əlində cəmləşdi.

II Dünya müharibəsindən sonrakı dövrdə ABŞ TMK-larının hegemonluğu dövlət tərəfindən güclü müdafiə olundu və onlar öz siyasətlərini dünya ölkələrinə yeritməyə başladılar. TMK-ların əldə etdikləri kapital nəticəsində ABŞ iqtisadiyyatı daha da inkişaf etməyə başladı və eyni zamanda bu kapitalı dünyanın müxtəlif ölkələrində maraq dairəsində olan sahələrə qoyaraq onları inkişaf etdirdilər. Müharibədən sonrakı illərdə bütün çətinliklərə baxmayaraq Yaponiya, Kanada və Qərbi Avropanın bir neçə İnkişaf Etmiş Ölkələrində TMK-lar öz inkişaf yoluna qədəm qoymuşdur.

Məlumdur ki, II Dünya müharibəsindən sonra dünya sosialist və kapitalist sistemlərinə bölündü. Bu isə TMK-ların inkişafında müəyyən çətinliklər yaratdı, lakin onların inkişafına tam mane ola bilmədi. Digər tərəfdən, Dünyanın İnkişaf Etmiş Ölkələrində milli azadlıq hərəkatlarının başlanması, müstəmləkə sisteminin dağılması TMK-ların fəaliyyətində dönüş yaratdı TMK-lar kapitala ehtiyacı olan bu ölkələrlə bərabər tərəflər kimi müqavilələr bağlayaraq, onların ucuz xammal və işçi qüvvəsindən istifadə etməyə başladılar.

Onlar bu ölkələrdə öz müəssisələrini açır, yeni texnologiyalarını tətbiq edir, yerli kadrların ixtisaslaşmasına vəsait ayırır və bununla da fəaliyyət meydanını genişləndirirlər.

Beynəlxalq Əmək Bölgüsü dərinləşdikcə iqtisadiyyatın yeni-yeni sahələri yaranır. Buna uyğun olaraq TMK-ların fəaliyyət dairəsi genişlənir. TMK-lar getdikcə əməktutumlu sahələrə daha çox kapital qoyurlar. Bu da onların elmi-tədqiqat işlərinə daha çox kapital sərf etmələrinə gətirib çıxarır. Xüsusilə XX əsrin 50-ci illərindən sonra elmi-texniki inqilabın baş verməsi nəticəsində TMK-lar müxtəlif ölkələrdə müxtəlif fundamental elm sahələrinə dair elmi-tədqiqat institutlarının, laboratiyaların, təcrübə mərkəzlərinin yaradılmasına daha çox kapital ayırmağa başladılar.

XX əsrin 60-cı illərində TMK-lar daha nəzərəçarpacaq dərəcədə fəallaşmışdılar. Onlar ETİ-nin nailiyyətlərindən geniş istifadə edirdilər. TMK-lar bu dövrdə konsernlər və konqlomeratların təşkilati-iqtisadi formasında çıxış edirdilər.

80-ci illərin əvvəllərində TMK-ların qlobal formaları yaranmağa başladı. Bu cür qlobal TMK-lar dünya bazarlarının bölüşdürülməsi, dünya miqyasında rəqabətin həyata keçirilməsi, yeni informasiya texnologiyaları əsasında öz filiallarının fəaliyyətinin əlaqələndirilməsi, bu filialların, zavodların və birgə müəssisələrin vahid beynəlxalq idarəetmə şəbəkəsinə birləşməsi və s. xüsusiyyətlərinə görə seçilirdi. 90-cı illərin sonlarında ABŞ-ın bütün ixracının 30%-dən çoxu və idxalının 20%-i ABŞ-ın ana şirkətləri və onların xarici filiallarının payına düşürdü.

Məlumdur ki, istehsalın və kapitalın təmərküzləşməsi və mərkəzləşməsi nəticə etibarilə inhisarların yaranmasına səbəb olur. Bu proses beynəlxalq miqyasda da baş vermiş və beynəlxalq inhisar birlikləri yaranmışdır. Belə inhisarlaşma, ilk növbədə, böyük həcmli şirkətlər tərəfindən xaricdə filialların, istehsal müəssisələrinin təsis olunması ilə baş vermişdir ki, bunun da nəticəsində milli şirkətlər beynəlxalq şirkətlər formasını almışdır. TMK-ların yaranması və inkişafında xarici iqtisadi əlaqələrin ilk forması kimi beynəlxalq ticarətin xüsusi rolu olmuşdur. Ticarət sferasında yaranmış ilk şirkətlər öz dövlət sərhədlərindən kənara çıxmış ölkələr arasında ticarət əlaqələrini genişləndirmiş və bununla da beynəlxalq iqtisadi münasibətlərin bünövrəsini qoymuşdur.

TMK-ların yaranmasının əsas məqsədi ilk növbədə yüksək mənfəət əldə etmək marağıdır. Bu maraq daha çox gəlir əldə etməyə imkan verən xarici ölkələrdə yerləşdirilməsinə səbəb olmuşdur.

Kəskin rəqabət şəraitində yüksək inhisar mənfəətini əldə etmək marağı beynəlxalq miqyasda istehsalın və kapitalın təmərküzləşməsinə və mərkəzləşməsinə, onun intensiv miqrasiyasına, ticarətin genişlənməsinə və bu əməliyyatların beynəlxalq miqyasda həyata keçirilməsinə xidmət etməklə, beynəlxalq inhisar birlikləri kimi TMK-ların yaranmasına səbəb olmuşdur.

TMK-ların meydana gəlməsində tarixi şəraitin və siyasi amillərin rolu böyükdür. Bunlarla yanaşı, dünya dövlətlərinin sosial-iqtisadi inkişafındakı qeyri-bərabərlik iqtisadi cəhətdən zəif inkişaf etmiş ölkələrin xarici kapitala və böyük dövlətlərin siyasi dəstəyinə ehtiyaclarının olması kimi amillər də TMK-ların yaranmasına öz təsirini göstərmişdir.

TMK-ların yaranması dövlətin ərazisində fəaliyyət göstərən firma və şirkətlərin fəaliyyəti ilə bağlıdır. TMK-lar çərçivəsində dövr edən firmadaxili və firmalararası əmtəə, xidmət, kapital və texnologiya axınları ayrı-ayrı ölkələrin ixracına müxtəlif cür təsir göstərərək və daha çox dərəcədə bu ölkələrin beynəlxalq ixtisaslaşmasını müəyyən edərək sahələrarası və ölkələrarası axınların ənənəvi təşkilinə sanki bağlanırlar. Belə ki, bu firmaların əsas fəaliyyəti iqtisadi cəhətdən üstün mövqeyə malik olmaqla yüksək mənfəət əldə edilməsinə yönəldilmiş və bu məqsədlə onların fəaliyyəti ölkə sərhədlərini aşaraq yeni-yeni bazarların və istehlakçı ordusunun mənimsənilməsinə istiqamətlənir. Bu onunla bağlıdır ki, milli firmanın fəaliyyət göstərdiyi ölkə xaricində daha imkanlı bazarlar və onların əmtəələrinə daha yüksək tələbat mövcuddur. Bununla yanaşı milli sərhədlərdən kənarda

yerləşən şirkətlər üçün ucuz torpaq, xammal, işçi qüvvəsi əldə etmək imkanı vardır və onlar bu imkandan istifadə etmək üçün xaricdə öz ticarət nümayəndəliklərini, filiallarını, törəmə şirkətlərini, istehsal müəssisələrini, fabrik və zavodlarını açırlar. Bununla da milli şirkətlər də geniş şəbəkələri özünə qoşaraq milli çərçivəni aşır, istehsal potensiallarını gücləndirir, öz təsir dairələrini genişləndirməklə müasir TMK-lar formasını alır. Bu cür TMK-ların ilk və tarixi formaları kartellər, sindikatlar, trestlər və konsernlər olmuşdur.

Beynəlxalq aləmdə fəaliyyət göstərən Transmilli Korporasiyaların yaranması, tarixi inkişaf yolu və gələcək perspektivləri haqqında fikirlər müxtəlifdir. Bununla belə iqtisadçı alimlərin əksəriyyəti TMK-ların yaranma səbəblərini eyni cür izah edirlər və bunun əsas və başlıca səbəbini milli dövlət sərhədlərini aşaraq, istehsal güclərinin artırılması əsasında istehsalın və ticarətin beynəlmilləşməsində görürlər.

TMK-lann əmələ gəlməsi və inkişafının aşağıdakı əsas səbəblərini göstərmək olar:

❖ fəaliyyət göstərdikləri xarici ölkələrdə istehsal amillərinin ucuz olması (ucuz iş qüvvəsi, ucuz xammal, torpağın qiymətinin aşağı olması);

❖ əlverişli xarici bazarların olması (əlverişli əmtəə, kapital və maliyyə bazarının olması);

❖ ölkələrin iqtisadi cəhətdən qeyri-bərabər inkişaf etməsi (elmi-texniki inkişaf səviyyələrində, maliyyə imkanlarında, ixtisaslı iş qüvvəsi ilə təchiz olunmalarında qeyri-bərabərlik);

❖ infrastruktur sahələrinin eyni səviyyədə inkişaf etməməsi;

❖ ölkələr arasındakı münasibətləri tənzimləyən təşkilatların, maliyyə qurumlarının, normativ aktların və qanunların olması;

❖ TMK-ların yaranması və fəaliyyət göstərmələrinin dövlətlər tərəfindən himayə edilməsi (böyük dövlətlərin TMK-ların formalaşması və fəaliyyət göstərmələri üçün əlverişli şəraitin yaradılması).

TMK-ların müasir dövrdə sürətlə inkişaf etmələrinin səbəbləri isə aşağıdakılardır:

- ❖ elmi-texniki və iqtisadi inhisarçılığın təmin edilməsi;
- ❖ rəqabət qabiliyyətinin və sabitliyin yüksəldilməsi;
- ❖ xərclərin və vergilərin azaldılması;
- ❖ ucuz resursların və yeni bazarların əldə edilməsi;
- ❖ istehsal həcmlərinin artması;
- ❖ istehsalın diversifikasiyası;
- ❖ kapitalın dövriyyəsinin daha da sürətlənməsi və s.

TMK-ların meydana gəlməsi inhisarlaşmanın beynəlxalq xarakter alması ilə bağlıdır və onlar müxtəlif adlar altında fəaliyyət göstərirlər. Bir çox iqtisadçıların əsərlərində, "Transmilli Korporasiya" termini inhisar anlayışı ilə sinonim kimi nəzərdən keçirilir. XX əsrin əvvəllərində TMK-lar fəaliyyətdə olan kapitalların həcmləri və əməliyyatların müxtəlifliyi ilə fərqlənirdi. Əgər XX əsrin əvvəlində milyardçı şirkətlər (hətta dövriyyəsinə görə) çox az idisə, əsrin sonunda 2-3 mlrd (ABŞ dolları) dövriyyəsi, 4-5 mlrd dollarlıq aktivləri olan şirkətlər – TMK-lar xeyli artmışdır.

BMT uzun müddət TMK-lara illik dövriyyəsi 100 mln dollardan artıq olan və ən azı 6 ölkədə filialları olan firmaları aid edirdi. Son illər isə bu sahədə dəyişikliklər edilmişdir. Bu dəyişikliklər ondan ibarətdir ki, rezident ölkənin hüdudlarından kənarda reallaşdırılan satış payı kimi göstərici firmanın beynəlxalq struktura malik olmasını sübut edir. Mövcud iqtisadi ədəbiyyatlarda "Qlobal şirkətlər", "Çoxmilli şirkətlər", "Beynəlxalq şirkətlər" kimi adlara rast gəlinir. Adlar müxtəlif olsalar da, onların hamısı mahiyyət etibarı ilə TMK-dır.

TMK-lar kapitala görə həm milli, həm də onlara məxsus olan müəssisələrin yerləşməsinə görə beynəlmiləl olurlar. Bundan əlavə şirkətlərə qoyulan kapitala görə beynəlmiləl olan millətlərarası korporasiyalar mövcuddur. Bu cür korporativ strukturlar o qədər də çox deyildir və ingilis-holland "Royal Datç Şell" və "Yunilever" kimi

korporasiyaların qədim tarixə malik olmalarına baxmayaraq, son onilliklər ərzində müxtəlif ölkələrin firmalarının birləşməsi yolu ilə millətlərarası şirkətlərin yaradılması cəhdləri əksər hallarda uğursuzluğa düçar olmuşdur. Belə şirkətlərin kifayət qədər tez-tez dağılmalarına baxmayaraq, müxtəlif ölkələrin şirkətlərinin yaxınlaşması və birləşməsi prosesi davam edir. Buna misal olaraq avtomobil sənayesində məşhur alman şirkəti "Daymler-Bens" ilə ABŞ-ın "Kraysler" şirkətinin birləşməsini göstərmək olar.

## 2. BEYNƏLXALQ İNHİSARLARIN ƏSAS FORMALARI

TMK-lar bəzi xüsusiyyətlərinə görə digər birliklərdən fərqlənirlər. Belə ki, TMK-lara daxil olan sahibkarların riski, sahibkarların şəxsi əmlakına deyil, korporasiyanın kapitalına əsaslanır; sahibkarların şəxsi vəsaitləri korporasiyaların vasitələrindən ayrıdır; korporasiyaların mülkiyyəti səhmlər və paylar şəklində onun sahibləri arasında hissələrə bölünür; korporasiyaların kapitalı sahibkarların əmlakından ayrıdır və qiymətli kağızların spesifik formasına malikdir, korporasiyaların sahibləri korporasiyanın fəaliyyətindən əldə ediləcək gəlirə dair öhdəçiliklərə görə məsuliyyət daşıyırlar; öz öhdəçiliklərindən hüquqi olaraq ayrı mövcud olurlar və məhdud məsuliyyətə əsaslanırlar.

TMK-ların inkişafı nəticəsində qlobal iqtisadiyyat vahid, təkrar istehsal edən sistemə çevrilir. İqtisadiyyatda ali hakimiyyət milli səviyyədən qlobal səviyyəyə keçir və yalnız dünya bazarı sahələrarası və regionlararası təkrar istehsal proporsiyalarının tənzimlənməsinin kifayət qədər səmərəli informasiya mexanizminə malikdir.

TMK statusuna malik olmaq üçün başqa ölkələrdə satılan əmtəələrin yüksək faiz göstəricisinə malik olmaq tələb olunur. Məsələn, İsveçrənin "Nestle" firması məhsulunun 98%-ni xarici ölkələrə satır və öz sahəsində dünyada lider hesab olunur.

Hər bir iri şirkət özünəməxsus cəhətlərinə görə digər şirkətlərdən fərqlənir. TMK-ların birinci yüzlüyünü təşkil edən ən iri şirkətlərin xarakterik cəhətləri aşağıdakılardır:

1. Mənsubiyyət baxımından ABŞ şirkətləri ən böyük qrupu (100-dən 32-si) təşkil edir, onların payına xarici investisiya qoyuluşlarının əsas hissəsi düşür;
2. Ən sürətlə inkişaf edən qrup – Yaponiya TMK-larıdır (1990-cı ildə birinci yüzlüyə 11 firma, 2010-cu ildə isə artıq 19 firma daxil olub, Yaponiyanın elektron məhsullar şirkətləri dünyanın aparıcı TMK-ları qrupunun ən mühüm yeni iştirakçıları sırasına daxildir;
3. Avropa TMK-ları kapitaltutumlu və elm tutumlu sahələrdə, xüsusuilə kimya və əczaçılıq sənayesində üstün mövqelər tuturlar;
4. Sahə baxımından ən yüksək Transmilli İndekslə kimya və əczaçılıq TMK-ları fərqlənir, onların ardınca yeyinti və elektron sənayesi gəlir, siyahını isə xalis ticarət şirkətləri tamamlayır və s.

Buna baxmayaraq, iri TMK-lar arasında hazırda Asiyanın və Latın Amerikasının İnkişaf Etməkdə Olan Ölkələrinin TMK-ları da vardır. Bu cür TMK-lar siyahısına “Dey” (Koreya Respublikası), “Hatçison Uampu” (Honkonq) və “Semeks” (Meksika) başçılıq edir.

Dünya bazarının subyektləri olan inhisarlar qarşılıqlı rəqabətin zəiflədilməsi, satışın və istehsalın əsas funkisyalarının birləşdirilməsi, təsir dairələrinin bölüşdürülməsi yolu ilə öz aralarında güzəştə gedirlər və razılığa gəlirlər. Məsələn, kartel razılaşması çərçivəsində təsərrüfat fəaliyyəti cəhətdən müstəqil olan iştirakçılar ən çox mövcud olan sahələr üzrə satış və alış funkisyalarını, onların məqsəd və şərtlərini (müddət, qiymət, bazarlar və əmtəələrin keyfiyyəti) razılaşdıraraq birləşirlər. Beynəlxalq inhisarlar TMK-ların ən yüksək tipləridir.

Əsas beynəlxalq inhisarlara kartellər, sindikatlar, trestlər və konsernlər daxil edilir. Kartelin sadə bazar strukturu 14.1-ci sxemdə verilir.

14.1-ci sxemdən görünür ki, **Kartel** eyni istehsal sahəsinin müəssisələrinin birliyidir. Burada birləşən müəssisələr istehsal və kommersiya sahəsində öz müstəqilliklərini saxlayırlar,

ancaq qiymət, satış bazarları, texnologiyanın patentlərinin mübadiləsi və s. haqqında razılaşdırıcı sazişlər bağlayırlar

**Sxem 14.1**

**Kartel**




Kartel istehsal və satış müstəqilliyini saxlayaraq istehsal kvotası, qiymətlər, bazarların bölüşdürülməsi, patentlərin mübadiləsi, satış bazarları, satış şərtləri və sairədə hər bir iştirakçının payı haqqında razılığa gələn sahibkarlar birliyidir. Kartel sazişi rəqabət mübarizəsini zəiflətmək və məhsulun istehsalında və satış bazarlarında inhisar mövqelərinə yiyələnmək üçün razılaşmış səylər əsasında daha yüksək mənfəət əldə etmək məqsədilə eyni adlı məhsulların istehsalçıları arasında bağlanan sazişdir. Kartel qiyməti rəqibləri üstələmək üçün və inhisar mənfəəti əldə etmək məqsədilə kartel iştirakçıları tərəfindən razılaşdırılmış inhisar qiymətləridir (məsələn, OPEC).

İxrac və idxal kartelləri xarici bazarlarda əmtəələrin satış və alışının təşkil edilməsi məqsədilə yaradılır. Müxtəlif ölkələrdən olan şirkətlər arasında razılaşma üzrə yaradılan beynəlxalq kartellər xarici ticarət əməliyyatları üzrə böyükmiqyaslı əməkdaşlıq haqqında razılığa gəlirlər. Kartel birləşmələri iştirakçıları orta və xırda firmalarla yanaşı xarici bazarlara nəzarəti gücləndirmək məqsədi ilə də yaradıla bilər.

Dövlət "sağlam" rəqabətin inkişafına əngəl törədən inhisar birliklərinin fəaliyyət sferasını və miqyaslarını məhdudlaşdırmaq imkanına malikdir. Bəzən İnkişaf Etmiş Ölkələrdə dövlət qanunvericilik qaydası ilə ya kartellərin yaradılmasını ümumiyyətlə qadağan edir, ya da onların fəaliyyətini ciddi nəzarət altına alır. Lakin, bir çox hallarda ixracla məşğul olan kartellər müəyyən mənada, bu məhdudiyyətlərdən azaddır və hətta əlavə güzəştlər də ala bilərlər.

Kartellərin dövlət tərəfindən tənzimlənməsi ABŞ, Almaniya, İngiltərə və Yaponiya qanunvericiliyində nəzərdə tutulur. Bu ölkələrdə kartellərin yaranmasına, onların fəaliyyət şərtlərinin dəyişdirilməsinə də yol verilir. Yeni yaradılan kartellər qeydiyyatdan keçməli və onların fəaliyyətində aşkarlıq olmalıdır.

Başqa bazarlarla müqayisədə Avropa İttifaqı ölkələrinin qanunvericiliyinə görə onların bazarları açıqdır və buna görə də Avropa İttifaqı bazarı çərçivəsində kartel razılaşdırmaları qadağan olunmuşdur.

Beynəlxalq inhisar birliyi formalarından biri də sindikatdır. Sindikatın sadə bazar strukturu 14.2-ci sxemdə verilir.

**Sxem 14.2**

**Sindikat**




14.2-ci sxemdən görünür ki, bu inhisarda firmalar (kompaniyalar) istehsalda müstəqildirsə, satışda sərbəst deyillər.

**Sindikat** anlayışı öz mənşəyinə görə yunan sözü "sundikos" olub - "birgə fəaliyyət göstərən" deməkdir. Sindikat yekcins əmtəələr istehsal edən müəssisələrin elə birliyidir ki, istehsalçılar öz mülkiyyətində qalır, istehsal olunan məhsul sindikatın mülkiyyəti olur və yaradılmış xüsusi idarə heyəti tərəfindən reallaşdırılır. Sindikata daxil olan müəssisələr istehsal və hüquqi müstəqilliyini saxlayır, satış müstəqilliyini isə itirirlər. Sindikat səhmdar cəmiyyətin daha möhkəm hüquqi formasıdır. O, xarici ticarət fəaliyyəti ilə bağlı bütün səylərini birləşdirir. Sindikat öz funksiyalarını müştərilərin tapılması, qiymətin müəyyən edilməsi, kreditləşməsi, ödənişlərin alınması və s. formasında həyata keçirir. Sindikat iştirakçıları onun idarə edilməsini öz üzərinə götürərək istehsal, planlaşdırma, kvotalaşdırma ilə məşğul olurlar. Bir qayda olaraq sindikatın iştirakçıları daha çox paya sahib olmaq uğrunda öz aralarında rəqabət aparırlar ki, bu da bəzən sindikatın parçalanmasına, ya da trestə çevrilməsinə səbəb olur.

**Trest** – inhisar birliyi kimi digərlərindən onunla fərqlənir ki, bütün şirkətlər vahid idarəetmə orqanları tərəfindən idarə edilir. Trestin sadə bazar strukturu 14.3-cü sxemdə verilir.

**Sxem 14.3**

**Trest**




14.3-cü sxemdən görünür ki, bu inhisar formasında trestə daxil olan bütün firmalar (kompaniyalar) vahid orqan tərəfindən idarə edilir. "**Trest**" anlayışı öz mənşəyinə görə ingilis sözü "trust" olub "etibar' "inam" deməkdir. Trest inhisarın elə formasıdır ki, burada

istehsal vasitələri üzərində mövcud sahibkarlar qrupunun birgə mülkiyyəti yaranır. Trestə daxil olan müəssisələr özlərinin istehsal-kommersiya və hüquqi itirirlər. Trest sahibkarlar birliyi kimi payçıların birliyinə çevrilir və vahid idarəetməyə tabe olur. Trestə daxil olan müəssisələr həm istehsalı, həm satışı və həm də maliyyə fəaliyyətini birləşdirir. Trest mövcud sahədə hökmranlıq edən vahid nəhəng səhmdar cəmiyyəti hesab olunur. Beləliklə, trest istehsal gücünün artırılması, rəqabətə davamlılığının təmin edilməsi və bazarın dağıdıcı təsirinin aradan qaldırılması məqsədilə yaradılan və ayrı-ayrı üzvlərin əmək birliyinə, kapital, kredit, istehsal və satışda birgə səylərə əsaslanan inhisar birliyidir.

İnhisarın mühüm bir forması konserndir. Konsernin sadə təşkilati strukturu 14.4-cü sxemdə verilir.

**Sxem 14.4**

**Konsern**




14.4-cü sxemdən görünür ki, konserndə baş kompaniyanın tərkibində filiallar, törəmə və assosiasiv şirkətlər olur. **Konsern** formal olaraq müstəqil, lakin üzərində maliyyə nəzarəti qoyulması yolu ilə bir sıra müəssisələri birləşdirən inhisar birliyidir. Konsern formal olaraq müstəqilliyini saxlayan, lakin maliyyə cəhətdən ən iri sahibkarlar qrupu birliyinin rəhbərliyinə tabe olan bir çox sənaye, maliyyə, ticarət, bank, nəqliyyat, rabitə, sığorta və s. şirkətləri özündə birləşdirən birlik, yaxud inhisardır. Konsern çoxsahəli səhmdar cəmiyyəti, elmi-texniki tərəqqini və istehsalı inkişaf etdirmək, investisiya və maliyyə fəaliyyətini birgə həyata keçirmək məqsədilə sənaye, ticarət, nəqliyyat, xidmət dairəsi, maliyyə müəssisələrinin könüllü birləşməsi formasıdır. Deməli,bir sahənin korporasiyasının kapitalı bəzən onun əsas fəaliyyəti ilə birbaşa əlaqəsi olmayan sahəyə, yaxud sahələrə daxil olur və əvvəlcə qarışıq, yaxud texnoloji cəhətdən ona yaxın sahələri, sonra isə digər sahələri əhatə etməyə başlayır. Beləliklə, çoxsahəli nəhəng korporasiyalar yaranır ki, bunlara da konsern deyilir.

Konsern və trest birlikləri öz fəaliyyətinə kartellər kimi sahədaxili formada başlayırlar. Ancaq, tezliklə onlar müəssisənin texniki imkanlarını və onları maliyyələşdirən bankları bir orbitdə cəmləşdirərək şaquli inteqrasiyaya keçir. Trestlərin inhisarçılığı milli dövlət çərçivəsi ilə məhdudlaşmır və onlar beynəlxalq təşkilatlanma formasını alır. Tarixən sindikatlar Fransada və Rusiyada, kartellər Almaniyada, trestlər ABŞ-da, konsernlər Almaniyada və ABŞ-da daha geniş yayılmışdır.

Bir çox hallarda müxtəlif şirkətlər konsorsium halında müvəqqəti birləşirlər. "Konsorsium" termini öz mənşəyinə görə latın sözü "consortium" olub "birgə iştiraketmə", "əlbirolma" deməkdir. Konsorsium müəyyən maliyyə tədbirlərinin həyata keçirilməsi üçün bir neçə iri bank, şirkət və s. firmaların müvəqqəti birləşməsidir. Konsorsium iri sənaye tikintisinin həyata keçirilməsi, iri miqyasda maliyyə və kommersiya əməliyyatlarının

aparılması və s. məqsədlər üçün bir çox bank və sənaye müəssisələri arasında bağlanan müvəqqəti sazişdir. Qarşıya qoyulan vəzifələr yerinə yetirildikdən sonra konsorsium öz fəaliyyətini dayandırır. Konsorsium konkret məqsədləri – böyük həcmli investisiya proqram və layihələrinin (elmi-texniki, tikinti, ətraf mühitin müdafiəsi) həyata keçirilməsi üçün şirkətlərin müəyyən müddətdə könüllü birləşməsidir. Şirkətlərin konsorsium daxilində birləşməsinin əsas səbəbi yalnız vəsaitlərin birləşdirilməsi deyil, həm də tərəfdaşlarla maliyyə risklərinin bəzən də siyasi risklərin bölüşdürülməsidir. Konsorsiumların bir qayda olaraq məqsədləri bahalı sifarişləri və sənaye obyektlərinin tikintisini həyata keçirmək üçün keçirilən hərraclarda iştirak etmək və bu sahədə imkanlarını səfərbər etməkdir. Birləşdirilmiş iqtisadi güclər bir qayda olaraq tenderlərdə qalib gəlir.

XX əsrin 60-cı illərində Amerikada geniş yayılmış inhisar formalarından biri konqlomeratlardır. "Konqlomerat" termini öz etimologiyasına görə latın sözü "conqzomeratus" olub "yığılmış", "toplanmış" deməkdir. Konqlomerat texnoloji cəhətdən bir-biri ilə əlaqəsi olmayan müxtəlif sahələrin müəssisələrinin xüsusi konsern tipidir. Konqlomeratlar bir-biri ilə funksional əlaqəsi olmayan müəssisələrin iri şirkətlər tərəfindən alınması yolu ilə yaranmışdır.

Beynəlxalq inhisar dünyada çox böyük illik satışı, aktivləri, dünya bazarında böyük payı, törəmə müəssisələri və işçiləri olan Transmilli Kompaniyalardır. Aktivləri illik satışı və işçilərin sayına görə 10 əsas beynəlxalq sənaye inhisarları 14.1-ci cədvəldə verilir.

14.1-ci cədvəldən görünür ki, dünyanın ən böyük beynəlxalq sənaye inhisarları neft sənayesi TMK-larıdır, elektronika kompaniyaları da sürətlə inkişaf edir.

**Cədvəl 14.1**

**Dünyanın 10 nənəng beynəlxalq inhisarı[1] ( 2018)**

| № | TMK (inhisar) | Ölkə | Sənaye sahəsi | Aktivləri, mlrd dolar | Satışı, mlrd dolar | İşçilərin sayı, min nəfər |
|---|---|---|---|---|---|---|
| 1. | General Electric | ABŞ | Elektrotexnika | 797 | 182 | 323 |
| 2. | Royal Dutch Shell | Niderland - B.Britaniya | Neft | 282 | 458 | 102 |
| 3. | Vodafone | B. Britaniya | Telekommu-nikasiya | 222 | 60 | 79 |
| 4. | BP | B. Britaniya | Neft | 228 | 365 | 92 |
| 5. | Toyota Motor | Yaponiya | Avtomobil | 320 | 226 | 320 |
| 6. | Exxon Mobil | ABŞ | Neft | 228 | 459 | 80 |
| 7. | Total | Fransa | Neft | 164 | 250 | 97 |
| 8. | E. ON AG | Almaniya | Elektroenergetika | 218 | 120 | 96 |
| 9. | Electricite De France | Fransa | Elektroenergetika | 278 | 89 | 155 |
| 10. | Arcelor Mittal | Lüksemburq | Metallurgiya | 133 | 125 | 316 |

Beynəlxalq inhisarların bəzi inhisarçı əlamətləri aşağıda verilir:

❖ Uzunmüddətli istifadə edilən əmtəə istehsalının 50%-dən çoxu dünyanın 5 nəhəng TMK-sının payına düşür (təyyarə, gəmi, elektron avadanlıq, avtomobil və s.);

[1] World Investment Report 2018. http://www.unctad.org

❖ Dünya beynəlxalq telekommunikasiya şəbəkəsi 3-4 kompaniyanın əlindədir;

❖ Mülki təyyarə istehsalı və satışında hökmranlıq “Airbus Industry” və Amerikanın “Boing” kompaniyasına məxsusdur;

❖ ABŞ-ın “General Motors” kompaniyası 2600 addan çox məhsul istehsal edir. Bunun illik satış həcmi birlikdə İsveçrə, İsveç və Avstraliyanın ÜDM-indən çoxdur;

❖ TMK-ların ehtiyat valyutaları birlikdə götürüldükdə bütün Mərkəzi Bankların valyuta ehtiyatlarından bir neçə dəfə çoxdur;

❖ Dünyanın 100 nəhəng beynəlxalq kompaniyasının əmlak dəyərinin 45 faizindən çoxu digər dövlətlərin ərazisində yerləşir;

❖ Alman konserni “Simens” (1847-ci ildə yaradılıb, 366 min işçisi vardır) təkcə 2010-cu ildə elmi-tədqiqat işlərinə (ETTKİ – NİOKR) 3,9 mlrd avro vəsait xərcləmişdir və s.

## 3. TRANSMİLLİ KORPORASİYALARIN TƏSNİFATI VƏ ƏSAS QRUPLARI

BMT-nin Transmilli Korporasiyalar haqqında məruzələrində TMK-lar “dünya iqtisadiyyatının hərəkətverici qüvvəsi” adlandırılmışdır. TMK fenomeni dünya təsərrüfatı ilə “hörülmüşdür”. Bu məhfumun biri olmadan o birini təsəvvür etmək mümkün deyil. Dünya təsərrüfatının ilkin subyekti kimi TMK-lar yüksək səviyyəli üsul və metodları, həmçinin elmi-texnoloji xidmət sferalarına görə bütün strukturlardan fərqli yerdə dayanırlar. TMK XIX və XX əsrlərdə iqtisadi inhisarların yarandığı bir dövrdə meydana gəlməyə başlamışdır. TMK-lar yarandığı dövrlərdən indiyə qədər çox üstünlüklər əldə etmiş və artıq dünya bazarında əsas aparıcı yerdə dayanırlar.

Dünya iqtisadiyyatının inkişafında, istehsalın beynəlmiləlləşməsində, kapitalın səmərəli dövr etməsində, beynəlxalq miqyasda elmi və texniki nailiyyətlərin istehsala kompleks tətbiq edilməsində, iş yerlərinin yaradılmasında, iqtisadi inteqrasiya proseslərinin güclənməsində və sairə bu cür texniki, texnoloji, təşkilati, iqtisadi və sosial məsələlərin həll edilməsində TMK-ların rolu böyükdür.

Həcmdən qazanmaq, məhsulun keyfiyyətini yüksəltmək, çevik idarəetmə sistemi yaratmaq, elmin, texnikanın, texnologiyanın inkişafını sürətləndirmək, istehsalın elm tutumluluğunu durmadan yüksəltmək TMK-ların başlıca iş üsullarıdır.

TMk-ların səmərəli fəaliyyətinin əsas səbəblərindən biri onların dövlətlə sıx əməkdaşlığıdır. Bu əməkdaşlığın əsasında qarşılıqlı maraqların reallaşdırılması, dövlətin güclü maliyyə, diplomatik, siyasi və hərbi qüvvəsi durur. Öz növbəsində TMK-lar öz işlərinə yaradıcı, elm tutumlu münasibət bəsləməklə dövlətin möhkəmlənməsinə kömək göstərirlər. TMK-lar dövlət aparatı üçün kadrların hazırlanmasında fəal iştirak edirlər və çox zaman bu yolla öz dövlətlərinin beynəlxalq fəaliyyətlərinə təkan verən münasib sənədələrin qəbul edilməsinə nail olurlar. Bununla da öz dövlətlərinin daxilində korrupsiyanın, yersiz yoxlamaların və qorxutmaların qabaqcadan qarşısını almış olurlar. Nəticədə TMK-lar olan ölkələrin hamısında həm dövlət, həm sahibkarlar və həm də əhali kifayət qədər yüksək həyat səviyyəsinə nail olurlar.

TMK-nın ilkin vəsaitinin mayasını sərbəst kapital təşkil edir. Öz ölkəsində yığılan (“artıq” qalmış) kapitala sərbəstlik verdiyinə görə o, sərhədləri aşa bilir, sahibkarlar və dövlət üçün yeni mənfəət gətirir. Kapitalın sərbəstlik alması TMK-ların səmərəli işinin növbəti hərəkətverici qüvvəsidir. TMK-lar öz müəssisələrini, filiallarını, törəmə filiallarını, subtörəmə filiallarını özlərinə sərf edən ölkələrdə açırlar. Növbəti hərəkətverici qüvvə seçdikləri ölkələrdə nisbətən ucuz işçi qüvvəsindən, ucuz torpaqdan və yerli xammaldan istifadə etmək nəticəsində meydana gəlir. Bir qayda olaraq xarici ölkələrdə tikilən müəssisə və sexlər nisbətən az kapital xərcləri tələb edir və nəticədə kapitalın səmərəlilik əmsalı orta dünya səviyyəsindən bir neçə dəfə yüksək ola bilər. Kapitalın gəlirgətirmə vaxtı isə qısa olur.

**“Transmilli Korporasiya” (TMK)** termini ilk dəfə 1974-cü ildə BMT-nin İqtisadi və Sosial Şurasının (ECOSOS) 57-ci sessiyasında təklif edilmişdir.

Bundan sonra ECOSOS-un 1908 və 1913 saylı qətnamələri ilə **Transmilli Şirkətlər üzrə Hökumətlərarası Komissiyası və TMK Problemləri üzrə Məlumat-Tədqiqat Mərkəzi (YUNİRAK)** yaradılmışdır. Mərkəzin tərkibinə aşağdakı tərəflər daxil edilmişdir:

- Hökumət nümayəndələri;
- TMK-ların nümayəndələri;
- Həmkarlar təşkilatlarının nümayəndələri.

Əsas məqsədləri:

- Müşahidə aparmaq;
- Məlumatları toplamaq və yaymaq;
- Münaqişələri tənzimləmək və s.

BMT-nin TMK-lar üzrə Hökumətlərarası Komissiyasının təsnifatına görə TMK-lar aşağıdakı şərtlərdən ən azı birini ödəməlidir:

1) Hüquqi formasından və fəaliyyət dairəsindən asılı olmayaraq ən azı 6 ölkədə istehsalat vahidlərini özündə birləşdirməlidir;
2) Ümumi dövriyyəsi 1 mlrd ABŞ dollarından çox olmalıdır;
3) Şirkətin ümumi aktivlərinin dəyərində xarici aktivlərin xüsusi çəkisi ən azı 25-30 faiz olmalıdır;
4) Ümumi dövriyyəsinin 20-33 faizi mənsub olduğu ölkənin sərhədlərindən kənarda həyata keçirilməlidir.

UNCTAD-ın sənədlərində TMK-lar ana şirkəti və törəmə şirkətləri (filialları və s.) özündə birləşdirən səhmdar və ya şəxsi kompaniyalar hesab edilir.

UNCTAD-ın təyinatına görə iki və daha çox ölkənin hər hansı təşkilati-hüquqi formalı, fəaliyyət növlü, ümumi siyasəti və strategiyanı həyata keçirməklə vahid mərkəzdən idarə edilən və hüquqi şəxsləri birləşdirən müəssisəyə (şirkətə və s.) TMK deyilir.

OECD-ın (İƏİT-in) təsnifatına görə müxtəlif ölkələrdə yerləşən şəxsi, dövlət və ya qarışıq mülkiyyət formalarına əsaslanan müəssisə birliklərinə TMK-lar deyilir.

Fəaliyyət sahələrinə görə TMK-ların əsas qrupları 14.2-ci cədvəldə verilir. 14.2-ci cədvəldən görünür ki, istehsal sahəsində olan əsas kompaniyalar – aviaraket – kosmik sənaye, neft-qaz, avtomobil, metallurgiya, kimya və yeyinti sənaye kompaniyaları, qeyri-istehsal sahəsində olan əsas kompaniyalar – Transmilli Banklar, telekommunikasiya, sığorta, auditor kompaniyaları, investisiya və pensiya fondlarıdır.

Lakin, nəzərə almaq lazımdır ki, TMK-ların digər qrupları da beynəlxalq təşkilatların hesabatlarında, elmi-praktiki təhlil və reytinqlərdə göstərilir. Qruplaşdırmalarda ayrı-ayrı sahələrin alt sahələri və ixtisaslaşması, həmçinin bir çox təşkilati-coğrafi əlamətlərinə görə digər qruplaşmaları da verilir.

**Cədvəl 14.2**

**İstehsal və qeyri-istehsal kompaniyalarının əsas qrupları**

| **I. İstehsal kompaniyaları (sənaye)** | **II. Qeyri-istehsal kompaniyaları (xidmət)** |
|---|---|
| 1) Aviaraket-kosmik sənaye kompaniyaları<br>2) Neft-qaz kompaniyaları<br>3) Avtomobil kompaniyaları<br>4) Metallurgiya kompaniyaları<br>5) Kimya sənayesi kompaniyaları<br>6) Yeyinti sənayesi kompaniyaları və s. | 1) Transmilli Banklar<br>2) Telekommunikasiya kompaniyaları<br>3) Sığorta kompaniyaları<br>4) Auditor kompaniyaları<br>5) İnvestisiya fondları<br>6) Pensiya fondları və s. |

Qərb iqtisadiçılarının təsnifatına görə beynəlxalq kompaniyalar 5 qrupa bölünür:

1. Qlobal kompaniyalar;
2. Transmilli kompaniyalar;
3. Çoxmillətli kompaniyalar;
4. Beynəlmiləl kompaniyalar;
5. Beynəlxalq korporativ ittifaqlar (konsorsiumlar).

İki ölkənin subyektlərinin daxil olduğu kompaniyalar çoxmillətli (məsələn İngiltərə və Hollandiyaya məxsus "Royal Dutch Shell"), çoxsaylı ölkələrdə fəaliyyət göstərən kompaniyalar beynəlmiləl (məsələn "Nestle"), müəyyən layihə əsasında uzunmüddətli fəaliyyət göstərən kompaniyalar beynəlxalq korporativ ittifaqlar (məsələn, Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti) hesab edilir.

Qlobal kompaniya aktivləri 100 mlrd dollardan çox olan, xüsusilə iri aktivli kompaniyalardır.

**TMK-lar bir çox iqtisadi və geoiqtisadi göstəricilərinə görə də qruplaşdırılır:**

1) Aktivlərinin (bazar kapitalının) həcminə görə;
2) Xarici aktivlərinin həcminə görə;
3) İllik dövriyyəsinə görə;
4) İllik satışına görə;
5) Xarici ölkələrdə illik satışına görə;
6) Ümumi əməkdaşlarının sayına görə;
7) Xarici əməkdaşlarının sayına görə;
8) Ümumi gəlirlərinə görə;
9) Xalis mənfəətinə görə;
10) Hasilatın həcminə görə (neft,qaz və s.);
11) Xarici ölkələrdə hasilatın həcminə görə (neft,qaz);
12) Sənaye (xidmət) kompaniyaları arasında satışının həcminə görə;
13) Öz ölkəsinin sənaye (xidmət) kompaniyaları arasında satışın həcminə görə;
14) Öz sahəsinin inhisarları arasında satışın həcminə görə;
15) Öz sahəsinin kompaniyaları arasında törəmə müəssisələrinin sayına görə və s.

Hazırda kənarda satdığı məhsulun həcminə görə İsveçrənin "Nestle" firması dünya lideri hesab olunur. O, cəmi istehsal olunan məhsulun 98%-ni kənar ölkələrdə satır.

Ən çox xarici aktivi olan Transmilli şirkət (maliyyə bölməsindən başqa) ingilis-holland Transmilli şirkəti "Royal-Datç Şhell" konsernidir.

Dünya iqtisadiyyatında TMK-lar aşağıdakı bəzi problemlər də yaradırlar:

1) Bəzən onların maraqları milli dövlətlərin maraqları ilə üst-üstə düşmür;
2) İqtisadi gücdən siyasi və ideoloji gücə (hegemona) çevrilirlər;
3) Dövlətə təsiretmə imkanı əldə edirlər;
4) "Dövlət içərisində dövlətə" çevrilirlər;
5) Ölkələrin milli iqtisadiyyatlarına müdaxilə edirlər və s.

Hesabatlarda bəzi hallarda sənaye TMK-ları qeyri-maliyyə, xidmət kompaniyaları – maliyyə TMK-ları (korporasiyaları) kimi verilir.

## 4. TRANSMİLLİLƏŞMƏNİN XÜSUSİYYƏTLƏRİ VƏ TRANSMİLLİLƏŞMƏ İNDEKSİ (Tİ)

Transmilliləşmə bu və ya digər ölkənin xarici iqtisadi əlaqələrinin beynəlxalq iqtisadi sistemdə yerini müəyyən edən əsas amildir. TMK-ların istehsal, investisiya və ticarət sahələrindəki fəaliyyəti dünya istehsalında, əmtəələrin bölüşdürülməsi və yayılmasında onların yaxından iştirak etməsinə imkan verir.

Bütövlükdə, TMK-lar dünya inteqrasiya proseslərinin nəticəsidir. Onların fəaliyyəti yüksək mənfəətin təmin olunduğu şəraitdə beynəlxalq iqtisadi münasibətlərin inteqrasiyasına və

qloballaşmasına səbəb olur. TMK-ların fəaliyyəti nəticəsində dünya iqtisadiyyatı proseslərində baş verən dəyişikliklərə diqqət yetirilməsi ölkələr üçün mühüm əhəmiyyət kəsb edir.

TMK-lar qlobal miqyasda fəaliyyət göstərir və buna görə də beynəlxalq səviyyədə rəqabətin dəyişməsinə tez reaksiya vermək qabiliyyətinə malikdir. Onlar bir çox sahələrdə öz filiallarını artırmaqla yanaşı, həm də müxtəlif ölkələrdə olan firmalarla müqavilələr bağlamaqla texnologiyaların İnkişaf Etmiş Ölkələrdən zəif inkişaf etmiş ölkələrə ixrac edilməsində bilavasitə vasitəçi rolunda çıxış edir. TMK-lar birgə müəssisələri təşkil etməklə, tədqiqatlar sahəsində əməkdaşlığı, yeni əmtəələr və texnologiyalar üzrə lisenziyalar mübadiləsini həyata keçirmək müxtəlif firmalarla kooperasiya əlaqələrini aparmaq imkanlarına malikdirlər və bu yolla firmaların TMK-lar səviyyəsinə qalxmalarına imkan yaranır. Kooperasiya üçün belə razılaşmalar transmilliləşmə proseslərinə xasdır və əlverişli iqtisadi şərait yaradaraq müxtəlif ölkələrdə fəaliyyət göstərən nəhəng korporasiyalar üçün daha yüksək istehsal həcminə və mənfəətə malik olmaq imkanlarını genişləndirir. Bu transmilliləşdirmənin xüsusiyyətlərindən irəli gəlir. Belə ki, transmilliləşmə xüsusi firmalar səviyyəsində reallaşdırmanın dövlətlərarası inteqrasiyasıdır. Transmilli strukturların birləşməsi milli iqtisadiyyatın coğrafi əlamətlərinə görə deyil, dərin təkrar istehsal əlaqələrinə əsaslanır.

TMK-lar nəhəng xüsusi müəssisələrin fəaliyyətinin təşkilati forması olmaqla bir tərəfdən yüksək, digər tərəfdən isə yeniliklərin tələblərinə və şərtlərinə uyğunluğu həmişə yüksək dərəcədə təmin etməyə qadirdirlər və onların fəaliyyəti müasir qloballaşmaya bir sübutdur. Bununla yanaşı ikitərəfli ticarət vasitəsilə daha çox əmtəə və xidmətlərin ölkələrdən-ölkələrə hərəkəti də TMK-lara məxsusdur. Digər tərəfdən, TMK-lar kapitalın beynəlxalq miqrasiyasına təsir etməklə bir ölkədən digər ölkəyə kapital ixracatçısı kimi çıxış edir. Ümumiyyətlə TMK-lar öz maliyyə fəaliyyətləri vasitəsilə dünya valyuta-kredit sistemində proporsiyaların təmin edilməsinə və saxlanılmasına birbaşa təsir göstərmək imkanlarına malikdirlər. XX əsrin sonlarından TMK-lar öz fəaliyyətlərini daxili bazardan daha çox dünya bazarına yönəltmişdir. Xüsusilə postsosialist ölkələrində iqtisadi problemlərin çoxluğu və kapital çatışmazlığı TMK-ların marağına səbəb olmuşdur. Bu ölkələrdə hasilat, neft-kimya və neft-qaz sənayesi, elektrotexnika, maşınqayırma sənayesinin müxtəlif sahələrini inkişaf etdirmək üçün fəaliyyət göstərən nəhəng TMK-lara böyük ehtiyacları var idi. Onlar bu ölkələrin istehsal və istehalk proseslərini bütün yer kürəsinə səpələmiş müəssisələrlə əlaqələndirmək, beynəlxalq kooperasiyaya qoşmaq və qlobal miqyasda ixtisaslaşmanı təmin etmək imkanına malik idilər.

TMK-larla qarşılıqlı fəaliyyətdə özünün ixrac rəqabət qabiliyyətinin yüksəldilməsini istəyən ölkələr üçün ən mühüm vəzifə əvvəlcə bu firmaların beynəlxalq istehsal sistemlərinə qoşulmasından, sonra özü üçün onlardan səmərəli istifadə etməkdən ibarət olmuşdur. Məhz burada millli siyasətdə manevr etmək üçün imkan yaradılması zəruriliyi və strategiyası qarşıya çıxırdı. Beləliklə, TMK-ların müxtəlif ölkələrdə istehsal etdikləri böyük həcmdə əmtəə və xidmətlər beynəlxalq əmək bölgüsünün dərinləşməsinə səbəb olmuşdur.

Həm beynəlxalq əmək bölgüsü, həm də TMK-ların fəaliyyəti müxtəlif ölkələrin təsərrüfat əlaqələrini bir-birilə elə bağlamışdır ki, onlar bir-birindən asılı vəziyyətə düşmüşdür. Ona görə də TMK-ların fəaliyyəti təhlil olunarkən onlara milli iqtisadiyyatlara dağıdıcı təsir edən bir amil kimi yanaşmaq lazım deyildir. Hal-hazırda TMK-lara postsosialist və İEOÖ-lərdən çıxan transmilli xarakterdə olan firmalar daha çox miqyasda cəlb olunmaqdadır. Bütün bu yeniliklər TMK-lara yeniləşmə prosesinin bilavasitə gücləndirmə mərkəzləri rolunda çıxış etdikləri fikrini söyləməyə imkan verir.

TMK-ların mütərəqqi, elmi-texniki inqilabın ən yeni nailiyyətləri nəticəsində meydana gələn yeni formaları yüksək gəliri, iqtisadi səmərəliliyi təmin etməklə, ölkələr arasındakı əlaqələrin xarakterinə daha çox uyğunlaşırlar. Bazar iqtisadiyyatı bu prosesi daha da dərinləşdirir.

Müasir dövrdə dünyada gedən qloballaşma prosesi imkan verir ki, ölkənin daxili problemləri İEÖ-lərin köməyi ilə həll edilsin. XX əsrdə iqtisadi proseslərdə iştirak edən ən inkişaf etmiş sahə TMK-lardır. TMK-lar dövlətlərarası əlaqələrin yaranmasında, saxlanılmasında və inişafında mühüm rol oynayır. Həmçinin TMK-ların yerləşdiyi ölkələr düçar olduğu bir sıra problemlərin həllində, o cümlədən, işsizliyin aradan qaldırılmasında müsbət nəticələr əldə etmişdir.

Beynəlxalq iqtisadi münasibətlərin dərinləşməsi təsərrüfat strukturlarının birləşməsinə gətirib çıxarır. Bu proseslərin əsasında da beynəlxalq iqtisadi münasibətlərin daşıyıcısı kimi TMK-lar çıxış edir.

TMK-ların fəaliyyət sahələri keçən əsrlə müqayisədə müəyyən dərəcədə dəyişilmişdir. Onlar nəinki mübadilə sferasında fəaliyyət göstərir, təsir dairələrini və bazarların formal bölüşdürülməsini qarşılarına məqsəd qoyur, həmçinin əsas fikri istehsala, xarici filialların yaradılmasına və istehlak strukturunun təkmilləşdirilməsinə yönəldirlər.

İstehsalın beynəlmiləlləşməsi prosesinin güclənməsi TMK-lar vasitəsilə baş verir. Onlar elmi-texniki inqilab şəraitində istehsal güclərinin inkişafı ilə əlaqədar yaranan istehsal əlaqələrinin beynəlxalq səviyyəyə uyğunlaşmasını əks etdirirlər. İstehsal əlaqələrinin beynəlxalq səviyyəyə uyğunlaşdırılması ayrı-ayrı milli kapitallara əsaslanan inhisar formasının milli sərhədlər daxilində adekvat inkişaf edə bilməyən istehsal güclərinin inkişafına geniş imkanlar açır. Beynəlxalq miqyasda inhisarlaşma ilə yanaşı həm də dövlətin daxili şirkətlərinin inhisarlaşması prosesləri də gedir.

Transmilliləşmə istehsalın və kapitalın beynəlmiləlləşməsinin nəticəsidir və onlar beynəlxalq əmək bölgüsünün obyektiv inkişaf meylindən fəal surətdə istifadə edən, istehsal, ticarət, istehlak fəaliyyətləri milli sərhədlər çərçivəsindən kənara çıxan korporasiyalardır. Bu korporasiyaların iqtisadi əlaqələri genişləndikdə həmin ölkələrdə olan bir sıra problemlər də tədricən həll olunur.

TMK-lar dünya bazarında öz fəaliyyətlərini genişləndirmək üçün müxtəlif forma və vasitələrdən istifadə edirlər. Bu fəaliyyət ayrı-ayrı firmaların səhmdar kapitalında iştirakı ilə yanaşı konkret münasibətlərlə bağlıdır. TMK-ların bu cür fəaliyyət formalarına lisenziyalaşdırmanı, idarəetmə müqavilələrini, texniki və marketinq xidmətlərinin göstərilməsini, müəssisələrin icarəyə verilməsini, birgə müəssisələrin yaradılmasını və ya müqavilələr üzrə müxtəlif əməliyyatların aparılmasını göstərmək olar. Bu cür fəaliyyət formaları ayrı-ayrılıqda deyil, əsasən əlaqəli şəkildə həyata keçirilir və TMK-lar arasında əlaqələri gücləndirir.

Kompaniyanın transmilliləşmə fəaliyyətini ölçmək üçün UNCTAD-ın hazırladığı, 1995-ci ildən Dünya İnvestisiyaları Hesabatında göstərilən Transmilliləşmə İndeksi (Transnationality Index) tətbiq edilir. Bu indeks aşağıdakı göstəricilər ilə müəyyən edilir:

1) Kompaniyanın ümumi aktivlərində xarici aktivlərin payı, faizlə;

2) Kompaniyanın ümumi işçilərinin sayında xarici firmalarda işləyənlərin payı, faizlə;

3) Kompaniyanın ümumi satışında xarici satışın payı, faizlə;

**Transmilliləşmə İndeksi (TMİ)** aşağıdakı formula ilə hesablanır:

$$T(i) = \frac{\frac{A_1}{A} + \frac{S_1}{S} + \frac{Ş_1}{Ş}}{3}$$

Burada: $T_i$ – Transmilliləşmə indeksi;

$A_1$ – Xarici aktivlər;

A – Ümumi aktivlər;

$S_1$ – Xarici filiallar vasitəsilə əmtəə və xidmətlərin satış həcmi;

S – Əmtəə və xidmətlərin ümumi satış həcmi;

$Ş_1$ – Kompaniyanın xarici ştat işçiləri;

Ş – Kompaniyanın ümumi ştat işçilərini göstərir.

Transmillиləşmə İndeksi (TMİ) transmillilik indeksi olub üç nisbətin orta göstəricilərini əks etdirir.

Transmilliləşmə dərəcəsini müəyyənləşdirmək üçün transmilliləşmə əmsalından əlavə daha iki göstəricidən istifadə edilir:

1) Şəbəkənin Genişlənməsi Əmsalı (ŞGƏ);
2) Beynəlmiləlləşmə Əmsalı (BƏ).

**Şəbəkənin Genişlənməsi Əmsalı (ŞGƏ)** aşağdakı formula ilə hesablanır:

$$ŞGƏ = \frac{\mathbf{T(s)}}{\mathbf{P(ö)}} x\mathbf{100}\%$$

**Beynəlmiləlləşmə Əmsalı (BƏ)** aşağıdakı formula ilə hesablanır:

$$BƏ = \frac{\mathbf{X(fs)}}{\mathbf{Ü(fs)}} x\mathbf{100}\%$$

Burada: $T_s$ – Törəmə firmaları olan TMK-ların sayı;

$P_ö$ – Potensial ölkələrin sayı;

$X_{fs}$ – Xaricdə olan firmaların sayı;

$Ü_{fs}$ – Ümumi firmaların sayını göstərir.

TMK-ların fəaliyyət sahələri üzrə Transmilliləşmə İndeksi 14.3-cü cədvəldə verilir.

**Cədvəl 14.3**

**TMK-ların fəaliyyət sahələri üzrə Transmilliləşmə İndeksi**[1]

| Fəaliyyət sahələri | TMK-ların sayı, % | Orta TM indeksi, % |
|---|---|---|
| Maşınqayırma | 59,7 | 15 |
| Elektrotexnika və elektron məmulatları | 50,5 | 12 |
| Neftçıxarma | 70,8 | 12 |
| Kömür və filiz emalı | 61,8 | 9 |
| Əczaçılıq | 70,1 | 8 |
| Ərzaq məhsulları və tütün | 45,4 | 7 |
| Telekommunikasiya | 51,1 | 6 |
| Otelçilik | 26,8 | 5 |
| Pərakəndə satış | 57,3 | 4 |
| Kimyəvi maddələr | 63,4 | 3 |
| KİV | 85,4 | 3 |
| Mebel | 57,7 | 2 |

14.3-cü cədvəldən görünür ki, fəaliyyət sahələrinə görə dünyada ən yüksək Transmilliləşmə İndeksi maşınqayırma, elektrotexnika və elektron məmulatlar, neftçıxarma sahələridir ki, bu da həmin sahələr üzrə olan TMK-ların digər ölkələrdə törəmə müəssisələrinin daha çox yaradılması ilə əlaqədardır.

TMK-nın hərəkətverici qüvvələrindən biri onların son dövlətlərdə daha güclənən Transmilli Banklara arxalanmalarıdır. Bu banklar TMK-nın inkişafının maliyyə əsası kimi, özləri isə istehsalın və maliyyənin beynəlmiləlləşdirilməsinin yeni təzahürü kimi çıxış edirlər. Belə bankların minlərlə filialları dünyanın bütün nöqtələrində fəaliyyət göstərir və beynəlxalq firmaların inkişaf etməsinə və çiçəklənməsinə təsir göstərirlər.

TMK-nın başlıca üstünlüyü və səmərəli fəaliyyətinin səbəbləri, dünya təsərrüfat sistemində tutduğu yer və oynadığı rol onların spesifik xüsusiyyətlərindən irəli gəlir. Belə xüsusiyyətlərin biri onların fəaliyyətinin universal olmasıdır. TMK həm ticarətçi (tacir,

[1] World Investment Report 2016, UNCTAD, New York and Geneva,2016

kommersant), həm investor, həm də müasir texnologiyanı yayan və beynəlxalq əmək miqrasiyasını stimullaşdıran strukturlardır. Onların istənilən məhsulu istehsaletmə, reallaşdırma, ticarətetmə, dünya və region bazarlarına təsir göstərməyə qadirdilər.

TMK-lar inhisarçı birliklərdir və fəaliyyət dairəsinə görə beynəlxalq miqyaslıdırlar. Onlar bir çox cəhətdən dünya bazarında əmtəələrin və xidmətlərin dinamikasını və strukturunu, onların rəqabətə dözümlülüyünü təyin edirlər. Kapitalın beynəlxalq miqyasda hərəkətinə, biliyin və texnologiyanın ötürülməsinə güclü təsir göstərirlər. TMK-lar öz mahiyyəti nöqteyi-nəzərincə beynəlmiləldirlər və dünya iqtisadiyyatının vahid orqanizm kimi formalaşmasında mühüm rol oynayırlar. Müxtəlif ölkələrin müəssisələri arasında istehsal əlaqələrinin dərinləşməsində və genişlənməsində onların rolu getdikcə artır.

TMK-nın yaxşı təşkil olunmuş nəqliyyatı, kommersiya sirrini qorumağa, rəqiblərinin istehsal sirlərini öyrənməyə qadir xüsusi aparatları və tərkiblərində bank strukturları fəaliyyət göstərir. Yüksək səviyyədə təşkil olunmuş maliyyə imkanlarına malik olan ayrı-ayrı TMK-nın sərəncamında olan maliyyə vasitələrinin məbləği çox vaxt bir neçə inkişafda olan ölkənin üst-üstə maliyyə imkanlarından çoxdur. Ona görə də dövlətlər TMK-nın iqtisadi, siyasi və hüquqi maraqlarını müdafiə edirlər.

TMK-lar elmi, texniki və texnoloji yenilikləri qısa müddətdə istehsala tətbiq etmək, innovasiya mühiti yaratmaq, bütün səviyyələrdə bazarı öyrənmək, onların sektorlarını araşdırmaqda dünyada fəaliyyət göstərən ən qabaqcıl kompaniyalarla yarışa girə bilir. Onlar istehsalın səmərəli olmasına kompleks yanaşırlar və xüsusən istehsalın sosial, iqtisadi və təşkilati cəhətlərinə daha çox fikir verir, beynəlxalq menecment sənətinə ustalıqla yiyələnirlər və bu sahədə böyük və əməli təcrübələr toplamışlar.

Fəaliyyətin diversifikasiyalaşdırılması, dinamikliyi və çevik olması hər hansı süni şəkildə meydana gəlmiş və yaxud da obyektiv səbəblər üzündən yaranmış vəziyyətlərdən uğurla çıxmaları TMK-lara xal olan xüsusiyyətdir. Bu cəhətlər imkan verir ki, onun təşkilatçıları istehsalı və satışı vaxtında optimallaşdıra və firmanın şöhrətini saxlaya bilsinlər.

Dünya iqtisadiyyatının inkişaf və tərəqqi etməsində TMK-ların rolu çox böyükdür. Beynəlxalq korporasiyalar məhsuldar qüvvələrin beynəlmiləlləşməsinə səbəb olur ki, bu da öz növbəsində bazar münasibətlərində meydana gəlmiş məhsuldar qüvvələrin və istehsal münasibətlərinin dünya miqyasında təşəkkül tapmasına effektiv şərait yaradır və dünya iqtisadiyyatının inkişafına və yüksək səmərə əldə etməyə imkan verir.

TMK-lar yüksək mənfəət əldə etmələri üçün hərtərəfli çalışır və bu yolla beynəlmiləlləşirlər. Bu prosesin özü bütün dünya iqtisadiyyatına müsbət təsir göstərir. Beynəlmiləl statusa malik belə korporasiyaların ilk maraqları çoxlu mənfəət əldə etməkdirsə, sonrakı maraqları dünya iqtisadiyyatının inkişafını təmin etməkdir. Onlar mənfəət əldə etmək xatirinə dünyada baş verəcək neqativ (etnik çəkişmələr, münaqişələr, müharibələr) hallara da çox pis yanaşır və dünya iqtisadiyyatının inkişaf mübarizələrinə çevrilirlər.

Hazırda dünya iqtisadiyyatını sistemləşdirən və nizamlayan əsas amillərdən biri sahibkar kapitalının beynəlxalq hərəkətinə əsaslanan kompaniyalar və yaxud təsərrüfatların yaratdıqları istehsal hesab olunur ki, elə bu istehsal da beynəlxalq istehsaldır.

Son 30 ildə dünyada Transmilli Kompaniyaların fəaliyyətində xidmət sektoruna ayrılan vəsaitin artması daha xarakterik olmuşdur. Belə ki, ekspertlərin hesablamalarına görə 90-cı illərin ortalarında ən böyük Transmilli Kompaniyaların birbaşa kapital qoyuluşunun 50 faizdən çoxu xidmət (elmi-tədqiqat və təcrübə-konstruksiya işləri və marketinq tədqiqatı da daxil olmaqla) bölməsinə yönəldilmişdir.

Bütün beynəlxalq şirkətlər obyektiv iqtisadi proseslərin inkişafından irəli gələn aşağıdakı cəhətləri özündə əks etdirirlər:

1. Bu şirkətlər başqa ölkələrdə öz filiallarını və törəmə müəssisələrini yerləşdirməklə beynəlxalq istehsal sistemi yaradırlar;

2. Transmilli Şirkətlər yüksək texnoloji sahələrə daha çox meyil edirlər. Bu sahələr yüksək elm tutumlu olduğu üçün daha artıq investisiya və ixtisaslı işçilər tələb edir;

3. Bu şirkətlərin fəaliyyətində inhisarlaşma meyli də vardır və s.

Dünya iqtisadiyyatında TMK-ların fəaliyyəti xüsusilə özünü İEÖ-də göstərir. 1992-ci ildə BMT TMK-ları dünya iqtisadiyyatının inkişaf açarı adlandırmışdır.

TMK ayrı-ayrı milli korporasiyaların birliyidir, iqtisadiyyatın bir və ya bir neçə hissəsini birləşdirir. Müasir dövrdə TMK-ların fəaliyyəti beynəlxalq xarakter daşıdığı üçün kapitalın beynəlxalq hərəkəti və bir sıra başqa dünya iqtisadiyyatı proseslərinə təsir göstərir. TMK-nın müasir dövrdə əsas xüsusiyyətləri aşağıdakılardır:

1) TMK-lar dünya təsərrüfatı inkişafının və beynəlxalq əmək bölgüsünün əsas iştirakçısıdır;

2) TMK-lar ölkələrarası kapitalın beynəlxalq hərəkətinin əsas sahibləridir;

3) TMK-lar dünya iqtisadiyyatının tənzimləyicisidir və s.

TMK-lar artıq özünü milli deyil, beynəlxalq səviyyədə sübut etmişdir. Müasir dövr üçün TMK-nın daha çox yeni sənayeləşmiş ölkələrə meyilliyi artır.

TMK araşdırmaçıları onların nəinki dünya təsərrüfatına, eyni zamanda ölkə siyasətinə təsirini qeyd edirlər. Burada TMK-nın coğrafi xüsusiyyətləri və yeni dünya qaydalarına əməl etməyi əsas götürülür.

Mürəkkəb ixtisaslı kadrları özünə toplayan TMK-lar böyük nailiyyətlər əldə etməkdədir. Onlar ticarət üçün ən lazım olan və əvvəlcədən araşdırılmış regionlarda fəaliyyəti əsas istiqamət kimi götürürlər.

XX əsrin 90-cı illərindən etibarən dünya ölkələrində bazar iqtisadiyyatı daha da dərinləşmiş və bu səbəbdən TMK-ların idarəetmə və marketinq xidmətləri sahəsində fəaliyyətləri genişlənməyə başlamışdır.

TMK-ların fəaliyyətinin müasir formalarından biri də onlar tərəfindən xaricdə xüsusi investisiya şirkətlərinin yaradılmasıdır.

TMK-ların xarici investisiyaları ticarətlə müqayisədə yüksək xüsusi çəkiyə malikdir. Müasir dövrdə TMK-lar dünya üzrə istehsala qoyulan kapitalın 1/3-nə və xarici investisiyaların 90%-dən çoxuna nəzarət edirlər. Dünyada Birbaşa Xarici İnvestisiyalar üç qlobal struktura mənsubdur:

- ABŞ – Avropa İttifaqı – Yaponiya.

İdxal və ixrac olunan investisiyaların 4/5 hissəsi bu ölkələrin payına düşür.

## 5. TRANSMİLLİ KORPORASİYALARIN MÜASİR VƏZİYYƏTİ VƏ İNKİŞAF DİNAMİKASI

Milli iqtisadiyyatların dünya iqtisadiyyatına, beynəlxalq əmək bölgüsünə və qloballaşmaya qoşulması prosesi TMK-ların fəaliyyətindən birbaşa asıldır. İstehsalın transmilliləşməsi beynəlxalq əmək bölgüsünün iyerarxiya strukturunda milli iqtisadiyyatların yerini müəyyən edərək onların inkişafına daha böyük təsir göstərir. Müasir dövrdə TMK-lar bir çox ölkələrin iqtisadiyyatlarına dərindən nüfuz etmişdir. Bəzi ölkələrin gələcək inkişafı TMK-lardan asılı vəziyyətə düşmüşdür. TMK-lar öz iqtisadi gücünə görə hətta bir çox dövlətləri üstələyir.

Hazırda sayı 82 mini ötmüş TMK-lar ümumi dünya iqtisadiyyatının 75%-nə nəzarət edirlər. Bu gün innovasiya sahibkarlığı demək olar ki, bütövlükdə (90%) onların əlindədir. 500 ən iri TMK-nin ümumi məhsulu dünyanın ümumi məhsulunun 60%-dən çoxunu təşkil edir. TMK-larda demək olar ki, 100 mln nəfər çalışır. Onların 93 faizinin mənzil qərargahı ABŞ-da, Qərbi Avropada və Yaponiyada yerləşir. 50 ən iri TMK arasında 30-a qədəri ABŞ-a məxsusdur.

Dünyanın ən iri 100 TMK-sının 40-a qədərinin aktivləri “ana” şirkətinin yerləşmiş olduğu ölkələrə məxsusdur. TMK-lar dünya ticarətinin 65-ni öz əlində cəmləşdirərək, dünyada istehsal olunan ÜDM-in ¼-dən çoxunu istehsal edirlər. TMK-ların daxili dövriyyəsi 10 trilyon dollar həcmindədir.

Dünyada taxıl, kofe, qarğıdalı, meşə materialları, tütün, cüt (hind kəndiri) və dəmir filizi bazarının 90%-i, mis və boksit bazarının 85%-i, çay və qalayın 80%-i, banan, təbii kauçuk və xam neftin 75%-i TMK-ların nəzarəti altındadır.

“Exxon-Mobil”, “General Motors”, “Ford Motors” kimi nəhəng korporasiyalar Avstriya, Danimarka, Norveç, Portuqaliya, Finlandiya, İsveçrə, İsveç kimi inişaf etmiş Avropa dövlətlərinin ÜDM-lərinin dəyərindən çox, yaxud o qədər məhsul istehsal edir və xidmətlər göstərirlər.

Bütün dünya sənaye istehsalının 50%-i, xarici investisiyaların 90%-i, patent və lisenziyaların 80%-i, dünyanın bütün dövlət banklarına nisbətən daha çox nağd valyuta vəsaitləri TMK-ların payına düşür.

TMK-ların əmələ gəlməsi ilə əlaqədar kapitallarla bərabər istehsal da xaricə ixrac olunur, korporasiyalar demək olar ki, beynəlxalq sahə kompleksləri kimi çıxış edirlər. Bilavasitə beynəlxalq istehsalın yaradılması sahəsində dünya bazarı sanki ölkənin daxilinə nüfuz etmişdir. Bütün nəzəri elmi tədqiqatlar, texnoloji işləmələr, istehsal proseslərinin özü və yığımlar, satış və komplektləşdirmə prosesləri, satışdan sonrakı xidmətlər və s. birləşərək dövlət sərhədləri ilə məhdudlaşmayan və rəqabət metodlarından geniş istifadə edilən bütöv bir tama çevrilir. TMK-lar hüquqa, mədəniyyətə, ekologiyaya, əmək münasibətlərinə, istehsal demokratiyasına və ictimai-siyasi aspektlərə həlledici dərəcədə təsir göstərən təkcə iqtisadi yox, həm də ciddi siyasi qüvvədir.

XX əsrin ortalarında TMK-lara xalis siyasi güc kimi yanaşılırdı və bu müəyyən mənada ədalətli idi. Lakin onların müasir fəaliyyət istiqamətləri dəyişmişdir. TMK-nın beynəlxalq fəaliyyətinin üç istiqaməti – siyasi, hüquqi və iqtisadi istiqamətlərini ayırmaq lazımdır.

TMK-ların hasnı ölkədə fəaliyyət göstərmələrindən asılı olmayaraq məqsədləri öz ölkəsinin mənafeyini müdafiə etməkdir. Ümumiyyətlə, TMK-lar mənsub olduqları ölkələrin siyasi-iqtisadi mənafelərinin daşıyıcılarıdır. Ancaq bununla belə, TMK-ların ölkələrdəki fəaliyyəti milli mənafelər daxilində idxal və ixracın həcminin artmasına, ölkələr arasında əlaqələrin genişlənməsinə, nəqliyyat xərclərinin azaldılmasına, yüksək səviyyədə kadrların mübadiləsinə, ölkəyə yeni texnologiyanın gətirilməsinə və son nəticədə iqtisadi əlaqələrin inkişafına müsbət təsir göstərir.

TMK-ların fəaliyyətini təhlil edərkən həm müsbət və həm də mənfi cəhətlərini nəzərə almaq lazımdır. Onlar bütün dünyada milli əlaqələrdə və beynəlxalq miqyasda vahid istehsal və satış bazarlarının yüksək səmərəliliyini, kapital qoyuluşları və elmi-tədqiqat işlərində dinamik inkişafı təmin edən istehsal-ticarət siyasətini həyata keçirirlər.

TMK-lar həm Yeni Sənaye Ölkələrinin yaranmasına, milli bazarların liberallaşmasına, inhisar qovuşmalarına və çulğalaşmasına, həm də açıq rəqabətin inkişafına təsir göstərmişdir. Onlar həm milli, həm də dünya iqtisadiyyatının inkişaf parametrlərini dəyişdirmişdir.

TMK-ların fəaliyyəti qiymətləndirilən zaman dünya ticarətinin müasir mərhələdə xüsusiyyətləri dərindən təhlil edilməlidir. Çünki qarşılıqlı dünya ticarətinin xüsusiyyətləri TMK-ların dünya səviyyəsində inkişafını sürətləndirir. Müasir dünyada sənaye cəhətdən inkişaf etmiş ölkələrin qarşılıqlı ticarətinin payı dünya ticarətinin 80%-ə qədərini təşkil edir. Bu ölkələr arasında ticarət dövriyyəsinin strukturu dəyişmiş, emal sənayesi məhsullarının payı artmış, xammal və xammal məmulatlarının payı isə əksinə azalmışdır. Hər il emal sahələrinin, xüsusilə elektronika sahələri məhsullarının 1/3 hissəsi yeniləşir, maşın və avadanlıqlarla ticarətin sahədaxili əlaqələrinin sayı artır, elmi məhsullar, patentlər, lisenziyalar, nou-xau“ bazarları genişlənir.

Beləliklə, bütövlükdə ÜDM-nin artım sürəti dünya ticarətinin artım sürətindən geri qalır. Ölkələr üzrə ixracatda TMK-ların məhsulları sürətlə artır. Məsələn, Sinqapurda ixracatın 90%-i, Böyük Britaniyada 80%-i, ABŞ-da 60%-i TMK-ların payına düşür.

Hazırda dünyanın 150 ölkəsində 40 mindən çox maliyyə - sənaye qrupu, onların 400 mindən artıq filialları fəaliyyət göstərir. Son dövrlərdə TMK-lar milli hökumətlərlə əməkdaşlıq müqavilələri bağlamağa başlayıblar ki, bu da bazar iqtisadiyyatını qərarlaşdığı və daha çox xarici sərmayə əldə etməyə çalışan ölkələr üçün xüsusilə vacibdir.

TMK tərəfindən Birbaşa Xarici İnvestisiyaların verilməsi baş kompaniya, yaxud bank tərəfindən nəzarət edilən səpələnmiş firmalar şəbəkəsinin yaradılmasını nəzərdə tutur.

Qloballaşan dünya iqtisadiyyatında TMK-ların rolu artdıqca beynəlxalq istehsalın miqyası genişlənməkdə davam edir.

Dünyada istehsal olunan ÜDM-nin onda bir hissəsi və dünya ixracının üçdə biri TMK-ların xarici filiallarının payına düşür. Əgər kapital səviyyəsində qarşılıqlı münasibətlərlə əlaqəsi olmayan TMK-ların fəaliyyətinin ümumidünya dəyər həcmləri nəzərə alınsa, onda bu qlobal aqreqat göstəricilərində TMK-ların payı daha yüksək olacaqdır.

TMK-ların fəaliyyət dairəsi çoxşaxəlidir. TMK-ların 60%-i sənaye istehsalı sahəsində, 37%-i xidmət sferasında və 3%-i kənd təsərrüfatında fəaliyyət göstərir.

ABŞ TMK-ları müasir qlobal iqtisadi dünyada aparıcı rola malikdir. ABŞ-ın ixracının təqribən yarısı bu ölkənin TMK-ları tərəfindən həyata keçirilir. ABŞ-da texnologiyaların transferlərində TMK-ların payı 80%-dir. ABŞ-ın "General Electric" korporasiyası xarici aktivlərin həcminə görə birinci yeri tutur.

Xarici aktivlərinə görə dünyada 100 ən aparıcı TMK-dan ilk sıradakı 5-i ABŞ-a məxsusdur. Bunlar aşağıdakılardır: "General Electric", "Ford Motors Company", "General Motors", "Exxon-Mobile Corporation" və "IBM".

Dünyada TMK-ların sayı XX əsrin sonlarından – sosialist sistemi dağılandan sonra daha sürətlə artmışdır ki, bunu 14.4-cü cədvəldən görmək mümkündür.

**Cədvəl 14.4**

**BMT-nin məlumatına görə TMK-ların sayı (min)**

| Ana kompaniyalar | Törəmə firmalar (filiallar) |
|---|---|
| 1991 – 35 | 150 |
| 2000 – 63 | 690 |
| 2014 – 75 | 850 |
| 2018 – 82 | 865 |

14.4-cü cədvəldən görünür ki, 1991-ci ildən 2018-ci ilə qədər dünyada ana TMK-ların sayı demək olar ki, 2 dəfədən çox, törəmə firmaların (filialların) sayı 6 dəfəyə qədər artmışdır. Bunun səbəbləri digər suallarda göstərilmişdir.

Dünyada müstəqil dövlətlərin sayı 195 olsa da, onlar əsasən 10-a yaxın dövlətə məxsusdurlar. Bunlar da əsasən ABŞ, Yaponiya, Böyük Britaniya, Almaniya və Fransa şirkətləridir. Mənbə ölkələrinə görə dünyanın iri TMK-larının dünya əmtəə və xidmətlər istehsalında payı 14.5-ci cədvəldə verilir.

**Cədvəl 14.5**

**Mənbə ölkələrinə görə dünyanın iri TMK-larının dünya əmtəə və xidmətlər istehsalındakı payı, faizlə**

| № | Ölkələr | Əmtəə istehsalında | Xidmətlər istehsalında |
|---|---|---|---|
| **1.** | ABŞ | 46 | 45 |
| **2.** | Yaponiya | 16 | 20 |
| **3.** | Böyük Britaniya | 10 | 11 |
| **4.** | Almaniya | 6 | 6 |
| **5.** | Fransa | 4 | 6 |

| | | | |
|---|---|---|---|
| **6.** | Hollandiya | 1 | 2 |
| **7.** | İsveçrə | 2 | 2 |
| **8.** | İtaliya | 1 | 1 |
| **9.** | Digər ölkələr | 14 | 7 |
| | **Cəmi:** | 100 | 100 |

14.5-ci cədvəldən görünür ki, həm əmtəə, həm də xidmətlər istehsalında əsas TMK-lar ABŞ-a məxsusdur.

Nəzərə almaq lazımdır ki, beynəlxalq təşkilatların hesabatlarında dünya TMK-ları 10-dan çox əlamət üzrə verilir. Buraya satışının, aktivlərinin həcmi, mənfəəti, bazar dəyəri, işçilərinin sayı, ölkələr qrupu, fəaliyyət sektorları və s. üzrə qruplaşmaları göstərmək olar.

Fəaliyyət sektoru, satışı, mənfəəti, aktivləri və bazar dəyərinə görə 2020-ci ildə dünyanın nəhəng TMK-ları 14.6-cı cədvəldə verilir.

**Cədvəl 14.6**

**2020-ci ildə dünyanın nəhəng TMK-ları (milayrd dollar)**[1]

| № | Adı | Ölkə | Sektor | Satışı | Mənfəəti | Aktivləri | Bazar dəyəri |
|---|---|---|---|---|---|---|---|
| **1.** | ICBC | Çin | Bank işi | 177,2 | 45,3 | 4322,5 | 242,3 |
| **2.** | China Construction Bank | Çin | Bank işi | 162,1 | 38,9 | 3822,0 | 203,8 |
| **3.** | JP Morgan Chase | ABŞ | Bank işi | 142,9 | 30,0 | 3139,4 | 291,7 |
| **4.** | Berk Hathaway | ABŞ | Xoldinq | 254,6 | 81,4 | 817,7 | 455,4 |
| **5.** | Agricultural Bank of China | Çin | Bank işi | 148,7 | 30,9 | 3697,5 | 147,2 |
| **6.** | Saudi Arabian Oil Company | Səudiyyə Ərəbis-tanı | Neft-qaz | 329,8 | 88,2 | 398,3 | 1684,8 |
| **7.** | Ping An | Çin | Sığorta | 155 | 18,8 | 1218,6 | 187,2 |

14.6-cı cədvəldən görünür ki, 2020-ci ildə dünyanın nəhəng TMK-ları içərisində əsas TMK-lar Çin və ABŞ-a məxsus olan bank, neft-qaz və sığorta sektoruna daxil olan şirkətlərdir. Son 30 ildə Çin TMK-ları daha sürətlə inkişaf etməkdədirlər.

Satışının həcminə görə dünyanın nəhəng TMK-ları 14.7-ci cədvəldə verilir.

**Cədvəl 14.7**

**Satışının həcminə görə dünyanın nəhəng TMK-ları (2018)**[2] **(mlrd dollar)**

| № | Kompaniya | Ölkə | Satışın həcmi | Xalis mənfəət |
|---|---|---|---|---|
| **1)** | Wall-Mart | ABŞ | 287 | 10 |
| **2)** | BP | Böyük Britaniya | 285 | 15 |
| **3)** | Exxon Mobil | ABŞ | 270 | 25 |
| **4)** | Royal Dutch/Shell Group | Niderland, B.Britaniya | 268 | 18 |
| **5)** | General Motors | ABŞ | 193 | 2 |

[1] Forbes Global 2000 (2020). The World Largest Public Companies. Retrieved July 5, 2020 from

[2] http://money.cnn.com/magazines/fortune/global-1500/countries/c.html

| | | | | |
|---|---|---|---|---|
| **6)** | Daimler Chrysler | Almaniya | 176 | 3 |
| **7)** | Toyota Motor | Yaponiya | 172 | 10 |
| **8)** | Ford Motor | ABŞ | 172 | 3 |
| **9)** | General Electric | ABŞ | 152 | 16 |
| **10)** | Total | Fransa | 152 | 11 |
| **11)** | Chevron Texaco | ABŞ | 147 | 13 |
| **12)** | Conoco Phillpis | ABŞ | 121 | 8 |
| **13)** | AXA | Fransa | 121 | 3 |
| **14)** | Allianz | Almaniya | 118 | 2 |
| **15)** | Volkswagen | Almaniya | 110 | 1 |

14.7-ci cədvəldən görünür ki, satışının həcminə görə 15 ən nəhəng TMK-lardan 7-si ABŞ-a məxsusdur. Xalis mənfəətinə görə ABŞ və Böyük Britaniya
TMK-ları daha çox mənfəət əldə edirlər.

Xüsusilə qeyd edilməlidir ki, son 30 ildə dünyada İEOÖ-lərin TMK-ları sürətlə artır. Onların bəzi göstəriciləri 14.8-ci cədvəldə verilir.

**Cədvəl 14.8**

**Bəzi İEOÖ-lərin aparıcı TMK-ları (2015)**

| **№** | **Korporasiya** | **Ölkə** | **Sektor** | **Xarici aktivləri, mlrd dollar** | **Aktivləri, mlrd dollar** | **İşçilərin sayı, min nəfər** | |
|---|---|---|---|---|---|---|---|
| | | | | | | **Cəmi** | **xaricdə** |
| **1.** | Petronas – Petriliam Nasional Bd | Malayziya | Neft | 26 | 73 | 34 | 4 |
| **2.** | Cemex | Meksika | Tikinti materialları | 22 | 26 | 53 | 40 |
| **3.** | CITIC Group | Çin | İnvestisiya | 15 | 99 | 93 | 10 |
| **4.** | China Ocean Shipping Co. | Çin | Nəqliyyat və Logistika | 11 | 18 | 69 | 4 |
| **5.** | Petroleous de Venesuela | Venesuela | Neft | 8 | 60 | 49 | 5 |
| **6.** | Petroleo Brasiliero S. A. Petrobras | Braziliya | Neft | 8 | 78 | 54 | 6 |
| **7.** | Lukoil | Rusiya | Neft | 8 | 30 | 150 | 14 |
| **8.** | America Movil | Meksika | Telekommuni-kasiya | 6 | 21 | 35 | 24 |
| **9.** | China Shtate Construction Enginering Co. | Çin | Tikinti | 6 | 13 | 119 | 26 |
| **10.** | Compania Vale de Rio Doce | Braziliya | Hasilat | 6 | 23 | 39 | 3 |

14.8-ci cədvəldən görünür ki, dünyanın İEOÖ-ləri içərisində xarici aktivlərinə görə Malayziya, Meksika və Çin TMK-ları, işçilərinin sayına görə Rusiya və Çin TMK-ları irəlidə gedir. Neft, tikinti və tikinti materialları, nəqliyyat və logistika sahəsində yeni TMK-lar yaranır.

**Dünyanın qitələr üzrə nəhəng TMK-ları aşağıdakılardır:**
**Avropada:**

1) Nestle (İsveçrə) – yeyinti məhsulları;
2) Vodafone (Böyük Britaniya) – telekommunikasiya;
3) Simens (Almaniya) – maşınqayırma;
4) BP (Böyük Britaniya) – neft;
5) Qazprom (Rusiya) – qaz.

**Amerikada:**

1) Sitiqrup (ABŞ) – maliyyə xidməti;
2) Microsoft (ABŞ) – hesablama texnikası;
3) Exxon-Mobil (ABŞ) – neft;
4) Google (ABŞ) – informasiya sistemləri;
5) Boing (ABŞ) – aviasiya.

**Asiya və Okeaniyada**

1) Toyota Motor (Yaponiya) – avtomobil;
2) LG Co. (Cənubi Koreya) – elektrotexnika;
3) Samsung Group (Cəubi Koreya) – elektronika;
4) Petronas – Petroliam (Malayziya) – neft;
5) China Ocean Shipping (Çin) – logistika və s.

## 6. DÜNYANIN ƏSAS İSTEHSAL (SƏNAYE) TMK-LARI

Beynəlxalq təşkilatlar, xüsusilə UNCTAD dünya ölkələrində olan beynəlxalq kompaniyaları əsas sənaye sahələri və qeyri-sənaye sahələri üzrə qruplaşdırır, onlar arasında 500 sənaye TMK-larını ölkələr, əsas məhsul və xidmət növləri, ümumi və xarici ölkələrdəki məhsul satışı, xalis mənfəəti, aktivləri, xüsusi kapitalı və işçilərinin sayına görə qiymətləndirir və təhlil edirlər. Dünyanın nəhəng 500 sənaye TMK-ları arasında 20-yə qədər aviaraket-kosmik sənaye, 70-dən çox neft-qaz, 40-a qədər avtomobil, 60-dan çox yeyinti sənaye kompaniyaları və s. digər kompaniyalar daha ətraflı verilir.

Aviaraket-kosmik sənaye kompaniyaları əsasən ABŞ-a, neft-qaz sənaye kompaniyaları ABŞ-a və Böyük Britaniyaya, avtomobil sənaye kompaniyaları ABŞ, Yaponiya və Almaniyaya, yeyinti sənaye kompaniyaları ABŞ, Böyük Britaniya, İsveçrə, Kanada və s. ölkələrə məxsusdurlar, dünyanın müxtəlif ölkələrində çoxsaylı törəmə kompaniyaları vardır. YSÖ-lərdə son 30 ildə TMK-ların sayı sürətlə artmışdır.

Dünyanın əsas istehsal (sənaye və kənd təsərrüfatı) və qeyri-istehsal (xidmət) kompaniyaları özləri, törəmə firmaları və alt sektorlarına görə bir-birindən fərqli xüsusiyyətlərə malikdirlər:

1. Ehtiyatların, istehsalın (hasilatın) və istehlakın coğrafi cəhətdən qeyri-bərabər bölgüsü mineral xammal bazarlarına daim təsir edir;
2. Mineral ehtiyatlarının, xüsusilə karbohidrogen ehtiyatlarının əksər hissəsi müsəlman ölkələrindədir;
3. Neft-qaz və dağ-mədən sahələrində fəaliyyət göstərən TMK-lar qitələr və qitə regionları üzrə resurs mənbələrinə doğru hərəkət edirlər;
4. Neft-qaz ehtiyatları daha çox dünyanın su hövzələrinə yaxın – dənizlərdə və dənizkənarı ərazilərdə yerləşir;
5. BXİ-lər daha çox neft-qaz sektoruna qoyulur;
6. Kənd təsərrüfatı istehsalı TMK-ları dünyanın iqlim qurşaqları, torpaq, su, meşə resursları ilə birbaşa bağlı olsa da, texniki-texnoloji və innovativ yeniliklərin təsiri ilə yaradılır;
7. İnfrastruktur TMK-ların inkişafının əsas amilidir;
8. Neft-qaz sektorunda xarici aktivlərin həcminə görə ən iriləri özəl şirkətlərdir;
9. YSÖ-lərin sənaye TMK-ları sürətlə artır;
10. Sənayenin sektorları üzrə ölkə TMK-ları arasında rəqabət getdikcə artır və s.

Dünyanın əsas ölkələrinin sənaye sahələri üzrə iri TMK-larının sayı Cədvəl 14.9-da verilir.

**Cədvəl 14.9**

**Dünyanın əsas ölkələrinin sənaye sahələri üzrə iri TMK-larının sayı**

| Ölkələr | Tele-kommu-nikasiya | Avto-mobil | Ener-getika | Elektronika və informa-tika | Aero-kosmik, hərbi | Kimya | Nəq-liyyat | Əsaslı texni-ka | Ha-silat | İnşaat | Cəmi |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| ABŞ | 8 | 4 | 16 | 33 | 7 | 14 | 17 | 18 | 13 | 1 | 131 |
| Yaponiya | 1 | 5 | 2 | 16 | - | 6 | 6 | 15 | 9 | 9 | 69 |
| B.Brita-nya | 4 | - | 5 | 2 | 2 | 2 | 6 | 3 | 2 | 3 | 29 |
| Almaniya | 1 | 3 | - | 1 | - | 4 | 5 | 3 | 3 | 1 | 21 |
| Fransa | - | 1 | 2 | 3 | - | 2 | - | 2 | 1 | 2 | 13 |
| Kanada | 1 | - | 2 | 2 | - | - | 2 | 1 | 6 | - | 14 |
| İsveç | - | 1 | - | 1 | - | - | 2 | 2 | 3 | 1 | 10 |
| Avstra-liya | - | - | 2 | - | - | - | - | - | 3 | 1 | 6 |
| Hollandi-ya | 1 | - | 1 | 1 | - | 1 | - | - | - | - | 4 |
| İsveçrə | - | - | - | - | - | - | 1 | - | - | - | 1 |
| Honkonq | 1 | - | - | - | - | - | 1 | - | - | - | 2 |
| Cəmi | 17 | 14 | 30 | 59 | 9 | 29 | 40 | 44 | 40 | 18 | 300 |

14.9-cu cədvəldən görünür ki, sənaye sahələri üzrə ən çox TMK-ları olan ABŞ-dır. Sonrakı yeri Yaponiya tutur. Sənayenin elektronika və informatika, energetika və hasilat sənayesi sahəsində olan TMK-ları daha çoxdur.

Bazar dəyərinə (kapitallaşmasına) və işçilərinin sayına görə dünyanın 10 ən nəhəng sənaye TMK-ları 14.10-cu cədvəldə verilir.

**Cədvəl 14.10**

**Bazar dəyərinə (kapitallaşmasına) və işçilərinin sayına görə dünyanın 10 ən nəhəng sənaye TMK-sı[1] (mlrd dollarla), 2018**

| № | Korporasiya | Ölkə | Fəaliyyət sahəsi | Kapitallaş-ması (xarici aktivləri) | Satışı | İşçilərin sayı, min nəfər | TMİ, faizlə |
|---|---|---|---|---|---|---|---|
| **1.** | General Electric | ABŞ | Elektronika və elektrotexnika | 420 | 172 | 327 | 51 |
| **2.** | Vodafone Group Pic. | B. Britaniya | Telekommuni-kasiya | 231 | 71 | 72 | 87 |
| **3.** | Royal Dutch/ Shell Group | Niderland B.Britaniya | Neft | 197 | 355 | 104 | 71 |
| **4.** | British Petrolium | B.Britaniya | Neft | 185 | 284 | 97 | 80 |
| **5.** | Exxon Mobil | ABŞ | Neft | 174 | 390 | 80 | 68 |
| **6.** | Toyota Motor | Yaponiya | Avtomobil | 153 | 230 | 316 | 52 |
| **7.** | Total | Fransa | Neft | 144 | 233 | 96 | 74 |
| **8.** | Electricity de France | Fransa | Elektrik,qaz və su | 129 | 88 | 154 | 35 |
| **9.** | Ford Motor | ABŞ | Avtomobil | 128 | 172 | 246 | 51 |
| **10.** | E. ON AG | Almaniya | Eelektrik,qaz və su | 123 | 101 | 91 | 54 |

Qeyd: TMİ – Transmillilaşmə İndeksi

14.10-cu cədvəldən görünür ki, bazar dəyərinə görə 10 ən böyük TMK-lar ABŞ və Yaponiyaya məxsusdur. Bu əlamət üzrə ABŞ-ın "General Electric", Böyük Britaniyanın

[1] World Bank, Bank for International Settlements Fortune

“Vodafone Group Pic” kompaniyaları, işçilərinin sayına görə yenə də ABŞ-ın “General Electric”, Yaponiyanın “Toyota Motor” kompaniyaları, Transmilliləşmə İndeksinə görə Böyük Britaniyanın “Vodafone Group Pic”, “BP”, Niderland – Böyük Britaniyanın “Royal Dutch/Shell Group”, Fransanın “Total” kompaniyaları xüsusilə fərqlənirlər.

Dünya ölkələrinin yeyinti sənayesi üzrə 10 əsas TMK-sı 14.11-ci cədvəldə verilir. 14.11-ci cədvəldən görünür ki, dünyanın yeyinti sənayesi üzrə 10 ən tanınmış TMK-sının 8-i ABŞ-a məxsusdur. Onlar dünyada ən tanınmış və dünya ölkələrində törəmə şirkətləri olan və xarici ölkələrdə ən çox satışı olan şirkətlərdir. Digər sənaye kompaniyalarından yaranma tarixinə görə də fərqlənirlər. “Procter and Gembl” hələ 1837-ci ildə, “General Mills” 1856-cı ildə yaradılmışdır.

**Cədvəl 14.11**

**Dünya ölkələrinin yeyinti sənayesi üzrə 10 əsas TMK-sı**

| № | Kompaniyanın adı | Yaranma tarixi | Kim yaradıb | Ölkə |
|---|---|---|---|---|
| 1. | Qraft Foods | 1903 | Ceyms Qraft | ABŞ |
| 2. | Nestle | 1866 | Anri Nestle | İsveçrə |
| 3. | Unilever | 1930 | Antonius Yurqens,William Lever | Hollandiya |
| 4. | Mars | 1911 | Frenk Mars | ABŞ |
| 5. | Kellogg’s | 1906 | Uilyam Kelloq | ABŞ |
| 6. | General Mills INC. | 1856 | Robert Smit | ABŞ |
| 7. | PepsiCo | 1965 | Donald Kendal, Qerman Ley | ABŞ |
| 8. | Coca-Cola | 1886 | Con Stit Pemberton | ABŞ |
| 9. | Prokter and Gembl | 1837 | U. Prokter, C. Qembl | ABŞ |
| 10. | Johnson&Johnson | 1886 | Robert Conson (Consonolar ailəsi) | ABŞ |

Keçmiş sosialist ölkələrinin ictimai quruluşu, mülkiyyət formaları və qapalı iqtisadiyyata malik olması ilə onların TMK-ları 1991-ci ilə qədər demək olar ki, olmamışdır. SSRİ dağılandan sonra bazar iqtisadiyyatı sisteminə daxil olan sosialist ölkələrində, xüsusilə Rusiyada TMK-lar yaranmağa başlamışdır. Bunlar da əsasən neft-qaz və metallurgiya sənayesində yaradılmışdır. 14.12-ci cədvəldə Rusiyanın nəhəng neft-qaz TMK-larının satış həcmi verilir.

**Cədvəl 14.12**

**2019-cu ildə Rusiyanın nəhəng neft-qaz TMK-larının satış həcmi[1]**

| № | Kompaniya | Satışın həcmi (mln dollar) |
|---|---|---|
| 1. | Rosneft | 118167 |
| 2. | Qazprom | 116776 |
| 3. | Lukoyl | 114755 |
| 4. | Surqutneftqaz | 24309 |
| 5. | Tatneft | 14427 |
| 6. | NOVATEK | 13351 |
| 7. | Saxalin Enerji | 5978 |
| 8. | Slavneft | 4891 |
| 9. | Yamal SPQ | 3810 |
| 10. | Alliance Oil Company Ltd. | 3665 |

Cədvəl 14.12-dən görünür ki, Rusiyanın neft-qaz kompaniyaları arasında satışının həcminə görə “Lukoyl”, “Rosneft” və “Surqutneftqaz” korporasiyaları daha çox fərqlənirlər.

[1] raex.rr.com/country/RAEX-600/rating_of_gas_and_oil_companies

Rusiyanın və digər keçmiş sosialist ölkələrinin TMK-ları haqqında dərslərdə müəllim tərəfindən ətraflı məlumat verilməlidir.

## 7. DÜNYANIN ƏSAS QEYRİ-İSTEHSAL (XİDMƏT) TMK-LARI

Beynəlxalq səviyyədə güclü olan Transmilli Korporasiyaların yaradılması yalnız istehsal sferasında yox, həm də qeyri-istehsal (xidmət) sahələrində baş verir. TMK-lar dünyada istehsalla bərabər ticarət, bank, audit, sığorta və s. fəaliyyətin xeyli hissəsinə nəzarət edirlər. Dünya ticarətinin 2/3 hissəsi bu korporasiyaların payına düşür. Bank kapitalının transmilliləşməsi sənaye kapitalına nisbətən sürətlə baş verir. Bu səbəbdən Transmilli Banklar (TMB) transmilliləşmə dərəcəsi (indeksi) və ölçülərinə görə digər TMK-ları qabaqlayır. Müasir beynəlxalq iqtisadi münasibətlərdə 500-ə yaxın iri bank (sənayecə inkişaf etmiş ölkələrin 50.000-dən çox bankından) mühüm rol oynayır ki, bunların da təqribən üçdə bir hissəsinin 2 mlrd dollara yaxın aktivləri, xarici nümayəndəliklər şəbəkəsi, ən azı altı ölkədə filialları və törəmə bankları vardır. Beynəlxalq əməliyyatların və xarici kreditlərin çox hissəsi əsas maliyyə resurslarına real şəkildə nəzarət edən TMB-lər vasitəsilə həyata keçirilir, dünyanın aparıcı TMB-ləri Çin, Yaponiya və Amerika TMB-ləri hesab olunur. Beynəlxalq bank qrupları ayrıca bir kreditorun verdiyindən xeyli miqdarda ortamüddətli kreditlər verirlər. Çünki, birləşmiş banklardan ibarət kreditorların riskləri onların bu kreditlərdə iştirak payları ilə məhdudlaşmışdır.

Milli dövlət himayəsindən azad olan və faktiki olaraq onun tabeliyindən çıxan transmilli kapital uzun iqtisadi təkamül prosesi nəticəsində maliyyə instutları – TMB-lər yaratmışdır. Bu banklar TMK-nın hərəkət və fəaliyyətini təmin etmək üçün zəruri olan bütün maliyyə funkisyalarını yerinə yetirirlər.

TMK-lara xidmət edən iri banklar və dünya maliyyə bazarlarında ona artan tələbat təbii ki, onun xaricdə öz filial, bölmə, törəmə banklarının yaranmasına şərait yaratdı. Beləliklə banklar özləri tansmilli xarakter almış oldular.

Transmilliləşmə prosesi əvvəlcə öndə, amma sonra kapitalın təmərküzləşməsi prosesi ilə yanaşı getmişdir. Bank kapitalının təmərküzləşməsinin əsas ilkin səbəbi istehsalın təmərküzləşməsi, istehsalın maya dəyərini azaltmaq və xüsusi rəqabət qabiliyyətini artırmaq üçün istehsalın miqyas effektindən istifadə edərək sənaye müəssisəsinin ölçüsünün böyüməsi olmuşdur.

Bank kapitalı da həmin prinsiplərlə təmərküzləşmişdir. Bank kapitalının təmərküzləşməsi XX əsr boyunca İEÖ-lər üçün xarakterikdir. Təmərküzləşmə ilə yanaşı bank kapitalının mərkəzləşməsi baş verir. Bu zaman xırda banklar iri və orta banklar tərəfindən sıxışdırılır. İri banklar daha iri banklara qovuşur.

Transmilliləşmənin digər səbəbi və hərəkətvericisi global maliyyə bazarlarının yaranması və orada maliyyə vasitəçiliyinin zəruriliyidir. Beləliklə, nə qədər ki, dünya maliyyə bazarında pul və digər maliyyə alətləri daima hərəkətdədir, bir xüsusi şəxsdən digərinə yerini dəyişir, onda müxtəlif beynəlxalq maliyyə vasitəçilərinə zərurət yaranır.

Müasir dünya maliyyə sisteminə iki səviyyədə baxmaq olar:

Birinci səviyyəni transmilli və beynəlxalq kommersiya bankları (universal və ixtisaslaşmış), ikinci səviyyəni isə dövlətlərarası maliyyə institutları (Dünya Bankı, Beynelxalq Valyuta Fondu və s.) təşkil edir.

Dünya maliyyə bazarında mərkəzi rol kommersiya banklarına məxsusdur. Onlar nəinki beynəlxalq ödəmələri həyata keçirir, həm də təcrübi olaraq beynəlxalq iqtisadi münasibətlərin bütün tərəflərini əhatə edə bilirlər.

Beynəlxalq kapital bazarında dolğun informasiya və keyfiyyətə malik birincidərəcəli, yəni ən yaxşı maliyyə vasitəçiləri və davamlı, yəni ciddi borc alanlar fəaliyyət göstərirlər. TMB-lərin beynəlxalq şöbələri valyuta əməliyyatlarının əsas hissəsini (təqribən 95%-ni)

həyata keçirirlər. Banklar korporasiyanın səhm və istiqrazlarının buraxılmasında yazışmaları tətbiq edirlər.

Beynəlxalq banklar az dərəcədə əmtəə mübadiləsinə, daha çox isə kapital mübadiləsinə xidmət edirlər. Əgər əvvəllər onların fəaliyyətləri müştərilərin tapşırıqları ilə valyutaların alqı-satqısı ilə məhdudlaşırdısa, hal-hazırda onlar kompaniyaların daxili dövriyyəsini və xarici partnyorlarla münasibətlərini idarə edərək bütün mürəkkəb beynəlxalq hesablaşmaları həyata keçirirlər. Hətta valyutaların alqı-satqısı indi kapital mübadiləsinin tələbatından yaranır. Buna görə də kapitalın səfərbərliyində TMB-lərin rolu daha böyükdür.

TMB-lər iri bank təsisatıdır. Bu səviyyədə kapitalın təmərküzləşməsi və mərkəzləşməsinə nail olmaq olur. Sənaye inhisarları ilə qovuşması onların dünya ssuda kapitalı və valyuta – kredit resursları bazarında real iştirakını nəzərdə tutur.

İri banklar dünya maliyyə mərkəzlərini formalaşdırırlar. Bu mərkəzlər vasitəsilə məhz beynəlxalq maliyyə axınları həyata keçirilir. Bu mərkəzlər əsas pul saxlayanlar hesab edilir.

Hal-hazırda beynəlxalq bankların təmərküzləşdiyi 3 əsas region vardır:

ABŞ, Qərbi Avropa və Cənubi-Şərqi Asiyada kəskin rəqabət mübarizəsi nəticəsində beynəlxalq maliyyə mərkəzləri yaranmışdır: Onlar Nyu-York, London, Sürix, Tokio, Honkonq, Frankfurt-na Mayn mərkəzləridir. Hal-hazırda 13 maliyyə mərkəzi bir qayda olaraq İEÖ-lərin təxminən 1000-ə yaxın xarici bank filialı və şöbələrini əhatə edir.

Əsasən sənayecə İEÖ-lərin iri kommersiya banklarının bazasında formalaşan TMB-lər milli və beynəlxalq ssuda kapitalları bazarında hökmranlıq edirlər.

TMB-lərin xarici strukturunda şöbələr, filiallar, nümayəndəliklər, törəmə banklar və digər nəzarət altında olan bölmələr vardır. Törəmə banklar və nəzarət altında olan xarici banklar tam və qismən nəzarət edilənə bölünürlər. Tam nəzarət edilən törəmə banklar hüquqi cəhətdən müstəqildirlər. Lakin maliyyə münasibətlərində asılıdırlar.

Müasir şəraitdə kompüter texnikasının inkişafı iri banklara kreditlərin verilməsi və istiqrazların alınmasını heç də xaricdə filial təsis etmədən həyata keçirməyə imkan verir.

Hal-hazırda daha geniş yayılan **ofşor banklardır.** Onlarsız praktiki olaraq heç bir TMB-nin əməliyyatları keçinə bilməz. Prinsipcə ofşor bankların təşkili məqsədləri ofşor kompaniyalarla eynidir. Onlardan ən əsası vergiqoymanı minimumlaşdırmaqdır.

Ofşor bankların aşağıdakı xüsusiyyətləri vardır:

- Bankın qeydiyyata alındığı ölkənin rezidentləri ilə işləmək hüququ yoxdur;
- Qeydiyyata alınmaq üçün ödənilən nizamnamə kapitalının tələb edilən həcmi digər ölkələrə nisbətən çox aşağıdır;
- Bank praktiki olaraq vergilərdən azaddır;
- Ehtiyat saxlamaq və digər bank normativlərinə qoyulan tələblər bir qayda olaraq ofşor banklarında başqa ölkələrə nisbətən daha az ciddidir, ölkə xaricində əməliyyatlara görə valyuta nəzarəti mövcud deyil.

Dünya iqtisadiyyatında Men, Qernsi və Cernsi adalarının, Baham adalarının, Sent-Kristofer və Nevis Federasiyasının, Niderland Antil adalarının, Arubi, Kayman adasının, Virginya adaları, Panama (ofşor biznesin beşiyi) və nəhayət Kipr ofşor bankları daha böyük rol oynayırlar.

Son zamanlar xüsusi İsveçrə bankaları kimi tanınan ofşor biznes çox geniş inkişaf etmişdir.

Kayman adalarında 500-dən çox ofşor banklar və 1300 sığorta kompaniyası qeydə alınmışdır. Belə ki, dünyanın 50 iri bankının 43-nün burada bölmə və törəmə bankları vardır. Kayman adalarında bankların bölmələrinin məcmu depozit qoyuluşunun məbləği astronomik rəqəmə - 150 mlrd dollara çatmışdır. Honkonqda xarici bankların 1,5 mindən çox bölməsi fəaliyyət göstərir.

XXI əsrin əvvəllərində şaxələnmiş, çoxqatlı və çoxfunkisyalı TMB sistemi transmilli kapitalın əsas tələbatlarını ödəyir və dünya maliyyə bazarlarının fəaliyyətinin institusional əsasını təşkil edir.

Bütün bu proseslərin nəticəsi olaraq dünyada aşağıdakı beynəlxalq maliyyə mərkəzləri yaranmışdır:

- ❖ Nyu-York;
- ❖ London;
- ❖ Tokio.

Dünyada qeyri-istehsal (xidmətlər) sahəsində xüsusi rolu olan dünyanın ofşor maliyyə mərkəzləridir.

Bu mərkəzlər 1960-cı illərdən başlayaraq artmağa başlamışdır. Hazırda dünyada 20-dən artıq ofşor maliyyə mərkəzləri vardır.

**1960-cı illərdə** yaranmış ofşor maliyyə mərkəzləri aşağıdakılardır:

1.Sinqapur;
2.Baham adaları – Nassauda (Karib hövzəsi);
3.Kayman adaları;
4.Panama.

**1970-ci illərdə** yaranmış ofşor maliyyə mərkəzləri aşağıdakılardır:

1.Bəhreyn;
2.Filippin;
3.Norman adaları;
4.Şennon (Avropada).

**1980-ci illərdə** yaranmış ofşor maliyyə mərkəzləri aşağıdakılardır:

1.Mayami (Los-Angeles);
2.İsveçrə;
3.Almaniya;
4.Niderland;
5.Belçika;
6.Kanada (Toronto);
7.Tokio;
8.Tayvan;
9.Honkonq.

**1990-cı illərdə yaranmış** ofşor maliyyə mərkəzləri aşağıdakılardır:

1.Cəbəllütarix;
2.Kipr;
3.Virginiya adaları;
4.CAR və s.

XX əsrin 90-cı illərində dünya təsərrüfatında miqrasiya olunan kapitalın 50%-dən çoxu xüsusi sektorun – bankların, investisiya, sığorta, pensiya və s. fondların payına düşürdüsə, 2000-ci illərdən sonra kapitalın miqrasiyasında onların payı 25 faizə düşmüş, TMK-ların payı 75%-ə çatmışdır.

Son dövrlərdə dünyada qeyri-istehsal (xidmətlər) sahəsində TMK-lar daha sürətlə artmışdır. Xüsusilə istehlak malları ticarəti, maliyyə xidmətləri, biznes və istirahət xidmətləri sahəsində daha çox TMK-lar yaranmışdır. Dünyanın əsas ölkələrinin xidmət sahələri üzrə iri TMK-larının sayı cədvəl 14.13-də verilir.

**Cədvəl 14.13**

**Dünyanın əsas ölkələrinin xidmət sahələri üzrə iri TMK-larının sayı**

| **Ölkə lər** | **İsteh-lak mal-ları** | **Biznes və icti-mai xidmət-lər** | **Maliy-yə xidmət-ləri** | **Kom-mu-nal** | **Daşın-maz əmlak** | **İstira-hət və turizm** | **Tica-rət** | **Bey-nəl-xalq tica-rət** | **KİV və nəşr** | **Çox-sahə-li** | **Cəmi** |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| ABŞ | 47 | 14 | 34 | 3 | - | 6 | 8 | 1 | 6 | 9 | 128 |
| Yaponiya | 13 | 3 | 23 | 5 | 2 | - | 1 | 5 | 1 | - | 53 |
| B.Britaniya | 11 | 7 | 17 | - | 2 | 6 | 8 | - | 3 | 5 | 59 |
| Almaniya | 6 | 2 | 8 | - | - | - | - | - | - | 1 | 17 |
| Fran sa | 4 | 3 | 5 | - | - | - | 3 | - | 1 | - | 16 |
| Kanada | 1 | - | 5 | - | - | - | 1 | - | 1 | 1 | 9 |
| İsveç | 2 | - | 5 | 1 | - | - | 1 | - | - | - | 9 |
| Avstraliya | 1 | - | 5 | 1 | - | - | - | - | 1 | - | 8 |
| Hollandiya | 2 | - | 3 | - | - | - | - | - | 2 | - | 7 |
| İsveç rə | 4 | 1 | 4 | - | - | - | - | - | - | 2 | 11 |
| Hon konq | - | - | - | - | 5 | - | - | - | - | 3 | 8 |
| **Cəmi** | 91 | 30 | 109 | 10 | 9 | 12 | 22 | 6 | 15 | 21 | 325 |

14.13-cü cədvəldən göründüyü kimi dünyada xidmət sahələri üzrə ən iri TMK-ları ABŞ, Yaponiya və Böyük Britaniyaya məxsusdur.

**Cədvəl 14.14**

**Bazar dəyərinə (kapitallaşmasına və işçilərinin sayına görə dünyanın 10 ən nəhəng maliyyə TMK-sı[1] (mlrd dollarla), 2018**

| **№** | **TMİ,%** | **Korporasiya** | **Ölkə** | **Aktivləri** | **İşçilərinin sayı, min nəfər** | **Bölmə lərin sayı** |
|---|---|---|---|---|---|---|
| **1.** | 73 | Citiqroup İnc. | ABŞ | 1938 | 322 | 1020 |
| **2.** | 62 | Allianz SE | Almaniya | 1367 | 182 | 823 |
| **3.** | 60 | ABN AMRO Holdinq NV | Niderland | 953 | 69 | 945 |
| **4.** | 59 | Assiourazioni Generali SpA | İtaliya | 549 | 84 | 396 |
| **5.** | 59 | HSBC Holdings PLC | B.Britaniya | 2527 | 331 | 1048 |
| **6.** | 59 | Societe Generale | Fransa | 1616 | 160 | 526 |
| **7.** | 58 | Zurich Financial Services | İsveçrə | 327 | 57 | 393 |
| **8.** | 57 | UBS AG | İsveçrə | 1926 | 77 | 465 |
| **9.** | 57 | Unicredito İtaliano SpA | İtaliya | 1495 | 174 | 1111 |
| **10.** | 56 | AXA Group | Fransa | 963 | 109 | 575 |

Bazar dəyərinə (kapitallaşmasına) və işçilərinin sayına görə dünyanın 10 ən nəhəng maliyyə TMK-ları 14.14-cü cədvəldə verilir.

[1] World Bank, Bank for International Settlements Fortune.

14.14-cü cədvəldən görünür ki, nəhəng maliyyə TMK-ları əsasən Avropa ölkələrinin TMK-larıdır. Lakin aktivlərinə, işçilərinin və bölmələrinin sayına görə ABŞ-ın "Citiqrup İnc." Korporasiyası yenə də ən böyükdür.

Dünyanın qeyri-istehsal (xidmətlər) TMK-ları arasında Transmilli Banklar (TMB) xüsusi rol oynayır. Onların sayı daha çoxdur. Birinci 100-lüyə daxil olan TMB-lərinin ölkələr üzrə sayı 14.15-ci cədvəldə verilir. Nəzərə almaq lazımdır ki, TMB-lərin də müxtəlif əlamətlər üzrə qruplaşmaları vardır. Buradakı 100 TMB aktivlərinin məbləğinə görə verilmişdir.

Dünyanın həm istehsal, həm də qeyri-istehsal (xidmətlər) sahələrində olan TMK-ları özlərinin brendləri ilə tanınırlar. Brendlər müxtəlif agentliklərin, QHT-lərin və digər qurumların reytinqləri ilə qiymətləndirilir. "Interbrend" agentliyinin nəticələrinə görə dünya brendlərinin reytinqi cədvəl 14.16, "Brands" versiyasına görə "Top-10" brendi və onların dəyəri cədvəl 14.17-də verilir. Brendlərin reytinqi illər üzrə daim dəyişir və yenilənir.

**Cədvəl 14.15**

**Dünyanın birinci 100-lüyünə daxil olan nəhəng TMB-lərin ölkələr üzrə sayı**[1]

| **№** | **Ölkələr** | **TMB-lərin sayı** | **Aktivlərin məbləği, mlrd dollar** |
|---|---|---|---|
| **1.** | Yaponiya | 24 | 5635 |
| **2.** | Almaniya | 12 | 1604 |
| **3.** | Fransa | 11 | 1932 |
| **4.** | ABŞ | 10 | 1987 |
| **5.** | İtaliya | 8 | 848 |
| **6.** | Böyük Britaniya | 7 | 1002 |
| **7.** | İspaniya | 5 | 379 |
| **8.** | Belçika | 4 | 290 |
| **9.** | İsveç | 4 | 284 |
| **10.** | Avstraliya | 4 | 266 |
| **11.** | Niderland | 3 | 476 |
| **12.** | İsveçrə | 3 | 447 |
| **13.** | Çin XR (Honkonqla) | 2 | 323 |
| **14.** | Kanada | 2 | 212 |
| **15.** | Danimarka | 1 | 61 |
| | **Cəmi:** | 100 | 15746 |

**Cədvəl 14.16**

**"İnterbrend" agentliyinin nəticələrinə görə dünya brendlərinin reytinqi**

| **№** | **2005** | **2010** | **2015** |
|---|---|---|---|
| **1.** | Coca-Cola | Apple inc. | Apple inc. |
| **2.** | Microsoft | IBM | Microsoft |
| **3.** | IBM | Microsoft | Google |
| **4.** | General Electric | Google | Coca-Cola |
| **5.** | Intel | General Electric | IBM |
| **6.** | Nokia | McDonalds | McDonalds |
| **7.** | Disney | Intel | Samsung |
| **8.** | McDonlads | Nokia | Toyota |
| **9.** | Toyota | Disney | General Electric |
| **10.** | Marlboro | Newlet-Packard | Facebook |

[1] https://money.cnn.com/magazines/fortune/global500/industries/Banks-Commercial_and_Savin.gs/1.html

**Cədvəl 14.17**

**"Brands" versiyasına görə dünyanın "Top-10" brendi və onların dəyəri (2015)**

| № | Brend | Dəyəri | Sahə |
|---|---|---|---|
| **1.** | Apple inc. | 246999 | Texnologiya |
| **2.** | Google | 173652 | Texnologiya |
| **3.** | Microsoft | 115500 | Texnologiya |
| **4.** | IBM | 93987 | Texnologiya |
| **5.** | Visa | 91962 | Ödəniş |
| **6.** | AT and T | 89492 | Telekom |
| **7.** | Verizon | 86009 | Telekom |
| **8.** | Coca-Cola Co. | 83841 | Spirtsiz içkilər |
| **9.** | McDonalds | 81162 | Sürətli yemək |
| **10.** | Phillip Morris International | 80352 | Tütün |

## 8. TRANSMİLLİLƏŞMƏ VƏ BEYNƏLXALQ İNTEQRASİYA PROSESLƏRİ

Transmilli Korporasiyalar beynəlxalq istehsalın maddi bazasıdır. Qlobal iqtisadi dünyada onların rolu getdikcə artır və daha da genişlənir.

Transmilliləşmə ölkələrin milli iqtisadiyyatlarının milli sərhədlərdən çıxaraq başqa ölkələrin ərazisinə daxil olması, yerləşməsi və birləşməsi prosesidir, iqtisadi və sonradan digər inteqrasiyalara açdığı yoldur. Daha böyük kapitala malik olan TMK-lar digər ölkələrdə özlərinin törəmə (qız) müəssisələrini filiallarını (şöbələrini), assosiasiv kompaniyalarını açmaqla və birgə (müştərək) müəssisələr yaratmaqla digər ölkələrin istehsal və xidmət sektoruna qovuşur və beynəlxalq inteqrasiya yaranır.

Ölkədaxili inteqrasiya ölkə sərhədləri daxilindəki müəssisələr və sahələr arasında yaranırsa, xarici inteqrasiya iki və daha çox ölkənin subyektlərinin birləşməsi nəticəsində yaranır.

Transmilliləşmə ölkələrin iqtisadi, siyasi, sosial və s. sərhədlərdəki inteqrasiyasına səbəb olur, buradan da inteqrasiya birlikləri, ittifaqları və siyasəti meydana gəlir.

İnteqrasiya (integratio) latın sözü olub "birləşmə", "qovuşma" mənalarını verir. Ayrı-ayrı hissələrin bir tamda birləşməsi prosesidir. Müxtəlif inteqrasiyalar – siyasi, sosial, iqtisadi, ekoloji, sistem və s. inteqrasiyaları formasında təzahür edir.

Siyasi inteqrasiya – iki və daha çox siyasi strukturların, sosisal inteqrasiya – iki və daha çox sosial strukturların, iqtisadi inteqrasiya – iki və daha çox müəssisələrin, sahələrin, regionların və ölkələrin birləşməsi, qovuşması və bir tama çevrilməsi proseslərinin məcmusudur.

Dünya iqtisadçıları iqtisadi inteqrasiyanı aşağdakı növlərə bölürlər:

1.Daxili inteqrasiya (ölkə sərhədləri daxilində);
2.Xarici inteqrasiya (milli iqtisadiyyatların);
3.Ərazi inteqrasiyası (texnoparklar, sənaye dairələri, innovativ klasterlər və s.);
4.Sahə inteqrasiyası (iqtisadi sahələr üzrə);
5.Şaquli inteqrasiya (vahid texnoloji);
6.Üfüqi inteqrasiya (eyni profilli təsərrüfat subyektləri);
7.Ticarət inteqrasiyası (Azad Ticarət Zonaları daxilində);
8.İstehsal inteqrasiyası (müəssisə, fabrik, zavod, TMK və s.);
9.Valyuta-maliyyə inteqrasiyası (müstəqil dövlətlərin birləşməsi -Aİ, NAFTA, ŞOS və s.).

Beynəlxalq iqtisadi inteqrasiya ölkələrin – dövlət və inzibati ərazi vahidlərinin milli iqtisadiyyatlarının birləşməsi proseslərinin məcmusudur.

İqtisadi inteqrasiya proseslərinin yaranmasına təsir edən amillər aşağıdakılardır:

1) Sivilizasiya amilləri;
2) İnfrastruktur amilləri;
3) Siyasi amillər;

4) İqtisadi amillər;
5) Sosial amillər və s.

Sivilizasiya amillərinə – xalqların, millətlərin və dövlətlərin tarixi ənənələri, həyat tərzi, inkişaf mərhələləri, milli-dini xüsusiyyətləri, fərqli əlamətləri, üstünlükləri və s., infrastruktur amillərinə – geoiqtisadi, geosiyasi mövqeyi, resursları, elmi-texniki və texnoloji inkişaf səviyyəsi və s., siyasi amillərinə – aparıcı beynəlxalq təşkilatlara üzvlüyü və iştirakı səviyyəsi, demokratik iqtisadi sistemi, dövlət imici və s., iqtisadi amillərinə – illik ÜDM-i və gəlirləri, dövlət borcu, inflyasiyanın səviyyəsi, qızıl-valyuta ehtiyatları, transregional layihələrdə iştirakı və s., sosial amillərə – işsizlik, məşğulluq və yoxsulluq səviyyəsi, təhsil, elm, mədəniyyət, səhiyyə, sosial müdafiə və s. daxil edilir.

**“İqtisadi inteqrasiya”** termini 1930-cu illərdə ilk olaraq alman və isveç iqtisadiçı alimlərinin əsərlərində işlədilməyə başlanmışdır.

Beynəlxalq iqtisadi inteqrasiyanın **obyektiv ilkin şərtləri** aşağdakılardır:

1) İnteqrasiya edən ölkələrin iqtisadi inkişaf səviyyəsinin uyğunluğu;
2) Coğrafi yaxınlığı;
3) Qarşılıqlı əlaqələrin tarixi xarakteri;
4) Ölkələrin siyasi iradə və mənafeləri;
5) Milli qanunvericiliklərin norma və standartlarının uyğunlaşdırılması;
6) Güclü kapitala malik olmaq;
7) Yüksək texnika və texnologiyaya malik olmaq;
8) İntellektual əmək resurslarına malik olmaq və s.

İqtisadi inteqrasiya proseslərinin **əsas məqsədləri** aşağıdakılardır:

1) Üzv ölkələrin iqtisadi siyasətinin uzlaşdırılması;
2) Əlverişli xarici siyasət mühitinin yaradılması;
3) Çoxtərəfli ticarət-iqtisadi danışıqlar aparmaq və razılaşmalar əldə etmək;
4) İqtisadiyyatlarının struktur dəyişikliklərinə dəstək vermək;
5) Dünya bazarında mövqelərin birləşdirilməsi;
6) Daha çox mənfəət əldə etmək;
7) Dünya bazarında daha böyük paya malik olmaq;
8) Nüfuz dairəsində olan ölkələri asılı vəziyyətdə saxlamaq və s.

Transmilliləşmə və beynəlxalq iqtisadi inteqrasiyanın **hərəkətverici qüvvələri** aşağıdakılardır:

1) Firmadaxili və firmalararası əmək bölgüsü;
2) Milli əmək bölgüsü;
3) Beynəlxalq əmək bölgüsü.

**Səviyyəsinə görə** iqtisadi inteqrasiya iki qrupa bölünür:

1) Mikro səviyyədə inteqrasiya;
2) Makro səviyyədə inteqrasiya.

**Ərazi əlamətinə görə** iqtisadi inteqrasiya iki qrupa bölünür:

1) Regional (ərazi) inteqrasiyası;
2) Beynəlxalq inteqrasiya.

**Fəaliyyət istiqamətinə görə** iqtisadi inteqrasiya iki qrupa bölünür:

1) Universal inteqrasiya (ATƏT, AŞ);
2) İxtisaslaşmış inteqrasiya (ÜTT).

Transmilliləşmə əsasən firmalararası əmək bölgüsü, ölkələrin kompaniyaları, arasında mikro səviyyədə, dünyanın regionlarını əhatə etməklə ixtisaslaşmış istiqamətdə gedir. Beynəlxalq inteqrasiya prosesləri beynəlxalq əmək bölgüsü, ölkələr arasında makro səviyyədə, dünyanın İEÖ və İEOÖ-lərdə beynəlxalq miqyasda, əsasən universal istiqamətdə gedir.

Beynəlxalq iqtisadi inteqrasiya prosesləri nəzəri mənbələrdə aşağıdakı əsas mərhələlərə (səviyyələrə) bölünür:

1. Preferensial (imtiyazlı) ticarət sazişləri (iqtisadi və ticarət əməkdaşlığı sazişləri də deyilir);
2. Azad Ticarət Zonası (ATZ);
3. Gömrük birliyi (ittifaqı);
4. Ümumi bazar;
5. İqtisadi birlik (ittifaq).

İqtisadi birlik (ittifaq) tam iqtisadi inteqrasiya və vahid iqtisadi məkan hesab edilir.

Macar əsilli amerikan iqtisadçısı, bazar inteqrasiyası nəzəriyyəsinin banisi B. Balassa (1965, Vaşinqton) beynəlxalq inteqrasiya mərhələlərini 14.5-ci sxemdə olduğu kimi verir.

14.5-ci sxemdən görünür ki, B. Balassa inteqrasiya mərhələlərini beş mərhələyə bölməklə Azad Ticazrət Zonasından başlayaraq tam iqtisadi inteqrasiyaya qədər (iqtisadi birlik və ittifaqa qədər) olan mərhələlərinin əsas sərhədlərini verir.

Qeyd etmək lazımdır ki, digər iqtisadi inteqrasiya nəzəriyyələrində - korporasiyalaşdırma nəzəriyyəsi (S.Rolf, U.Rostou – 1950), strukturlaşdırma nəzəriyyəsi (Q. Myurdal – 1955), vahid bazar məkanı nəzəriyyəsi (V. Repke, M. Alle – 1960) və s. nəzəriyyələrdə transmilliləşmə – beynəlxalq iqtisadi inteqrasiya prosesləri dərindən tədqiq əsasında verilir.

**Sxem 14.5**

**B. Balassaya görə beynəlxalq inteqrasiya mərhələləri**



Transmilliləşmənin artması və genişlənməsi nəticəsində dünya ölkələrini birləşdirən iqtisadi birlik və ittifaqlar yaranmışdır. Dünyada iqtisadi inteqrasiya mərhələləri və səviyyələri üzrə əsas beynəlxalq birliklər və ittifaqlar cədvəl 14.18-də verilir.

14.18-ci cədvəldən görünür ki, inteqrasiya mərhələləri və səviyyələri üzrə sazişlər, assosiasiyalar, zonalar, ümumi bazarlar, şuralar, birliklər, ittifaqlar və s. 1950-ci illərdən yaranmağa başlamış, 90-cı illərin sonuna qədər davam etmişdir. İqtisadi və ticarət əməkdaşlığı sazişləri bütün mərhələlərdən əvvəl preferensial (imtiyazlı) ticarət sazişləri kimi daha çox bağlanmışdır və mövcud olmuşdur. Məqsədinə görə daha çox siyasi amillər təsir etmiş və bu proses davam etməkdədir.

İnteqrasiya birlikləri, ittifaqları, xüsusilə beynəlxalq təşkilatlar dünyanı dəyişən qərarlar qəbul edirlər. Bütün bu qurumların əsas maliyyələşdirmə mənbələri birbaşa və vasitəli olan TMK-lardır.

**Cədvəl 14.18**

**Dünyada iqtisadi inteqrasiya mərhələləri və səviyyələri üzrə beynəlxalq birliklər və ittifaqlar**

| İnteqrasiya mərhələləri (məqsədlər) | Adı və yaradılma tarixi | İttifaq və dövlətlər |
|---|---|---|
| İqtisadi və ticarət əməkdaşlığı sazişləri | Avropa İttifaqı və keçmiş SSRİ ölkələri arasında əməkdaşlıq və partnyorluq barədə saziş,1994 | Aİ,Belarus,Qazaxıstan, Rusiya,Ukrayna |
| | Aİ ilə assosiasiya barədə saziş, 1991-1995 | Bolqarıstan, Çexiya, Macarıstan, Polşa, Rumıniya, Slovakiya, Estoniya, Latviya, Litva, Sloveniya |
| | “Bütün Amerika Təşəbbüsü”,1990 | ABŞ və əksər LA və Mərkəzi Amerika ölkələri |
| Azad Ticarət Zonası (ATZ) | Avropa Azad Ticarət Assosiasiyası – AATA, 1960 | Avstriya, Finlandiya, İslandiya, Lixtenşteyn, Norveç, İsveç |
| | Avropa İqtisadi Zonası,1994 | Aİ ölkələri, İslandiya, Lixtenşteyn |
| | Baltik ATZ,1993 | Estoniya, Latviya, Litva |
| | Mərkəzi Avropa ATZ,1992 | Çexiya, Macarıstan, Polşa, Slovakiya |
| | Şimali Amerika ATZ (NAFTA),1994 | Kanada, Meksika, ABŞ |
| | İqtisadi əlaqələrin dərinləşdirilməsi barədə Avstraliya-Yeni Zelandiya ticarət sazişi, 1983 | Avstraliya, Yeni Zelandiya |
| | Bankok sazişi,1993 | Banqladeş, Hindistan, Cənubi Koreya, Laos, Şri-Lanka |
| Gömrük Birliyi (İttifaqı) | Avropa İttifaqı Türkiyə Assosiasiyası,1963 | Aİ, Türkiyə |
| | Mərkəzi Amerika Ümumi Bazarı,1961 | Kosta-Rika, Salvador, Qvatemala, Honduras, Nikaraqua |
| | Kolumbiya, Ekvador, Venesuela arasında ATZ, 1992 | Kolumbiya, Ekvador, Venesuela |
| | Şərqi Karib Dövlətləri Təşkilatı, 1991 | Antiqua və Barbuda, Dominika, Qrenada, Montserrat, Sent-Kits və Nevis, Sent-Lyusiya, Sent-Vinsent və Qrenadin |
| | Ərəb Ümumi Bazarı, 1964 | Misir, İraq, İordaniya, Liviya, Mavritaniya, Suriya, Yəmən |
| Ümumi Bazar (ÜB) | Fars körfəzi Ərəb ölkələrinin əməkdaşlıq şurası, 1981 | Bəhreyn, Küveyt, Oman, Qətər, Səudiyyə Ərəbistanı, BƏƏ |
| | And ümumi bazarı, 1990 | Boliviya, Kolumbiya, Ekvador, Peru, Venesuela |
| | Latın Amerikası İnteqrasiya Assosiasiyası, 1960 | Argentina, Boliviya, Peru, Braziliya, Çili, Kolumbiya, Ekvador, Meksika, Uruqvay, Venesuela |
| | MERKOSUR – Cənub konusu Ümumi Bazarı, 1991 | Argentina, Braziliya, Paraqvay, Uruqvay |

| | | |
|---|---|---|
| | Karib Birliyi və Karib Ümumi Bazarı – KARİKOM, 1973 | Antiqua və Barbuda, Baham adaları, Barbados, Beliz, Dominika, Qrenada, Qayana, Yamayka, Montserrat, Sent-Kits və Nevis, Sent-Vinsent və Qrenadin, Trinidad və Tobaqo |
| **İqtisadi Birlik (İttifaq)** | Avropa Birliyi – 1957, sonra Avropa İttifaqı – 1993 | Avstriya, Belçika, B. Britaniya, Danimarka, Almaniya, Yunanıstan, İrlandiya, İspaniya, İtaliya, Lüksemburq, Niderland, Portuqaliya, Fransa, İsveç, Finlandiya və s. |
| | Benilüks İqtisadi Birliyi (BENİLUX) 1948 | Belçika, Niderland, Lüksemburq |
| | Müstəqil Dövlətlər Birliyi,1992 | Azərbaycan, Ermənistan, Belarus, Qazaxıstan, Qırğızıstan, Moldova, Rusiya, Tacikistan, Türkmənistan Özbəkistan |
| | Maqrib Ərəb İttifaqı, 1989 | Əlcəzair, Liviya, Mavritaniya, Mərakeş, Tunis |
| | Ölkələrarası təşəbbüs, 1993 | Burundi, Komor adaları, Keniya, Madaqaskar, Malavi, Mavritaniya, Namibiya, Ruanda, Seyşel adaları, Tanzaniya, Uqanda, Zambiya, Zimbabve |
| | Laqos fəaliyyət planı,1973 | Saxaradan cənuba Afrikanın bütün dövlətləri |
| | Manu çayı İttifaqı, 1973 | Qvineya, Liberiya, Syerra-Leone |
| | Qərbi Afrika İqtisadi və Valyuta İttifaqı, 1994 | Benin, Burkina-Faso, Kotdivuar, Mali, Niger, Seneqal, Toqo |

Beynəlxalq təşkilatların bütün dünya ölkələrindən, TMK-lardan topladığı, uçota aldığı və təhlil etdiyi materiallardan hazırladıqları illik (bəzən beşillik və s.) hesabatlar, icmallar, prospektlər və statistik məcmuələr iqtisadi sahələrin dünya üzrə mövcud vəziyyətini qiymətləndirməyə, öz fəaliyyətini bunun əsasında qurmağa və strateji yolunu müəyyən etməyə əsas verir.

# MÖVZU 15. AZƏRBAYCAN DÜNYA İQTİSADİYYATI SİSTEMİNDƏ

## SUALLAR

1.Azərbaycanın dünya məkanına ilkin çıxmasının əsas səbəbləri.
2.Azərbaycanın dünya iqtisadiyyatında mövqeyi.
3.Azərbaycan Respublikasının xarici ticarəti.
4.Azərbaycan Respublikasında xarici investisiyalar.
5. Böyük İpək Yolu – "Şərq-Qərb" iqtisadi əlaqələr sistemində Azərbaycanın mövqeyi, yeri və rolu.
6. "Şimal-Cənub" iqtisadi əlaqələr sistemində Azərbaycanın mövqeyi, yeri və rolu.
7. Azərbaycanda həyata keçirilən Transregional layihələr və onların geoiqtisadi əhəmiyyəti.

## Əsas ədəbiyyat


1. Azərbaycan Respublikası Prezidentinin rəsmi internet səhifəsi. Qanunlar, fərmanlar, sərəncamlar və s.
2. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəsmi internet səhifəsi. "Xarici ticarət əlaqələri", hər il.
3. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin rəsmi internet səhifəsi. "Qeyri-neft sənayesi" və s.
4. Azərbaycan Respublikası Mərkəzi Bankı. Bölüm: Statistika və s.
5. Azərbaycan Respublikası Maliyyə Nazirliyinin rəsmi internet səhifəsi. Dövlət büdcəsi və s.
6. Azərbaycan Respublikası Dövlət Neft Fondunun rəsmi internet səhifəsi. İllik hesabat və s.
7. Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: Sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər". "Azərbaycan" qəzeti, 3 fevral 2021-ci il.
8. Məmmədov Müzəffər. Azərbaycan dünya təsərrüfatı əlaqələri sistemində (Monoqrafiya). "Vektor" Beynəlxalq Nəşrlər Evi, Bakı/Azərbaycan, 2016.
9. Bayramov Vüqar. Azərbaycanda iqtisadiyyatın diversifikasiyasının maliyyə təminatının gücləndirilməsi məsələləri, Bakı, 2018.
10. Şəkərəliyev Arif, Şəkərəliyev Qoşqar. Azərbaycan iqtisadiyyatı: reallıqlar və perspektivlər. Bakı, 2016.
11. Mustafayev F.F. Keçid iqtisadiyyatında dövlət tənzimlənməsinin makroiqtisadi aspektləri. Monoqrafiya. Bakı, Elm, 2008.
12. Muradov Ə.C. Azərbaycan və Ümumdünya Ticarət Təşkilatı: Xidmətlər. Bakı, "Adiloğlu" nəşriyyatı, 2006.
13. Habil Həmidov. Azərbaycan və İpək Yolu. Bakı, 2009.
14. Böyük iqtisadi ensiklopediya. 7 clddə. İdeya rəhbəri və baş redaktoru akademik Z.Ə.Səmədzadə. Bakı, 2012-2015.
15. Azərbaycan və Dünya Ticarət Təşkilatı. İqtisadi Tədqiqatlar Mərkəzi, Bakı, 2008.
16. Abbasov Çingiz. Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiya yolları. "Elm" nəşriyyatı, Bakı, 2005.
17. Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya mərkəzinin hesabtları.
18. R.T.Həsənov Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafının bazar modelinin konseptual əsasları. Bakı, Elm, 1998.
19. Vəliyev D. Azərbaycanın qlobal iqtisadiyyata inteqrasiyası. Bakı, Adiloğlu, 2008.

20. Гаджиев Ш.Г. Азербайджан на пути к мировому сообществу: стратегия внешнеэкономического развития. Монография, Киев, 2000.
21. Рустамбеков Г.Б. Националъные экономические интересы. (предпосылки, цели и средства достижения). Ваку, 1998.
22. Гулиев М.Е. Экономические связи Азербайджана с Россией: проблемы, приоритеты, перспективы. Издателъство Санкт-Петербург ГУЭФ, 2002.
23. Мамедов М.Г. Повышение международной конкурентос-пособности Азербайджана в контексте задач инновационного развития. Киев, 2009.
24. Миришли Ф.Р., Глобализация мировой экономики: феномен Азербайджана, Москва, 2008.
25. Алиев Шафа. Важниейшие детерминанты устойчивого развития экономики Азербайджана. Баку, "Элм", 2010.

## 1. AZƏRBAYCANIN DÜNYA MƏKANINA İLKİN ÇIXMASININ ƏSAS SƏBƏBLƏRİ

Azərbaycan dünyanın ən qədim yaşayış məskənlərindən biridir. 300-400 min il bundan əvvəl yaşamış Aşöl dövrünə aid qədim insanın – Azıx adamının (Azıxantrop) çənə sümüyünün Azərbaycan ərazisində tapılmasına görə Azərbaycan ərazisi "Avropanın ən qədim sakinləri" xəritəsinə daxil edilmişdir.

Azərbaycanın Orta Tunc dövründə əsası qoyulmuş (e.ə. III minillik), 3500 ildən artıq tarixi olan Naxçıvan şəhərinin, Adəm-Həvva baba-nənəmizin 9-cu nəslindən olan Nuh peyğəmbərin gəmisinin məhz Naxçıvanda dağa dəyməsi, "Qurani-Kərim"də adı çəkilən "Əshabi Kəhf"in burada olması, 2500 ildən artıq tarixi olan Qəbələnin, Beyləqanın, Gəncənin, Şamaxının, Təbrizin və s. qədim yaşayış yerlərinin, elm və mədəniyyət mərkəzlərinin, qədim şəhər mədəniyyəti nümunələrinin, metal pulların, karvansara, qala, məbəd, türbə, məqbərə, məscid, kilsə, hamam, kanalizasiya və s. tarixi-arxeoloji abidələrin olması bu ərazinin dünyanın qədim dövlətləri olan ərazi olduğunu sübut edir.

Azərbaycan xalqı dünyanın ən qədim – 5 min illik dövlətçiliyi olan ənənələrinə malikdir. Azərbaycan ərazisində ilk dövlət qurumları və ya etnik-siyasi birliklər hələ eramızdan əvvəl IV minilliyin sonu – III minilliyin əvvəllərindən başlayaraq qədim Azərbaycanın Urmiya hövzəsində yaranmışdır.

Sonrakı dövrlərdə qədim Azərbaycan ərazisində çoxsaylı dövlətlər, şahlıqlar, xanlıqlar, sultanlıqlar və s. mövcud olmuşdur.

1813-cü il Gülüstan və 1828-ci il Türkmənçay müqavilələri ilə Azərbaycan iki imperiya – Rusiya və İran arasında bölünmüşdür. Şimali Azərbaycan Rusiyanın tərkibinə verilmiş və Sovet Azərbaycanı ("Rusiya Azərbaycanı") olmuşdur.

105 ildən sonra Azərbaycan xalqının tarixində ilk Parlamentli respublika olan Azərbaycan Xalq Cümhuriyyəti yaranmışdır ki, bu da bütün Şərq dünyasında, o cümlədən türk-islam dünyasında ilk demokratik, hüquqi və dünyəvi dövlət (1918-1920) olmuşdur.

1920-ci ildə bu cümhuriyyət devrilmiş, Azərbaycan SSR yaradılmış, 1922-ci ildə SSRİ-nin tərkibinə verilmiş, 1991-ci ilə qədər 70 il ərzində SSRİ-nin tərkibində 15 müttəfiq respublika kimi fəaliyyət göstərmişdir.

İndiki Azərbaycan Respublikası ikinci dəfə öz müstəqilliyini SSRİ dağılandan sonra əldə etmişdir. Belə ki, XX əsrin 80-ci illərinin axırlarında SSRİ-də çox ciddi iqtisadi və sonra isə siyasi tənəzzül başlamış, 18 oktyabr 1991-ci ildə **Azərbaycan** öz müstəqilliyini elan etmişdir. Öz müstəqilliyini elan etmiş Azərbaycan dövləti 1992-ci ilin martın 2-də BMT-nin üzvlüyünə qəbul edilməklə, dünya dövlətləri tərəfindən tanınmış, beynəlxalq hüququn subyektinə çevrilmişdir.

1920-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin ərazisi 97,297,67 km$^2$ olmuşdur[1]. Lakin sonrakı dövrlərdə Zəngəzurun və digər ərazilərin SSRİ tərəfindən Azərbaycandan alınaraq Ermənistana verilməsi və zorla Ermənistan dövləti yaratmaları nəticəsində Azərbaycanın ərazisi azalmış, 1991-ci ildə müstəqil Azərbaycan Respublikası 86,6 min km$^2$ ərazi ilə BMT-yə üzvlüyə qəbul edilmişdir.

Göstərildiyi kimi 175 il Şimali Azərbaycan Çar Rusiyası və SSRİ-nin tərkibində faktiki olaraq əyalət və tərkib hissəsi olduğu üçün iqtisadiyyatı da ondan tam asılı vəziyyətdə qurulmuşdu.

Azərbaycan Respublikası Asiyanın cənub-qərb, Avropanın cənub regionunda, Cənubi Qafqazın şərqində yerləşir. Şimaldan cənuba uzunluğu 400 km, şərqdən qərbə 500 km-dir. Sərhədlərinin ümumi uzunluğu 3472 km, quru sərhəddi 2647 km, Xəzər dənizinin qərb tərəfdən su sərhədi 825 km-dir. Rusiya ilə 391, Gürcüstan ilə 471, Ermənistan ilə 1007 km, İranla 765 və Türkiyə ilə 13 km quru sərhəddi vardır. Ərazisində Böyük Qafqaz, Kiçik Qafqaz, Talış dağları və Kür-Araz ovalığı yerləşir. Ən aşağı yeri Xəzər dənizi sahili Neftçalada dəniz səviyyəsindən 26 metr aşağı, ən hündür yeri Baş Qafqaz silsiləsinin Böyük Qafqaz dağlarında olan Bazardüzüdür (4466 metr). Orta yüksəklik 657 metrdir.

Azərbaycanın paytaxtı Bakı şəhərindən şimal qütbünə qədər olan məsafə 5550 km, cənuba ekvatora qədər olan məsafə 4440 km-dir. İspaniya, Yunanıstan, Türkiyə, Çin və Koreya ilə eyni coğrafi enlikdədir. Avropa və Asiya qitələrinin sərhəddində, Şimal və Şərq yarımadalarında yerləşir. Materikdaxili, lakin dənizsahili mövqeyə malikdir.

Azərbaycan ən mühüm neft-qaz resursu olan ölkələrdən biri hesab edilir. Ölkə ərazisinin 70%-i neft-qaz ehtiyatlarına malikdir. Şərq tərəf - Xəzər şelfi, Abşeron yarımadası, Qobustan və Cənub-Şərqi Şirvan neft-qaz ehtiyatları, qərb tərəf - Daşkəsən dəmir filizi yatağı, ehtiyatlarına görə dünyada Çindən sonra 2-ci yeri tutan Zəylik alunit yatağı, Gədəbəy mis ehtiyatları, Naxçıvan, Balakən və Ağdərə polimetal yataqları, Kəlbəcər, Naxçıvan, Daşkəsən və Gədəbəy qızıl yataqları, mərkəz tərəf - əhəngdaşı, gips, çınqıl, mərmər, travertin, qum, gil və s. qeyri-filiz ehtiyatlarına malikdir.

Ölkədə 11 iqlim qurşağından 9-u mövcuddur. Düzənlik ərazilərində ildə iki dəfə məhsul götürmək olar. Pambıq, tütün, üzüm, taxıl, zeytun, çay, zəfəran və sitrus meyvələri daha yaxşı yetişir.

Azərbaycanın hidroloji ehtiyatı 37 mlrd kvt təşkil edir. Bu da Qafqazda Gürcüstandan sonra 2-ci yerdir. Ərazisinin cəmi 11 faizi meşəlikdir ki, bu da aşağı səviyyə hesab edilir. Şərqdən Xəzər dənizinə çıxdığı üçün dəniz sərvətlərindən istifadə imkanları böyükdür. Asetrin balığı və qara kürüsünə görə dünyada tanınır. Xəzərin qərb tərəfi - Azərbaycan ərazisi tamamilə beynəlxalq turizm üçün əlverişlidir. Xəzər dənizi ətrafında olan beş ölkənin ən böyük limanı Bakı (Ələt) Beynəlxalq Dəniz Ticarət Limanı burada yerləşir. Volqa-Don kanalı və Volqa çayı ilə okeanlara çıxışı mümkündür.

Azərbaycan böyük xarici turizm ehtiyatlarına malikdir. Neftlə müalicə ocağı Naftalan, Yanardağ, qədim Qobustan, "Qurani-Kərim"də adı çəkilən "Əshabi-kəhf" (Naxçıvan), qədim İçəri şəhər və Qız qalası, müalicəvi palçıq gölləri, Naxçıvan duz mağarası, narın qızıl qumlu çimərliklər və s. məhz Azərbaycandadır.

Dünyanın siyasi xəritəsinə vizual olaraq nəzər yetirdikdə elə təsir bağışlayır ki, Azərbaycan dünyanın mərkəzində, şimal-cənub və şərq-qərb xətlərinin tam ortasında, kəsişmə nöqtəsində yerləşir. Bu amil də Azərbaycanın dünya təsərrüfat əlaqələri sistemindəki yerinin və rolunun nə qədər əhəmiyyətli və məsuliyyətli olduğunu ortaya qoyur.

Azərbaycanın dünya meridianına ilkin çıxışının əsas səbəbləri – Şimal-Cənub və Şərq-Qərb əlaqələrindəki coğrafi mövqeyi, qədim İpək Yolu üzərində yerləşməsi, dünyanın 11

[1] Azərbaycan Xalq Cümhuriyyətinin Ensiklopediyası. I cild, "Lider Nəşriyyat", Bakı, 2004, səh.13

iqlim qurşağından 9 iqlim qurşağına malik olması, ərazisinin böyüklüyü, Xəzər dənizinin sahilində yerləşməsi və dayaz neft yataqlarının olmasıdır.

Azərbaycan öz tarixi ənənələrindən, coğrafi mövqeyindən, iqlim şəraitindən, milli və dini xüsusiyyətlərindən yaranan və tarixə düşən aşağıdakı çoxsaylı ilklərə nail olmuşdur:

1. B.e.ə. III əsrdə dünyada ilk dəfə Azərbaycanda (Abşeron yarımadasında) yerin təkindən özbaşına təbii yanar qazın çıxışı baş vermiş, indi də davam edir; ona görə də Azərbaycana "Odlar Yurdu" deyilir;
2. 1848-ci ildə dünyada ilk dəfə (Bakıda) sənaye üsulu ilə neft quyusu qazılmış və neft çıxarılmışdır;
3. 1890-cı ildə dünyada ilk dəfə Azərbaycanda (Bakı tərsanələrində) neft tankeri inşa edilmişdir;
4. 1898-ci ildə Azərbaycanda (Bakıda) neft hasilatı ABŞ-ı ötmüşdür;
5. 1909-cu ildə Azərbaycanda (Bakının Bibiheybət buxtasında) dünyada ilk dəniz neft mədəni yaranmışdır;
6. XX əsrin əvvəllərində Bakı neftini daşımaq üçün dünyada ilk neftdaşıyan Zərdüşt ("Zoroastr") tankeri "Nobel qardaşları" şirkətinin sifarişi ilə İsveçdə tikilmiş və Xəzər dənizinə gətirilmişdir;
7. B. e. ə. III əsrdə dünyada ilk daş duz mədəni Azərbaycanda (Naxçıvan Duzdağ mədəni) olmuşdur;
8. 1875-ci ildə Azərbaycanda (Bakıda) fəaliyyətə başlayan ilk xarici kompaniya Nobel Qardaşları Şirkətinin Neft Zavodu olmuşdur;
9. Dünyada ilk dəfə neft VIII əsrdə Azərbaycanda (Bakıda) çıxarılmış və qonşu ölkələrə aparılmışdır;
10. 1901-ci ildə dünyada hasil edilən neftin (11 mln t) 50 faizdən çoxu, Rusiyada hasil edilən neftin 95 faizi Azərbaycanda (Bakıda) çıxarılmışdır;
11. Dünya praktikasında, ilk dəfə olaraq açıq dənizdə - estakada üzərində neft buruqları tikməklə neft çıxarılmasına 1948-ci ildə Azərbaycanda, Bakı şəhərindən cənub-şərq tərəfə 42 km məsafədə, Xəzər dənizində Neft daşlarında başlanılmış və dəniz üzərində şəhər salınmışdır, hazırda 4000 nəfər əhali yaşayır. Ginnesin Rekordlar kitabına adı ən birinci dəniz neft platforması kimi düşmüşdür;
12. Azərbaycanda ilk Gömrükxana - Bakı Gömrüyü 1807-ci ildə Rusiya imperiyası Senatının qərarı ilə Həştərxan Gömrük dairəsinin tərkibində yaradılmışdır;
13. B.e.ə. IV-III əsrlərdə qədim Azərbaycan dövləti olan Atropatenada mis, gümüş və qızıl sikkə pullar zərb edilmişdir;
14. Hələ XIII əsrdə - 1294-cü ildə ilk dəfə Azərbaycanda kağız pul çap edilmiş və dövriyyəyə buraxılmışdır;
15. XV və XVII əsrlərdə Azərbaycanın Ağqoyunlu və Səfəvi dövlətləri Rusiya, Venesiya Respublikası, Neapol Krallığı, Avropa və Skandinaviya ölkələri ilə diplomatik və ticarət əlaqələrində olmuşdur;
16. Azərbaycanda ilk birja – Bakı birjası 1887-ci ildə açılmışdır;
17. Dünyanın ən gözəl xalısı hesab edilən Azərbaycanın "Şeyx Şəfi" xalısı dünyanın ən tanınmış muzeyi olan London Viktoriya və Albert muzeyində saxlanılır;
18. Dünyanın 3-cü muzeyi olan Paris Luvr muzeyində hazırda Azərbaycanın qədim xalçaları, keramika əşyaları və zərgərlik malları nümayiş etdirilir;
19. Hər 1 avro investisiya qoymaqla, 43 avro gəlir gətirən, dünyada 11-ci kosmos ölkəsi olan Azərbaycanın 1-ci telekommunikasiya peyki 8 fevral 2013-cü ildə kosmosa buraxılmışdır;
20. Azərbaycan 2015-ci ildə Avropa tarixində ilk dəfə Avropa oyunlarını keçirmişdir və s., və i.a.

Qədim və orta əsrlərdə Azərbaycan dövlətlərinin əsas əmtəə bazarları xam ipək, zərgərlik məmulatları, zəfəran, çay və s. olmuşdur. XX əsrin əvvəllərində Azərbaycan dünya bazarına əsasən balıq, kürü, ipək və neft çıxarırdı.

Sovet dövründə Azərbaycan SSR-dən SSRİ markası ilə (Made in USSR) neft məhsulları, kondisioner, xalçalar, neft avadanlıqları, zəfəran, dərman bitkiləri və s. ixrac olunurdu.

Dünya bazarında öz keyfiyyətinə görə Azərbaycan neftinin (Azeri Light) qiyməti digər neftlərin qiyməti ilə müqayisədə həmişə yüksəkdir. Dünyada ən yüksəkkeyfiyyətli zəfəran Azərbaycan zəfəranıdır (Abşeron yarımadası – Bakı).

SSRİ-nin tərkibində olan 15 müttəfiq respublikadan yalnız 2-si - Azərbaycan və Ukrayna bütün illər ərzində ittifaqdan aldığından daha çox ittifaqa, onun digər respublikalarına məhsul vermişdir.

Hazırda hər il Azərbaycandan 2500-ə qədər çeşiddə mallar ixrac edilir. Azərbaycan da dünyanın bir parçasıdır, tamın hissələrindən biridir, ayrılmaz tərkib elementidir, zəncirin bir halqasıdır və dünya birliyinin üzvüdür.

Azərbaycan öz coğrafiyasına görə dünyanın ən dəyişkən və həssas regionlarından birində - Cənubi Qafqaz və Xəzər dənizi regionunda yerləşir. Ərazisi və əhalisi baxımından kiçik ölkə olsa da, böyük xammal və enerji resurslarına malikdir. Ölkənin geosiyasi və geoiqtisadi cəlbediciliyinə əsas səbəb Sovet İttifaqının dağılması nəticəsində böyük güclərin – ABŞ, Avropa İttifaqı, Rusiya, İran və Türkiyənin bu regionda kəsişən maraqlarının meydana çıxmasıdır.

Hər bir ölkənin, o cümlədən Azərbaycanın sosial-iqtisadi vəziyyətini müəyyən edən çoxsaylı amillər vardır və bu amillər tarix boyu onların mövcudluğuna və inkişafına nail olunmasında başlıca amilə çevrilmişdir.

Müasir beynəlxalq münasibətlər şəraitində dünya dövlətləri arasında əlaqələrin mürəkkəbləşməsi, çoxqütblü siyasət yeridilməsi, təbii sərvətlərin ələ keçirilməsi sahəsindəki mübarizə, əhalinin artım tempi, milli-dini ayrı- seçkilik, neoimperializm, yeni müstəqillik əldə etmiş ölkələrdə iqtisadi inkişafa olan qısqanclıq, təsir dairəsində saxlama və s. bu kimi məsələlər ölkənin dünya təsərrüfat əlaqələri sisteminə uğurla daxil olması və inkişaf etdirilməsində elmi-nəzəri dərinlik, məntiqi iqtisadi düşüncə, qlobal transregional layihələr hazırlama və tətbiq etmək, uzunmüddətli və əsaslandırılmış proqnozlaşdırma, istedad və professionallıq tələb edir ki, Azərbaycan da yalnız bu yolla gedir.

Azərbaycan dünyada öz ilkləri – hələ XIX əsrin ortalarında dünyada ilk dəfə neft hasil edən ölkə, "Neft daşları" kimi dənizdə ilk şəhər salan ölkə, XX əsrin neft müqaviləsi olan "Əsrin müqaviləsi"ni bağlayan və icra edən ölkə, əhalisi 10 mln, təsdiq edilmiş neft ehtiyatları 1 mlrd t, qaz ehtiyatları 2,8 trilyon $m^3$ olan ölkə, "Şərq-Qərb" və "Şimal-Cənub” iqtisadi əlaqələrində mərkəzi ölkə, çoxqütblü dünya siyasətində balanslaşdırıcı və birləşdirici ölkə olduğu üçün öz geocoğrafi və resurs potensialı ilə dünya ölkələrinin təsərrüfat əlaqələri sistemində rolunu daha da artırmaq üçün milli maraqlardan irəli gələn şərtləri ən səmərəli və əlverişli yolları tapır və tətbiq edir.

Bunun üçün də Azərbaycanın dünya iqtisadi meydanında, dünya iqtisadi birliyində, dünya təsərrüfat əlaqələri sistemində dayanıqlı yerinin qorunub saxlanılması və daha da inkişaf etdirilməsi üçün dünya təsərrüfat əlaqələri sisteminin nəzəri-konseptual əsaslarının, dünya ölkələrinin regional mövqeyinin, dünya təsərrüfat əlaqələrinin təşəkkülü, qloballaşma şəraitində inkişafı istiqamətləri, Azərbaycanın dünya təsərrüfat əlaqələri sistemində mövqeyi, amillərin qiymətləndirilməsi, geoiqtisadi modelinin müəyyən edilməsi, bu sahədəki problemlərin öyrənilməsi və həlli yollarının tapılması ölkənin iqtisadi inkişafının hərəkətverici amilləridir.

Dünya ölkələrinin, o cümlədən Azərbaycanın ÜDM, Milli gəlir, digər mühüm makroiqtisadi göstəriciləri BMT, BVF, Dünya Bankı və s. beynəlxalq iqtisadi təşkilatlar, ABŞ Mərkəzi Kəşfiyyat idarəsi və digər beynelxalq təşkilatların hesabatlarında və təbii ki, ölkələrin milli hökumət qurumlarının hesabatlarında verilir.

Bu göstəricilərlə ölkələrin dünya iqtisadiyyatında mövqeyi, yeri və rolu qiymətləndirilir.

## 2. AZƏRBAYCANIN DÜNYA İQTİSADİYYATINDA MÖVQEYİ

Hər bir ölkənin milli iqtisadiyyatının vəziyyəti, dünya iqtisadiyyatında mövqeyi onun tarixi iqtisadi ənənələri, geosiyasi və geoiqtisadi vəziyyəti, təbii resursları, insan potensialı, elmi-texniki inkişaf səviyyəsi, ÜDM-i, Məcmu Milli Gəliri, birbaşa investisiyaları, əhalinin artım tempi, qızıl-valyuta ehtiyatları, xarici dövlət borcu, infilyasiyanın səviyyəsi, məşğulluq və işsizlik, yoxsulluq, dövlət büdcəsinin kəsiri, ixracatın həcmi, siyasi sabitliyi və s. göstəricilər əsasında ölkənin iqtisadi inkişaf mərhələləri üzrə qiymətləndirilir.

Azərbaycanın iqtisadi inkişaf mərhələlərini aşağıdakı dörd mərhələyə bölmək olar:

1. 1900-cü ilə qədərki dövr. Bu dövrdə ölkə Rusiya tərkibində aqrar və geriqalmış ərazi olmuşdur;

2. 1900-1940-cı illər dövrü. Bu dövr Azərbaycanın Rusiya və SSRİ tərkibində dünyanın neft ölkəsi kimi tanınması dövrüdür;

3. 1941-1990-cı illər dövrü. Bu dövr Azərbaycanın SSRİ-nin tərkibində olduğu, öz nefti ilə SSRİ-nin II Dünya müharibəsində faşizm üzərində qələbəsini reallaşdırdığı və sənaye sahələrinin yaranması dövrüdür;

4. 1991-ci ildən sonrakı dövr. Bu dövr Azərbaycanın ikinci dəfə müstəqillik əldə edib, öz təbii sərvətlərinə sahib olduğu, yüksək sürətlə inkişaf edib dünya iqtisadi və siyasi meydanına çıxdığı dövrdür.

Bu dövrlərin hər biri geniş tədqiqat və müzakirə mövzusudur.

Bu dövrlərdə baş verən mühüm iqtisadi və siyasi problemlərdən bir çoxu daha dərindən öyrənilməlidir. İlk növbədə, SSRİ kimi nəhəng bir dövlətin dağılması. Cədvəl 15.1-də SSRİ-nin bəzi makroiqtisadi göstəriciləri verilir.

**Cədvəl 15.1**

**1980-ci illərin ikinci yarısında SSRİ-nin makroiqtisadi göstəricilərinin dinamikası[1]**

| № | Göstəricilər | 1985-ci il | 1991-ci il |
|---|---|---|---|
| 1. | Qızıl ehtiyatı, t-la | 2500 | 240 |
| 2. | Xarici borc, mlrd dollarla | 31,3 | 70,3 |
| 3. | Rublun dollara rəsmi kursu, rublla | 0,64 | 90 |
| 4. | İqtisadiyyatın rəsmi artım tempi, faizlə | +2,3 | -11 |

15.1-ci cədvəldən görünür ki, 1985-1991-ci illər – 6 il ərzində SSRİ-nin qızıl ehtiyatı demək olar ki, qurtarmaq üzrə olub, xarici borcu iki dəfədən çox artıb və iqtisadi artım tempi 11 faiz azalıb. Nəticədə SSRİ dağılıb, 15 müstəqil dövlət, o cümlədən Azərbaycan Respublikası müstəqillik əldə edib.

SSRİ dövründə onun tərkibinə daxil olan respublikaların ÜDM-də payı, əmtəə strukturu və Ümumittifaq əmtəə istehsalında yeri və rolu göstərilmirdi. 15 respublikadan yalnız ikisi – Azərbaycan və Ukrayna ittifaqdan aldığından daha çox İttifaqa vermişdir. Digər respublikalar, xüsusilə Ermənistan Ümumittifaq məhsulu hesab edilən Azərbaycan nefti hesabına yaşamışlar.

Rusiya imperiyasının və SSRİ-nin tərkibində olduğu dövrlərdə Azərbaycanda 1,3 mlrd t neft çıxarılıb aparılmışdır ki, bu da t-u orta hesabla 50 ABŞ dolları ilə götürülərsə, 65 mlrd dollar edir. Qısa bir dövr olan 27 illik müstəqillik ərzində (1992-2019) isə 740 mln t neft çıxarılmış, 250 mlrd dollar gəlir əldə edilmişdir ki, bunun da 150 mlrd dolları Azərbaycana çatmışdır.

1941-1945-ci illər Böyük Vətən Müharibəsində SSRİ-nin alman faşizmi üzərində qələbəsinin əsas səbəbi Azərbaycan – Bakı nefti olmuşdur. Bu dövrdə SSRİ neftinin 70 faizini, benzinin 80 faizini və sürtkü yağlarının 90 faizini Azərbaycan – Bakı vermişdir. Lakin Bakıya "Qəhrəman Şəhər" adı verilməmişdir.

[1] "Vaşinqton post" qəzeti. 15 dekabr 1991-ci il. "SSRİ-nin dağılması haqqında" məqalə

BP şirkətinin verdiyi məlumata görə 2019-cu ilin sonuna Azərbaycanda təsdiqlənmiş qaz ehtiyatları 2,8 trilyon $m^3$ həcmindədir. Bu ehtiyatlar getdikcə artır. 2018-ci ilin sonuna olan vəziyyətə görə Azərbaycanın qaz ehtiyatları 2,1 trilyon $m^3$ kimi qiymətləndirilib, il ərzində qaz ehtiyatları 0,7 trilyon $m^3$ və ya 33,3 faiz artmışdır.

Əgər 2005-ci ildə Azərbaycanda ümumi təbii qaz hasilatı 6,4 trilyon, 2010-cu ildə 26,3 trilyon $m^3$ olubsa, 2019-cu ildə 35,0 trilyon $m^3$-ə çatmışdır.

Azərbaycanda neft hasilatının pik nöqtəsi 2010-cu ildə 50,8 mln t olmuşdursa, sonrakı illərdə hasilatda nisbətən təbii azalma hiss edilərək 2017-ci ildə 38,7, 2019-cu ildə 37,5 mln t-a düşmüş və gələcəkdə bu səviyyənin saxlanılması gözlənilir.

Neft Azərbaycanın təbii resursu və uzunmüddətli gəlir mənbəyidir. Neft hasilatı üzrə Azərbaycanla yaxın ölkələr cədvəl 15.2-də verilir.

Hazırda dünyada neft ehtiyatları olan 98 dövlət vardır. 15.2-ci cədvəldən göründüyü kimi əhali və ərazicən Azərbaycandan 10 dəfələrlə böyük olan dövlətlərin neft hasilatı Azərbaycandan hətta aşağıdır (məsələn, Hindistan, İndoneziya, Böyük Britaniya və s.). Neft ehtiyatının olması əsas şərt deyil. İqtisadi siyasət, iqtisadi sistem və dövləti güclü olan ölkə ondan istifadə edə bilir.

**Cədvəl 15.2**

**Neft hasilatı üzrə Azərbaycanla yaxın olan ölkələrin bəzi göstəriciləri**

| Neft ölkələri arasında № | Ölkələr | 2014-cü ildə neft hasilatı, mln t | Dünya neftində payı, fazilə | Əhalisi, mln nəfər | Ərazisi, min km² | Cəmi DM, mlrd ollar |
|---|---|---|---|---|---|---|
| **17.** | Qazaxıstan | 80,8 | 1,9 | 17,7 | 2724 | 429 |
| **18.** | Əlcəzair | 66,0 | 1,6 | 39,6 | 2381 | 579 |
| **19.** | Kolumbiya | 52,2 | 1,2 | 48,6 | 1138 | 667 |
| **20.** | Oman | 46,2 | 1,1 | 4,0 | 212 | 171 |
| **21.** | **Azərbaycan** | 42,0 | 1,0 | 9,6 | 86,6 | 169 |
| **22.** | Hindistan | 41,9 | 1,0 | 1289 | 3287 | 7965 |
| **23.** | İndoneziya | 41,2 | 1,0 | 257,5 | 1919 | 2842 |
| **24.** | B. Britaniya | 39,7 | 0,9 | 64,7 | 244,8 | 2679 |
| **25.** | Misir | 34,7 | 0,8 | 90,9 | 1001 | 1048 |
| **26.** | Malayziya | 30,3 | 0,7 | 30,3 | 329 | 816 |
| | **Cəmi dünya:** | **4220,6** | **100** | **7300** | **...** | **113524** |

Dünya Bankı, BVF və digər əsas beynəlxalq təşkilatlar dünya ölkələrinin dünya iqtisadiyyatında mövqeyini qiymətləndirərkən əsas göstəricilər kimi ölkənin ərazisi, əhalisi, ÜDM-i, adambaşına düşən ÜDM-i, Məcmu Milli Gəliri, adambaşına düşən Milli Gəliri, birbaşa investisiyaları, xarici ticarət saldosunu, dövlət büdcəsinin kəsirini, kapital yığımını, ticarətin ÜDM-də payını və s. çoxsaylı göstəriciləri verir, təhlil edir və tövsiyələr hazırlayır.

Azərbaycanın əsas göstəricilər üzrə dünyada payı cədvəl 15.3-də verilir.

15.3-cü cədvəldəki məlumatlardan göründüyü kimi Azərbaycanın dünya iqtisadiyyatında yeri və rolu "kiçik" ölkə çərçivəsindən kənara çıxmır. Eyni zamanda, dünya üzrə orta göstəricilərlə nisbi müqayisə bəzi fərqli əlamətlərin mövcudluğunu da üzə çıxarır: **"Kiçik" ölkə → Böyük inkişaf.**

Məsələn, dünya üzrə orta göstərici ilə müqayisədə dövlət büdcəsi gəlirlərinin ÜDM-də xüsusi çəkisi Azərbaycanda 18,8% çoxdur (41,8%). Eyni zamanda analoji situasiya ticarətin və ixracatın xüsusi çəkisi üçün keçərlidir (müvafiq olaraq +13% və +24%). Bununla belə, yüksək texnologiya tutumlu məmulatların ümumsənaye istehsalında xüsusi çəkisi ölkə üzrə cəmi 7% təşkil edir ki, bu da dünya üzrə müvafiq orta göstəricidən -11% aşağıdır. Bütün bunlarla bərabər, ölkənin dünya iqtisadiyyatına effektiv inteqrasiyasının təminatı aspektində

beynəlxalq reytinq qurumları tərəfindən aparılan qiymətləndirmələrin müqayisəsi bir sıra məqamları aşkara çıxarmağa imkan verir.

Bu baxımdan müqayisəli təhlil Azərbaycanın dünyadakı yeri və rolunun, sərgilədiyi geo-iqtisadi mövqeyin sistemli şəkildə qiymətləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Beynəlxalq Valyuta Fondu və Dünya Bankı hələ 2008-ci ildə Azərbaycanı "lider islahatçı" ölkə elan etmişdilər.

Dünya İqtisadi Forumu tərəfindən hazırlanan qlobal rəqabətqabiliyyətlilik indeksi - ölkənin və onun institutlarının ortamüddətli dövrdə stabil iqtisadi artım templərini təmin etmək qabiliyyətini özündə əks etdirir. Forumun metodikasına görə rəqabətqabiliyyətliliyin səviyyəsi ilə ölkə əhalisinin rifahı arasında düz mütənasib asılılıq mövcuddur. İndeksin hesablanmasında 12 qrupda birləşdirilmiş 113 dəyişəndən istifadə edilir. Bu sırada institusional amillərlə (dövlət maliyyəsinin qeyri-effektiv istifadəsi, yüksək inflyasiya, intellektual mülkiyyətin qorunması və s.) yanaşı, təhsil və işçi qüvvəsinin ixtisas səviyyəsi, yeni bilik və texnologiyalara çıxış imkanları da az əhəmiyyətli rol oynamırlar. Aydındır ki, amillərin göstəriciyə təsiri hər bir ölkənin xüsusiyyətindən (start şəraiti, inkişafın cari səviyyəsi və s.) asılı olaraq, fərqli məzmun daşıyırlar. Eyni zamanda, amillərin özü də statik səciyyə daşımır, zaman axıcılığına müvafiq olaraq dəyişilməyə məruz qalırlar.

**Cədvəl 15.3**

**Azərbaycanın əsas göstəricilər üzrə dünyada payı**

| | **Əsas göstəricilər** | **2012** | | |
|---|---|---|---|---|
| | | **Dünya** | **Azərbaycan** | **Azərbaycanın dünyada xüsusi çəkisi, (%)** |
| **1.** | Əhali (mln nəfər) | 7043,9 | 9,3 | 0,1 |
| **2.** | Ərazi (min km$^2$) | 134290 | 86,6 | 0,06 |
| **3.** | ÜDM (mlrd dollar) | 85986,8 | 86,5 | 0,1 |
| **4.** | Məcmu Milli Gəlir (mlrd dollar) | 71692.4 | 57,9 | 0,08 |
| **5.** | Adambaşına Məcmu Milli Gəlir (dollar) | 10178 | 6220 | 61,1 |
| **6.** | Birbaşa investisiyalar (mlrd. dol.) | 1510 | 0,6 | 0,03 |
| | **Əsas göstəricilər** | **2012** | | |
| | | **Dünya üzrə orta faiz göstəricisi (%)** | **Azərbaycan üzrə orta faiz göstəricisi (%)** | **Fərq (+,-) (%)** |
| **1.** | Əhalinin artımı (%) | 1,1 | 1,3 | +0,2 |
| **2.** | ÜDM-nin illik artımı (%) | 2,4 | 2,2 | -0,2 |
| **3.** | İxracat (ÜDM-də xüsusi çəkisi) (%) | 30 | 54 | +24 |
| **4.** | İdxalat (ÜDM-də xüsusi çəkisi) (%) | 30 | 26 | -4,0 |
| **5.** | Kapitalın ümumi yığımı (ÜDM-də xüsusi çəkisi) (%) | 22 | 22 | x |
| **6.** | Dövlət büdcəsinin gəlirləri (ÜDM-də xüsusi çəkisi) (%) | 23 | 41,8 | +18,8 |
| **7.** | Dövlət büdcəsinin kəsirləri (%) | -5,3 | +6,1 | x |
| **8.** | Yüksək texnologiya tutumlu məmulatların ixracı (sənaye məhsullarında payı) (%) | 18 | 7 | -11 |
| **9.** | Ticarətin ÜDM-də payı (%) | 51 | 64 | +13 |

**Mənbə:** M. Məmmədov. Azərbaycan dünya təsərrüfat əlaqələri sistemində. Bakı-Azərbaycan, 2016, səh.195

Seçilmiş amillərdən (dəyişənlərdən) hər hansı biri ayrıca rəqabətqabiliyyətliliyi yüksəltmək imkanında deyil. Hesablama metodikası əksər dəyişənlər (inistitusional, struktur,

funksional və s.) arasındakı korrelyasiya bağlılıqlarına istinad etməklə aparılır. Metodikanın yeganə problemli cəhəti subyektiv qiymətləndirmənin xüsusi çəkisinin böyüklüyündədir. Azərbaycan Respublikası və MDB ölkələrinin ÜDM-i 15.4-cü cədvəldə verilir.

**Cədvəl 15.4**

**Azərbaycan Respublikası və MDB ölkələrinin ÜDM-i (mlrd ABŞ dolları)**

| Ölkələr | 2005 | 2010 | 2015 | 2016 | 2017 |
|---|---|---|---|---|---|
| **Azərbaycan** | **13,2** | **52,9** | **53,0** | **37,9** | **40,8** |
| Ermənistan | 4,9 | 9,3 | 10,6 | 10,6 | 11,5 |
| Belarus | 30,2 | 56,9 | 55,3 | 47,5 | 54,4 |
| Qazaxıstan | 57,1 | 148,1 | 184,4 | 137,3 | 159,4 |
| Qırğızıstan | 2,5 | 4,8 | 6,7 | 6,9 | 7,6 |
| Moldova | 3,0 | 5,8 | 6,5 | 6,8 | 8,1 |
| Rusiya | 764,1 | 1525 | 1375 | 1288 | 1578 |
| Tacikistan | 2,3 | 5,6 | 7,9 | 7,0 | 7,1 |
| Türkmənistan | 17,2 | 22,6 | 35,7 | 36,2 | 37,9 |
| Özbəkistan | 14,3 | 39,3 | 66,9 | 67,0 | 49,8 |
| Ukrayna | 89,3 | 141,2 | 91,3 | 93,4 | 114,6 |

**Mənbə:** AR Dövlət Statistika Komitəsinin məlumatı (www.stat.gov.az).

15.4-cü cədvəldə dünya ölkələrinin iqtisadi inkişaf səviyyələrini müəyyən edən əsas iqtisadi göstərici olan ÜDM-in Azərbaycan və MDB ölkələri üzrə vəziyyəti göstərilmişdir. Göründüyü kimi Azərbaycanın ÜDM-i 2005-ci ildən 2017-ci ilə qədər sürətlə artaraq 13,2 mlrd dollardan 40,8 mlrd dollara qalxmış, digər MDB ölkələrindən daha sürətlə artmışdır. ÜDM-in digər əlamətlər üzrə verilməsi və təhlil edilməsi tövsiyə edilir.

Azərbaycanın dünya iqtisadiyyatındakı mövqeyini əks etdirən və yerini göstərən əsas göstəricilər aşağıdakılardır:

1. Dünya ölkələrinin dövlət büdcəsinin xərclərinə görə 73-cü (11,1 mlrd dollar) – 2016;
2. Ərazisinə görə dünyada 112-ci (0,06%), Asiyada 33-cü;
3. Əhalisinə görə dünyada 91-ci (0,1%) – 2019;
4. ÜDM-ə görə dünyada 67-ci (40,8 mlrd dollar, nominal (BMT)) – 2017;
5. Adambaşına görə 86-cı (5497 dollar, nominal, DB) – 2017;
6. İxracatın həcminə görə Azərbaycan 2017-ci ildə dünyada 75-ci (16500 mln dollar), idxalatın həcminə görə 102-ci (7035 mln dollar) ölkə olmuşdur;
7. 2004-2018-ci illərdə (14 il ərzində) Azərbaycana qoyulan investisiyalar 231 mlrd dollar olub ki, bunun da 50%-i xarici investisiyalar olub;
8. 2004-2018-ci illərdə (14 il ərzində) Azərbaycanın valyuta ehtiyatları 42 mlrd dollar olub (23 dəfə artıb) – 2018;
9. Azərbaycanın rəsmi qızıl ehtiyatı 30,2 t olub (dünyada 55-ci), qızıl – valyuta ehtiyatında 12,1 faiz – 2016;
10. Dövlət borcuna görə ən az borcu olan dövlətlər içərisində 12-ci dövlətdir (ÜDM-in 20,4 faizi) – 2017;
11. Neft hasilatına görə dünyada 22-ci – 41 mln t (dünya üzrə hasilatın 0,9 faizi) – 2016;
12. Qaz hasilatına görə 34-cü, 17,5 mlrd $m^3$, dünya üzrə hasilatın 0,5 faizi – (BP) 2016;
13. Neft ehtiyatına görə Azərbaycan dünyada 20-ci (1 mlrd t), 98 ölkə verilib, dünya ehtiyaının 0,4 faizi;
14. Qaz ehtiyatına görə Azərbaycan dünyada 24-cüdür (1,3 trilyon $m^3$), dünya ehtiyatının 0,6 faizi, 2019-cu ildə bu ehtiyat 2,6 trilyon $m^3$ qiymətləndirilmişdir.

15.

| № | Neft-qaz məhsulları | İl | Həcmi | Dünyada payı, % | Dünyada yeri |
|---|---|---|---|---|---|
| a) | Neft ehtiyatları (98 ölkə verilir) | 2016 (BP) | 1 mlrd t | 0,4 | 20-ci |
| b) | Neft hasilatı (50 ölkə verilir) | 2016 (BP) | 41 mln t | 0,9 | 22-ci |
| c) | Təbi qaz ehtiyatları (təsdiq edilmiş) – 48 ölkə verilir | 2019 (OPEC) | 2,6 trilyon $m^3$ | 0,6 | 24-cü |
| d) | Təbii qaz hasilatı | 2016 (BP) | 17 mlrd $m^3$ | 0,5 | 34-cü |

❖ Dünyada "Top-20" nəhəng neft yataqları arasında Azərbaycanın "Azəri-Çıraq-Günəşli" neft yatağı 10-cu yerdədir. 2008-ci ildə bu yataqdan 34 mln t neft çıxarılmışdır. 20-likdə 3 nəhəng yataq İrana və 4 nəhəng yataq Səudiyyə Ərəbistanına məxsusdur. Dünyada ən böyük neft yatağı Səudiyyə Ərəbistanının Əl Həvar (illik hasilatı 250 mln t), 20-likdə 20-ci yerdə Əlcəzairin Saxaradakı Xassi – Messaud (22 mln t) yatağıdır;

❖ Magistral boru kəmərlərinin uzunluğuna görə 43-cü (6425 km) – 2014;

❖ Dəmir yollarının uzunluğuna görə 56-cı (2918 km) – 2009;

❖ Avtomobil yollarının uzunluğuna görə 72-ci (59141 km) – 2009;

❖ Azərbaycan dünyada 45 İslam ölkəsindən, 55 (+2) İ$_s$ƏT üzvündən biridir;

❖ Azərbaycan dünyada 20 dünyəvi İslam dövlətindən biridir;

❖ Azərbaycan açıq dənizə - dünya okeanına birbaşa çıxışı olmayan 42 ölkədən biridir;

❖ Azərbaycanda əhalinin 1 faizi neft sektorunda, qalanı isə qeyri-neft sektorunda işləyir;

❖ 2019-cu ildə Azərbaycanın əhalisi 10 mln nəfərə çatmışdır;

❖ Azərbaycan 2 mart 1992-ci ildən BMT-nin üzvüdür;

❖ Azərbaycanın xarici borcu ÜDM-in 18 faizini təşkil edir;

❖ Azərbaycanın valyuta ehtiyatı xarici borcundan 5-6 dəfə çoxdur;

❖ 2020-ci ildə dünyada olan 70-ə qədər suveren fondlar arasında öz şəffaflığına görə Azərbaycan Respublikası Dövlət Neft Fondu 5 ən şəffaf fond sırasına daxil edilmişdir;

❖ Azərbaycan ərazisinin 12 faizi Avropa qitəsində yerləşir;

❖ Azərbaycan ərazisinin 20 faizi 30 ilə qədər Ermənistan tərəfindən işğal edilmiş və 8 noyabr 2020-ci ildə Ermənistanın işğalından azad edilmişdir.

50-ci Davos İqtisadi Formunda (21-25.01.2020) Azərbaycanın Prezidenti İ.H.Əliyev təqdimatla çıxış etmiş, "Qlobal iqtisadiyyat – qlobal siyasət" dialoqları aparılmış, Davos İqtisadi Formunun Azərbaycan regional mərkəzi yaradılmış, Azərbaycan 3 dəniz "Baltik – Aralıq dənizi – Qara dəniz" layihələrinə qoşulmuşdur. Göstərilmişdir ki, Azərbaycan əhalisi dünyada ən sürətlə artan əhalidir. Cənubi Qafqaz əhalisinin 60%-i Azərbaycan əhalisidir. Hər il Davos İqtisadi Formunun başlanması ərəfəsində (20.01.2020) BVF dünyanın iqtisadi mənzərəsini qiymətləndirir. Göstərilmişdir ki, əgər Karib Hövzəsi ölkələrində 2019-cu ildə iqtisadi artım 1 faiz, Avropa ölkələrində 1,8 faiz olmuşdursa, Azərbaycanda bu rəqəm 2,2 faiz olmuş, 2020-ci ildə isə 3 faiz proqnozlaşdırılmışdır.

Dünyanın dördüncü sənaye inqilabı mərkəzləri – ABŞ, Çin, Hindistan və Yaponiya hesab edilir. Belə hesab edilir ki, onlardan sonra 5-ci sənaye inqilabı mərkəzi Azərbaycan olacaqdır.

## 3. AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ TİCARƏTİ

Bütün dünya təsərrüfat əlaqələrininən ilkin və ən qədim forması ticarətdir. Dünya təsərrüfat əlaqələri öz başlanğıcını beynəlxalq ticarətdən götürür. Sonra sənayenin yaranması, inkişafı, sənaye inqilabları, elmi-texniki kəşflər, dövlətlərin sayının artması, nəqliyyat növlərinin, rabitə vasitələrinin, bankların, valyutaların və s. yaranması, təkamülü və inkişafı nəticəsində digər təsərrüfat əlaqələri formaları yaranmış və inkişaf etmişdir. Qədim dövrlərdə və orta əsrlərdə Azərbaycanın müstəqil olaraq xarici ölkələrlə ticarət əlaqələrində olmuşdur.

Böyük İpək Yolu üzərində olan ölkə xalça, zərgərlik məmulatları, zəfəran, xam ipək və s. məhsullarla xarici ölkə bazarlarına çıxmışdır.

Rusiyanın və SSRİ-nin tərkibində olduğu dövrlərdə bir çox məhsulları – xüsusilə xam neft xarici ölkələrə Rusiya və ya SSRİ məhsulları adı altında çıxmışdır. Özü müstəqil xarici ticarət apara bilməmişdir.

1991-ci ildə Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra sərbəst xarici ticarətə başlamışdır. İlk illərdə əsas tərəfdaşları Rusiya Federasiyası, SSRİ-dən ayrılmış müttəfiq respublikalar, İran və Türkiyə olmuşdur. Xarici ticarət əsasən idxalın üzərində qurulmuşdur. 1995-ci ildən başlayaraq xarici ticarətin miqyası genişlənmiş, uzaq xarici ölkələr – xüsusilə Avropa ölkələri ilə xarici ticarətə başlanmışdır. Keçid dövründə barter əməliyyatları daha geniş yayılmışdı.

1994-cü ildə "Əsrin Müqaviləsi"nin bağlanması Azərbaycan iqtisadiyyatına, o cümlədən Azərbaycanın xarici ticarətinə start vermişdir. Əvvəllər Azərbaycanın tədiyə balansı mənfi saldo ilə olsa da, neft və digər məhsulların istehsalının artması ixracatın artmasına və tədiyə balansında müsbət saldoya səbəb olmuşdur.

Azərbaycan Respublikasının xarici ticarətinin son illərdəki vəziyyəti 15.5-ci cədvəldə verilir.

**Cədvəl 15.5**

**2010-2018-ci illərdə Azərbaycan Respublikasının xarici ticarət dövriyyəsi**

| | 2010 | 2013 | 2015 | 2017 | 2018 |
|---|---|---|---|---|---|
| **Ticarət dövriyyəsi** | | | | | |
| **mln doll.** | 27960,8 | 34687,9 | 21945,8 | 22593,6 | 30923,6 |
| **%-lə** | 100 | 100 | 100 | 100 | 100 |
| **İxrac** | | | | | |
| **mln doll.** | 21360,2 | 23975,4 | 12729,1 | 13811,6 | 19458,6 |
| **%-lə** | 76,4 | 69,1 | 58,0 | 61,1 | 63 |
| **İdxal** | | | | | |
| **mln doll.** | 6600,6 | 10712,5 | 9216,7 | 8782,0 | 11465,0 |
| **%-lə** | 23,6 | 30,9 | 42,0 | 38,9 | 37 |
| **Saldo** | | | | | |
| **mln. doll.** | 14759,6 | 13262,9 | 3512,4 | 5029,6 | 7993,6 |

**Mənbə:** "Azərbaycanın xarici ticarəti 2018", Bakı. 2018. 2020 s., s.11-12

15.5-ci cədvəldən görünür ki, Azərbaycanın xarici ticarət dövriyyəsi 2010-2013-cü illərdə artmış, sonra isə bir qədər aşağı düşsə də, 2018-ci ildə yenidən artmışdır. Xarici ticarət dövriyyəsində əgər 2010-cu ildə ixrac 76,4 faiz, idxal isə 23,6 faiz olmuşdursa, 2018-ci ildə ixrac 63 faiz, idxal isə 37 faiz olmuş, xarici ticarət saldosu 7,9 mlrd ABŞ dolları olmuşdur.

Ümumiyyətlə 1991-ci ildən başlayraq illər üzrə xarici ticarətin – idxalın və ixracın, nəticədə xarici ticarət saldosunun təhlil edilməsi, illər üzrə dinamikanın dəyişməsi səbəblərinin qiymətləndirilməsi ölkənin xarici ticarətinin vəziyyətini əks etdirmiş olur (bax: Azərbaycan Respublikasının ticarət statistikası; World Trade Development və s.).

Hər bir ölkənin, o cümlədən Azərbaycanın xarici ticarətində partnyorlar – tərəfdaşlar iqtisadi və siyasi cəhətdən daha çox diqqəti cəlb edir. 2010-2018-ci illərdə Azərbaycan Respublikasının ixracında əsas tərəfdaşlar 15.6-cı cədvəldə verilir.

**Cədvəl 15.6**

**2010-2018-ci illərdə Azərbaycan Respublikasının ixracında əsas tərəfdaşlar**

| Ölkələr | Xüsusi çəkisi, % | | | | | Yeri | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | 2010 | 2015 | 2016 | 2017 | 2018 | 2010 | 2015 | 2016 | 2017 | 2018 |
| **İtaliya** | 33,0 | 17,7 | 32,2 | 31,9 | 30,2 | 1 | 1 | 1 | 1 | 1 |
| **Türkiyə** | 0,8 | 11,6 | 8,8 | 9,9 | 9,4 | 21 | 2 | 2 | 2 | 2 |
| **Almaniya** | 0,0 | 9,6 | 4,5 | 3,3 | 4,0 | 39 | 3 | 5 | 9 | 6 |
| **İsrail** | 8,2 | 6,3 | 4,9 | 4,6 | 6,7 | 3 | 5 | 4 | 3 | 3 |

| | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| **Fransa** | 8,7 | 6,8 | 4,7 | 2,4 | 2,3 | 2 | 4 | 6 | 14 | 13 |
| **Kanada** | 0,9 | 1,8 | 0,7 | 3,9 | 3,1 | 19 | 17 | 24 | 6 | 9 |
| **İspaniya** | 0,8 | 2,5 | 3,7 | 1,9 | 2,0 | 20 | 13 | 15 | 17 | 14 |
| **Hindistan** | 1,4 | 2,1 | 4,1 | 2,6 | 4,2 | 13 | 15 | 7 | 12 | 5 |
| **İndoneziya** | 5,3 | 3,8 | 0,6 | 3,4 | 3,1 | 4 | 8 | 23 | 8 | 10 |
| **Rusiya Federasiyası** | 3,6 | 3,3 | 3,0 | 4,3 | 3,4 | 8 | 9 | 8 | 4 | 8 |
| **Çexiya Respublikası** | 0,0 | 4,3 | 1,6 | 4,0 | 4,8 | 49 | 6 | 13 | 5 | 4 |
| **Portuqaliya** | 1,1 | 2,9 | 2,5 | 3,2 | 2,7 | 16 | 11 | 11 | 10 | 11 |
| **Gürcüstan** | 1,9 | 3,9 | 3,1 | 3,4 | 2,5 | 11 | 7 | 9 | 7 | 12 |
| **Ruminiya** | 0,.4 | 0,7 | 0,8 | 1,9 | 1,7 | 14 | 23 | 3 | 15 | 16 |
| **Tunis** | 0,0 | 2,3 | 1,6 | 1,3 | 1,0 | 16 | 14 | 14 | 19 | 21 |
| **Avstriya** | 0,0 | 3,2 | 0,8 | 1,0 | 1,7 | 48 | 10 | 17 | 21 | 18 |
| **Çin** | 0,3 | 0,4 | 2,8 | 3,2 | 0,6 | 30 | 28 | 10 | 11 | 26 |
| **Ukrayna** | 1,2 | 0,2 | 0,3 | 2,5 | 1,8 | 15 | 32 | 29 | 13 | 15 |

**Mənbə:**“Azərbaycanın xarici ticarəti 2015,2018”, Bakı-2015, s.27, Bakı-2018, s.28.

15.6-cı cədvəldən görünür ki, Azərbaycanın ixracında əsas yeri İtaliya, Türkiyə və İsrail tutur.Qonşu İran, Türkmənistan ixracat tərəfdaşları arasında yoxdur, Rusiya 8-ci yerdədir. Hər bir tərəfdaşlığın ölkələr üzrə səbəbləri göstərilməlidir.

Ölkənin xarici ticarətindəki tərəfdaşlıq ölkələrarası iqtisadi-ticarət əlaqələrinin vəziyyətini əks etdirir. 2010-2018-ci illərdə Azərbaycan Respublikasının idxalında əsas tərəfdaşlar 15.7-ci cədvəldə verilir.

15.7-ci cədvəl göstərir ki, 2010-2018-ci illərdə Azərbaycanın idxalında əsas tərəfdaşlar demək olar ki, dəyişmədən Rusiya və Türkiyədir. 2016-cı ildən idxalatda 3-cü yeri Çin tutur. İdxalatda ən böyük paya 16,4 faizlə Rusiya, 13,8 faizlə Türkiyə və 10,4 faizlə Çin daxildir. Almaniyanın idxalatda 4-cü, ABŞ-ın 5-ci və İsveçrənin 6-cı yerdə olması yüksək göstərici kimi qiymətləndirilir. Çünki həmin ölkələr yüksək texnika və texnologiyalı ölkələrdir.

**Cədvəl 15.7**

**2010-2018-ci illərdə Azərbaycan Respublikasının idxalında əsas tərəfdaşlar**

| **Ölkələr** | **Xüsusi çəkisi, %** | | | | | **Yeri** | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | **2010** | **2015** | **2016** | **2017** | **2018** | **2010** | **2015** | **2016** | **2017** | **2018** |
| **Rusiya** | 17,3 | 15,6 | 19,3 | 17,7 | 16,4 | 1 | 1 | 1 | 1 | 1 |
| **Türkiyə** | 11,7 | 12,7 | 13,9 | 14,5 | 13,8 | 2 | 2 | 2 | 2 | 2 |
| **Böyük Britaniya** | 4,6 | 6,0 | 5,8 | 2,7 | 2,3 | 6 | 7 | 4 | 9 | 10 |
| **Almaniya** | 9,2 | 7,5 | 4,6 | 5,1 | 5,8 | 3 | 4 | 6 | 6 | 4 |
| **Çin** | 8,9 | 5,6 | 8,3 | 9,7 | 10,4 | 4 | 8 | 3 | 3 | 3 |
| **ABŞ** | 3,1 | 9,2 | 5,6 | 8,2 | 4,6 | 8 | 3 | 5 | 4 | 5 |
| **Ukrayna** | 7,1 | 3,4 | 3,4 | 5,2 | 4,1 | 5 | 9 | 8 | 5 | 7 |
| **İtaliya** | 1,8 | 6,4 | 3,9 | 3,6 | 3 | 14 | 5 | 7 | 7 | 10 |
| **Yaponiya** | 2,2 | 6,1 | 3,3 | 1,9 | 3,3 | 12 | 6 | 9 | 11 | 9 |
| **Braziliya** | 2,4 | 1,3 | 1,9 | 2,0 | 1,5 | 10 | 13 | 12 | 10 | 16 |
| **Qazaxıstan** | 4,4 | 1,1 | 1,2 | 1,2 | 1,5 | 7 | 18 | 16 | 16 | 15 |
| **Niderland** | 0,7 | 1,1 | 0,9 | 1,0 | 0,9 | 22 | 16 | 19 | 19 | 22 |
| **Koreya Respublikası** | 2,4 | 1,5 | 0,8 | 1,0 | 2,0 | 11 | 12 | 20 | 20 | 12 |
| **Fransa** | 2,1 | 2,3 | 1,8 | 1,8 | 1,6 | 13 | 10 | 14 | 13 | 13 |
| **İran** | 1,8 | 1,0 | 2,0 | 2,7 | 3,6 | 15 | 20 | 13 | 8 | 8 |
| **İsveçrə** | 1,5 | 1,1 | 0,7 | 0,6 | 4,5 | 17 | 17 | 23 | 27 | 6 |
| **Gürcüstan** | 0,8 | 0,7 | 0,6 | 0,8 | 0,8 | 21 | 25 | 28 | 21 | 25 |
| **Belarus** | 1,7 | 0,9 | 0,9 | 1,5 | 1,6 | 16 | 21 | 18 | 14 | 14 |

**Mənbə:**“Azərbaycanın xarici ticarəti 2015,2018”, Bakı-2015, s.23, Bakı-2018, s.24.

Ölkənin əmtəə ixracının strukturu onun iqtisadiyyatının sahə strukturunu əks etdirir. Azərbaycanın əsas ixrac mallarının əmtəə strukturu 15.8-ci cədvəldə verilir.15.8-ci cədvəldən görünür ki, Azərbaycanın ixrac mallarının əsasının xam neft (80,7%) və təbii qaz (7,7%) təşkil edir. Digər məhsulların ixracatda payı azdır. Ona görə də Azərbaycanın hədəfi

qarşıdakı dövrdə qeyri-neft məhsullarının istehsalının və ixracatının artırılmasıdır. 2014-cü ildən başlayaraq ixracatda qeyri-neft məhsullarının payının artması (meyvə-tərəvəz, elektrik enerjisi, qızıl və s.) yüksək göstərici kimi qiymətləndirilir.

**Cədvəl 15.8**

**Azərbaycanın əsas ixrac malları, faizlə**

| **İllər** | **2012** | **2013** | **2014** | **2015** | **2016** | **2017** | **2018** |
|---|---|---|---|---|---|---|---|
| Xam neft | 84,63 | 84,44 | 84,3 | 77,6 | 71,1 | 77,52 | 80,78 |
| Neft məhsulları | 5,53 | 5,04 | 6,25 | 6,58 | 4,48 | 2,46 | 2,68 |
| Kimya sənaye məhsulları | 0,73 | 0,24 | 0,35 | 0,70 | 0,61 | 0,58 | 0,40 |
| Alüminium və ondan hazırlanan məhsullar | 0,40 | 0,35 | 0,40 | 0,75 | 1,07 | 0,85 | 0,58 |
| Qara metal və ondan hazırlanan məhsullar | 0,47 | 0,40 | 0,20 | 0,31 | 1,05 | 0,60 | 0,44 |
| Elektrik enerjisi | - | - | - | - | 0,20 | 0,37 | 0,34 |
| Təbii qaz | 2,71 | 2,93 | 1,40 | 1,76 | 10,6 | 8,64 | 7,71 |
| Meyvə-tərəvəz | 1,11 | 1,05 | 1,33 | 2,73 | 4,08 | 3,64 | 2,88 |
| Şəkər | - | - | - | 1,86 | 0,68 | 0,29 | 0,13 |
| Pambıq lifi | - | - | - | - | - | 0,24 | 0,41 |
| Plastmas | - | - | - | 0,98 | 1,08 | 0,73 | 0,61 |
| Çay | - | - | 0,18 | 0,14 | 1,76 | 0,07 | 0,05 |
| Pambıq iplik | - | - | - | - | 0,20 | 0,12 | 0,12 |
| Digərləri | 3,37 | 3,17 | 2,80 | 4,87 | 4,22 | 3,61 | 2,70 |

**Mənbə:** AR Dövlət Gömrük Komitəsinin məlumatları

Hər bir ölkənin idxalının əmtəə strukturu onun aqrokultur və industriya sənayesinin vəziyyətindən irəli gəlir. Xammal və material, texnologiya idxalı ölkənin emal sənayesinin gücünü əks etdirir və daha böyük gəlir gətirir. Hazır məhsul idxalı ölkənin iqtisadi geriliyinə səbəb olur. Yerli istehsal hesabına idxalın aşağı salınması ölkəyə böyük dividendlər verir.

Azərbaycanın əsas idxal mallarının əmtəə strukturu 15.9-cu cədvəldə verilir.

15.9-cu cədvəldən görünür ki, Azərbaycanın idxal mallarının strukturunda əsas yeri maşın, mexanizm və elektrik aparatları (2018-22,6 faiz), qara metallar (10,4 faiz) və nəqliyyat vasitələri (8,2 faiz) tutsa da, yeyinti məhsullarının 12 faiz tutması Azərbaycan kimi böyük potensiallı ölkə üçün qənaətbəxş deyil. Ona görə də Azərbaycanın iqtisadi inkişafının strateji yol xəritələrində bu istiqamətə daha çox yer verilir.

**Cədvəl 15.9**

**Azərbaycanın əsas idxal malları, faizlə**

| **İllər** | **2012** | **2013** | **2014** | **2015** | **2016** | **2017** | **2018** |
|---|---|---|---|---|---|---|---|
| Maşın, mexanizm, elektrik aparatları | 27,24 | 25,75 | 28,12 | 26,73 | 23,6 | 21,26 | 22,58 |
| Qara metallurgiya | 13,58 | 10,58 | 11,05 | 17,21 | 13,11 | 10,09 | 10,48 |
| Nəqliyyat vasitələri | 14,65 | 13,40 | 9,16 | 13,20 | 9,54 | 12,28 | 8,25 |
| Yeyinti | 11,02 | 10,75 | 11,52 | 10,62 | 15,49 | 15,98 | 11,95 |
| Oduncaq | 2,84 | 2,61 | 1,40 | 2,49 | 2,22 | 2,42 | 2,59 |
| Mebel və onun hissələri | 1,04 | 0,81 | 1,25 | 1,09 | 1,31 | 0,97 | 0,92 |
| Əczaçılıq məhsulları | 2,50 | 2,33 | 2,46 | 2,94 | 2,30 | 2,64 | 2,53 |
| Tütün | - | 3,16 | 4,35 | 3,23 | 1,79 | 1,90 | 1,45 |
| Sement | - | 1,43 | 1,16 | 0,32 | 0,21 | 0,08 | 0,09 |
| Plastmas | - | - | 2,63 | 2,22 | 3,30 | 3,62 | 3,21 |
| Digərləri | 27,13 | 29,18 | 26,95 | 18,45 | 27,13 | 28,55 | 35,95 |

**Mənbə:** AR Dövlət Gömrük Komitəsinin məlumatları

Dünya ölkələrinin xarici ticarətinin vəziyyəti çoxsaylı digər göstəricilər üzrə də qiymətləndirilir. Xarici ticarət azadlığı indeksinə görə ölkələrin və Azərbaycanın vəziyyəti 15.10-cu cədvəldə verilir.

**Cədvəl 15.10**

**Xarici ticarət azadlığı indeksinə görə Azərbaycanın yeri (2019)**

| Yeri (reytinqi) | Ölkələr | Tariflər | Tənzimləmə maneləri | Qara bazarda valyuta məzənnəsi | Kapital və insanların hərəkəti | Xarici ticarət azadlığı indeksi | Ölkələrin gəlirlilik səviyyəsi (adambaşına milli gəlir indeksinə görə yeri) |
|---|---|---|---|---|---|---|---|
| **1.** | Sinqapur | 10,0 | 8,8 | 10,0 | 8,5 | 9,3 | 4 (yüksək səviyyə) |
| **2.** | İralndiya | 8,3 | 8,0 | 10,0 | 8,7 | 8,8 | 24 (yüksək səviyyə) |
| **3.** | Böyük Britaniya | 8,3 | 8,3 | 10,0 | 8,3 | 8,7 | 26 (yüksək səviyyə) |
| **4.** | Niderland | 8,3 | 8,3 | 10,0 | 7,7 | 8,6 | 15 (yüksək səviyyə) |
| **6.** | Gürcüstan | 9,1 | 7,7 | 10,0 | 7,3 | 8,5 | 116 (aşağı səviyyə) |
| **7.** | Danimarka | 8,3 | 8,0 | 10,0 | 6,9 | 8,3 | 18 (yüksək səviyyə) |
| **12.** | Almaniya | 8,3 | 7,6 | 10,0 | 5,6 | 7,9 | 16 (yüksək səviyyə) |
| **17.** | ABŞ | 8,4 | 7,6 | 10,0 | 4,8 | 7,7 | 11 (yüksək səviyyə) |
| **29.** | Türkiyə | 6,3 | 6,6 | 10,0 | 6,0 | 7,2 | 61 (yüksək səviyyə) |
| **31** | Yaponiya | 6,3 | 6,7 | 10,0 | 5,5 | 7,1 | 27 (yüksək səviyyə) |
| **33.** | Ukrayna | 8,7 | 4,7 | 10,0 | 2,8 | 6,6 | 105 (aşağı səviyyə) |
| **34.** | **Azərbaycan** | 8,0 | 4,7 | 10,0 | 3,4 | 6,5 | 68 (yüksək səviyyə) |
| **36.** | Rusiya | 4,6 | 5,2 | 10,0 | 3,8 | 5,9 | 47 (yüksək səviyyə) |
| **38.** | Qazaxıstan | 5,7 | 3,2 | 10,0 | 2,6 | 5,4 | 56 (yüksək səviyyə) |

Məsələn, 15.10-cu cədvəldəki məlumatlardan göründüyü kimi xarici ticarət prosedurları ilə bağlı situasiya Qazaxıstanda Azərbaycanla müqayisədə daha pisdir. Burada əsas rol oynayan amil hər iki ölkənin dünya okeanına birbaşa çıxış imkanlarının yoxluğu, dünya bazarına çıxış yollarının uzunluğu və bir çox ölkələrin ərazisindən keçmək zərurəti prosedurların həm xərc tutumunu, həm də tələb olunan sənədlərin say çoxluğunu, eləcə də prosedurlara sərf edilən zaman intervalının uzunluğunu şərtləndirən əsas amil kimi çıxış edir və s.

## 4. AZƏRBAYCAN RESPUBLİKASINDA XARİCİ İNVESTİSİYALAR

Dünya ölkələrində kapital ixracının əsas formalarından biri Birbaşa Xarici İnvestisiyalardır. Azərbaycan Respublikası müstəqillik əldə etdikdən qısa müddət sonra 1994-cü ildə "Əsrin Müqaviləsi" bağlandıqdan sonra Azərbaycana xarici investisiyalar sürətlə daxil olmağa başlamışdır. Bu müqavilədən sonra Azərbaycanda daha 35 neft müqaviləsi bağlanmışdır ki, onların da çoxu icra edilməkdədir. Səbəb isə bir tərəfdən Azərbaycanda neft və qaz ehtiyatlarının çox olması və ölkə hakimiyyətinə dünya miqyasında böyük etimad və inamın olması olmuşdur.

Əgər 1920-ci ildə Azərbaycanda neft hasilatı 2,9 mln t idisə, 1941-ci ildə Sovet dövrünün pik nöqtəsi olan 23,5 mln t-a qalxmış, SSRİ dağılıb müstəqillik əldə edilən 1991-ci ildə 9,7 mln t-a düşmüş, Azərbaycanın neft erası başlayandan sonra 2012-ci ildə hətta 42 mln t-a çatmış və indi illik 40 mln t-la ortasəviyyəli hasilat həcmində saxlanılır. Əldə edilən neft gəlirlərindən səmərəli istifadə sayəsində Azərbaycanda çoxsaylı Transregional layihələr icra edilmiş və "Cənub Qaz Dəhlizi" işə salınmışdır. Bütün bunlar da məhz xarici investisiyaların sayəsində mümkün olmuşdur. Əgər ilk dövrlərdə Azərbaycan beynəlxalq maliyyə

təşkilatlarından borc alan ölkə idisə, artıq Azərbaycan borc verən və investisiya ixracatçısı ölkəsinə çevrilmiş, 10-dan çox ölkədə özünün ikinci iqtisadiyyatını yaratmağa nail olmuşdur.

Azərbaycan Respublikasında xarici investisiyaların vəziyyəti illər üzrə ətraflı təhlil edilməli, investisiyaların mənbələri, geosiyasi və geoiqtisadi səbəbləri, qoyuluş sahələri, məqsəd və vəzifələri öyrənilməlidir. Belə hesab edilir ki, xarici investisiyaların son dövrlərdəki vəziyyətinin qiymətləndirilməsi daha vacibdir. 2005-2017-ci illərdə Azərbaycan iqtisadiyyatına qoyulan investisiyalar 15.11-ci cədvəldə verilir.

15.11-ci cədvəldən görünür ki, Azərbaycan iqtisadiyyatına yönəldilən investisiyalarda sürətli artım olmuş, xarici investisiyalar daxili investisiyaları üstələmişdir. Cəmi xarici investisiyalarda birbaşa investisiyalar daha böyük paya malik olmuşdur ki, bunun da 2017-ci ildə ən çoxu neft sektoruna qoyulmuşdur (cədvəli təhlil etməli).

Azərbaycan iqtisadiyyatına yönəldilən xarici investisiyaların strukturu və coğrafiyası 15.12-ci cədvəldə verilir.

**Cədvəl 15.11**

**Azərbaycan iqtisadiyyatına yönəldilən investisiyalar**

| | 2005 | 2010 | 2014 | 2015 | 2016 | 2017 |
|---|---|---|---|---|---|---|
| **İnvestisiya qoyuluşları bütün mənbələr üzrə (xarici innvestisiyalar nəzərə alınmaqla):** | | | | | | |
| mlyn. manat | 6733,4 | 14118,9 | 21890,7 | 20057,4 | 22706,4 | 23839,3 |
| mlyn. dollar | 7118,5 | 17591,4 | 27907,5 | 19547,2 | 14228,0 | 13851,2 |
| **Xarici investisiyalar:** | | | | | | |
| mlyn. manat | 4628,5 | 6619,7 | 9175,7 | 10998,9 | 16216,1 | 15697,3 |
| mlyn. dollar | 4893,2 | 8247,8 | 11697,7 | 10719,1 | 10161,1 | 9120,5 |
| **Daxili investisiyalar:** | | | | | | |
| mlyn. manat | 2104,9 | 7499,2 | 12715,0 | 9058,5 | 6490,3 | 8142,0 |
| mlyn. dollar | 2225,3 | 9343,6 | 16209,8 | 8828,1 | 4066,9 | 4730,7 |
| **Xarici investisiyalar (mln ABŞ dolları)** | | | | | | |
| **Cəmi xarici investisiya** ondan: | **4893,2** | **8247,8** | **11697,7** | **10719,1** | **10161,1** | **9120,5** |
| Maliyyə kreditləri | 698,4 | 3405,9 | 1880,6 | 2210,2 | 2197,8 | 1783,3 |
| Birbaşa investisiyalar | 4030,4 | 3614,9 | 8049,2 | 7483,1 | 7323,6 | 5713,8 |
| o cümlədən: | | | | | | |
| Neft sektoruna | 3799,9 | 2955,3 | 6730,7 | 6622,7 | 5617,4 | 4900,8 |
| Qeyri-neft sektoruna | 230,5 | 659,6 | 1318,5 | 860,4 | 1706,2 | 813,0 |
| Neft bonusu | 1,0 | 2,0 | 17,0 | 2,0 | 0,1 | 1,4 |
| Digər investisiyalar | 163,4 | 1225,0 | 1750,9 | 1023,8 | 639,6 | 1622,0 |

15.12-ci cədvəldən görünür ki, xarici investisiyaların 56,5%-i (2020-ci ildə 35,8%) neft sektorunun payına düşmüşdür. Ümumiyyətlə, bu sferada formalaşmış situasiyanı normal hesab etmək mümkün deyil. Məsələn, emal sənayesinə yönəldilən (əsas kapitala) investisiyanın xüsusi çəkisi cəmi 2,2%, o cümlədən xarici investisiyanın payı isə 0,7%, kənd təsərrüfatında 0,4% və s. təşkil edir. Müqayisə üçün qeyd edək ki, xarici investisiyaların orta dünya göstəricisi (sahələr üzrə) aşağıdakı kimidir: Hasilat sənayesi 22%, emal sənayesi 48%, xidmət sənayesi 30%. Göründüyü kimi, xarici investisiyaların bölgüsü sferasında son illər ərzində formalaşan situasiya hələ də öz aktuallığını saxlamaqdadır. Eyni zamanda, xarici investisiyaların cəlb edilməsi yönündə coğrafi (ölkə) təmərküzləşməsi müşahidə olunmaqdadır. Bu anlamda ön sırada Böyük Britaniya və sonrakı yerlərdə ABŞ, Türkiyə, Niderland və

Yaponiya gəlirlər. Həm ölkənin yeni texnoloji mərhələyə keçidi, həm də beynəlxalq təkrar istehsal tsikllərinin yaradılması nöqteyi-nəzərindən xarici investisiyalı və birgə müəssisələrin fəaliyyəti mühüm əhəmiyyət kəsb edir.

**Cədvəl 15.12**

**2000-2014-cü illərdə Azərbaycan iqtisadiyyatına yönəldilmiş xarici investisiyaların struktur dinamikası (mln ABŞ dolları)**

| Göstəricilər | 2000 | 2005 | 2010 | 2014 | 2014/2000-ci illə müqayisə (%) |
|---|---|---|---|---|---|
| Xarici investisiyalar cəmi: o cümlədən | 927,0 | 4893,2 | 8247,8 | 11500,0 | +12,4 dəfə |
| 1. Maliyyə kreditləri<br>Xüsusi çəkisi, (%) | 262,9<br>28,4% | 698,4<br>14,3% | 3405,9<br>41,3% | 2162,8<br>18,8% | +8,2 dəfə<br>-9,6% |
| 2. Neft sənayesinə<br>Xüsusi çəkisi, (%) | 546,1<br>58,9% | 3799,9<br>77,6% | 2955,9<br>35,8% | 6500,4<br>56,5% | +11,9 dəfə<br>-2,4% |
| 3. Birgə və xarici investisiyalı müəssisələrə<br>Xüsusi çəkisi,(%) | 118,0<br>12,7% | 230,5<br>4,7% | 659,6<br>7,9% | 1119,9<br>9,7% | +9,5 dəfə<br>-3,0% |
| Ondan | | | | | |
| - Türkiyə | 31,6 | 96,2 | 147,5 | - | x |
| - ABŞ | 11,2 | 24,8 | 40,0 | - | x |
| - İran | 2,9 | 1,2 | 3,2 | - | x |
| - Almaniya | 1,7 | 21,5 | 17,0 | - | x |
| - Rusiya | - | 5,1 | 11,7 | - | x |
| - İngiltərə | 6,8 | 39,5 | 144,0 | - | x |
| - BƏƏ | 2,8 | 5,7 | 36,3 | - | x |
| - İsveçrə | - | - | 11,7 | - | x |
| - Fransa | - | - | 6,2 | - | x |
| - Çin | - | - | 33,5 | - | x |
| - İtaliya | - | 4,6 | 10,3 | - | x |
| - Niderland | - | 1,5 | 163,5 | - | x |
| - Norveç | - | - | 3,6 | - | x |
| - Yaponiya | 16,4 | - | 1,4 | - | x |
| - Sair ölkələr | 5,3 | 28,1 | 69,2 | - | x |
| 4. Neft bonusu | - | - | 2 | 17,0 | x |
| 5. Digər investisiyalar | - | 164,4 | 1227,0 | 1699,9 | x |

**Mənbə:** Azərbaycan rəqəmlərdə: Statistika Komitəsi. Bakı, 2015, s.133.

**Cədvəl 15.13**

**2005-2014-cü illərdə Azərbaycanda xarici və birgə müəssisələrin inkişaf dinamikası**

| Göstəricilər | 2005 | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2014-cü il | |
|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | | 2005-ə nisbətən (+,-) | 2010-a nisbətən (+,-) |
| 1.Müəssisə lərin sayı (ədəd) | 796 | 1091 | 899 | 1083 | 1140 | 1218 | +53% | +11,6% |
| 2.İşləyənlə rin sayı (nəfər) | 58413 | 55936 | 63918 | 76651 | 84985 | 91535 | +56,7% | +63,6% |
| 3.Məhsul (xidmət) buraxılışının həcmi (min manat) | 7081,4 | 24011,9 | 29651,2 | 29439,5 | 30065,5 | 27590,1 | +3,9 dəfə | +14,9% |
| 4.Orta aylıq əmək haqqı (manat) | 627,7 | 1008,0 | 1117,2 | 1241,0 | 1304,0 | 1335,2 | +2,1 dəfə | +32,4% |

**Mənbə:** Azərbaycanın statistik göstəriciləri. Statistik məcmuə. Bakı, 2014, s. 124-125.

15.13-cü cədvəldəki məlumatlardan göründüyü kimi, Azərbaycanda fəaliyyət göstərən xarici investisiyalı və birgə müəssisələrin inkişaf dinamikası (2005-2014-cü illər) kifayət dərəcədə yüksək olmuşdur. Bu dövr ərzində müəssisələrin sayı, fəaliyyət sferası genişlənmiş, əsas göstəriciləri intensiv şəkildə artmışdır. Eyni zamanda xarici investisiyalı müəssisələrin yerli müəssisələrlə müqayisədə daha effektiv fəaliyyət göstərmələri tam şəkildə sübut olunur. Bununla belə qeyd etmək lazımdır ki, bu müəssisələrlə bağlı mənfi təmayüllər də olmamış deyildir. Belə ki, əsas problemlər sırasında xarici investisiyalı və birgə müəssisələrin həm regional, həm də fəaliyyət sahələri üzrə təmərküzləşməsidir. Təhlil materialları göstərir ki, bu müəssisələr əsasən Bakı şəhərində (91,1%) təmərküzləşmiş və bir qayda olaraq, uzaq xarici ölkələrlə təşkil edilmişdir (MDBölkələrinin xüsusi çəkisi 4,9%). Digər tərəfdən, bu qəbildən olan müəssisələrin orta hesabla 80%-i nəqliyyat, anbar təsərrüfatı və xidmət (ticarət) sferasında fəaliyyət göstərirlər. Həmçinin, görülən işlərin, məhsul və xidmət buraxılışının 82%-i cəmi 21 müəssisənin payına düşür. Bu müəssisələrin ölkə üzrə məhsul (xidmət) buraxılışında payı 0,18%-ə bərabərdir.

Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli sərəncamı ilə “Azərbaycan 2030: Sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” təsdiq edilmişdir. Bu sənəddə göstərilir ki, “Ölkə iqtisadiyyatına **birbaşa xarici investisiyaların,** o cümlədən, infrastruktur sahələrinə strateji investorların cəlb olunması təmin edilməlidir. Lakin bu zaman ölkənin milli maraqlarının qorunması və xarici investorlara rəqabət mühitinin yaradılması ilə investisiyaların səmərəli tənzimlənməsi diqqət mərkəzində olmalıdır.

Dövlət investisiyalarının və dövlət şirkətlərinin fəaliyyətinin iqtisadi səmərəsi yüksəldilməli, bu sahədə şəffaflıq səviyyəsi artırılmalıdır. Dövlət şirkətinin kommersiya prinsipləri əsasında fəaliyyət göstərməsi üçün zəmin yaradılmalı, qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla korporativ idarəetmə standartları tətbiq edilməli və gəlirlilik səviyyələrinin artırılması təmin olunmaldır”[1].

## 5. BÖYÜK İPƏK YOLU - "ŞƏRQ-QƏRB” İQTİSADİ ƏLAQƏLƏR SİSTEMİNDƏ AZƏRBAYCANIN MÖVQEYİ, YERİ VƏ ROLU

Özünün coğrafi mövqeyinə görə Azərbaycan qədim zamanlardan Mərkəzi Asiyadan Avropaya gedən ticarət yolunun keçdiyi çox mühüm və üstün əhəmiyyətə malik ölkələrdən biri idi.

Bütün qədim dövr və orta əsrləri tədqiq edən alimlərin əsərlərində birmənalı göstərilir ki, yarandığı dövrdən başlayaraq həmişə qədim Azərbaycan Böyük İpək Yolunun üzərində ən əlverişli ərazi olmuşdur. Qədim Odlar Yurdu hələ antik dövrlərdə "Böyük İpək Yolu” zəncirində olduqca önəmli, strateji mövqeyə malik bir region kimi qiymətləndirilirdi. Şərq və Qərb ölkələri ilə ticarət yollarının buradan keçməsi İpək Yolunun üzərində yerləşən Bakı, Bərdə, Gəncə, Şəki, Ərdəbil, Təbriz, Naxçıvan kimi Azərbaycan şəhərləri regionun taleyində, siyasi və iqtisadi inkişafında önəmli rol oynayırdılar.

Bəşəriyyət tarixində bütün münasibətlər yollarla yaranmış, inkişaf etmiş, formalaşmış və tərəqqi etmişdir. Tarixi bir həqiqət vardır ki, yol mədəniyyətdir, inkişafdır, yaxınlaşmadır, ünsiyyətdir və ümumən, həyatdır.

Hələ qədim dövrlərdə avtomobil, gəmi, təyyarə və dəmiryolunun olmadığı, yaşayış məskənləri arasında aşılması və keçilməsi mümkün olmayan hündür dağlar, axar çaylar və dəryalar mövcud olduğu vaxtlardan belə, bəşər övladı yaşamaq uğrunda daim çalışmış və yollar axtarmışdır. Hələ bizim eradan əvvəl Çin özünün elmi inkişafı ilə digər ərazilərdən xeyli qabağa gedirdi. Tarixi mənbələr və arxeoloji qazıntılar nəticəsində əldə edilən tarixi faktlar sübut edir ki, hələ bizim eradan 200-300 il əvvəl bu ərazidə kağız parça, barıt, keramik

[1] “Azərbaycan” qəzeti. 3 fevral 2021-ci il.

qablar və digər məhsullar istehsal edilirdi. Riyaziyyat, astronomiya, coğrafiya, biologiya və digər elmlərin inkişafı sayəsində ilk dəfə olaraq kompas, kitab çapı, musiqi aləti, barama və dərmanlar məhz Çində kəşf edilmişdir.

Beləliklə, elm inkişaf etdikcə, yeni məhsullar istehsalı artıqca bu insanlar öz məskənlərindən kənara çıxmağa başlayırdılar. Şimal soyuq, Cənub və Şərq isə dərya idi, ətrafa çıxış mümkün deyildi. Təbii olaraq hərəkət istiqaməti Qərbə olmalı idi.

Əvvəlcə Çində istehsal edilən məhsulları – xüsusən ipəyi satmaq məqsədilə tacirlər və elmi axtarışlar aparan səyyahlar Şərqdən Qərbə doğru irəliləməyə başladılar. Hərəkət vasitəsi kimi güclü və dözümlü heyvan olan dəvələrdən istifadə edilirdi. Bu sahəyə olan maraq və əldə edilən qazanc artdıqca karvanlar düzəlir və uzaq məsafələr qət edilirdi. Beləliklə, böyük karvan yolu təşəkkül tapdı. Buradan da Çin Böyük İpək yolunun ilkin təşkilatçısına çevrildi. **Böyük İpək Yolu** qədim karvan yolunun ümumiləşdirilmiş adıdır. İlk dövrlərdə karvanlar quru yollar taparaq nisbətən yaxın ərazilərə - Cənub-Qərb istiqamətində Hindistana, Qərb istiqamətində Mərkəzi Asiyaya doğru gedib-gəlirdilər. Yüksək inkişaf yoluna qədəm qoymuş qədim Çin artıq öz çərçivəsində yaşaya bilmədiyi üçün hələ bizim eradan 200-300 il əvvəl özündən qərbdə yerləşən əraziləri öyrənmək, onların əhalisi və məşğuliyyəti ilə tanış olmaq, mallarını satmaq üçün bazarlar axtarmaq məqsədilə əlaqələrini ildən-ilə daim genişləndirirdi. Bu əlaqələr getdikcə genişləndiyi üçün artıq dövlət tərəfindən də karvanların hərəkətinə köməklik göstərilir, xüsusi ekspedisiyalar göndərilir, onların təhlükəsizliyi üçün yardım göstərilirdi. Karvanların tərkibi getdikcə gücləndiyi və qət etdikləri məsafələr uzandığı üçün artıq onların tərkibində olan güclü tacirlərə getdikləri ölkələrlə danışıqlar aparmaq və ticarət əlaqələri yaratmaq səlahiyyətləri verilirdi. Onların bu sahədəki fəaliyyəti daimi əlaqə forması aldıqca səlahiyyətləri də genişlənir, hətta siyasi əlaqələrə çevrilirdi. Böyük karvan yolu ilə daim işləyən tacirlərə, karvan başçılarına dövlətin səlahiyyətli nümayəndəsi – “səfir" səlahiyyətləri də verilirdi. Beləliklə, Böyük karvan yolu kimi fəaliyyətə başlayan, sonradan Böyük İpək Yoluna çevrilən yolun əsası bizim eradan 150-200 il əvvəl qoyulmuş, müxtəlif mərhələlərdəki fəaliyyətinin güclənməsi və zəifləməsinə baxmayaraq artıq 2100-2200 ildir ki, mövcuddur.

Fəaliyyətə başladığı dövrdən XIV əsrə qədər – yəni 1500 il ərzində Şərqlə Qərb, Asiya və Avropa arasında ən uzun, enişli-yoxuşlu, dərə-təpəli, dağları, çayları və gölləri keçmək üçün uzun dairə vuran, çoxşaxəli, böyük təzyiqlərə və hücumlara məruz qalan, lakin iqtisadi əhəmiyyətinə görə daim hərəkəti artan və güclənən bir quru yolu olmuşdur.

Yolun qərbə doğru əsas qolu Xəzər dənizinə yaxınlaşdıqca şimaldan və cənubdan keçərək hər iki istiqamətdə Azərbaycana daxil olmaqla Dərbənd, Şamaxı, Gəncə, Göyçə, Naxçıvan, Təbriz, Xoy və digər şəhərlərdən keçir və İstanbul istiqamətində davam edirdi. Azərbaycanın qədim şəhərlərinin yüksək inkişafı da bu yolla bağlı idi.

XIV əsrdə gəmiçiliyin yaranması, dəniz yollarının kəşf edilməsi və dəniz ticarətinin inkişafi ilə əlaqədar olaraq Böyük İpək Yolunun əhəmiyyəti azalmış və XVI əsrdə tamamilə tənəzzül etmişdir. Müəyyən dövrdən sonra dəniz gəmiçiliyinin inkişafı, daha sonra dəmir yollarının yaranması ilə əlaqədar olaraq, Çindən, Cənubi Şərqi Asiya dövlətlərindən yüklər Hind okeanı – Qırmızı dəniz – Süveyş kanalı – Aralıq dənizi istiqamətində dəmiryolu (avtomobil) – dəniz nəqliyyatı-dəmiryolu (avtomobil) nəqliyyatı ilə Avropa ölkələrinə və əks-istiqamətdə danışırdı. Bu xəttin uzunluğu 20-40 min km olmaqla yüklərin daşınması üçün aylarla vaxt və böyük vəsait tələb edirdi. Bu da iştirakçı dövlətlər üçün sərfəli deyildi.

XVII-XX əsrlər ərzində qədim İpək Yolu üzərində olan dövlətlərin güclənməsi, Qafqazdakı dövlətlərin digər dövlətlərin əsarətinə düşməsi və əyalətlərə çevrilməsi, İranın, Rusiyanın və sonradan SSRİ-nin xarici dövlətlərlə əlaqələrinin məhdudlaşdırılması bu yolu tamam öldürmüş və iflic vəziyyətinə salmışdır. XX əsrin əvvəllərindən 90-cı illərin əvvəllərinədək dünya iki sistemə bölünmüş, soyuq müharibə davam etmiş, Qərb və Şərq qar-

şıdurması yaranmış, Qafqaz və Mərkəzi Asiyanı Rusiya işğal etmiş və həmin ərazilərdə hegemonluq edərək Böyük İpək Yolunu tamamilə tarixdən silməyə çalışmışlar.

Lakin tarix daim təkrar olunur, dünya sivilizasiyaya doğru gedir, millətlər və xalqlar öz milli müstəqilliklərini əldə edir, ərazilər işğaldan azad olunur, dünya öz iqtisadi qanunları ilə inkişaf edir, hər bir dövlət digər dövlətlərlə daha səmərəli iqtisadi əlaqələr yaratmağa çalışır.

1991-ci ildə SSRİ süqut etdikdən sonra Mərkəzi Asiya, Qafqaz və Şərqi Avropa ölkələri müstəqillik əldə etdilər. Avropa Birliyinin təşəbbüsü ilə 1993-cü ilin may ayında Brüsseldə Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin yaradılmasına öz münasibətlərini bildirmək üçün həmin dəhliz üzərində yerləşən 8 ölkənin – Azərbaycan, Gürcüstan, Ermənistan, Qazaxıstan, Özbəkistan, Türkmənistan, Qırğızıstan, Tacikistan və Avropa Birliyinin iştirakı ilə yığıncaq keçirildi. Nəticədə Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizi proqramının – TRASEKA proqramının qəbul edilməsi üçün Brüssel bəyannaməsi imzalandı.

Proqrama müvafiq olaraq Böyük İpək Yolu Londondan başlamalı, Paris, Roma, İstanbul, Tbilisi, Bakı, Aşqabad, Daşkənd, Almatı, Pekindən keçməli və Tokio şəhərində başa çatmalı idi. Bu da Traskontinental kommunikasiya probleminin həlli və onun vasitəsilə dünya bazarına çıxmaq bütün iştirakçı dövlətlər üçün böyük əhəmiyyət daşıyırdı.

Azərbaycan Respublikasının iki qitəni birləşdirən bir nöqtədə yerləşməsi, nəqliyyat dəhlizinin tam ortasında dayanması, geniş kommunikasiya şəbəkəsinə malik olması, ən qısa xəttin buraya düşməsi və digər faktorlar Azərbaycan Respublikasının Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizində mərkəzə çevrilməsinə əsas verirdi.

1998-ci il sentyabr ayının 7-8-də Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində 9 dövlət başçısı, 13 beynəlxalq təşkilat və 32 dövlətin nümayəndə heyətlərinin iştirakı ilə tarixi İpək Yolunun bərpası üzrə Bakı konfransı keçirildi, geniş müzakirələr aparıldı, mövqelər müəyyənləşdirildi və Bakı bəyannaməsi qəbul edildi.

Qədim və Böyük İpək Yolunun bərpası məsələlərinin əsas müddəalarını özündə əks etdirən Bakı bəyannaməsi ilə Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizi proqramı – TRASEKA proqramı katibliyinin Bakı şəhərində yerləşdirilməsi qərara alındı.

Böyük İpək Yolunun bərpası 1000 km-lə məsafəyə, aylarla yükdaşıma vaxtına, yüz minlərlə ABŞ dolları daşıma xərclərinə qənaət edir. Bu yolun bərpası Çindən Avropaya yüklərin daşınmasında 8000 km, Yaponiyadan 10 000 km-ə qədər yolu qısaltmağa imkan verir.

Azərbaycan Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin mərkəzində yerləşdiyi üçün onun ərazisindən çox böyük həcmdə tranzit yüklərin daşınması üçün mln-larla ABŞ dolları tranzit rüsumları əldə edir və öz dövlət büdcəsinə gəlir gətirir.

2015-ci ilin yayından beynəlxalq Transxəzər nəqliyyat marşrutu üzrə iri həcmdə yüklərin daşınmasına start verilmişdir. Çinin Şixezi şəhərindən start götürən ilk sınaq konteyner qatarı Bakı (Ələt) Beynəlxalq Dəniz Ticarət Limanına daxil olmuşdur. Bu, Şərqdən Avropaya gedən digər yollarla müqayisədə 550-600 km-lik qısa bir məsafə deməkdir. Bundan sonra konteyner qatarları mütəmadi olaraq Çin-Qazaxıstan-Azərbaycan-Gürcüstan-Türkiyə marşrutu üzrə hərəkət etməyə başlamışdır.

2016-cı ildə Bakı-Tbilisi-Qars (BTQ) dəmiryolu xətti fəaliyyətə başlayandan sonra bu marşrut Asiyadan Avropaya kimi yüklərin qısa və təhlükəsiz daşınmasında ən əlverişli yol hesab edilir.

Tarixi İpək Yolunun keçdiyi Azərbaycanın yerləşdiyi ərazi bütün dövrlərdə Avropa və Asiyanı, ən uzaq dövlətləri birləşdirən, strateji ticarət-iqtisadi dəhlizlərin qovuşduğu məkanlardan biri olub. Müasir dövrlərdə ölkələr arasında əlaqələrin məzmunu yeni keyfiyyət dəyişikliklərinə məruz qalsa da, ticarət və iqtisadi dəhlizlərin əhəmiyyəti öz aktuallığını yenə də qoruyub saxlayıb. Xüsusən qloballaşan dünyanın yeni geoiqtisadi çağırışları kontekstində ölkənin bu sahədə rolu artaraq strateji əhəmiyyət kəsb edir.

Beynalxalq standartlara uyğun tikilən BTQ yolu yüklərin və sərnişinlərin fasiləsiz, vaxtında və təhlükəsiz daşınmasını təmin edərək, daşımaların həcminin artmasma, tariflərin əhəmiyyətli dərəcədə azalmasına gətirib çıxarır, nəqliyyat infrastrukturunun geniş miqyasda inkişafına, nəqliyyat əlaqələrinin səmərəliliyinin artmasına, beynəlxalq bazarlara daha əlverişli çıxışın təmin olunmasına əlverişli şərait yaradır.

BTQ dəmiryolu xəttinin istismara verilməsi ilə həm bərə, həm də konteyner vaqon daşımaları daha da inkişaf etmişdir. Bu isə beynalxalq daşımalarda mühüm rol oynayır.

Bu tarixi layihənin həyata keçirilməsi yük və sərnişinlərin Avropa və Asiyaya çatdırılması ilə yanaşı, ixrac mallarının Azərbaycan ərazisindən tranzitinin artmasına, Xəzər hövzəsi regionunun Avropa ilə bilavasitə nəqliyyat əlaqələrinin qurulmasına, Avropaya inteqrasiya proseslərinin sürətlənməsinə, əmtəə və xidmətlərin nəqli yollarının diversifikasiyasına xidmət edir, Azərbaycanın və region dövlətlərinin xarici iqtisadi əlaqələrinin səmərəliliyini daha da yüksəldir. Beləliklə, BTQ dəmiryolu Avropa və Asiya ölkələri arasında yüklərin daşınmasında əvəzsiz rol oynamaqla bərabər, Azərbaycanın tranzit ölkə kimi əhəmiyyətini daha da artırır.

BTQ dəmiryolunun istismara verilməsi Azerbaycan üçün mühüm önəm daşıyır. Bu beynəlxalq layihənin həyata keçirilmasi Transavropa vo Transasiya dəmiryolu şəbəkəsinin birləşdirilməsini, yük və sərnişinlərin birbaşa Azərbaycan, Gürcüstan və Türkiyə ərazilərindən keçməklə Avropa və Asiyaya çıxarılmasını təmin etməklə yanaşı, həmin ölkələrin tranzit imkanlarının artmasına, Avrasiya materikində vacib nəqliyyat sistemlərinin inteqrasiya proseslərinin və ölkələrarası ticarətin sürətlənməsinə imkan verir. Ölkələr arasında əlaqələrin intensivləşməsinə səbəb olan BTQ dəmiryolunun istifadəyə verilməsi Azərbaycanın dünya bazarlarına daha çox və münasib qiymətlərlə məhsul çıxarmasına şərait yaradır.

Çin və Qazaxıstan dövlətlərinin də layihəyə maraq göstərməsi BTQ dəmiryolunun əhəmiyyətini artırır. Belə bir layihənin reallaşdırılmasının həm də Azərbaycanın xarici siyasəti üçün böyük əhəmiyyəti vardır. Bakı-Tbilisi-Qars dəmiryolunun istifadəyə verilməsi işğalçı Ermənistanın belə vacib layihədən kənarda qalmasına və regional təcridinin daha da güclənməsinə gətirib çıxarıb.

"Şərq-Qərb” iqtisadi əlaqələr sistemində Azərbaycan ərazisindən keçən Transxəzər nəqliyyat dəhlizi Avropadan, xüsusilə Türkiyə və Ukraynadan Mərkəzi Asiya ölkələrinə yükdaşımalar üçün iqtisadi cəhətdən ən əlverişli yoldur.

Şərqdən Qərbə və Şimaldan Cənuba doğru keçən və strateji baxımdan mühüm əhəmiyyətli nəqliyyat qovşağının kəsişdiyi ərazidə yerləşən Azərbaycan vacib körpü rolunu oynamaqda davam edir. Bu kontekstdə, “Şimal-Cənub” beynəlxalq nəqliyyat dəhlizinin inkişafı beynəlxalq yük və sərnişin daşımaları baxımından daha da əhəmiyyətli olacaqdır.

## 6. “ŞİMAL-CƏNUB” İQTİSADİ ƏLAQƏLƏR SİSTEMİNDƏ AZƏRBAYCANIN MÖVQEYİ, YERİ VƏ ROLU

Dünya təsərrüfat əlaqələri sistemində "Şimal-Cənub” anlayışı iki mənada işlədilir. Birinci mənada "Şimal” – İnkişaf Etmiş Ölkələr, “Cənub” – zəif inkişaf etmiş, yoxsul və geridə qalmış ölkələr mənasında işlədilir.

İkinci mənada “Şimal-Cənub” (NS) beynəlxalq nəqliyyat dəhlizidir. Baltik ölkələrinin Rusiya, Azərbaycan və İran vasitəsilə Hindistanla nəqliyyat əlaqələrinin yaradılmasını nəzərdə tutur. Bu isə Azərbaycansız mümkün deyil.

Bu, marşrut Helsinki (Finlandiya) – Sankt-Peterburq (Rusiya) – Dərbənd (Rusiya) – Yalama (Azərbaycan) – Astara (Azərbaycan) – Astara (İran) – Hindistanın Mumbay (keçmiş Bombey) – hətta dənizi keçməklə Kolomboya (Şri-Lanka) qədər gedib çatır. Digər marşrutlardan, konkret olaraq Mumbay (Bombey) – Ərəbistan dənizi – Qırmızı dəniz –

Süveyş kanalı – Aralıq dənizi – Cəbəllütariq boğazı – Atlantik okeanını keçməklə Helsinkiyə çatan aypara formasında olan dəniz marşrutundan 2 dəfə qısadır.

1999-cu ildə Hindistan, İran və Rusiyanın nəqliyyat firmaları Şri-Lanka – Hindistan – İran – Xəzər dənizi – Rusiya beynəlxalq nəqliyyat dəhlizi və konteynerlərlə ixrac-idxal daşımaları haqqında baş saziş imzalamışlar. Prosedur problemlərinin həllindən sonra 2002-ci ilin may ayında Sankt-Peterburqda iştirakçı ölkələr bu dəhlizin rəsmi açılışı barəsində protokol imzalamışlar. Həmin vaxtdan bu ölkələr arasında əsasən konteyner daşımaları həyata keçirilmişdir. Xəzər dənizinin şimal hissəsinin qışda donması və dayaz olmasından iri gəmilərin hərəkəti mümkün olmadığı üçün bu xəttdə problemlər yaranır.

"Şimal-Cənub" nəqliyyat dəhlizinin 2015-ci ildə yükdaşıma qabiliyyəti 25-26 mln t olmuşdur. Əgər İranın 150 km-lik boş olan dəmir yolları birləşdirilərsə, Rusiyanın Türkiyə ərazisindən keçən (Bosfor boğazı – Mərmərə dənizi – Dardanel boğazı) xarici ticarət tranzit yüklərinin 15-20 faizi bu marşruta yönəldiləcəkdir. Bütün hallarda indiyə qədər "Şimal-Cənub" dəhlizi çərçivəsində Rusiyanın tranzit və xarici ticarət yük axınlarının əsas nüvəsi 2513 km uzunluğunda dəmiryolu xətti olan Buslavski – Sankt-Peterburq – Moskva – Ryazan – Koçetovka – Rtişevo – Saratov – Volqoqrad – Həştərxan xətti olub. Buradan isə biri dəniz və ikisi quru yolu Xəzərin qərb tərəfindən Azərbaycan, şərq tərəfindən isə Türkmənistan istiqamətində dəmiryolu və avtomobil yolları ilə davam edir.

"Şimal-Cənub" nəqliyyat dəhlizi 3 əsas marşrutdan ibarətdir:

1) Transxəzər marşrutu;
2) Şərq marşrutu;
3) Qərb marşrutu.

Transxəzər marşrutu Rusiyanın Hastaxan, sonradan 2004-cü ildə istifadəyə verilən Olya və Maxaçqala limanları ilə İranın Ənzəli, Əmirabad va Nouşəhr limanlarını birləşdirir. Əsasən dəmiryolu ilə konteyner daşımalarını yerinə yetirir. 2015-ci ildə Olya limanından İran limanlarına 12 mindan artıq vaqon yola salınmışdır.

Şərq marşrutu köhnə və yeni dəmiryolu xətlərinə bölünür. Köhnə xətt Qarakalpaqdan keçən (Qazaxıstan-Özbəkistan-Türkmənistan) Təcən-Səraxs sərhədinə çıxan, İran dəmiryoluna qoşulan, təzə xətt isə birbaşa Qazaxıstandan Türkmənistana gedən, 2014-cu ildə istifadəyə verilən, Ətrək-Qorqan sərhəd keçidi ilə İrana çıxan Bolaşak xəttidir.

Qərb marşrutu Xəzər dənizinin qərb tərəfindən, bilavasitə Azərbaycan ərazisindən keçən dəmiryolu, avtomobil və dəniz daşımaları xətləridir. Göstərildiyi kimi bu marşrut digər iki marşrutdan daha səmərəlidir. Bu isə göstərilən problemlərin, ilk növbədə, Astara (Azərbaycan) – Astara – Rəşt – Qəzvin (İran) dəmiryolunun başa çatdırılması, 1920-ci ildə Lenin tərəfindən zorla alınaraq Ermənistana verilmiş Azərbaycanın qədim Zəngəzur mahalının və Mehri rayonunun geri qaytarılmasını, bütün Avropa və Asiya ölkələri üçün iqtisadi əhəmiyyət kəsb edən, Azərbaycanın ayrılmaz parçası olan Azərbaycanın (Naxçıvanın) Culfa – İranın Culfa şəhərlərini birləşdirməklə, uzaq şərqə qədər getmə gücü olan, 50 ildən artıq fəaliyyət göstərən, "Şimal-Cənub" iqtisadi-nəqliyyat əlaqələrində hələ Sovet dövründə böyük rol oynayan dəmiryolunun açılmasını zəruri edir.

Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalı nəticəsində Naxçıvanın bütün yollarının, o cümlədən Bakı-Naxçıvan dəmiryolunun, onun davamı olan Culfa (Azərbaycan) – Culfa (İran) dəmiryolunun bağlanması 50 ilə qədər fəaliyyət göstərmiş SSRİ (Azərbaycan) – İran dəmiryolunun bağlanmasına səbəb olmuşdur ki, bu da həm Azərbaycana və həm də Ermənistana böyük həcmdə zərər vermişdir. Ermənistan Azərbaycan ərazilərini işğal etdiyinə görə bütün regional layihələrdən kənarda qalıb, ildən-ilə zəifləyir və məhvə doğru gedir.

Hələ Sovet dövründə XX əsrin ortalarından başlayaraq Şimal-Cənub nəqliyyat-iqtisadi əlaqələrində bir dəmiryolu şimaldan Rusiya – Azərbaycan (Yalama) – Bakı -Naxçıvan (Culfa) – İran (Culfa) dəmiryolu fəaliyyət göstərirdi. Bu yol texniki cəhətdən (dəmiryolunun eni) problemli idi. Digər tərəfdən siyasi münasibətlər də buna imkan vermirdi. Amma bu

dəmiryolu İranın cənub-şərqinə və oradan da Mərkəzi Asiya və Hindistana çıxa bilirdi. 1992-1993-cü illər ərzində Ermənistanın Azərbaycan torpaqlarını isğalı nəticəsində Naxçıvanla Azərbaycanın əsas ərazisi arasında olan dəmiryolu və avtomobil yolu bağlanmışdı.

"Şimal-Cənub" nəqliyyat-iqtisadi əlaqələrində uzun illər ikinci yol şimaldan –Rusiya (Dərbənd) – Azərbaycan (Yalama) – Bakı – Astara (Azərbaycan) dəmiryolu və avtomobil yolu olub. İranla dəmiryolunun birləşdirilməsi uzun məsafə deyildir. Azərbaycan (Astara) – İran (Astara) – Rəşt (İran) 150 km, Rəşt (İran) – Qəzvin (İran) 140 km-dir. Bu 290 km-lik yolun tam birləşdirilməsi ilə Hindistana qədər yol işləyəcəkdir.

"Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizi haqqında razılaşma Rusiya Federasiyası, İran İslam Respublikası və Hindistan arasında 2000-ci il sentyabrın 12-də Sankt-Peterburq şəhərinda bağlanıb. Göstərilən dövrdə daxili prosedurlardan keçdikdən sonra razılaşma 2002-ci il mayın 21-dən qüvvəyə minib. 2005-ci ilin sentyabr ayında Azərbaycan Respublikasının qanunu ilə Azərbaycan "Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi haqqında Saziş"ə qoşulub.

Nəqliyyat dəhlizinin tərkib hissəsinə daxil olan "Şimal-Cənub” dəmiryolu Şimali Avropanı Cənub-Şərqi Asiya ilə birləşdirir. Proqnoz hesablamalar göstərir ki, tam gücü ilə fəaliyyat göstərəcəyi təqdirdə bu dəhliz Avropa ölkələrinin, Rusiyanın, Orta Asiya və Qafqaz regionlarının Fars körfəzi və Hindistana çıxışına, Xəzəryanı ölkələrin, həmçinin Azərbaycanın Qara dəniz limanları ilə ticarət əlaqələrinin intensivləşdirilməsinə şərait yaradacaqdır. Həmin dəhliz Avropa-Cənubi Asiya-Yaxın Şərq arasında dəmiryolu daşımalarını müvafiq olaraq dəmiryolunun istər yerli, istərsə də tranzit daşımalarından əldə etdiyi gəlirləri xeyli artırmağa imkan verəcəkdir. Əgər indi ildə 3 mln t yük daşınırsa, Astara (Azərbaycan) – Astara – Rəşt – Qəzvin (İran) dəmiryolunun qoşulması nəticəsində ildə 20-25 mln t yük daşınacaq və tranzit daşımalardan böyük həcmdə gəlir əldə ediləcəkdir.

“Şimal-Cənub” beynəlxlq nəqliyyat dəhlizi çərçivəsində Hindistan və Fars körfəzindən İran və Azərbaycandan keçməklə Rusiya və Avropa ölkələri, habelə əksinə Qafqaz və Mərkəzi Asiya regionlarına daşınacaq yüklərin tariflərinin səmərələşdirilməsi mühüm əhəmiyyət kəsb edir. Çünki, bu dəhlizin əsas beynəlxalq marşruta çevrilməsi bir tərəfdən məsafənin qısaldılmasına imkan verməklə bərabər, həm də nəqliyyat marşrutlarının şaxələnməsinə şərait yaradacaq, nəqliyyat dəhlizlərinin siyasi təzyiq vasitəsinə çevrilməsinin qarşısını alacaqdır. “Şimal-Cənub” marşrutu İran ərazisində tranzit terminalı yaradıb, yüklərin həmin terminaldan yenə də İranın Bəndər-Abbas limanına, oradan isə gəmilərlə Hindistanın Mumbay limanına və digər Asiya ölkələrinə çatdırılmasına imkan verəcəkdir.

Hazırda Hindistandan Rusiyanın Avropa hissəsinə yük axını dəniz daşımaları ilə həyata keçirilir. Mumbay (Nava-Şeva) limanından Moskvaya qədər yol 40 gün təşkil edir. Hindistan-İran-Azərbaycan-Rusiya yeni multimodal marşrutda dəniz, dəmiryolu və avtomobil nəqliyyatından istifadə ediləcək. Bu da yük daşımaları müddətini 2 dəfəyədək azaltmağa, yəni 20 günə qədər aşağı salmağa imkan verəcəkdir.

## 7. AZƏRBAYCANIN HƏYATA KEÇİRDİYİ TRANSREGİONAL LAYİHƏLƏR VƏ ONLARIN GEOİQTİSADİ ƏHƏMİYYƏTİ

Azərbaycanın BTC, Bakı-Supsa neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinin və Cənub Qaz Dəhlizinin işə düşməsindən sonra karbohidrogen ehtiyatlarının nəqli ilə bağlı dünyada tamamilə yeni vəziyyət yaranmışdır. Yəni, Xəzərin karbohidrogen ehtiyatlarının alternativ yollarla dünya bazarlarına çıxarılması Azərbaycanın enerji siyasətinin ən böyük uğurudur.

İndi Azərbaycan regionda hansısa ölkədən enerji asılılığı olmayan yeganə ölkədir. Bakı-Tbilisi-Ceyhan neft kəməri, Cənub Qaz Dəhlizi və Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri dünya miqyaslı layihələr olmaqla, Azərbaycanın enerji təhlükəsizliyinə geniş imkanlar açmışdır. Bu layihələr Azərbaycanın müstəqilliyini daha da möhkəmləndirir, regionda

müstəqil siyasət aparmasını təmin edir. Azərbaycan dünyaya qaz ixrac edən ölkə kimi də tanınmaqdadır. Bu layihələrin istifadəyə verilməsi Azərbaycanın müasir Avropanın və dünyanın enerji təhlükəsizliyindəki rolunu əhəmiyyətli dərəcədə artırmışdır.

2011-ci ildə Azərbaycan ilə Avropa İttifaqı arasında strateji enerji əməkdaşlığına dair memorandum imzalanmışdır. Bu da öz növbəsində Azərbaycanın enerji strategiyasının həyata keçirilməsinə və Avropa istiqamətində enerji təchizatının şaxələndirilməsinə imkan vermişdir.

İstehsal etdiyi xam nefti Qərb bazarlarına ixrac edən Azərbaycan böyük iqtisadi dividendlərə nail olmuşdur. Əldə edilən neft gəlirlərinin iqtisadiyyatın digər vacib sahələrinə, xüsusən də qeyri-neft sektoruna, istehsal sahibkarlığına yönəldilməsi, yeni müəssisələrin açılması yolu ilə işsizlik probleminin aradan qaldırılması, milli valyuta olan manatın məzənnəsinin qorunması, əhalinin sosial müdafiə sisteminin gücləndirilməsi dövlətin hökumət qarşısında qoyduğu mühüm vəzifələrdir. Dövlətin işlək mexanizmlər üzərində gerçəkləşdirdiyi sosial-iqtisadi islahatların nəticəsi olaraq iqtisadi böhran şəraitində Azərbaycan dünyanın böhrana tablı ölkələrindən birinə çevrilmişdir. Ölkədə qeyri-neft sektorunun inkişafı yolu ilə Azərbaycan iqtisadi yüksəlişinə davam etməkdədir.

Azərbaycanın enerji siyasəti iqtisadiyyatın transformasiyasına və şaxələndiril-məsinə imkan yaratmışdır. Ölkə müstəqilliyini bərpa etdiyi dövrdə özəl sektordakı Ümumi Daxili Məhsul sıfır faizə bərabər idi. Bu gün isə özəl sektor iqtisadiyyatın 85 faizini təşkil edir. İşsizlik səviyyəsi 4,8 faizə, yoxsulluq səviyyəsi 5,5 faizə endirilmişdir. Azərbaycanın xarici borcu Ümumi Daxili Məhsulun 8 faizini təşkil edir.

Ölkənin enerji siyasəti, beynəlxalq təsisatlarla sıx əməkdaşlıq, şaxələndirmə və şəffaflıq uğurlu inkişafın əsas elementlərindəndir. Azərbaycan neft bəlasına, məşhur «Holland sindromu»na tutulmamışdır. Azərbaycanda icra edilən infrastruktur layihələri neftin və qazın xalqın mənafeyinə necə xidmət etdiyini sübut edir. Əlbəttə ki, bunun başlıca səbəblərindən biri səmərəli beynəlxalq əməkdaşlıq olmuşdur.

Hələ Sovet dövründə Azərbaycanla Qara dənizi – Gürcüstanın tərkibində olan Batumi və Rusiyanın Novorosiysk, həmçinin Qroznı şəhərlərini birləşdirən neft kəmərləri olmuşdur. Lakin SSRİ-nin süqutu ərəfəsində Bakı-Batumi kəməri siyasi və hərbi səbəblərdən fəaliyyətini dayandırmışdır. SSRİ dağıldıqdan və Azərbaycan müstəqillik əldə etdikdən sonra həm müxtəlif istiqamətlərdə, həm də müxtəlif çeşidlərdə məhsul ixrac edən, Azərbaycanda həyata keçirilən və Azərbaycandan başlayan, Azərbaycanın təşkilatçılığı və əsasən maliyyələşdirdiyi Transregional layihələr icra edildi (15.14-cü cədvələ bax).

Bakı-Batumi neft kəməri – SSRİ-də, yəni Azərbaycanda ilk, o dövr üçün dünyada ən uzun magistral neft kəməri olub, Bakıdan Batumiyə kerosin daşımaq məqsədilə 1896-1906-cı illərdə çəkilmişdir. 1907-ci ildən istismara verilmiş, 1930-cu ildən isə xam neft daşınmışdır. Bakı-Batumi dəmiryolu xətti boyunca uzanırdı. Uzunluğu 867 km olmuşdur. Sovet dövründə hətta Qroznıdan Bakıya gətirilən neft də bu kəmərlə Qara dənizə çıxarılırdı. 1986-cı ildə istismardan çıxarılmışdır.

Hazırda Qərb marşrutu olan Bakı-Supsa ixrac kəməri Gürcüstanın Poti şəhərinin yaxınlığında başa çatmaqla, uzunluğu 837 km-dir, tam gücü ilə işləyir. 17 aprel 1999-cu ildə istifadəyə verilmişdir.

Şimal marşrutu olan Bakı-Novorosiysk (Rusiya) kəməri 25 oktyabr 1997-ci ildə istifadəyə verilmişdir, bəzən fasilələrlə işləyir, uzunluğu 1330 km-dir, bunun da 231 km-i Azərbaycan, 1099 km-i isə Rusiya ərazisindədir.

20 sentyabr 1994-cü ildə 8 dövlətin 13 nəhəng neft şirkəti rəhbərləri ilə danışıqların nəticəsi olaraq "Əsrin müqaviləsi" imzalanmışdır. Bu müqavilə təkcə Azərbaycanın neft sənayesini deyil, ölkədə yeni sənaye infrastrukturunun, əslində bütün iqtisadiyyatın inkişafı üçün start meydançasına çevrildi.

"Əsrin müqaviləsi"nin imzalanması ilə eyni vaxtda ölkə iqtisadiyyatında aparılan islahatlar, qanunvericiliyin, vergi və bank sisteminin sürətlə dəyişən iqtisadi şəraitə

uyğunlaşdırılması artıq 1994-cü ildə iqtisadi tənəzzülün qarşısını almağa, sabitliyin əldə edilməsinə gətirib çıxardı. Təbii ki, investisiyaların daha çox yönəldildiyi Azərbaycanın neft sənayesinin gəlirləri daha çox idi və bu da bütövlükdə iqtisadiyyata birbaşa təsir edirdi. Əslində neftdən gələn gəlirlər təkcə bu sahədə deyil, bütün sahələrə yeni həyat verən mənbəyə, obrazlı desək "dirilik suyuna" çevrilirdi.

**Cədvəl 15.14**

**Azərbaycanın neft-qaz ixrac kəmərlərinin əsas göstəriciləri**

| № | Marşrutlar | Uzunluğu, km | İl ərzində buraxılış qabiliyyəti | Dəyəri, mlrd dollar | Məhsul | Vəziyyəti |
|---|---|---|---|---|---|---|
| 1. | Bakı-Batumi (1986-istismardan çıxarılıb) | 867 | 4,8 mln t | 0,2 | Neft | Yoxdur |
| 2. | Bakı-Supsa (Qərb marşrutu) | 837 Azərbaycan-447 Gürcüstan-390 | 5,7 mln t | 0,6 | Neft | Tam gücü ilə işləyir |
| 3. | Bakı-Novorosiysk (Şimal marşrutu) | 1330 Azərbaycan-231 Rusiya-1099 | 6,1 mln t | 1,3 | Neft | İşləyir |
| 4. | Bakı-Tblisi-Ceyhan (BTC) | 1773 Azərbaycan-449 Gürcüstan-235 Türkiyə-1089 | 60 mln t | 5,0 | Neft | Tam gücü ilə işləyir |
| 5. | Bakı-Tblisi-Ərzurum (BTƏ) | 980 Azərbaycan-443 Gürcüstan-250 Türkiyə-292 | 7 mlrd $m^3$ | 4,0 | Qaz | Tam gücü ilə işləyir |
| 6. | Cənubi Qafqaz Boru Kəməri (CQBK) | 693 Azərbaycan-443 Gürcüstan-250 | 5 mlrd $m^3$ | 1,3 | Qaz | Tam gücü ilə işləyir |
| 7. | TANAP | 1850 Türkiyə | 16 mlrd $m^3$ | 7,0 | Qaz | İşləyir |
| 8. | TAP | 870 Yunanıstan-478 Albaniya-209 Adriatik dənizi-105 İtaliya-78 | 60 mlrd $m^3$ | 4,5 | Qaz | İşləyir |

Uzunluğu 1773 kilometr olan BTC ən uzun boru kəməridir. 8 nasos stansiyası ətraf mühitə müdaxiləni minimuma endirmək məqsədilə tikilmişdir. 1500-dən çox çay, kanal və digər su axarları ilə kəsişir. Ən yüksək nöqtəsi 2800 metrdən də hündürlükdə yerləşir. Boru kəməri torpağın altında ən azı bir metr dərinlikdə basdırılmış, bütün uzunluğu boyunca torpaqla örtülmüşdür. Təxminən 450 icmanın ərazisindən keçir. Bu kəmər Azərbaycanın iqtisadiyyatını daha sürətlə inkişaf etdirmək və Bakını karbohidrogenlərin işlənməsi üçün çox önəmli nəqliyyat limanına çevirmişdir.

Azərbaycan, Gürcüstan və Türkiyə boyunca 1770 kilometr yol qət edərək Ceyhana çatmış ilk xam neft “Britiş Hosorn" adlı tankerə yüklənmiş, həmin tanker Aralıq dənizi sahilindəki yeni Ceyhan dəniz terminalından 4 iyun 2006-cı ildə yola salınmışdır.

Ceyhanda ilk tankerin xam neftlə yüklənib yola salınması Azərbaycan neftinin BTC boru kəməri vasitəsilə Türkiyə boğazlarından yan keçməklə dünya bazarlarına ixrac olunmasının başlanğıcı idi. Neft əvvəlcə Xəzərin Azərbaycan sektorundakı Azəri-Çıraq-

Günəşli yatağından yola salınmış, sonra isə Xəzərin o tayından olan neft həcmləri də daxil olmaqla digər həcmlər də bu kəmərə qoşulmuşdur.

Azəri-Çıraq-Günəşli neftinin Ceyhandan ixrac olunması hər üç ölkədən olan minlərlə insanın – işçi qüvvəsinin, əhalinin, şirkətlərin, regional və beynəlxalq təşkilatların və tərəfdaşların mənafeyinə xidmət edir.

"Əsrin Kontraktı" nəticəsində həyata keçirilən BTC əsas ixrac boru kəmərinin layihəsində hasilatın pay bölgüsünə əsaslanan dünyanın əsas neft ölkələri və Transmilli Şirkətləri iştirak edirdilər (cədvəl 15.15).

**Cədvəl 15.15**

**Bakı-Tbilisi-Ceyhan layihəsi iştirakçılarının tərkibi**

| **Səhmdarlar** | **Ölkələr** | **İştirakda payı,%-lə** | |
|---|---|---|---|
| | | **Layihə imzalanan vaxt** | **Hazırkı vaxt** |
| BP (operatorlar) | Böyük Britaniya | 25,41 | 30,10 |
| Unocal | ABŞ | 7,48 | 8,90 |
| Statoil | Norveç | 6,37 | 8,71 |
| TPAO | Türkiyə | 5,02 | 6,53 |
| İtochu | Yaponiya | 2,92 | 3,40 |
| Delta Hess | Səudiyyə Ərəbistanı - ABŞ | 1,25 | 2,36 |
| ARDNŞ (SOCAR) | Azərbaycan | 50,0 | 25,0 |
| Ramko | Böyük Britaniya | 1,55 | - |
| ENİ | İtaliya | - | 5,00 |
| Total Fina Elf | Fransa - Belçika | - | 5,00 |
| INPEX | Yaponiya | - | 2,50 |
| Conoco Phillips | ABŞ | - | 2,50 |
| Cəmi: | | 100 | 100 |

15.15-ci cədvəldən göründüyü kimi əsrin müqaviləsində ən çox pay BP-yə malik olsa da, həmin dövrdə, 1994-cü ildə Azərbaycanın – ARDNŞ-nin 50 faiz pay əldə etməsi çox yüksək qiymətləndirilməlidir. Çünki həmin dövr ölkənin maliyyə imkanları yox səviyyəsində idi.

287 kilometri Türkiyə, 250 km-i Gürcüstan və 443 km-i Azərbaycan ərazisində olan Bakı-Tbilisi-Ərzurum qaz kəməri (BTƏ) Xəzərin Azərbaycan sektorunda «Şahdəniz» yatağından çıxarılan qazı Gürcüstan vasitəsilə Türkiyəyə aparır. O, Bakı-Tbilisi-Ceyhan (BTC) boru kəməri marşrutu boyunca gedir və Türkiyənin qazpaylaşdırıcı sistemi ilə birləşir.

Azərbaycandan başlayan, Qərbi Avropaya qədər uzanan Avropanın ən iri infrastruktur layihəsi olan "Cənub Qaz Dəhlizi" layihəsi "Şahdəniz-2" və sonrakı 3 layihə ilə birlikdə Azərbaycanda çıxarılan qazın Avropa ölkələrinə satılması məqsədilə yaradılan nəhəng infrastukturdur. Layihə 10-dan artıq ölkədən keçməkləuzunluğu 3500 km-lik geniş bir coğrafiyanı əhatə edir. "Cənub Qaz Dəhlizi" 31 dekabr 2020-ci ildə tam istifadəyə verilmişdir.

Avropa İttifaqının Avropa Komissiyası "Cənub Qaz Dəhlizi"ni ortaq maraqlara xidmət edən əsas enerji infrastrukturu layihələri siyahısına daxil edib.

"Cənub Qaz Dəhlizi" bir-birinə zəncirvari bağlanmış, bir-birinin davamı olan, Şərqdən-Qərbə doğru üfüqi uzanan 3 boru kəmərinin ümumi Transregional adıdır ki, bunun da Şimala doğru 3 kəməri – seqmenti vardır.

Qaz boru kəmərləri və onların keçdiyi ölkələr bunlardır:

1. Cənubi Qafqaz Boru Kəməri: Azərbaycan-Gürcüstan (Türkiyə sərhəddinə qədər);

2. Trans-Anadolu Boru Kəməri (TANAP): Türkiyə boyu (Yunanistan sərhədinə qədər);

3. Trans-Adriatik Boru Kəməri (TAP): Yunanistan-Albaniya-İtaliya.

“Cənub Qaz Dəhlizi”nin şimala doğru 3 qolu və onların keçdiyi ölkələr:

1. TANAP-ın perspektiv Şimal qolu (istiqaməti): Türkiyə-Bolqarıstan- Rumıniya-Serbiya-Macarıstan-Avstriya. Uzun qolu hesab edilir.

2. TAP-ın perspektiv qərb qolu (istiqaməti): Albaniya-Monteneqro-Bosniya və Hersoqovina-Xorvatiya-Sloveniya. Dənizkənarı qısa qol hesab edilir.

3. TAP-ın perspektiv şərq qolu (istiqaməti): Yunanistan-Bolqarıstan. Ən qısa qolu hesab edilir.

2013-cü il dekabrın 17-də «Yeni əsrin yeni müqaviləsi» adlandırılan «Şahdəniz-2» layihəsi üzrə sazişin imzalanması Azərbaycan və Gürcüstan ərazisi boyunca Cənubi Qafqaz Boru Kəmərinin genişləndirilməsinə xidmət etməklə TANAP və TAP qaz boru kəmərlərinin tikintisi ilə bağlı planların reallaşdırılmasına imkan vermiş və Avropaya yeni qaz dəhlizi olmuşdur.

«Şahdəniz-2» layihəsi və 3 kəmər (birlikdə CQD) regionun və Avropanın enerji xəritəsini dəyişmişdir. Ümumi dəyəri 45 mlrd ABŞ dolları həcmində qiymətləndirilən, dünyanın indiyə qədər imzalanmış ən nəhəng enerji layihəsidir.

Cənubi Qafqaz Boru Kəməri (CQBK) Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən Şahdəniz qaz yatağından hasil edilən qazı Gürcüstana və Türkiyəyə nəql etmək üçün inşa edilmiş qaz kəməridir. Boru kəməri Bakı yaxınlığındakı Səngəçal terminalından başlayır. Bu boru kəməri Türkiyə sərhədinədək Azərbaycanda və Gürcüstanda Bakı-Tbilisi-Ceyhan (BTC) neft kəməri ilə eyni marşrutdur və Türkiyədə bu ölkənin qazpaylama sisteminə birləşdirilib.

Boru kəmərinin uzunluğu 693 km-dir, bunun 443 kilometri Azərbaycanda, 250 kilometri Gürcüstandadır. Diametri 42 düyümdür. İl ərzində CQBK-nın gündəlik orta ötürücülük gücü 13,4 mln kubmetr (təqribən 473 mln kubfut) qaz və ya gündə 81600 barel neft ekvivalentidir.

Trans-Anadolu Boru Kəməri (TANAP) – təbii qazı Türkiyənin Şərq sərhədindən Qərb sərhədinə daşıyan bir kəmərdir. Layihə Azərbaycandan başlayan genişlənmiş Cənubi Qafqaz Boru Kəmərini Avropa Birliyində bir neçə kəmərlə əlaqələndirəcək. Dəyəri 7 mlrd. ABŞ dollarıdır. Bu layihənin əsas investor Azərbaycandır. 2020-ci ildə kəmərin buraxılış qabiliyyəti ildə 15 mlrd, 2023-cü ildə 23 mlrd, 2026-cı ildə ildə isə 31 mlrd kubmetrə çatdırılacaq. İlk dövrdə TANAP kəməri ilə nəql olunacaq 16 mlrd kubmetr Azərbaycan qazının 10 mlrd kubmetri Avropaya, 6 mlrd kubmetri isə Türkiyəyə satılacaq.

13 fevral 2013-cü ildə Afinada Yunanıstan, İtaliya və Albaniya Transadriatik qaz kəmərinin (Trans Adriatic Pipeline, TAP) tikintisinə dair hökumətlərarası saziş imzalanmışdır. TAP boru kəməri layihəsi «Şahdəniz» yatağının (ehtiyatı 1,2 trln $m^3$) işlənməsinin "Mərhələ-2" layihəsi çərçivəsində Azərbaycan qazını Avropaya çatdırır. TAP Yunanıstan ərazisi ilə 478 km – Komotini şəhərindən şimal-şərqə uzanır, Albaniyanı keçib (209 km) Adriatik dənizinin dibi ilə (105 km) İtaliyanın cənubunda Brindizi limanına çatır. Layihənin səhmdarları "Axpo" (42,5%), "Statoil" (42,5%) və "E.ON Ruhrgas" (15%) şirkətləridir.

2013-cü il dekabrın 17-də müstəqil Azərbaycanın tarixində ikinci bir mühüm hadisə olmuş, öz miqyasına və əhəmiyyətinə görə "Yeni əsrin yeni müqaviləsi" adlandırılan "Şahdəniz-2" layihəsi üzrə saziş imzalanmışdır. Bununla da Azərbaycan Cənubi Qafqazın lider dövləti olduğunu bir daha təsdiqləmiş və ölkənin gələcək inkişafı üçün irəliyə doğru çox mühüm addım atmışdır.

Qeyd edək ki, gələcəkdə Azərbaycanda orta neft hasilatının 45-50 mln t, qaz hasilatının isə 30-40 mlrd kubmetr olacağı nəzərdə tutulur. Bu isə regionun və Avropa İttifaqı

ölkələrinin enerji təhlükəsizliyinin qorunmasında Azərbaycanın rolunun daha da artacağını göstərir.

2007-ci il noyabrın 21-də Gürcüstanın Marabda kəndində Bakı-Tbilisi-Qars dəmiryolu xəttinin tikintisinin təməli qoyulub. BTQ Azərbaycan üçün həm siyasi, həm iqtisadi, həm də strateji baxımdan böyük əhəmiyyət daşıyır. Bu dəmiryolu vasitəsilə Azərbaycan beynəlxalq nəqliyyat dəhlizlərinə və Türkiyəyə birbaşa daxil olub (cədvəl 15.16-ya bax).

**Cədvəl 15.16**

**Bakı-Tbilisi-Qars (BTQ) dəmiryolunun əsas göstəriciləri**

| **Marşrut** | **Uzunluğu, km** | **Dəyəri, mlrd dollar** | **Buraxılış qaviliyyəti, mln t** | **Tikintiyə başlanılıb** | **İstifadəyə verilirb** |
|---|---|---|---|---|---|
| Bakı-Tbilisi-Qars | 826<br>Azərbaycan – 503<br>Gürcüstan – 244<br>Türkiyə – 78 | 1,5 (layihədə) | 30 (tam gücü ilə işləyəndə) | 2007 | 2017 |

Bakı-Tbilisi-Qars dəmiryolu Böyük İpək Yolunun əsas halqasıdır. Uzaq Şərqi – Çini, Qərbi Avropa – İspaniya ilə dəmiryolu xətti birləşdirir. 7 fevral 2007-ci ildə üç dövlətin – Azərbaycan, Gürcüstan və Türkiyə rəhbərləri tərəfindən bu beynəlxalq layihə imzalanmışdır.

Bu dəmiryolu xətti üzrə beynəlxalq layihənin həyata keçirilməsi və Bosfor boğazında dəmiryolu tunelinin inşası, Trans-Avropa və Trans-Asiya dəmiryolu şəbəkələrinin birləşdirilməsini, yük və sərnişinlərin birbaşa Azərbaycan, Gürcüstan və Türkiyə ərazilərindən keçməklə Avropa və Asiyaya çıxarılmasını təmin etməklə yanaşı, region ölkələrinin tranzit potensialının artmasına, Avropaya inteqrasiya proseslərinin sürətlənməsinə, Avropa Qonşuluq Siyasəti çərçivəsində əməkdaşlığın daha da inkişafına, Azərbaycanın dövlət müstəqilliyi və suverenliyinin möhkəm- lənməsinə, habelə ölkəmizin xarici iqtisadi əlaqələrinin genişlənməsinə xidmət edəcəkdir. Bu layihənin həyata keçirilməsi iqtisadi səmərəlilik, sürət, vaxt tezliyi, təhlükəsizlik və etibarlıq baxımından böyük əhəmiyyət kəsb edir.

2015-ci ildən Avropa və Asiya ölkələrinə məxsus yüklərin bu dəmiryoluna cəlb edilməsi hər iki istiqamətdə konteyner daşımalarının həcmini də artıracaqdır. Beləliklə, Şərqin son dəmiryolu stansiyası ilə Qərbin son dəmiryolu stansiyaları birləşmişdir. Artiq Qədim Böyük İpək Yolu - karvan yolu, Müasir Böyük Dəmiryoluna çevrilmişdir.

Nəşriyyatın müdiri: *K.Hüseynov*

Korrektor: *S.Manafova, S.Səmimi*

Kompüter operatoru: *T.Baxşəliyeva*

Dizayner: *V.İbrahimov*

Azərbaycan Respublikasının Əməkdar müəllimi,
iqtisad elmləri namizədi, dosent
**Müzəffər Məmmədov,**

iqtisad elmləri üzrə fəlsəfə doktoru
**Aytac Hacıyeva**

**Dünya iqtisadiyyatı**

***(Ali məktəblərdə distant təhsil üçün dərs vəsaiti)***

*Çapa imzalanıb 26.05.2023. Kağız formatı 60x84/8*
*Həcmi 45ç.v. Sifariş 82. Sayı 100*

*"İiqtisad Universiteti " Nəşriyyatı.*
*AZ 1001, Bakı, İstiqlaliyyət küçəsi, 6*